*Anar İsayev   Ramil Rəhimov*

# T A R İ X




***Abituriyentlər üçün hazırlıq vəsaiti***
***Kurikulum dərslikləri əsasında hazırlanmışdır***

## ÖN SÖZ

Kurikulum əsasında yazılmış Tarixi fənni üzrə interaktiv dərs vəsaiti şagirdlərə təlim materiallarını elmi-metodik cəhətdən mənimsəməyə kömək məqsədi ilə hazırlanmışdır. Doğrudur, kurikulum əsasında yazılmış dərslikləri oxuduqda tarixi hadisələri bəzən basa düşmək olmur, hadisələr arasında rabitə əlaqəsi itir, bu isə şagirdlərdə tarix fənninə olan marağı azaldır. Bu vəsaiti oxuduqdan sonra isə onlar tarixin nə qədər asan və maraqlı bir fənn olduğunu görəcəklər.

Tarixi fənni üzrə interaktiv dərs vəsaitinin hazırlanması zamanı orta məktəb dərsliklərinin tam məzmunu nəzərə alınmış və dərsliklərin mətnində heç bir ixtisar aparılmamışdır. Vəsait hazırlanarkən qabaqcıl təcrübə öyrənilərək ümumiləşdirilmş, təcrübədə tətbiq olunan müasir metodika və texnologiyalardan, üsul və vasitələrdən, xüsusilə testləşdirmədən geniş istifadə edilmiş, Test Banklarından, tarix fənni üzrə məktəb dərsliklərindən, audiovizual tədris vəsaitlərindən geniş istifadə olunmuş, TQDK tərəfindən təsdiq olunmuş proqramda nəzərdə tutulmuş mövzular daha çox diqqət mərkəzində saxlanılmışdır.

Məktəblilərin tarixi bilik, bacarıq və vərdişlərinin formalaşdırılması bir biri ilə bağlı olan bir neçə mərhələdən ibarətdir. Bu mərhələlərin ən əsası şagirdlərə biliyin mənimsədilməsi prosesidir. Biliyin tam mənimsədilməsi üçün əsas vasitə isə dərslikdir. Dərsliyin didaktik baxımından nə qədər yaxsı işlənməsi şagirdlərə biliyin mənimsədilməsinə çox kömək edir. Odur ki, şagirdlərdə nəzərdə tutulmuş bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün vəsaitdə tarixi hadisələr, səbəb-nəticə əlaqələri aydın şərh edilmiş, əsas diqqət faktların təhlilinə, onlar arasında oxşar və fərqli cəhətlərə yönəldilmişdir. Bu da şagirdlərdə motivasiya yaradır, düşünülmüş şəkildə şüurlu mənimsəmə və diqqətlə öyrənməyə imkan verir, passiv öyrənməni tamamilə aradan qaldırır. Vəsait terminlər və xronologiya ilə təchiz olunmuşdur.

# GİRİŞ

## Tarixin inkişaf mərhələləri

İnsanların necə yaşadıqlarını, onların həyatında hansı hadisələrin baş verdiyini, həyatının necə və nə üçün dəyişib indiki şəkilə düşdüyünü öyrənən elm **tarix** adlanır. Tarix elmi şərti olaraq aşağıdakı dövrlərə bölünür:

1. **Qədim dünya tarixi.** İbtidai icma quruluşu və quldarlıq dövrünü (ən qədim insanların yaranmasından quldarlıq quruluşunun tənəzzülü və Qərbi Roma imperiyasının süqutuna qədərki dövrü) əhatə edir.
2. **Orta əsrlər tarixi.** Feodalizm dövrünü (feodal münasibətlərin yaranmasından kapitalzmin yaranmasınadək olan dövrü) əhatə edir.
3. **Yeni tarix.** 1640-cı ildən 1918-ci ilədək olan dövrü (İngiltərə burjua inqilabının başlanmasından I Dünya müharibəsinin başa çatmasına qədərki dövrü) əhatə edir.
4. **Ən yeni tarix.** 1918-ci ildən indiki dövrə qədər olan mərhələni əhatə edir.

| ***Tarixin inkişaf mərhələləri*** | | |
|---|---|---|
| **İbtidai icma** | **Qədim dünya tarixi** | **Ən qədim dövrlərdən III-V əsrlərədək** |
| **Quldarlıq** | | |
| **Feodalizm** | **Orta əsrlər tarixi** | **III-XVII əsrlər** |
| **Kapitalizm** | **Yeni və Ən yeni tarix** | **XVII əsrin 40-cı illərindən indiyədək** |




## Tarixə köməkçi fənlər

Qədim dövrün öyrənilməsində mühüm rol oynayan fənlər aşağıdakılardı:

- **Arxeologiya -** insanların həyatını maddi mənbələr əsasında öyrənir.
- **Antropologiya** – insanın xarici görkəmini öyrənir.
- **Etnoqrafiya -** müxtəlif xalqların həyatını öyrənir.
- **Xronologiya -** tarixdə baş vermiş hadisələri zaman ardıcıllığı ilə öyrənir.
- **Paleoqrafiya** - qədim yazıları öyrənir.
- **Heraldika** - möhür, emblem və nişanları öyrənir.
- **Numuzmatika** - pulların tədqiqi ilə məşğul olur.

***QEYD:*** Arxeologiya ilə məşğul olan, qazıntı işi aparıb maddi mənbələri öyrənən alim ***arxeoloq,*** Antropologiya ilə məşğul olan, insan skletinə əsasən onu öyrənən alim isə ***antropoloq*** adlanır.

## Tarixi mənbələr

Qədim dövrlərdən başlayaraq insanların həyatını öyrənməyə imkan verən ***tarixi mənbələr*** iki qrupa bölünür:

**1. Maddi mənbələr**. Maddi mənbələrə maddi mədəniyyət abidələri (***qədim yaşayış məskənləri, qəbir abidələri və arxeoloji qazıntılar zamanı əldə edilmiş əmək alətləri, məişət əşyaları, silahlar, bəzək əşyaları*** və.s) aiddir. Bu abidələr qədim övrü öyrənmək üçün ən çox əhəmiyyətli tarixi mənbələrdir.

**2. Yazılı mənbələr**. Yazılı mənbələrə ***müxtəlif dövrlərə aid heroqlif, mixi kitabələr*** və.s yazılı abidələr aiddir. Qədim insanlar ilk vaxtlar yazını daşlar, sümük və gil lövhələr, papirus üzərində yazırdılar. Yazı ***dövlətin yaranması ilə*** eyni vaxtda meydana gəlmişdi. Ən qədim yazılar **e.ə IV minilliyin ikinci yarısına** aiddir.

### Əsr, yüzillik və minillik

Gün, ay, il, əsr zaman ölçüləridir. Tarix 1000, 100, 50, 25 illərə bölünür. 100 il = 1 əsrə, 50 il = yarım əsrə, 25 il = 1 rübə (qərinəyə) bərabərdir. Tarixi hadisələrin xronoloji baxımdan ardıcıl düzülüşü ***zaman oxu*** və ya ***tarixi lent*** adlanır. Zaman oxu ilə bağlı aşağıdakıları bilmək zəruridir:

- Verilən hadisələrin hər ikisi eyni eraya aid olduqda bu hadisələri əks etdirən böyük rəqəmdən kiçik rəqəmi çıxmaq lazımdır.
- Verilən hadisələrin biri bizim eraya, digəri isə bizim eradan əvvələ aid olduqda həmin hadisələri əks etdirən rəqəmləri toplamaq lazımdır.

### Tarixi təqvimlər

Qədim insanlar həyatlarında baş verdiyi əlamətdar hadisələri ***birinci il*** adlandırırdılar. Məsələn, qədim yunanlar öz tarixlərini ***ilk Olimpiya oyunlarının başlanmasından*** (e.ə 776-cı ildən), romalılar isə ***Roma şəhərinin*** salınmasından (e.ə 753-cü ildə) hesablayırdılar. Hazırda dünyada aşağıdakı iki təqvimdən geniş istifadə olunur:

- **Miladi təqvimi**. ***İsa peyğəmbərin anadan olması*** bizim era ***(b.e)*** və ya xristian erasının (miladi təqviminin) başlanğıcı hesab olunur. Birinci ildən əvvəl olan dövr isə ***bizim eradan əvvəl (b.e.ə)*** adlanır. Dünya xalqlarının əksəriyyətinin qəbul etdiyi miladi təqvimində il 365 gün, 6 saatdır. Hər 4 ildən bir il 1 gün uzanır.
- **Hicri təqvimi**. **E.ə 622-ci ildə** ***Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçməsi*** hicri eranın başlanğıcı hesab olunur. Hicri tarixində zaman ölçüsü olaraq ***Ay ilindən*** istifadə edilir. Ay ilinin bir ayı 29,5 gündür. Bir ay ili isə 354 gündən ibarətdir. Lakin Ay ili günəş ilindən fərqli olaraq 11 gün qısadır. Hicri təqvimindən əsasən ***İslam ölkələrində*** istifadə olunur. İranda ***Günəş hicri təqvimindən*** istifadə olunur. Bu təqvimdə il 365 gün olur.

Qədim Misir kahinləri ***günəş ili hesablamasına*** əsaslanan təqvim yaratmışdılar. Roma imperatoru **Yuli Sezar** isə bu təqvimi daha da təkmilləşdirmişdi.

Miladi təqvimindən Hicri təqviminə keçmək üçün aşağıdakı düsturdan istifadə olunur:

$$\text{Hicri qəməri il} - \frac{\text{hicri qəməri il}}{33} + 622 = \text{müasir təqvim ili}$$

**Məsələn:** $1420 - \frac{1420}{33} + 622 = 1999.$

**Miladi təqvim ilini hicri təqvim ilinə çevirmək üçün formul**

$$\text{Müasir təqvim ili} - 622 + \frac{\text{müasir təqvim ili} - 622}{32} = \text{hicri qəməri il}$$

**Məsələn:** $2000 - 622 + \frac{2000 - 622}{32} = 1421$

Hicri günəş təqvim ilini miladi təqvim ilinə çevirmək üçün formul

Hicri günəş ili + 622 (yaxud 621)[1] = müasir təqvim ili
Məsələn: 1342+621=1963
yaxud: 1342+622=1464

# QƏDİM DÖVR

## İbtidai icma quruluşu

### Ən qədim insan izləri

Yer üzərində ən qədim insanların izləri ***Şərqi Afrika*** və ***Asiyada*** aşkar olunmuşdur. Alimlər Daş dövründə yaşamış qədim ***insan skeletinin qalıqlarına əsasən*** onun xarici görkəminin necə olduğunu aşağıdakı kimi müəyyən etmişlər:

- ✓ ***Qolları çox uzun olub dizlərinə çatırdı.***
- ✓ ***Yalnız sadə işlər görə bilirdilər.***
- ✓ ***Ağacların budaqlarından meyvə yığırdılar.***
- ✓ ***Torpağı ucu iti sivri daş və ağacla qazaraq meyvə kökü və s. toplayırdılar.***
- ✓ ***İlk zamanlar sürü halında («ulu icma»da) yaşayırdılar.***
- ✓ ***Sərbəst danışa bilmir, yalnız qırıq-qırıq səslərlə ünsiyyət yaradırdılar.***

Ən qədim insanların ilk əmək alətləri ***dəyənək, itiuclu ağac*** və ***sivri daşlar***, ilk məşğuliyyəti isə ***yığıcılıq*** və ***ovçuluq*** olmuşdur. Zaman keçdikcə insanlar ***daşdan*** və ***sümükdən*** əmək alətləri hazırlamışlar. Əmək aləti düzəltmək üçün daha çox ***vulkanik şüşə (dəvəgözü), çaxmaqdaşı və əhəngdaşını*** seçirdilər. Çünki bu növ daşlar ***zərbə nəticəsində asan parçalanır, iti yanları olan qəlpələr əmələ gəlirdi***.




### Odun əldə edilməsi

Hələ insanlar odla Qədim Daş dövründən - **Alt Paleolitdən** tanış idilər. İbtidai insanlar ilk zamanlar təbiətdə şimşək çaxması, meşə yanğınları, vulkan püskürməsi zamanı gördülər ki, bu hadisələr nəticəsində yaranan od onları soyuqdan, yırtıcı heyvanlardan qoruyur. İnsanlar da əsasən bu hadisələrdən istifadə edərək ocaq qalayır, onun ətrafına yığılırdılar. İnsanlar artıq odun faydasını bildikləri üçün onu sönməyə qoymurdular. ***Orta Paleolit*** **dövründə** insanlar (neandertallar) tədricən ***çaxmaqdaşını bir-birinə vurmaqla və ya quru ağac parçalarını bir-birinə sürtməklə*** süni yolla od əldə etməyi öyrəndilər.

### Qədim insanların təsərrüfat həyatı

**«Ağıllı insan»lar (*«Homo sapiens»lər*)** yeni əmək vərdişləri qazanır, əmək alətlərini təkmilləşdirirdilər. Üst Paleolit dövründə qohumluğu əsasında ***qəbilə icması*** yarandı, ***anaxaqanlığı (matriarxat)*** formalaşdı.

**Orta Daş dövründə (*Mezolitdə*) *ox və kamanın ixtirası*** insanların qidaya olan ehtiyacını təmin etdi. Onlar iri heyvanları ovlayır, balalarını isə tutub xüsusi düzəldilmiş **küzdə** saxlayır, əhliləşdirirdilər. Beləliklə, ovçuluqdan ***maldarlıq*** yaranmağa başladı. Toxumun yerə düşüb cücərdiyini görən qadınlar sonralar özləri onu yumşaltdıqları torpaq sahələrinə səpir və yenidən məhsul alırdılar. Əvvəllər taxıl əllə toplansa da sonralar insanlar sünbülü biçmək üçün yeni əmək aləti olan və əsasən ***sümükdən*** hazırlan ***oraq*** yaratdılar.

**Yeni Daş dövründə *(Neolitdə)*** qədim insanlar ***toxa əkinçiliyi*** ilə su mənbəyinə yaxın olan münbit torpaqlı sahələrdə əkinçiliklə məşğul olurdular. Ən qədim ***əkinçilərin ilk məskənləri*** daha əlverişli şəraitə malik olan **Ön Asiyada** aşkar olunmuşdur. Burada ***arpa*** və ***buğda*** əkilirdi. Bu dövrdə tədricən sənətkarlığın müxtəlif sahələri meydana gəldi. İnsanlar gilin odda bişərək bərkidiyini görüb, ondan keyfiyyətli ***gil qablar*** istehsal etməyə başlamışlar. Beləliklə **dulusçuluq** meydana gəldi. Həmçinin dəri işləmə sənəti də ibtidai insanların mühüm peşəsi olmuşdur.

## Metalın kəşf olunması. Xış əkinçiliyi

İlk metal əldə olunanadək ən qədim insanlar Daş dövrünün Qədim, Orta və Yeni Daş dövrü mərhələlərini yaşamışlar. Daş dövrünü *Eneolit (Mis-daş)*, *Tunc* və *Dəmir* dövrləri əvəz etmişdir.

İlk dəfə insanlar Eneolit dövründə ***metalı*** kəşf etdilər. İnsanların tanış olduğu ilk metal ***mis*** idi. Mis ***nisbətən yumşaq metal olduğu üçün*** ondan hazırlanan alətlərdən hər yerdə istifadə etmək olmurdu. Odur ki, sonralar misə başqa qarışıqlar qatmaqla tunc alındı. Tuncdan hazırlanan alətlər mis alətlərdən ***fərqli olaraq*** daha möhkəm olurdu. İbtidai insan metaldan yalnız əmək alətləri deyil, müxtəlif məişət avadanlığı və bəzək əşyaları da hazırlaya bilirdi. **Tunc dövründə** toxa əkinçiliyi ***xış əkinçiliyi*** ilə əvəz olundu. İlk vaxtlar ***ağacdan*** hazırlanan xış ilə, ***toxadan fəqrli olaraq*** daha geniş torpaq sahələri şumlanır, daha çox məhsul yetişdirilirdi. Metal emalı və xış əkinçiliyinin yaranması ***nəticəsində:***

- ✓ İnsanların əməyi daha məhsuldar oldu. Bu ağır işlərlə kişilər məşğul olurdular. Ona görə də kişilərin nüfuzu artdı. Nəticədə anaxaqanlığı ***ataxaqanlıq (patriarxat)*** ilə əvəz olundu.
- ✓ Əkin sahələri genişləndi, mal-qaranın sayı artdı. Tədricən əkinçi və maldar tayfalar formalaşdı. Onlar öz məhsullarını bir-biri ilə mübadilə (dəyişmək) edirdilər.

**Erkən Tunc dövründə** ***birinci ictimai əmək bölgüsü*** nəticəsində əkinçilik maldarlıqdan ayrıldı. Orta Tunc dövründə isə ***ikinci ictimai əmək bölgüsü*** nəticəsində sənətkarlıq başqa istehsal sahələrindən (maldarlıq və əkinçilikdən) ayrılaraq müstəqil sahəyə çevrildi.

**Son Tunc dövründə** varlılar və kasıblar meydana gəldi. Əmək alətlərinin təkmilləşməsi ilə torpaq və mal-qara ayrı-ayrı ailələr arasında bölündü. Qəbilə icması ***qonşuluq icması*** ilə əvəz olundu. Qonşuluq icmasının üzvləri ***icmaçı kəndlilər*** adlanırdı. Sənətkarlığın inkişafı Ön Asiya, Qədim Şərq, Qafqaz, o cümlədən Azərbaycan tayfaları arasında iqtisadi-mədəni əlaqələrin yaranmasına təkan verdi. Gil qabların hazırlanmasında dulus çarxından istifadə edilirdi. Sadə qablarla yanaşı, naxışlı və boyalı qablar da hazırlanırdı. Müxtəlif parçalar toxumaq üçün sadə toxuculuq alətindən istifadə edilirdi.

***Qəbilə icması***




***Qonşuluq icması***




**İbtidai icma cəmiyyətində mühüm kəşflər**

- ***Metal emalı***
- ***Ox və Kaman***
- ***Dulusçuluq***
- ***Toxa və xış***

## Din

İbtidai insanların dini görüşləri ***təsərrüfat həyatı ilə bağlı olaraq*** formalaşırdı. Ovçular uğurlu ov üçün, əkinçilər günəşin çıxması, yağış yağması üçün fövqəltəbii qüvvələrə dua edirdilər. İnsanlar fövqəltəbii qüvvələrin bütlərini düzəldir və bu bütlərə sitayiş edirdilər. Qədim dövrün insanlarının aşağıdakı dəfn adətləri var idi:

- ✓ Vəfat ednənin içərisi çıxarılıb **mumiyalanaraq** olduğu kimi qəbrə qoyulurdu.
- ✓ Tayfa başçıları və varlı adamların qəbri üzərində **kurqanlar** qurulurdu.
- ✓ Ölülər **daş qutu** və torpaq, küp və **katakomba** qəbirlərdə dəfn edilirdi.
- ✓ Hökmdar hakimiyyətinin böyüklüyünü göstərmək üçün müxtəlif abidələr, **sərdabələr** tikilirdi.

## Tayfaların idarə olunması. Bərabərsizliyin yaranması.

İri yaşayış məskənində yerləşən bir neçə qohum qəbilənin birləşməsi nəticəsində eyni dildə danışan və eyni adət-ənənəyə malik olan **tayfalar** yarandı. Tayfanı **ağsaqqallar idarə** edirdilər. Tunc dövründə tayfa ağsaqqalları müxtəlif yollarla geniş məhsuldar torpaqlar ələ keçirərək tədricən varlanmağa başladılar. Daha sonra yaşayış yerlərinin ətrafını möhkəm qala divarları ilə hasarlayıb keşikçi dəstələri yaratdılar.

Tayfa başçıları, ağsaqqallar, hərbi rəhbərlər və kahinlər varlandıqca, **Tunc dövrünün sonu - İlk Dəmir dövründə** cəmiyyətdə ***sosial bərabərsizlik*** yarandı. Varlılar - ***əyanlar,*** kasıblar - ***icmaçı kəndlilər, qullar*** meydana gəldi. Beləliklə,

ibtidai icma quruluşu dağıldı, dövlət formalaşdı. Tayfa başçıları tədricən ***hökmdara*** çevrildi. Bəzi məsələlərin həllində onlar ağsaqqalları və hərbi başçıları toplayır, lakin son qərarı özləri çıxarırdılar.

**İbtidai icma quruluşunun süqutunu süətləndirən amillər**

- *Cəmiyyətdə sosial bərabərsizliyin yaranması*
- *Hakimiyyətin nüfuzlu şəxslərin əlində cəmləşməsi*
- *İri tayfa ittifaqlarının yaranması*

### Dövlətin əlamətləri

Yeni yaranan dövlətlər özünəməxsus xüsusiyyətlərə malik idi. Həmin xüsusiyyətlər aşağıdakılar idi:

- ✓ *Dövləti padşah adlanan hökmdar idarə edirdi.*
- ✓ *Müəyyən tarixi ərazidə formalaşırdı.*
- ✓ *Hər bir dövlət paytaxt şəhərə malik idi.*
- ✓ *Hər bir dövlət güclü orduya malik idi.*
- ✓ *Hər bir dövlət xəzinəyə malik idi.*

**Dövlətin əlamətləri**

- **Hökmdar**
- **Paytaxt**
- **Ordu**
- **Xəzinə**
- **Bayraq**

### Yazı

Dövlət yarandığı dövrdə yazı meydana gəldi. Dövlətə təsərrüfat və ticarət işləri ilə bağlı yazılı sənəd lazım idi. Bu işlə məşğul olan adamlar haqq-hesab aparırdılar. Dövlətin ərazisində yaşayan kəndliləri siyahıya alırdılar. Hər bir kəndlinin torpağı, mal-qarası, meyvə ağacı və ya borcu qeydə alınırdı. Yazını papirus, qamışdan hazırlanan lövhələr, gil lövhələr, daş, dəri və s. materiallar üzərində yazırdılar.

***İbtidai icma quruluşunun dövrləri***

| | | | |
|---|---|---|---|
| **4.** | | **Dəmir Dövrü** | E.ə. II minilliyin sonu — I minillik |
| **3.** | | **Tunc dövrü** | E.ə. IV minilliyin 2-ci yarısı — II minilliyin sonları |
| **2.** | | **Eneolit dövrü (Mis-daş dövrü)** | E.ə. VI—IV minilliyin 2-ci yarısı. Daş dövründən metal əsrinə keçid |
| **1** ↑ | | **Daş dövrü** | İlk insan tipinin yaranmasından e.ə. VI minilliyədək |
| | **a)** | **Neolit (Yeni Daş dövrü)** | E.ə. VII—VI minilliklər |
| | **b)** | **Mezolit (Orta Daş dövrü)** | E.ə. XII—VIII minilliklər |
| | **c)** | **Paleolit (Qədim Daş dövrü)** ***Üst Paleolit*** ***Orta Paleolit*** ***Alt Paleolit*** | İlk insan tipinin yaranmasından e.ə. XII minilliyə qədər davam etmişdir. |

# Qədim Misir




### Misirin coğrafi mövqeyi

Tarixdə ibtidai icma quruluşu dağıldıqdan sonra qədim dövlətlər yarandı. İlk dövlətlər ***Şərqdə*** yaranmışdır. Bu dövlətlərdən biri də qədim Misir dövlətidir. Misir ***Afrikanın şimal-şərqində*** yerləşir. Misirin ərazisindən Aralıq dənizinə tökülən və misirlilər tərəfindən **Böyük çay** adlanan ***Nil çayı*** axır. Coğrafi mövqeyi ticarət üçün çox əlverişli olan Misir bir çox ölkələrlə ***quru*** və ***su yolları*** vasitəsilə əlaqə saxlayırdı. Dağlıq ərazidən müxtəlif növ tikinti daşları və qiymətli daşlar (zümrüd, firuzə və s.) əldə edilirdi.

Misirdə sənətkarlığın ***dulusçuluq, metalişləmə, zərgərlik, toxuculuq, daşişləmə, sümükişləmə*** sahələri yaxşı inkişaf etmişdi. Misirin ticarət karvanları uzaq **Ön Asiya ölkələrinə** qədər gedirdi. Gəmiçiliyin inkişafı ticarətin daha da genişlənməsinə səbəb olmuşdu. Ticarətin inkişafında Nil çayı mühüm rol oynayırdı. Bir çox ölkələr Misiri müxtəlif sərvətlərlə təmin edirdi:

- **Nubiyadan** qızıl gətirilirdi.
- **Suriya** və **Fələstindən** mis gətirilirdi.
- **Efiopiya** və **Finikiyadan** tikinti üçün ağac gətirilirdi.

### Nil daşqınları

Nil çayı ***ildə bir dəfə*** daşaraq öz məcrasından çıxırdı. Çay sularının gətirdiyi mineral maddələrlə zəngin olan lil vadidə çöküntü təbəqəsi yaradırdı. Nilin gətirdiyi lilli qara torpaq asanlıqla şumlanırdı. Qədim dövrdə Misir ***Qara torpaq*** adlanırdı. Misirin Qara torpaq adlandırılmasının səbəbi ***Nil vadisindəki torpağın münbit və məhsuldar olması*** idi. Vadidə əhalinin məskunlaşdığı məntəqələri və əkilən torpaq sahələrini daşqından qorumaq məqsədilə Nil sahili boyunca **damba** deyilən bəndlər tikilirdi. Bəndlər təpə formasında olur və doğranmış qamış qatılan gildən qurulurdu.



*Şaduf*

Misirdə süni suvarma inkişaf etmişdi. Hündürdə yerləşən tarlalara, bağlara su vermək üçün **şadufdan** istifadə olunurdu. Nil vadisində müxtəlif növ bitkilər bitirdi. Bunlardan ən əhəmiyyətlisi ***papirus*** qamışı idi. Qədim misirlilər papirus qamışından kiçik lövhələr kəsir və bu lövhələrin üzərinə ***yazı*** yazırdılar.

### Qədim Misirdə nomların meydana gəlməsi

Nil vadisində əkinçi və maldar tayfalar məskunlaşmışdı. Həmin tayfalar öz aralarında birləşərək ayrı-ayrı təşkilatlar yaradırdılar. Bu təşkilatlar «**nom**» ( yunanca ***vilayət*** deməkdir) adlanırdı. İlk vaxtlar nomların sayı çox idi. Hər bir nomun öz hökmdarı, özünəməxsus dini və tanrıları var idi. Nomların mərkəzi müdafiə divarları ilə əhatə olunurdu. Nomların mərkəzində ***hökmdara, əyanlara məxsus saraylar, baş tanrının məbədi*** yerləşirdi.

### Qədim Misirdə vahid dövlətin yaranması

Nomlar arasında daim rəqabət gedirdi. Hər bir nomun hökmdarı istəyirdi ki, zəif nomları özünə tabe etsin. Nomlar birləşdikcə onların sayı azaldı. Nəticədə **e.ə. IV minilliyin 2-ci yarısında** iki müstəqil padşahlıq - **Yuxarı Misir** və **Aşağı Misir** dövləti yarandı. Bu iki padşahlıq arasında uzun müddət ***vahid Misir dövləti yaratmaq uğrunda mübarizə*** getmişdi. **E.ə. IV minilliyin sonunda** Yuxarı Misir ilə Aşağı Misir padşahları arasında müharibə ***nəticəsində:***

- ✓ **İqtisadi cəhətdən güclü olan Yuxarı Misir qalib gəldi**.
- ✓ **Yuxarı və Aşağı Misir birləşdirildi**.
- ✓ **Qədim Misirin vahid dövlətdə birləşdirilməsi başa çatdı**.
- ✓ **Vahid Misir dövləti yarandı**.

Qədim Misir dövlətinin ilk paytaxtı Memfis, **e.ə. II minillikdə** isə **Fiv (Fiva)** şəhəri olmuşdur.

## Qədim Misir dövlətinin idarəetmə sistemi və ordu

Qədim Misir dövlətinin hökmdarı **firon** adlanırdı. Ölkədə aparılan ***bütün hərbi, dini və inşaat tədbirləri*** fironun adından həyata keçirilirdi. Misirdə ali məmur və fironun ən yaxın köməkçisi **çati** hesab olunurdu. Firon çati vəzifəsinə adətən, ***öz övladlarını*** təyin edirdi. Çatinin səlahiyyətlərinə aşağıdakı məsələlər daxil idi:

- ✓ *Təsərrüfat və məhkəmə orqanlarını idarə edirdi.*
- ✓ *Firon dəftəxanasına və dövlət xəzinəsinə nəzarət edirdi.*




Bütövlükdə fironun əlində olan **Hərbi idarənin** başında **hərbi rəis** dururdu. Misirdə ordunun əsasını ***piyada qoşun*** təşkil edirdi. Döyüşçülər ***ox, yay*** və ***qısa xəncər*** ilə silahlanırdılar.

Qədim Misir dövlətində dini idarələrə başçılıq edən **kahinlər** çox böyük nüfuza malik idilər**.** Kahinlər:

- ✓ *Fironu müqəddəsləşdirərək ona sitayiş edir, onu yer üzünün tanrısı, «Günəş oğlu» adlandırırdılar.*
- ✓ *Əhalini fironu yer üzünün yeganə allahı olmasına inandırmağa çalışırdılar.*

## Misirdə sosial qruplar

Qədim Misirdə əhali ***üç sosial qrupa (təbəqəyə)*** bölünürdü:

- ➢ **I təbəqəyə** varlı əyanlar, kahinlər, varlı icma üzvləri daxil idi.
- ➢ **II təbəqəyə** azad icma üzvləri (əkinçilər, maldarlar və sənətkarlar) daxil idi.
- ➢ **III təbəqəyə** istismar olunan təbəqə, əsasən qullar daxil idi.




Birinci və ikinci təbəqəyə daxil olan adamlar ***azad insanlar*** idi. İcmanın üzvü olan xırda əkinçilər və maldarlar "***kiçiklər"*** adlanırdı.

Misirdə üçüncü təbəqə hesab olunan qulların əsas mənbəyi ***müharibələr*** idi. ***Müharibə zamanı tutulan əsirlər*** kölə - ***qul*** halına salınırdı. Misirlilər qulları «***canlı ölülər***» adlandırırdılar. Qulun sahibi onu döyə, sata və hətta öldürə bilərdi. Qədim Misirdə qul əməyindən əsasən aşağıdakı sahələrdə istifadə olunurdu:

- ✓ ***Dövlət və məbəd təsərrüfatında.***
- ✓ ***Zadəganların malikanələrində.***

## Fironların hərbi yürüşləri

**E.ə II minilliyin əvvəllərində** firon **I Tutmos** hakimiyyətə gəldiyi zamandan başlayaraq Misir işğalçılıq müharibələrini genişləndirməyə başladı. I Tutmosun hakimiyyəti dövründə:

- ✓ Misir ***işğalçılıq müharibələrini*** genişləndirdi.
- ✓ **Şərqi Aralıq dənizi ölkələrinə** uğurlu hərbi yürüşlər təşkil edildi.

I Tutmosun Şərqi Aralıq dənizi ölkələrinə uğurlu yürüşləri nəticəsində Misirin ərazisi **Fərat çayına** qədər çatdı.

I Tutmosun nəvəsi **III Tutmosun (1504-1450)** hakimiyyəti dövründə Misirin siyasi hakimiyyəti altında olan **Ön Asiya ölkələri** firona tabe olan ***canişinlər tərəfindən*** idarə edilirdi.

Firon **II Ramzes (1301-1235)** hakimiyyətə gələn zaman Misirin Ön Asiyada nüfuzu zəifləmiş, Fələstin, Finikiya və Suriya Misirin itaətindən çıxmışdı. Lakin II Ramzesin hakimiyyəti dövründə:

- ✓ Misirin yenidən geniş işğalçı yürüşləri başlandı.
- ✓ **E.ə. XIII əsrin əvvəllərində** II Ramzes ***het tayfalarını*** məğlub edərək onlarla sülh bağladı.
- ✓ **Fələstin, Finikiya** və **Suriyanın cənubu** yenidən Misirin hakimiyyəti altına düşdü.

Beləliklə, II Ramzes III Tutmos kimi işğalçı müharibələr apararaq Fələstini, Finikiyanı və Suriyanı Misirə tabe etdi. Lakin II Ramzesin vəfatından sonra Misirin mövqeyi **Ön Asiyada** zəiflədi.

II Ramzes 66 il fironluq etdiyi dövrdə Misirdə aşağıdakı ***quruculuq işləri*** həyata keçirdi:

- ✓ Yeni şəhərlər saldırdı, Misir və Nubiyada böyük sərdabələr, saraylar və məbədlər tikdirdi.
- ✓ Nubiyadakı məbəddə 24 metrlik heykəli ucaldıldı.

I Tutmosla II Ramzesin ümumi cəhətləri

- Misir işğalçılıq müharibələri apardı
- Şərqi Aralıq dənizi ölkələrinə uğurlu yürüş edildi
- Fələsti, Finikiya və Suriya Misirə tabe edildi
- Misirin sərhədləri xeyli genişləndi



*Firon II Ramzes.  Firon II Ramzesin Nubiyadakı məbəddə 24 metrlik heykəli*

### Qədim Misirsdə din

Qədim misirlilər ***çoxtanrılı*** dinə (**Günəşə, Aya, Nil çayına**, heyvanlara və müxtəlif əşyalara) sitayiş edirdilər.  Qədim misirlilərin iki əsas tanrısını qeyd etmək olar:

- **Amon** - Misirin baş tanrısı idi, tanrıların hökmdarı və fironun havadarı hesab edilirdi.
- **Ra** - Günəş tanrısı və dünyanın yaradıcısı hesab edilirdi.

Misirdə tanrılar quşbaşlı, heyvan və insan görkəmində təsvir olunurdu.  Misirlilərə görə, ölüm insanı məhv etmir, onu başqa aləmə, axirət dünyasına aparırdı. Ona görə də dəfn zamanı ölünün yanına yemək, silah qoyurdular.  Ölünün bədənini olduğu kimi saxamaq üçün onun daxili orqanları çıxarılır,  xüsusi qablara qoyulur sonra bədənə duzlu maddələr və qətranlı məhlullar sürtərək ***mumiyalayırdılar***.

### Misir heroqlifləri

**E.ə. IV minilliyin sonunda** qədim Misirdə dövlətin yaranması ilə eyni vaxtda yazı meydana gəlmişdir. Bu, ***şəkli yazı*** idi. Sonralar Misirdə ***heroqliflər*** yaranmışdır. Heroqlif yazı növünə ***aiddir:***

- “Müqəddəs işarələr” adlandırılırdı.
- Müxtəlif anlayışlardan ibarət şəkli yazı idi.
- İşlədilən işarələrin sayı 700-750-yə çatırdı.
- Heroqlif daş, ağac, dəri və papirus üzərinə yazılırdı.
- Yazı yazmaq üçün əsas material papirus idi.
- Misirdən başqa **Mannada** və **Çində** də geniş istifadə olunmuşdu.



*Misir heroqlifləri*

### Piramidalar

Qədim Misirdə fironun şəxsiyyəti ilahiləşdirilmişdi. Ona yer üzünün tanrısı kimi sitayiş və itaət edilirdi.  Fironun ***qeyri-adi qüdrətə malik olmasını göstərmək*** üçün **piramidalar** tikilirdi. Qədim Misir piramidaları indi də qalmaqdadır.

Misirdə ***ilk piramida*** firon ***Coserə*** (60 metr hündürlüyündədi)***,  ən hündür piramida*** isə firon ***Xeopsa*** məxsusdur (hündürlüyü 147 metr olub, onun tikintisinə 2000-3000 iri həcimli daş sərf edilmişdi). Misir piramidalarının daşları yüngül əhəngdaşlarından yonulurdu. Ona görə də onları yüksəkliklərə qaldırmaq nisbətən asan idi. Piramidalarla yanaşı, burada qayadan yonulmuş 20 metr hündürlüyündə olan böyük **Sfinks** heykəli də indiyədək qalmışdır. Qədim misirlilər Sfinksi ***«dəhşətlər atası»*** adlandırırdılar.  Əvvəlki fironlardan ***fərqli olaraq*** I Tutmosun dövründən başlayaraq fironlar daha piramidada deyil, gizli qayaaltı sərdabədə dəfn olunurdular.



*Misir piramidası və Sfinks*

### Əfsanələr

Qədim misirlilərin şifahi xalq yaradıcılığında mühüm yer tutan ***əfsanələrdə*** əsasən aşağıdakı mövzular təbliğ edilirdi:

- ✓ ***qədim misirlilərin həyatından və məişətindən***.
- ✓ ***tanrı və fironların qüdrətinin sarsılmaz olduğundan***.

Qədim Misir əfsanələrindən aşağıdakıları qeyd etmək olar:

- ➢ « **Dünyanın əmələ gəlməsi haqqında əfsanə**»də Günəş tanrısı **Ra** dünyanın yaradıcısı hesab edilirdi.
- ➢ «**Osiris haqqında əfsanə**»də ***Osirisin öldürülüb yenidən dirilməsindən*** bəhs olunurdu. Əfsanədə **Osiris** qardaşı **Set** tərəfindən qəddarcasına öldürülür. Bu zaman Osirisin arvadı **İsida** və bacısı allahlardan kömək dilədilər. Onlar birlikdə Osirisi tapıb diriltdirlər. Sonra Osirisin oğlu **Qor** doğulur və Setdən atasının intiqamını alır.

### İncəsənət

Misir incəsənəti ***firon hakimiyyətinin möhkəmləndirilməsinə*** xidmət edirdi. Misirdə əzəmətli məbədlər, saraylar, piramidalar ***Tanrıların*** və ***fironların şərəfinə*** tikilir, heykəllər yaradılırdı. Məbədlərin divarında ***fironların həyatı və göstərdikləri qəhrəmanlıqlar*** təsvir olunurdu. Misirlilər qayanı çapıb ***sərdabələr*** düzəldirdilər. Bu sərdabələr çoxsaylı otaqardan ibarət olurdu. Orada tanrıları və fironları əks etdirən müxtəlif abidələr qoyurdular. Bu cəhətdən firon **Tutanhamonun sərdabəsi** öz zənginliyi ilə seçilir.



*Tutanhamona aid maska. Tuthanhamonun sərdabəsi*

### Elm

Qədim Misirdə ***astronomiya, hesab***, ***həndəsə*** və ***təbabət*** elmləri yaxşı inkişaf etmişdir. Misirlilər hesab və həndəsə sahəsində müəyyən biliklərə malik idilər. Bunu aşağıdakı faktlar da sübut edir:



*Ulduz təqvimi*

- ✓ *Dəqiq riyazi hesablamalar nəticəsində piramidalar tikməyi bilirdilər.*
- ✓ *Onluq hesablama sistemindən istifadə edirdilər.*
- ✓ *1, 10, 100, 1000, 10000, 100000, 1000000 bildirən işarələr yaratmışdılar.*
- ✓ *Düzbucağın, üçbucağın, trapesiya və dairənin səthini müəyyənləşdirə bilirdilər.*

Misirlilər astronomiya sahəsində aşağıdakı bilikləri qazanmışdılar:

- ✓ *Planeti ulduzdan fərqləndirirdilər.*
- ✓ *Ulduzların xəritəsini çəkə bilirdilər.*

Qədim Misirdə təbabət elminin inkişaf etdiyini isə aşağıdakı faktlar sübut edir:

- ✓ *Sadə cərrahiyyə əməliyyatları apara bilirdilər.*
- ✓ *Diş və göz xəstəliklərinin müalicə edirdilər.*

Misirlilər ***su*** və ***günəş saatı*** ixtira etmiş, hətta dəqiq ***təqvim*** də yaratmışdılar. Misir təqviminə əsasən:

- ✓ *İl 12 aya, 365 günə, gecə və gündüzü 24 saata bölürdülər.*
- ✓ *Təqvimdə hər ay 30 gündən ibarət olsa da, ilin sonuna 5 gün əlavə edirdilər.*



# Qədim Mesopotamiya




## Mesopotamiyanın təbiəti və əhalisi

Qədimdə Dəclə və Fərat çayları arasındakı düzənlik **Mesopotamiya** adlanırdı. Mesopotamiya yunan dilində ***«İkiçayarası»*** deməkdir. Bu ərazi münbit və məhsuldar torpaqlara malik idi. Türkdilli xalq olan şumerlər **e.ə. VII-VI minilliklərdə** ***Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən*** gələrək **Mesopotamiyada** məskən salmışdılar.

## Şumer şəhər-dövlətləri

Mesopotamiyanın ***cənub hissəsi*** **Şumer ölkəsi** adlanırdı. Erkən Şumer şəhər-dövlətləri **e.ə. III minilliyin əvvəllərində** yaranmağa başladı. Bu dövrdə yaranan Şumer şəhər-dövlətləri ***Uruk, Kiş, Eredu, Laqaş, Umma, Nippur, Ur*** (Ay allahının məbədi burada yerləşirdi) şəhər dövlətləri idi.

Erkən Şumer şəhər-dövlətlərini ***«en»***si adlanan ***kahin*** idarə edirdi. ***«En»***si aşağıdakı sahələrə rəhbərlik edirdi:

- ✓ ***Şəhər-dövlətlərə və məbəd işlərinə.***
- ✓ ***Ölkənin təsərrüfat həyatına.***
- ✓ ***Suvarma kanallarının çəkilməsinə.***
- ✓ ***Hərbi işlərə.***

Tədricən Şumer şəhər-dövlətlərində ***hökmdar*** meydana gəldi. Şumer şəhər-dövlətlərində hökmdar ***«ensi»***, yaxud ***«luqal»*** adlanırdı.

## Şumer mədəniyyəti

Mesopotamiyada istifadə olunan ən qədim yazı ***şəkli yazı*** idi. Şumerlər **e.ə. III minilliyin əvvəllərində** ***mixi yazı növünü*** yaratdılar. Şumerlərdən sonra ***akkadlar, babillər*** və ***aşşurlar*** da mixi yazını mənimsədilər.

Şumer memarları əzəmətli, gözəl məbəd və saraylar tikməyi bacarırdılar. **E.ə III minillikdə** Şumer şəhər dövlətlərinin mərkəzlərində ***məbədlər*** və ***saraylar*** itikilməyə başlanıldı. Qədim Mesopotamiya memarlığında ***zikkurat formalı pilləli məbədlər*** geniş yayılmışdı. Zikkurat memarlığı:

- ✓ *Üç, beş və yeddi mərtəbəli pilləli məbədlər idi.*
- ✓ *Səma cisimlərini müşayət etmək üçün rəsədxana kimi istifadə edilirdi.*
- ✓ *Zikkuratın yuxarı pilləsində kiçik ibadətkah yerləşirdi.*

Şumer memarları inşaatda ***çiy kərpicdən*** istifadə edirdilər. Təpələr üzərində tikilən məbədlərin divarları müxtəlif təsvirlərlə bəzədilirdi. Heykəltəraşlar ***daş və mərmərdən*** fiqurlar yaradırdılar.

Şumerlər sənətkarlığın müxtəlif sahələri ilə məşğul olurdular. Onların arasında ***dulusçuluq sənəti*** və ***memarlıq*** yaxşı inkişaf etmişdi. Mesopotamiyada sənətkarlığın ***zərgərlik*** və ***silahqayırma*** sahələri də inkişaf etmişdi. Sənətkarlar daşdan və gildən güldanlar, müxtəlif daşlardan ***möhürlər*** hazırlayırdılar. Bu möhürlərin üzərində insan, heyvan şəkilləri təsvir edilirdi. Şumerdə ***dama oyununun*** ilkin nümunəsi olan oyun lövhəsi də yaradılmışdı.

Şumerlər maraqlı məzmuna malik olan əfsanələr, rəvayətlər yaratmışlar. Bu rəvayətlərdə ***dünyanın və insanın yaranmasından, eləcə də tanrılardan*** bəhs olunur.

**Qədim Mesopotamiya**

| Erkən Şumer şəhər dövlətləri yarandı | Mixi yazı növü ixtira edildi | Gil qablar düzəldilirdi | Zikkurat tipli məbədlər tikilirdi | Heykəltaraşlıq inkişaf etmişdi |
|---|---|---|---|---|

**E.ə III minillik**







*Dama oyunu.* *Zikkurat (müasir şəkili* *Ur şəhərində Ay allahının məbədi*

## Qədim Babil dövləti

### Babil dövlətinin meydana gəlməsi

Babil şəhər-dövləti **e.ə. II minilliyin əvvəlində** Mesopotamiyada yaranmışdı. Dövlətin paytaxtı **Babil** şəhəri olmuşdur. Rəvayətə görə bir hökmdar bu şəhərin ətrafındakı əraziləri birləşdirərək dövlət yaratmışdı. Buna görə də yeni dövləti Babil adlandırırdılar. Babil şəhəri:

- ✓ Dəclə və Fərat çaylarının bir-birinə yaxınlaşdığı yerdə salınmışdı.
- ✓ Əvvəlcə kiçik yaşayış məskəni olmuş, sonralar böyük şəhərə çevrilmişdi.
- ✓ Yunanlar onu ***Vavilion***, akkadlar isə **Babili (Tanrının qapısı)** adlandırırdılar.
- ✓ Su və karvan yollarının birləşdiyi ərazidə yerləşməsi onu ticarət mərkəzinə çevirmişdi.




### Hammurapi qanunları

Qədim Babil dövlətinin ən qüdrətli hökmdarı **Hammurapi (e.ə. 1792-1750)** olmuşdur. Hammurapinin hakimiyyəti illərində:

- ✓ Kanalların və yolların çəkilməsi genişləndi.
- ✓ Yeni binaların tikilməsinə diqqət artırıldı.
- ✓ Əkin sahələri və bağçılıq genişləndi.
- ✓ Sənətkarlıq və ticarətin inkişafına diqqət yetirildi.
- ✓ Bütün ölkə üçün ***vahid qanunlar külliyyatı*** tərtib edildi.

Hammurapinin qanunlar külliyyatı qara **bazalt** daş üzərinə həkk olunmuşdu. **282 maddədən** ibarət olan qanunlar külliyyatı ***mixi yazı ilə*** yazılmışdır. Hammurapi qanunlarına ***aiddir:***

- ✓ Qanunlarda ***borc və faiz, ticarət, torpaq, cinayət*** və s. aid maddələr var idi.
- ✓ Qanunlarında Qədim Babildə ***quldarlar, qullar, azad adamlar və hərbçilərdən*** bəhs olunur.
- ✓ Qanunların bütün maddələri ***varlı vətəndaşların mülkiyyətini və quldarların mənafeyini*** müdafiə edirdi.
- ✓ Qanunlar qulla azad adam arasında kəskin fərq qoyurdu.
- ✓ Borcunu və faizi vaxtında ödəyə bilməyən azad adamlar ***qula*** çevrilirdi.
- ✓ Qanuna görə, qul övladları anadangəlmə kölə hesab edilirdi.
- ✓ Valideynlərindən biri azad olan övlad azad adam hesab olunurdu.




*Hammurapinin qanunları*

- ✓ Qulun ailə üzvləri və əmlakı ağaya məxsus idi.

Misirdə olduğu kimi Babil şəhər dövlətində də qulların vəziyyəti çox ağır idi. Qulları alıb satırdılar. Qul əşya hesab olunurdu. Qulların sayı ***dövlət*** və ***məbəd təsərrüfatında*** daha çox idi. Qullar heyvan kimi damğalanırdı. Hammurapi qanunlarına görə, öz sahibindən qaçan qulu tutub ağasına qaytaran adama hədiyyə verirdilər. Qaçan qulu gizlədən adam isə ağır cəzaya məhkum edilirdi.

***Hökmdar Hammurapinin qanunlarından***

*«Mən, Hammurapi, tanrılar tərəfindən qoyulmuş başçı, Fərat çayı ətrafındakı kəndləri tabe edən şahların ən birincisi, ölkəyə haqq və ədalət gətirdim. Əgər bir adam məbədin və ya şahın əmlakını oğurlayarsa, o öldürülməlidir. Əgər bir adam qaçmış qulu gizlədərsə, o öldürülməlidir. Əgər kimsə qulun damğasını kəsib götürərsə, onun barmaqları kəsilməlidir. Əgər bir adam başqasının qulunu öldürərsə, bunun əvəzində öz qulunu ona verməlidir. Əgər bir adam başqasının öküzünü öldürərsə, bunun əvəzinə öz öküzünü ona verməlidir. Əgər bir adamın borcu varsa, onun arvadı, oğlu və ya qızı 3 il müddətinə qul olmalıdır, dördüncü il onlar azad edilməlidir. Əgər bir adam özünə bərabər bir adamın üzünə şillə vurarsa, cərimə verməlidir. Əgər bir adam özündən artıq bir adamın (yəni əyanın, kahinin) üzünə şillə vurarsa, o, öküz gönündən hazırlanmış qamçı ilə 60 dəfə qamçılanmalıdır. Mən, Hammurapi, ədalətli padşaham, bu qanunları mənə Günəş tanrısı bağışlamışdır.*

## Babil mədəniyyəti

Qədim Babil mədəniyyəti ***arxeoloji mənbələr*** əsasında öyrənilmişdir. Arxeoloqların aşkar etdiyi ***qədim qala divarları, məbədlər, sarayların qalıqları*** və ***gil lövhələr*** Babildə memarlığın inkişaf etdiyini sübut edir. Alimlər gil lövhələr üzərində, mixi yazılarında əks olunmuş əfsanələri, salnamələri, qanunları oxumuşlar. Babillilər qədim misirlilər kimi ***təqvim*** də yaratmışdılar. ***Babil darvazası, Babil qülləsi*** və ***Semiramidanın asma bağları*** Qədim Babil mədəniyyətinin nadir inciləri hesab olunur.



*Babil darvazası*



*Babil qülləsi*



*Semiramidanın asma bağları*



# Qədim Finikiya

### Finikiyanın təbiəti. Əhalisinin məşğuliyyəti

Finikiyalılar ***Aralıq dənizinin şərq sahilində*** məskunlaşmışdılar. Ölkənin təsərrüfatında ***bağçılıq*** mühüm yer tuturdu. Kəndlilər, əsasən, üzüm, xurma və zeytun becərirdilər. Onlar üzümdən çəkdikləri şərabı və zeytun yağını qonşu ölkələrdə ***taxıla*** dəyişirdilər. Sahilboyu dağlar ***sidr*** və ***palıd meşələri*** ilə örtülmüşdü. Qiymətli tikinti materialı olan və müqəddəs hesab edilən ***sidr ağacı*** **Misirə** və başqa ölkələrə göndərilirdi. Finikiyada ***şəffaf şüşə*** icad olunmuşdu. Finikiyalıların dənizilbizi şirəsindən hazırladıqları ***tünd-qırmızı boyaq (purpur)*** qonşu ölkələrdə çox yüksək qiymətləndirilirdi. Finikiyanın adı da bu məşhur boyaqla bağlı idi. Qədim ***yunanlar*** Finikiyanı **Foinike** adlandırırdılar. Bu da ***«purpur (tünd-qırmızı boyaq) ölkəsi»*** deməkdir.



*Şüşə kuzə*

### Finikiya şəhər dövlətləri və dəniz səyyahları

Finikiyada yaşayış məskənlərinin mövqeyi olduqca əlverişli idi. Cənubi Mesopotamiyadan və Misirdən gələn yollar burada birləşirdi. Finikiyanın kiçik yaşayış məskənlərinin yerində **Tir, Sidon** və **Bibil** kimi ticarət şəhər dövlətləri yarandı. Finikiyanın ən başlıca şəhəri isə **Tir şəhəri** idi. **E.ə. II minillikdə** finikiyalılar ***ən yaxşı gəmiqayıranlar və dənizçilər*** kimi tanınırdılar. Finikiyalılar iki cür gəmilər - ***hərbi və ticarət gəmiləri*** düzəldirdilər. Hərbi gəmilərin metaldan hazırlanmış şiş burnu döyüş vaxtı düşmən gəmilərini yanlardan vurur, onları deşirdi. Dənizçilər səmt küləklərinin qovduğu gəmilərlə Aralıq dənizi boyunca üzür və **Atlantik okeanına** çıxırdılar. ***Aralıq dənizi xalqları içərisində ilk dəfə finikiyalılar açıq dənizdə üzməyə başlamışdılar.***



*Dəniz ilbizi*

Finikiya şəhərləri qala divarları ilə müdafiə olunurdu. Finikiyada torpaqlar məhsuldar idi. Sahil şəhərlərində yaşayan əhali sənətkarlıq, ticarət və dənizçiliklə məşğul olurdu. Şəhərlərdə sənətkarlar müxtəlif qablar, metal alət və məmulatlar hazırlayırdılar.



*Finikiya gəmisi*




### Finikiya koloniyaları

Yunanıstandan və başqa ölkələrdən Finikiya şəhərlərinə çoxlu tacirlər gəlirdi. Finikiya tacirləri dəniz yolu ilə ticarət aparır, **Finikiya, Misir** və **Babil** mallarını **Yunanıstanda**, yunan mallarını isə Şərqdə satırdılar. Finikiyalı dəniz quldurları sahil kəndlərini qarət edir, adamları oğurlayır sonra qul kimi satırdılar.

Finikiyalılar Aralıq dənizi sahillərində və adalarında daimi məskənlər - **koloniyalar** yaratmışdılar. **E.ə. XVI əsrdə İspaniyada, Şimali Afrikada, habelə Kipr, Siciliya, Sardiniya** adalarında Finikiya koloniyaları yaradıldı. Finikiyanın ***Tir şəhərinin əhalisi tərəfindən*** Afrikanın şimalında **Karfagen koloniyası** salındı.



**Finikiya tacirlərinin ticarət etdiyi ölkələr**

- Misir
- Yunanıstan
- Babil

### Qədim Finikiya əlifbası

Ticarət zamanı haqq-hesab aparmaq üçün savadlı olmaq zəruri idi. Heroqlif və mixi yazıları isə bu işdə çətinlik yaratdığı üçün qədim finikiyalılar ***əlifba*** tərtib etdilər. Qədim Finikiya əlifbasına ***aiddir:***

- Misir əlifbası əsasında tərtib edilmişdir.
- 22 işarə - samitdən ibarət əlifba idi.
- Sonralar yunanlar bu əlifbaya sait səsləri əlavə etdilər.
- Bu əlifba əsasında yunanlar öz əlifbalarını yaratdılar.
- Müasir əlifbalar, həmçinin yunan əlifbası da bu əlifba əsasında yarandılmışdı.




*Finikiya əlifbası*

## Qədim Assuriya

### Aşşur dövlətinin yaranması

Aşşur dövləti **e.ə II minillikdə** Babildən şimalda, ***Dəclə çayının yuxarı axarında*** yaranmışdı. **E.ə. IX-VIII əsrlərdə** Aşşur **Ön Asiyanın** ən qüdrətli dövləti oldu. Onun ilk paytaxtı baş tanrının şərəfinə **Aşşur** adlandırılmışdı. Sonralar Aşşur dövlətinin paytaxtı Dəclə sahilindəki **Ninevaya** (Nineva) şəhərinə köçürüldü. Ninevanın «***Aslanlar yuvası***», «***qan şəhəri***» adlandırırdılar.




### Aşşur işğalları

Aşşur hökmdarları güclü ordu yaratmışdılar. Aşşur ordusu ***piyada, süvari, köməkçi hərbi hissə, cəng arabası döyüşçüləri*** və ***kəşfiyyat dəstələrinə*** bölünürdü. Piyadalar ***qılınc*** və ***döyüş baltaları,*** süvarilər isə ***uzun nizə, yay-oxla*** silahlanırdılar. **E.ə. VIII-VII əsrlərdə** güclü orduya malik olan Aşşur hökmdarları **Babili, Suriyanı, Fələstini** işğal etdilər, Urartu və Misiri isə ağır məğlubiyyətə uğratdılar. Aşşur hökmdarları dəfələrlə Azərbaycanın cənub torpaqlarında yaranmış qədim Manna dövlətinin ərazisinə hərbi yürüş etmişdi. Lakin Manna Aşşur hakimiyyətinə tam tabe olmamışdır. Aşşur həm də Urartuya qarşı Manna dövlətinin müttəfiqi olmuşdur. Aşşura qarşı **Midiya** və **Babil** dövləti ittifaq yaradan zaman Manna Aşşur dövlətinə hərbi yardım etmişdi. Lakin **e.ə. 612-ci ildə** Midiya və Babil dövləti birlikdə «Aslanlar yuvası» olan paytaxt Nineva şəhərini işğal etdi. **E.ə. 605-ci ildə** isə Midiya və Babil dövləti Aşşur dövlətini süquta uğradaraq onun torpaqlarını öz aralarında bölüşdürdülər.

**E.ə VIII-VII əsrlərdə Assuriyadan asılı olmuş dövlətlər**

- Babil
- Suriya
- Fələstin
- Manna

### Aşşur mədəniyyəti

Aşşur dövləti inkişaf etmiş mədəniyyətə malik olmuşdur. Aşağıdakı sənət nümunələri Assuriya xalqının mədəniyyətini əks etdirir:

- ✓ *Bəzək əşyalarının və şirli gil qabların hazırlanması.*
- ✓ *Dünyanın ən qədim kitabxanasının burada yerləşməsi.*
- ✓ *Aşşurbinipalın Nineviya kitabxanasının yaradılması.*
- ✓ *Şah saraylarının inşası və saray divarlarında relyeflərin çəkilməsi.*

Aşşurlar gözəl ***şəhərlər*** salırdılar. Aşşur hökmdarlarının sarayında divarlar ***Aşşur ordusunun qələbələrini*** əks etdirən şəkillərlə bəzədilirdi. Aşşur memarlarının inşa etdikləri möhtəşəm saraylar, divar şəkilləri, sənətkarların hazırladıqları şirli qablar və gözəl əşyalar bu xalqın yüksək mədəniyyətini əks etdirir. Aşşur mədəniyyətinin izlərinə Azərbaycanda da rast gəlinir. Aşağıdakı faktlar Aşşur-Azərbaycan mədəni əlaqələrindən xəbər verir:

- ✓ *Naxçıvanda Aşşur tipli qalaların tikilməsi.*
- ✓ *Qarabağda Aşşur şirli qabın və Adadnirarinin adı həkk olunmuş muncuğun tapılması.*

### Aşşurbanipalın gil kitabələr kitabxanası

Aşşur hökmdarı **Aşşurbanipal** Şumer, Babil və Aşşur ədəbiyyatını çox sevirdi. Aşşurbanipal ***gil kitabələri*** toplayıb onların üzünü köçürmək haqqında əmrinə əsasən on minlərlə kitabənin üzü köçürüldü və Aşşurbanipalın sarayına gətirildi. Beləliklə, dünyanın ən qədim kitabxanalarından olan ***Nineva kitabxanası («Aşşurbanipalın kitabxanası»)*** yaradıldı. Burada Aşşur və Babil əsatirləri, dastanlar, salnamələr, müxtəlif elm sahələrinə aid kitablar toplanmışdı.



*Nineva kitabxanası*



*Gil lövhə*



*Aşşurbanipal ovda*

## Midiya dövləti

### Midiya dövlətinin yaranması

Midiya əvvəllər müasir İranın mərkəzində yerləşən xırda vilayətlərdən ibarət ərazi idi. Vilayətləri ***canişinlər*** idarə edirdilər. **E.ə. VIII əsrin sonunda** Midiyada **Deyok** adlı canişin:

- ✓ ***Dvlət yaratmağa təşəbbüs göstərdi.***
- ✓ ***Ekbatan (Həmədan) şəhərini saldıraraq oranı Midiya dövətinin paytaxtı elan etdi.***




Aşşur hökmdarları Midiyaya tez-tez hücum edir, onun vilayətlərini talayır, əhalini xərac verməyə məcbur edirdilər. Əhali isə aşşurlara qarşı müqavimət göstərirdi. Midiyalıların aşşura qarşı mübarizəsinə **Kaştariti** başçılıq edirdi. **E.ə. 672-ci ildə** Midiya tayfaları Kaştaritinin başçılığı ilə Aşşur dövlətinin əsarətindən xilas oldular və xırda vilayətləri bir mərkəzdə birləşdirərək vahid dövlət yaratdılar.

### Midiyada İskit ağalığı dövrü

**E.ə. VII əsrin 50-ci illərində** Aşşur dövləti ilə Midiya arasında yenidən toqquşmalar baş verdi. Kaştariti Aşşura yürüş etdi. Əvvəl midiyalılarla dostluq edən ***kimmer, iskit və sak tayfaları*** bu döyüşdə aşşurlara kömək etdilər. Döyüş nəticəsində ***Kaştariti həlak oldu*** və ***Midiya iskitlərin hakimiyyəti altına düşdü.***

## Kiaksarın hakimiyyəti dövrü

Midiya hökmdarı **Kiaksar** hakimiyyəti dövründə ***hərbi islahat*** keçirdi. İslahat nəticəsində:

- ✓ Midiya ordusu yenidən quruldu, ordu nizəçi və oxçu dəstələrinə bölündü.
- ✓ Süvarilər (atlılar) piyadalardan ayrıldı, güclü nizami ordu yaradıldı.

Beləliklə, güclü ordu yaradan Kiaksar hakimiyyəti dövründə:

- ✓ Midiyada iskit ağalığına son qoydu, Midiya Aşşur dövlətinə qarşı Babil hökmdarı ilə ittifaqa girərək **e.ə. 616-612-ci illərdə** Aşşur, Arbela, Kalat şəhərlərini və paytaxt Ninevanı talan etdilər.
- ✓ **E.ə. 605-ci ildə** Aşşur dövləti süquta uğradıldı. Onun torpaqları isə ***Midiya və Babil arasında*** bölüşdürüldü. Bundan sonra Midiya **Manna** və **Urartunu** işğal etdi.

## Midiya dövlətinin süqutu

Kiaksardan sonra oğlu **Astiaq** Midiya hökmdarı oldu. Qədim yunan tarixçisi **Herodot** yazırdı ki, Astiaq hakimiyyətini itirməkdən çox qorxurdu. O, bir yuxu görmüşdü. Yuxuyozanlar demişdilər ki, gələcəkdə qızından doğulacaq nəvəsi böyüyüb onu taxtdan salacaqdır. Qaydaya görə fars mənşəli şahzadə Midiya taxtına sahib ola bilməzdi. Ona görə də Astiaq qızını fars vilayətinin hakimi Əhəmənilər nəslindən olan I Kambizə ərə verdi. Rəvayətə görə, o, hətta nəvəsi Kirin öldürülməsi haqqında gizli göstəriş də vermişdi. Lakin Astiaqın güvəndiyi adamlar onun tapşırığını yerinə yetirmədilər, uşaq sağ qaldı və böyüyüb babasına qarşı çıxdı. Astiaqın sarayında getdikcə artan fars meyilli qüvvələr Kirin hakimiyyətə gəlməsinə kömək edirdilər.

Babası Astiaqa qarşı üsyan edən II Kir midiyalılara qarşı ***3 il (e.ə 553-550)*** mübarizə apardı. Mübarizə nəticəsində:

- ✓ **E.ə. 550-ci ildə** II Kir qələbə qazanaraq **Ekbatan** şəhərini tutdu, Midiya dövləti süqut etdi.
- ✓ II Kir Midiya torpaqlarını öz ərazilərinə birləşdirdi və Əhəmənilər dövlətinin əsasını qoydu.



*Astiaq və balaca Kir*



*«Avesta»dan*

## Midiyanın təsərrüfat həyatı

Midiyada əhalinin əsas məşğuliyyəti ***əkinçilik*** və ***maldarlıq*** olmuşdur. Əsas sənətkarlıq sahələri ***dulusçuluq, toxuculuq, metalişləmə*** idi. Metalişləmə sənəti daha geniş yayılmışdı. Bunun səbəbi dövlətin ərazisindən dəmir, qurğuşun, qızıl və s. metalların çıxarılması idi. Ölkə ərazisində zəngin neft yataqları var idi. **«Midiya yağı»** adlanan neftdən, əsasən, ***hərbi məqsədlər üçün*** istifadə edilirdi. Neftli parçanı oxlara bağlayıb od vuraraq düşmən üzərinə və yanğın törətmək üçün evlərin damına atırdılar.

## Midiya mədəniyyəti

Midiya tarixi və mədəniyyəti ***yazılı mənbələr*** və ***əfsanələr*** əsasında öyrənilmişdir. Midiyada memarlıq yaxşı inkişaf etmişdi. **Suz sarayları, Ekbatanı** əhatə edən yeddi cərgə divarlar, qırmızı kərpicdən tikilmiş hökmdar sarayı gözəl memarlıq nümunələridir.

Astiaqın dövründə ***zərdüştilik*** Midiyada rəsmi dövlət dini kimi qəbul olunmuşdur. Zərdüştilik **e.ə. VII əsrdə** meydana gəlmişdir. Zərdüştilik dininin müqəddəs kitabı **«Avesta»**dır. Zərdüşt təliminə görə, xeyir (Hörmüzd) ilə şər (Əhrimən), həqiqət ilə yalan arasında mübarizə gedir. Bu mübarizədə xeyir şərə, həqiqət yalana qalib gəlir.



## Əhəmənilər dövləti

### İran yaylasının qədim əhalisi

Qədimdə İran yaylasında yaşayan əhalinin tərkibi müxtəlif olmuşdur. Bu yerlərin ən qədim sakinləri ***elamlar*** idilər. Çox sonralar bu əraziyə ***ari tayfaları*** gəlmişlər. Əvvəllər **Şərqi Avropa çöllərində** yaşamış və maldarlıqla məşğul olmuş ***ari tayfaları*** **e.ə. II minilliyin sonlarında** bir hissəsi Xəzər dənizinin qərb sahilləri ilə Qafqazdan, digər hissəsi Mərkəzi Asiyadan keçərək indiki **İran ərazisində** məskunlaşmışlar. Gəlmə arilər tədricən yerli əhali ilə qarışmış və yerli əhali onların dilini qəbul etmişdir. **E.ə. VIII əsrin ikinci yarısından** başlayaraq Qərbi İranda ***irandilli tayfalar*** üstünlük təşkil etmişdir.




### Əhəmənilər dövlətinin yaranması. II Kirin işğalları

**E.ə. 550-ci ildə** II Kir öz babası Midiya hökmdarı Astiaqı taxtdan salıb hakimiyyəti ələ keçirdi. Beləliklə, Əhəmənilər dövləti yarandı. **II Kirin kakimiyyəti (e.ə 550-530)** dövründə:

- ✓ Əhəmənilər Midiyanın bütün ərazilərini işğal etdilər.
- ✓ Kiçik Asiyada Lidiya çarlığının əraziləri tutuldu.
- ✓ Misirə qədər bütün ölkələr Əhəmənilərə tabe edildi.
- ✓ Massaget tayfalarına qarşı uğursuz hərbi yürüş təşkil edildi.

**E.ə 530-cu ildə, Araz çayı sahilində döyüşdə** II Kirin qoşunları massagetlərə məğlub oldu, özü isə döyüşdə öldürüldü.



*II Kir*

### II Kambizin Misiri işğal etməsi

II Kirdən sonra hakimiyyətə gələn oğlu **II Kambiz (e.ə 530-522)** böyük ordu ilə Misirə hərəkət etdi. O, e.ə. **525-ci ildə** həlledici döyüşdə qalib gələrək Misiri özünə tabe etdi. Misir kahinləri II Kambizi ***firon*** elan etdilər. Bu yürüşdən sonra ***Əhəmənilər imperiyasının ərazisi Misirdən Hindistana, İran körfəzi və Hind okeanından Böyük Qafqaz dağlarına qədər*** çox geniş ərazini əhatə edirdi.



*II Kambiz*

### Qaumata üsyanı

II Kambiz Misirdə olarkən **e.ə. 522-ci ildə** midiyalı **maq** Qaumata (Bardi) Əhəmənilər dövlətində hakimiyyəti ələ keçirdi. Bu xəbəri eşidən II Kambiz Misirdən qayıdarkən yolda müəmmalı şəkildə öldü.

Qaumatanın yeddi aylıq hakimiyyəti dövründə:

- ✓ *Ölkədə heç bir üsyan baş vermədi.*
- ✓ *Əhəmənilər dövlətinin tərkibinə daxil olan bütün xalqlar 3 il müddətinə vergilərdən və hərbi mükəlləfiyyətlərdən azad olundu.*

### I Daranın hakimiyyəti

Qaumata sui-qəsd nəticəfində öldürüldü və I Dara (e.ə 522-486) hakimiyyətə gəldi. I Dara hakimiyəti dövründə aşağıdakı ***islahatları*** həyata keçirdi:

- ✓ *Dövləti satraplıq (canişinlik) adlanan vergi dairələrinə böldü. Bu dairələrin başçısı satrap adlanırdı. Satraplıqlar padşahın ordusuna döyüşçü, işçi qüvvəsi verməli idi.*
- ✓ *Güclü ordu və imperiya üçün vahid pul sistemi yaratdı. Pullar qızıl və gümüşdən kəsilirdi. Qızıl pullar Daranın şərəfinə «darik» adlanırdı.*



*I Dara*

# Parfiya dövləti

## Parfiya dövlətinin yaranması

Parfiya dövlətinin əsasını ***parn qəbilələri*** qoymuşdur. Bu qəbilələr ilk vaxtlar ***Xəzər dənizi ilə Amudərya çayı arasındakı ərazidə*** köçəri həyat sürürdülər. Onlar, əsasən, ***maldarlıqla*** məşğul olur və cins atlar saxlayırdılar. Sonralar isə oturaq həyata keçmiş, əkinçilik və üzümçülüklə məşğul olmuşlar.




***Makedoniyalı İsgəndərin vəfatından sonra*** onun yaratdığı imperiyanı ***sərkərdələri*** öz aralarında bölüşdürdülər. Selevk adlı sərkərdə **Suriya** və **Babili** ələ keçirdi. Sonrakı illərdə o, hakimiyyətini çox geniş ərazilərə yaydı. Lakin çox çəkmədi ki, Selevkilər dövləti zəifləməyə başladı. Selevkilər dövləti zəifləyərkən onun şərq vilayətlərində iki müstəqil dövlət – **Parfiya** və **Yunan-Baktriya** dövləti yarandı.

**E.ə. 247-ci ildə** parn tayfasının başçısı **Arşak** özünü padşah elan etdi və **Parfiya dövlətinin** əsasını qoydu. Arşak bəzi ətraf əraziləri öz dövlətinə birləşdirdi. Arşakilər sülaləsinin nümayəndəsi **I Mitridat** Selevkilər dövlətinin zəifləməsindən istifadə edib **Midiyanı** və **Mesopotamiyanı** işğal etdi.

## Parfiya Roma münasibətləri

Parfiya dövləti **II Mitridatın** hakimiyyəti illərində daha da qüvvətləndi. II Mitridat ***«şahlar şahı», «böyük»*** titullarını qəbul etmişdi. II Mitridatın dövründə Parfiya dövləti öz ərazisini ***Qərb istiqamətində*** genişləndirməkdə davam edirdi. Bu zaman Roma imperiyası da ərazisini Şərqə doğru genişləndirməyə çalışırdı. Romanın Şərqə doğru yürüşlərinə Parfiya mane olurdu. Bu səbəbdən Parfiya və Roma dövlətləri arasında toqquşma baş verdi.



*II Mitridat*

Roma dövləti **Krassın** başçılığı ilə Parfiyaya qarşı böyük ordu göndərdi. **E.ə. 53-cü ildə** Şimali Mesopotamiyada parfiyalılar Krassı ordusu ilə birlikdə məğlub etdilər. **E.ə. 38-ci ildə** olan döyüşdə isə romalılar qələbə qazandılar. Lakin iki yüz ildən çox davam edən Roma Parfiya qarşıdurmasında heç bir tərəf həlledici qələbə qazana bilmədi.

Parfiya dövləti mövcud olduğu bütün dövr ərzində qədim Azərbaycan dövlətləri **Atropatena** və **Albaniya** ilə siyasi, iqtisadi və mədəni əlaqələr saxlamış, ***Roma işğalına qarşı*** Parfiya ilə birgə mübarizə aparmışdılar.

## Parfiya dövlətinin süqutu

Çoxsaylı müharibələr Parfiya dövlətini zəiflədir, bir çox əyalət hakimləri mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Onlar arasında hakimiyyət uğrunda mübarizə güclənirdi.

**III əsrin əvvəllərində** Roma ilə Parfiya arasında uzun müddət davam edən müharibə Parfiya dövlətini zəiflətdi. Parfiya dövlətinin zəifləməsi ilə yaranmış əlverişli vəziyyətdən istifadə edən Fars vilayətinin hakimi **Ərdəşir Babəkan** Parfiya ordusunu məğlub edərək paytaxt Ktesifonu tutdu, Parfiya dövləti süqut etdi, onur ərazisi **226-cı ildə yaranan** Sasanilər dövlətinin tərkibinə qatıldı.

## Parfiya mədəniyyəti

Parfiya dövlətində şəhər mədəniyyəti, sənətkarlıq və ticarət inkişaf etmişdi. Böyük İpək yolunun üzərində yerləşən Parfiya dünya ticarətində vasitəçi rol oynamışdır. Parfiyalılar öz ərazilərindən keçən karvanların qorunmasına xüsusi fikir verir, lakin Çin tacirlərinə Roma ilə birbaşa əlaqə saxlamağa icazə vermirdilər. Parfiyanın mədəniyyətinə ***yunan mədəniyyətinin*** güclü təsiri olmuşdur. Bunu Parfiya pullarının üstündəki yunan yazıları da sübut edir.

# Qədim türklər

### Qədim türklərin ilk məskənləri

Türklərin yaşadıqları ərazilər ***şimalda*** **Sibirdən** ***cənubda*** **Himalay dağlarına,** ***şərqdə*** **Xinqan dağlarından** ***qərbdə*** **Xəzər dənizinə** və **Ural dağlarına** qədər olan torpaqları əhatə edirdi. Bu ərazilər ***Böyük Türküstan*** adlanırdı.

Qədim türklərin tarixi ***arxeoloji qazıntılar*** nəticəsində tapılan ***maddi mədəniyyət nümunələri əsasında*** öyrənilmişdir. Həmin maddi mədəniyyət nümunələri əsasında türklərin daş dövrünə aid yaşayış məskənləri tədqiq edilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində qədim türklərə aid ***Deşikdaş, Namazqan, Pazırıq*** və ***Esik abidələri*** tədqiq edilmişdir. Qədim türklərin ***tunc dövrünə aid*** yaşayış məskənlərindən biri ***Namazqan*** yaşayış məskənidir. Namazqan yaşayış məskənindən aşağıdakı maddi mədəniyyət nümunələri tapılmışdır:



*Türklərin ilk ana yurdu*

- ✓ *Möhrə evlər. metaləritmə kürələri, tunc oraqlar, ox ucları.*
- ✓ *Bəzək əşyaları, boyalı qablar, gil qadın fiqurları.*

Sibirin cənubunda və Qazaxıstan çöllərində qədim türk tayfalarına məxsus torpaq qəbirlər - ***kurqanlar*** öyrənilmişdir. İssık gölü yaxınlığında yerləşən Esikdə zəngin avadanlığı olan kurqan açılmışdır. **Esik kruqanındakı** qəbirdən **V əsrə** aid 23 hərfdən ibarət **Orxon yazısı** tapılıb oxunmuşdur.

### Qədim türk tayfalarının köçü

Türk tayfalarının təsərrüfat həyatında ***maldarlıq*** əsas yer tuturdu. Otlaq ***sahələri ələ keçirmək və yadelli basqınlarından qorunmaq üçün*** türk tayfaları yeni torpaqlara köç edirdilər. Onlar ailə və ya toplum halında öz yaşayış məskənlərini dəyişir, köçdükləri torpaqlarda hakim olurdular. Türklər ***Altaydan şərqə və cənuba köç etmiş, Ural və Volqa çaylarını keçərək qərbə yayılmışlar***. Onların bir hissəsi ***Şimali Qafqaza***, bir hissəsi isə ***Qara dəniz sahillərinə*** gəlmişdir. Şimali Qafqaza gələnlərin bir qismi Dərbənd keçidini keçərək **Azərbaycan** və **Ön Asiyaya** yayılmış, burada digər türk tayfaları ilə qaynayıb-qarışmışlar.

### Qədim Türküstan (Mərkəzi Asiya) dövlətləri

**E.ə VI-IV əsrlərdə** Mərkəzi Asiyanın qərbində **Baktriya, Parfiya, Xarəzm, Margiana** və **Soqdiana** kimi **vahə** (səhrada və ya çöldə suyu və yaşıllığı olan sahə) dövlətləri mövcud olmuşdur.

**E.ə. VI-V əsrlərdə** Mərkəzi Asiya Əhəmənilərin hücumuna məruz qaldı. Hücum nəticəsində Mərkəzi Asiya xalqları iki əsrə yaxın Əhəmənilər imperiyasının əsarətinə düşmüş və ona xərac vermişdilər.

**E.ə. IV əsrin 30-cu illərində** Makedoniyalı İsgəndərin Şərqə yürüşü nəticəsində ***Əhəmənilər imperiyası süqut etdi. Əhəmənilərin hakimiyyəti altında olan ölkələr, o cümlədən Mərkəzi Asiya ölkələri müstəqillik qazandılar***. Bu dövlətlərdən biri də **Xarəzm** idi. Xarəzm hökmdarı siyasət işlədərək oğlunun başçılığı ilə İsgəndərin yanına elçilər göndərmiş və ona müttəfiq olmağı təklif etmişdi. Lakin buna baxmayaraq, İsgəndər Səmərqəndi tutmuş və Sırdərya çayı tərəfdə istehkamlar tikdirmişdi. Mərkəzi Asiyaya ***Makedoniyalı İsgəndərin*** hücumuna məruz qalan zaman ***baktriyalılar və soqdianalılar*** İsgəndərə qarşı mübarizə apardılar. Sak tayfaları Sırdərya çayının sağ sahili boyunca toplaşaraq İsgəndərlə döyüşə hazırlaşdılar. İsgəndər bu təhlükəni aradan qaldırmaq üçün ***saklara qarşı*** yürüşə çıxdı.


*Makedoniyalı İsgəndərlə Əhəmənilər arasında döyüş (qədim təsvir)*

Bu zaman Mərkəzi Asiyada Makedoniyalı İsgəndərin hücumuna qarşı ***baktriyalılar*** və ***soqdalılar*** mübarizəyə başlayaraq ***Spitamenin*** başçılığı ilə ***üsyanı*** qaldırdılar. Qədim türklərə məxsus Soqdiana şəhəri uğrunda sərkərdə **Spitamen** ilə İsgəndərin qoşunu arasında bir neçə döyüş oldu. İsgəndər bir neçə döyüşdə qalib gəldi, Spitamen döyüş meydanında həlak oldu, Lakin İsgəndər xalqın mübarizə əzmini qıra bilmədi. Makedoniyalı İsgəndərin ölümündən sonra:

- ✓ *Yaratdığı böyük imperiya onun* ***sərkərdələri arasında*** *bölüşdürüldü.*
- ✓ *Mərkəzi Asiya* ***Selevklər dövlətin*** *tərkibinə daxil edildi.*

Selevkilərin dövründə Mərkəzi Asiyada çoxlu şəhərlər salındı. Şəhərlərin əhalisinin bir hissəsi yerli sakinlərdən, bir hissəsi isə yunanlardan ibarət idi. Lakin başqa imperiyalar kimi, Selevkilər də parçalandı. Onun yerində isə **Baktriya** və **Parfiya** dövlətləri yarandı.

**E.ə VI-IV əsrlərdə Mərkəzi Asiyada mövcud olan vahə dövlətləri**

- **Baktriya**
- **Xarəzm**
- **Soqdiana**
- **Baktriya**
- **Margiana**

### Qədim Türküstan mədəniyyəti

Qədim Türküstan mədəniyyətinə ***aiddir:***

- ✓ Əsasən ***arxeoloji məndəblər*** əsasında öyrənilmişdir.
- ✓ ***Tunc dövründə*** şəhər mədəniyyəti meydana gəlmişdi.
- ✓ Dulusçuluq, metalişləmə kimi sənət sahələri inkişaf etmişdi.
- ✓ Atropatenanın əhalisi kimi ***Zərdüşt dininə sitayiş*** etmiş, ***Günəşi, Ayı*** və ***Odu*** müqəddəs saymışdılar.
- ✓ İran, Hindistan və Yunan-Baktriya mədəniyyətinin təsirinə məruz qalmışdı (bunu tapılmış pulların arxa tərəfində yunan tanrılarının (Zevsin, Poseydonun) və qəhrəman Heraklın təsvirləri sübut edir).

## İskit dövlətləri

### Kimmer, İskit, sak tayfalarının ilk dövlət qurması




Qara dənizin şimalında və Krım yarımadasında yaşayan türk mənşəli kimmer, iskit və sak tayfaları **e.ə. VII əsrin əvvəllərində** bu ərazilərdən köç edərək **Cənubi Qafqazda** və **Ön Asiyada** məskunlaşdılar.

**E.ə. VII əsrin ortalarında** Van gölü ilə Urmiya gölü arasındakı ərazilərdə ***Kimmer-İskit-Sak padşahlığı*** yarandı. Bu dövlətin ən qüdrətli hökmdarı **Tuqdamme** olmuşdur.

Kimmer, iskit və sakların bir qismi qədim Azərbaycan torpaqlarında məskunlaşmış, ***Assuriyaya qarşı*** Manna dövləti ilə ittifaq yaratmışdılar. Kimmer, iskit və sak tayfalarının Azərbaycan torpaqlarında məskunlaşması ilə:

- ✓ **Aşşur dövlətinin** bu bölgədəki nüfuzuna böyük zərbə vuruldu.
- ✓ **Manna dövlətinin** Aşşur ilə ittifaqı pozuldu.
- ✓ Manna dövləti kimmer, iskit və sak tayfalarına arxalanaraq Aşşura qarşı çıxdılar.

Manna dövləti kimi Midiya da iskitlərlə birlikdə Assuriyaya qarşı ittifaq yaratmışdılar. Lakin Midiya-Aşşur müharibəsində iskitlər midiyalılara deyil, Aşşur dövlətinə yardım etdilər. Nəticədə Midiya iskitlərin hakimiyyəti altına düşdü. İskit tayfaları Midiyada bir müddət ağalıq etdilər. 28 ildən sonra nəhayət ki, Midiyada iskit ağalığına Kiaksar tərəfindən son qoyuldu. Həmçinin **e.ə. VI əsrin əvvələrində** Midiya hökmdarı Kiahsar Kimmer İskit Sak padşahlığını süquta uğratdı və onları Ön Asiyadan çıxartdı.



### Yeni İskit dövlətinin yaranması

**E.ə. IV əsrin ortalarında** iskitlər paytaxtı **Neapol şəhəri** olan yeni bir padşahlıq yaratdılar. Dövlətin ərazisi ***Şərqi Avropada, Don çayından Dunay çayına qədər olan*** torpaqları əhatə edirdi. İskitlər öz ərazilərini qərbə doğru genişləndirərkən Makedoniya çarı **II Filiplə** toqquşmalı oldular. **E.ə. 339-cu ildə** makedoniyalılar ilə iskitlər arasında baş verən döyüşdə İskit padşahı **Atey** həlak oldu.

Lakin 8 il sonra, **e.ə 331-ci ildə** iskitlər ölkənin qərb torpaqlarını işğal etmiş Makedoniya ordusunu məğlub etdilər. **E.ə. II əsr** İskit dövlətinin ***çiçəklənmə dövrü*** hesab olunur. Bu dövrdə qonşuluqdakı ***yunan şəhər-dövlətlərinin bir qismini*** tabe edən iskitlər həm də bu ərazilərdən keçən beynəlxalq taxıl ticarətini ələ keçirməyə çalışırdılar. ***İşğalçı müharibələr*** və ***yadelli basqınları*** nəticəsində İskit dövləti zəiflədi. **Eramızın III əsrin ikinci yarısında *qot tayfalarının*** hücumu nəticəsində İskit dövləti süqut etdi. Sağ qalan iskitlər digər türk tayfaları ilə qaynayıb qarışdılar.

### İskitlərin təsərrüfat həyatı

İskitlərin həyat tərzi və məşğuliyyəti ***yazılı mənbələr*** və ***arxeoloji materiallar*** əsasında öyrənilmişdir. İskitlər ***əkinçilik, maldarlıq*** və ***sənətkarlıqla*** məşğul olmuşlar. Əkinçi iskitlər, əsasən, ***dənli bitkilər*** becərmiş, istehsal etdikləri taxılın bir hissəsini ***yunanlara*** satmışlar. Maldar iskitlər cins atlar bəsləyirdilər. İskitlərin məskən saldığı yerlərdə ***iskit kurqanları*** öyrənilmişdir. Kurqanaltı qəbirlərdən çoxlu miqdarda ***müxtəlif sənətkarlıq məmulatları, mis, gümüş və qızıl qablar, silahlar*** tapılmışdır.

### İskit mədəniyyəti

İskitlər ***gözəl incəsənət nümunələri*** yaratmışlar. İskit abidələrindən çoxlu ***zoomorf formalı (heyvani üslublu) fiqurlar*** və ***daşdan yonulmuş kiçik insan heykəlləri*** tapılmışdır. Kimmer, iskit və sakların mədəniyyəti, dəfn adətləri, dini inamları ümumi cəhətdən bir-birinə yaxındır. İskitlər ***çoxtanrılı dinə*** etiqad edirdilər. İskitlərdə ***oda*** və ***suya*** inam geniş yayılmışdı.

Qara dəniz sahillərində yaşayan iskitlərin mədəniyyətinə ***yunan mədəniyyətinin*** böyük təsiri olmuşdur.



*İskitlərə məxsus maddi mədəniyyət nümunələri*



İskit kurqanı

***İskit dövlətləri***

| Birinci İskit dövləti | İkinci İskit dövləti |
|---|---|
| ✓ *E.ə. VII əsrin ortalarında yaranmışdı*<br>✓ *Van gölü ilə Urmiya gölü arasındakı ərazilərdə yaranmışdı*<br>✓ *Ən qüdrətli hökmdarı Tuqdamme olmuşdu*<br>✓ *Assuriyaya qarşı Manna və Midiya dövlətləri ilə ittifaq yaratmışdı*<br>✓ *Bir müddət Midiya dövlətini özündən asılı vəziyyətə salmışdı*<br>✓ *Midiya hökmdarı Kiaksar tərəfindən süquta uğradılmışdı* | ✓ *E.ə. IV əsrin ortalarında* yaranmışdı<br>✓ *Şərqi Avropada Don çayından Dunay çayına qədər ərazidə yaranmışdı*<br>✓ *Hökmdarlarından biri Atey olmuşdu*<br>✓ *Dövlətin paytaxtı Neapol şəhəri idi*<br>✓ *Makedoniya çarlığı ilə müharibə aparmışdı*<br>✓ *Bəzi yunan şəhər-dövlətlərini asılı vəziyyətə salmışdı*<br>✓ *Qot tayfalarının hücumu nəticəsində süqut etmişdi* |

# Böyük Hun dövləti




## Hunların yaşadığı ərazi və məşğuliyyəti

Türk mənşəli olan hunlar ***Orxan*** və ***Selenqa çayları arasındakı ərazidə*** yaşamış və burada ***tayfa ittifaqı*** yaratmışdılar. Hunların əsas məşğuliyyəti ***ovçuluq***, sonralar isə ***köçəri maldarlıq*** olmuşdur. Ona görə də geniş otlaq sahələrinə olan ehtiyac hunları daim yeni ərazilər ələ keçirməyə sövq edirdi.

## İlk Hun dövlətinin meydana gəlməsi

Böyük Hun dövləti ***Mərkəzi Asiyada yaranmış ilk türk dövləti*** olmuşdur. Vahid Hun dövləti **e.ə. 220-ci ildə** 21 tayfanın birləşməsindən yaranmışdır. Bu tayfa ittifaqına **Teoman tanhu** başçılıq edirdi. «**Tanhu**» sözü sonralar ***yabqu, kağan, xaqan*** şəklində işlənmişdir.

## Teoman Tanhunun hakimiyyəti



*Mete xan*

Teoman Tanhunun hakimiyyəti (e.ə. 220 - e.ə. 209) dövründə:

- ✓ Qüvvətli ordu yaradıldı.
- ✓ Hunlar Çinə hücum edərək **Çin** torpaqlarını tutdular.
- ✓ Çin imperatoru ilə qohumluq əlaqələri yaradıldı.
- ✓ Çinlilər hunlara qarşı ***Böyük Çin səddini*** inşa etməyə başladılar.

Çinlilərin inşasına **e.ə. 214-cü.ildə** başlamış Böyük Çin səddini inşa etdirməkdə məqsədi ***hunların hücumlarının qarşısını almaq*** idi.

Hunların Çin imperatoru ilə qohumluq əlaqələri yaratmasından istifadə edən çinlilər ***Hun ordusunun döyüş üsullarını*** öyrəndilər. Teoman tanhudan sonra hakimiyyətə oğlu **Mete xan** gəldi. Metenin hakimiyyəti (e.ə 209-e.ə 174) dövründə:

- ✓ İntizamlı, güclü süvari (atlı) qoşun yaradıldı.
- ✓ Hunlar Çin üzərinə hücumlarını davam etdirdilər.

***QEYD:*** Kiaksar, I Dara və Teoman tanhu kimi Mete tanhu da hakimiyyətləri dövrünə hərbi islahat keçirmiş, ordunu yenidən təşkil edərək qüvvətli ordu yaratmışdı. Bu onların fəaliyyəti dövrü üçün oxşar cəhət təşkil edir.

## Hun imperiyasının parçalanması



*Bir gün Mete xan Çin ordusu ilə qarşı qarşıya gələrkən ətrafı gözdən keçirmək üçün vəziri ilə bir təpəyə çıxdı. Bu zaman görürlər ki türk ordusu Çin ordusu qarşısında bir ovuc görsənir. Vəzir Metenin geri çəkiləcəyini zənn edərək soruşur:*

*- Nə düşünürsüz?*

*Mete xan isə vəzirə tərəf dönərək ondan soruşur:*

*- Bu qədər çinlini mən harda basdıracağam?*

*Beləliklə inamla döyüşə girən hunlar qələbə qazanırlar.*

Metedən sonra hakimiyyətə onun oğlu **Kiok (e.ə 174 – e.ə 161)** gəldi. Kiok tanhudan sonra isə Hun taxtına **Kün Tanhu** (e.ə 161 - e.ə 126) çıxdı. **E.ə. 58-ci ildə Kün tanhunun** anası əslən çinli olan oğlu **Hoxanyəh (e.ə 58 – e.ə 56)** tanhu oldu. Hoxanyəh Çin dövlətinin himayəsinə keçmək istəsə də türk qızından olan qardaşı **Çiçi** ona qarşı çıxdı və onun imperatorluğunu tanımadı.

Beləliklə, ***e.ə 58-ci ildə Hoxanyəh*** və ***Çiçi arasında toqquşmadan sonra daxili çəkismələr nəticəsində*** Böyük Hun imperatorluğu iki hissəyə parçalandı:

- ➢ **Hoxanyəhun başçılıq etdiyi Şərqi Hun dövlətinə.**
- ➢ **Çiçi xanın başçılıq etdiyi Qərbi Hun dövlətinə.**

**Çiçi tanhunun başçılığı ilə** qərb hunları **e. ə. 36-cı ildə** ***Tanrı dağlarının simalını, Mərkəzi Asiyanı*** və ***İssik gölünün ətrafını*** tutub ərazilərini qərbə tərəf genişləndirdilər. Lakin elə həmin ildə, yəni **e.ə. 36-cı ildə** çinlilər qərbi hunlar üzərinə əks hücuma keçərək:

- ➢ *Hunların Qərbi Hun dövlətinin paytaxt şəhərlərini tutdular.*
- ➢ *"İpək yolu" üzərində 50-dək şəhər qarət edilərək dağıdıldı*
- ➢ *Qərbi Hun dövlətinə son qoyuldu.*
- ➢ *Qərb hunları Ural dağlarına tərəf köçdülər*
- ➢ *Şərqi Hun dövləti çinlilərin hakimiyyətini qəbul etdilər.*

Lakin çinlilərin hakimiyyətini qəbul edən Şərq hunları Çin dövlətinin zəifləməsindən istifadə edərək 18 illik asılılıqdan sonra **(e.ə. 18-ci ildə)** yenidən müstəqillik qazandılar. Bir qədər sonra Şərqi Hun dövləti Şimal və Cənub hissələrinə parçalandı. Onların bir hissəsi qərbə köç edərək qərb hunlarına qarışdılar. Bir hissəsi isə yenə Çinə tabe oldular. Bu tayfalardan çinlilər içərisində öz varlıqlarını qoruyub saxlayanlar sonralar qüdrətli **Göytürk dövlətinin** yaradılmasında mühüm rol oynadılar. Çinlilərlə hunlar arasında müəyyən dövrlərdə ***iqtisadi*** və ***mədəni əlaqələr*** olmuşdur. Həmçinin çinlilər hunlardan ***hərb sənətinin sirlərini*** öyrənmişdilər.




### Hunların dini inanc və mədəniyyəti

Hunlarda ***çoxallahlılıq*** mövcud olmuşdur. Onlar ***ruhlara, səma, yerüstü*** və ***yeraltı allahlara*** inanırdılar. Hunların ən ulu allahı ***Günəş*** və ***Ay*** sayılırdı. Ruhlara inanan hunlara görə pis ruhlar yeraltı dünyanı idarə edən ***Yerlik tanrıya*** tabe idi. Ruhlarla insanlar arasında münasibət yaradan adam ***şaman*** adlanırdı. Hunların dəfn adətinə görə:

- ✓ Vəfat edənin qohunlarını ***qurban*** kəsirdilər.
- ✓ Dəfn zamanı vəfat etmiş şəxsin qiymətli əşyaları onun məzarına qoyulurdu.

Hun abidələrindən tapılmış maddi mədəniyyət nümunələri - ***metal əşyalar, kəmərlər, at əslahələri, üzəri heyvan rəsmləri ilə bəzədilmiş silahlar*** onların təsərrüfat həyatı haqqında qiymətli məlumat verir.



# Qədim Çin

### Çinin təbiəti və əhalisinin məşğuliyyəti

Çin, əsasən, dağlıq ölkədir. Onun ərazisindən böyük ***Xuanxe*** və ***Yantszı çayları*** axır. Xuanxe vadisində insanlar daha çox məskunlaşmışdılar. ***Xuanxe vadisində*** insanların daha çox məskunlaşmışmasının səbəbi ***vadinin torpaqlarının məhsuldar olması*** ilə bağlı idi. Xuanxe çayında güclü daşqınlar olduğundan bu çayı çinlilər ***"Çinin bəlası", "Gəzən çay"*** və ***"Min fəlakət çayı"*** adlandırırdılar. Xuanxe çayının aşağı axarında əhali ***əkinçilik, maldarlıq*** və ***sənətkarlıqla*** məşğul olurdu. Sənətkarlar ***ipək parçalar*** toxuyur, dulusçular ***ağ gildən*** zərif qablar istehsal edirdilər. **E.ə. VI əsrdə** çinlilər dəmir emal etməyi öyrəndilər.




### Çində ilk dövlətlərin yaranması

Çin ərazisində sinifli cəmiyyət və ilk dövlət **e.ə II minillikdə** ***Xuanxe çayı vadisində*** yaranmışdır. İlk Çin dövlətini **e.ə XIV** əsrdə ***Şan qəbilələri*** yaratmışdılar. Buna görə də həmin dövlət **Şan dövləti** adlanırdı.

**E.ə. IV-III əsrlərdə** Çində bir neçə müstəqil quldar dövlət mövcud idi. Bu dövlətlər arasında tez-tez uzun sürən müharibələr baş verirdi. Ona görə də Çin tarixində **e.ə IV-III əsrlər** ***"vuruşan padşahlıqlar dövrü"*** adlanır.

Çin sözü ***Sin sülaləsinin*** adı ilə bağlıdır. **E.ə III əsrdə** Sin sülaləsi Çin dövlətləri arasında gedən mübarizədə qələbə çalaraq hakimiyyətə gəldi. **E.ə. 221-ci ildə** Sin dövlətinin padşahı imperator titulunu qəbul etdi. O özünü Sin Şixuandi (Çinin birinci imperatoru) adlandırdı. **Sin sülaləsi e.ə 206 - e.ə 206-cı illərdə** hakimiyyətdə oldu.



*İlk Çin imperatoru*
*Sin Şixuandi*

İlk Sin hökmdarı **Sin Şixuandi** hakimiyyəti dövründə:

- ✓ Bütün Çin ilk dəfə olaraq ***vahid dövlətdə*** birləşdirildi.
- ✓ ***Çinin Şimalında yaşayan türk tayfaları ilə (hunlarla)*** mübarizəsi başladı.
- ✓ Hunların qarşısını almaq üçün **Böyük Çin səddinin** inşasına başlanıldı.
- ✓ Dövləti möhkəmləndirmək üçün ***inzibati islahatlar*** həyata keçirildi, islahata əsasən Çin 36 vilayətə bölündü.

Sin Şixuandi öləndən sonra əhali üsyan qaldırdı. Nəticədə, **e.ə 206-cı ildə** Sin imperiyası süqut etdi. Bundan sonra hakimiyyətə Xan sülaləsi gəldi. **Xan sülaləsinin hakimiyyəti (e.ə 206 – e. III əsr)** dövründə:

- ✓ ***Hunlarla*** mübarizə davam etdirildi.
- ✓ **Böyük İpək yolu** salındı (e.ə II əsrdə).
- ✓ Çində ***"qırmızıqaşlılar"*** və ***"sarısarıqlılar"*** üsyanı baş verdi.

**Qədim dövrdə Çində hakimiyyətdə olmuş sülalələr**

**Şan (e.ə XIV əsr)** | **Sin (e.ə 221-e.ə206)** | **Xan (e.ə 206-e.III)**

### Böyük İpək yolu

Makedoniyalı İsgəndərin Şərqə yürüşündən sonra dövlətlər və xalqlar arasında əlaqələr genişləndi və **e.ə. II əsrdə** Çindən gələn ticarət yolu dünya ticarət yollarına qoşuldu. Bu yolla Çindən Yaxın Şərq ölkələrinə və Aralıq dənizi hövzəsinə ***ipək, lak, çini*** və ***gil qablar*** gətirilirdi. Bu ticarət malları içərisində ***ipək əsas yer tutduğundan*** Çin karvan yolu **Böyük İpək yolu** adlanırdı. **E.ə II əsrdə** Böyük İpək yolu Çindən **Şimali Afrikaya** və **İspaniyaya** qədər uzanırdı.

Böyük İpək yolunun ən işlək xətlərindən biri ***Xəzər dənizinin qərb sahilləri boyunca cənubadan şimala istiqamətlənərək Azərbaycanı ərazisindən*** keçirdi. Böyük İpək yolu istiqamətində ticarətlə yanaşı Çin orduları ***qarətçi yürüşlər*** edirdilər.

### Çində xalq üsyanları

Çində kəndlilərin vəziyyəti çox ağır idi. Dözülməz vəziyyət **eramızın I** və **II əsrlərində** Çində kəndli və qulların üsyanına səbəb oldu. Bu üsyanlardan biri **eramızın I əsrinin əvvəllərində** baş verən «***Qırmızıqaşlılar***» üsyanıdır. Üsyançılar döyüşdə seçilmək məqsədi ilə ***qaşlarına qırmızı rəng çəkdikləri üçün*** üsyançılar **"Qırmızıqaşlılar"** adlandırılırdı.



*Sarısarıqlılar üsyanı*

**184-cü ildə** Çində daha böyük «**Sarısarıqlılar**» **üsyanı** baş verdi.
«**Sarısarıqlılar**» üsyanına ***aiddir:***

- ✓ Kəndlilər və qullar tərəfindən qaldırılmışdı.
- ✓ Üsyana ***Çjan qardaşları*** başçılıq edirdi.
- ✓ Üsyançılar tanınmaq üçün başlarına sarı sarıq bağlayırdılar.
- ✓ Üsyan 20 il davam etsə də çətinliklə yatırıldı.

"Sarısarıqlılar üsyanı ***nəticəsində:***

- ➢ Çin dövləti xeyli zəiflədi, Çin padşahı öldürüldü.
- ➢ Çində Xan sülaləsinin hakimiyyəti devrildi.
- ➢ Çin dövləti yenidən bir-neçə dövlətlərə parçalandı.
- ➢ Çində quldarlıq quruluşu feodalizmlə əvəz olundu.

### Qədim Çinin mədəniyyəti.




*a) Qədim Çin kompası*
*b) Müasir kompas*

**Yazı.** Qədim Çində elm, incəsənət, heykəltəraşlıq və memarlıq inkişaf etmişdi. Qədim çinlilər ***heroqlif*** yazı növündən istifadə etmişdilər. Çində də yazı dövlətin yaranması ilə eyni vaxtda meydana gəlmişdi. Mətnləri fırça ilə ***bambuk lövhələr*** üzərində, ***mühüm sənədlər*** və ***imperatorun əmrləri*** isə ***ipək parça*** üzərində yazılırdı. Çinlilərdən başqa **Qədim Misirdə** və **Mannada** da heroqlif yazıdan istifadə olunmuşdur. **E.ə II əsrdə** Çində yazı vasitəsi olan ***kağız istehsal*** olunmuşdur.

**Elm.** Qədim Çində zəngin elmi biliklər yaranmışdır. Alimlər öz əsərlərində ***çinlilərin həyat tərzini*** və ***müxtəlif nailiyyətlərini*** əks etdirmişlər. ***İlk dəfə*** Çində becərilən ***çayı*** əvvəllər ***xəstələrə dərman kimi*** verirdilər. Çinlilər il boyu təbiətdə baş verən dəyişikləri və göy cisimlərini müşahidə edərək ***dəqiq təqvim*** yaratmışdılar. İlk dəfə ***kompası*** çinlilər kəşf etmişdilər. Bu Çin dənizçiləri və səyyahlarının əldə etdiyi yeniliklərdən biri idi. Qədim dövrə aid Çin alimlərinin «**Dağlar və dənizlər haqqında kitab**»ı bizim dövrümüzə qədər gəlib çatmışdır. Coğrafiyaya aid oln bu əsər ***dənizçilərin və tacirlərin müşahidələri əsasında*** yazılmışdı.



*Konfutsi məbədi*

**Konfutsi təlimi**. Konfutsi təlimi ilk dəfə Çində **Konfutsi** tərəfindən yadarılmışdır. Konfutsi əxlaqi fikirlər irəli sürərək deyirdi: *«Qəbahətlərimizi örtmək, gizlətmək hünər deyil, hünər qəbahət etməməkdir»*. Konfutsiyə görə, kiçik böyüyə, oğul ataya, xalq padşaha tabe olmalı, böyük kiçiyin, ata oğulun, padşah isə xalqın qayğısını çəkməlidir. Çin alimləri «**Bilici**» adını almaq üçün Konfutsi təlimindən imtahan verirdilərKonfutsi təlimi insanların axirət dünyasına inamını, həm də əcdadların ruhuna olan sayğısını artırırdı.




*Qədim Çin və Misir tarixi üçün ümumi cəhətlər*



# Qədim Hindistan




### Təbiəti, əhalisi və təsərrüfatı

Hindistan yarımadası ***Asiya qitəsinin cənubunda*** yerləşir. Yarımadanın şimalında ***Himalay dağları*** ucalır. Hindistan yarımadası, əsasən, yaylalardan ibarətdir. Yayla ilə Himalay dağları arasında düzənlik yerləşir. Düzənliyin qərbində **Hind,** şərqində **Qanq** çayları axır. Hindistan ərazisi ***mis*** və ***dəmir*** yataqları ilə zəngindir.

Hindistanda **e.ə. III minilliyə** aid **Mohenco-Daro və Harappa** şəhərlərinin xarabalıqları aşkar olunmuşdur.

**E.ə. II minillikdə** köçəri ***ari tayfaları*** Hindistana gələrək burada məskunlaşdılar. Ari tayfalarının Hindistana yürüşü ***nəticəsində:***

- ✓ ***Hind xalqı yarandı.***
- ✓ ***Əhali oturaq həyata keçdi.***

Hindlilər ***əkinçiliklə*** və ***maldarlıqla*** məşğul olurdular. Onlar ***dəmir çıxarmağı*** və ***emal etməyi*** öyrənmişdilər. Burada ***taxıl, şəkər qamışı və pambıq*** yetişdirilirdi. Pambıqdan ***zərif parçalar*** toxunurdu. Hindlilər filləri əhliləşdirərək onlardan təsərrüfat işlərində və döyüşlərdə istifadə edirdilər.




### Hindistanda ilk dövlətlərin meydana gəlməsi

Hindistanda ilk dövlətlər **e.ə. I minillikdə** meydana gəlmişdir. Belə ki, e.ə. I minillikdə Hindistanda ***əmək məhsuldarlığının*** artması nəticəsində:

- ✓ *Bərabərsizlik yarandı və ilk dövlətlər meydana gəldi.*
- ✓ *Adlı-sanlı adamlar quldarlara çevrildilər.*
- ✓ *Tayfa başçıları adlanan* ***racələr*** *tədricən padşaha çevrildilər*

Bərabərsizliyin yaranmasından sonra quldarlara çevrilən adlı sanlı adamlar azad icmaçı kəndliləri və qulları istismar etməyə başladılar. Qədim Hindistanda qulları ***«yad»***, ***«düşmən»*** adlandırırdılar. Artıq **e.ə. VI-IV əsrlərdə** Hindistanın şimal-qərbində bir sıra xırda dövlətlər var idi.

**E.ə. VI əsrin sonlarında** Hindistan ***Əhəmənilər (İran) imperiyası tərəfindən*** işğal edildi və onun ***20-ci satraplığına*** qatıldı. **E.ə. IV əsrin 20-ci illərində** Makedoniyalı İskəndər ***Hindistanın şimal-qərbinə*** hücum etsə də geri çəkildi. İsgəndərin Hindistana yürüşünü ***davam etdirə bilməməsinin səbəbi*** aşağıdakı amillərlə bağlı idi:

- ✓ ***Əhalinin güclü müqavimətinə rast gəlməsi***.
- ✓ ***Əsgərlərinin yorularaq qüvvədən düşməsi***.

### Mauriya sülaləsinin hakimiyyəti (e.ə 317 – e.ə 180)

**E.ə. 317-ci ildə** Hindistanda Mauriya sülaləsindən olan padşah **Çandraqupta** Mauriya dövlətinin əsasını (e.ə 317 – e.ə 180) qoydu. **E.ə. III əsrin ikinci yarısında** padşah **Aşokanın** hakimiyyəti dövründə:

- ✓ **Bütün Hindistan ilk dəfə vahid dövlətdə birləşdirildi**.
- ✓ **Vahid Hind dövləti yaradıldı**.

***Aşokanın ölümündən sonra*** Mauriya dövləti tədricən dağıldı.



*Padşah Aşoka*

***QEYD:*** **E.ə III əsrdə** Çində Sin padşahlığı ilə Hindistanda Mauriya sülaləsinin ***ölkəni vahid dövlətdə birləşdirməsi*** və ***vahid dövlətin yaradılması*** Qədim Çin və Hindistan tarixi üçün oxşar cəhət təşkil edir.

### Hindistanda kasta quruluşu

Hindistanda bərabərsizlik onların dinində də öz əksini tapmışdı. Hindistanlılara görə **baş tanrı Brahma** ***dünyanın və insanın yaradıcısı*** hesab olunurdu. Hind kahinləri allah Brahma tərəfindən müəyyən olunmuş qaydalar tərtib etmişdilər. Guya Brahma insanları kastalara bölmüşdü. ***Qəti müəyyənləşdirilmiş irsən keçən hüquq və vəzifələri olan insan qrupu*** **kasta** ***adlanır***. Hindistanda insanlar dörd kastaya bölünürdü:




1. **Brahmanlar**. Bu kastaya ***kahinlər*** daxil idi. Brahma onları ağzından yaratmışdı və buna görə onların allah adından danışmağa ixtiyarı var idi.
2. **Döyüşçülər**. Bu kastanı Brahman öz ***əllərindən*** yaratmışdı.
3. **İcmaçı kəndlilər**. Bura ***kəndlilər***, ***sənətkarlar*** və ***tacirlər*** daxil idi. Bu kasta brahmanın ***budlarından*** yaradılmışdı.
4. **Şudralar (nökərlər)**. Bu kastanı Brahman palçıqlı ***ayaqlarından*** yaratmışdı.

İnsan ömrü boyu mənsub olduğu kastada qalırdı. Kastalardan heç birinə daxil olmayanlara **«*toxunulmaz adamlar*»** adlanırdı ki, onların özlərini və övladlarını doğulduğu gündən murdar sayırdılar. Toxunulmaz adamlar natəmiz yerləri təmizləyir, ən çirkli işləri görürdülər.

### Din. Buddizm

Qədim hindlilərin dini etiqadları və qanunları **«*Veda*» *adlı məcmuələrdə*** toplanmışdır. «Veda» qanunlarına görə qanunları pozanlar ağır cəzalandırılırdı.

Hindistanda insanların kastalara bölünməsə qarşı çıxan adamlar var idi. Onlardan biri **Siddahartha Qautama** olmuşdur. Qautamanı ***Budda*** (**«*Həqiqətlə işıqlanmış*», «*bilici*»**), təlimini isə buddizm adlandırdılar. adlandırırdılar. Beləcə yeni din, **budda dini** yarandı. Qautama Budda dininin banisi olmuşdur. Buddanın əsas məqsədi insanları yaxşılığa çağırmaq idi. Budda deyirdi: ***"Mənim etiqadım sevgi, yardım və şəfqət yoludur. Həyatın əzablarından qurtulmaq üçün insanlar nəfslərini boğmalı, xeyirxah işlər görməli və ədalətli olmalıdırlar".*** Qautamaya görə insanların cəmiyyətdəki yeri onların mənşəyi ilə deyil, əməlləri ilə müəyyən olunur.

### Qədim Hindistan mədəniyyəti

Qədim hind xalqının öz ***əlifbası*** və ***yazısı*** var idi. Onlar ***finikiya əlifbası ilə*** tanış idi.

Qədim hindlilər **«Mahabharata»** və **«Ramayana» dastanlarını** yaratmışdılar. Bu dastanlarda qədim hindlilərin ***etiqadları*** və ***dünyagörüşləri*** öz əksini tapmışdır.

Hindistanda elm yaxşı inkişaf etmişdir. Qədim hindlilər elmə aşağıdakı böyük töhfələri vermişdilər:

- ✓ *Sadə və asan hesab qaydası ixtira etmişdilər.*
- ✓ *Sıfır rəqəmi tətbiq etməklə sadə və asan hesab qaydası müəyyən etmişdilər.*
- ✓ *On rəqəmi işarəsinin köməyi ilə təklikləri, yüzlükləri və minillikləri ifadə edirdilər.*

***QEYD:*** Hindistan rəqəmlərini əvvəlcə ***ərəblər*** mənimsəmiş, sonra isə ***avropalılar*** öyrənmişdilər.

Qədim Hindistanda ***memarlıq*** və ***incəsənət*** inkişaf etmişdir. Padşah Aşokanın dövründə möhtəşəm ***sütunları olan saray*** və ***məbədlər*** inşa olunmuşdur. Daş sütunların ***yuxarısında heyvan və insan heykəlləri*** qoyulurdu. Aşoka dövründə möhtəşəm sütunların birinin üzərində ***dörd şir heykəli*** var idi. Bu təsvir indi Hindistan Respublikasının gerbidir.

**E.ə. I əsrdə** Hindistanda ***daşdan yonulmuş darvaza*** hazırlanmışdı. Bu darvazada bitki və heyvanat aləmi, hind əfsanələrinin qəhrəmanları və s. təsvir edilmişdi.

Hindistan ***şahmat oyununun*** vətəni hesab olunur. Şahmatı **«*dörd növ qoşun*»** adlandırırdılar. Şahmatın fiqurları ilk vaxtlar ***sümükdən*** düzəldilirdi.

***QEYD:*** Azərbaycan tayfalarının qədim hind tayfaları ilə mədəni və iqtisadi əlaqələri mövcud olmuşdur. Bunu ***Azərbaycanın tunc və ilk dəmir dövrü abidələrindən Hindistanın sahil bölgələri üçün səciyyəvi olan bəzək əşyalarının tapılması*** sübut edir. Bu əlaqələr vasitəsilə Azərbaycan sənətkarları Şərq ölkələri sənətkarlığı üçün səciyyəvi olan zərgərlik sənətinin üsullarının mənimsəmişdilər.



*Dörd şir heykəli (e.ə III əsr)*



*Budda*



*Qədim Budda məbədi (e.ə I əsr)*



# Qədim Yunanıstan




## Ərazisi və əhalisi

Qədim Yunanıstan Avropanın cənubunda, ***Balkan yarımadasında*** yerləşirdi. Dağlıq ölkə olan Yunanıstan qərbdə ***İon***, cənubda ***Aralıq***, şərqdə isə ***Egey dənizi*** ilə əhatə olunmuşdur. Aralıq və İon dənizi sahilləri girintili və çıxıntılı olduğundan gəmiçilik üçün əlverişli idi. Təbiət Yunanıstanı üç hissəyə bölmüşdür:

- **Şimali Yunanıstan – *Fessaliya*.**
- **Orta Yunanıstan – *Attika*.**
- **Cənubi Yunanıstan (Peleponnes) – *Messeniya və Lakonika*.**

Şimali Yunanıstanla Orta Yunanıstanı ***Fermopil keçidi,*** Orta Yunanıstanla Cənubi Yunanıstan ***Kornif körfəzi*** onları bir birindən ayırır. Qədim Yunanıstanı əhatə edən dənizlərdə bir-birinə yaxın adalar vardır. Onlardan ən böyüyü ***Yunanıstanın cənubunda*** yerləşən ***Krit adası*** idi.

Yunanıstan ***dəmir, mis, gümüş*** və ***mərmər*** yataqları ilə zəngin idi. Ölkədə qış qısa, yay isti və uzun olur. Belə bir təbiətdə yaşayan qədim yunan əhalisi:

- ✓ ***əkinçilik, maldarlıq*** və ***balıqçılıqla*** məşğul olurdu
- ✓ ***dəmirdən*** əmək alətləri hazırlayırdı.
- ✓ ***kətan*** və ***yundan*** kobud paltar toxuyurdu.
- ✓ gildən qab-qacar düzəldirdilər.

Qədin Yunanıstanda ***hər bir ailəyə*** torpaq sahəsi verilirdi.

Lakin qəbilə üzvləri arasında ***bərabərsizlik yarandıqdan sonra*** bir qisim adamlar varlandı, əksəriyyəti isə yoxsullaşdı və icma münasibətləri pozuldu. Sinifli cəmiyyətin yaranması üçün şərait meydana gəldi.

## Avropada ən qədim dövlət. Krit mədəniyyəti

Avropada ən qədim dövlət **e.ə. III-II minilliklərdə** Yunanıstanın **Krit adasında** yaranmışdır. Qədim kritlilərə ***aiddir:***

- ✓ əhalisi gözəl ***gəmi düzəldən*** olmuşdular.
- ✓ ticarət və hərbi donanma üçün ***limanlar*** inşa etmişdilər.
- ✓ ***freskalarla*** bəzədilmiş ***saraylar*** inşa etmişdilər.
- ✓ ***Misir, Finikiya*** və ***Babil*** ilə ticarət əlaqəqəri saxlayırdılar.
- ✓ özlərinə məxsus ***yazıları (piktoqrafik yazı)*** olmuşdur.
- ✓ Krit mədəniyyətini yaratmışdılar.

**E.ə. II minilliyin ortalarında *Kritə yaxın adada baş verən yeraltı təkan və vulkan püskürməsi*** Krit mədəniyyətinin məhvinə səbəb olmuşdur. Krit mədəniyyəti ***Mikena və Afina şəhərinə*** böyük təsir göstərmiş və yerli mədəniyyətləri formalaşdırmışdı.

***Kritlilərin ticarət əlaqəqəri saxladıqları ölkələr***

**Misir** | **Finikiya** | **Babil**





*a) Krit mədəniyyətinin qalıqları.*
*b) Kritdə hökmdar sarayı*
*(bərpa olunmuş şəkil)*

### Mikena mədəniyyəti

Qədim yunan tayfalarından biri olan ***axeylərin*** vətəni Cənubi Yunanıstanda yerləşən **Mikena şəhəri** idi. Axey tayfaları ***Mikena mədəniyyətinin*** qurucuları hesab olunur. Qədim Mikena mədəniyyətinə ***aiddir:***

- ✓ Formalaşmasında ***Krit mədəniyyəti*** böyük təsir göstərmişdi.
- ✓ ***Akrapol*** (*«yuxarı şəhər»* deməkdir) və ***qalalar*** *ucaltmışdılar*.
- ✓ Qədim misirlilər kimi ***sərdabələr (qəbir abidəsi)*** tikmişdilər.
- ✓ Sənətkarları ***qızıl maska, tuncdan silahlar*** hazırlamışdılar.
- ✓ **E.ə II minillikdə** Yunanıstanın şimalından gələn ***dori tayfaları tərəfindən*** məhv edilmişdir.

Axeylər ***Mikena akropolunu*** hündür təpə üzərində ucaltmışdılar. Akropolda ***şah sarayı*** və ***adlı sanlı adamların evləri*** yerləşirdi. Şah sarayının yaxınlığına ***sərdabələr*** düzəldilirdi. Akropolun ətrafında isə ***tacir, sənətkar*** və ***əkinçilərin*** evləri yerləşirdi.

***QEYD:*** E.ə II minillikdə ***şimaldan gələn işğalçıların əsarəti altına düşməsi*** Qədim Yunanıstan və Hindistan tarixi üçün oxşar cəhət təşkil edir.

## Afina və Sparta şəhər dövlətləri

### Yunan şəhər-dövlətlərinin yaranması

**E.ə VIII-V əsrlərdə** Yunanıstanda və onun koloniyalarında aşağıdakı ***ilk şəhər dövlətlər*** meydana gəldi:

- ➢ Orta Yunanıstanda - ***Afina şəhər dövləti***.
- ➢ Cənubi Yunanıstanda – ***Korinf*** və ***Sparta şəhər dövləti.***
- ➢ Egey dənizi sahillərində - ***Milet, Efes*** və ***Rodos şəhər dövləti***.

Yunan şəhər-dövlətlərindən nisbətən güclüsü Afina və Sparta şəhər dövlətləri idi.




### Afina şəhər dövlətinin əhalisi və təsərrüfatı

**E.ə. II minillikdə** Orta Yunanıstanın cənub-şərqindəyerləşən **Attika** yarımadasında ***Afina şəhəri*** salınmışdır. Şəhərin ən hündür təpəsinin zirvəsində ətrafına hasar çəkilmiş ***Akropol*** adlanan qala yerləşirdi. Akropolun yanında **aqora (bazar meydanı)** yerləşirdi. **E.ə. VIII əsrdə** Akropolda yaşayan adlı-sanlı adamlar ***Attikanın bütün əhalisini*** özlərinə tabe etdilər. Afina (Attika) əhalisi iki yerə bölünmüşdür.

1. **Aristokratlar** - qədim Afinada adlı-sanlı yunanlar idilər. Onlar öz idarə üsullarını ***«aristokratiya»*** ***(yaxşıların hakimiyyəti)*** adlandırırdılar.
2. **Demos** - qədim Afinada ***Attikanın aristokratlardan başqa bütün azad əhalisi (sənətkarlar, günəmuzdçular, dənizçilər)*** idilər.

Afina əhalisi ***əkinçilik*** və ***maldarlıqla*** məşğul olur, sənətkarları şərab və zeytun yağını saxlamaq və daşımaq üçün ***amfora adlanan gil küplər*** düzəldirdilər.

**E.ə. VII əsrdə** Afinada gümüş pul kəsilirdi.

***Təsərrüfatın*** və ***sənətkarlığın inkişafı*** ticarətin yaranması və genişlənməsinə təkan verdi, dəniz ticarəti inkişaf etdi. Afinaya ticarət gəmiləri ilə ***taxıl, inşaat ağacı və qullar*** gətirilirdi.




*a) Qara fiqurlu amfora (e.ə. VI əsr); b) qırmızı fiqurlu qab (e.ə. V əsr)*



*Afinada kəsilmiş gümüş pul*

### Afinada borc daşı və köləlik

Afinada adlı-sanlı adamlar əvvəllər torpaqlarını özləri becərirdilər. Sonra onlar kəndlilərin və qulların əməyindən istifadə etməyə başladılar. Aristokratlar kəndlilərə borca və ya sələmə pul verir, verdiyi borcu kəndlinin tarlasının kənarında ***borc daşına*** yazırdılar. Kəndli ***borcunu vaxtında verə bilmədikdə*** ailəsi və özü qula çevrilirdi.



*Borc daşı*

### Demos ilə aristokratlar arasında mübarizə. Drakon qanunları

**E.ə.VIII-VII əsrlərdə** yaranan Afina şəhər dövlətini bu zaman ***Ağsaqqallar şurası*** və ***onun seçdiyi 9 hökmdar*** idarə edirdi. Ağsaqqallar şurası:

- ✓ *Xalq yığıncağı çağırmadan bütün məsələləri həll edir, qanunlar qəbul edirdi.*
- ✓ *Qəbul etdiyi qanunlar əsasında məhkəmə qurulurdu.*

Aristokratlardan ibarət olan ağsaqqallar şurası öz xeyrinə sərt qanunlar qəbul edirdilər. Belə qanunlardan birini **e.ə. VII əsrdə Drakon** tərtib etmişdir. «***Drakon qanunu***» adlanan bu qanun haqqında deyirdilər ki, o, ***"mürəkkəblə deyil, qanla yazılmışdır"***. Drakon qanunları:

- ➢ *Aristokratların hakimiyyətini möhkəmləndirmək məqsədi ilə qəbul edilmişdi.*
- ➢ *Aristokratların həyatı və əmlakını qoruyurdu.*
- ➢ *Ən kiçik səhvə görə ən ağır cəza verilir, təqsirkar ölümə məhkum olunurdu.*


*Solon*

### Solon islahatları

**E.ə. VII əsrdə** Qədim Afinada demosla aristokratlar arasında mübarizə kəskinləşdi. ***demosun üsyana hazırlaşmasından qorxan*** aristokratlar demosa güzəştə getməyə məcbur oldu. **E.ə. 594-cü ildə** aristokrat, siyasətçi Solon islahatlar keçirdi. Solon islahatının keçirilməsində ***əsas məqsəd aristokratiya ilə demosu barışdırmaq*** idi. Solon islahatına əsasən:

- ✓ *Kəndlilərin borcları ləğv edildi.*
- ✓ *Borca görə qul edilən afinalılar azad edildilər.*
- ✓ *Afinalıların gələcəkdə borca görə qul edilməsi qadağan edildi.*
- ✓ *Attikanın yerli əhalisi olan bütün kişilər vətəndaşlıq hüququ aldılar.*

***Solon islahatı nəticəsində*** aristokratlarla demos arasındakı gərginlik aradan qaldırıldı, *Attikanın yerli əhalisi olan bütün kişilər Afina vətəndaşı hüququ aldılar.* **E.ə. VI əsrin sonlarından** başlayaraq Afina xalq yığıncağı ordu və donanmaya başçılıq edən ***strateqlər*** seçməyə başladı.






### Afina quldarlıq demokratiyası

**E.ə. V əsrdə** Afina şəhər dövlətində ali hakimiyyət ***xalq yığıncağına*** məxsus idi. Xalq yığıncağında 20 yaşından yuxarı bütün azad Afina vətəndaşları (kişilər) iştirak edə bilərdilər.

Bu dövrdə Yunan şəhər-dövlətlərində azad əhalinin ayrı-ayrı təbəqələri arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Yunanıstanda yuxarı təbəqə hakimiyyəti öz əlinə almaq, xalq isə onun həyatı ilə bağlı qərarların xalq yığıncağında verilməsini istəyirdi.

**E.ə V əsrdə** Yunan şəhər-dövlətlərində azad əhalinin ayrı-ayrı təbəqələri arasında hakimiyyət uğrunda mübarizəyə dövlət xadimi, yüksək təhsilə və natiqlik qabiliyyətinə malik şəxs olan **Perikl** başçılıq edirdi. Xalq yığıncağı **e.ə. 443-cü ildən başlayaraq** Perikli 15 il ərzində hər il birinci strateq seçmişdi. Periklin strateqlik dövründə (e.ə 443-e.ə 428) yoxsul vətəndaşların hüquqları artmışdı.



*Perikl*



*Afinada xalq yığıncağında Periklin çıxışı*

### Sparta dövləti

Cənubi Yunanıstanın cənub-şərqində ***Lakonika vilayəti,*** cənub-qərbində isə ***Messeniya vilayəti*** yerləşirdi. Bu ərazinin torpağı çox münbit idi. **E.ə. II minillikdə** Yunanıstanın şimalında yaşayan ***dorilər*** Cənub Yunanıstana hücum etdilər. Dorilərin Cənub Yunanıstana hücumu ***nəticəsində:***

- ✓ **E.ə. II minilliyin sonlarında** Lokonika və **e.ə. VII əsrin ortalarında** Messeniya vilayətləri tutuldu.
- ✓ Mikena mədəniyyəti məhv edilərək süqut etdi.
- ✓ Lakonika vilayətində **Sparta şəhərinin** əsası qoyuldu və dorilər ***spartalılar*** adlanmağa başladılar.
- ✓ Yerli əhalinin çoxunu (messeniyalılar) qula çevrildilər.
- ✓ Spartada quldarlıq dövləti yarandı.

Spartalılar qulları ***hilotlar*** adlandırırdılar. Hilotlar spartalıların geniş, münbit torpaq sahələrini əkib becərirdilər. Lokonika və Messeniyada hilotlarla yanaşı ***azad adamlar*** da var idi. Onlar spartalılara vergi verirdilər.

Spartalılar yalnız ***hərbi işlə*** məşğul olurdular. Qanun onların başqa işlə məşğul olmasına icazə vermirdi. Buna görə də spartalıların hamısı döyüşçü idi. Onlar, hətta yatanda da silahları yanlarında olurdu. Hərbi intizamı pozanlar sərt cəzalandırılırdı. Sparta ordusu ***falanqa*** adlanırdı.





*Sparta ordusu. Atlı döyüşçülər və piyadalardan ibarət falanqa*

# Yunan-İran müharibələri

## Aralıq dənizi və Qara dəniz sahillərində yunan koloniyalarının yaranması

Təcrübəli gəmidüzəldən hesab olunan yunanlar İon, Egey və Aralıq dənizlərinə, hətta uzaq Qara dəniz sahillərinə belə üzürdülər. Bu dəniz səfərlərinin nəticəsində **e.ə. VIII-VI əsrlərdə** yunan koloniyaları meydana gəlmişdi. Yunanıstanın ticarət şəhərləri **Qafqazdan İspaniyayadək olan Aralıq və Qara dəniz sahillərində *koloniyalar,*** yəni daimi məskənlər yaratmışdılar. Yunan ***kolonistləri*** *Yunanıstanı ellada, özlərini isə isə ellinlər adlandırırdılar.* Koloniyaların əhalisinin tərkibi əsasən aşağıdakılardan ibarət idi:

- ***Torpağı əlindən alınmış kəndlilər.***
- ***Sənətkar və tacirlər.***
- ***Ölkədən qaçmağa məcbur olmuş adamlar***.




Yunan koloniyalarına ***aiddir:***

- ✓ *Hər bir koloniya ayrıca müstəqil şəhər-dövlət idi.*
- ✓ *Hər bir koloniya şəhər dövlətin ayrıca hökmdarı, qoşunu və xəzinəsi var idi.*
- ✓ *Heç bir koloniya Yunanıstan dövlətinə tabe deyildi.*
- ✓ *Hər bir koloniya daha çox yunanlarla sıx əlaqə saxlayırdılar*

Ən çox koloniya salmış yunan şəhəri ***Milet*** idi. Milet şəhərinin Qara dəniz sahillərində **Pantikapey, Olviya** və **Xersones** kimi koloniyaları yaranmışdı.

***QEYD:*** Aralıq dənizi sahillərində ***Yunanıstan*** və ***Finikiya*** koloniya salmış dövlətlər hesab olunur. Bu Finikiya və Yunanıstan tarixi üçün oxşar cəhət təşkil edir.

***Qara dənizdə yaranmış yunan koloniyaları***

**Olviya** | **Pantikopey** | **Xersonos**

## Yunan-İran müharibələrinin başlaması. Marafon döyüşü

**E.ə V əsrdə** Yunanıstan ***Əhəmənilərin*** hücumuna məruz qaldı. İran şahı **I Dara (522-486)** Kişik Asiyanı işğal etdikdən sonra Yunan şəhər-dövlətlərini ələ keçirmək istəyirdi.




**E.ə 500-cü ildə** I Dara ***Aralıq dənizinin şərq sahillərində*** və ***Egey dənizi adalarında*** yunanları məğlubiyyətə uğratdı. Anadoludakı İoniya və digər yunan şəhərləri **Milet şəhərinin** başçılığı ilə İrana qarşı üsyan qaldırdılar. Üsyan zamanı **Afina** və **Eretriya** şəhərləri üsyançılara kömək etdi. Beləliklə, Yunan-İran müharibəsi **(e.ə. 500-449)** başladı. I Dara Afinanı cəzalandırmaq üçün **e.ə 490-cı ildə** Afinadan 42 km aralı olan Marafon düzünə (Attikaya) qoşun çıxartdı.

**E.ə. 490-cı ildə** tərəflər arasında ***Marafon döyüşü*** baş verdi. Marafon döyüşündə yunan ordusuna **Miltidat**, İran ordusuna **I Dara** başçılıq edirdi. Marafon döyüşü ***nəticəsində:***

- ✓ ***Yunanlar qalib gəldilər.***
- ✓ ***I Dara Orta Yunanıstanı tuta bilmədi.***

***QEYD:*** Marafon döyüşündən sonra bir nəfər Afinalı 42 km qaçaraq qələbə xəbəri ilə özünü Afinaya çatdırdı. Sonralar onun xatirəsinə ***Marafon qoçışı*** ifadəsi yarandı və **Marafon qaçışı** yarışlarının keçirilməsinə başlanıldı. Marafon döyüşündə ələ keçirilmiş qənimət hesabına **Fidi *Afina heykəlini*** düzəltdi.

### Fermopil döyüşü

I Dara vəfat etdikdən sonra onun oğlu Kserks (e.ə 486-465) atasının Yunanıstanı işğal etmək siyasətini həyata keçirmək məqsədi ilə **e.ə. 480-ci ildə Orta Yunanıstana** hücum etdi. Bu zaman yunan şəhər dövlətləri Kserksin yürüşünün qarşısını almaq məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirdilər:

- ✓ *Bütün yunan-şəhər dövlətləri iranlılara qarşı birləşdilər.*
- ✓ *Sparta şahı* ***Leonidin*** *başçılığı ilə Fermopil keçidi bağlandı.*

Döyüşdən əvvəl Kserks yunanların yanına elçi göndərib təslim olmalarını tələb etdi. İran elçisi: ***"bizim ox və mizraqımız günəşin qabağını tutacaqdır"*** demiş, spartalıdan: ***"Nə olar, kölgədə vuruşarıq"*** cavabını almışdı. Fermopil döyüşü ***nəticəsində:***

- ✓ ***Leonid və döyüşçüləri həlak oldu.***
- ✓ ***İranlılar Orta Yunanıstanı tutdular.***

**Fermopil döyüşü**

| Marafon döyüşündən on il sonra baş vermişdi | İranlılara Kserks, yunanlara isə Leonid başçılığ edirdi | Xəyanət yolu ilə yunanlar məğlub oldular | İranlılar Orta Yunanıstanı tutdular |
|---|---|---|---|

### Salamin dəniz vuruşması

Fermopil məğlubiyyətindən sonra Afina ordusunun sərkərdəsi **Femistokl** Afinanı müdafiə etməyin mümkün olmadığını görərək aşağıdakı tədbirləri həyata keçirdi:

- ✓ *Əli silah tutan bütün kişiləri orduya səfərbər etdi.*
- ✓ *İranlıları Fermopil keçidində ləngidərək öz donanmalarını möhkəmləndirdi.*



Salamin dəniz döyüşü

**E.ə. 480-cı ildə** yunanlarla iranlılar arasında ***Salamin dəniz vuruşması*** baş verdi. Salamin vuruşması ***nəticəsində:***

- ✓ ***Yunanlar parlaq qələbə qazandılar***.
- ✓ ***İranlılar məğlub olaraq Yunanıstanı tərk etdi***.

Salamin döyüşündə İran ordusunun məğlub olmasının səbəbi ***yunanların dayaz yerlərə və sualtı qayalara yaxşı bələd olması, yunanların yüngül və sürətli triyera adlı gəmilərindən fərqli olaraq iranlıların ağır və ləng hərəkət edən gəmilərə sahib olması*** idi. Yunanların ***triyera*** adlanan hərbi gəmilərinin sağ və sol tərəfində 3 sıra avar olduğundan dənizdə asanlıqla və çevik hərəkət edirdi.

### Plateya döyüşü. Afina dəniz ittifaqının yaradılması. Yunan-İran müharibələrinin nəticələri

**E.ə. 479-cu ildə** ***Plateya şəhəri yaxınlığında döyüşdə*** yunanlar iranlıları məğlub etdi və onları Yunanıstandan tamamilə çıxardı. Lakin dəniz döyüşləri 30 ilədək davam etdi. Ona görə də yunan şəhər dövlətləri ***Afinanın başçılığı altında*** öz aralarında **Afina dəniz ittifaqı** yaratdılar. İttifaqın ordusuna və donanmasına ***Afina strateqi başçılıq etdiyi üçün*** bu ittifaq Afina dəniz ittifaqı adlanırdı. Afina dəniz ittifaqı İran donanmasını məğlub etdi. Beləliklə, Yunan-İran müharibələri yunanların qələbəsi ilə başa çatdı.

**E.ə. 449-cu ildə** İranla yunanlar arasında sülh bağlandı. Sülhün şərtlərinə görə:

1. **İran Miletin, Egey dənizi və Kiçik Asiyadakı şəhər dövlətlərin istiqlaliyyətini tanıdı**.
2. **İran hərbi donanmasına Egey dənizində üzmək qadağan olundu**.

Beləliklə, Yunan-İran müharibəsi ***nəticəsində:***

- ✓ *Yunanlar qələbə qazanaraq böyük qənimət ələ keçirdilər.*
- ✓ *Yunanıstan Aralıq dənizi hövzəsində hakim dövlətə çevrildi.*
- ✓ *Afinalıları «dəniz sahibləri» adlandırmağa başladılar.*
- ✓ *Afinanın 6 kilometrliyində Pirey limanı inşa edildi.*
- ✓ *Yunan gəmiləri Aralıq dənizində sərbəst üzməyə başladı.*
- ✓ *Yunanlar öz istiqlaliyyətini qorudular.*
- ✓ *Yunanıstanda ticarət və sənətkarlıq sürətlə inkişaf etdi.*

# Qədim Yunanıstan mədəniyyəti

## Homerin “Odisseya” və“İliada” poemaları. Məktəb və elm

**E.ə. VIII əsrdə** Yunanıstanda kor şair **Homer** ***«İliada»*** və ***«Odisseya»*** dastanlarını yaratdı. **E.ə. VI əsrdə** «İliada» və «Odisseya» dastanları yazıya alındı.

Afinada yaxşı məktəblər açılmışdı. Azad yunanların uşaqları 7 yaşından məktəbə gedirdilər. Onlar bir ucu iti olan ***stil*** adlanan metal çubuqla mum üzərində hərfləri cızır, küt olan o biri ucu ilə isə yazını pozurdular.

***Milet*** və ***İoniya*** şəhərləri Yunanıstanın elm mərkəzlərinə çevrilmişdi.

Yunan alimləri elmə böyük töhfələr vermişdilər. Onlardan bəziləri aşağıdakılardır:

- **Demokrit.** Bütün dünyanın ən xırda zərrəciklərdən - atomlardan ibarət olduğunu söyləyirdi.
- **Hippokrat.** Həkim idi. Onun düzgün qidalanma, dərmanlar və cərrahiyyə əməliyyatları haqqında əsərləri tibbin inkişafına böyük töhfə olmuşdur.
- **Heredot**. Onun ***“Tarix” əsəri*** ilə **e.ə V əsrdə** tarix elminin əsası qoyulmuşdur. Buna görə də Heredotu bu gün ***tarixin atası*** adlandırırlar. Herdeotun ***Yunan-İran müharibələrinə*** həsr edilmiş “Tarix” əsəri Yunanıstan, Ön Asiya, Misir, eləcə də Azərbaycanın qədim tarixini öyrənmək üçün qiymətli mənbə hesab olunur.
- **Aristotel.** Qeyri-adi biliyə malik şəxs olan Aristotel ilk dəfə bütün elmi bilikləri ayrı-ayrı sahələr üzrə bölmüş və onlara botanika (yunanca bitki), fizika (təbiət), politika və s. adlar vermişdi.



*Homer*



*Demokrit*



*Hippokrat*



*Herodot*

## Teatr

Qədim Yunanıstan ***teatrın vətəni*** hesab olunur**. E.ə V- əsrdə** Yunanıstanda ***ilk teatrlar*** (yunanca ***tamaşa yeri***) tikilməyə başlanıldı. Yunanlar şərabçılıq tanrısı **Dionisin** şərəfinə təntənəli bayramlar keçirir, onunla bağlı əfsanələr söyləyir, bu əfsanələrdən səhnələr oynayırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilirdi. Tamaşaçılar təpənin yamacında yer tutub otururdular. Təpənin ətəyində ***skena (çadır)*** qurulurdu. Sonra çadır əvəzinə kiçik bina tikdilər. Tamaşa vaxtı binada ***dekorasiyalar*** asırdılar. Binanın qarşısında aktyorların və xorun çıxış etməsi üçün ***meydança - orxestra*** düzəldirdilər. **E.ə. V əsrin sonlarında** bütün yunan şəhərlərində açıq havada tamaşa göstərmək üçün teatr tikilmişdi.

Qədim yunan əfsanələri əsasında **tragediyalar** adlanan pyeslər yaranmışdı. ***Esxil*** *və* ***Sofokl*** ilk tragediya müəllifləri idilər. Afina **teatrında** Esxilə və Sofokla xidmətlərinə görə heykəl qoyulmuşdu. Gülməli səhnəciklərdən şən və məzəli pyeslər - ***komediyalar*** yarandı. Komediya **«şən sakinlərin mahnısı»** deməkdir.



*Aristotel*



*Exsil*



*Sofokl*



*Miro, Diskatan heykəli*



*Fidi, Afina heykəli*




*Yunanıstanda  teatr (müasir foto)*



*Zevsin heykəli*

## İncəsənət

Qədim Yunanıstanda incəsənətin ***memarlıq, heykəltəraşlıq*** və ***rəssamlıq*** sahələri yaxşı inkişaf etmişdir. Qədim Yunanıstan memarlığına ***aiddir:***

- ✓ Hər bir yunan şəhərində ictimai binalar, məktəb, məbəd və teatrlar tikilirdi.
- ✓ Afinada məşhur ***aqora (bazar)*** meydanı ucaldılmışdı.
- ✓ Memarlıqda ***dorik*** və ***ionik sütunlarından*** geniş istifadə olunurdu.
- ✓ Afinanın baş meydanı hesab olunan və ***akropol (yuxarı şəhər)*** adlanan hissəsində ***ilahə Afinanın şərəfinə*** **Parfenon məbədi** tikilmişdi.

Qədim yunan heykəltəraşlarından ikisini qeyd etmək olar:

- ➢ **Miro – "*Diskatan" heykəlinin*** müəllifidir.
- ➢ **Fidi –** Parfenonda ucalan 12 metr hündürlüyündə olan ***"Afina" heykəlinin*** müəllifidir.




*a) Dorik;*
*b) ionik;*
*c) korinf sütunları*

## Olimpiya oyunları

Qədim Yunanıstanda idman yarışlarını Olimpiya oyunları adlandırırdılar. Olimpiya oyunlarına ***aiddir:***

- ✓ Oyunlar dörd ildən bir keçirilirdi.
- ✓ Yunanlar üçün müqəddəs hesab edilən Olimp dağında keçirilirdi.
- ✓ Yarışlarda əsasən varlılar iştirak edirdilər.
- ✓ ***Qadınlara*** Olimpiya oyunlarına getmək qadağan idi.
- ✓ Oyunlar zamanı ***müharibələr*** dayandırılırdı.
- ✓ Yarış qalibi ***zeytun budağından hörülmüş çələnglə*** mükafatladırılırdı.
- ✓ Oyunlarda qalib gələnə öz vətənini şöhrətləndirdiyinə görə ***heykəl*** qoyurdular.

***QEYD:*** Yunanlar il hesabını ***İlk olimpiya oyunlarından*** aparmışdılar. Rəvayətə görə ilk Olimpiya oyunları **e.ə 776-cı ildən** keçirilmişdir. Qədim Yunanıstanda olduğu kimi, indi də hər dörd ildən bir Olimpiya oyunları keçirilir.




*Olimpiya oyunları*

### Yunan yazısı

Yunan yazisi bir sıra əlifbalar, o cümlədən latın və kiril əlifbaları üçün əsas olmuşdur. Bir çox yunan sözləri (gimnaziya, xor, tragediya, komediya, orkestr, xronologiya və s) müasir dillərə, eləcə də Azərbaycan dilinə keçmişdir.

### Din

Başqa qədim xalqlar kimi yunanlarda allahların təbiəti idarə etdiyinə inanırdılar. Onların inancına görə üç qardaş ***Zevs, Poseydon*** və ***Aid*** dünya hakimiyyətini öz aralarında bölmüşdülər. Yunanlara görə allahlar ***Olimp dağında*** yaşayırdılar. Qədim Yunanıstanda adamlar aşağıdakı allahlara inanırdılar:

- **Zevs** – *göy allahı idi və Baş allah hesab olunurdu.*
- **Poseydon** – *dəniz allahı idi.*
- **Aid** - *yeraltı ölülər səltənətinin allahı idi.*
- **Helios** – *günəş allahı idi.*
- **Apallon** – *işıq və incəsənət allahı idi.*
- **Demetra** – *əkinçilik və məhsuldarlıq allahı idi.*
- **Dionisi** – *şərabçılıq allahı idi.*
- **Hefest** – *dəmirçilərin himayəçisi idi.*
- **Hermes** – *ticarətin himayəçisi idi.*
- **Afina** – *müdrüklük və müharibə allahı idi.*
- **Afrodita** - *Sevgi və gözəllik ilahəsi idi.*
- **Artemida** - *Ovçuluq və Ay ilahəsi idi.*




*Yunan Allahaları*

### Yunan mədəniyyətinin əhəmiyyəti

Qədim Yunanıstan mədəniyyəti dünya mədəniyyətinin inkişafına aşağıdakı töhvələri vermişdir

- ✓ Qədim dövrlərdə yaranmış sivilizasiyalarının bir növ varisi olmuş, onu daha da zənginləşdirmişdi.
- ✓ Yunanların yaratdıqları bir sıra elmlər (botanika, fizika və.s) müasir elmlərin əsasını təşkil edir.
- ✓ Yunan yazısı bir çox əlifbalar, o cümlədən kiril əlifbası üçün əsas olmuşdu.
- ✓ Memarlıq abidələri və heykəllər sonrakı dövrlərin memarları və heykəltəraşları üçün əsas olmuşdu.
- ✓ Yunanlar elmə gimnaziya, xor, tragediya, komediya, orkestr, xronologiya və.s terminlər gətirmişdilər.
- ✓ Bir çox ölkələrə səpələnərək ümumi ellin mədəniyyəti yaratmışdılar.
- ✓ Müasir teatrın əsası məhz qədim Yunanıstanda qoyulmuşdu.
- ✓ Bu gün dünyanın hər yerində keçirilən olimpiya oyunları Yunanıstanda yaranmışdı.



*Akrapol və Parfenon məbədi, Afina şəhəri (müasir foto)*

***E.ə V əsrdə Yunanıstan mədəniyyətində baş vermiş yeniliklər***

**E.ə V əsr**

- Teatr yarandı
- Tarix elminin əsası qoyuldu
- Parfenon məbədi inşa olundu
- Heykəltəraşlıq inkişaf etdi



Balkan yarımadasında yerləşirdi
Drakon qanları və Borc daşı mövcud olmuşdu
Koloniyalar yaratmışdılar
Əhalisi iki yerə - aristokratiya və demosa bölünmüşdü
Qədim Yunanıstan
İran və Makedoniya çarlığı ilə müharibələr aparmışdı
İlk dövlətlər e.ə III-II minilliklərdə yaranmışdı
Ellin mədəniyyəti yaranmışdı
İlk olimpiya oyunlarının və teatrın vətəni olmuşdu




Qədim Hindistan və Yunanıstan tarixi üçün oxşar cəhətlər
Quldar dövlətlər olmuşdular
Əhəmənilərin (İran) və Makedoniyalı İskəndərin hücumuna məruz qalmışdı
E.ə II minillikdə şimalda yaşayan köçəri tayfaların hücumuna məruz qalmışdı
İlk şəhərlər e.ə III minillikdə yaranmışdı
Özlərinə məxsus əlifbası və yazısı olmuşdu
Möhtəşəm saray və məbədlər inşa etmişdilər

# Makedoniya imperiyası




## Afina-Sparta müharibəsi (e.ə 431-404)

**E.ə IV əsrin birinci yarısında** yunan şəhər dövlətləri arasında ziddiyyətlər dərinləşdi və onlar tədricən tənəzzül etməyə başladılar. Yunan şəhər dövlətləri arasında ziddiyyətlərin və ya rəqabətin səbəbləri aşağıdakı amillərlə bağlı idi:

1. **Dəniz ticarətində üstünlük qazanmaq**.
2. **Qonşu dövlətləri özlərinə tabe etmək**.
3. **Çoxlu qənimət ələ keçirmək**.

Bu dövrdə Yunanıstanın ən qüdrətli şəhər dövlətləri hesab olunan Afina ilə Sparta arasında ***daxili ziddiyyətlər*** daha da dərinləşərək uzunsürən müharibəyə səbəb oldu.. **E.ə. 431-ci ildə** başlanan müharibə kiçik fasilələrlə **404-cü ilə qədər** davam etdi. Afina ilə Sparta arasında baş verən və bu müharibə nəticəsində:

- ✓ **Sparta dövləti Afina üzərində tam qələbə qazandı.**
- ✓ **Yunan şəhər-dövlətləri zəiflədi və sonralar qonşu Makedoniyanın hakimiyyəti altına düşdü**.

## Yunanıstanın Makedoniyanın hakimiyyəti altına düşməsi. Xeroneya döyüşü

Makedoniya dövləti ***Balkan yarımadasının şimalında ( Yunanıstanın şimal-şərqində)*** yerləşirdi. **E.ə. IV əsrin ortalarında**, II Filippin (e.ə 359-336) dövründə:

- ✓ Makedoniya çarlığı güclü dövlətə çevrildi.
- ✓ Güclü dövlət və nizami ordu təşkil edildi.
- ✓ Yunan şəhər dövlətləri Makedoniya padşahlığının işğalına məruz qaldı.


*II Filipp*

II Fillip zəifləmiş Yunan şəhər dövlətləri öz tərəfinə çəkmək üçünəsasən ***pulla şəhər əhalisinin bir hissəsini ələ almaq üsulundan*** istifadə edirdi. Əhali isə şəhər darvazalarını II Fillipin üzünə açırdı.

**E.ə. 338-ci ildə** ***Xeroneya şəhəri yaxınlığında*** Makedoniya ilə birləşmiş yunan ordusu arasında həlledici döyüş baş verdi. Xeroniya döyüşü ***nəticəsində:***

- ✓ **Yunan şəhər dövlətlərinin azadlığına son qoyuldu**.
- ✓ **Yunan şəhər dövlətləri Makedoniya çarlığının hakimiyyəti altına düşdü**.

Beləliklə, **e.ə IV əsrdə** Yunan-şəhər dövlətləri ***Makedoniya ordusu tərəfindən*** işğal olundu.

II Xeroneya döyüşündə yunan şəhər dövlətlərinin azadlığına son qoyulduğu üçün o vaxt deyirdilər: ***"Xeroneyada həlak olanların cəsədləri ilə birlikdə yunanların azadlığı da dəfn olundu"***. Filippin 18 yaşlı oğlu İsgəndər ilk dəfə ***Xeroniya döyüşündə*** sərkərdəlik məharətini nümayiş etdirmişdi.

***QEYD:*** Fermopil və Xeroneya döyüşlərində ***yunanların məğlub olması*** bu döyüşlər üçün oxşar cəhət təşkil edir.



### Makedoniyalı İsgəndərin Şərqə yürüşü



II Filipp Yunanıstanı işğal etdikdən sonra dövlətinin ərazisini genişləndirmək və ***İrana*** yürüş etmək istəyirdi. Lakin, II Fillip yürüş ərəfəsində, **e.ə. 336-cı ildə** suiqəsd nəticəsində öldürüldü. Onun yerinə 20 yaşlı oğlu **İsgəndər (e.ə 336-323)** keçdi. İsgəndər bir çox tədbirlər həyata keçirdikdən sonra ***Şərqə yürüşə*** başladı. Makedoniya ordusu İsgəndərin başçılığı ilə Şərqə doğru hərəkət etdi. **E.ə. 334-cü ildə** onun qoşunları **Kiçik Asiyaya** soxuldu. İsgəndər burada İran qoşunlarına qalib gələrək ***Aralıq dənizi sahili ilə Misirə doğru*** hərəkət etdi.

Bu zaman Finikiyanın ***Tir şəhəri*** İsgəndərə ciddi müqavimət göstərsə də şəhər tutularaq dağıdıldı. Finikiyanın digər şəhərləri və ***Misir*** isə İsgəndərə vuruşmasız tabe oldu. Misir kahinləri İsgəndəri ***firon*** və ***tanrı*** adlandırdılar. İsgəndər Misirdən qayıdaraq yenidən Kiçik Asiyaya (Mesopotamiyaya) doğru hərəkət edən zaman İran şahı III Dara ona qarşı çoxlu qoşun topladı. **E.ə. 334-cü ildə *İss*, 333-cü ildə *Qranik*, e.ə. 331-ci ildə** həlledici döyüş olan ***Qavqamela (Cancal) döyüşündə*** III Daranın qoşunları İsgəndər tərəfindən məğlub edildi.

Qavqamela döyüşündə ağır məğlubiyyətdən sonra Əhəməni hökmdarı III Dara ölkənin şərqinə qaçdı. Lakin III Dara **e.ə. 330-cu ildə** özünün Baktriyadakı satrapı Bess tərəfindən öldürüldü. Beləliklə İsgəndərin Şərq yürüşü nəticəsində Əhəməni imperiyası süqut etdi. İranı ələ keçirdikdən sonra İsgəndər Mərkəzi Asiyada **Baktiriya** və **Soqdiananı** ələ keçirdi. İsgəndərin son yürüşü **Hindistan** oldu. **E.ə. 328-ci ildə** Makedoniyalı İsgəndər yürüşünü Hindistana doğru davam etdirdi.

*QEYD:* ***Makedoniya dövləti tərəfindən işğal olunması*** **e.ə IV əsrdə** yunan şəhər dövlətləri və Əhəmənilər imperiyasının süqutu ilə oxşar cəhət təşkil edir.

### Makedoniy imperiyasının parçalanması




Makedoniyalı İsgəndər Şərq yürüş nəticəsində böyük ***imperiya*** yaratdı. Makedoniya imperiyasının ərazisi ***qərbdə* Balkan yarımadası və Misirdən, *şərqdə* Hindistana qədər** böyük bir ərazini əhatə edirdi. **Babil şəhəri** Makedoniyalı İsgəndər imperiyasının paytaxtı elan edilmişdi.

**E.ə. 323-cü ildə** İsgəndər 33 yaşında qısa sürən xəstəlikdən sonra vəfat etdi və özünün saldırdığı ***İsgəndəriyyə şəhərində*** dəfn olundu. Onun ölümündən sonra ***imperiya bir neçə padşahlığa* - Makedoniya, Suriya və Misir dövlətlərinə *parçalandı.***



### Ellinizm mədəniyyətinin Şərqə yayılması

İsgəndərin ordusu tərəfindən işğal olunan Şərq ölkələrində:

- ✓ *İsgəndərin adını daşıyan çoxsaylı şəhərlər salındı.*
- ✓ ***Ellin mədəniyyəti** (yunan dili və yunan mədəniyyəti) geniş yayıldı.*

İsgəndərin Şərqə yürüşündən sonra salınan çoxsaylı şəhərlərdən biri də İsgəndəriyyə idi. İsgəndəriyyə şəhərinə ***aiddir:***

- ✓ Nil çayının deltasında Makedoniyalı İsgəndər tərəfindən salınmışdı.
- ✓ ***Evkilid*** və ***Arxımed*** kimi alimlər burada yaşayıb yaratmışdılar.
- ✓ Dünyada ilk ***musey (muzların məbədi)*** bu şəhərdə yaradılmışdı.
- ✓ Şəhərin qarşısındakı ***Faros adasında*** 140 metr hündürlüyündə ***İsgəndəriyyə mayakı*** tikilmişdi.

***QEYD:*** Şərqdə elmin ən yüksək inkişaf səviyyəsinə çatmasını İsgəndəriyyə museyi də təsdiq edir. İsgəndəriyyə museyində olan kitabxanada ***papirus*** və **perqament** üzərində yazılmış 700 min əlyazma saxlanılırdı. Perqament (yazı yazmaq üçün xüsusi işlənmiş buzov və quzu dərisi) Kiçik Asiyadakı **Perqam şəhərində** hazırlandığı üçün belə adlanırdı.



*Evklid*



*Arximed*





***Qədim İsgəndəriyyə şəhərinin qurulması. Faros mayakı***

***İsgəndəriyyə şəhərinin salınması***

*...İsgəndər Misiri tutduqdan sonra burada bir yunan şəhəri saldırıb, ona öz adını vermək istəyir. Memarların məsləhəti ilə o, gələcək şəhər üçün yer də ayırıb, onu hasara aldırır. Amma gecə yuxuda görür ki, ağsaçlı bir qoca onun yanında dayanıb aşağıdakı şeiri oxuyur:*

*Geniş coşqun dənizdə bir ada var*
*Faros çağırır onu adamlar.*

*İsgəndər həmin dəqiqə qalxıb Farosa yollanır. İsgəndər gördü ki, bura, doğrudan da, gözəl və səfalı yerdir. Yaxşı körfəzi və limanı olan geniş torpaq sahəsi var. Elə buradaca o, memarlara yeni şəhərin planını hazırlamağı tapşırdı. Tabaşir olmadığından memarlar arpa unuyla qara torpaq üzərində hərbi meydana bənzəyən şəhər planı cızdılar. İsgəndər onu çox bəyəndi, amma birdən bir sürü quş bulud kimi göyün üzünü aldı, onlar yerə qonub cizgiləri pozdular. Şah bu əlamətdən narahat oldu, amma falçılar izah edəndə ki, onun əsasını qoyduğu şəhəri gəlmə adamlar abad edəcək, İsgəndər rahatlaşdı. Sonra o, gözətçilərə tikintiyə ciddi nəzarət etməyi tapşırıb, Amon məbədinə getdi.*

***Plutarxın "İsgəndər Zülqərneyn" kitabından***

***«Qordi düyünü»***

*Dövrümüzdə işlədilən «Qordi düyününü doğramaq» ifadəsi hər hansı qarışıq məsələni başa çatdırmaq mənasını bildirir. Qordi Kiçik Asiyada Frigiya dövlətinin əfsanəvi hökmdarı idi. Rəvayətə görə, o, paytaxtı Qordionda boyunduruğu mürəkkəb ilgəklərlə düyünlənmiş araba qoyubmuş. Belə hesab olunurmuş ki, kim «Qordi düyünü»nü aça bilsə, o, Asiyanın hökmdarı olacaq. Onu açmağa cəhd göstərən Makedoniyalı İsgəndər də istəyinə çata bilmir. Bu zaman o, «Qordi düyünü»nü qılıncı ilə doğrayır.*

# Qədim Roma




## Qədim İtaliyanın təbiəti və əhalisi

Roma dövləti Avropanın cənubunda, ***yunanların*** İtaliya adlandırdığı Balkan yarımadasının qərbində ***Apennin yarımadasında*** yaranmışdır. Apenin yarımadasını şimalda Avropanın qalan hissəsindən ***Alp dağları*** ayırır. Yunanlar Aralıq dənizində üzərkən Apennin yarımadasının cənub hissəsinin zəngin otlaqlarını görmüş və buran; ***«Buzovlar ölkəsi»*** adlandırmışlar. Sonralar bu ad bütün yarımadaya verilmişdir. Apennin yarımadasından cənubda ***Siciliya adası*** yerləşir.

Roma dövlətinin yaranmasından hələ xeyli əvvəl Apennin yarımadasında müxtəlif tayfa və xalqlar yaşayırdılar. Onlardan ən çox inkişaf etmiş tayfalar ***etrusklar*** və ***latınlar*** idi.

***Etrusklar:***

- ✓ *Yüksək keyfiyyətli sənətkarlıq məhsulları istehsal edirdilər.*
- ✓ *Gəmiçilik və dənizçiliklə məşğul olurdular.*
- ✓ *10 minə qədər yazı işarəsindən istifadə edirdilər.*

***Latınlar:***

- ✓ *Dilləri bütün İtaliyanın ümumi dilinə çevrilmişdi.*
- ✓ *Əvvəllər Apenin yarımadasının mərkəzi hissəsində **Kiçik Latsiya vilayətində** yaşayırdılar.*




## Roma tarixinin dövrləşməsi

Tədqiqatçılar qədim Roma tarixini ***üç dövrə*** bölürlər:

1. **Padşahlıq dövrü - e.ə 753 – e.ə 509-cu illəri əhatə edir**.
2. **Respublika dövrü - e.ə. 510 - e.ə. 30-cu illəri əhatə edir**.
3. **İmperiya dövrü - e.ə. 30 – e. 476-cı illəri əhatə edir**.

## Roma dövlətinin yaranması. Romada padşahlıq dövrü (e.ə 753 – e.ə 509)

Rəvayətə görə, Roma şəhərinin əsası e**.ə. 753-cü ildə** iki qardaş - Romul və Rem tərəfindən qoyulmuşdur. Şəhər Romulun adı ilə adlanmışdır. Padşahlıq dövrü Roma şəhəri yaranandan e.ə. 509-cu ilə qədər davam etmişdir. Bu dövrdə Roma dövlətini ***padşah və Senat («Ağsaqqallar şurası») idarə*** edirdi.



**Rem və Romul, onları bəsləyən ana canavarla**

**Roma şəhərinin salınması haqqında tarixi rəvayət**

*Əfsanəyə görə, latın şəhərlərindən birinin şahı öz qardaşı qızının əkiz doğulmuş iki oğlunu - Romulu və Remi Tibr çayına atmağı əmr edibmiş. O qorxurdu ki, uşaqlar böyüdükdən sonra onu taxtdan məhrum edərlər. Lakin içərisində uşaqlar olan səbət ağacın budağına ilişib qalır. Uşaqlar xilas olurlar. Bir dişi canavar onları öz südü ilə bəsləyir, sonra isə uşaqları bir çoban tapıb tərbiyə edir. Qardaşlar böyüyüb güclü və cəsarətli döyüşçü olurlar. Onlar şaha qarşı üsyan qaldırıb, onu öldürürlər. Bundan sonra Romul və Rem şəhər salmaq qərarına gəlirlər, lakin şəhərin harada salınması və gələcəkdə oranı kimin idarə edəcəyi haqqında mübahisə edib dalaşırlar. Qəzəblənən Romul Remi öldürür. O, çobanın onları tapdığı yerdə şəhər salır və orada şahlıq etməyə başlayır. Bu şəhəri Romulun adı ilə Roma adlandırırlar. Romalılar il hesabını öz şəhərlərinin salındığı əfsanəvi ildən - e.ə. 753-cü ildən hesablayırdılar. Romada Kapitoli təpəsində dişi canavarın heykəli qoyulmuşdu.*

### Romada əhalinin sosial təbəqələri

Parşahlıq dövründə Romanın ***azad əhalisi*** iki yerə bölünürdü:

1. ***Patrisilər*** (latınca «pater» ata deməkdir).
2. ***Plebeylər*** (azad əhalinin yoxsul təbəqəsi idi).

| Patrisilər | Plebeylər |
|---|---|
| • *Romanın ən qədin sakinləri hesab olunurdu.*<br>• *Torpaq və otlaqlar yalnız onlara məxsus idi.*<br>• *Torpaqlarını plebeylərə icarəyə verirdilər.*<br>• *Onların «Ağsaqqallar şurası» var idi.*<br>• *«Ağsaqqallar şurası» onların sıralarından bir nəfəri ömürlük padşah seçirdilər.* | • *Romaya köçüb gəlmiş insanların nəsilləri idi.*<br>• *Yüksək vəzifələrə seçilmək hüququna malik deyildilər.*<br>• *Orduda xidmət etsələr də torpaq payına malik deyildilər.*<br>• *Onlar torpağı varlılardan icarəyə götürürdülər.* |

## Romada respublika dövrü (e.ə 509 – e.. 30)

### Roma respublikasının yaranması

**E.ə 509-cu ildə** Romanın sonuncu padşahı ***çox qəddar olduğu üçün*** romalılar ona qarşı ***üsyan*** qaldırdı. Üsyan ***nəticəsində:***

- ✓ **Romada padşahlıq idarə üsulu ləğv edildi.**
- ✓ **Romada respublika quruluşu yaradıldı.**

Respublika dövründə ali hakimiyyət orqanı olan ***Xalq yığıncağı*** hər il ***patrisilərin sırasından*** Romanı idarə etmək üçün ***iki konsul*** və məmurları seçirdi. ***Konsullar:***

- ➢ *Bir il Romanı idarə edirdilər.*
- ➢ *Müharibə zamanı orduya komandanlıq edirdilər.*

Respublika dövründə böyük hüquqa malik olun ***Senat*** aşağıdakı işləri həll edirdi:

- ➢ *Maliyyə işlərinə baxır, müharibə və sülh məsələlərini həll edirdi.*
- ➢ *Xalq yığıncağında səsə qoymaq üçün qərarlar hazırlayırdı.*

***QEYD: Müəyyən müddətə seçilən adamlar tərəfindən idarə olunması*** **e.ə V əsrdə** Afinanın və Romanın idarə quruluşunda oxşarlıq təşkil edir.

### Patrisilərlə plebeylər arasında mübarizə

Respublika quruluşu bərqərar olduqdan sonra da plebeylər hüquqsuz qaldılar. Belə ki, Patrisilər onlara ***icma torpaqlarından istifadə etməyə*** və ***dövlətin idarə işində iştirak etməyə icazə*** vermirdilər. Bu səbəbə görə də qədim Romada **e.ə V əsrdən - e.ə III əsrədək *patrisilərlə plebeylər*** arasında iki yüz ildən çox müddətdə mübarizə getmişdi. Plebeylər belə olduqda ***orduda xidmət etməkdən*** imtina edərək, Romanı tərk edib başqa yerlərdə şəhər salacaqları ilə patrisiləri hədələdilər. Patrisilər plebeylərsiz ordunun zəif olacağından ehtiyyat edərək onlara güzəştə getdilər. **E.ə V əsrədə** plebeylər ***xalq tribunu (öz müdafiəçilərini) seçmək hüququ*** qazandılar. X***alq tribununu öldürmək*** Romada ***ən ağır cinayət*** sayılırdı. Xalq tribunu:

- *Romada **plebeylərin mənafeyini müdafiə etmək üçün** seçilirdi.*
- ***Xalqa** arxalanaraq onların xeyirlərinə qanunlar qəbul edirdilər.*
- *Konsul və senatın plebeylərə aid hər bir sərəncamına **veto qoymaq** (ləğv etmək) hüququna malik idi.*
- *Plebey istədiyi zaman tribundan kömək istəyə bilərdi.*

Beləliklə, iki yüz ildən çox **(e.ə 509-265)** davam edən patrisilərlə plebeylərin mübarizəsi nəticəsində plebeylər qalib gələrək aşağıdakı hüquqları qazandılar:

- ✓ *Romanın tamhüquqlu vətəndaşına çevrildilər.*
- ✓ *Xalq tribunu seçmək və konsul vəzifəsini tutmaq hüququ aldılar.*
- ✓ *İcma torpaqlarından torpaq payı almaq hüququ qazandılar.*
- ✓ *Patrisilər plebeyləri daha borca görə qul edə bilməzdilər.*
- ✓ *Hər bir Roma vətəndaşı istənilən vəzifə tutmaq hüququ qazandı.*

Plebeylərin xalq tribunu seçmək hüququ almasından ***iki əsr sonra*** Romanın tamhüquqlu vətəndaşına çevrilərək istənilən vəzifə tutmaq hüququ qazanmışdılar.Lakin vəzifəyə görə ***əməkhaqqı verilmədiyi üçün*** yoxsullar vəzifə tutmaq istəmirdilər.

**QEYD:** ***Torpaq əldə etmək və bütün vəzifələrə seçilmək hüququ veriməsi*** **e.ə VI əsrdə** Afinada demosun, **e.ə III əsrdə** Romada plebeylərin vəziyyətində oxşar cəhət təşkil edirdi. Lakin **e.ə V əsrdə** qədim Yunanıstanda yoxsullar dövlət vəzifələrinə seçilə bildiyi halda, **e.ə III əsrdə** qədim Romada yoxsulların dövlət vəzifələrinə ***seçilə bilməməsinin səbəbi burada vəzifəyə görə əməkhaqqı verilməməsi*** idi. Afinada aristokratlarla demosun, Romada plebeylərlə patrisilər arasında mübarizənin nəticəsində də oxşarlıq var idi. Belə ki, hər ikis də ***borca görə qula çevrilməsi qadağan edildi və dövlət vəzifələri tutmaq hüququ əldə edirdilər***.

***Patrisilərlə mübarizədə plebeylərin əldə etdiyi hüquqlar***

| İcma tarlasından torpaq almaq hüququ əldə etdilər | Borca görə qula çevrilməmək hüququ əldə etdilər | Xalq tribunu seçmək hüququ əldə etdilər | Konsul vəzifəsini tutmaq hüququ əldə etdilər |
|---|---|---|---|

***Qədim Roma respublikasının idarəetmə sistemi***

| **Konsul** | **Xalq yığıncağı** | **Senat (Ağsaqqallar şurası)** | **Tribun** |
|---|---|---|---|
| Bir il Romanı idarə edir, müharibə zamanı ***orduya komandanlıq*** edirdi | Hər il ***patrisilərin sırasından*** Romanı idarə etmək üçün ***konsul*** və məmurları seçirdi | ***Maliyyə işlərinə*** baxır, ***müharibə və sülh məsələlərini*** həll edir, Xalq yığıncağında səsə qoymaq üçün qərarlar hazırlayırdı | Qanunlar qəbul edir, Konsul və senatın plebeylərə aid hər bir sərəncamına ***veto*** qoya bilirdi |

### Qall tayfalarının Romaya yürüşü (e.ə 390)

Respublika dövründə Roma dövləti qall tayfalarının hücumlarına məruz qalmışdı. Qall tayfaları:

- ✓ Döyüşkən tayfa olub, ***İtaliyanın şimalında*** yaşayırdılar.
- ✓ Yunanlar tərəfindən ***kelt*** adlandırılırdılar.
- ✓ Papaqlarına xoruz lələkləri bağladıqları üçün romalılar onları ***«qallar» (xoruz)*** adlandırırdılar.
- ✓ **E.ə 390-cı ildə** Romaya yürüş etmişdilər.
- ✓ Bu gün işlədilən ***«Qazlar Romanı xilas etdi»*** – ifadəsi onların adı ilə bağlıdır.

**E.ə. 390-cı ildə** İtaliyanın şimalında məskunlaşan döyüşkən qallar Roma şəhərinə hücum etdilər. Qall tayfalarının Romaya yürüşü nəticəsində ***Roma ordusu pərən-pərən salındı, qallar Roma şəhərinin Kapitoli təpəsi üzərindəki qaladan başqa hər yeri tutaraq dağıtdı***. Romanı tutan qallar ***300 kq qızıl almaq şərti ilə*** şəhəri tərk edəcəklərini bildirdilər. Bu zaman

qızıl tərəzidə çəkilərkən qalların başçısı öz ağır qılıncını tərəzinin çəki daşları qoyulan gözünə atdı. Romalılar buna etiraz edərkən qalların başçısı demişdir: ***“Bu məğlubların bəlasıdır”***.

### İtaliyanın Roma tərəfindən işğalı



*Roma döyüşçüsü*

Roma dövləti yeni ərazilər tutmaq üçün ***orduya*** xüsusi fikir verirdi. Roma ordusunun hərbi quruluşu ***legion*** adlanırdı. Roma legionuna ***aiddir:***

- Əsas gücü ağır silahlı ***piyadalardan*** ibarət idi.
- Nizə və qılıncla silahlanır, zirehli paltar geyinirdilər.

Süvari qoşun hissələri piyadaları cinahlardan qoruyur, qaçan düşməni təqib edirdilər.

Güclənmiş romalılar **e.ə III əsrdə Cənubi İtaliyadakı** yunan şəhərlərini tutmaqla yarımadanın bütün ərazisinə sahib oldular. Romalılar onlar tabe etdikləri tayfaları ***«Parçala və hökmranlıq et!»*** siyasəti ilə idarə edirdilər. Bütün İtaliyanı tutduqdan sonra Roma **Siciliya adasını** ələ keçirməyə can atırdı.

### Pun müharibələri (e.ə. 264 – e.ə 146)

Roma Siciliya adasını ələ keçirmək istəyərkən Şimali Afrikada yerləşən güclü Karfagen dövləti də işğal etməyə çalışırdı. Karfagen şəhərinin əsası ***finikiyalılar*** tərəfindən qoyulmuşdu. Romanın ***Siciliyanı istila etmək istəyi*** Karfagen arasında müharibəyə səbəb oldu. **E.ə. 264- e.ə 146-cı illərdə** fasilələrlə Roma ilə Karfagen arasında davam edən müharibələr baş verdi. Romalılar karfagenliləri ***punlar*** adlandırdıqları üçün bu müharibə Pun müharibələri adını aldı.

***Pun müharibələrinin gedişi zamanı:***

- ✓ **Siciliya, Sardiniya, Korsika adaları** Roma tərəfindən işğal olundu.
- ✓ **Karfagen şəhəri** tutularaq dağıdıldı.
- ✓ Roma senatının qərarı ilə Karfagen Romanın ***əyaləti*** elan edildi.

**E.ə. 146-cı ildə Yunanıstan** da Roma tərəfindən işğal olundu. Şəhərlər ələ keçirildikdən sonra qalib sərkərdə qarət üçün onu ***döyüşçülərin*** ixtiyarına verirdi. Qənimətin bir hissəsi Roma xəzinəsinə daxil olurdu. Qalib sərkərdə ***triumfla*** dörd ağ at qoşulmuş arabada Romaya daxil olurdu. işğal olunmuş əraziləri ***canişinlər*** idarə edirdilər.

**Pun müharibələri zamanı Romalıların əli keçirdiyi ərazilər**

- **Siciliya**
- **Korsika**
- **Sardiniya**

**Roma işğalları**

- **İtaliya**
- **Karfagen**
- **Makedoniya**
- **Yunanıstan**
- **Misir**







***«Pirr qələbəsi»***

*Hazırda çox böyük itkilər hesabına başa gələn uğurlar zamanı bəzən «pirr qələbəsi» ifadəsini işlədirik. Qədim tarixçilərin yazdığına görə bu ifadə belə yaranmışdır. Romalılar Cənubi İtaliyada yunan şəhərləri ilə vuruşarkən, Balkan yarımadasında Epir padşahlığının hökmdarı Pirr öz ordusu ilə yunanlara köməyə gəlir. Onun ordusu 22 min piyada, 3 min atlı döyüşçü və 20 döyüş filindən ibarət idi. Döyüş zamanı fillər romalıların sıralarına girdi. Fillərin üstündə oturan döyüşçülər romalıların üzərinə ox və mizraq yağdırırdılar. Pirrin ordusu bir neçə qələbə qazandı. Lakin bu qələbələr çox böyük itki hesabına başa gəldiyi üçün Pirr dedi: «Daha bir belə qələbə də qazansaq, mən ordusuz qalacağam». Nəticədə Pirrin ordusu məğlub edildi. Bu gün də «Pirr qələbəsi» ifadəsi məğlubiyyətə bərabər qələbə mənasında işlənir.*

### Romada qulların vəziyyəti

Roma işğallar nəticəsində geniş ərazilər ələ keçirdi. Roma işğal etdiyi şəhərləri ələ keçirdikdən sonra hərbi əsirlər və işğal olunmuş ərazilərin dinc əhalisi qul edilib satılırdı.

Qədim Romada qulların vəziyyəti son dərəcə ağır idi. Qul sahibləri qula ağır işgəncələr verə, onu ölümə məhkum edə bilərdilər. İtaət etməyən qullar ***daş karxanalarında*** işlədilirdi. Qullar heç bir hüquqa malik deyildilər. Romalılar qulları ***«danışan əmək alətləri»*** adlandırırdılar. Romada xeyli qul bazarı var idi. Romada ən böyük qul bazarı Egey dənizindəki ***Delos adasında*** yerləşirdi. Çevik və güclü qullara xüsusi məktəblərdə silah işlətməyi öyrədir, onları bir-biri ilə vuruşmağa məcbur edirdilər.



*Romada qul bazarı*

### Qladiator döyüşləri

Roma qladiator döyüşlərinin təşkil edildiyi qədim dövlət idi. Qladiator ***güclü, çevik, bir-biri ilə vuruşmağa məcbur edilən qullara*** deyilirdi.

Qladiator döyüşlərinə aiddir:

- ✓ *Romada **e.ə III əsrdən** başlayaraq keçirilirdi.*
- ✓ *Döyüşdən əvvəl qullar **xüsusi məktəblərdə** döyüşə hazırlanırdı.*
- ✓ *Qladiator döyüşləri əsasən **bayramlarda** keçirilirdi.*
- ✓ *Qladiator döyüşləri keçirmək üçün **amfiteatr** tikilirdi.*
- ✓ *Qladiatorlar amfiteatrın mərkəzində yerləşən **arenada** döyüşürdülər.*
- ✓ *Məğlub edilən, lakin sağ qalan qladiatorun taleyi **tamaşaçılardan** asılı idi.*
- ✓ *Qladiatorların yırtıcı heyvanlarla da (şir, pələng və.s) təkbətək döyüşləri keçirilirdi.*



*Qladiator döyüşləri*

Qeyd olunduğu kimi, məğlub edilən, lakin sağ qalan qladiatorun taleyi tamaşaçılardan asılı idi. Belə ki, tamaşaçılar baş barmaqlarını qaldırırdılarsa, məğlub olan qladiator sağ qalırdı. Baş barmaqlarını aşağı saldıqda isə o, qalib gələn qladiator tərəfindən öldürülürdü.

**Qullara verilən adlar**

- ***Misirdə "canlı ölülər"***
- ***Yunanıstanda "insan ayaqlılar"***
- ***Hindistanda "yad", "düşmən"***
- ***Romada "danışan əmək alətləri"***
- ***Spartada "hilotlar"***

### Tiberi və Qay Qrakx qardaşlarının torpaq islahatı

Romada kəndlilərin çoxu torpaqsız idi. **E.ə. 133-cü ildə** xalq yığıncağında xalq tribunu seçilən Tiberi Qrakx kəndlilər üçün yeni ***torpaq qanunu*** təklif etdi. Tiberi Qrakxın torpaq qanunu ***quldarların*** mənafeyinə zidd idi. Buna görə də varlı quldarlardan ibarət olan **Senat** bu təklifi rədd etdi və qanunu qəbul etmədi. Buna baxmayaraq, Tiberinin çağırdığı ***xalq yığıncağı*** torpaq qanununu qəbul etdi. Tiberi Qrakxın torpaq qanununa əsasən ***torpaqlar quldarlardan alınıb yoxsullara paylanmağa başlanıldı***. Senat xalqdan qorxub Xalq yığıncağının qanununa qarşı çıxmadı. Tiberinin düşmənləri ona böhtan ataraq ***padşah*** olmaq istəməkdə günahlandırdılar. Bundan istifadə edən senat xalqı ***"respublikanı xilas etməyə"*** çağırdı. Onlar isə Tiberini və onun 300 tərəfdarını öldürdülər. Ölənlərin meyitini cinayətkar kimi ***Tibr çayına*** atdılar. Tiberi Qrakxın torpaq qanunu isə tam həyata keçmədi.

**E.ə. 123-cü ildə** Tiberinin qardaşı **Qay Qrakx** xalq tribunu seçildi. Qay Qrakx tribun seçildikdən sonra ***kəndlilərə torpaq paylanmasını davam etdirdi.*** Lakin qardaşı kimi, o da öldürüldü və islahat yarımçıq qaldı.





*Tiberi və Qay Qrakx qardaşları.*

### Spartak üsyanı (e.ə 74 - e.ə 71)

**E.ə 74-cü ildə** ***Kapuya şəhərindəki qladiator*** məktəbində qullar qiyam qaldırdılar. 78 nəfər qul qaçaraq **Vezuvi** dağının zirvəsində düşərgə saldı. Üsyana **Spartak** başçılıq edirdi. Spartak Balkan yarımadasının şimal-şərqində yaşayan ***frakiya tayfasından*** idi. O, romalılar tərəfindən əsir alınaraq qladiator məktəbinə verilmişdi. Tezliklə Spartaq üsyana başçılıq edərək öz ordusunda ciddi nizam intizam yaratdı. Ətraf malikanələrin qulları da Spartaka qoşuldular. Onlar Kapuyadan göndərilmiş hərbi dəstəni məğlub edərək xeyli silah ələ keçirdilər.

Senatın göndərdiyi qoşun üsyançıların düşərgəsi hesab olunan **Vezuvi** dağını mühasirəyə aldı. Lakin üsyançılar üzüm tənəklərindən hördükləri nərdivanlarla gecə ikən sıldırım qayadan enərək romalıları darmadağın etdilər.

Senat üsyançılara qarşı **Krassın** başçılığı ilə yeni böyük ordu göndərdi. Krass üsyançıların yolunu kəsib onları tələyə saldı. Spartak üsyançılara ***«acından ölməkdənsə, qılınc zərbəsindən ölmək daha yaxşıdır»*** sözləri ilə müraciət etdi və onları Krassın iordusu üzərinə hücum etdi.

**E.ə. 71-ci ildə** Roma qoşunları ilə son döyüşdə Spartak həlak oldu. Krassın və onun köməyinə yetişən **Pompeyin** qoşunları üsyançıları darmadağın etdi. Romalılar Kapuyadan Romaya gedən yol boyunca 6 min qulu çarmıxa çəkdilər.





*Kapuya şəhərindəki qladiator məktəbi (müasir şəkil)*







*«Spartak» filmindən kadrlar*

## Roma imperiyasının yaranması və süqutu (e.ə. 30 – e. 476)

### I vətəndaş müharibəsi (e.ə 49). Yuli Sezarın Romada hakimiyyəti ələ keçirməsi (e.ə 49-44)

Spartak üsyanı yatırıldıqdan sonra Romada hakimiyyət uğrunda mübarizə gücləndi. Mübarizə, əsasən sərkərdələr - **Krass, Pompey** və **Yuli Sezar** arasında gedirdi. Konsulluq müddəti bitdikdən sonra Senat Sezarı Romadan uzaqlaşdırmaq üçün onu ***Qalliyanın canişini*** təyin etdi. Sezar Qalliyaya canişin təyin edilərkən ***Qalliyanın yalnız cənub hissəsi*** romalılara məxsus idi. Qalların müqavimətini qıran Sezar isə bütün **Qalliyanı** Romaya tabe etdi. Yuli Sezar Qalliyanın işğalından sonra sadiq qoşununa arxalanaraq ***Romada hakimiyyəti ələ keçirmək*** fikrinə düşdü. Bu məqsədlə Sezarın qoşunları **e.ə. 49-cu ildə** Roma üzərinə hərəkət etdi. Sezarı ya Roma üzərində hakimiyyət, ya da rüsvayçı qətl gözləyirdi. Lakin Sezar xeyli düşündükdən sonra, **«Püşk atılmışdır!»** deyib Romaya doğru irəlilədi. Sezara qarşı hərəkət edən **senat qoşunlarına** Pompey başçılıq edirdi.

Sezarın qoşunları müqavimətə rast gəlmədən Romanı və bütün İtaliyanı tutdu. Sezar Pompeyin ordusunu darmadağın etdi. Senat qoşunlarına başçılıq edən Pompeyin Sezara qarşı müqavimət göstərməyərək Romanı tərk etməsinin və Sezarın Romanı müqavimətsiz tutulmasının səbəbi o idi ki, ***Sezar o qədər cəld hərəkət etdi ki, Rompey Romanın müdafiəsini təşkil edə bilmədi***.



*Yuli sezar*

Sezar tərəfdarları ilə Pompey tərəfdarları arasında vuruşmalar Romada **I vətəndaş müharibəsi** adlanır.

**Yuli Sezar (e.ə 49 – e.ə 44)** Romada ali hakimiyyəti ələ aldıqdan sonra senat onu ömürlük **diktator** elan edərək **imperator** titulunu verdi. Lakin, Yuli Sezar Romada respublikaya son qoymadı. Qədim Romada Sezara ***padşah kimi*** ehtiram göstərilirdi. Yuli Sezara padişah kimi ehtiram göstərilməsini aşağıdakı faktlar da sübut edir:

- ***Metal pullar üzərində Yuli Sezarın şəklinin həkk olunması.***
- ***Yuli Sezarın heykəllərinin allahların heykəlləri ilə yanaşı qoyulması.***

Lakin, Sezarın Romada təkbaşına hakimiyyəti uzun sürmədi. Senatorların bir hissəsi Sezara sui-qəsd təşkil etdi. Sezarın sui-qəsdinə yaxın dostu **Brut** başçılıq edirdi. **E.ə 44-cü ildə** Sezar ***sui-qəsd nəticəsində*** öldürüldü.



*Sezarin öldürülməsi*




### II vətəndaş müharibəsi. Romanın imperiyaya çevrilməsi

Sezarı öldürən qəsdçilər ***özlərinə Romada dayaq tapmadığı üçün*** buradan qaçmağa məcbur oldular. Sezarın öldürülməsindən sonra onun təcrübəli köməkçisi **Oktavian,** Sezarın bacısı nəvəsi **Antoni** ilə qüvvələrini birləşdirib Romada hakimiyyəti ələ alaraq ***respublikaçılara qarşı*** mübarizəni davam etdirdi. Nəticədə Antoni və Oktavian respublikaçıları məğlub edərək Roma dövlətinin idarə işlərini öz aralarında bölüşdürdülər: Roma imperiyasını aralarında bölən Oktavian və Antoni, birlikdə gəldiyi razılığa görə:



*Oktavian Avqust*

1. **Oktavian Roma şəhərində oturmaqla Romanın qərb əyalətlərini idarə edirdi.**
2. **Antoni Misirin paytaxtı İsgəndəriyyə şəhərində oturmaqla ölkənin şərq əyalətlərini idarə idirdi.**

Lakin zaman keçdikcə Antoni ilə Oktavian arasında ziddiyyətlər gücləndi və bu ziddiyyətlər ***yeni vətəndaş müharibəsinə*** səbəb oldu. Antoni və Oktavian arasında həlledici döyüş **e.ə 30-cu ildə** oldu. Döyüş ***nəticəsində:***



*Antoni*

- *Antoni məğlubiyyətə uğradı və yaşadığı İsgəndəriyyə şəhərinə qayıtdı.*
- *Oktavianın qoşunları İsgəndəriyyəni tutdular, Misir Romanın əyalətinə çevrildi.*
- *Oktavian Romanın şərq və qərb əyalətlərinin tək hakimi oldu və* ***təkbaşına Romada hakimiyyətini yaratdı.***

Beləliklə, Romada II vətəndaş müharibəsi ***Oktavianın Antoni üzərində qələbəsindən sonra*** başa çatdı.

### Oktavian Avqustun hakimiyyəti

**Oktavian Avqustun hakimiyyəti (e.ə 30 – e. 14)** dövründə:

- ✓ Roma dövləti ***imperiya*** adlanmağa başladı.
- ✓ Romada özünün təkbaşına hakimiyyətini yaratdı.
- ✓ Oktavian Senat tərəfindən ***"Avqust"*** (müqəddəs) ***fəxri adına*** layiq görüldü.
- ✓ Oktavian öz tərəfdarlarını **Senata** vəzifəyə təyin etdi.
- ✓ Roma imperiyası öz ərazilərini ətraf ölkələr hesabına genişləndirdi (e.ə. I əsrdə romalılar Cənubi Qafqaza, o cümlədən qədim Albaniya ərazilərinə qədər gəlib çıxdılar).

***QEYD:*** Yuli Sezar ilə Oktavian arasında oxşar cəhətlər var idi. Belə ki, hər ikisi espublikaçılara qarşı mübarizə aparmış və Romada təkbaşına hakimiyyət yaratmışdılar. Lakin Yuli Sezar Oktavian Avqustdan fərqli olaraq respublika quruluşunu qoruyub saxlamışdır.

***Romada vətəndaş müharibəsi xarakteri daşıyan müharibələr***

- Pompeylə Sezarın tərəfdarları arasındakı müharibə (e.ə 49)
- Oktavian ilə Antoni arasındakı müharibə (e.ə 30)

### Romada quldarlıq təsərrüfatının inkişafı və tənəzzülü

**I-II əsrlərdə** Roma imperiyasında ***quldarlıq təsərrüfatı ən yüksək inkişaf səviyyəsinə çatdı***. Lakin Romada ***quldarlıq qaydalarının*** mövcud olması:

- ➢ Təsərrüfatın tənəzzülünə səbəb olurdu.
- ➢ Texnikanın inkişafını ləngidirdi.

Odur ki, **II əsrin sonları - III əsrdə** ***Romada quldarlıq quruluşunda tənəzzül başlandı***. Romada quldarlıq təsərrüfatının tənəzzülünün əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ✓ ***Quldarlığın texnikanın və ticarətin inkişafını ləngitməsi.***
- ✓ ***Qulun öz əməyinin nəticəsində maraqlı olmaması.***
- ✓ ***Kənd təsərrüfatının tənəzzül etməsi.***

**II-III əsrlərdə** Romada ***su dəyirmanı, gavahınlı mürəkkəb kotan, öküzlə hərəkətə gətirilən biçin aləti, bağlarda işləmək üçün bıçaq aləti*** ixtira edildi və əkinçilikdə tətbiq olunmağa başlandı. Lakin bu alətləri qullara etibar etmirdilər. Nəticədə, qul əməyi getdikcə əhəmiyyətini itirirdi. Qullar üçün yaxşı işləməyin əhəmiyyəti yox idi. Çünki qulların öz əməklərinə marağı az idi. Onlara ancaq yemək və paltar verirdilər. Bütün bunlar quldarlıq təsərrüfatının inkişafı üçün maneəyə çevrildi. Onların marağını artırmaq üçün bəzi quldarlar öz torpaqlarını kiçik sahələrə bölərək qullara və azad kəndlilərə icarəyə verirdilər. Belə icarədarları **«daxmalı qullar»** və **kolonlar** adlandırırdılar. Onlar məhsulun bir hissəsini özlərində saxlayırdılar. **II əsrdə** Roma imperatoru ***qulların öldürülməsini*** qadağan etmişdi. Qədim Romada "daxmalı qullar" və kolonların yaranması ***quldarlıq təsərrüfatının tənəzzülü ilə*** bağlı idi. Kolonlardan fərqli olaraq, «daxmalı qullar» azad deyildilər.

| "Daxmalı qullar" | "Kolonlar" |
|---|---|
| ✓ *II - III əsrlərdə meydana gəlmişdir.*<br>✓ *Kiçik torpaq sahəsinə malik idi.*<br>✓ *Əmək alətlərinə sahib idi.*<br>✓ *Ev tikmək və ailə qurmaq hüququna malik idi.*<br>✓ *Gəlirin bir hissəsini sahibinə verirdi.*<br>✓ *Ağa onunla istədiyi kimi rəfdar edə bilməzdi.* | ✓ *II - III əsrlərdə meydana gəlmişdir.*<br>✓ *İcarədar kəndlilərə deyilirdi.*<br>✓ *Torpaq sahibi ilə icarə müqaviləsi bağlayırdılar*<br>✓ *Torpaq sahibinə icarə haqqı ödəyir, qalan məhsul onun özünə qalırdı.*<br>✓ *İcarə müqaviləsi başa çatdıqdan sonra onlar istədikləri yerə gedə bilərdilər.* |

## Xristianlığın meydana gəlməsi və Romada hakim dinə çevrilməsi



*İncilin ilk nəşrlərindən biri*

Dünyanın təkallahlılıq dinlərindən biri də Xristianlıqdır. Xristianlıq dininə ***aiddir***

- ✓ **I əsrdə** o zaman Romanın əyaləti olan **Fələstində** meydana gəlmişdi.
- ✓ Banisi ***İisus Xristos*** olmuşdur.
- ✓ Roma imperiyasında hakim dinə çevirilmişdi.
- ✓ İmperator **Konstantin** tərəfindən dövlət dini kimi qəbul olunmuşdu.

Xristianların dini kitabı ***"İncil"*** adlanır. Romalılara görə, xristianlığın peyğəmbəri İsanın nitqləri ***Fələstində Roma hakimiyyətini sarsıtmağa*** yönəlmişdi. Ona görə də İsanı tutdular və ağacdan düzəldilmiş xaç üzərində çarmıxa çəkdilər. Rəvayətə görə, İsa üç gün sonra diriləırək göyə qalxmışdı. Bir müddət sonra o, şagirdlərinin yanına gələrək vəd etmişdi ki, diriləri və ölüləri mühakimə etmək üçün bir gün yerə qayıdacaqdır.

Romadan sonra ***yəhudilər, yunanlar, misirlilər, qallar*** və.b xalqlar da xristianlığı qəbul etmişdilər. Xristianlar ***icmalarda*** birləşərək birlikdə ibadət edir, öz bayramlarını keçirirdilər. Xristian icmalarını birləşdirən və **yepiskoplar** tərəfindən idarə olunan xristian təşkilatı - ***kilsə*** yarandı.



*Konstantinin xristianlara ibadət etməyə və məbəd tikməyə icazə verməsi (qədim şəkil)*

Vahid tanrını tanıdıqlarına, imperatorlara sitayiş etməkdən boyun qaçırdıqlarına görə Romanın hakim dairələri xristianların yığıncaqlarını qadağan edirdi.

Romada xristianlıq **IV əsrin əvvəllərində** imperator **Konstantinin** dövründə geniş yayılmağa başladı. **313-cü ildə *Konstantin xristianlara açıq ibadət etməyə və məbədlər tikməyə icazə verdi*.** Konstantin ölümqabağı özü də xristianlığı qəbul etdi. Xristian dininin yüksəlişindəki xidmətlərinə görə xristianlar onu ***müqəddəs*** elan etdilər.

## Roma imperiyasının parçalanması (395)

Roma imperatoru **Konstantin** hakimiyyəti dövründə:

- ✓ **313-cü ildə *xristianlara açıq ibadət etməyə*** və ***məbədlər tikməyə icazə verdi*.**
- ✓ **E.ə 330-cü ildə** Roma imperiyasının paytaxtını **Vizantiyə (Bizansa)** köçürdü.

Avropadan Asiyaya, Aralıq dənizindən Qara dənizə gedən su yolları üzərində yerləşən Vizanti imperator Konstantinin şərəfinə ***Konstantinopol*** adlandırıldı.

**395-ci ildə** Roma imperatoru **I Feodosi** ölüm qabağı Roma imperiyasını iki oğlu arasında bölüşdürdü və Roma imperiyası ***iki hissəyə*** parçalandı.:

1. **Qərbi Roma imperiyasına** – bura ***İtaliya, Avropa, Afrikanın qərb vilayətləri*** daxil idi.
2. **Şərqi Roma (Bizans) impesiyasına** – bura ***Balkan yarımadası, Misir, Romanın Asiyadakı torpaqları*** daxil idi.

Şərqi Roma imperiyasının paytaxtı ***Konstantinopol şəhəri,*** Qərbi Roma imperiyasının paytaxtı isə ***Roma şəhəri*** oldu.

## German tayfalarının Qərqi Roma imperiyasına hücumları

Qərbi Roma imperiyası son illərini yaşayarkən ***barbar tayfalarının*** əlində oyuncağa çevrilmişdi. Artıq zəifləmiş Qərbi Roma imperiyası **V əsrin əvvəlində** german tayfaları olan ***qotların*** və ***vandalların*** hücumuna məruz qaldı.

**V əsrin ortalarında *hunlar*** Romaya yürüş etdilər. Roma Papası hunların başçısı Atilladan Romanı öz himayəsi altına almasını xahiş etdi. Atilla bu təklifi qəbul edib, ordusu ilə geri çəkildi.

## Qərbi Roma imperiyasının süqutu (476)

Vandallar bir sıra Avropa ölkələrini tutaraq, oradan Afrikaya köç etmiş, Romanın Afrikadakı əyalətində **Vandal krallığı** yaratmışdılar. **455-ci ildə *vandallar*** Afrikadan İtaliyaya keçərək Roma şəhərinə hücum etdilər. Vandalların Romaya yürüşü nəticəsində:

- ➢ ***Roma şəhərini asanlıqla tutularaq iki həftə qarət edildi.***
- ➢ ***On minlərlə romalı öldürüldü və ya qul edildi.***

Vandallar heykəlləri sındırır, kitabları məhv edir, evləri yandırırdılar. Vandalların törətdiyi qırğınlar o qədər dəhşətli idi ki, o vaxtdan ***vandalizm*** sözü işlədilir. Ona görə də romalılar ***"vəhşi, mədəniyyət abidələrini və şəhərləri dağıdan"*** qəddar adamları ***vandalizm*** adlandırırdılar.

**476-cı ildə** german tayfalarının baçılarından biri Qərbi Romanın sonuncu imperatoru **Romul Avqustu** taxtdan saldı. Bununla da Qərbi Roma imperiyası süqut etdi. **476-cı ildə** Qərbi Roma imperiyasının süqut etməsi ilə:

- ➢ ***Qərbi Avropada quldarlıq quruluşu dağıldı.***
- ➢ ***Qədim dünya tarixi sona çatdı və Orta əsrlər dövrü başlandı.***



*Barbarl tayfalarının Romaya hücumu. Roma imperiyasının süqutu*

Roma imperiyasının parçalanması

- Qərbi Roma imperiyası (395-476)
  - *Ərazisi:* İtaliya, Avropa, Afrikanın qərb əyalətləri
- Şərqi Roma imperiyası (395-1453)
  - *Ərazisi:* Balkan yarımadası, Misir və Romanın Asiyadakı əyalətləri

**V əsrin 50-ci illəri**

- Atilla Roma şəhərini mühasirəyə aldı
- Vandallar Roma şəhərinə hücum etdi

**476-cı ildə baş vermiş hadisələr**

- Qərbi Roma imperiyası süqut etdi
- Sonuncu Roma imperatoru taxtdan salındı
- Qərbi Avropada quldarlıq quruluşu dağıldı
- Qədim dünya tarixi sona çatdı
- Orta Əsrlər dövrü başlandı

**Yunanıstan və Roma tarixi üçün oxşar cəhətlər**

- Klassik quldar dövlətlər olmuşdular
- Çoxallahlılıq dini mövcud olmuşdur
- Makedoniya çarlığı ilə müharibə aparmışdılar
- Aralıq dənizində ağalıq uğrunda mübarizə aparmışdılar

# Qədim Roma mədəniyyəti

## Elm

**E.ə. I əsr və b.e.-nın I əsrinin başlanğıcını** Roma poeziyasının **«qızıl dövrü»** adlandırırlar. Bu dövrdə Romanın görkəmli elm və sənət adamları yaşayıb-yaratmışlar. Onlardan bəziləri aşağıdakılardır:

- **Vergili** ***«Eneida»*** poemasını yazmışdı.
- **Lukretsi** ***«Cisimlərin təbiəti haqqında»*** poemasını yazmışdı.
- **Varron** ***"Kənd təsərrüfatı"*** və ***"Latın dili haqqında"*** kitablarını yazmışdı.
- **Virtuvi** ***"Memarlıq haqqında" dərslik*** kitabını yazmışdı.
- **Böyük Plini** ***"Təbii tarix"*** əsərini yazmışdı.

Romalilar müəyyən cərrahiyyə əməliyyatları həyata keçirə bilirdilər.



*Romada cərrahiyyə alətləri*

## Teatr

Qədim Roma teatrına ***aiddir:***

- Teatrlarda ***yunan*** və ***Roma müəlliflərinin*** targediya və komediyaları tamaşaya qoyulurdu.
- Yoxsulların və varlıların ən çox sevdiyi tamaşa ***qladiator döyüşləri*** və ***döyüş abrabalarının yarışları*** idi.
- İmperator **Oktavian Avqustun** əmri ilə Romanın ətrafında göl yaradılaraq ***dəniz döyüşləri*** göstərilirdi.
- On minlərlə tamaşaçı üçün tribunları, lojaları olan ***sirk – cıdır meydanı*** tikilmişdir.
- Sirkin qaçış yollarında yüngül döyüş arabalarına qoşulmuş ***at yarışları*** keçirilirdi.

## İncəsənət

Qədim Roma incəsənətinə ***aiddir:***

- ***Heykəltəraşlıq*** və ***rəssamlığın təsviri sənət növü*** daha yaxşı inkişaf etmişdi.
- İncəsənətdə ***yunan*** və ***Şərq memarlıq üsullarından*** geniş istifadə edilirdi.
- Memarları ***tağlar, qübbələr*** və ***gümbəz*** tikməyi öyrənmişdilər.
- Roma memarları **betonu ixtira** etmişdilər. ***Betonun ixtirası*** nəticəsində olduqca möhkəm tikililər tikilirdi.
- Roma heykəltəraşları yunanlardan öyrənmiş, lakin yunanlardan fərqli olaraq onlar insanın ***xarici görünüşünü*** və ***xarakterini*** yaxşı açıb göstərirdilər.

## Memarlıq

Roma qüdrətli dövlətə çevrildikdən sonra onun paytaxtı Roma şəhəri ***Aralıq dənizi hövzəsində*** ən böyük şəhər oldu. O dövrdə ***Roma "Əbədi qızıl şəhər"*** adlanırdı. İmperatorlar şəhərin ***forum*** adlanan ***mərkəzi meydanında*** və onun ətrafında ***abidələr ucaldır, möhtəşəm məbədlər və başqa ictimai binalar*** tikdirirdilər.

Qədim Romada aşağıdakı memarlıq abidələri inşa edilmişdir:

- **Panteon məbədi** – *"Bütün allahların məbədi" sayılırdı.*
- **Kolizey amfiteatrı** – *Burada qladiator döyüşləri keçirilir, tamaşalar göstərilirdi.*
- **Yupiter məbədi** – *Tanrı Yupiterin şərəfinə Kapitoli təpəsində ucaldılmışdır.*
- **Trayan sütunu -** *İmperator Trayanın Dunay çayı ətrafındakı iqələbələrinin şərəfinə ucaldılmışdı.*
- **Zəfər tağları ( triumf )** – *Qədim Romada imperatorların qələbələrini şöhrətləndirmək üçün tikilirdi.*

Müasir dövrə qədər **Parfenon məbədi** və **Kolizey amfiteatrı** qalmaqda olan qədim memarlıq abidələridir.

Romada ac-yalavacların həyacanlarına yol verməmək üçün onlara imperatorların adından ***çörək və xırda pul paylanılır, termlər – hamamlar*** tikilirdi. Termlərdə istirahət zalları və kitabxanalar olurdu.

## Roma mədəniyyətinin əhəmiyyəti

Roma mədəniyyəti dünya mədəniyyətinin inkişafına aşağıdakı töhfələri vermişdir:

- *Aralıq dənizi hövzəsi və digər ölkələrin mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.*
- *Avropa ölkələrinin mədəni inkişafı üçün əsas olmuşdur.*
- *Latın dili italiyan, fransız, rumın və bəzi başqa müasir dillər üçün əsas olmuşdur.*
- *İndi də elmdə istifadə edilən bitkilərin, heyvanların və dərmanların adı latın dilində işlədilir.*
- *Sezar dövründə Romada tətbiq edilən təqvim və ayların adı müasir dövrdə, indi də istifadə olunur.*

Romada ***Sezar dövründə*** təqvim tərtib edilmişdir. Bu təqvimdən indi də bəzi dəyişikliklər edilərək istifadə olunmaqdadır. Romada il ***mart ayından*** hesablanırdı. Bu gün də ayların latın adları saxlanılmışdır. Məsələn, qədim romalılar ***"yeddinci ay"ı - sentyabr*** ,***"onuncu ay"ı dekabr*** adlandırırdılar. ***İyul ayı*** Sezarın şərəfinə, ***Avqust ayı*** isə Oktavianın şərəfinə adlandırılmışdır.

Yunanıstan və Roma ***qədim (antikvusk – qədim deməkdir)*** mədəniyyət yaratmışdır. Buna görə də ***qədim Yunan və Roma mədəniyyəti*** Antik mədəniyyət adlanır.

**Qədim Roma mədəniyyəti**

- Təqvim tərtib edilmişdi
- Relyeflər düzəldilmişdi
- Latın əlifbası tərtib edilmişdi
- Beton ixtira edilmişdi
- Zəfər tağları inşa edilmişdi
- Termlər inşa edilmişdi

## *Bilmək maraqlıdır*





“Eneida” *Vergilinin Roma milli eposu adı ilə tanınan poemasıdır. Əsərin mövzusu Troya dastanından alınmışdır. Burada Troyanın yunanlar tərəfindən dağıdılmasından sonra Priamın qardaşı Anxizin oğlu Eneyin Qaçması və Romaya gəlməsi zamanı başına gələn əhvalatlar, Roma şəhərinin əsasının qoyulması nəql olunur, onun nəslinin gələcək aqibəti barədə məlumat verilir, Yuli Sezar və Oktavian Avqustun da hakimiyyətinin irsiliyinə haqq qazandırılır.*




(1)
T. LUCRETII CARI
DE
RERUM NATURA
Liber Primus.

*Lukretsi Kar "Cisimlərin təbiəti haqqında" fəlsəfi poemanın müəllifidir. Lukretsiyə görə insanı xoşbəxt olmağa qoymayan ölüm qorxusudur. Lukretsinin fikrincə ruh öləndir, o xüsusi hisslərin yalnız müvəqqəti birləşməsidir və bədən öldükdən sonra ayrı-ayrı atomlara parçalanır. Ruhun ölməsinin dərk edilməsi nəinki insanın həyatına, hətta axirət cəzasına inamı aradan qaldırar: nə qədər ki, biz sağıq ölüm yoxdur, ölüm gələndə isə biz olmayacağıq.*




M. TERENTII VARRONIS DE LINGVA LATINA LIBRI
tres, & totidem de analogia, adiectis in fine castigationibus doctissimi uiri Michaelis Bentini, quibus non parum lucis infertur.
His iam recens accessit M. Portij Catonis Originum liber unus. Praeterea index duplex: alter graecanicarum, alter latinarum dictionum.
PARISIIS,
apud collegium Sorbonae.
M.D.XXX.
Mense Septembri.

*Roma yazıçısı Varron e.ə vətəndaş müharibəsi zamanı Yuli Sezara qarşı Pompeyin ordusunda vuruşmuş, müharibədə Sezar qalib gəldikdən sonra isə onun tərəfindən bağışlanmışdır. Lakin Sezar öldükdən sonra Antoni tərəfindən xalq düşməni elan edilərək mülkü müsadirə edildi. Lakin yazıçı sonra Oktavianın sevgisini qazanmış, onun mühafizəsi altında çalışmışdır. Onun “Kənd təsərrüfatı” və “Latın dili haqqında” kitabları dövrümüzədək gəlib çatmışdır.*




C. PLINII SECUNDI
NATURALIS
HISTORIÆ,
TOMUS PRIMUS.
Cum Commentariis & adnotationibus HERMOLAI BARBARI, PINTIANI, RHENANI, GELENII, DALECHAMPII, SCALIGERI, SALMASII, IS. VOSSII, & Variorum.
*Accedunt præterea variæ Lectiones ex MSS. compluribus ad oram Paginarum accur te indicatæ.*
Item JOH. FR. GRONOVII Notarum Liber Singularis ad Illustrem Virum *Johannem Capelanum.*

LUGD. BATAV. ROTERODAMI. } Apud HACKIOS, A°. 1669.

*Böyük Plini dövrünün görkəmli alimi və dövlət xadimi olmuşdur. Plini elm tarixindəki yerini, dövrünə aid məlumatları toplamaq məqsədilə qələmə aldığı, bəşər tarixinin ilk ensiklopediyası sayılan "Təbiət tarixi" kitabına borcludur. Plini günlərini coğrafiya, astronomiya, tibb və təbiət kitablarını oxumaqla keçirərək, səfərlərində təbiət hadisələrini müşaidə etmiş və bu kitabını yazmışdır. Bu gün də əhəmiyyətini saxlamış "Təbiət tarixi" kitabı 37 kitabdan ibarətdir.*








*Panteon məbədi II əsrdə qədim Roma memarlığının intibah dövründə, imperator* Adrianın *zamanında, hələ ondan iki əsr öncə inşa olunmuş Panteon məbədinin yerində ucaldılmışdır. Bunuməbədin üzərindəki "M.AGRIPPALF COS TERTIUM FECIT" latın yazısı da sübut edir. Məbəd daxili mühitinin bütöv kompozisiyası ilə seçilir. Məbədin inşasında dövrünün mahir memarlarından sayılan dəməşqli* Apollodor iştirak *etmişdir. Panteon məbədi VII əsrin əvvəllərində kilsəyə çevrilərək bu günümüzə kimi qorunmuş və yaxşı vəziyyətdə saxlanılmışdır.* Panteon *məbədində İtaliyanın bir çox məşhur adamları* ( Rafael, kral Viktor II Emmanuel, Umberto *və.b) dəfn edilmişdir.*







Kolizey *Qədim Romanın ən əzəmətli tarixi abidəsi olmaqla yanaşı, dünyada ən böyük antik amfiteatr sayılır.* Tikintisi *eramızın* 72-ci ilində *başlamış, 80-ci ildə başa çatdırılmışdır. Amfiteatrın inşasına imperator Vespasian Fələstindəki qələbədən sonra başlamış, onun oğlu* Titin dövründə *bitirilmişdir. Uzun illər Kolizey* qladiatorların *və vəhşi heyvanların döyüş səhnələrinə, dəniz döyüşlərinə ev sahibliyi etmişdir. Katolik kilsəsinin mifik fərziyyələrinə görə xristianlığı qəbul edənlər məhz burada edam edilirmiş.*





*Romanin forum meydanının xarabalığı (müasir şəkil). Roma Forumu ictimai yer idi və antik Romanın mərkəz ərazisi sayılırdı. Ticarət, iş, ibadət və ədalətin hakimiyyəti burada baş verirdi. Bura.*





*Trayan sütunu 113-cü ildə Roma imperatoru Trayanın qələbələri şərəfinə Roma şəhərində ucaldılıb. Trayan , öz karyerasına adi legionerlikdən başlamış və Romada iperatorluğa qədər yüksəlmişdir . Həyatı boyu davamsız olaraq müharibələrdə iştirak etmiş və Romaya əvəzolunmaz tövhələr vermişdir. Onun zamanınadək Roma heç bir vaxt bu səviyyəyə gəlməmiş, imperiyanın sərhədləri bu qədər genişlənməmişdir. İlk vaxtlar sütunun zirvəsində qartal, imperatorun ölümündən sonra isə Trayanın heykəli qoyulmuşdu. Bu gün də öz orjinallığını qoruyan və heç bir rekanustruksiyaya məruz qalmayan Trayan sütunu Roma şəhərinin simvollarından biri hesab olunur.*

*Zəfər tağı (Triumf ) - Qədim Romada qalib gəlmiş sərkərdənin öz qoşunu və əldə edilmiş qənimətlərlə birlikdə dörd ağ at qoşulmuş arabada şəhərə daxil olması hadisəsi idi. Zəfər Tağı şəhərə girişdə, küçənin sonunda , körpü başlanğıcında, böyük küçələrdə qaliblərin şərəfinə və ya hansısa bir vacib hadisə şərəfinə ucaldılırdı.*

# ORTA ƏSRLƏR DÖVRÜ

Qədim insanların təsərrüfat həyatı zaman keçdikcə dəyişdi. Cəmiyyət təbəqələrə: qul sahiblərinə və qullara ayrıldı. Bununla da ibtidai icma quruluşu dağıldı. Quldarlıq quruluşu və quldar dövlətlər yarandı. Quldarlıq quruluşu qul sahibi və qul arasındakı münasibətlərə əsaslanırdı. İmperiyaların ərazisi genişləndikcə qulların sayı artır, qul əməyinin məhsuldarlığı isə azalırdı. Çünki qulun öz əməyinə marağı yox idi. Zaman keçdikcə qul əməyi cəmiyyətin inkişafına mane olmağa başladı. Buna görə də Qədim dünyanın quldar dövlətləri bir-birinin ardınca dağılırdı. Qul sahibləri öz qullarına müəyyən güzəştlər etməli oldular. Onların öz əməyinə marağını artırmaq üçün qullara torpaq payı ayırır, əmək alətləri saxlamağa və ailə qurmağa icazə verirdilər. Zaman keçdikcə qul əkinçi kəndliyə, ağa isə torpaq sahibinə çevrilirdi. Kəndli əldə etdiyi gəlirin böyük hissəsini torpaq sahibinə verməli idi. Kəndli ilə sahibkar arasındakı münasibətlər vergi və torpaq münasibətlərinə əsaslanırdı.

**476-cı ildə** Qərbi Roma imperiyasının süqutu ilə ***quldarlıq quruluşu*** başa çatdı. Bundan sonra dünya tarixinin ***orta əsrlər dövrü*** başlandı. Lakin feodalizm quruluşu hər yerdə eyni vaxtda yaranmamışdır. Məsələn, **Çində** və **Azərbaycanda** feodalizm quruluşu **III əsrdə**, **Qərbi Avropada V əsrin sonlarında** yaranıb inkişaf etmişdi. Asiya və Avropa xalqlarının əksəriyyəti feodalizm quruluşunda yaşasalar da **Afrika, Amerika** və **Avstraliya** xalqlarının çoxu ***ibtidai icma quruluşunda*** yaşayırdılar. Feodalizm quruluşunun ayrı-ayrı xalqların həyatında hökmranlıq etdiyi müddət də eyni olmamışdır.

Feodalizm quruluşu inkişafına uyğun olaraq üç dövrə ayrılır:

**I mərhələ: Erkən orta əsrlər dövrü (V əsrin sonlarından – XI əsrin ortalarına qədər).**

**II mərhələ: Feodalizmin inkişafı (Klassik feodalizm) dövrü (XI-XV əsrlər).**

**III mərhələ: Son orta əsrlər dövrü (XVI əsr – XVII əsrin birinci yarısı).**

Orta Əsrlər dövründə feodal münasibətlərinin yaranması və inkişafı fonunda Şərqdə və Avropada mərkəzləşmiş dövlətlərin necə formalaşdığından bəhs ediləcək. Feodalizm Şərqdən başladı və ilk mərkəzləşmiş dövlətlər də Şərqdə yarandı. Şərqdən sonra Avropa öz tarixinin feodalizm mərhələsinə daxil oldu. Şərqə nisbətən burada feodal münasibətləri daha sürətlə inkişaf etdi. Avropada bir-birinin ardınca mərkəzləşmiş dövlətlər yarandı və çox çəkmədən qüdrətli dövlətlərə çevrildi. Onlar arasındakı müharibələr, işğallar dünya xalqlarını məhrumiyyətlərlə üz-üzə qoydu. Lakin bütün bunlar inkişafın qarşısını ala bilmədi. Yeni coğrafi kəşflər, elmin, texnikanın inkişafı insanların həyatını dəyişdi.

Son orta əsrlər dövründə ***feodalizm quruluşu dağıldı*** və ***kapitalist münasibətləri*** meydana gəldi. Feodalizm quruluşunun dağılması və kapitalist münasibətlərinin meydana gəlməsi də hər yerdə eyni vaxtda olmamışdır. Bu proses Qərbi Avropanın bəzi qabaqcıl ölkələrində **XVI əsrin sonu – XVII əsrdə (Niderland və İngiltərədə)**, bəzilərində **XVIII əsrdə (Fransada)**, hətta **XIX əsrin birinci yarısında (Almaniya və İtaliya)**, Rusiya və Qafqaz xalqlarında **XVIII əsrin sonu – XIX əsrin birinci yarısına,** Asiya ölkələrində **XIX əsrin sonlarda** baş vermişdir.

# TÜRK VƏ ŞƏRQ XALQLARI ORTA ƏSRLƏR DÖVRÜNDƏ

## Qərbi Hun imperatorluğu (IV əsr - 470)

### «Xalqların böyük köçü»nün başlanması

Avrasiya materikində türk tayfalarının yaşadığı torpaqlar kontinental iqlimə malik ərazilər idi. Burada çöl və səhralar zaman keçdikcə böyüyür. Bu isə otlaq sahələrinin azalmasına və köç etməsinə səbəb olurdu. Odur ki, Böyük Hun dövlətinin dağılmasından sonra türklər ***iki istiqamətdə*** köç etdilər:

- Bir qismi **İdildən (Volqadan) qərbə** doğru yayıldı. Onların təsiri altında ***alanlar, qotlar*** və digər xalqlar da **Mərkəzi** və **Qərbi Avropaya** köç etdilər. Nəticədə Avropada quldarlıq quruluşu feodalizm münasibətləri ilə əvəz olundu.
- Bir qismi **Qərbi Türküstan ətrafına köç etdilər.** Qərbi Türküstan ətrafına köç edən türklər **IV əsrin sonlarında Ağ Hun dövlətini,** İdil çayından qərbə köçən türklər isə **Qərbi Hun dövlətini** yaratdılar.

Erkən orta əsrlərdə də əsas məşğuliyyəti ***maldarlıq*** olan türk tayfaları qərbə yürüş etdilər. Həmin tayfaları ümumilikdə ***hunlar*** adlandırırdılar. Bu köçün siyasi və sosial səbəbləri də var idi. Əhalinin artımı və tayfalar arasında siyasi çəkişmələr də hunların köç etməsinə böyük təsir göstərdi. Tarixə «Xalqların böyük köçü»nün başlanğıcı kimi düşmüş bu yürüş **IV əsrdə *hunların*** Qərbə yürüşü ilə başladı və **VI əsrdə *slavyanların*** Bizans ərazisində məskunlaşması ilə başa çatdı.

***Hunların köç etməsinin səbəbləri***







### Qərbi Hun imperatorluğu yaranması (IV əsrin sonları)

"Xalqların böyük köçü" zamanı hun tayfaları qərbə doğru hərəkət etdi. Qərbə doğru hərəkət edərkən ***hunlar:***

- **370-ci ildə** Don sahilində ***alanları*** məğlub edərək **Azov ətrafı əraziləri** və **Şimali Qafqazı** ələ keçirdilər.
- **371-ci ildə** Krımda ***ostqot tayfaları*** ilə döyüşlərdə onları məğlub edərək **Krımı** ələ keçirdilər.
- **400-cü ildə Dunay çayı sahilinə** çataraq burada digər ***qot tayfalarını*** məğlub edərək **Pannoniyada** (Macarıstan ərazisinin qərbində) məskunlaşdılar. Bununla da Cənub-Şərqi Avropanın bir hissəsi hunların tabeliyinə keçdi.
- **İdil (Volqa) çayından Dunay çayına qədər ərazini** ələ keçirərək burada Qərbi Hun dövlətini qurdular
- Hunların digər bir hissəsi **Ön Asiya istiqamətində** hərəkət edərək Dərbənd keçidi vasitəsilə Azərbaycana, mənbələrdə deyildiyi kimi, «**Odlar ölkəsinə**» gəldi və xalqımızın tərkibinə daxil oldu.




*Hun tayfalarının yürüşləri.Qərbi Hun imperatorluğunun ərazisi*

### Qərbi Hun imperatorluğu Atillanın hakimiyyəti dövründə (434-453)

Atillanın hakimiyyəti dövründə Qərbi Hun dövləti qüdrətli imperatorluğa çevrildi. İmperatorluğun sərhədləri ***şərqdə* Volqa çayından *qərbdə* Reyn çayına, *cənubda* Balkan yarımadasından *şimalda* Baltik sahillərinə qədər** böyük bir ərazini əhatə edirdi. İmperatorluğun ərazisinə müasir **Rumıniya, Macarıstan, Avstriya, Çexiya, Slovakiya, Cənubi Rusiya və Almaniyanın bir hissəsi** daxil idi.

Atillanın ordusunda hunlarla yanaşı, bir çox tayfa və xalqların döyüşçüləri vuruşurdular. Hər bir tayfanın Atillanın yanında nümayəndəsi var idi. Qərb dövlətlərində yaşayan əhali bu sərkərdəni ***«Tanrı qırmancı Atilla»*** adlandırırdı.

Avropa mənbələrində Atillanın şəxsiyyəti haqqında yazılır ki, Atilla möhkəm iradə və xarakterə, iti ağıla malik idi. O, düşməninə qarşı amansız, silahdaşları ilə münasibətdə alicənab və xeyirxah olmuşdur.






*Hökmdar Atillanın Macarıstanın Budapeşt şəhərində qoyulmuş heykəli*

Avstriya | Almaniyanın bir hissəsi | Macarıstan

Yuqoslaviya ← **Qərbi Hun imperiyası** → Rumıniya

### Qərbi Hun imperatorluğunun Bizansla münasibətləri

Atilla sələfləri kimi Bizansı təzyiq altında saxlayaraq onu sülh bağlamağa məcbur etmişdi. Lakin sülh bağladıqdan sonra Bizans Qərbi Hun imperatorluğu ilə bağladığı barışıq şərtlərini pozur, illik vergini əskik ödəyir və gecikdirir, qaçqınları himayə edirdi. Odur ki, Atilla ordusu ilə yenə də Bizansa yürüşə başladı.

**447-ci ildə** Atilla yenicə təşkil olunmuş ordusu ilə Bizansa yürüş etdi. Yürüş zamanı Atilla yolu üzərindəki bütün şəhərləri ələ keçirdi və **Konstantinopolu** mühasirəyə aldı. Bizans imperatoru ölkəni xilas etmək üçün təcili olaraq Atillanın yanına elçi göndərdi və Atillanın tələb etdiyi bütün şərtlərə əməl edəcəyini bildirdi. Elçilər çox ağır şərtlərlə sülh müqaviləsi imzaladılar.Bundan sonra Atilla **Konstantinopoluun mühasirəsini dayandıraraq geri çəkildi.**

**Atillanın Bizansa qarşı yürüşə çıxmasının səbəbləri**

- ***Bizansın lunlarla bağladığı sülhünün şərtlərini pozması***
- ***Bizansın illik vergini gecikdirməsi və qaçqınları himayə etməsi***

### Qərbi Roma ilə münasibətlər. Katalaun döyüşü (451)



Atilla Katalaun döyüşündə

Bizans yürüşündən sonra Atillanın əsas məqsədlərindən biri Qərbi Roma imperiyasını tabe etmək idi. Bu məqsədlə Atilla 451-ci ildə 200 min ordu ilə **Qalliyaya** doğru irəlləyərək Orlean şəhərinə çatdı. Burada **451-ci ildə** ***Katalaun*** ərazisində **Aetsinin** başçılıq etdiyi Roma ordusu ilə qanlı döyüş baş verdi. Qot tarixçisinin məlumatına görə döyüş nəticəsində:

- ***Hər iki tərəfdən 160 min əsgər öldürüldü.***
- ***Atilla ordusunun yenilməzliyin görən Aetsi geri çəkildi.***

Atilla Katalaun döyüşündən sonra hərbi əməliyyatları davam etdirərək **452-ci ildə** Roma şəhərinin darvazaları qarşısına gəldi. Bu zaman papa **III Leon** böyük bir elçi ilə Atillanın yanına gələrək ondan şəhəri dağıtmamağı xahiş etdi. Romalılar hunların bütün şərtlərini qəbul etdi. ***Atilla isə Roma şəhərinə toxunmayıb oranı tərk etdi.***

### Qərbi Hun imperatorluğunun süqutu (470-ci il)

Atilla İtaliyadan zəfərlə qayıtdıqdan sonra ***İrana hücum edib sasaniləri özündən asılı vəziyyətə salmaq*** istəyirdi. Lakin **453-cü ildə** Atilla qəfildən öldü. ***Atillanın ölümündən sonra*** ölkədə hakimiyyət onun oğlanları arasında bölündü. Bundan sonra Qərbi Hun imperatorluğu tədricən zəifləməyə başladı və **470-ci ildə** süqut etdi.

Qərbi Hun imperiyasından sonra onun yerində Avropada **Avar, Xəzər** və **Bulqar türk dövlətləri** yarandı.

# Ağ Hun imperatorluğu




### Ağ Hun imperatorluğunun yaranması (IV əsrin sonları)

Qərbi Türküstan ətrafına köç edən hunlar **IV əsrin sonlarında** burada **Ağ Hun dövlətini** yaratdılar. Ağ Hun dövləti:

- ✓ Ərazisi **Mərkəzi Asiya, Əfqanıstan** və **Şimal-Şərqi Hindistanın bir hissəsini** əhatə edirdi.
- ✓ Sərhədləri ***şimalda*** Seyhun çayı və Səmərqənd ətrafından, ***qərbdə*** Xəzər dənizinin cənubuna qədər uzanırdı.
- ✓ **V əsrdən etibarən** hakimiyyətdə olan Eftal xanın adı ilə **Eftalit dövləti** adlanırdı.
- ✓ Ağsuvar xanın dövründə Sasaniləri özündən asılı hala salmışdı.
- ✓ I Göytürk dövləti və Sasanilərlə müharibə aparmışdı.
- ✓ Paytaxtı ***Sakala şəhəri*** olmuşdur.

**IV əsrdə yaranmış türk dövlətləri**

- **Qərbi Hun dövləti**
- **Ağ Hun dövləti**

**Ağ Hun imperatorları**

- **Eftal xan ( V əsr)**
- **Ağsuvar xan (V əsr)**
- **Mihiraqula xan (515-550)**



*Ağsuvar xan*



*Mihiraqula xan*

### Ağsuvar xanın hakimiyyəti dövrü. Sasanilərlə mübarizə

**V əsrdə** Ağ hunların ***qərbdə*** sərhəd qonşusu və əsas rəqibi **Sasani imperiyası** idi. Bu dövrdə hunlar tez tez İran üzərinə yürüşlər edirdilər. Ağsuvar xanın hakimiyyəti dövründə:

- ✓ **430-cu ildə** Ağ hunlar Sasanilərə sarsıdıcı zərbələr endirdilər.
- ✓ Sasanilər Ağ Hun imperatorluğundan asılı vəziyyətə salındı.

### Mihuraqula xanın hakimiyyəti (515-550). İmperatorluğunun ən qüdrətli dövrü

Mihiraqula xanın hakimiyyəti dövründə:

- ✓ Ağ Hun imperatorluğu öz qüdrətininən ən yüksək zirvəsinə çatdı.
- ✓ Ağ Hun imperatorluğu yaxşı təlim görmüş ***nizami orduya*** və 700 döyüş filinə malik idi.
- ✓ Ağ hunlar **Hindistan** üzərinə aramsız yürüşləri davam etdirdilər.
- ✓ Ağ hunlar **Şimal-Qərbi Hindistanı** tamamilə özlərinə tabe etdilər.

**550-ci ildə** Mihiraqula xan ***vəfat etdikdən sonra*** Ağ Hun imperatorluğunda yüksəliş dayanmağa başladı.

### Ağ Hun imperatorluğunun tənəzzülü (567-ci il)

Zaman keçdikcə geniş ərazilərə malik olan imperatorluğu idarə etmək çətinləşdi. Ayrı-ayrı bölgələrdə mərkəzi hakimiyyətə qarşı çıxışlar artdı. **VI əsrin ortalarından başlayaraq** Ağ Hun imperatorluğu zəifləməyə başladı. Müstəqil xaqanlıqlar meydana gəldi. Ağ Hun imperatorluğunun zəifləməsinin səbəbi ***imperatorluğun genişlənməsi*** və ***yeni ərazilərə yayılması*** idi.

**VI əsrdə** yeni yaranan Göytürk dövləti Ağ hunların ***şimal-şərqində*** sərhəd qonşusu və əsas rəqibi idi. Bu zaman **Göytürk dövləti** Ağ Hun dövləti üçün təhlükəyə çevrildi. Göytürk xaqanı **İstəmi xaqan** ***Eftalitlərə qarşı ittifaq bağlamaq təklifi ilə*** Sasanilər dövlətinə müraciət etdi. Sasani hökmdarı **Xosrov Ənuşirəvan (531-579)** ***eftalitlərə qarşı birgə çıxış etmək*** barədə Göytürk xaqanı İstəminin təklifini məmnunluqla qəbul etdi. **567-ci ildə** Xosrov Ənuşirəvanın və İstəmi xaqanın birləşmiş qüvvələri Ağ hunlar üzərinə yürüşə başladılar. Döyüş ***nəticəsində:***

- ✓ Ağ hunlar məğlub oldular və Ağ Hun imperatorluğu süqut etdi.
- ✓ Ağ Hun imperatorluğunun torpaqları ***göytürklər*** və ***sasanilər*** arasında bölüşdürüldü.

***QEYD:*** Mərkəzi Asiyanın ən qədim vilayətlərindən biri olan Xarəzm Ağ Hun dövlətinin tabeliyində idi. Orada ***əkinçilik, sənətkarlıq*** və ***ticarət*** inkişaf etmişdi. Xarəzm hakimləri ***Xarəzmşah titulu*** daşıyırdılar. **III əsrdən** vilayətin mərkəzi **Kiyat**, sonra **Ürgənc şəhəri** paytaxt oldu. Ağ Hun imperatorluğu dağıldıqdan sonra Xarəzm Göytürklərin tabeliyinə keçdi.

***Ağ Hun dövlətinin torpaqlarını bölüşdürmüş dövlətlər***

Sasanilər dövləti

Göytürk dövləti

### Ağ hunların təsərrüfat həyatı

Başqa türk tayfalarından fərqli olaraq, Ağ hunlar oturaq həyata daha tez keçmişdilər. Onlar ***əkinçilik, maldarlıq*** və ***sənətkarlıqla*** məşğul olurdular. Ağ hunlar ticarət yollarının üzərində çoxlu şəhərlər salmışdılar. Böyük İpək yolu Ağ Hun dövlətinin ərazisindən keçirdi. Bu yolun bir hissəsi Ağ hunların nəzarəti altında idi.

**Ağ hun türkləri**

- Böyük Ipək yolunun bir hissəsinə nəzarət edirdilər
- Ticarət yollarının üzərində çoxlu şəhərlər salmışdılar
- Oturaq həyata daha tez keçmişdilər
- Əsas məşğuliyyəti əkinçilik, maldarlıq və sənətkarlıq idi
- Xarəzm vilayətini özlərinə tabe etmişdilər

**Ağ hunlarla Qərbi hunların oxşar cəhətləri**

- Hər ikisi türk mənşəli idilər
- Böyük Hun dövlətinin dağılmasından sonra köç etmişdilər
- Eyni əsrdə dövlət yaratmışdılar
- Azərbaycan xalqının təşəkkülündə böyük rol oynamışdılar

# I Göytürk xaqanlığı (552-588)




ğı



*Bumin xaqan*

### Bumin xaqan. I Göytürk dövlətinin yaranması (552-ci il)

Böyük Hun imperatorluğu dağıldıqdan sonra türklər Şimali Çinin düzənliklərində türk tayfalarının yaratdığı **Jujan dövlətinin** əsarəti altına düşdülər. **V əsrdən etibarən** Jujan dövləti zəifləməyə başladı. Bu zaman azadlıqsevər türk qəbilələri jujanlara qarşı çıxmağa başladılar. Türk qəbilələrinin birinin başçısı olan **Bumin xaqan 552-ci ildə** jujan xanının üzərinə hücum etdi. Hücum nəticəsində Bumin xaqan ujanlar üzərində qələbə qazandı. **552-ci ildə** ujanlar üzərində qələbədən sonra Bumin xaqan:

- ✓ **I Göytürk dövlətini** yaratdı.
- ✓ Özünü dövlətin **hökmdarı (il xaqan)** elan etdi.
- ✓ **Ötükən** şəhərini dövlətin paytaxtı elan etdi.

### I Göytürk dövlətinin ən qüdrətli dövrü. Muğan xaqanın hakimiyyəti (552-572)

Bumin xaqan bir il hökmranlıq etdikdən sonra vəfat etdi. Onun yerinə keçən oğlu **Muğan xaqan (552-572)** hakimiyyətə gəldi. Muğan xaqanın hakimiyyəti dövründə:

- ✓ Göytürk dövləti qüdrətli imperatorluğa çevrildi və Çin türklərdən asılı vəziyyətə düşdü
- ✓ Qardaşı İstəmi xaqanın başçılığı ilə göytürklər Şimali Qafqazı tutaraq Bizans torpaqları üzərinə hücum etdi, həmçinin İstəmi xaqanın başçılığı ilə göytürklər sasanilər dövləti ilə birlikdə Ağ hun dövlətini süquta uğratdılar.

***I Göytürk imperatorları***

| | |
|---|---|
| **Bumin xaqan** → | Jujan dövlətini məğlub etdi, I Göytürk dövlətini yaratdı, Özünü dövlətin hökmdarı (il xaqan), Ötükən şəhərini isə dövlətin paytaxtı elan etdi. |
| **Muğan xaqan (552-572)** → | Çini türklərdən asılı vəziyyətə düşdü, Göytürk dövləti qüdrətli imperatorluğa çevrildi. |
| **İstəmi xaqan (572-576)** → | Göytürklər Şimali Qafqazı tutaraq Bizans torpaqları üzərinə hücum etdi |

### Türklərin Çin əsarətinə düşməsi

**588-ci ildə *daxili ziddiyyətlər*** və ***hakimiyyət çəkişmələri*** nəticəsində I Göytürk imperatorluğu ***iki hissəyə*** parçalandı:

1. **Şərqi Göytürk dövlətinə** (**588-634-cü illərdə** mövcud olmuşdu, dövlətin mərkəzi **Monqolustan** idi).
2. **Qərbi Göytürk dövlətinə** (**588-659-cu illərdə** mövcud olmuşdu, dövlətin mərkəzi **Yeddisu** idi).

Çox keçmədən bu dövlətlər Çindən asılı vəziyyətə düşdülər. Lakin azadlıqsevər türklər asılı vəziyyətlə barışmır, tez-tez üsyanlar edirdilər. Ən böyük üsyanlardan birinə ***Kür şad*** başçılıq edirdi. Üsyançılar qeyri-bərabər döyüşdə misilsiz qəhrəmanlıq göstərsədə məğlub oldular. Lakin **VII əsrin 80-ci illərində** göytürklər **İltəris (Qutluq) xanın** başçılığı altında üsyan qaldıraraq Çin əsarətindən çıxdı və II Göytürk imperatorluğunun əsası qoyuldu.

***I Göytürk imperatorluğunun parçalanmasının səbəbləri***

Daxili ziddiyyətlər

Hakimiyyət çəkişmələri

## II Göytürk xaqanlığı (682-744)

### II Göytürk imperatorluğunun yaranması (682). İltəris xaqanın hakimiyyəti (682-692)

**VII əsrin 80-ci illərində** türk sərkərdəsi **Qutluq xanın** başçılığı ilə Çinə qarşı baş vermiş üsyan nəticəsində:


*İltəris xaqan*

- Türklər Çin əsarətindən azad olaraq müstəqil oldular.
- II Göytürk (682-744) imperatorluğu yarandı.
- Qutluq xan **«İltəris» (eli xilas edən)** adı ilə xaqan elan edildi.

İltəris xaqan dövləti gücləndirmək üçün bir sıra tədbirlər həyata keçirdi:

- ✓ Dövrünün tanınmış alimi Tonyukuk baş məsləhətçi təyin edildi.
- ✓ Orduda süvari hissələrinin sayı artırıldı.
- ✓ ***Qurd başlı bayraq*** altında ayrı- ayrı türk xaqanlarını birləşdirdi.
- ✓ Ölkədə sabitlik, əmin-amanlıq yaradıldı.

**I Göytürk imperatorluğu (552-588)**

**Qərbi Göytürk dövləti** — **Şərqi Göytürk dövləti**

**Çin əsarəti dövrü (634/659-682)**

**İltəris xanın üsyanı (682)**

**II Göytürk imperatorluğu (682-744)**

| *Kur Şad üsyanı* | *İltəris xanın üsyanı* |
|---|---|
| ✓ *Göytürklər tərəfindən qaldırılmışdı.*<br>✓ *Çin əsarətinə qarşı baş vermişdi.*<br>✓ *Qüvvələrin qeyri-bərabərliyi nisbətində məğlub olmuşdu.* | ✓ *VII əsrin 80-ci illərində, Çin əsarətinə qarşı Göytürklər tərəfindən qaldırılmışdı.*<br>✓ *Göytürklər Çin əsarətindən çıxaraq müstəqil oldular, II Göytürk imperatorluğu yarandı.* |

### Qapağan xaqanın hakimiyyəti (692-716)

İltəris xaqanın vəfatından sonra onun oğlanları Bilgə və Kül tigin azyaşlı olduğu üçün qardaşı **Qapağan xaqan** hakimiyyətə gəldi. Qapağan xaqanın (692-716) diqqətini yönəltdiyi ***əsas sahələr*** və ya ***başlıca siyasəti*** aşağıdakı istiqamətlərə yönəlmişdi:

1. **Ordunu möhkəmləndirmək**.
2. **Ölkənin iqtisadiyyatını canlandırmaq**.
3. **Mərkəzi Asiya türklərini vahid dövlətdə birləşdirmək**.

Bu yolda Çin başlıca maneə olduğu üçün Qapağan xaqan Çinə yürüş etdi. Yürüş nəticəsində:

- ✓ Çin məğlub edilərək göytürklərdən asılı vəziyyətə salındı.
- ✓ Göytürklər Sakit okeana qədər irəlilədilər.

### Bilgə xaqanın hakimiyyət (716-734)

Qapağan xaqandan sonra hakimiyyətə gələn **Bilgə xan (716-734)** kiçik qardaşı Kül tigin və baş vəzir Tonyukukla birlikdə dövləti bacarıqla idarə etməyə başladı. Bilgə xaqanın əsas məqsədi ***türkləri bir xalq kimi qoruyub saxlamaq*** idi. Döyüşlərin birində Kül tigin həlak oldu. Bilgə xaqan qardaşının xatirəsini əbədiləşdirmək üçün ***Orxon-Yenisey abidələrini*** ucaltdırdı. Həmin abidə bu gün də əzəmətini saxlamışdır.

Qardaşının ölümündən bir neçə il sonra Bilgə xaqan sui-qəsd nəticəsində öldürüldü. Sonralar ***uyğurların*** və digər türk tayfalarının üsyanları nəticəsində Göytürk dövləti zəiflədi və **744-cü ildə** dağıldı. Göytürklərin dövlətçilik ənənəsini **Uyğur dövləti**, uyğurlardan sonra isə **Oğuz dövləti** davam etdirdi.

***QEYD:*** Çini özlərindən asılı vəziyyətə salması türk hökmdarları Muğan xaqanla Qapağan xaqanın fəaliyyətində oxşar cəhət təşkil edir.

***II Göytürk imperatorları***

| | |
|---|---|
| **İltəris xaqan (682-692)** → | Dövlətin dayaqlarını möhkəmləndirdi, türk alimi Tonyuku baş məsləhətçi (vəzir) təyin etdi, ordunun gücləndirilməsinə xüsusi fikir verdi |
| **Qapağan xaqan (692-716)** → | Ordu möhkəmləndirildi və ölkə iqtisadiyyatını canlandı, Çin göytürklərdən asılı vəziyyətə salındı, Göytürklər Sakit okeana qədər irəlilədilər |
| **Bilgə xaqan (716-734)** → | Əsas siyasi fəaliyyəti türkləri bir xalq kimi qoruyub saxlamaqdan ibarət idi, imperatorluğunun ərazisi genişləndi , Orxon-Yenisey abidələrini tikdirdi |

*Göytürk dövlətləri*

| I Göytürk dövləti | II Göytürk dövləti |
|---|---|
| ✓ *552-588-ci illərdə mövcud olmuşdur*<br>✓ *Əsası Bumin xaqan tərəfindən qoyulmuşdu*<br>✓ *Paytaxtı Ötükən şəhəri olmuşdur*<br>✓ *Çini özündən asılı vəziyyətə salmışdı*<br>✓ *Sasanilər və Uyğurlarla ilə müharibə aparmışdı*<br>✓ *Ən qüdrətli dövrü Muğan və İstəmi xaqanın hakimiyyəti dövrü olmuşdu*<br>✓ *Daxili ziddiyyətlər və hakimiyyət çəkişmələri nəticəsində süqut etmişdi*<br>✓ *Varlığına Çin dövləti tərəfindən son qoyulmuşdu* | ✓ *682-744-cü illərdə mövcud olmuşdur*<br>✓ *Əsası İltəris xaqan (Qutluq xan) tərəfindən qoyulmuşdu Paytaxtı Ötükən şəhəri olmuşdu*<br>✓ *Çini özündən asılı vəziyyətə salmışdı*<br>✓ *Uyğurlarla müharibə aparmışdı*<br>✓ *Mərkəzi Asiya türklərini vahid dövlətdə birləşdirmişdiDövlətin ərazisi Sakit okeana qədər uzanırdı*<br>✓ *Orxon-Yenisey abidələri yaradılmışdı*<br>✓ *Varlığına Uyğur dövləti tərəfindən son qoyulmuşdu* |

### Göytürk dövlətinin idarəetmə quruluşu

Bumin xaqan qədim türklərin çox nüfuzlu ***Aşina*** qəbiləsindən idi. Əfsanəyə görə, bu qəbilə ***qurddan*** törəmişdi. Aşina qəbiləsindən olanlara ***«göydən enmiş türklər»*** - ***göytürklər*** deyirdilər. Odur ki, Bumin xaqanın yaratdığı bu dövlət Göytürk xaqanlığı adlanırdı. Dövlətə ***"Göytürk"*** adının verilməsi ilə ilk dəfə olaraq hunlar ***göytürk*** adlandırıldı. "Göytürk" mürəkkəb sözündəki ***"göy"*** sözü həm ***səma, Tanrı***, həm də ***rəng*** mənasında işlənir. Xaqanlığın bayrağında qurd başının şəkli vardı.

Göytürk dövlətinin idarəetmə sisteminə aşağıdakılar daxil idi:

- **Xaqan** - *dövlətə başçılıq edir, həm də ordu komandanı idi.*
- **Yabqu** - *xaqandan sonra ikinci şəxs sayılırdı.*
- **Tigin** - *taxt-tacın vəliəhdi titulunu daşıyırdı.*
- **Şad** - *xaqanlıqda ən yüksək əyan titulu idi.*

## Uyğur xaqanlığı (744-842)






*Qutluq Bilgə Gül xaqan*

### Uyğur imperatorluğunun yaranması. Qutluq Bilgə Gül xaqan (744-745)

**744-cü ildə** Göytürk imperatorluğu dağıldıqdan sonra **Qutluq Bilgə Gül xaqan** Uyğur xaqanlığının əsasını qoydu. Qutluq Bilgə Gül xaqan hakimiyyəti dövründə:

- ✓ Doqquz oğuz tayfalarını On uyğur ilə birləşdirərək Uyğur dövlətini yaratdı.
- ✓ **Ordu şəhərini** Uyğur imperatorluğunun paytaxtı etdi.
- ✓ Uyğur dövlətini geniş ərazini əhatə edən imperatorluğa çevirdi.
- ✓ Dövlətin ərazisi ***şərqdə*** **Altaydan Mancuriyaya,** ***cənubda*** **Qobi səhrasına qədər** torpaqları əhatə edirdi.

***QEYD:*** Uyğur sözünün mənası ***"müttəfiq"***, ***"uyuşan"*** deməkdir.

### Moyon Çur xaqanın hakimiyyəti (745-759)

**745-ci ildə** Qutluq Bilgə Gül xaqan vəfat etdi. Onun yerinə oğlu **Moyon Çur xaqan (745-759)** keçdi. Moyon Çurun hakimiyyəti zamanı Çində ***ərəblərlə döyüşdə məğlubiyyətdən sonra*** güclü çəkişmələr baş verdi, Çin sərkərdəsi qanunsuz olaraq Çində hakimiyyəti ələ keçirdi. Hakimiyyətdən uzaqlaşdırılan Çin imperatoru uyğurlardan kömək istədi. Bu zaman Moyon Çur ***Çin imperatoruna hakimiyyəti qaytarmaqda kömək göstərdi*** və Çinin paytaxtını tutub devrilmiş Çin imperatorunun hakimiyyətini bərpa etdi. Əldə edilən razılığa görə, Çin ***Uyğur dövlətinə hər il ipəklə bac verməli idi.***

***QEYD: Çini özündən asılı vəziyyətə salmaları*** I Göytürk imperatoru Muğan xaqanın və Uyğur xaqanı Moyon Çur xaqanın fəaliyyətində oxşar cəhət təşkil edir.

**Çinə qarşı mübarizə aparmış türk dövlətləri**

- Böyük Hun
- I Göytürk
- II Göytürk
- Uyğur

### Bögü xaqanın hakimiyyəti (759-779)

Moyon Çur xaqandan sonra onun oğlu **Bögü xaqan** hakimiyyəti ələ keçirdi. Bögü xaqanın dövründə:

- ✓ Çinin bütün ticarət əlaqələri uyğurların əlinə keçdi.
- ✓ Çinə hücum edən tibetlilər darmadağın edildi.

***QEYD:*** **762-ci ildə *tibetlilər*** Çinə basqın edərkən Bögü xaqan ***Çin kimi zəngin bir ölkəni itirməmək üçün*** mübarizəyə başlamış və bu mübarizədə qalib gəlmişdi.

### Bağa Tarkan xaqanın hakimiyyəti (779-789)

Bögü xaqandan sonra **Bağa Tarkan** xaqan hakimiyyətə gəldi. Bağa Tarkanın dövründə *Uyğur xaqanlığı gücləndi və iqtisadiyyatı daha da yüksəldi*. Lakin **IX əsrin birinci yarısından** başlayaraq Uyğur xaqanlığı zəifləməyə başladı. **842-ci ildə *qırğızların*** üsyanı nəticəsində Uyğur dövləti süqut etdi.

***Uyğur xaqanları***

| | |
|---|---|
| **Qutluq Bilgə (744-745)** → | Uyğur dövlətini yaratdı, Ordu şəhərini Uyğur imperatorluğunun paytaxtı etdi, Uyğur dövləti imperatorluğa çevrildi. |
| **Moyon Çur (745-759)** → | Çinin paytaxtını ələ keçirərək imperatorun hakimiyyətini bərpa etdi, Çin uyğurlardan asılılığı qəbul etdi. |
| **Bögü xaqan (759-779)** → | Uyğur dövlətinin Çin üzərində nüfuzunu artırdı, uyğurlar Çinin bütün ticarətini öz nəzarəti altına aldı, Çinə hücum edən tibetlilər məğlub edildi. |
| **Bağa Tarkan (779-789)** → | Uyğur xaqanlığı gücləndi, iqtisadiyyatı daha da yüksəldi. |

### Uyğur xaqanlığının iqtisadi həyatı

Çətin coğrafi şəraitə baxmayaraq, uyğurlar zəngin təsərrüfat həyatına malik idilər**.** ***Maldarlıq*** və ***əkinçilik*** təsərrüfat həyatında mühüm yer tuturdu. Sənətkarlığın ***dəmirçilik, zərgərlik, toxuculuq, xüsusilə xalçaçılıq*** sahəsi inkişaf etmişdi. Böyük İpək yolu buradan keçdiyi üçün bir çox ölkələrlə ticarət əlaqələri qurulmuşdu. Uyğurlar böyük şəhərlər (**Qarabalasqun, Beşbalıq, Qaraxoca, Qaşqar, Xotan, Yarkənd, Turfan, Qaraşar, Ağsu və.s)** salmışdılar. Şəhərlər arasında çoxlu yollar çəkilmişdi. Bu yollardan indi də istifadə edilir. Uyğurlar avropalılardan xeyli əvvəl ***kağız*** istehsal etmiş və mətbəə yaratmışdılar. Onlar ***kitab*** çap edirdilər. Uyğurların özünəməxsus ***əlifbası*** da olmuşdur.

***QEYD:*** Hazırda uyğurların əksəriyyəti Çinin **Sintszyan-Uyğur** əyalətində yaşayır.



*Moyon Çurun runa əlifbası ilə yazılmış məktubundan:«Özümün minillik və saysız-hesabsız günlük (əbədi) yazılarımı və işarələrimi yastı daş üzərinə həkk etməyi əmr etdim»*

# Oğuz dövləti




### Oğuz dövlətinin yaranması

Uyğur dövləti dağıldıqdan bir qədər sonra ***Seyhun çayı və Xəzər dənizi arasında yerləşən türk boyları*** birləşib tarixi mənbələrdə ***Oğuz dövləti*** və ya ***Yabqu dövləti*** kimi qeyd olunan dövlət yaratdılar. **X əsrdə** yaranmış Oğuz dövlətinin mərkəzi **Yenikənd** şəhəri idi. Oğuz dövlətinin idarəetmə sistemi belə idi:

- **Yabqu** - *dövlət başçısı hesab edilirdi.*
- **Subaşı** - *orduya başçılıq edir, yabqudan sonra ən səlahiyyətli şəxs idi.*
- **Gülərgin** *yabqunun vəkili sayılırdı.*
- **Divan** - *Dövlət başçısının yanında fəaliyyət göstərən orqan idi.*
- **Təhsildar** - *Şəhərlərdən vergiyığan məmurlar idi.*

*Oğuz dövlətində ordunun əsasını **atlı qoşun** təşkil edirdi.*



*Oğuz və oğlanları*

### Oğuzların İslam dinini qəbul etməsi.

İslam dinini qəbul edənə qədər oğuzlar **Göy tanrıya** inanırdılar. **950-ci ildə** oğuzlar **İslam dinini** qəbul etdilər. Bu dini qəbul edən oğuzları ***türkmən*** adlandırmağa başladılar. Tezliklə İslam dini oğuzlar arasında hakim dinə çevrildi. Oğuzların İslam dinini qəbul etməsinin böyük əhəmiyyəti var idi. Belə ki, oğuzlar İslam dinini qəbul etdikdən sonra:

- ✓ *Türk xalqlarının mədəniyyəti daha da inkişaf etdi.*
- ✓ *İslam və türk ənənələri birləşdi.*

### Oğuz dövlətinin süqutu. Oğuz axınları

***Daxili çəkişmələr*** nəticəsində Oğuz dövləti zəiflədi. Bu vəziyyətdən istifadə edən ***qıpçaqlar*** **1000-ci ildə** Oğuz dövlətinin varlığına son qoydular. Dövlət süqut etdikdən sonra müxtəlif istiqamətlərə oğuzların yeni axınları başladı. Onların bir hissəsi **Qara dənizin şimalında** məskunlaşdı, digər qismi isə **İran, İraq, Azərbaycan** və **Anadoluya** yayıldı.

# Avar xaqanlığı (558-803)




### Avarların Şərqi Avropaya yürüşü

**552-ci ildə** Göytürklər Jujan dövlətinin varlığına son qoyduqdan sonra jujanların bir qismi qərbə çəkildi və **Qafqazda** məskən saldılar. Jujan dövləti dağılarkən qərbə çəkilən ***jujanlar "avar"*** adlanmağa başladı. Türkcə avar sözü ***"dirənən, qarşı gələn"*** mənasını verir. Avarlar az sonra Qafqazdan köçərək Şərqi Avropaya getdilər və Şərqi Avropanın türk xalqları ilə qaynayıb qarışaraq burada **Avar dövlətini** yaratdılar. Avar xaqanlığının yaranmasında və möhkəmlənməsində ***hun, sabir, oğuz*** və.b türk tayfaları yaxından iştirak etmişdilər.

### Avar xaqanlığının yaranması

Avar tayfaları Şərqi Avropada **558-ci ildə Bayan xaqanın** başçılığı ilə Avar dövlətini yaratdılar. **VI əsrin sonlarında**, hökmdar **Bayan xaqanın** hakimiyyəti dövründə:

- ✓ Bizans avarlara vergi verməyə başladı.
- ✓ Alman və slavyan tayfalarının bir hissəsi avarlardan asılı hala düşdü.
- ✓ Avar dövləti güclü imperatorluğa çevrildi.

**VI əsrin sonlarında,** hökmdar **Bayan xaqanın** hakimiyyəti dövründə artıq imperatorluğa çevrilmiş Avar xaqanlığının ərazisinə ***indiki Macarıstanın, Çexiyanın, Slovakiyanın, Avstriyanın və Almaniyanın cənub bölgələrinin bir hissəsi*** daxil idi. Göründüyü kimi, Avar xaqanlığının ərazisinə **Şərqi və Qərbi Avropanın böyük hissəsini** əhatə edirdi.

### Konstantinopolun mühasirəsi

Avar xaqanlığı Bizansla qonşu olduqdan sonra onun Bizans üzərinə hücumları artdı. Avarlar ***Sasanilərlə birlikdə*** iki dəfə Konstantinopolu mühasirəyə aldılar. **626-cı ildə** Konstantinopolun ***ikinci mühasirə zamanı*** avarlar məğlub olaraq şimala çəkildilər. Avarların bu məğlubiyyətinin səbəbi ***onların donanmamasının olmaması*** idi.

Beləliklə, Konstantinopolun hər iki mühasirəsi avarlar üçün ***uğursuz*** oldu. Bu uğursuzluqdan sonra:

- ✓ *Avar xaqanlığının qüdrəti sarsıldı.*
- ✓ *Hakimiyyət uğrunda mübarizə başladı.*
- ✓ *Avar xaqanlığına tabe olan xalqların üsyanı baş verdi.*

Bu amillər Avar xaqanlığının zəifləməsinə səbəb oldu.



*Avarların Konstantinopolu mühasirəyə alması (qədim şəkil)*

### Avar xaqanlığının zəifləməsi və süqutu

Avar xaqanlığının süqutunun əsas səbəbi əsasən aşağıdakı amillərlə bağlı olmuşdur:

- **Xaqanlığa tabe olan xalqların üsyanları**.
- **Hakim təbəqənin hakimiyyət uğrunda mübarizəsi**.

Üsyanlar yatırılsa da, Avar xaqanlığına güclü zərbə vuruldu. Avarlara növbəti zərbəni ***bulqarlar*** vurdu. Belə ki, Bulqar dövlətinin başçısı Kubrat xan avarlardan ayrılan bəzi türk tayfalarını öz elinə birləşdirdi. O, avarları Qara dənizin şimal sahillərindəki ərazilərdən və Dnepr çayının aşağı axarlarından sıxışdırıb çıxardı.

Avar xaqanlığının varlığına isə ***franklar*** son qoydular. **VIII əsrin sonlarında** Avar xaqanlığı ilə Frank dövləti arasında uzunsürən müharibə başlandı. Avar-frank müharibələri nəticəsində:

- ✓ **Franklar avarların Pannoniya ərazisini tutdular**.
- ✓ **803-cü ildə Avar dövləti süqut etdi**.

Avar imperatorluğu süqut etdikdən sonra avarlar **Balkan yarımadasına, Macarıstanın şərq vilayətlərinə** səpələnərək xristianlaşdılar və yerli əhali içərisində əriyib getdilər. Hazırda Şimal-Qərbi Azərbaycanda və Dağıstanda yaşayan avarlar qədim avar türklərinin nəsilləri hesab olunur.

## Bulqar dövləti




***Dunay Bulqar dövləti***




***İdil Bulqar dövləti***

### Böyük Bulqar dövləti (630-665). Kubrat xan

Qərbi Göytürk xaqanlığı süqut etdikdən sonra Şərqi Avropa düzənliklərində iki dövlət formalaşmışdı:

- **Qara dəniz ətrafında Böyük Bulqar dövləti (630-665)**.
- **Xəzər dənizinin şimal ərazilərində Xəzər xaqanlığı (634-965)**.

Bulqar dövləti yarandığı vaxtdan güclü siyasi qüvvəyə çevrilmişdi. Lakin dövlətin əsasını qoymuş ***Kubrat xanın*** vəfatından sonra Böyük Bulqar dövləti zəiflədi və onun oğulları arasında hakimiyyət uğrunda mübarizə başladı. Bu zaman xəzərlər yaranmış fürsətdən istifadə edərək bulqarlar üzərinə hücum etdilər. **660-cı ildə** xəzərlərlə bulqarlar arasında baş vermiş döyüş nəticəsində:

- ✓ *Xəzərlər qalib gəldilər.*
- ✓ *Bulqarların bir hissəsi xəzərlərin hakimiyyətini qəbul etdilər.*

Bulqarların digər bir hissəsi isə Kubrat xanın oğlu ***Asparux xanın*** başçılığı ilə Dunay ətrafına çəkildi.

Beləliklə, Böyük Bulqar dövləti iki hissəyə parçalandı:

- **Volqa Bulqar türk dövlətinə**.
- **Dunay Bulqar türk dövlətinə**.

***QEYD:*** Bulqar sözünün mənası ***"qarışmaq"*** deməkdir. **Qara dənizin şimal sahillərində** və **Şimali Qafqazda** məskunlaşan və **oğuz türk qupuna** daxil olan ***onoqurlar, sarıqurlar, utruqurlar, kutuqurlar hun türkləri ilə*** qarışaraq **bulqar** adlanmağa başladılar.

### Volqa (İdil) Bulqar türk dövləti (665/965-1236)

Volqa (İdil) Bulqar türk dövləti **Orta Volqaboyu** və **Aşağı Kama çayı sahillərində** yaşayan türk tayfalarının yaratdığı ***ilk türk dövləti*** idi. Volqa Bulqar dövlətinin qurucusu Kubrat xanın oğlu **Baqi Bayan** xan, paytaxtı isə **Bulqar** şəhəri idi. Bulqarlar uzun müddət xəzərlərin tabeliyində olmuş, onlara vergi vermişdilər. **965-ci ildə** Xəzər xaqanlığı dağıldıqdan sonra bulqarlar yenidən müstəqil oldular.

Yaxşı inkişaf etmiş **Bulqar, Bilyar, Suvar şəhərləri** sənətkarlıq və ticarət mərkəzləri hesab edilirdi. Burada sənətkarlıq, xüsusilə də dəmirçilik yaxşı inkişaf etmişdi. Sənətkarlar gil, mis, gümüş və qızıldan bəzək əşyaları hazırlayırdılar. Bulqar xanlarının adından pul kəsilirdi. Kəndlilərin əksəriyyəti azad torpaq sahibi idi. Yaşadıqları ərazinin əlverişli coğrafi mövqeyi bulqarlara Volqanın cənubunda yaşayan xalqlarla bərabər, Cənubi Qafqaz, Mərkəzi Asiya və başqa ölkələrlə ticarət etməyə imkan yaradırdı. Bulqarlar ***taxıl, xəz-dəri, sənətkarlıq məmulatları*** ixrac edirdilər.

Volqa Bulqar türkləri **İslam dini** qəbul etmiş ilk türk tayfalarından biridir. Bulqar xanı hətta Abbasi xəlifəsindən İslam dinini öyrənməyə kömək etmək üçün alimlərin göndərilməsini xaiş etmiş, xəlifə də bir qrup alimlər göndərmişdi.

Monqolların Şərqi Avropaya yürüşü zamanı İdil (Volqa) Bulqar türk dövləti təhlükə altına düşdü. **1236-cı ildə** monqollar Volqa (İdil) Bulqar türk dövlətinin varlığına son qoydular.

### Dunay Bulqar türk dövləti (679-864). Asparux xan



Kubrat xan



Asparux xan



Kubrat xanın məzarı. Poltava şəhəri. Ukrayna (müasir foto)



Müasir Bolqarıstanın Dobriç şəhərində Asparux xanın abidəsi

**679-cu ildə** Dunay Bulqar türk dövlətinin qurucusu **Asparux xan** Bizansı məğlub edərək **Cənub-Şərqi Avropada** müstəqil Bulqar-türk dövlətini qurdu. Həmin ildə Bizansla Asparux xan arasında imzalanan müqaviləyə əsasən:

1. **Bizans imperiyası Bulqar-türk dövlətinin müstəqilliyini tanıdı.**
2. **Bizans Bulqar-türk dövlətinə xərac verməli oldu.**

Dunay Bulqar türk dövlətinin paytaxtı əvvəlcə **Pliska** sonra isə **Preslav** şəhəri olmuşdur. Bulqar dövlətini bütün hakimiyyəti öz əlində cəmləşdirmiş ***xan*** idarə edirdi. Ölkənin şəhərləri bir sıra dövlətlərlə ticarət əlaqələri saxlayırdı. Əhalisi, əsasən, ***əkinçiliklə*** məşğul olurdu. ***Bağçılıq və maldarlıq*** da inkişaf etmişdi.

Bulqar türk dövlətinin xarici siyasətində öz ərazilərində müstəqil türk dövlətinin olması ilə razılaşmaq istəməyən ***Bizans imperiyası ilə münasibətlər*** xüsusi yer tuturdu.

**IX əsrin birinci yarısı** Bulqar türk dövlətinin ən parlaq dövrü idi. Bu dövrdə yeni şəhərlər salındı, suvarma şəbəkələri yaradıldı. Şərqi Avropada olan yeganə ***duz mədənləri*** də bulqarlara məxsus idi.

**Omurtaq xanın** dövründə dövlət öz qüdrətini saxlasa da **Boqoris xanın** dövründə zəifləməyə başladı. **864-cü ildə** Bulqar türk dövlətində ***xristianlıq*** dövlətin rəsmi dini elan edildi. Bulqar türk dövlətində ***xristianlıq*** dövlətin rəsmi dini elan edilməsi nəticəsində:

- ✓ Ölkənin ərazisinə slavyanların çoxsaylı axınları daha da artdı.
- ✓ Bulqarlar slavyanlaşaraq öz varlıqlarını itirdilər.
- ✓ Mərkəzi Avropada yaranmış daha bir türk birliyinin varlığına son qoyuldu.

# Xəzər xaqanlığı (634-965)

## Xəzər xaqanlığının yaranması

Şərqi Avropa çöllərində yaşayan tayfalar o cümlədən ***xəzərlər Qərbi Hun imperatorluğu dağıldıqdan sonra*** müstəqil oldular. Xəzərlər ***sabir, onoqur*** və ***altay türklərinin*** törəmələri idi. Xəzərlər **VII əsrin əvvəllərindən** başlayaraq əvvəlcə ***Xəzər dənizinin qərb sahillərində***, o cümlədən Azərbaycan ərazisində yaşamış, sonralar qərbə və şərqə doğru yayılmışdılar. Göytürk xaqanlığı yarandıqdan sonra xəzərlər onun ***qərb qanadlarından birini*** təşkil edirdi. **634-cü ildə Qərbi Göytürk dövləti** dağıldıqdan sonra xəzərlər yenidən müstəqil oldular və Xəzər xaqanlığını yaratdılar. **634-965-ci illərdə** mövcud olmuş Xəzər xaqanlığının paytaxtı **Səməndər,** sonra isə **İdil şəhəri** olmuşdur.




*Xəzər xaqanlığı*

Xəzər xaqanlığı ***Şərqi Avropada yaranmış ilk feodal dövlət*** idi. **VIII-IX əsrlərdə** Xəzər xaqanlığı özünün ən qüdrətli dövrünü yaşayırdı. Bu zaman onun ərazisinə **Şimali Qafqaz, Azov dənizi sahilləri** və **Krım yarımadasının bir hissəsi** daxil idi.

**VIII-IX əsrlərdə Xəzər xaqanlığına daxil olan ərazilər**

- Qara dənizin şimalı
- Volqa ilə Dnepr arasındakı ərazislər
- Şimalı Qafqaz

## Xəzər xaqanlığının zəifləməsi və süqutu

**IX əsrin ikinci yarısında** ***şərq slavyanlarının*** bir çox tayfaları xəzərlərə bac verirdi. Lakin zaman keçdikcə Xəzər xaqanlığı zəifləməyə başladı. Dövlətin zəifləməsinin səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ✓ Xəzərlərin tdigər ürk tayfası olan ***peçeneqlərlə*** mübarizəsi.
- ✓ Azərbaycan uğrunda ***xəzərlərlərin ərəblərlə uzunmüddətli*** müharibələr aparması.

Zəifləmiş xaqanlıq **X əsrin 60-cı illərində (962-ci ildə)** Kiyev rus dövləti tərəfindən işğal olunaraq varlığına son qoyuldu.



*Slaviyanların xəzərlərə bac verməsi (qədim şəkil)*

## Xəzər xaqanlığının idarəetmə sistemi. Təsərrüfatı. Ticarət əlaqələri

Ölkəni ***xaqan*** idarə edirdi. Xaqanın ətrafında böyük imtiyaz sahibi olan ***bəylər*** və ***tarxanlar*** toplaşmışdı. Xəzər dövlətinin güclü ordusu var idi. Xəzərlər burada və ətraf ərazilərdə çox böyük nüfuza malik idilər.

Ölkənin ərazisindən şimala və şərqə doğru uzanan ticarət yolları keçirdi. Geniş ticarət əlaqələri ölkənin iqtisadi və mədəni inkişafına əlverişli şərait yaradırdı.

# Çin

### Şərq ölkələrində feodalizmin meydana gəlməsi

**III-V əsrlərdə** şərq ölkələrində yeni təsərrüfat münasibətləri yarandı. Quldarlıq quruluşunu feodalizm əvəz etdi. Böyük təsərrüfat sahələri, münbit torpaqlar şərq xalqlarının həyatının sürətlə dəyişməsinə şərait yaratdı. Bu dövrdə Çin, Hindistan, Azərbaycan və İranda feodal münasibətləri formalaşdı. Feodalizm quruluşu torpaq sahibi olan feodallar və onların torpaqlarında çalışan kəndlilərin iqtisadi münasibətləri üzərində yaranıb inkişaf edirdi.

### Çində «güclü ailələr»in yaranması

**III- VII əsrlərdə** Çində ***iri xüsusi torpaq sahibləri*** **-** «***güclü ailələr***» (***iri feodallar)*** adlanırdı. «Güclü ailələr» dövlət üçün əlverişli deyildir. Çünki «güclü ailələr»in artması və möhkəmlənməsi ***nəticəsində:***

- ✓ ***Kəndlilərin torpaqsızlaşmasına səbəb olur, iri feodallar onları özlərindən asılı olan icarədarlara çevirirdilər***.
- ✓ ***Dövlətə vergi verənlərin sayı azalır, mərkəzi hakimiyyət zəifləyirdi***.

Asılı vəziyyətə düşmüş kəndlilər ***töycü*** şəklində vergilər ödəyirdilər. **VIII** əsrdən etibarən Çində feodallar ***dövlət torpaqlarını*** zəbt etməyə başladılar. Həmin ərazidə yaşayan kəndlilər isə feodallardan ***asılı kəndliyə*** çevrildilər.

### Çində dövlət feodalizminin formalaşması

«Güclü ailələr»ə qarşı mübarizə aparmaqla xüsusi torpaq mülkiyyətinin inkişafını tamamilə dayandırmaq əlverişli olmadığı üçün Çində digər Şərq ölkələrində olduğu kimi ***dövlət feodalizmi*** formalaşırdı. **III-VII əsrlərdə** Çində ən böyük torpaq sahibi olan ***imperator*** hərbi xidmət müqabilində özünün ***ən yaxın adamlarına, sərkərdələrə*** və ***məmurlara*** iri torpaq sahələri paylayırdı. Həmin torpaqların sahibləri tədricən feodala çevrilirdilər.

### Suy sülaləsinin hakimiyyəti (586-618)

«Sarısarıqlılar» üsyanı və digər amillər **III əsrin əvvəllərində** Çinin zəifləməsinə, Xan sülaləsinin devrilməsinə səbəb oldu, Çin xırda dövlətlərə parçalandı və Qədim Çin imperiyasının yerində bir-biri ilə düşmənçilik edən bir neçə dövlət yarandı. Çində ***feodal münasibətlərinin inkişafı*** yenidən vahid dövlətin yaranmasına səbəb oldu. Sərkərdə **Yan Szyan** rəqiblərinə qalib gələrək:

- ✓ **Suy sülaləsinin (586-618)** əsasını qoydu.
- ✓ **Çanan şəhərini** dövlətin paytaxtı elan etdi.
- ✓ Ölkənin ***cənubunda*** hökmranlıq edən ***Çin sülaləsinin*** hakimiyyətinə son qoydu.
- ✓ Çin imperiyasını yenidən bərpa etdi, ölkəni ***vahid dövlətdə*** birləşdirdi.

Suy sülaləsinin ikinci hökmdarı **Yan Quanın** hakimiyyəti dövründə ölkə daxilində yük daşınmasını asanlaşdırmaq üçün uzunluğu 1700 km olan **Böyük kanal** çəkildi.



*Böyük Kanal*

### Tan sülaləsinin hakimiyyəti (618-918)

**VII əsrin əvvəllərində *(***618-ci ildə) Çində hakimiyyət **Tan sülaləsinin (618-918)** əlinə keçdi. Tan sülaləsinin dövründə Tan imperatoru **«Səma oğlu»** adlandırılırdı. Tan sülaləsi Çini təqribən 300 il idarə etdi. Tan sülaləsinin hakimiyyəti ***dövründə:***

- ✓ Çin yenidən ***vahid dövlətdə*** birləşdirildi.
- ✓ Çin işğalçılıq siyasəti yeritdi.
- ✓ **Koreya** və **Vyetnam** Çinə tabe edildi.
- ✓ Çin Böyük İpək yolunun **Çindən Mərkəzi Asiyayadək uzanan hissəsinə** nəzarəti əlinə keçirsədə, ərəblərlə döyüşdə məğlub olduğu üçün bu nəzarəti itirdi.

Böyük İpək yolu Çinin Mərkəzi Asiya dövlətləri, Azərbaycan, İran və Bizansla ticarət əlaqələrini möhkəmləndirdi. Lakin **751-ci ildə** ***xilafət qoşunları Çin ordusunu məğlub etdikdən sonra*** Böyük İpək yolunun Mərkəzi Asiyayadək uzanan hissəsinə nəzarət Çinin əlindən çıxdı. Buna baxmayaraq, yenə də Çin bu yol vasitəsilə **İran, Mərkəzi Asiya** və **Bizansla** ticarət əlaqələri saxlayırdı. Çin dəniz vasitəsilə ***Hind okeanı sahili ölkələri ilə,*** daxili ticarətdə isə ***Böyük kanaldan*** geniş istifadə edirdi. Bu dövrdə Çində ənənəvi olan ***çəltik, çay, şəkər qamışı, çini qablar, ipək istehsalı*** inkişaf edirdi.

| ***Suy sülaləsi*** *(586-618)* | ***Tan sülaləsi*** *(618-918)* |
|---|---|
| ✓ *Paytaxt Çanan şəhəri oldu.*<br>✓ *Çin yenidən vahid dövlətdə birləşdirildi.*<br>✓ *Çin imperiyası yenidən bərpa edildi.*<br>✓ *Böyük kanal çəkildi.* | ✓ *Çin yenidən vahid dövlətdə birləşdirildi.*<br>✓ *Çin işğalçılıq siyasəti yeritdi.*<br>✓ *Türklərlə mübarizə davam etdirildi.*<br>✓ *Koreya və Vyetnam Çinə tabe edildi.* |

### Türklər və Çin

Erkən orta əsrlər dövründə də şimaldan türk xalqlarının Çinə hücumlarının arası kəsilmirdi. Dağınıq halda olan Çin bu hücumların qarşısını almaqda çətinlik çəkirdi. I Göytürk hökmdarı Muğan xaqanın (552-572) dövründə Çin göytürklərdən asılı vəziyyətə düşdü. Lakin **588-ci ildə** daxili ziddiyyətlər və hakimiyyət çəkişmələri nəticəsində I Göytürk imperatorluğu iki hissəyə - Şərqi və Qərbi Göytürk dövləti parçalandı. Bundan bir qərər sonra həmin dövlətlər Çindən asılı vəziyyətə düşdülər. **VII əsrin 80-ci illərində** göytürklər İltəris (Qutluq) xanın başçılığı altında üsyan qaldıraraq yenidən dövlət yaratdılar. Qapağan xaqanın dövründə (692-716) göytürklər Çini yenidən məğlub edərək özlərindən asılı vəziyyətə saldılar.

Göytürk dövlətinin yerində yaranan Uyğur xaqanlığı da Çini daimi təzyiq altında saxladı. Uyğur hökmdarı Moyon Çur xaqanın dövründə (745-759) Çində ərəblərlə döyüşdə məğlubiyyətdən sonra güclü çəkişmələr baş verdi, Çin sərkərdəsi qanunsuz olaraq Çində hakimiyyəti ələ keçirdi. Hakimiyyətdən uzaqlaşdırılan Çin imperatoru uyğurlardan kömək istədi. Bu zaman Moyon Çur xaqan Çin imperatoruna hakimiyyəti qaytarmaqda kömək etdi və Çinin paytaxtını tutub devrilmiş Çin imperatorunun hakimiyyətini bərpa etdi. Əldə edilən razılığa görə, Çin Uyğur dövlətinə hər il ipəklə bac verməli idi. Digər Uyğur hökmdarı Bögü xaqanın dövründə (759-779) Çinin bütün ticarəti uyğurların nəzarəti altına keçdi, Çinə hücum edən tibetlilər darmadağın edildi.

### Sun sülaləsinin hakimiyyəti (960-1260)

**960-cı ildə** Çində hakimiyyətə Sun sülaləsi gəldi. Sun sülaləsinin hakimiyyəti ***dövründə:***

- ✓ Çində daim kəndli üsyanları baş verdi.
- ✓ Ölkə ərazisi qonşu dövlətlərin hücumuna məruz qaldı.
- ✓ Çingiz xanın qoşunları Şimali Çini tutdu.
- ✓ Monqollar Çini tamamilə özlərinə tabe etdilər.

**1215-ci ildə** Böyük Monqol xanı **Çingiz xanın** qoşunları Şimali Çini tutdu. Monqollar uzun mübarizədən sonra Çini tamamilə özlərinə tabe etdilər. Çin Monqol imperiyasının əsas hissəsi oldu. Monqol imperatorluğunun paytaxtı hətta **Pekin şəhərinə** köçürüldü.




*Çin sülalələri*

### Min sülaləsinin hakimiyyəti (1368-1644)

**XIV əsrin ortalarında** Çində monqol əsarətinə qarşı üsyan - xalq hərəkatı baş verdi. Xalq hərəkatı nəticəsində:

- ✓ Monqollar Çindən qovuldu.
- ✓ Hakimiyyətə Min sülaləsi gəldi.

Min sülaləsi **1368-1644-cü illərdə** Çində hakimiyyətdə oldu. Min sülaləsinin hakimiyyətinin ***ilk dövründə*** aşağıdakı tədbirlər həyata keçirildi:

- ✓ *Monqol feodallarından alınmış torpaqlar kəndlilərə paylanıldı.*
- ✓ *Kəndlilər üç il müddətinə bütün vergi və mükəlləfiyyətlərdən azad edildi.*
- ✓ *Tacirlər və sənətkarlardan alınan vergilərin miqdarı azaldıldı.*



*Çində monqollara qarşı xalq hərəkatı*

Bütün bu tədbirlər **XV əsrdə** Çində təsərrüfatın inkişafına səbəb oldu.

Min sülaləsi də digər Çin sülaləri kimi işğalçı yürüşlər həyata keçirdi**. XVI əsrdə** Min sülaləsinin işğalçı yürüşləri nəticəsində:

- ➢ İmperiyanın ərazisi xeyli genişləndi

- **Koreya, Vyetnam və Tibet** Çindən asılı vəziyyətə düşdü.

Min sülaləsinin dövründə Çin imperiyasının ərazisinə müasir **Çinin daxili əyalətləri** və **Mancuriya** daxil idi.

***Min sülaləsinin hakimiyyəti dövründə Çindən asılı vəziyyətə düşmüş dövlətlər***

- **Koreya**
- **Vyetnam**
- **Tibet**




*Tan sülaləsi dövründə Çinin ərazisi*
*Çinin təsir dairəsində olan ərazilər*




*Min imperiyası*

# Sasanilər imperiyası (226-651)




### Sasanilər dövlətinin yaranması və işğalları

İran ərazisində əvvəllər ardıcıl olaraq Midiya, Əhəmənilər və daha sonra Parfiya dövləti mövcud olmuşdur.

**III əsrin əvvəllərində** Roma ilə Parfiya arasında uzun müddət davam edən müharibə Parfiya dövlətini zəiflətdi. Parfiya dövlətinin zəifləməsi ilə yaranmış əlverişli vəziyyətdən Fars vilayətinin hakimi **Ərdəşir Babəkan** istifadə etdi. Bu zaman Sasanilər nəslindən olan I Ərdəşir Babəkan:

- Parfiya ordusunu məğlub edərək paytaxt Ktesifonu tutdu.
- **226-cı ildə özünü** şahənşah elan etdi və Sasanilər dövlətinin əsasını qoydu.



*Ərdəşir Babəkan*

Ərdəşir Babəkan **226-cı ildə** Ktesifonda təntənəli şəkildə **«şahlar şahı»** titulunu qəbul etdi. Beləliklə, Sasanilər dövləti yarandı və geniş işğallara başladı. **Xarəzm, Xorasan, Mərv** və **Azərbaycan dövləti olan Atropatena** Sasanilər dövlətinə qatıldı. Sasanilərin dövlət quruluşu erkən ***feodal monarxiyası*** idi. Ölkəni ***şahənşah*** idarə edirdi. Ölkə ***əyalətlərə*** bölünürdü. Əyalətləri ***şəhrdarlar*** və ***mərzbanlar*** idarə edirdi. Onlar müharibəyə öz silahlı qüvvələri ilə gedir, mülki və hərbi işlərə başçılıq edirdilər. Şahdan sonra ikinci rəsmi şəxs ***ali maq (baş kahin)*** hesab olunurdu. Ölkənin rəsmi dini olan ***zərdüştlük*** dövlətin idarə olunmasında xüsusi rol oynayırdı. Zərdüştlüyün əsas mərkəzi ***Azərbaycanın (Atropatenanın) Qazaka şəhərindəki məbəd*** hesab olunurdu.

### İranda feodal münasibətlərinin meydana gəlməsi

Sasanilər dövlətinin yaranması feodal münasibətlərinin meydana gəlməsini sürətləndirdi. Ölkədə feodal münasibətləri **III-V əsrlərdə** yarandı. Sasani şahları hakimiyyətin dayaqlarını möhkəmlətmək, ucqar əraziləri qorumaq üçün hərbçilərə torpaq sahələri paylayırdılar. Sasanilərdə feodal torpaq mülkiyyətinin iki forması mövcud idi:

- **Dastakert –** iri feodallara məxsus əsas irsi torpaq mülkiyyət forması idi.
- **Xostak -** orta və xırda feodallara məxsus şərti torpaq mülkiyyət forması idi.

Geniş torpaq sahəsinə (dastakertə) sahib olan ***iri feodallar - patriklər***, xidmət müqabilində verilən torpaq (xostak) sahibi olan ***orta*** və ***xırda feodallar - azadlar*** adlanırdı. Azadlardan ibarət süvari qoşun ordunun əsasını təşkil edirdi. Vergini və borcunu ödəyə bilməyən kəndlilər ***asılı kəndlilərə*** çevrilirdilər. Ölkədə ***natural təsərrüfat*** hakim idi.



*Sasanilər dövlətinin bayrağı və gerbi*

Feodal münasibətləri dini idarələri də əhatə edirdi. Dini ibadət üçün vergi verilirdi. Kahinlərin əlində çoxlu torpaq və kəndli toplanmışdı. Məbəd və nüfuzlu din xadimlərinin əlində iri torpaq sahələri cəmləşmişdi.

Sasanilər dövründə əsas vergilər aşağıdakılar idi:

- **Xaraq** - kəndlililərin məhsulun 1/3-nə qədərini təşkil edən torpaq vergisi idi.
- **Gezit** - 20-dən 50-yaşa qədər bütün əhalinin ödədiyi vergi idi.
- **Bac** - sənətkar və tacirlərdən alınan vergi idi..

Ölkədə vergi sistemini qaydaya salmaq məqsədilə Sasani şahı **I Xosrov (531—579)** islahat keçirmişdi. İslahatlar nəticəsində vergi sistemi nizama salındı.

### Mani təlimi. Məzdəkilər hərəkatı



*Məzdək*

**III əsrdə** Arşakilər sülaləsinə mənsub olan Mani İranda öz təlimini yaymağa başladı. Bu təlim ***xristian, zərdüşt*** və ***buddizm dinini*** özündə birləşdirmişdi. Mani təliminə görə işıq və qaranlıq (nur və zülmət) arasında daim mübarizə gedir. Manilik qısa müddətdə geniş ərazilərə yayıldı. Sasani şahı maniliyin hakimiyyət üçün təhlükəli olduğunu görüb, Manini edam etdirdi, manilərin təqibi gücləndirildi.

**481-ci ildə** İranda yeni bir hərəkat - məzdəkilər hərəkatı başladı. Hərəkatın rəhbəri ali maq Məzdək Ktesifonda çıxış edib, ədalətli cəmiyyət qurulmasını tələb etdi. O bütün nemətlərin insanlar arasında bərabər bölüşdürülməsini təbliğ edirdi. Sasani şahı **I Qubad (488-531)** mərkəzi hakimiyyəti möhkəmlətmək məqsədilə məzdəkilərin xalq arasındakı nüfuzundan istifadə etdi.

I Qubad hakimiyyətini möhkəmləndirdikdən sonra məzdəkilərin təqibinə başladı. **529-cu ildə** Məzdək edam edildi, onun tərəfdarlarına isə qanlı divan tutuldu.

**III əsr**

Çin bir neçə dövlətə parçalandı

Sasanilər dövləti yarandı

Sasanilər Cənubi Qafqazı tutdu

Manilik hərəkatı meydana gəldi

### Sasanilər dövlətinin Ağ hunlarla müharibələri

**V əsrdə Sasani imperiyası *şərqdə*** sərhəd qonşusu və əsas rəqibi Ağ hun dövləti idi. Bu dövrdə hunlar tez tez İran üzərinə yürüşlər edirdilər. Ağ hun hökmdarı Ağsuvar xanın dövründə hunlar **430-cu ildə** Sasanilərə sarsıdıcı zərbələr endirdilər. **V əsrin ikinci yarısından** Sasanilər Ağ Hun imperatorluğundan asılı vəziyyətə düşdü və Ağ Hun imperatorluğuna illik bac verməyə başladı. Göytürk xaqanı **İstəmi xaqan *Ağ hunlara qarşı ittifaq bağlamaq təklifi ilə*** Sasanilər dövlətinə müraciət etdi. Sasani hökmdarı **Xosrov Ənuşirəvan (531-579) ağ hunlara (*eftalitlərə) qarşı birgə çıxış etmək*** barədə Göytürk xaqanı İstəminin təklifini məmnunluqla qəbul etdi. **567-ci ildə** Xosrov Ənuşirəvanın və İstəmi xaqanın birləşmiş qüvvələri Ağ hunlar üzərinə yürüşə başladılar. Nəticədə Ağ hunlar məğlub oldular və onun torpaqları ***göytürklər*** və ***sasanilər*** arasında bölüşdürüldü.

### Sasanilər dövlətinin zəifləməsi və süqutu

**VI əsrdə** Sasani dövləti Göytürk imperatorluğu ilə birləşib Ağ hunları məğlub etsə də, ölkə zəifləməkdə davam edirdi. Xüsusilə Bizansla aparılan müharibələr Sasanilər dövlətinin bütün qüvvəsini tükəndirdi. Bizans Xəzər xaqanlığının köməyi ilə Sasani dövlətini məğlub etdi. Sasanilər Bizansla sülh bağlamağa məcbur oldu. **VII əsrin 30-cu illərində** Sasanilər dövləti yeni bir təhlükə ilə - Ərəb dövlətinin hücumu ilə qarşılaşdı. Bizans və Xəzər xaqanlığı ilə müharibələr nəticəsində zəifləmiş Sasanilər dövləti bu zaman ərəblərə qarşı ciddi müqavimət göstərə bilmədi və **651-ci ildə** Sasanilər dövləti süqut etdi.

# Qafqaz xalqları



Qafqaz (IV–VII əsrlər)



Qafqaz (IX–XI əsrlər)

## Qafqaz xalqları Erkən feodalizm dövründə

Erkən orta əsrlər dövründə işğallara məruz qalmış Qafqaz bir çox dövlətlər üçün hərbi-strateji və iqtisadi əhəmiyyət kəsb edirdi. Bu dövrdə feodal dağınıqlığı və dini müxtəliflik Qafqaz xalqlarının düşmənə qarşı müqavimətini zəiflədirdi.

Ərəb işğalları Qafqaz xalqlarının həyatını dəyişdi. Bir çox xalqlar İslam dinini qəbul etdi. Onların mədəniyyətində mühüm dəyişikliklər baş verdi. Ərəb xilafəti iki əsrdən artıq Qafqazı idarə etdi. Xilafət zəifləyib dağıldığı dövrdə burada bir neçə müstəqil dövlət yarandı. Azərbaycanda (keçmiş Albaniya və Atropatena dövlətlərinin ərazisində) **Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Şəki hakimliyi, Tiflis əmirliyi, Dərbənd əmirliyi** kimi dövlətlər yarandı. İndiki Gürcüstan ərazisində isə **Abxaziya, Kartli-Kaxetiya çarlıqları, Tao-Klarceti knyazlığı** yarandı. **VIII əsrin 30-cu illərində** yaranmış **Tiflis müsəlman əmirliyi** varlığını XII əsrin əvvəllərinədək qoruyub saxladı. Ərəb xilafətinin süqutundan sonra Azərbaycan torpaqları **Sacilər sülaləsinin** hakimiyyəti dövründə ilk dəfə vahid dövlət halında birləşdirildi.

## Qafqaz xalqları Klassik feodalizm dövründə

**XI əsrin əvvəllərində** gürcü torpaqları vahid dövlətdə birləşdirildi. Bu dövrdə səlcuq türklərinin Qafqaza axınları baş verdi. Cənubi Qafqaz və Dağıstan Böyük Səlcuq imperatorluğunun tərkibinə qatıldı. Sonralar Səlcuq imperatorluğunun zəifləməsindən istifadə edən gürcü çarı **IV David (1089-1125)** təcavüzkar siyasət yeritməyə başladı. Onun məqsədi ***Azərbaycanın qərb torpaqlarını işğal etmək*** idi. Gürcü çarı ***Bizansla*** ittifaqa nail olub səlcuqlara qarşı mübarizəyə başladı. Nəticədə Tiflis, Dəbil və Ani kimi müsəlman şəhərləri gürcülər tərəfindən işğal edildi.

**XIII əsrdə** Qafqaza monqol yürüşləri başladı. Monqol yürüşləri nəticəsində Qafqaz Hülakü imperatorluğunun tərkibinə qatıldı. Şimali Qafqaz Hülakü və Qızıl Ordu dövlətləri arasında bölüşdürüldü.

**XIV əsrin 80-ci illərində** Qafqaz Teymurilər tərəfindən işğal olundu. Çox keçmədən Teymuri imperatorluğu parçalandı, onların Qafqazda mövqeyi zəiflədi.

**XV əsrin sonlarında** Gürcüstanda ***Kartli, Kaxetiya*** və ***İmeret çarlıqları*** kimi müstəqil feodal dövlətləri meydana gəldi. Hücumların dayanması və siyasi sabitliyin yaranması Qafqazda təsərrüfatın inkişafına müsbət təsir göstərdi. **XV əsrdə Qaraqoyunlu** və **Ağqoyunlu** sülalələrinin hakimiyyəti dövründə Azərbaycan bütün Cənubi Qafqazın, Yaxın və Orta Şərqin hərbi-siyasi tarixində mühüm rol oynadı. **XV əsrin sonlarında** bütün Azərbaycan torpaqlarının vahid mərkəzləşdirilmiş dövlət halında birləşdirilməsi üçün tarix şərait yarandı.

# Ərəblər. Ərəb Xilafəti

## Ərəblərin yaşadığı ərazi. Köçəri bədəvilərin həyat tərzi

Ərəblərin vətəni Asiya qitəsinin cənub-qərbi, ***Asiya, Afrika qitələri və Aralıq dənizinin*** qovuşduğu **Ərəbistan** yarımadası idi. Əsasən səhralar və vahələrdən ibarət olan Ərəbistan yarımadasının ***cənubunda*** su və yağış bol olurdu. Səhrada leysan yağışlarından sonra müvəqqəti suyu olan quru dərə ***vadi*** adlanırdı. Ölkənin cənubunda yağıntıların bolluğu əkinçiliyə şərait yaradırdı. Buna görə də əhalinin sıxlığı cənubda daha çox idi. Yarımadanın ***şimalında*** və ***mərkəzində*** əhali çox az məskunlaşmışdı. Burada onlar ***maldarlıqla*** məşğul olur, dəvə, qoyun və at saxlayırdılar. Ərəbistan yarımadasının şimalında yaşayan köçəri ərəblər ***bədəvi (çöllülər)*** adlanırdı. Susuz səhralara davam gətirən dəvə ən yaxşı **«Yük gəmisi»** idi. Ona görə də onu ***səhra gəmisi*** adlandırırlar.

İslamdan öncə ərəblər ***ibtidai icma quruluşunda - qəbilələr*** halında yaşayırdı. Hər bir qəbiləni ***qəbilə başçısı*** idarə edirdi. Zaman keçdikcə qəbilələr ***tayfalar*** şəklində birləşməyə başladılar.

## İslam dininin meydana gəlməsi (610)

**610-cu ildə** İslam dini meydana gəldi. Ərəblərdə yeni dinin meydana gəlməsi **Məhəmməd Peyğəmbərin** adı ilə bağlıdır. Bu dini qəbul edənlər ***müsəlman*** adlandırılırdı.

Müqəddəs kitabı **«Qurani-Kərim» olan** İslam dini sonuncu səmavi din idi. Ərəblər İslam dininin qəbulu sayəsində tərəqqiyə qovuşdu. Onların həyatı tamamilə dəyişdi. İslam ərəb xalqına cəmiyyət qanunlarını, dövlət qurmağı və onu idarə etməyi öyrətdi. Ərəblər İslam dəyərlərini ***qərbdə Atlantik okeanına, şərqdə Çinə qədər*** geniş ərazidə yaydılar.

***QEYD:*** Məhəmməd Peyğəmbər **610-cu ildə** 40-yaşında İslam dinini təbliğ etməyə başladı. İslam dininin müqəddəs kitabı olan «**Quran**» sözünün mənası, ***oxumaq, tələffüz etmək*** deməkdir. Bu müqəddəs kitab **114 surədən (fəsil, bölmə)** ibarətdir. Onun hər cümləsi və yaxud cümlənin bir hissəsi ***ayə*** adlanır. İslamı qəbul edən hər bir insan 5 şərtə əməl etməlidir.

## Ərəb dövlətinin yaranması (630)

Məhəmməd Peyğəmbər İslam dinini qəbul etmiş tərəfdarları ilə o dövrdə ticarət mərkəzi olan Məkkədə ***müsəlman icmasını*** yaratdı. Məhəmməd Peyğəmbər İslam dinini Məkkədə çətinliklə yayırdı. Odur ki, maneələri aradan qaldırmaq üçün O, **622-ci ildə** Məkkədən **Mədinəyə** köçdü. Məhəmməd Peyğəmbərin 622-ci ildə Məkkədən Mədinəyə köçməsi ilə ***Hicri tarixi*** başlayır. **630-cu ildə** Məhəmməd Peyğəmbər **Məkkədə** Ərəb dövlətini yaratdı. Məhəmməd Peyğəmbər (630-632) yeni dinin və dövlətin başçısı oldu. Peyğəmbərin vəfatından sonra dövləti ***xəlifələr*** idarə etməyə başladılar.



*Qurani-Kərim*

***Ərəb tarixinin dövrləşdirilməsi***

**Ərəb dövləti (630-1258)**

- **I dövr - Peyğəmbərin (630-632) və 4 xəlifənin dövrü (630-661)**
- **II dövr - Əməvilər sülaləsinin hakimiyyəti dövrü (661-750)**
- **III dövr – Abbasilər sülaləsinin hakimiyyəti dövrü (750-1258)**

## Xəlifələr dövrü (632-661)

Məhəmməd Peyğəmbər vəfat edəndən sonra dövləti Peyğəmbərin müavinləri – ***xəlifələr*** idarə etməyə başladılar. Bu dövlətin başçılarına ***xəlifə***, yəni Peyğəmbərin davamçısı deyirdilər. 632-ci ildən başlayaraq 661-ci ilədək ölkəni bir-birinin ardınca xəlifə **Əbu Bəkr, Ömər, Osman** və **Əli** idarə etdilər. Xəlifələr ***dövründə:***

- ✓ Ərəb işğalları genişləndi, **Bizans** və **İran (Sasani) torpaqları** işğal edildi.
- ✓ Ərəblər Bizansın bir çox ərazilərini ələ keçirdilər və **Şimali Afrikaya** yiyələndilər.
- ✓ Ərəblər Sasanilər dövlətinin varlığına son qoydular.
- ✓ Ərəblər yürüşləri Şərqdə Hind çayı vadisinə qədər davam etdi.
- ✓ Ərəb xilafəti Atlantik okeanından Hindistan və Çinədək olan geniş əraziləri özünə birləşdirdi.

***QEYD:*** Ərəblərin Bizans və İran torpaqlarını asanlıqla işğal etməsinin səbəbi həmin dövrdə Bizans və Sasanilər dövlətinin bir biri ilə müharibələrdə zəifləməsi idi.

**Xəlifələr dövründə ərəblərin işğal etiyi ərazilər**

- **İran torpaqları**
- **Bizans torpaqları**
- **Şimali Afrika**




Ərəb dövləti 632-ci ildə




Ərəb xilafəti 661-ci ildə

### Əməvilər sülaləsinin hakimiyyəti (661-750)

Ərəb dövlətində **661-ci ildə** hakimiyyətə ***Əməvilər sülaləsi*** gəldi. Əməvilər dövründə:

- ✓ Paytaxt Məkkədən Dəməşq şəhərinə köçürüldü.
- ✓ Ərəb işğalları daha da genişləndi.
- ✓ Xilafət ordusu indiki Cəbəlüttariq boğazını keçərək Avropaya doğru irəlilədilər.
- ✓ Avropanın içərilərinə doğru irəliləyən ərəblər İspaniyanı ələ keçirdilər

***QEYD:*** Avropanin içərilərinə doğru irəliləyən ərəblər **732-ci ildə *Puatye*** adlı döyüşdə franklarla döyüşdülər. Ərəblərlə franklar arasında baş vermiş Puatye döyüşü nəticəsində ***franklar ərəbləri məğlub edərək onların Avropaya yürüşlərinin qarşısı dayandırıldı***.

### Abbasilər sülaləsinin hakimiyyəti (750-1258)

**750-ci ildə** Əməvilər sülaləsini Abbasilər sülaləsi əvəz etdi. Abbasilər sülaləsinin hakimiyyəti ***dövründə:***

- ✓ Əməvilərin işğalçılıq siyasəti davam etdirildi.
- ✓ Paytaxtın Bağdada köçrülməsi ilə Ərəb xilafəti ***Bağdad xilafəti*** adlanmağa başladı.
- ✓ Ərəblərə qarşı Mərkəzi Asiyada **Müqənna,** Azərbaycanda **Xürrəmilər üsyanı** baş verdi.
- ✓ İlk olaraq, İspaniyada yaranmış **Kordova əmirliyi** mərkəzi hakimiyyətdən ayrılaraq tam müstəqil oldu.
- ✓ ***Mərakeş, Əlcəzair, Tunis, Liviya, Yəmən və Xorasan*** mərkəzi hakimiyyətdən ayrıldı.
- ✓ **İran** və **Misir** Xilafətin tərkibindən çıxdı.
- ✓ Ərəb xilafəti zəiflədi və dağıldı, ərəblər səlcuqların və monqolların hücumuna məruz qaldı.




VIII–IX əsrlərdə Ərəb xilafəti

***QEYD:*** Azərbaycanda Babəkin başçılıq etdiyi Xürrəmilər üsyanının Ərəb xilafətinin zəifləməsində və süqutunda böyük rolu olmuşdu.

## Xilafətin idarə olunması

***Ərəb xilafətində*** dövlətin başçısı ***xəlifə*** idi. Xəlifə həm də ordunun ali baş komandanı idi. Ölkədə ayrı-ayrı sahələri idarə etmək üçün ***divanlar*** yaradılmışdı. Xilafət ərazisi inzibati cəhətdən ***vilayətlərə*** bölünürdü. Vilayətlər xəlifə tərəfindən təyin olunan ***əmirlər*** tərəfindən idarə olunurdu. Bütün ərazilərdə rəsmi danışıq və yazı dili ***ərəb dili*** idi.

***QEYD:*** Ümumiyyətlə, Əhəmənilər dövlətində ***"satrapt",*** Sasanilər dövlətində ***"mərzban"***, Ərəb xilafətində ***"əmir"*** vəzifələri ***vilayətləri idarə edən şəxslərə*** deyilirdi.

## Xilafətdə torpaq mülkiyyət formaları və vergilər. Ərəblərin köçürmə siyasəti

Ərəb xilafətində **xəlifə, divan, mülk, iqta, vəqf** və **icma** torpaq mülkiyyət formaları mövcud olmuşdur. ***Dövlətə sadiq olan şəxslərə*** mükafat olaraq torpaqlar verilirdi.

Xilafətdə varlılar daha çox vergi ödəməyə məcbur idi. Ərəb xilafətində əhalidən aşağıdakı vergilər alınırdı:

- **Xərac** – torpaq vergisi olub, məhsulla torpağı olanlardan alınırdı.
- **Cizyə** - can vergisi olub, qeyri müsəlman kişilərdən alınırdı.
- **Xüms** – daşına bilən əmlakdan, adamların faydalandığı məmulatlardan alınırdı.
- **Zəkat (sədəqə)** – maldarlardan, tacir və sənətkarlardan, əkin sahələrindən və meyvə bağlarından alınırdı.

Ərəb xilafəti Sasanilər dövləti kimi ***köçürmə siyasəti*** həyata keçirmişdi. Xilafət Ərəbistandan ərəb ailələrini Xilafətin işğal olunmuş ərazilərinə, o cümlədən sərhəd bölgələrinə köçürürdülər. Ərəblərin köçürmə siyasətində əsas məqsədi ***işğal edilmiş ölkələrdə hakimiyyəti gücləndirmək*** və ***etniq dayaq yaratmaq*** idi

***Xilafət dövründə torpaq mülkiyyət formaları***




## Xilafətin idarə olunmasında türklərin rolu

İslam dininin qəbul olunmasından sonra ərəb ordusunda ***türklərin*** nüfuzu artdı. Türklərlə qohumluq əlaqələri yaradan ərəb xəlifələri onların gücündən istifadə edirdilər. Xilafətdə ***Abbasilər sülaləsinin hakimiyyəti dövründə*** türklərin nüfuzu daha da artdı, onlar yüksək vəzifələrə seçildilər.



*Qahirədə Əhməd ibn Tulun məscidi*

Xilafətdə türklərin yüksək vəzifələrə seçilməsinin əsas səbəbi onların ***təşəbbüskar və səriştəli olması*** idi. **IX əsrdən etibarən** ***türklər*** Ərəb dövlətində və orduda mühüm rol oynayırdılar. Ərəb ordusuna ***türk sərkərdələri*** başçılıq etməyə başladı. Xilafətin görkəmli sərkərdələri olan **Afşin, Əbu Sac** türk idilər. Bu dövrdə Xəlifələr tamamilə türk hərbi rəislərindən asılı idilər. Xilafətdə türk sərkərdələri bir xəlifəni hakimiyyətdən salır və ya hakimiyyətə gətirirdilər.

Türklərin etibarlı olması onların nüfuzunu yüksəldirdi. Məsələn, ***Tulun sülaləsinin*** əsasını qoyan **Tulun** Buxarada vergi əvəzinə alınan bir döyüşçü idi. Onun oğlu **Əhməd İbn Tlun Misirdə** əvvəl canişin köməkçisi, sonra ***canişin*** olmuşdu Əhməd İbn Tulun dövrünü (876-879) tarixçilər ***Misir tarixinin*** «***qızıl dövrü***» adlandırırdılar.

### Ərəb xilafətinin parçalanması və süqutu

**IX əsrdə** Ərəb xilafəti dağıldı. Xilafətin zəifləməsinin və dağılmasının əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ✓ ***Ərəb xilafətinin işğal etdiyi ərazilərdə başlayan azadlıq mübarizələri.***
- ✓ ***Daxili çəkişmələr və iri feodalların (əmirlərin) müstəqilliyinin artması.***

Ucqarlardakı ***yerli hakimlər*** ilk növbədə, xəlifə xəzinəsinə göndərdikləri vergilərin məbləğini azaldır, sonra isə tamam dayandırırdılar. Yerli hakimlərin öhdəsindən gələ bilməyən xəlifələr onları öz vilayətlərində tamhüquqlu sahib kimi tanıyırdılar. İlk olaraq, İspaniyada yaranmış **Kordova əmirliyi** Xilafətdən ayrılaraq müstəqil oldu. Sonra **Mərakeş, Əlcəzair, Tunis, Liviya, Yəmən** və **Xorasan** mərkəzi hakimiyyətdən ayrıldı. Bunun ardınca **İran** və **Misir** Xilafətin tərkibindən çıxdı. **Mərkəzi Asiyada** və **Azərbaycanda** ***türk müsəlman sülalələri*** hakimiyyəti ələ keçirdilər.

Xeyli zəifləyən Ərəb xilafəti, ***səlcuqların*** yürüşü ilə süqutunu yaxınlaşdırdı. Səlcuqların ardınca ***monqolların*** yürüşlərinə tab gətirməyən Ərəb xilafəti **1258-ci ildə** süquta uğradı.

*IX əsrdə Bağdad xilafətindən ayrılan ərazilər*

| Əlcəzair | Mərakeş | Tunis | Xorasan |
| --- | --- | --- | --- |

## Azərbaycanda və Mərkəzi Asiyada yeni dövlətlərin yaranması




### Azərbaycanda ilk feodal dövlətlərin yaranması

Xilafət zəiflədiyi zaman Şirvandakı canişin mərkəzi hakimiyyətlə əlaqəsini tamamilə kəsərək **861-ci ildə** müstəqil ***Şirvanşahlar dövlətini*** yaratdı. Şirvanşahlar dövləti ***Azərbaycanın ən uzunömürlü feodal dövləti*** (861-1538) idi.

**879-cu ildə** Azərbaycan ərazisində ***Sacilər sülaləsinin*** yaratdığı yeni dövlət meydana gəldi. Sacilər sülalənin və dövlətinin banisi **«Afşin»** titullu türk əmirləri nəslindən olan adlı-sanlı sərkərdə **Əbu Sac Divdad** idi.

Sacilər dövləti (879-941) **qərbdə Ani və Dvindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbəndədək olan** böyük bir ərazini özlərinə tabe etmişdilər. Sacilərin hakimiyyəti dövründə ***bütün Azərbaycan torpaqları ilk dəfə vahid dövlət halında birləşdirildi***. **941-ci ildə** Saciləri dövlətini **Salarilər dövləti** (941-981) əvəz etdi. **981-ci ildə** Salarilər dövləti süqut etdi. Sacilər dövlətinin yerində Azərbaycanın şimalında paytaxtı Gəncə olmuş **Şəddadilər** dövləti (971-1054) və Azərbaycanın cənubunda paytaxtı Təbriz olmuş Rəvvadilər dövləti (981-1054) yarandı.

Xilafətin süqutu nəticəsində Şimali Azərbaycan (Albaniya-Arran) torpaqlarında **Tiflis əmirliyi, Şəki hakimliyi və Dərbənd əmirliyi** kimi ***xırda feodal dövlətləri*** də yarandı.

### Samanilər dövləti (875-999)

Xilafətin parçalanması nəticəsində Mərkəzi Asiyada **Samanilər, Qaraxanlı** və **Qəznəvilər** dövləti yarandı.

**875-ci ildə** yaranmış **Samanilər dövləti** Saman **Xudatın** adını daşıyırdı. Samanilər dövlətinin ərazisinə **Məvəraənnəhr, Xorasan** və **Şimal-Şərqi İran** daxil idi. Onun ərazisinin böyük hissəsini tarixi türk torpaqları, əhalisinin əksəriyyətini türklər təşkil edirdi. Dövlətin paytaxtı **Buxara** şəhəri idi. **999-cu ildə** Samanilərin əsas rəqibi olan Qaraxanlılar Buxaranı tutaraq Samanilər dövlətinin varlığına son qoydular.



Samanilər dövlətinin pulu

Samanilər dövlətində kənd təsərrüfatı, sənətkarlıq və ticarət yüksək inkişaf etmişdi. Samani tacirləri **Kiyev, Bizans, Çin, Azərbaycan, İran** və başqa ölkələrə ***xalça, ipək, ədviyyat, zinət əşyaları*** aparıb satırdılar. Samanilər dövlətinin Azərbaycanla geniş ticarət və mədəni əlaqələrini ölkəmizdə tapılmış ***Samani pulları*** sübut edir.

### Qaraxanlı dövləti (927-1212)

**İslam dinini** qəbul etmiş ilk türk sülalələrindən biri olan Qaraxanlı dövləti **927-ci ildə** meydana gəlmişdi. Dövlətin əsasını **Qutluq Bilgə Qədir xan** qoymuşdu. O özünü **«Qara xan»**, yəni **«Böyük xan»** adlandırdığı üçün sülalə də onun adı ilə adlanırdı.



*Qutluq Bilgə Qədir xan. Qaraxanlı dövlətinin bayrağı*

Qaraxanlı dövlətinin ərazisi **Balxaş gölündən başlayaraq Hindiquş dağlarına qədər** olan torpaqları əhatə edirdi.

Dövlətin paytaxt **Qaşqar, Balasaqun** və **Uzgen şəhərləri** olmuşdu. Qaraxanlı dövlətində **Səmərqənd, Buxara, Ürgənc, Termez** şəhərləri xüsusilə şöhrət qazanmışdı.

Erkən orta əsrlərdə təqribən 300 il mövcud olan Qaraxanlı dövləti **1212-ci ildə** ***Xarəzmşahlar dövləti*** tərəfindən süquta uğradıldı.




### Qəznəvilər dövləti (962-1187)

**X əsrin 60-cı illərində** Mərkəzi Asiyada ***Qəznəvilər dövləti*** yaranmışdı. Dövlətin əsasını **Alptəkin** qoymuşdu. Alptəkin əvvəllər Samanilər dövründə türk qvardiyasında qulluq etmişdi. Şəxsi şücaətinə görə ***hərbi əyanlar sırasına*** daxil olmuş Alptəkin Samanilərin hakimiyyətini tanımaqla yanaşı, Qəznəvilər dövlətini yaratmışdı.



Alptəkin

**Sultan Mahmud Qəznəvinin (998-1030)** hakimiyyəti dövründə:

- ✓ Qəznəvi dövlətinin qüdrəti daha da artırdı və ərazisini xeyli genişləndi.
- ✓ Samanilər dövlətini ərazisi **Qəznəvi** və **Qaraxanlı dövlətləri** arasında bölüşdürüldü.
- ✓ Qəznəvilər Hindistanın ***şimal*** və ***şimal-şərq torpaqlarını*** ələ keçirildi.
- ✓ Qəznəvilər dövlətinin ərazisi **Hindistandan Xəzərsahili torpaqları**na qədər genişləndi..

Sultan Mahmudun xarici siyasətində əsas yeri ***Hindistanın işğalı*** tuturdu. O, bu məqsədlə **1002-1026-cı illərdə** ***17 dəfə*** Hindistana hücum etdi. Bu hücumlar nəticəsində:



*Qəznəvilər dövlətinin bayragı*

- ➢ Hindistanın **Kəşmir, Pəncab, Qucarat vilayətlərini** ələ keçirildi.
- ➢ Hindistanın zəngin sərvəti ələ keçirildi və Qəznəvi dövləti iqtisadi cəhətdən möhkəmləndi.

Sultan Mahmudun vəfatından sonra dövlət tənəzzül etməyə başladı. ***Vergilərin ağırlığı, əhalinin məmurlardan narazılığı və feodalların mərkəzi hakimiyyətə qarşı çıxışları*** ölkəni zəiflətdi.

Bu zaman Qəznəvilər dövlətinin tabeliyində olan səlcuq türkləri dövlətin zəifləməsindən istifadə edərək qəznəviləri sıxışdırdılar. **1040-cı ildə** baş verən ***Dəndənəkan döyüşündə*** səlcuqlar qəznəviləri məğlubiyyətə uğratdılar.

**XII əsrin 70-ci illərində** Qəznəvilər dövlətinə son zərbəni vuran ***gurlu*** tayfaları onları **Şimali Hindistana** sıxışdırdı. **1187-ci ildə** Qəznəvi dövləti süqut etdi.



# Böyük Səlcuq dövləti (1038-1157)

## Səlcuq dövlətinin yaranması

Səlcuqlar oğuz türklərinin ***qınıq boyundan*** idilər. Bu tayfa öz adını **Səlcuq bəyin** adından götürmüşdü. **Oğuz dövlətində *subaşı vəzifəsini*** daşıyan Səlcuq bəy Oğuz yabqusu ilə münasibətləri pisləşdiyi üçün öz tayfası ilə birgə Seyhun (Sırdərya) çayının sahilindəki **Cənt şəhərinə** gələrək İslam dinini qəbul etdi. Qəznəvilərin işğalları dövründə səlcuqlar **Xorasan vilayətinə** köçməyə məcbur oldular. Səlcuqun nəvələri **Toğrul bəy** və **Çağrı bəy** səlcuqları bir bayraq altında birləşdirib **Qəznəvilərə qarşı** mübarizəyə başladılar və Xorasanın əsas şəhəri olan **Nişapuru** ələ keçirdilər. Toğrul bəyin başçılığı ilə səlcuqlar **1038-ci ildə** paytaxt Nişapur olmaqla Səlcuq dövləti yarandı.




***Səlcuq sülaləsi***




## Sultan I Toğrulun hakimiyyəti (1038-1063)

Qəznəvilər Xorasanda yeni bir dövlətin yaranmasını qəbul etmədiyi üçün böyük bir qoşunla səlcuqlar üzərinə hücum etdilər. **1040-cı ildə** Mərv şəhərinin yaxınlığındakı **Dəndənəkan** adlı yerdə ***səlcuqlarla qəznəvilər arasında*** qanlı döyüş baş verdi. Dəndənəkan döyüşü ***nəticəsində:***

- *Səlcuq ordusu Qəznəviləri məğlub etdi.*
- *Səlcuqlar üçün Azərbaycan, İran və İraqa yol açıldı.*

Döyüşün ertəsi günü Dəndənəkan döyüşündə qazanılan qələbəyə görə **Toğrul bəyə (1038-1063)** Sultan titulu verildi.

Dəndənəkan qələbəsindən dərhal sonra səlcuqlar Mərv şəhərində qurultay çağırdılar. Mərv qurulyatında səlcuqlar:

- *Qərb və Şərq istiqamətlərində yeni torpaqlar tutmağı* planlaşdırdılar.
- *İran, Cənubi Qafqaz və Bizansa qarşı hücuma keçmək qərara alındı.*


Sultan I Toğrulun abidəsi. Türkmənistan

**1043-cü ildə** Səlcuq dövlətinin paytaxtı **Rey şəhərinə** köçürüldü. Səlcuq orduları buradan **Həmədan, İsfahan** və **Gilanı** tutaraq **Azərbaycana** doğru yürüşə başladılar.

**1054-cü ildə** səlcuqlar **Cənubi Qafqaza** hücum edərək **Rəvvadiləri, Şəddadiləri** və **Tiflis müsəlman əmirliyini** özlərinə tabe etdilər. Bundan sonra Sultan Toğrul yaratdığı dövləti Bağdad xəlifəsinin mənəvi nüfuzu ilə gücləndirmək məqsədi ilə Bağdada yürüş etdi.

**1055-ci ildə** Sultan I Toğrulun başçılığı ilə səlcuqlar o zaman Ərəb xilafətinin paytaxtı olan **Bağdadı** tutdular. Xəlifə I Toğrulun şərəfinə ziyafət verərək ona «***Şərqin və Qərbin hökmdarı***» titulunu verdi. Bağdadın tutulması nəticəsində ***Abbasilər xilafəti səlcuq türklərindən asılı vəziyyətə düşdü***. Sultan I Toğrulun dövründə Oğuz dövlətinin davamı hesab olunan Səlcuq dövlətinin ərazisi **Mavəraənnəhrdən Mesopotamiyaya** və **Hindiquş dağlarına qədər** torpaqları əhatə edirdi. Lakin Oğuz dövlətindən fərqli olaraq, Səlcuq dövləti geniş ərazili imperiyaya idi.


Dəndənəkan döyüşü (miniatür)

### Alp Arslanın hakimiyyəti (1063-1072)

Sultan I Toğrulun vəfatından sonra hakimiyyətə **Alp Arslan (1063-1072)** gəldi. Alp Arslanın əsas məqsədi ***Anadoluya yiyələnmək*** idi. Alp Arslan səlcuqların əsas hücum hədəfi olan Bizansla müttəfiq olan erməni, gürcü və abxaz hökmdarlarını darmadağın edib Tiflis, Ani, Qars şəhərlərini ələ keçirdi. Daha sonra Alp Arslan Anadolu üzərinə yürüşə başladı. Bu zaman Bizans imperatoru çox böyük ordu topladı. Bu orduya əslən türk olan ***oğuz və peçeneq tayfaları*** da daxil edildi. Tərəflər arasında **1071-ci il avqustun 26-da** ***Malazgird vuruşması*** baş verdi. Bu döyüş dünya tarixində böyük bir dönüş nöqtəsi oldu.



*1071-ci il, Malazgird döyüşü*

Döyüş zamanı ***oğuz*** və ***peçeneqlər*** səlcuqların tərəfinə keçdilər. Malazgird döyüşü ***nəticəsində*** Səlcuqlar qalib gələrək Bizans imperatoru Diogeni əsir aldılar. Döyüşdən sonra Bizansın səlcuqlarla imzaladığı müqaviləyə əsasən:

- ✓ **Bizans Şərqi Anadolu torpaqlarını səlcuqlara verdi.**
- ✓ **Bizans hər il səlcuqlara vergi verməyi və lazım gəldikdə hərbi yardım göstərməyi öz öhdəsinə aldı.**

Malazgird döyüşündən sonra Bağdad xəlifəsi Malazgirddəki qələbə münasibətilə Alp Arslanı təbrik edərək onu «***Müsəlmanların xilaskarı***» və «***İslamın nuru***» adlandırdı.

***Alp Arslanın hakimiyyəti***

| Malazgird döyüşündə Bizans ordusu məğlub edildi | Anadolu həmişəlik türk yurduna çevrildi | "Müsəlmanların xilaskarı" və "İslamın nuru" adını aldı | Bağdatda Nizamiyyə mədrəsəsi quruldu |
|---|---|---|---|

### I Məlikşahın hakimiyyəti (1072-1092)

**1072-ci ildə** Alp Arslan Mərkəzi Asiyaya hərbi yürüş zamanı əsir aldığı qalabəyi tərəfindən öldürüldü. Onu oğlu **I Məlikşah (1072-1092)** əvəz etdi. I Məlikşahın hakimiyyəti dövründə:

- ✓ Konya, Ankara və Suriya (Qüds) tutuldu.
- ✓ Səlcuq imperiyası ***çiçəklənmə dövrü*** keçirdi.
- ✓ Dövlətin paytaxtı Rey şəhərindən **İsfahana** köçürüldü.
- ✓ Səlcuq imperatorluğunda iqtisadiyyat yüksəldi.
- ✓ Vahid çəki, ölçü və pul sistemi tətbiq olundu.
- ✓ Tacirlər bəzi rüsumlardan azad edildi.
- ✓ «Məlikşah cədvəli» («Cəlali təqvimi») tərtib edildi.

***QEYD:*** Səlcuq dövlətinin möhkəmlənməsində I Məlikşahın vəziri, görkəmli alim və dövlət xadimi **Xacə Nizamülmülkün** böyük xidməti olmuşdur.



*Alp Arslan və I Məlikşahın abidəsi. Türkmənistan*

***Səlcuq imperatorluğunun paytaxtı olmuş şəhərlər***

| Nişapur | Rey | Isfahan |
|---|---|---|

### Səlcuqlar dövründə Torpaq mülkiyyət formaları. Vergilər. Ticarət

Səlcuqlar dövründə əsas torpaq mülkiyyət forması ***iqta*** idi. İqta qoşun başçılarına ***hərbi xidmətə görə*** verilirdi. Səlcuqlar dövründə ***uc torpaq mülkiyyət forması*** meydana gəlmişdi. Bu torpaqlar sərhəddə xidmət edən sərkərdələrə verilirdi. Dövlətin əsas gəliri kəndlilərdən alınan ***üşr*** adlı torpaq vergisi idi.

Səlcuq imperiyasında *ticarətin* inkişafına xüsusi diqqət verilirdi. Məlikşah dövründə ticarətin canlanması üçün aşağıdakı tədbirlər həyata keçirildi:

- ✓ ***Vahid çəki, ölçü və pul sistemi tətbiq olundu.***
- ✓ ***Tacirlər bəzi rüsumlardan azad edildi.***

### Səlcuq imperiyasının tənəzzülü

Sultan I Məlikşahdan sonra ***Səlcuq imperiyası zəiflədi və ayrı-ayrı əmirlər arasında ara müharibələri başlandı***. Buna görə də ***Xaç (səlib) yürüşləri zamanı*** avropalıların qarətçi yürüşlərinin qarşısını almaq mümkün olmadı. Səlibçilər **Suriyanı** ələ keçirərək **Qüdsü** ələ keçirdilər. Sonuncu Səlcuq sultanı **Səncərin (1118-1157) hakimiyyəti zamanı** dövlətin ərazi bütövlüyü pozuldu. Uzunsürən ***ara müharibələri***, ***saray çəkişmələri***, ***qiyamlar,*** vergilərin çoxluğundan narazı olan ***kəndlilərin və sənətkarların üsyanları*** Səlcuq dövlətini zəiflətdi. ***Səncərin ölümündən sonra*** Səlcuq imperiyası süqut etdi və onun ərazisində **Kirman, Konya, Suriya, İraq Səlcuq sultanlıqları, Azərbaycan Atabəyləri,** Kiçik Asiyada bir sıra əmirliklər yarandı.









# Hindistan. Dehli sultanlığı (1206-1526). Böyük Moğol dövləti (1526-1858)

## Hindistanda Qupta sülaləsinin hakimiyyəti

**IV əsrdə** Hindistanda **Qupta sülaləsi** hakimiyyətə gəldi. Qupta sülaləsinin hakimiyyət dövrü **«Hindistanın qızıl əsri»** adlanır. Bu dövrdə ədəbiyyat, incəsənət və memarlıq inkişaf etdi. **V əsrin sonunda**:

- ✓ *Qupta dövləti parçalandı.*
- ✓ *Qupta hökmdarları Ağ hunların asılılığı altına düşdülər.*
- ✓ *VI-XIII əsrləri əhatə edən feodal dağınıqlığı dövrü başladı.*

***Kasta sistemi, ölkənin çoxmillətli olması və müxtəlif dini etiqadların mövcudluğu*** ölkədə feodal pərakəndəliyini gücləndirirdi.



*Qupta dövləti*

Qupta imperiyasının dağılması nəticəsində Hindistanda 70-ə qədər müstəqil kiçik dövlət qurumları yarandı. Belə dövlət qurumlarının başçıları olan **racələr** hərbi xidmət əvəzində torpağın bir hissəsini kəndlilərlə birlikdə yaxın adamlarına paylayırdılar. Verilən torpaqlar irsən keçirdi.

Hindistanda da kəndlilər ***töycü*** ödəyir və müxtəlif mükəlləfiyyətlər daşıyırdılar. Hindistanın qərbində çoxlu liman şəhəri var idi. Burada olan bazarlarda yerli və xarici mallar satılırdı. ***Parça, ədviyyat, boyalar və zərgərlik əşyaları*** almaq üçün buraya **Çindən, Afrikadan və Ərəbistandan** tacirlər gəlirdilər. Hindistanla ticarətdə ***ərəb tacirləri*** əsas rol oynayırdılar. Hindistan limanlarında onların daimi məskənləri var idi. Avropa səyyahları nadir hallarda Hindistana gəlib çıxa bilirdilər.

## Ərəblərin Hindistana yürüşü

**VIII əsrin əvvəlində** Hindistan ***ərəblərin*** yürüşünə mğruz qaldı. Ərəb işğalları ***nəticəsində:***

- ✓ ***Hindistanın qərbi*** ərəblər tərəfindən işğal edildi.
- ✓ Hindistanda iki ərəb əmirliyi - **Mənsurə** və **Multan müsəlman əmirlikləri** yarandı.
- ✓ Hindistanda yayılmağa başlayan İslam dini yerli dinləri sıxışdırıb aradan çıxardı.
- ✓ İslam mədəniyyəti Hindistanda yayılmağa başladı.

***QEYD:*** Ərəblərin Hindistanı qısa müddətdə işğal etməsinin səbəbi ölkədə feodal pərakəndəliyin mövcud olması idi. Ərəb işğalları nəticəsində yaradılan ***Mənsurə*** və ***Multan*** əmirliklərini ***ərəb əmirləri*** idarə edirdilər.

## Qəznəvilərin Hindistana yürüşləri

Hindistanın feodal pərakəndəliyindən istifadə edən Qəznəvi hökmdarı Sultan Mahmud **XI əsrin əvvəllərində** Hindistana 17 dəfə yürüş etdi. Sultan Mahmudun Hindistana yürüşləri nəticəsində:

- ✓ Kəşmir, Pəncab və Qucarat əyalətləri Qəznəvilər dövlətinin tərkibinə qatıldı.
- ✓ Hindistanın şimalında türk-müsəlman əhalinin məskunlaşması və bu yerlərdə İslam dininin yayılması gücləndi.

## Hindistanda Dehli sultanlığının yaranması

**XII əsrdə** türk tayfaları Hindistan ərazilərinə aramsız yürüşlər edirdilər. Bu hücumların nəticəsində **1206-cı ildə** türk sərkərdəsi **Qütbəddin Aybək (1206-1210)** Hindistanı tutaraq burada Dehli sultanlığının əsasını qoydu. Dehli sultanlığı Hindistan ərazisində müsəlman türklərin yaratdığı ilk ən böyük dövlət idi.

Qütbəddin Aybək Hindistanda möhkəmlənmək məqsədilə ***İslamın və türk dilinin yayılmasına*** can atdı. Müasirləri qeyd edirlər ki, sultan türk dilini bilməyən məmurları bu dili öyrənməyə məcbur edirdi.

## Dehli sultanlığında Şəmsiyyə sülaləsinin hakimiyyətə gəlməsi

Qütbəddin Aybəkin ölümündən sonra hakimiyyətə kürəkəni **Eltutmuş xan (1211-1236)** gəldi. Eltutmuş xanın hakimiyyətə gəlməsi ilə Dehli sultanlığında ***Şəmsiyyə sülaləsinin*** hakimiyyəti başladı. Eltutmuş xanın hakimiyyəti dövründə:

- ✓ Dehli sultanlığının ərazisi xeyli genişləndi.
- ✓ Pəncabın böyük hissəsi - **Multan** və **Lahor** işğal edildi.
- ✓ Qəznəyə qədər olan ərazilər dövlətin tərkibinə qatıldı.

Eltutmuş xandan sonra hakimiyyətə onun qızı, müsəlman və türk tarixində nadir qadın hökmdarlardan olan **Raziyyə sultan (1236-1240)** gəldi.

### Dehli sultanlığının idarəetmə sistemi

Dehli sultanlığı ***feodal monarxiyası*** idi. Dövlətin başında qeyri məhdud hakimiyyətə malik ***sultan*** dururdu. Dehli sultanlığında sultandan sonra ikinci vəzifəli şəxs ***baş vəzir*** sayılırdı. Baş vəzir aşağıdakı işlərə rəhbərlik edirdi:

- ***Dövlət idarələrinə.***
- ***Hərbi işlərə.***

Dehli sultanlığı inzibati cəhətdən ***vilayətlərə***, vilayətlər isə ***dairələrə*** bölünürdü. Vilayətlər sultan tərəfindən birbaşa təyin olunan ***valilər*** tərəfindən, dairələrsə birbaşa vali tərəfindən təyin edilmiş ***rəislər*** tərəfindən idarə olunurdu. Dehli sultanlığında məhkəmə işlərinə ***qazilər*** başçılıq edirdi.




### Dehli sultanlığında torpaq mülkiyyət formaları

XIII-XIV əsrlərdə Dehli sultanlığında aşağıdakı torpaq mülkiyyət formaları mövcud olmuşdur:

- **Dövlət** – *gəliri birbaşa dövlət xəzinəsinə daxil olan torpaq mülkiyyət forması idi. Dehli sultanlığında əsas torpaq mülkiyyətçisi* ***dövlət*** *hesab olunurdu.*
- **Xass** – *sultan ailəsiə mənsub olan torpaqlar idi.*
- **İqta** - *türk mənşəli sərkərdə və məmurlara sultan tərəfindən verilən torpaq mülkiyyət forması idi. Bu torpaqların sahibi* ***"zəmindar"*** *adlanırdı.*
- **Vəqf** – *müsəlman ruhanilərinin və məscidlərin saxlanılması üçün sultan tərəfindən ayrılan torpaqlar idi.*
- **İcma** – *İcmalara məxsus ümumi torpaqlar (otlaqlar, qəbiristanlıqlar və.s) idi.*

### Dehli sultanlığının süqutu

**XVI əsrin əvvəllərində** Hindistanın ən böyük dövləti olan Dehli sultanlığı ***dağınıqlıq dövrü*** keçirirdi. Əmir Teymurun yürüşləri dövləti daha da zəifləmişdi. Bu vəziyyət ölkə iqtisadiyyatına ziyan vurur, vahid daxili bazarın, iqtisadi əlaqələrin yaranmasına mane olurdu. Ümumilikdə, Dehli sultanlığının tənəzzülünün səbəbləri aşağıdakı amillərlə bağlı idi:

- ***Daxili çəkişmələr***.
- ***Əmir Teymurun yürüşü***.

**1526-cı ildə** Babur şah Dehli sultanlığının varlığına son qoyaraq onun yerində müsəlman-türk mənşəli **Böyük Moğol imperatorluğunu** yaratdı.



***Babur şah***



***Əkbər şah***

## Böyük Moğol dövlətinin yaranması Əkbər şahın hakimiyyəti

XVI əsrin birinci yarısında Hindistan feodal dağınıqlığı dövrünü yaşayırdı. Belə bir şəraitdə ölkədə ***müsəlman-türk mənşəli*** **Böyük Moğol imperatorluğu** yarandı. Dövlətin əsasını **Babur şah (1526-1530)** qoymuşdur. Babur şah hələ dövlət yaratmamışdan əvvəl özünü ***Əmir Teymurun varisi*** elan etmiş və Hindistanın bir hissəsini ələ keçirmiş, bu hadisə Dehli sultanlığı ilə müharibəyə səbəb olmuşdu. **1526-cı ildə** Babur şahla Dehli sultanı arasında qanlı döyüş baş verdi. Döyüş nəticəsində:

- ***Babur şah qalib gələrək Aqra şəhərini tutdu***
- ***Dehli sultanlığının varlığına son qoyuldu.***
- ***Böyük Moğol dövlətinin əsası qoyuldu.***

Babur şah **Aqra şəhərini** Böyük Moğol dövlətinin paytaxtı etdi. Babur şah Hindistan incilərinin yaradıcısı və dövlətin qurucusu kimi tarixə daxil oldu. O, böyük sərkərdə olmaqla yanaşı, şair, bəstəkar, memar olmuşdur.

Əkbər şahın (1556-1605) hakimiyyəti ***dövründə:***

- ✓ İqtisadi münasibətlərdə sabitlik yaradıldı.
- ✓ Moğol dövləti imperatorluğa çevrilməyə başladı.
- ✓ Ölkədə əhəmiyyətli islahatlar həyata keçirildi.
- ✓ Ticarətin inkişafı və karvan yollarının mühafizəsi təmin edildi.
- ✓ Babur şahın dövründə başlayan Səfəvi və Osmanlı imperatorları ilə diplomatik əlaqələr davam etdirildi.




***Dehli və Moğol imperatorluqları üçün oxşar cəhətlər***



# Böyük Monqol imperatorluğu




*Monqol imperiyası*

## Monqolların yaşadığı ərazi və onların məşğuliyyəti

Monqollar qədim zamanlardan Mərkəzi Asiyanın geniş çöllərində ( ***Kulun-Bugir gölündən başlayaraq Altay dağlarının qərb ətəklərinədək olan ərazilərdə)*** yaşayırdılar. Monqolların əsas məşğuliyyəti ***köçəri maldarlıq*** idi.

**XII əsrdən başlayaraq:** monqollara ***aiddir:***

- ✓ Monqollar arasında ***qəbilə münasibətləri*** (ibtidai icma quruluşu) dağılmağa başladı.
- ✓ Qəbilələr dağıldıqdan sonra hərbi təşkilatlar olan ***ordular*** - birləşmələr yarandı.
- ✓ Ordunun başında duran ***hərbi rəislər*** – xan titulu daşıyan ***bahadırlar*** və ***noyonlar*** köçmənləri öz hökmranlığı altında birləşdirdilər.
- ✓ Köçəri ***maldar tayfalar*** noyon, bahadır və xanlara məhsulla ***töycü*** ödəməyə başladılar.

Beləliklə XII əsrdə monqollar arasında ***feodal münasibətləri*** yarandı.



*Çingiz xan*

## Monqol dövlətinin yaranması (1206)

**1206-cı ildə *Onon çayı sahilində*** monqol və türk tayfa əyanlarının ***qurultayı*** keçirildi. Onon çayı qurultayında:

- ✓ ***Monqol dövləti yaradıldı.***
- ✓ ***Temuçin*** böyük xaqan seçildi və Çingiz adlandırıldı.

Monqol dövlətinin ilk paytaxtı **Qaraqorum şəhəri** olmuşdu.

Monqol dövləti ***hərbi demokratiyanı*** özündə birləşdirən ***feodal dövləti*** idi. Monqol dövlətində ilk qanunlar toplusu (məcəlləsi) **«Böyük Yasa»** adlanırdı. **«Böyük Yasa»** Çingiz xanın dövründə yaradılmışdı. **«Böyük Yasa»**da:

- ✓ Monqolların ***feodal münasibətlərinə keçməsi*** öz əksini tapmışdı.
- ✓ ***Feodalların imtiyazlarından***, mülkiyyət, vergi və idarəçilik sistemindən bəhs olunurdu.

## Çingiz xanın güclü ordu qurması

Çingiz xan (1206-1227) qısa vaxt ərzində monqol, həmçinin qonşu türk tayfalarını birləşdirdi və ***geniş işğallar üçün*** güclü ordu yaratdı. Çingiz xan bu məqsədlə itaət altına alınan bütün torpaqları verdikləri əsgərlərin sayından asılı olaraq ***tümənlərə, minlərə*** və ***yüzlüklərə*** böldü, tayfa başçılarını, hakimləri və noyonları ***tümənbaşı, minbaşı, yüzbaşı*** təyin etdi. Tümən rəisləri, minbaşılar və yüzbaşılar Çingiz xanın ***vassalları*** idi. Çingiz xanın dövründə monqol qoşununun özəyini ***çevik süvarilər*** təşkil edirdi. Çingiz xan güclü ***süvari ordu*** ilə yanaşı, ***xüsusi qoşun növü*** də yaratdı. Monqol ordusu ***divardeşən, daş və yanan maye atan mancanaqlar*** - qurğular ilə təmin edilmişdi. Çingiz xanın özünəməxsus hərbi strategiya və taktikası var idi. Çingiz xanın hərbi ***strategiya və taktikasının əsas xüsusiyyətləri*** aşağıdakılar idi:

- ➤ ***Dəqiq kəşfiyat məlumatları toplamaq***.
- ➤ ***Düşmənin qüvvələrini parçalamaq***.
- ➤ ***Çoxsaylı süvari dəstələrlə gözlənilmədən hücuma keçmək.***




### Monqol istilaları. Çingiz xanın hərbi yürüşləri

Çingiz xan dövləti qurduqdan sonra qalibiyyətli hərbi yürüşlərə başladı. Monqolların hərbi yürüşləri nəticəsində:

- **1207-1211-ci illərdə** Sibir və Şərqi Türküstanda yaşayan ***qırğız, merkit***, ***bunyak*** və ***uyğur*** tayfaları monqollara tabe edildi.
- **1211-ci ildə** Şimali Çin işğal edildi. **1215-ci ildə Pekinin** monqollar tərəfindən tutulması ilə **Şimali Çinin** işğalı başa çatdırıldı.
- **1219-1221-ci illərdə** monqol ordusu zəngin Xarəzmşah şəhərlərini (Otrar, Buxara, Səmərqənd, Üzgənc, Mərv və.s) ələ keçirdi.
- **1220-1222-ci illərdə** monqol orduları Cəba və Sabutayın başçılığı ilə Cəlaləddini təqib edərək **Şimali İran** və **Cənubi Qafqaza** yürüş etdilər. Monqolların Azərbaycana, İrana və Cənubi Qafqaza kəşfiyyat yürüşləri gələcəkdə yeni ərazilərin işğalı üçün zəmin yaratdı.




### Monqo dövlətinin parçalanması

**1227-ci ildə** Çingiz xan vəfat etdi. Çingiz xan hələ sağlığında dövlətin ərazisini övladları arasında ***dörd ulusa*** bölmüşdü. Çingiz xanın vəfatından sonra imperiya bir müddət bütövlüyünü saxladı.

**XIII əsrin ikinci yarısında**, Xubilay xanın dövründə Monqol imperatorluğunda hakimiyyət uğrunda mübarizə gücləndi. **Xubilay xanın (1264-1294)** hakimiyyəti dövründə:

- ✓ Paytaxt Qaraqorumdan **Pekinə (1264)** köçürüldü.
- ✓ **Çinin Cənub hissəsi** istila edildi.

**XIV əsrin əvvəllərində** Monqol dövləti parçalandı və ərazisində ayrı-ayrı dövlətlər yarandı. **XIII əsrin 40-50-ci illərində** Çingiz xanın nəvələri görkəmli sərkərdə ***Batı xan*** və ***Hülakü xan*** Qaraqoruma tabe olan güclü dövlətlər yaratdılar.



# Qızıl Ordu dövləti (XIII əsrin 40-cı illəri – XVI əsrin əvvəlləri)




### Qızıl Ordu dövlətinin yaranması


Batı xan

**XIII əsrin 40-cı illərində** Batı xanın başçılığı ilə monqol işğalları nəticəsində **Şərqi Avropada Qızıl Ordu** dövlət yarandı. Dövlətin banisi Batı xan olmuşdur. **XIII əsrin sonlarında** Qızıl Ordu Monqol imperatorluğu ilə əlaqələrini tamamilə kəsərək müstəqil siyasət yürütməyə başladı. Qızıl Ordu geniş bir əraziyə malik dövlət idi. Rus knyazlıqları isə Qızıl Ordu dövlətinin tərkibində olmasalar da, ondan ***vassal asılılığında*** idilər. Qızıl ordunun ilk paytaxtı **Saray-Batı** sonra isə **Saray-Bəkrə** şəhəri olmuşdu. Qızıl Ordu dövlətində əhalinin və qoşunun əsas hissəsini ***türklər*** təşkil edirdi. Qızıl Ordu xanlarının fərmanları ***türk dilində*** yazılırdı. Qızıl Ordu dövlətində **İslam dini** rəsmi dövlət dini elan olunmuşdu.

### Qızıl Ordunun dövlət quruluşu. Feodal münasibətləri

Qızıl Ordu ***feodal monarxiya dövləti*** idi. Dövlətin idarəetmə sistemi aşağıdakı kimi idi:

- **Xan** - *dövləti idarə edən birinci şəxs idi.*
- **Divan** - *dövləti idarə edən orqan idi.*
- **Məclis** - *dövlətdə ali məşvərətçi orqan idi.*
- **Tarxan** - *dövlətdə imtiyazlı şəxslər idi.*
- **Baskaklar** - *vergi yığılmasına rəhbərlik edirdilər.*

Qızıl Ordu dövlətində ***xan*** və ***xan ailəsinin üzvləri*** ən böyük feodal idilər. Onlardan sonra ***noyonlar (bəylər)*** gəlirdi. Noyonlara xidmət müqabilində böyük torpaq sahələri verilirdi. Feodallardan asılı olan **köçəri maldarlar**, əkinçiliklə məşğul olan **kəndlilər** ***töycü*** ödəyir və mükəlləfiyyətlər yerinə yetirirdilər. Bəzi feodallar torpağa sahib olmaq, məcburi işlərdən azad edilmək üçün xandan ***fərmanlar*** alırdılar. Belə fərmanlar ***yarlıq***, yarlıq alan imtiyazlı şəxslər isə ***tarxan*** adlanırdı.



## Qızıl Ordunun zəifləməsi və süqutu

Qızıl Ordu dövləti daxili çəkişmələr nəticəsində zəiflədi. Qızıl Ordu dövlətidəki ***daxili çəkişmələrdən*** və onun zəifləməsindən istifadə edən rus knyazları tabe olmaqdan boyun qaçırılar. Odur ki, Qızıl Ordu xanı **Mamay xan** itaət etməyən rus knyazları üzərinə yürüş təşkil etdi.

Bu zaman Qızıl Ordu dövlətinə qarşı qüvvələrini birləşdirən Moskva knyazı **Dmitri Donskoy 1380-ci ildə Kulikova döyüşündə** Qızıl Ordu dövlətini məğlub etdi. Lakin Əmir Teymurun köməyi ilə hakimiyyətə gələn **Toxtamış xan (1380-1395)** hakimiyyəti dövründə:

- ✓ Moskvanı tutaraq yandırdı (1382-ci ildə).
- ✓ Rus knyazlıqları yenidən itaət altına alındı.


Toxtamış

Daha sonra Toxtamış xan Əmir Teymurdan asılı olan ərazilərə talançı yürüşlər təşkil etdi. Toxtamış xanın ***Teymurilərdən asılı olan ərazilərə talançı yürüşlər etməsi*** Əmir Teymurla müharibəyə səbəb oldu. Tərəflər arasında, **1395-ci ildə Terek çayı sahilində** döyüş baş verdi.

Döyüş ***nəticəsində:***

- ➢ **Toxtamış xan** Teymur tərəfindən məğlub edildi.
- ➢ Əmir Teymur ***Qızıl Ordunun şərq vilayətlərini*** tutaraq öz imperiyasına birləşdirdi.

Uzunsürən ***feodal çəkişmələri, hakimiyyət dəyişiklikləri*** Qızıl Ordunun parçalanmasına səbəb oldu. Qızıl Ordunun parçalanması nəticəsində **XV əsrdə** Volqa çayı boyunda **Qazan, Həştərxan xanlıqları**, **Krımda** və **Qərbi Sibirdə** müstəqil dövlətlər meydana gəldi. Rus knyazlıqları Qızıl Ordudan asılılığa son qoydular. **XVI əsrin əvvəllərində** Qızıl Ordu dövləti ***feodal dağınıqlığı nəticəsində*** süqut etdi.

### *Qızıl Ordu dövlətinin tarixinə aid döyüşlər*

| | | |
|---|---|---|
| **1380** | **Kulikova döyüşü** | Moskva knyazı Dmitri Donskoy Mamay xanın başçılıq etdiyi Qızıl Ordu dövlətini məğlub etdi. |
| **1395** | **Terek döyüşü** | Toxtamış xan Teymur tərəfindən məğlub edildi, Əmir Teymur Qızıl Ordunun şərq vilayətlərini tutaraq öz imperiyasına birləşdirdi. |

XV əsrdə Qızıl Ordunun parçalanması nəticəsində yaranan dövlətlər

- Qazan xanlığı
- Həştərxan xanlığı
- Krım xanlığı
- Sibir xanlığı

**Qızıl Ordu dövləti**

- Batı xan tərəfindən yaradılmışdı
- Paytaxtı Saray-Batı və Saray-Bəkrə şəhərləri olmuşdu
- Rus knyazlıqlarını özlərindən asılı vəziyyətə salmışdı
- Əmir Teymurun hücumuna məruz qalmışdı
- Dövlətdə ali məşvərətçi orqan Məclis adlanırdı
- Xan tərəfindən idarə edilirdi
- İslam dini dövlətin rəsmi dini elan edilmişdi
- Əhalinin çoxunu və qoşunun əsasını türklər təşkil edirdi
- Xanların fərmanları türk dilində yazılırdı
- Kulikova və Terek döyüşündə məğlub olmuşdu

# Hülakülər dövləti (1256-1357)

## Hülakülər dövlətinin yaranması



*Hülakü xan*

Böyük Monqol imperatorluğunun **Ön Asiya, Cənubi Qafqaz** və **Kiçik Asiyanı** ələ keçirməsinə baxmayaraq, həmin ərazilərdə bir sıra ***iri feodal malikanələri*** öz müstəqilliyini halda saxlayırdı. Böyük Monqol xaqanı Müke xan ***istilaları davam etdirmək məqsədi ilə*** qardaşı **Hülakü xanın** başçılığı ilə Ön Asiyaya qoşun göndərdi. Hülakü xan **1256-cı ildə** Azərbaycan və İranı ələ keçirib, 1258-ci ildə Abbasilər xilafətinin varlığına son qoydu. Beləliklə, Amudərya çayı ilə Aralıq dənizi, Dərbəndlə İran körfəzi arasında yerləşən ərazidə ***beşinci monqol ulusu - Hülakü dövləti (1258-1357)*** yarandı. Dövlətin başında ***elxan titulu*** daşıyan hökmdar dururdu. Buna görə də Hülakülər dövləti, eyni zamanda Elxanilər dövləti də adlanır. Dövlətin ərazisi ***vilayətlərə,*** vilayətlər isə ***tümənlərə*** bölünmüşdü.

## Hülakülər dövlətində İslam dininin dövlət dininə çevrilməsi

Əsasən, bütpərəstlərdən ibarət olan monqollar ilk vaxtlardan başlayaraq işğal olunmuş vilayətlərdə ***bütpərəstliyin yayılması və möhkəmlənməsi üçün*** tədbirlər görməyə başladılar. İlk elxanların dini siyasətləri ***yerli əhali ilə gəlmələrin arasında ziddiyyətin artmasına,*** son nəticədə, ***ölkədə vəziyyətin gərginləşməsinə*** gətirib çıxardı. Məhz bu baxımdan **Qazan xan** hakimiyyətə gəldikdən sonra ***yerli müsəlman zadəganları*** və ***ruhaniləri öz tərəfinə çəkmək*** məqsədi ilə İslam dinini dövlət dini kimi qəbul etdi və özünü ***Mahmud*** adlandırdı. Qazan xanın hakimiyyəti dövründə **torpaq, vergi, ticarət, rabitə** və **məhkəmə** sahələrində islahatlar həyata keçirildi. Vergi islahatı monqol feodallarının özbaşınalığına son qoymağa, dövlətin vergi sistemini yenidən qurmağa kömək etdi. Orduda xidmət edənlərə ***iqta*** olaraq torpaq sahələri verildi.

İslahatlardan sonra ölkənin iqtisadi və siyasi inkişafı uzun sürmədi. Qazan xanın vəziri Fəzullah Rəşidəddinin öldürülməsindən sonra hərbçi əyanlar yenidən əvvəlki siyasət xəttinə döndülər.

## Hülakülər dövlətinin süqutu

Hülakülər dövlətinin yarandığı ilk vaxtlarda, ***Hülakü xanın hakimiyyəti dövründən başlayaraq*** Hülakülərlə Cuci nəslindən olan Qızıl Orda xanları arasında ***Azərbaycan torpaqları uğrunda*** müharibələr gedirdi. Hülakülərlə Qızıl Ordu xanları arasında gedən müharibələrin əsas səbəbi ***Qızıl Ordu xanlarının Monqol dövlətinin yaradıcısı Çingiz xanın vəsiyyətinə görə, Azərbaycan torpaqlarının Cuci ulusunun payına düşməsini iddia etməsi*** idi. Odur ki, Hülakülərinin Azərbaycanda hökmranlığının başlananması ilə Qızıl Ordu xanları tez-tez bu ərazilərə hücumlar edirdilər.

**1357-ci ildə Canı bəyin** başçılığı ilə Qızıl Ordu qoşunu Azərbaycana yürüş etdi. Yürüş ***nəticəsində*** beşinci monqol ulusu adlanan ***Hülakülər dövləti süqut etdi.***

***Hülakü dövləti ilə Qızıl Ordu dövlətinin tarixi üçün oxşar cəhətlər***



# Osmanlı imperatorluğu





*Osmanlı sultanlığının bayrağı*




## Osmanlı dövlətinin yaranması (1299)



***Osman qazi***

Böyük Səlcuq imperiyası süquta uğradıqdan sonra onun ərazisində **Kirman, Konya, Suriya, İraq Səlcuq sultanlıqları, Atabəylər dövləti** meydana gəldi. **Konya sultanlığı** dağıldıqdan sonra onun ərazisində müstəqil bəyliklər yarandı. Bu bəyliklərdən birinə **Osman bəy** başçılıq edirdi. Osman bəy **1299-cu ildə** Osmanlı dövlətinin əsasını qoydu. Osmanlılar oğuz türklərinin ***qınıq boyundan*** idi.

## Orxan qazinin hakimiyyəti (1326-1359)

Osman bəyin ölümündən sonra Osmanlı dövlətində hakimiyyətə **Orxan qazi (1326-1359)** gəldi. Orxan qazinin hakimiyyəti dövründə:

- ✓ Dövlətin paytaxtı Bursa şəhərinə köçürüldü.
- ✓ Maltəpə döyüşündə Bizans ordusu məğlubiyyətə uğradıldı.
- ✓ Yeni fəthlər davam etdirildi, dövlətin ərazisi genişləndi.
- ✓ Dövlətin sərhədləri Egey dənizindən Konstantinopoladək genişləndi.
- ✓ Osmanlı dövləti inzibati cəhətdən paşalıqlara və sancaqlıqlara bölündü.
- ✓ Hərbi islahatlar nəticəsində ilk dəfə olaraq muzdlulardan ibarət piyada (yeniçəri) və süvari qoşun növü yaradıldı.



***Orxan qazi***

## Sultan I Muradın hakimiyyəti (1359-1389)

Sultan I Murad Osmanlı dövləti tarixində ***ilk dəfə*** olaraq ***sultan titulunu*** qəbul etmişdi. Sultan I Muradın hakimiyyəti dövründə:

- ✓ **Balkanlarda** Osmanlı fəthləri davam etdirildi, **Ədirnə şəhəri** ələ keçirildi.
- ✓ **1361-ci ildə** Osmanlı dövlətinin paytaxtı **Ədirnə şəhərinə** köçürüldü.
- ✓ **1370-ci ildə Bizans** və **Bolqarıstan** Osmanlılardan asılı vəziyyətə düşdü.
- ✓ **1371-ci ildə** Çirmən döyüşündə Osmanlılar Serbiya dövlətini məğlub etdi. Məğlubiyyət nəticəsində:
  - ➢ **Serbiya osmanlılardan asılılığı qəbul etdi**.
  - ➢ **Serbiya hər il Osmanlıya əsgər və vergi verməyə məcbur oldu**.

***QEYD:*** XIV əsrdə feodal ara müharibələri Balkan dövlətlərini zəiflətmişdi. Sultan I Murad bu amildən istifadə edərək **Balkanlarda** Osmanlı fəthləri davam etdirirdi.



***I Murad***



*İldırım Bəyazid*

### I İldırım Bəyazidin hakimiyyəti (1389-1402)

İldırım Bəyazidin (1389-1402) hakimiyyəti dövründə:

- ✓ Osmanlı dövlətinin sərhədləri genişləndi.
- ✓ **Albaniya** və **Bosniyanın bir hissəsi** osmanlıların hakimiyyəti altına düşdü.
- ✓ Osmanlılar ***bütün Bolqarıstanın*** işğalını başa çatdırdı.
- ✓ Əmir Teymur Osmanlı dövləti üzərinə yürüş etdi.

İldırım Bəyazid ***Balkanlarda Bizansın sonuncu dayağı olan Konstantinopolu ələ keçirmək məqsədi ilə*** hazırlıqlara başladı. Lakin Əmir Teymurun Kiçik Asiyaya yürüşü bu planı pozdu.

**1402-ci il, iyulun 28-də** Bəyazidlə Əmir Teymur arasında Ankara döyüşü baş verdi. Döyüş ***osmanlıların məğlubiyyəti ilə*** nəticələndi. Döyüşdə Bəyazid və onun iki oğlu əsir düşdü. ***Əmir Teymur Osmanlıların hakimiyyəti altında olan torpaqları Bəyazidin dörd oğlu arasında böldü***. Teymur özü də bilmədən Avropanı Osmanlı işğallarından xilas etdi. Bəyazid Teymurun düşərgəsində olarkən özünü zəhərləyib öldürdü. İldırım Bəyazidin hakimiyyətdən getməsindən sonra Osmanlı dövləti ***xeyli zəiflədi*** və ***hakimiyyət mübarizəsi gücləndi.***

*QEYD:* ***Əmir Teymura qarşı mübarizə aparmaları*** Dehli sultanlığı və Osmanlı imperiyasının tarixi üçün oxşar cəhət təşkil edir.



*II Murad*

### II Muradın hakimiyyəti (1421-1451)

II Muradın hakimiyyəti dövründə:

- ✓ Osmanlı dövlətində hakimiyyət mübarizəsi başa çatdı.
- ✓ Osmanlı dövlətinin əvvəlki qüdrəti bərpa edildi.
- ✓ **1444-cü ildə Varna döyüşündə *çex-macar ordusu*** məğlub edildi.
- ✓ **1448-ci ildə II Kosova döyüşündə *səlibçilərin ordusu*** məğlub edildi.



*II Mehmet*

### II Mehmetin hakimiyyəti (1451-1481)

XV əsrdə Bizans imperiyasının ərazisinə yalnız **«Qızıl körpü»** adlandırılan ***Konstantinopolun ətrafındakı torpaqlar*** daxil idi. II Mehmet hakimiyyətə gələn kimi Konstantinopolu tutmaq üçün ***şəhəri qurudan*** və ***Mərmərə dənizindən*** mühasirəyə aldı. Oslamlıların divarların altından ***lağım atıb*** şəhərə girmək çəhdi uğursuz oldu. Osmanlılar yeni çıxış yolu kimi gəmiləri piy sürtülmüş taxtaların üzəri ilə sürüyərək **Qızıl Buynuz limanına** çıxardılar. **1453-cü il mayın 29-da** Konstantinopol Osmanlılar tərəfindən fəth edildi. Bu münasibətlə II Mehmetə «***Fateh***» ***təxəllsü*** verildi. Konstantinopolun osmanlılar tərəfindən tutması ***nəticəsində:***

- ➢ **Bizans məğlub oldu və Bizans imperiyasının varlığına son qoyuldu**.
- ➢ **Konstantinopol şəhəri İstanbul adlanaraq Osmanlı dövlətinin paytaxtına çevrildi**.

**Osmanlı dövlətinin paytaxtları**

Söyüdlü (1302) | Bursa (1329) | Ədirnə (1361) | Konstantinopol (1453)



*Osmanlıların Konstantinopola yürüşü və Sultan Fateh II Mehmetin şəhərə daxil olması*



*I Süleyman*

## I Süleyman Qanuninin hakimiyyəti (1520-1566)

Sultan Süleyman Qanuninin hakimiyyət dövründə:

- ✓ Səfəvi dövləti ilə Osmanlı arasında qanlı müharibələr başladı.
- ✓ **1514-cü ildə** Çaldıran düzündə osmanlı qoşunları Səfəviləri məğlub etdilər.
- ✓ **Misir** Osmanlı dövlətinə tabe edildi və Osmanlı gəmilərinin Qırmızı dənizə yolu açıldı.
- ✓ **1521-1526-cı illərdə** osmanlılar **Belqradı**, **Cənubi və Mərkəzi Macarıstanı** tutdu.
- ✓ Osmanlılar Bağdadı tutaraq Mesopotamiya üzərində nəzarəti ələ keçirdilər və İran körfəzinə çıxdılar.




## Osamanlı imperatorluğunun idarəetmə sistemi. Ordu

Osmanlı imperiyasının idarəetmə sisteminə əsasən:




- ➢ **Sultan** – ölkədə qeyri-məhdud hakimiyyətə malik birinci şəxs idi. Bütün hakimiyyət onun əlində cəmləşmişdi. Osmanlı tarixində ilk dəfə sultan tutulunu I Murad qəbul etmişdi.
- ➢ **Baş vəzir** - sultandan sonra dövlətdə ikinci şəxs idi. Baş vəzir dövlətin möhürünü saxlayır, siyasi işlərə rəhbərlik edirdi. Vəzirlər, bəylərbəyilər və sancaqbəyilər ona tabe idi.
- ➢ **Divan** - sultanın yanında ***Ali Məsləhət Şurası*** rolunu oynayan dövlət orqanı idi.
- ➢ **Dəftərdar** - maliyyə işlərinə rəhbərlik edirdi.
- ➢ **Paşa** – birbaşa sultan tərəfindən təyin edilir və paşalığı idarə edirdi.
- ➢ **Bəylərbəyi** – bəylərbəyilikdə hərbi və inzibati hakimiyyətə malik şəxs idi.
- ➢ **Sancaqbəyi** - sancaqlığı idarə edirdi. O, həm də qoşun başçısı idi.

Osmanlı dövləti inzibati cəhətdən ***sancaqlara*** və ***paşalıqlara*** bölünürdü. Osmanlı dövlətini ilk dəfə **Orxan Qazi** inzibati cəhətdən ***paşalıqlara*** və ***sancaqlıqlara*** bölmüşdü.




Osamanlı imperatorluğunun hərbi qüvvəsini ***akınçı*** və ***yeniçərilər*** təşkil edirdi.

- ➢ ***Akınçı*** (***atlı – süvari feodal qoşunu***) Osamanlı imperatorluğunda ordunun əsas hissəsini təşkil edirdi.
- ➢ ***Yeniçəri*** (***yeni qoşun deməkdir***) - qeyri müsəlmanlardan təşkil edilmiş, dövlət xəzinəsi hesabına saxlanılan nizami ***piyada qoşun*** dəstələri idi. Yeniçəri qoşun növü Orxan Qazinin hərbi islahatları zamanı formalaşdırılmışdı. Muzdlu qoşunlara xidmət əvəzində əvvəllər maaş verilsə də, sonralar ***timar*** adlandırılan torpaqlar paylanıldı. **Timar** - muzdlu qoşuna məvacib əvəzinə paylanan şərti torpaq sahibliyi idi.

Osmanlı dövlətində vergi verən bütün əhali ***reaya*** adlanırdı.

# Teymurilər imperiyası (1370-1507)




*Teymur imperatorluğu*

### Teymurun Məvaraənnəhri idarə etməsi

Teymur Çingiz xanın yürüşləri zamanı Mərkəzi Asiyaya gəlmiş ***Barlas qəbiləsindən*** idi. Teymur gəncliyində Səmərqənd və Bəlx hakimi **Əmir Qazanın** yanında xidmət etmiş, hərbi yürüşlərdə onun etimadını qazanmışdır. Teymur eyni zamanda Çağatay hakimi **Toğluq Teymurun** yanında xidmətə girmiş və **Qaşqadərya vadisini** idarə etmişdi.

Çingiz xan öz imperiyasını oğlanları arasında bölərkən Mərkəzi Asiyanı **Cığatay** adlı oğluna bağışlamışdı. Böyük Monqol imperatorluğunun dağılması Mərkəzi Asiyada feodal ara müharibələrini gücləndirdi. **Mərkəzi Asiya ulusu** şərqdə **Moğolustan**, qərbdə isə **Mavəraənnəhr** olmaqla iki yerə ayrıldı. Cığatay xanın davamçıları Mavəraənnəhri geri qaytarmaq üçün **Toğluq Teymur xanın** başçılığı altında mübarizəyə başladılar. **Səmərqənd şəhəri** tutuldu. Lakin Teymurla Toğluq Teymurun oğlu arasında ixtilaf yarandı. Bu ziddiyyətlərdən istifadə edən Teymur, Teymur Toğluqa qarşı qiyam qaldıraraq **Xarəzmə, Sistana** yürüş etdi. Tərəflər arasındakı mübarizədə Teymur qələbə qazandı və yeni dövlətin əsasını qoydu.

### Teymurilər dövlətinin yaranması və işğalları

**1370-ci ildə** Teymur Səmərqəndə qoşun yeridib çevriliş etdi. Nəticədə Səmərqənd və ətraf bölgələr Teymurun ixtiyarına keçdi. Elə həmin ildə qurultay çağırıldı. Mərkəzi hakimiyyətin tərəfdarları olan ***iri feodalların*** köməyi ilə Teymur sərkərdələrin qurultayında « ***əmir***» titulunu qəbul etdi və ***Teymurilər dövlətinin*** əsasını qoydu. Səmərqənd yeni dövlətin paytaxtı oldu. Beləliklə, Monqol imperiyasından sonra Mərkəzi Asiyada böyük bir imperatorluğun əsası qoyuldu.

Əmir Teymur yürüşlərə başlamaq üçün güclü ***süvari ordu*** yaratdı. Əmir Teymurun hərbi yürüşləri ***nəticəsində:***

- **Ürgənc şəhərinin** tutulması ilə **Xarəzmi** tamamilə tabe edildi və bununla da bütün **Mərkəzi Asiya** işğal edildi.
- **Qafqaz**, o cümlədən **Azərbaycan, Ön Asiya (İraq, Suriya)** işğal edildi.
- Qızıl Ordu dövlətinin şərq əyalətləri Teymurilər dövlətinə birləşdirildi.
- Hindistanın yürüş edildi. Dehlinin tutulması nəticəsində Hindistanın zəngin sərvətləri Teymurun əlinə keçdi.

### Əmir Teymurun Toxtamış xanla müharibələri



*Toxtamış xan və Əmir Teymur*

Əmir Teymur Toxtamış xanın ***Qızıl Ordu dövlətində hakimiyyətə gəlməsinə kömək etməklə*** onu öz vassalına çevirmişdi. Lakin Toxtamış xan ***Monqol dövlətinin Qafqaz və Ön Asiya üzərində hakimiyyətini bərpa etmək məqsədilə*** dəfələrlə bu ərazilərə yürüşlər etdi. Toxtamış xanın ***Teymurun himayəsi altında olan torpaqlara və Azərbaycana hücum etməsi*** onlar arasında müharibəyə səbəb oldu.

Azərbaycan Toxtamışla Əmir Teymurun maraqlarının kəsişdiyi məkan idi. Teymur ***Azərbaycandan digər ərazilərə hücum üçün dayaq nöqtəsi kimi*** istifadə edirdi. Ona görə də böyük oğlunu bu ərazilərə hakim təyin etmişdi. Toxtamış xana qarşı müharibədə Əmir Teymur **Şirvanşah I İbrahimlə** ittifaq bağlamışdı.

Toxtamış xanın Azərbaycana hücumlarının qarşısını almaq üçün Teymur **1387-ci ildə** İrana yürüş etdi. Teymurla birlikdə onun müttəfiqi olan **Şirvanşahlar dövləti** də Toxtamışa qarşı vuruşurdu.

**1395-ci ildə Terek döyüşündə** Əmir Teymur Toxtamış xanı məğlubiyyətə uğratdı. Bundan sonra Qızıl Ordu dövləti zəiflədi və xanlıqlara parçalandı. Toxtamış xanı məğlub etdikdən sonra Əmir Teymur **Ön Asiya, Kiçik Asiya, Qafqaz, Suriya** üzərinə yürüşlərini davam etdirdi. Daha sonra Dehlini tutub böyük sərvətlə Səmərqəndə qayıtdı.

### Əmir Teymurun Kiçik Asiyaya yürüşü. Ankara döyüşü

Əmir Teymur ***Hindistan səfərindən sonra*** Kiçik Asiyada əsas rəqibi olan **Osmanlı dövlətinə** qarşı müharibəyə hazırlaşdı. İmperatorluğa çevrilmiş Osmanlı dövlətinin qoşunları qərbdə Avropanın içərilərinə doğru irəlilədiyi bir zamanda qəfildən Şərqdən Əmir Teymurun hücumları ilə qarşılaşdı.

Tərəflər arasında 1402-ci ildə başvermiş Ankara düzənliyində həlledici döyüş baş verdi. Ankara döyüşü ***nəticəsində:***

- Teymurilər Osmanlılara qalib gəldi və İldırım Bəyazid əsir alındı.
- Osmanlı imperiyası I Bəyazidin oğlanları arasında bölündü.
- Osmanlı dövləti xeyli zəiflətdi və onların Avropanın içərilərinə doğru irəliləməsi bir müddət ləngidi.

Teymur özü də bilmədən Avropanı Osmanlı işğallarından xilas etdi.



*Əmir Teymur və Sultan I Bəyazid Ankara döyüşündən sonra (Rəssam Stanislav Xlebovski, 1878)*

Osmanlıları məğlub etdikdən sonra Əmir Teymur **Çinə** yürüşə hazırlaşırdı. Lakin yürüş ərəfəsində Teymurun **1405-ci il martın 19-da Otrar şəhərində** vəfat etməsi Çinə yürüşün baş tutmamasına səbəb oldu. Beləliklə, Əmir Teymur Çini tuta bilmədi. Vəsiyyətinə uyğun olaraq o, **Səmərqənddə** dəfn olundu.

### Teymurilər imperatorluğunun idarə etmə sistemi

Teymuri dövləti mərkəzləşmiş dövlət deyildi. Dövlət inzibati cəhətdən ***uluslara*** bölünmüşdü. Dövlətdə əmrlərin yerinə yetirilməsini, maliyyə və hərbi işləri ***divanxanalar*** idarə edirdi. Maliyyə işlərini ***vəzir*** həyata keçirirdi.

Çingiz xandan ***fərqli olaraq*** Teymur müəyyən iqtisadi məqsədlər də güdürdü. O, sənətkarlığın, ticarətin inkişafına diqqət yetirirdi. Onun siyasəti nəticəsində Teymurilər imperatorluğunun paytaxtı olan **Səmərqəndi** dünyada ən böyük ticarət, sənətkarlıq və mədəni mərkəzlərdən birinə çevrilmişdi. Teymur işğal etdiyi ölkələrdən, xüsusilə Azərbaycandan ***çoxlu sənətkar, rəssam və alimləri*** Səmərqəndə göndərir və burada möhtəşəm imarətlər, məscidlər, mədrəsələr tikdirirdi. Teymurun nəvəsi **Uluq bəy** Mavəraənnəhrə vali təyin edildikdən sonra Səmərqənd şəhəri daha da abadlaşdı.

***QEYD:*** ***Ölkə ərazilərinin uluslara bölünməsi*** Teymurilər və Monqol dövlətləri arasında oxşar cəhət təşkil edir.

### Teymur imperatorluğunun zəifləməsi və süqutu

Əmir Teymur Çingiz xan kimi sağlığında qurduğu dövləti oğlanları və nəvələri arasında bölüşdürmüşdü. Lakin Teymurun ölümündən sonra ***daxili çəkişmələr, varisləri arasında hakimiyyət uğrunda mübarizə və ara müharibələri*** Teymuri dövlətini zəiflətdi və onun parçalanmasını sürətləndirdi. Teymurdan sonra taxtda **Xəlil Sultan (1405-1409)**, daha sonra **Şahruxa (1409-1447)** çıxdı. **Şahruxun** hakimiyyəti ***dövründə:***

- ✓ Teymurilər dövlətinin paytaxtı **Herata** köçürüldü.
- ✓ Qaraqoyunlu dövlət Teymurilərdən asılı vəziyyətə düşdü.

Şahruxun ölümündən sonra dövlət zəiflədi. Teymurilərin zəifləməsindən istifadə edən Azərbaycan hökmdarı Qaraqoyunlu Cahan şah vassal asılılığından çıxdı.

Şahruxun ölümündən sonra hakimiyyət **Uluqbəyə (1447-1449)** keçdi. Uluqbəy dövləti uzun müddət idarə edə bilmədi və oğlu **Əbdüllətif** tərəfindən öldürüldü. Belə bir vəziyyətdə Mərkəzi Asiyada yeni yaranmış **Şeybanilər dövləti** ilə Teymurilər arasında mübarizə başladı.

Teymur imperiyasında hakimiyyətə gələn **Əbu Səid** Teymur imperiyasını bərpa etməyə çalışdı. Bu zaman Azərbaycanda qüvvətlənmiş Ağqoyunlular qaraqoyunlu hökmdarı Cahan şahı öldürərək Qaraqoyunlu dövlətinin varlığına son qoydular. Teymuri Əbu Səid bir zamanlar Teymurilərin vassalı olmuş Cahan şahın öldürülməsini bəhanə edib Ağqoyunlulara müharibə elan etdi. Azərbaycana yürüş edən Əbu Səid Ağqoyunlu hökmdarı Uzun Həsən tərəfindən məğlub edildi. Bu dövrdə Şeybanilər teymurilərin **Buxara, Səmərqənd** və digər ərazilərini tutdular. Teymurilərin əlində yalnız **Xorasan** vilayəti qaldı. Lakin sonuncu Teymuri hökmdarı **Hüseyn Bayqaranın (1470-1505)** hakimiyyəti dövründə:

- ✓ Şeybanilər qalibiyyətli müharibə nəticəsində ölkədən çıxarıldı.
- ✓ Teymurilər imperatorluğu bərpa edildi və dövlət bir qədər gücləndi.

Lakin Hüseyn Bayqaranın ölümündən sonra Şeybanilərin hücumları gücləndi. **1507-ci ildə Məhəmməd Şeybani xan** Xorasanı tutdu və Teymurilər dövləti süqut etdi. Beləliklə, Teymurilər dövlətinin varlığına ***Şeybanilər tərəfindən*** son qoyuldu.

**Əmir Teymur**

- Cağatay ulusunun Barlas qəbiləsindən idi
- Ankara döyüşündə osmanlıları məğlub etmişdi
- Dehli şəhəri daxil olmaqla Hindistanı ələ keçirmişdi
- Gəncliyində Toğluq Teymurun yanında xidmət etmişdi
- Səmərqəndə çoxlu sənətkar köçürmüşdü
- Teymuri dövlətinin əsasını qoymuşdu
- Terek döyüşündə Toxtamış xanı məğlub etmişdi
- Səmərqəndi ticarət və sənətkarlıq mərkəzə çevirmişdi

| | |
|---|---|
| **Əmir Teymur** | Güclü süvari ordu yaratdı. Hərbi yürüşləri nəticəsində Mərkəzi Asiya, Qafqaz, o cümlədən Azərbaycan, Ön Asiya, Hindistan işğal edildi |
| **Şahrux** | Paytaxtı Səmərqənddən Herata köçürüldü, Qaraqoyunlu dövlət Teymurilərdən vassal asılılığına düşdü. Ölümündən sonra dövlət zəiflədi |
| **Uluq bəy** | Səmərqənddə çoxlu mədrəsələr tikdirdi. Dövləti uzun müddət idarə edə bilmədi və oğlu Əbdüllətif tərəfindən öldürüldü |
| **Əbu Səid** | Teymurilər imperiyasını bərpa etməyə çalışdı, Ağqoyunlularla uğursuz müharibə apardı, Şeybanilər Buxara, Səmərqənd və digər ərazilərini tutdular |
| **Hüseyn Bayqara** | Şeybanilər qalibiyyətli müharibə nəticəsində ölkədən çıxarıldı, Teymurilər imperatorluğu bərpa edildi və dövlət bir qədər gücləndi |

***Monqol və Teymurilər dövlətləri üçün oxşar cəhətlər***

- Feodal monarxiya dövlətləri idilər
- Ölkə ərzisi inzibati cəhətdən uluslara bölünmüşdü
- Dövləti idarə etmək üçün Divanlar yaradılmışdı
- Qafqazı, Mərkəzi Asiya və İranı istila etmişdilər

### *Qədim və Orta Əsrlər dövründə yaranmış Türk dövlətləri*

| *Adı* | *Banisi* | *Bayrağı* | *Paytaxtı* | *Ərazisi* |
|---|---|---|---|---|
| **Böyük Hun (e.ə 220 – e. 58)** | Teoman Tanhu |  | Beşbalıq | Şimalda Sibirə, cənubda Himalay dağlarına, şərqdə Sakit okeana, qərbdə Ural dağı və Xəzər dənizinə qədər olan ərazilər |
| **Qərbi Hun (IV əsr - 470)** | Balamir xan |  | Segedin | Şərqdə İdilə, qərbdə Reyn çayına, şimalda Baltik dənizinə, cənubda Balkan yarımadasına qədər olan ərazilər |
| **Ağ Hun (IV əsr - 567)** | Kağan xaqan |  | Sakala | Mərkəzi Asiya, Əfqanıstan və Şimal-Şərqi Hindistanın bir hissəsi |
| **I Göytürk (552-588)** | Bumin xaqan |  | Ötükən | Şərqdə Koreya körfəzinə, qərbdə Xəzər dənizinə, cənubda Qumlu səhraya, şimalda İdil və Yenisey çayına qədər olan ərazilər |
| **II Göytürk (682-744)** | İltəris xan |  | Ötükən | Şərqdə Sarı dənizə, qərbdə Xəzər dənizinə və Krımın şərqinə, şimalda Sibirə, cənubda Kəşmirə qədər olan ərazilər |
| **Avar (558-803)** | Bayan xaqan |  | Dunapentele yaxınlığı | Don çayından Qalliyaya, slavyan torpaqlarından İtaliyaya qədər olan ərazilər |
| **Xəzər (634-965)** | Xəzər xaqan |  | Səməndər və İdil | Qafqazın və Qara dənizin şimalı, Volqadan Dneprə və şimalda Kiyev şəhərinə qədər olan ərazilər |
| **Uyğur (744-842)** | Qutluq Bilgə Gül xan |  | Ordu | Şərqdə Altaydan Mancuriyaya, cənubda Qobi səhrasına qədər olan ərazilər |
| **Böyük Bulqar (630-665)** | Başçı Qurd xaqan | | Bulqar | Şimali Qafqaz |
| **Oğuz (X əsr – 1000)** | Oğuz xan | | Yenikənd | Seyhun çayı və Xəzər dənizi arasındakı ərazilər |
| **Qaraxanlı (927-1212)** | Qutluq Bilgə Gül Qədir xan |  | Qaşqar Balasaqun Uzgen | Balxaş gölündən Hindiquş və Qaraqorum dağlarının ətəklərinədək olan ərazilər |
| **Qəznəvilər (962-1187)** | Alptəkin |  | Qəznə Lahor | Hindistandan Xarəzmə və Xəzər sahili torpaqlara qədər olan ərazilər |
| **Səlcuq dövləti (1038-1157)** | Toğrul bəy |  | Nişapur Rey İsfahan | Mavəraənnəhrdən Mesopotamiyaya və Hindiquş dağlarına qədər olan ərazilər |
| **Dehli sultanlığı (1206-1526)** | Qütbəddin Aybək |  | Dehli Deogir | Hindistan, Pəncab, Doab, Bihar Benqaliya və Dekan yaylasınadək olan ərazilər |
| **Osmanlı (1299-1922)** | Osman Qazi |  | Bursa Ədirnə İstanbul | Üç qitədə - Avropa, Asiya və Afrika qitələrində yerləşirdi |
| **Teymurilər (1370-1507)** | Əmir Teymur |  | Səmərqənd Herat | Şimalda Dərbənd, cənubda İran körfəzi, şərqdə Qobi səhrası və Qanq çayı, qərbdə Balkan yarımadasınadək olan ərazilər |
| **Böyük Moğol (1526-1858)** | Babur şah |  | Aqara Lahor Dehli | İndiki Hindistan və Pakistan ərazini əhatə edirdi |

# Erkən Orta əsrlər dövründə Türk və Şərq xalqlarının mədəniyyəti

## Orxon-Yenisey abidələri

Feodalizm şərqdən başladı. Bu özünü elmin, mədəniyyətin inkişafında da büruzə verdi. Şərqdə təhsil, elm və incəsənət inkişaf etdi. Sonralar Avropa da şərq xalqlarının yaratdığı mənəvi xəzinədən bəhrələndi.

Erkən orta əsrlərdə qüdrətli türk imperatorluqlarının yaranması ümumtürk mədəniyyətinin yüksəlişində mühüm rol oynadı. ***Bu dövrdə türk xalqlarında müxtəlif yazı növlərindən istifadə edirdi.*** Türk xalqlarına məxsus ən mühüm yazılı mənbə **Orxon-Yenisey** abidələridir. Bu abidələr türklərin ilk tarixi daş yaddaşı, ümumtürk ədəbiyyatının dövrümüzədək gəlib çatmış ilk nümunəsidir. Orxon-Yenisey abidələri **V-VIII əsrlərə** aiddir. **«Orxon abidələri»** Monqolustanın Orxon çayı sahilində aşkar edilib. Onların ən məşhuru Göytürk xaqanı **Bilgə xaqan**, qardaşı **Kül tigin** və baş vəzir **Tonyukuk** üçün qoyulmuş abidələrdir. ***Göytürk yazısı*** Orxon-Yenisey abidələrinin yerləşdiyi ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmışdı. Orxon-Yenisey abidələrinə əsaslanaraq qeyd etmək olar ki, ***göytürk əlifbası***:

- ***Dördü sait, otuz dördü samit olan 38 hərfdən ibarət idi.***
- ***Sətirlər yuxarıdan aşağıya yazılmış, sağdan-sola yerləşdirilmişdir.***

Türk xalqlarında İslamdan əvvəlki dövrdə rəssamlıq və heykəltəraşlıq inkişaf etmişdi. Göytürk heykəltəraşları öz xaqanlarının şərəfinə ***bəngüdaşlar*** adlandırılan heykəllər qoyurdular.



*Orxon-Yenisey abidələri*



*Bəngüdaşlar*



| Yazılışı | Okunuşu | Yazılışı | Okunuşu | Yazılışı | Okunuşu |
|---|---|---|---|---|---|
| Ünsüzler | | | | | |
| 𐰉 | ab | 𐰋 | eb | 𐰱 | aç |
| 𐰑 | ad | 𐰓 | ed | 𐰢 | am |
| 𐰍 | ag | 𐰏 | eg | 𐰯 | ap |
| 𐰴 | ak | 𐰚 | ek | 𐱁 | aş |
| 𐰞 | al | 𐰠 | el | 𐰔 | az |
| 𐰣 | an | 𐰤 | en | 𐰦 | ant |
| 𐰺 | ar | 𐰼 | er | 𐰭 | eng |
| 𐰽 | as | 𐰾 | es | 𐰨 | anç |
| 𐱃 | at | 𐱅 | et | 𐰪 | any |
| 𐰖 | ay | 𐰘 | ey | 𐰡 | alt |
| 𐰲 | iç | 𐰶 | ık | | |
| 𐰸 | ok | 𐰜 | ök | | |
| Ünlüler | | | | | |
| 𐰀 | a/e | 𐰃 | ı/i | | |
| 𐰆 | o/u | 𐰇 | ö/ü | | |

*Göytürk əlifbası*

## Xalq dastanları

Türk xalqlarının ədəbiyyatının beş min ildən artıq zəngin bir tarixi vardır. Ən qədim ədəbi nümunələr şifahi şəkildə yaranmışdır. **«Oğuz xaqan», «Boz qurd», «Törəyiş xan» və «Dədə Qorqud»** dastanları buna misaldır. Türk xalqlarında yazılı ədəbiyyat meydana gəldi. **IX əsrdə** yaşamış bulqar şairi **Mikayıl Baştunun «Şan qızı dastanı»** əsəri yazılı ədəbiyyatın günümüzə qədər gəlib çıxmış ən gözəl nümunələrindən biridir.

## İslam mədəniyyətinin formalaşması

İslam dininin meydana gəlməsi və yayılması yeni bir mədəniyyətin formalaşmasına imkan yaratdı. İslamın yayıldığı ərazilərdə ***ərəb dili*** elmi və ədəbi dilə çevrildi. Artıq ərəb dili məktəblərdə öyrədilir, qədim yunan və Roma müəlliflərinin əsərləri bu dilə tərcümə edilirdi. İslam dini təhsilin inkişafına ciddi təsir göstərdi. Məscidlərin yanında məktəblər yaradıldı ki, orada **«Qurani-Kərim»** və ***ərəb dili*** öyrədilirdi.

Yaradılan təhsil ocaqlarında dini elmlərlə yanaşı, riyaziyyat, astronomiya, təbabətə aid elmi biliklər verilirdi. Böyük şəhərlərdə yüzlərlə şagirdi olan mədrəsələr mövcud idi. Oxuyub yazmağı bacaran savadlı şəxslər Xilafətə gərəkli adamlar hesab olunurdu. Mədrəsələrdə zəngin kitabxanalar mövcud idi. Kitablar əl yazısı ilə, böyük zəhmət hesabına başa gəlirdi. Təhsilini başa çatdıran hər bir kəs ***«şəhadətnamə»*** alırdı. Mədrəsələrdə o dövrün ən görkəmli elm, mədəniyyət, din xadimləri dərs deyirdilər. Sonralar mədrəsələrin nümunəsində Avropada universitetlər yaranmağa başladı.

## Elmi biliklər

Erkən orta əsrlərdə türk xalqlarının əsas elm mərkəzləri Mərkəzi Asiyanın Ürgənc**, Mərv, Buxara, Səmərqənd, Xarəzm** şəhərləri idi. Qəznəvi hökmdarı sultan Mahmudun sarayında 400 alim və şair çalışırdı. Bu şəhərlərdə **Fərabi, İbn Sina, Biruni, Yusif Balasaqunlu,** kimi alimlər çalışmışdılar.


Əl-Fərabinin abidəsi. Qazaxıstan

Şərqin böyük mütəfəkkiri **Fərabi (870-950)** yunan alimi Aristotelin əsərlərinin izahını vermiş, bu səbəbdən də ***«ikinci müəllim»*** adına layiq görülmüşdü. O, Aristoteldən sonra ilk dəfə elmi biliklərin təsnifatını vermişdi.

İslam dininin möhkəmlənməsi ilə Xarəzmdə həyat yenidən canlandı. Xarəzm tacirləri ticarət üçün Xəzər xaqanlığına, Bulqar dövlətinə gedirdilər. Ürgənc şəhəri regionda ən inkişaf etmiş elm, təhsil və ticarət mərkəzinə çevrildi. Bu dövrdə Xarəzmdə **əl- Xarəzmi, Əbu Reyhan əl-Biruni** kimi böyük alimlər yetişdi. IX əsrdə butada yaşayıb-yaratmış **Xarəzmi *cəbr elminin*** təməlini qoymuşdur.


Əl-Xarəzminin abidəsi. Özbəkistan

**Əbu Reyhan əl-Biruni (973-1048)** diametri 5 metrə yaxın olan ***ilk qlobus*** düzəltmişdi. Biruni dünyada ilk dəfə olaraq Yerin Günəş ətrafında fırlanması fikrini irəli sürmüşdü.

Astronomiyanın inkişafı rəsədxanaların tikilməsinə səbəb oldu. Alimlər rəsədxanada işləyərək yer kürəsinin təxmini ölçüsünü vermişdilər. Təsadüfi deyildir ki, ulduzların çoxunun adı ərəb alimlərinin adı ilə bağlıdır.



**«Elmlərin şeyxi», «böyük loğman»**, şair **Əbu Əli İbn Sina** (980-1037) beş cilddən ibarət **«Tibb ensiklopediyası»** və **«Tibb elminin qanunu»** əsərləri ilə şöhrət qazanmışdır. Görkəmli Azərbaycan alimi **Bəhmənyar əl-Azərbaycani** İbn Sinanın şagirdi olmuşdur.

Tarix elmi Xilafət dövründə də inkişaf etmişdi. Ərəb işğallarını qələmə alan **Əhməd əl-Bəlazuri «Ölkələrin fəthi»** əsəri ilə dövrün hadisələrini işıqlandırmışdı. Xilafətin 200 illik tarixini yazmış **Təbəri *xürrəmilər hərəkatı haqqında*** məlumat verən tarixçilərdəndir. **Həmədani** isə ***tarix ensiklopediyasını*** yaratmışdı.


Əbu Reyhan əl-Biruninin düzəltdiyi üstürlab (astronomiya aləti)

Məşhur **«Min bir gecə»** nağılları nəsr və şeirin inkişafına nümunədir. Bu nümunə ərəb ədəbiyyatının ***«qızıl dövrü»*** Abbasilərin vaxtına təsadüf edir. Bu inkişaf təkcə ərəblərlə bağlı olmayıb, Xilafətdə yaşayan bütün xalqların, o cümlədən Azərbaycan xalqının zəkasının məhsuludur.

## Memarlıq

Xilafət dövründə ən çox inkişaf edən sahə memarlıq idi. Çoxlu qalalar, saraylar, məscidlər, minarələr tikilən bu dövrün mədəniyyət nümunələri dövrümüzədək gəlib çatmışdır. Məscidlərin divarları oymalarla bəzədilir, naxışlar vurulurdu. **Samirədəki Ulu məscid** dövrün gözəl memarlıq nümunəsidir.


İbn Sinanın abidəsi. Özbəkistan

Quranın üzünün köçürülməsi xəttatlığın inkişafında yeni imkanlar açdı. Sonralar kitablarda gözəl miniatürlər yaradıldı. Burada həyatdan səhnələr, heyvanlar, quşlar və başqa şəkillər çəkilirdi. Cənubi Qafqaz ölkələrində **V əsrdən** yeni yazı növləri meydana gəlsə də, Xilafət dövründə ***ərəb yazısı*** öz mövqeyini saxlayırdı. O zaman Qafqaz xalqları Türk-İslam mədəniyyətinin təsiri altında memarlıq, xəttatlıq, bədii sənət sahələrində dəyərli sənət nümunələri yaratmışdılar.


İbn Sinanın farmakologiya kitabından


Ulu Məscid. Samirə şəhəri


İsmayıl Samanın məqbərəsi. Özbəkistan. X əsr


Böyük Kayruan məscidi. Tunis. IX əsr

# Klassik feodalizm dövründə Türk və Şərq xalqlarının mədəniyyəti

## Təhsil

Klassik feodalizm dövründə türk xalqları ümumdünya mədəniyyətinə bənzərsiz incilər bəxş etmişdilər. Klassik feodal dövlətlərində hökmdarların çoxu ədəbiyyatla, incəsənətlə, elmlə məşğul olurdular. Qüdrətli türk imperatorları Alp Arslan, I Məlikşah, Əmir Teymur, Uluqbəy, Sultan Süleyman Qanuni və başqaları bu incilərin ərsəyə gəlməsində mühüm rol oynamışlar. Alp Arslan tərəfindən **1066-cı ildə** Bağdadda açılan **«Nizamiyyə» mədrəsəsi** dünyanın ***ilk universitetlərindən*** sayılırdı. Universitetdə dini biliklərlə yanaşı, həm də hüquq, ədəbiyyat, riyaziyyat, astronomiya elmləri tədris edilirdi. Nizamiyyə universitetindən sonra Təbrizdə yaradılan **Rəşidiyyə ali mədrəsəsi** Şərqdə ***ikinci ali təhsil*** ocağı idi. Teymuri hökmdarı **Uluqbəy** Səmərqənddə çoxlu mədrəsələr tikdirmişdi. **Süleyman Qanuni** təhsil ocaqlarının artmasına xüsusi diqqət yetirirdi.



*Uluqbəy*



*Ömər Xəyyam*

## Elmi biliklər

Klassik feodalizm dövründə elmi biliklər inkişaf edirdi. Bu dövrdə **Ömər Xəyyam, Mahmud Qaşğari, Fəzlüllah Rəşidəddin, Piri Rəis, Nəsrəddin Tusi** kimi türk alimləri yaşayıb yaratmışdılar. Astronomiyanın inkişafında xüsusi rol oynamış **İsfahan, Marağa, Səmərqənd rəsədxanaları** tikilmişdi. Dövrün görkəmli alim və şairi Ömər Xəyyam **İsfahan rəsədxanasının** başçısı olmuşdu. Onun tərtib etdiyi **«Cəlali təqvimi»** miladi təqvimindən daha dəqiq hesablamalara əsaslanırdı. Digər görkəmli türk astronomu Mahmud Qaşğari ***ulduz bürclərinin dövrü adını*** (sıçan, öküz, bəbir, dovşan, timsah, ilan, at, qoyun, meymun, toyuq, it, donuz) türk dillərində vermişdir. Teymuri hökmdarı və görkəmli astronom Uluqbəy Günəş, Ay və ulduzların hərəkətlərini göstərən cədvəl düzəldib Ay və Günəşin orbitlərini müəyyən etmişdi.

Tibb elminin inkişafına xüsusi diqqət yetirilirdi. Osmanlı dövlətinin Ədirnə və Azərbaycanın Təbriz şəhərlərində ***darüşşəfa*** adlı xəstəxanaları açılmışdı. Görkəmli Azərbaycan alimi Fəzlüllah Rəşidəddinin tibbə aid əsərləri Şərqdə böyük şöhrət qazanmışdı.

Məşhur türk admiralı Piri Rəis tərtib etdiyi ***dəniz atlasına*** Amerika qitəsini daxil etmişdi. Bu onu göstərirdi ki, avropalılardan daha əvvəl türk coğrafiyaçıları və səyyahları Amerika qitəsi haqqında məlumatlara malik idilər.

Böyük Moğol hökmdarı Əkbər şahın dövründəki Hindistan mədəniyyətini **«Əkbər əsri»** adlandırırlar. Tarixçi **Əbül Fəzl** əsərlərində Əkbər şahın fəaliyyətini təsvir etmişdi

*Cəlali təqvimi Səlcuq hökmdarı Cəlaləddin Məlikşahın dövründə Ömər Xəyyam tərəfindən hazırlanmışdı. Çox dəqiqliklə hazırlanmış təqvim müasir dövrümüzdə tətbiq olunan miladi təqvimindən elədə fərqlənmir. Cəlali təqviminə əsasən başlanğıc tarixi 1079-cu ildən hesablanır.*

| *Sıra nömrəsi* | *Aylar* | *Latınca adları* | *Ayın günləri* |
|---|---|---|---|
| **1** | **11-ci ay** | **Yanvar** | **31** |
| **2** | **12-ci ay** | **Fevral** | **28** |
| **3** | **1-ci ay** | **Mart** | **31** |
| **4** | **2-ci ay** | **Aprel** | **30** |
| **5** | **2-cü ay** | **May** | **31** |
| **6** | **4-cü ay** | **İyun** | **30** |
| **7** | **5-ci ay** | **İyul** | **31** |
| **8** | **6-cı ay** | **Avqust** | **31** |
| **9** | **7-ci ay** | **Sentyabr** | **31** |
| **10** | **8-ci ay** | **Oktyabr** | **31** |
| **11** | **9-cu ay** | **Noyabr** | **30** |
| **12** | **10-cu ay** | **Dekabr** | **31** |

## Ədəbiyyat

Dövrün ən məşhur şairləri **Mahmud Qaşğari, Cəlaləddin Rumi, Yunis Əmrə, İmadəddin Nəsimi, Əlişir Nəvai, Məhəmməd Füzuli** olmuşdur. **Mahmud Qaşğarinin «Divanü lüğat-it-türk» («Türk dillərinin divanı») əsəri** yüksək bədii, elmi, ədəbi səviyyədə yazılmışdır. Əsərdə o dövrdə türk xalqlarının yaşadığı əraziləri təsvir edən ilk xəritə də verilmişdi. Mahmud Qaşğari «Divan»ı ilə, həmçinin ***türkologiya elminin*** əsasını qoymuşdur.

Şifahi xalq yaradıcılığının böyük nümayəndəsi **Molla Nəsrəddin** o zamanda yaşamışdır.



*Piri Rəis və onun Dünya xəritəsi. Xəritədə Amerikanın əks olunması.*



*Mahmud Qaşğari "Divanu Luğat-it-Türk" kita*

## Memarlıq

Klassik feodalizm dövründə türk memarlığı çiçəklənmə mərhələsini yaşadı. Bu dövrdə **Təbriz, Səmərqənd, İstanbul, Buxara** və başqa şəhərlərdə memarlıq üslubu cəhətdən fərqlənən möhtəşəm nümunələr yaradıldı.

Əmir Teymurun Səmərqənddə tikdirdiyi binalar bu gün də əhəmiyyətini itirməmişdi. Teymurun qəbri üzərində inşa edilən **«Gur Əmir» (Əmir Teymur) türbəsi** Səmərqənd memarlığının şah əsəridir. Əmir Teymurun nəvəsi, **Uluqbəy** dövlət xadimi, astronom olmaqla yanaşı, həm də dövrünün görkəmli memarı sayılırdı. Səmərqənd rəsədxanasının, o cümlədən o dövrün bir sıra tikililərinin memarı Uluqbəy olmuşdur.

Osmanlı imperatorluğunun, o cümlədən dünyanın ən məşhur memarı **Sinan Xoca** hesab edilir. Onun inşa etdiyi **Şahzadə, Süleymaniyyə** və **Səlimiyyə cameləri** nadir memarlıq incilərindəndir. İstanbulda türk memarları tərəfindən **Çinili köşk, Topqapı, Fənərbağça** və başqa möhtəşəmsultan sarayları inşa edilmişdi.

Hindistanda türk imperatorluqları dövründə hind-müsəlman mədəniyyəti yüksəliş dövrünü yaşadı. XIII əsrin əvvəlində Dehli sultanı Qütbəddin Aybək tərəfindən tikdirilən **«Qütb minar»** adlandırılan minarə bu gün də möhtəşəmliyini saxlamaqdadı.

## Çində elmi-texniki kəşflər və nailiyyətlər

Orta əsrlərdə Çin dünya mədəniyyətinə aşağıdakı əhəmiyyətli töhfələr vermişdi:



*Çin qülləsi*

- ✓ Seysmoskop və spidometr kəşf edildi.
- ✓ Dünyada ilk ***«Farmakologiya» (əczaçılıq) kitabı*** yazılaraq, müxtəlif müalicə üsulları müəyyən olundu.
- ✓ İlk dəfə not yazısı ilə musiqi əsərləri yazıldı, Çində ***ilk balet*** yardıldı.
- ✓ Ölkədə ***gəmiçilik məktəbləri*** açıldı, ***barıt*** və ***metal top*** ixtira olundu.
- ✓ Çin dənizçiləri hələ qədimdə ixtira etdikləri ***kompasdan*** istifadə etməyə başladılar.

***QEYD:*** Ölkədə xüsusi gil növlərindən möhkəm, yarımşəffaf, ***cingiltili qablar*** hazırlanırdı. Çində hazırlandığına görə onlara ***çini qablar*** deyilirdi.

### Klassik feodalizm dövründə Türk və Şərq xalqlarının inciləri





*Səmərqənddə Uluq bəy rəsədxanası və rəsədxananın girişi Dehli - Qütb Minar*




*Əmir Teymur (Guri-Əmir) məqbərəsi və məqbərənin içində Teymurun qəbri*



*Səlimiyyə cami*



*Şahzadə cami*




*Sinan Xoca.Süleymaniyyə cami*




*Topqapı sarayı (çöl və iç görünüşü).*



*Çinili köşk*

# AVROPA FEODALİZM DÖVRÜNDƏ

## Frank dövləti (500-843)




*Frank dövləti*

### German tayfalarının işğalları

Eramızın **I əsrində** german tayfaları ***qərbdən və şərqdən Reyn və Visla çayları, cənubdan Dunay çayı, şimaldan isə Baltik və Şimal dənizlərinə qədər*** ərazilərdə yayılmışdılar. Sonralar çoxsaylı işğallar nəticəsində germanlar digər xalqlarla qarışaraq bir çox Avropa xalqlarının yaranmasında mühüm rol oynadılar.

**V əsrin sonlarında** german tayfalarının (***frank, qot, vandal, anql-saks***) işğalları nəticəsində:

- ✓ Qərbi Avropada ***quldarlıq quruluşu*** dağıldı və ***feodalizm quruluşu*** meydana gəldi.
- ✓ Qul əməyini ***xırda torpaq sahibi*** olan ***icma üzvləri - kəndlilərin*** əməyi əvəz etdi.

### Frankların Qalliyanı tutması

**V əsrin sonlarında** German tyafalarından biri olan ***fank tayfalarının*** başçısı **Xlodviq Qalliyaya** hücum etmək üçün başqa tayfalarla ittifaqa girdi. Bu zaman Qalliyanı ***keçmiş Roma canişini*** idarə edirdi. **486-cı ildə** Suasson şəhəri yaxınlığında ***franklarla romalılar arasında*** həlledici döyüş baş verdi. **Suasson döyüşü *nəticəsində:***

- ➢ Xlodviq romalılar üzərində parlaq qələbə qazanaraq **Qalliyanın bir hissəsini** ələ keçirdi.
- ➢ Qalliyadakı Roma quldarları və digər frank tayfa başçıları Xlodviqə tabe oldular.

Sonralar franklar bütün Qalliyanı tutmaqla Roma imperiyasının böyük mülklərinə yiyələndilər. Xlodviq Qalliya torpaqlarını ələ keçirdikdən sonra ***döyüşçülərinə və müttəfiqlərinə*** payladı. Beləliklə, ***Frank əyanları iri torpaq sahiblərinə*** çevrildilər.

### Frank dövlətinin yaranması

**V əsrin sonlarında** Qərbi Avropanın ***ilkin feodal dövləti*** olan Frank dövləti yarandı. Tayfa başçısı **Xlodviq** Frank dövlətinin ***ilk kralı*** oldu. Kral mühüm qərarları özü verirdi. Tayfa başçısından fərqli olaraq kral hakimiyyəti ***irsən öz oğullarına*** verirdi. Odur ki, Frank dövlətində ***irsi hakimiyyət - monarxiya rejimi*** qurulmuşdu.

### Xlodviqin hakimiyyəti (486-511)



Xlodviq

Xlodviqin hakimiyyəti dövründə:

- ✓ Frankların ***ilk qanunlar toplusu*** yaradıldı.
- ✓ Qalliyanın yerli dini olan ***xristian dini dövlət dini kimi*** qəbul edildi.
- ✓ Xristianlığın qəbul edilməsi ilə ***kilsə ilə kral arasında ittifaq*** yarandı.
- ✓ Kilsə kralın hakimiyyətini möhkəmləndirdi.
- ✓ Frank dövləti inzibati cəhətdən ***vilayətlərə*** bölündü.

Frank dövlətində vilayətləri ***qraflar*** idarə edirdi. Xlodviq qraf vəzifəsinə ***ən yaxın adamlarını*** təyin edirdi. Qrafların səlahiyyətlərinə aşağıdakı vəzifələr daxil idi:

- ➢ *Vilayətləri idarə edirdi.*
- ➢ *Vilayətlərdə əhalidən vergi toplayırdı.*
- ➢ *Məhkəmə işlərinə baxırdı.*
- ➢ *Döyüşçü dəstələrə başçılıq edirdi.*

***QEYD:*** Xlodviqin ***xristian dinini*** qəbul etməkdə məqsədi hakimiyyətini möhkəmləndirmək idi.

**Xlodviq**

- Suasson döyüşündə qələbə qazanaraq Qalliyanı işğal etdi
- Ən yaxın adamlarını qraf vəzifəsinə təyin etdi
- Frank dövlətini yaradaraq xristian dinini qəbul etdi
- Kilsə ilə kral arasında ittifaq yaratdı

### Böyük Karlın hakimiyyəti. Frank dövlətinin imperiyaya çevrilməsi



*Böyük Karlın Roma şəhərini tutması və Roma papası tərəfindən tac qoyularaq imperator elan edilməsi*

Böyük Karlın **(768-814)** hakimiyyəti dövründə Frank dövlətinin ***ən qüdrətli dövrü*** olmuşdur. Böyük Karl hakimiyyəti ***dövründə:***

- ✓ ***İtaliyanın çox hissəsini*** *tutaraq Frank dövlətinə birləşdirdi.*
- ✓ *Frank imperiyasını yaratdı (Frank dövləti imperiyaya çevrildi).*
- ✓ *Reyn və Elba çayları arasında yaşayan* ***saksları*** *itaət altına aldı.*
- ✓ ***800-cü ildə Roma şəhərini*** *tutaraq özünü* ***imperator*** *elan etdi.*
- ✓ *Orduda xidmət edənlərə torpaq sahəsi payladı.*
- ✓ *Frank əyanlarına yeni torpaqlar zəbt etməkdə və kəndliləri təhkimli halına salmaqda kömək etdi.*

Frank əyanları əvvəllər Böyük Karlı müdafiə edirdilər. Əyanların Böyük Karlı müdafiə etməsinin səbəbi, kralın əyanlara ***yeni torpaqlar zəbt etməkdə*** və ***kəndliləri təhkimli halına salmaqda*** kömək etməsi idi. Lakin əyanlar icma üzvlərinin torpağını zəbt etdikdən sonra, artıq qüvvətli imperator hakimiyyətinə ehtiyac duymurdular. Bu isə feodalların müstəqilləşməsinə və gələcəkdə Frank imperiyasının süqutuna gətirib çıxardı.

***Böyük Karlın***

- Orduda xidmət edənlərə torpaq sahələri payladı
- Romanı tutaraq özünü imperator elan etdi
- İtaliyanın çox hissəsini özünə tabe etdi
- Frank dövlətini imperiyaya çevirdi
- Saks tayfalarını özünə tabe etdi

### Frank imperiyasının parçalanması. Verden müqaviləsi (843-cü il)

Böyük Karlın ölümündən sonra ***onun varisləri arasında müharibələr başladı, Frank imperiyası zəiflədi və ayrı-ayrı dövlətlərə parçalandı***. Frank imperiyasının parçalanmasının əsas səbəbləri aşağıdakı amillərlə bağlı idi:

- *Feodalların mərkəzi hakimiyyəti müdafiə etməməsi.*
- *Feodalların torpaq üzərində mülkiyyətinin möhkəmlənməsi.*
- *İmperiyanın vilayətləri arasında iqtisadi əlaqələrin zəif olması.*
- *Natural təsərrüfatın inkişafı.*


Frank imperiyasının Böyük Karlın övladları arasında bölüşdürülməsi

**843-cü ildə** Böyük Karlın üç nəvəsi Verden şəhərində ***Frank imperiyasını bölmək haqqında*** müqavilə bağladılar. **Verden müqaviləsinin** şərtlərinə əsasən ***Frank imperiyası bölüşdürüldü.*** Bu bölüşdürmə nəticəsində imperiyanın ərazisində üç dövlət – krallıq meydana gəldi:

1. **Fransa krallığı**.
2. **Almaniya krallığı**.
3. **İtaliya krallığı**.

Bu krallıqların hər biri iri feodal mülklərinə, feodal mülkləri isə xırda feodallıqlara parçalanmışdı. Müstəqil olan hər bir feodal əhalidən vergi toplayır, öz təbəələrini mühakimə edirdi. Beləliklə, Qərbi Avropada **IX-XI əsrləri** əhatə edən ***feodal dağınıqlığı dövrü*** başlandı.

| *Frank dövləti* | *Frank imperiyası* |
|---|---|
| ✓ *Xlodvinq tərəfindən yaradılmışdı.*<br>✓ *Xristianlıq dövlət dini kimi qəbul edilmişdi.*<br>✓ *Puatye döyüşündə qalib gəlmişdi.*<br>✓ *Frankların qanunlar toplusu hazırlanmışdı.* | ✓ *Böyük Karl tərəfindən yaradılmışdı.*<br>✓ *Natural təsərrüfat inkişaf etmişdi.*<br>✓ *Geniş işğallar aparmışdı.*<br>✓ *Verden müqaviləsi nəticəsində dağılmışdı.* |

### Fransa krallığı

X-XI əsrlərdə Fransa krallığına ***aiddir:***

- ✓ **Qərbi Frank krallığının ərazisində** yaranmışdı.
- ✓ ***Kapetinqlər sülaləsi*** hakimiyyətdə olmuşdu.
- ✓ ***Karolinqlər sülaləsinin*** dövründə iri feodal mülklərinə bölünmüşdü.
- ✓ Kral hakimiyyəti xeyli zəifləməmiş, ölkə iri feodal mülklərinə parçalanmışdı.
- ✓ Feodallar krala nisbətən daha geniş torpaq mülklərinə sahib idilər.
- ✓ Hər-bir feodal öz mülkünün müstəqil hakimi idi və kral hakimiyyəti ilə hesablaşmırdılar.
- ✓ ***Feodal münasibətlərinin formalaşması*** başa çatmışdı.



### Almaniya krallığı. Müqəddəs Roma imperiyasının yaranması

X-XI əsrlərdə Almaniya krallığına ***aiddir:***

- ✓ Feodal münasibətləri sürətlə inkişaf etdi.
- ✓ ***Frank imperiyasının süqutu ilə*** Almaniya vilayətləri vahid dövlətdə birləşdirildi.
- ✓ Bir sıra Qərbi Avropa ölkələrindən fərqli olaraq ***vahid dövlət*** idi.
- ✓ İşğalçılıq siyasəti yeridirdi. Bu dövrdə Almaniya kralı **I Otto (936-973) 962-ci ildə:**
  - ***İtaliyanın bir hissəsini, o cümlədən Roma şəhərini işğal etdi.***
  - ***Özünü Roma imperatoru elan etdi.***
  - ***Müqəddəs Roma imperiyasının (962-1806) əsasını qoydu.***

Bəhs edilən dövrdə Almaniyada feodal münasibətlərinin sürətlə inkişafı ***ayrı-ayrı feodalların güclənməsinə*** və ***vahid dövlətin parçalanmasına*** səbəb olurdu.

***QEYD:*** İtaliyanın bir hissəsini, həmçinin Roma şəhərini işğal etməsi və özlərini imperator elan etməsi Böyük Karlla I Ottonun fəaliyyəti dövrü üçün oxşar cəhət təşkil edir.





I Otto. Müqəddəs Roma imperiyasının ərazisi və bayrağı

### İaliya krallığı

IX-X əsrlərdə İtaliya tarixi üçün səciyyəvi cəhətlər bunlar idi:

- ✓ Müqəddəs Roma imperiyasının tərkibində qatılmışdı.
- ✓ İtaliyaya hakim olmaq uğrunda ***Roma Papası və Almaniya kralı*** arasında mübarizə gedirdi.
- ✓ Digər Avropa ölkələrinə nisbətən ticarət və sənətkarlıq mərkəzləri olan iri şəhərlər daha tez meydana gəldi.
- ✓ Şəhərlərin çoxu ***kommuna*** - özünüidarə hüququ aldı (**Lukka, Piza, Milan** şəhərlərində kommunalar yaradıldı).
- ✓ Ölkə müstəqil dövlətlərə parçalandı - **Genuya, Piza** və **Venesiya şəhər respublikaları** yarandı.

***QEYD:*** ***Dövlətin eyni vaxtda yaranması*** Fransa, Almaniya və İtaliya tarixi üçün oxşar cəhət təşkil edir.

### Qərbi Avropada asılı və təhkimli kəndlilərin meydana gəlməsi

**VI əsrin sonlarından etibarən** ailələrin torpaq payları ***icma üzvlərinin xüsusi mülkiyyətinə*** çevrildi. Artıq kəndlilər öz pay torpaqlarının tam sahibi idilər. Lakin kəndli torpaq mülkiyyətini əldə saxlaya bilməyərək, iri torpaq sahibindən asılı vəziyyətə düşdülər. Beləliklə, Qərbi Avropada ***asılı*** və ***təhkimli kəndlilər*** meydana gəldi.

- ➢ **Asılı kəndlilər** - ***torpaq mülkiyyətini itirən kəndlilər idi.***
- ➢ **Təhkimli kəndlilər** - ***həm torpağını, həm də şəxsi azadlığını itirən kəndlilər idi.***

***QEYD:*** Orduda xidmət edənlərə torpaq sahəsi ayrılırdı. Hərbi xidmət əvəzində verilən bu torpaq ***feod*** adlanır və irsən keçirdi. Feodun sahibinə ***feodal*** deyilirdi. Odur ki, Erkən orta əsrlər dövründə Qərbi Avropada ***hərbi xidmət əvəzində verilən və irsi keçən torpaq mülkü*** **"feod"** adlanırdı.




### Qərbi Avropada natural təsərrüfatın inkişafı

Erkən orta əsrlər dövründə Qərbi Avropada ***natural təsərrüfat*** hökmran idi. Yaşayış üçün lazım olan bütün məhsulların satış üçün deyil, şəxsi tələbatı ödəmək üçün hazırlanması ***natural təsərrüfat*** adlanırdı. Natural təsərrüfat dövründə:

- ✓ *Məhsul satış üçün deyil, şəxsi təlabat üçün hazırlanırdı.*
- ✓ *Ölkənin vilayətləri arasında iqtisadi əlaqələr zəif idi.*
- ✓ *Ayrı-ayrı feodal mülkləri arasında möhkəm əlaqələr yox idi.*
- ✓ *Hər bir iri feodal öz mülkündə təkbaşına hakim idi.*

Asılı kəndlilərin işinə nəzarət etmək və onları mükəlləfiyyətlər daşımağa məcbur etmək üçün feodalların öz döyüşçü dəstəsi, məhkəməsi, öz təsərrüfat nəzarətçiləri var idi.

### Avropada feodal dağınıqlığı dövrünün xüsusiyyətləri

**IX-XI əsrlər** Qərbi Avropada ***feodal dağınıqlığı dövrü*** kimi xaraktrizə olunur. IX-XI əsrlərdə Qərbi Avropada feodal dağınıqlığının əsas səbəbləri aşağıdakılar idi:

- ✓ *Natural təsərrüfatın inkişafı.*
- ✓ *Feodalın torpaq üzərində hakimiyyətinin möhkəmlənməsi.*

IX-XI əsrlərdə Qərbi Avropada feodal dağınıqlığı dövrünün ***əsas xüsusiyyətləri*** aşağıdakılar idi:

- ✓ *Kral hakimiyyəti zəifləmişdi.*
- ✓ *Hər bir feodal mülkü müstəqil mülklərə parçalanmışdı.*
- ✓ *Feodalların müstəqilliyi artırdı.*
- ✓ *Ara müharibələri baş verdi.*
- ✓ *Vahid dövlət yox idi.*
- ✓ *Feodal nərdivanı mövcud idi.*

### Feodal nərdivanı

Erkən Orta əsrlər dövründə Qərbi Avropada feodal nərdivanı ***feodallar arasında münasibətlərin təşkilat forması*** idi. Torpaq sahibi olan feodal ondan torpaq alanların ***senyoruna (böyüyünə)*** çevrilir, senyorlardan xidmət əvəzində torpaq

alan feodallar isə ***vassallar (hərbi qulluqçular)*** olurdular. Feodal nərdivanına ardıcıl olaraq ***kral, hersoq və qraflar, baronlar, cəngavərlər*** daxil idi. Feodal nərdivanından ***təbəələri itaətdə saxlamaq üçün*** istifadə olunurdu.

***Kral:***

- *Ölkədəki bütün feodalların başçısı sayılırdı.*
- *Hersoq və qrafların senyoru idi.*

***Hersoq və qraflar:***

- *Yüzlərlə kəndə və böyük döyüşçü dəstələrinə malik idilər.*
- *Kralın vassalı və eynizamanda da Baronların senyoru idilər.*

***Baronlar:***

- *İyirmi-otuz kəndə malik idilər.*
- *Cəngavərlərin senyoru idilər.*

Beləliklə, bir feodal özünə nisbətən kişik feodalın senyoru, eyni zamanda böyük feodalın vassalı idi. Feodal nərdivanında axırıncı yerdə duran ***cəngavərlərin – xırda feodalların*** vassalları yox idi. ***Kəndlilər*** isə feodal nərdivanına daxil deyilər.




*Feodal nərdivanı*

# Bizans imperiyası (395-1453)




*Bizans VIII əsrdə*

### Erkən Orta əsrlərdə Bizansın inkişaf xüsusiyyətləri

Erkən Orta əsrlərdə Şərqi Roma imperiyası **Bizans** adlanırdı. Bizans imperiyası **395-1453-cü illərdə** mövcud olmuşdur. Orta əsrlərin ilk dövründə Bizansı Qərbi Avropa ölkələrindən kəskin ***fərqləndirən xüsusiyyətlər*** var idi. Belə ki, Erkən Orta əsrlərdə Qərbi Avropa ölkələrindən fərqli olaraq Bizans imperiyasında vəziyyət aşağıdakı kimi idi:

- ✓ *Feodalizm zəif inkişaf etmişdi.*
- ✓ *Quldarlıq quruluşu daha çox davam etmişdi.*
- ✓ *Qüvvətli imperator hakimiyyəti və vahid dövlət qalmışdı.*
- ✓ *Sənətkarlıq, ticarət və kənd təsərrüfatı yüksək inkişaf etmişdi.*

Erkən orta əsrlərdə **(VI əsrə qədər)** Bizans imperiyasının ərazisi aşağıdakı torpaqları əhatə edirdi:

- ➢ **Balkan yarımadasını və Kiçik Asiyanı, Ərəbistan və Şimali Afrikanın bir sıra torpaqlarını.**
- ➢ **Suriya, Misir və Fələstini, Krımı və Qafqazın Qara dəniz sahillərini.**

***QEYD:*** Bizansda qüvvətli imperator hakimiyyətinin qalmasının səbəbi imperatorun xəzinəsinin zəngin olması və bu xəzinənin hesabına imperatorun böyük ordu və donanma saxlaya bilməsi idi.

### Bizansda təsərrüfat, sənətkarlıq və ticarətin inkişafı

Çox əlverişli coğrafi mövqedə yerləşmiş Bizans imperiyasının paytaxtı **Konstantinopol** şəhəri idi. Keçmişdə **Bizans** adlanan **Konstantinopol** Avropa və Asiyanı birlədirən «***qızıl körpü***» adlanırdı. Şəhər ***iki ticarət yolu*** üzərində yerləşirdi:

1. *Avropadan Asiyaya gedən karvan yolları.*
2. *Aralıq dənizindən Qara dənizə gedən su yolu.*

Konstantinopoldan başqa Bizansın **Antioxiya, İsgəndəriyyə, Beyrut, Korinf** şəhərləri var idi. Onlar ticarət və sənətkarlıq mərkəzi idi. Bizans tacirləri **Azərbaycan, İran, Hindistan** və **Çindən** aldıqları malları Qərbi Avropada satır və bu ticarətdən xeyli varlanırdılar.

Bizans imperiyasının uzun müddət mövcud olmasında ***kənd təsərrüfatının, sənətkarlığın, ticaət və şəhərlərin yüksək inkişaf etməsi*** əsas rol oynamışdı. Bizansda ***şəhərlər*** sənətkarlıq və mədəniyyət mərkəzi kimi qalırdı. Bizans şəhərlərində ***yun, ipək parça istehsalı, şüşə, qab-qacaq, papirus, zərgərlik məmulatı istehsalı*** kimi sənətkarlıq sahələrindən Qəri Avropanın hələ xəbəri yox idi. Bizans şərq ölkələri (Hindistan, Çin, İran və s.) ilə ticarətdə varlanırdı. Bizansda ticarətin yüksək inkişaf etməsinin səbəb aşağıdakı amillərlə bağlı idi:

- ✓ *Konstantinopolun əlverişli coğrafi mövqedə yerləşməsi.*
- ✓ *Avropadan Asiyaya gedən karvan yollarının buradan keçməsi.*







### Slavyanların Bizans ərazisində məskunlaşması. Bizansda feodalizm quruluşunun yaranması

IV əsrdə hunların qərbə yürüşü ilə «xalqların böyük köçü» başladı və VI əsrdə slavyanların Bizans ərazisində məskunlaşması ilə başa çatdı. Bizans imperiyasına hücum edən tayfalar içərisində ***slavyanlar*** əsas yer tuturdular. **VI əsrin ortalarından** etibarən ***slavyanlar*** Bizans ərazisinə hücum etməyə başladılar. Onlar əvvəlcə Bizansın tabeçiliyində olan **Balkan yarımadasının şimalını,** sonra **Makedoniya** və **Yunanıstanı** işğal etdilər. Slavyanlar burada icmalar halında məskən salaraq, Bizans imperiyasının əhalisinə çevrilməyə, orduda xidmət etməyə, dövlətə vergi verməyə başladılar.







### Bizansın Səlcuq türkləri və Osmanlılara qarşı mübarizəsi

***Avar, slavyan və ərəb işğallarından sonra*** Bizans imperiyasının ərazisi kiçildi və yalnız **Yunanıstan** və **Kiçik Asiyanı** əhatə edirdi. **XI əsrdə *səlcuq*** türklərinin yürüşləri imperiyanı ciddi itkilərə məruz qoydu. Türklərin hücumunu xristian dininə qarşı böyük təhlükə hesab edən Bizans imperatoru ***Roma Papasına*** müraciət edərək ondan kömək istədi. Bu, səlcuqların tutduğu torpaqları geri almaq üçün başlayan birinci ***Xaç yürüşü ilə*** nəticələndi.

Bizans müvəqqəti olaraq türklərin işğal etdiyi əraziləri geri alsa da, imperiyada böhran gücləndi. Roma Papası ilə Bizansın münasibətləri pisləşdi. Bu dəfə səlibçilər artıq **Bizansın** özünə qarşı çıxdılar və Konstantinopola yürüş etdilər. Yürüşün ağır nəticələri Bizansı zəiflətdi.

**XIV-XV əsrlərdə** Osmanlı türkləri Bizansa tez-tez hücumlar edirdilər. Bizans bu hücumlara davam gətirə bilmirdi. **1453-cü ildə** dünyanın ən uzunömürlü imperiyası olan Bizans dövlətinin varlığına Osmanlılar tərəfindən son qoyuldu.

## Slavyanlar. Rusiya

### Slavyanların yaşadığı ərazi və məşğuliyyətləri

Slavyanlar qədim zamanlardan **Mərkəzi** və **Şərqi Avropada** yaşayırdılar. **VI əsrdə** onların yaşadığı ərazi ***şərqdə*** **Dnepr çayının ortalarından**, ***qərbdə*** **Elba çayına qədər**, ***şimalda*** **Baltik dənizindən,** ***cənubda*** **Dunay çayına** və **Qara dənizə qədər** olan ərazini əhatə edirdi. Slavyanlar 3 qrupa bölünürdülər:

- Qərbi slavyanları- **çexlər, polyaklar, slovaklar**.
- Cənubi slavyanları - (Balkan yarımadası) **bolqarlar, serblər, xorvatlar**.
- Şərqi slavyanları - **ruslar, ukraynalılar, belaruslar**.

Erkən orta əsrlərdə (VI-IX əsrlərdə) slavyanlara ***aiddir:***

- ✓ İbtidai icma quruluşundan birbaşa feodalizmə keçmişdilər.
- ✓ Bütün işlər ***Xalq yığıncağında (vaçedə)*** həll edilirdi.
- ✓ İlk dövlətləri IX əsrdə meydana gəlmişdi.
- ✓ Başlıca məşğuliyyətləri ***əkinçilik*** olmuşdu.

***QEYD:*** Bizans tarixçisi Psevda Mavrikin göstərir ki, slavyanların təsərrüfat sahəsi ***oturaq əkinçilik*** idi. Alman salnaməçisi isə qeyd edir ki, slavyanlr təkcə əkinçiliklə yox, təsərrüfatın digər sahələri ilə də məşğul olurdular. Slavyanlarda sənətkarlıq inkişaf etmişdi. Onlar saxsı qabl ar, bəzək əşyaları, silah hazırlayırdılar.




*Slavyan xalqları*




### Slavyanlarda ilk dövlətlərinin meydana gəlməsi

Eramızın ilk əsrlərində slavyanlar ibtidai icma quruluşunda yaşayır və hələ dövlət yaratmamışdılar. **IX-X əsrlərdə** feodalizmə keçidlə əlaqədar olaraq slavyanlarda ilk dövlətlər yarandı.

- **IX əsrin sonlarında** ***Şərq slavyanların ilk dövləti*** olan **Kiyev dövləti** (882-ci ildə) meydana gəldi. Kiyev dövləti bir müddət xəzərlərdən asılı vəziyyətdə olmuşdur.
- **X əsrin əvvəllərində** Qərb slavyanların ilk dövləti olan **Çexiya dövləti** meydana gəldi. Çexiya dövlətinin ərazisi ticarət yollarının üzərində yerləşdiyi üçün bu dövlətin inkişafına müsbət təsir göstərdi və paytaxtı **Praqa şəhəri** Avropanın ən böyük şəhərlərindən birinə çevrildi.
- **X əsrin ortalarında Polşa dövləti** meydana gəldi. Knyaz **İgid Beloslav (I Beloslav)** dövründə bütün Polşa torpaqları birləşdirildi və Polşa dövləti qüvvətləndi.

Slavyanlarda dövlətin meydana gəlməsi ilə eyni vaxtda onlarda yazı da yarandı. **IX əsrdə qədər** isə slavyanların yazısı olmamışdı.

### Kiyev dövlətinin müstəqil knyazlıqlara parçalanması

**XI əsrin sonu – XII əsrin əvvəllərində** ***geniş əraziyə malik olan, lakin daxildən möhkəm olmayan*** Kiyev dövlətində:

- ✓ Natural təsərrüfatın hökm sürdüyü bölgələr arasında iqtisadi əlaqələr zəif idi.
- ✓ ***Feodal dağınıqlığı şəraitində*** çox böyük torpağa sahib olan knyazlar meydana gəlirdi.
- ✓ Şəhərlər feodal torpağında salınır və onun xüsusi mülkiyyətinə daxil edilirdi.
- ✓ Şəhərlər dövlətə tabeçilikdən boyun qaçırır, öz knyazlıqlarını yaradırdılar.

Geniş əraziyə malik olsada möhkəm deyildi | Natural təsərrüfat hökm sürürdü | Bölgələr arasında iqtisadi əlaqələr zəifləmişdi

***Kiyev dövləti XI əsrin sonu – XII əsrin əvvəllərində***

Ərazisində müstəqil knyazlıqlar yaranmışdı | Feodal dağınıqlığı dövrü keçirirdi | Şəhərlər öz knyazlıqlarını yaradırdılar

### Rus knyazlıqlarının monqol əsarətinə düşməsi

Kiyev dövləti parçalandıqdan sonra onun ərazisində müstəqil knyazlıqlar - ***feodal respublikaları*** meydana gəldi. Ölkənin parçalanmasından istifadə edən monqollar **XIII əsrdə (1237-1240-cı illərdə)** rus torpaqlarına hücum etdilər. Monqol hücumlarının nəticəsi olaraq **monqollar rus knyazlıqlarını işğal etməsə də, onları özlərindən vassal asılılığına saldılar.** Monqol yürüşləri nəticəsində:

- ➢ Şəhərlər xeyli ziyan çəkdi, ***sənətkarlıq və ticarət zəiflədi.***
- ➢ Rus knyazlıqları Qızıl Ordu dövlətinin vassal asılılığına düşdülər (1240-1480-ci illərində).

Xərac almaqla kifayətlənən Qızıl Ordu xanları **XIV əsrin ikinci yarısından başlayaraq** Rus torpaqlarına yürüşlər etmədilər. Qızıl Ordu xanlarının rus torpaqlarına hücumlarının kəsilməsi nəticəsində:

- ✓ Şəhər həyatında yenidən canlanma baş verdi.
- ✓ Rus şəhərlərinin ticarət həyatı bərpa olundu.
- ✓ Moskva şəhəri iri sənətkarlıq mərkəzinə çevrildi.
- ✓ Rus knyazlıqları Qızıl Orduya vaxtlı-vaxtında xəracı ödəmədilər.

Bu amillər Rus torpaqlarının vahid dövlətdə birləşməsi üçün şərait yaratdı.




*Rus knyazlıqları*

***Rus torpaqlarının vahid dövlətdə birləşməsinə şərait yaradan amillər***

Təsərrüfatın inkişafı | Şəhərlər arasında iqtisadi əlaqələrin yaranması | Ticarət əlaqələrinin canlanması

### III İvanın hakimiyyəti dövrü (1462-1505)



*III İvan*

Moskva knyazı **III İvanın** hakimiyyəti dövründə:

- ✓ Rus torpaqlarının ***Moskva knyazlığı ətrafında*** birləşdirilməsi sürətlə davam etdi.
- ✓ Moskva knyazlığı ***işğal yolu ilə*** ərazisini genişləndirmək siyasəti yeritdi.
- ✓ Rus knyazlıqları öz müstəqilliklərini itirdi.
- ✓ ***Mərkəzləşdirilmiş Rus dövləti*** yarandı.
- ✓ Rus dövlətində təhkimçilik hüququ bərqərar olurdu.

***QEYD:*** III İvan tərəfindən Rusiyada təhkimçilik hüququnun təsdiq edilməsi haqqında fərman verildi. Təhkimçilik hüququ haqqında fərmana əsasən ***kəndli artıq boyar torpağını tərk edib gedə bilməzdi. Onun bütün hüququ boyarda idi.*** Bu, kəndlilərin boyarlardan (feodallardan) tam asılı hala salınması demək idi.

### IV İvan Qroznunun hakimiyyəti dövrü (1533-1584)



*IV İvan*

Qəddarlığı ilə məşhur olan çar IV İvan Qroznu hakimiyyəti dövründə:

- ✓ Boyarlara ağır zərbə vuraraq ***yeni qaydalar*** tətbiq etdi. Yeni qaydalar mərkəzi hakimiyyət əleyhinə olan boyar qüvvələrini ləğv etmək məqsədi güdürdü.
- ✓ **XVI əsrin 50-ci illərində Qazan** və **Həştərxan xanlıqları** Rusiyaya tabe edildi.
- ✓ **XVI əsrin sonlarında Sibir torpaqları** Rusiyanın tərkibinə qatıldı.
- ✓ Rusiya böyük imperiyaya çevrildi.

## Orta əsr şəhərləri. Sənətkarlıq və ticarət

### Erkən orta əsr şəhərlərinin meydana gəlməsi

Şərqdən fərqli olaraq, Avropada feodal münasibətləri nisbətən gec yarandı. Buna baxmayaraq, Qərbdə bu münasibətlər daha sürətlə inkişaf etdi. Bu inkişafın nəticəsi olaraq, Avropada şəhərlər meydana gəldi.

Avropada sənətin kənd təsərrüfatından ayrılması nəticəsində ***şəhərlər meydana gəldi.*** Avropada Erkən orta əsr şəhərləri özünəməxsus xüsusiyyətlərə malik idi. Həmin xüsusiyyətlər aşağıdakılar idi:

- ✓ Əsasən ***feodalların torpağında*** salınır, ərazisi az olduğu üçün evlər iki-üç mərtəbə tikilirdi.
- ✓ ***Sənətkarlıq*** və ***ticarət mərkəzi*** idi, əhalisi əsasən ***sənətkarlıq*** və ***ticarətlə*** məşğul olurdu.
- ✓ Şərq şəhərlərindən fərqli olaraq ***su kəməri*** və ***kanalizasiya sistemi*** yox idi.
- ✓ Şəhərin mərkəzində ***bazar meydanı, baş kilsə*** və ***şəhər şurasının binası*** yerləşirdi.
- ✓ Şəhərlərdə ən geniş yer ***bazar meydanı*** idi.
- ✓ Hər biri ***qala divarları ilə*** əhatə olunurdu.
- ✓ Qala divarlarından xaricdə əkin sahələri, bağ və bostanlar, otlaqlar yerləşirdi.

Bu xüsusiyyətlər şəhərləri kənddən fərqləndirən əsas cəhətlər idi.



*Orta əsr Avropa şəhərinin ümumi görünüşü*

### Şəhərlərin senyorlara qarşı mübarizəsi

Avropa şəhərlərində sənətkarlıq və ticarətin inkişafına aşağıdakı amillər mane olurdu:

- **Ağır feodal zülmü.**
- **Senyorların özbaşınalığı.**

Şəhərlər ***feodalların torpağında*** salındığı üçün feodallar buna görə şəhər əhalisindən vergi toplayırdı. Bu cür feodallara ***senyor*** deyirdilər. Avropa ölkələrində şəhərlər ***feodal senyorlara qarşı*** mübarizə aparırdılar. Şəhərlilərin senyorlara qarşı apardığı mübarizə nəticəsində:

- ✓ Şəhərlilərin bir qismi azad olaraq ***özünüidarə*** orqanları yaratdılar.
- ✓ Digərləri isə ödənc verməklə azadlıq qazandılar.

***Şəhərlilərin senyorların ağalığından azad olması nəticəsində şəhərlər daha inkişaf etməyə başladı.***

### Sənətkarlıq

Orta əsr şəhərlərində əl əməyinə əsaslanan ***xırda sənaye istehsalı – sənətkarlıq*** adlanırdı. Şəhərlərdə ilk sənətkarlıq müəssisəsi olan ***emalatxanalar*** yaranmışdı. Şəhərdə malların əksəriyyəti ***sənətkar emalatxanalarında*** hazırlanırdı. Sənətkar emalatxanasına ***aiddir:***

- ✓ *Şəhərlərdə satılan müxtəlif malların hamısı burada hazırlanırdı.*
- ✓ *Bütün işlər sadə alətlərin köməyi ilə* ***əllə*** *görülürdü*
- ✓ *Emalatxanada əsas işçi onun sahibkarı* **usta** *(səntkarın özü) idi.*
- ✓ *Emalatxanadan dükan kimi də istifadə olunurdu.*

Sənətkarların hazırladıqları mallara ehtiyac çox idi. Sənətkarlar kənddən çıxıb başqa yerlərə gedirdilər. Sənətkarların başqa yerlərə getməsinin səbəbi əsasən aşağıdakı amillərlə bağlı idi:

- ➢ *Hazırladıqları məhsulları satmaq.*
- ➢ *Feodal zülmündən xilas olmaq.*

Hazırladıqları məhsulları satmaq və feodal zülmündən xilas olmaq üçün sənətkarlar əsasən aşağıdakı ərazilərdə məskən salırdılar:

- ➢ *Böyük monastrların və iri feodal qəsrlərinin divarları yanında.*
- ➢ *Qədim Roma qalalarının xarabalıqları içərisində.*
- ➢ *Çay bərələrinin yanında, dəniz limanları yaxınlığında.*
- ➢ *Yolların kəsişdiyi yerlərdə.*

Sənətkarların bu ərazilərdəki məskənlərinə Şərq ölkələrindən tacirlər gəlirdilər. Onlar nadir şərq malları ilə bərabər, ***dəmir, duz, dəri*** və ***yun*** gətirir, özlərinə lazım olan malları isə alıb aparırdılar.



*Orta əsr sənətkarlıq emalatxanası*

### Ticarət

Ticarət şəhərlilərə böyük gəlir gətirirdi. Avropalılar ***Aralıq dənizi vasitəsilə*** **Suriya** və **Misirlə**, ***Qara dəniz vasitəsilə*** **Krım** və **Qafqazla** ticarət əlaqələri saxlayırdılar. Venesiya və Genuya tacirlərinin ən geniş əlaqə saxladığı ölkələrdən biri **Azərbaycan** idi. Avropada ən qızğın ticarət yerləri ***yarmarkalar*** idi. **XIII əsrdə** Avropada ən məşhur yarmarka Fransanın ***Şampan şəhərindəki*** yarmarka idi.

**IX əsrdə İtaliyada** və **Fransanın** cənubunda ticarət və sənətkarlıq mərkəzləri olan şəhərlər yenidən dirçəldi. Əvvəllər Şərqlə Qərb arasında gedən ticarətdə başlıca yeri **Bizans** tuturdu. Lakin Səlib yürüşləri nəticəsində Şərqlə Qərb arasında gedən ticarətdə üstünlük İtaliyanın **Venesiya** və **Genuya** şəhərlərindən olan tacirlərin əlinə keçdi. Tacirlər uzaq ölkələrə gedərkən yollarda soyğunçular, dənizdə isə dəniz quldurları tərəfindən qarət edilirdilər. Odur ki, tacirlər soyğunçulardan qorunmaq üçün ***tacir birlikləri*** yaradırdılar.

# Xristian kilsəsi XI-XIII Orta əsrlər dövründə

## Xristian kilsəsinin parçalanması

Roma imperiyası parçalandıqdan sonra Qərbi Avropada kilsənin başçısı Roma Papası, Şərq kilsəsinin başçısı isə Konstantinopol patriarxı oldu. Bu vaxtdan etibarən Roma papası ilə patriarx arasında mübarizə gedirdi. Bu mübarizənin əsasən iki səbəbi var idi:

1. ***Papa və patriarxın xristian kilsəsinə ağalıq etmək istəyi.***
2. ***Papa və patriarxın kilsənin gəlirlərini bölüşdürmək uğrunda mübarizəsi.***

Bu səbəblər **1054-cü ildə** xristian kilsəsinin parçalanmasına səbəb oldu. Beləliklə, **1054-cü ildə** xristian kilsəsi iki hissəyə parçalandı:

- **Qərb kilsəsi - *Katolik kilsəsi (ümumdünya kilsəsi)*** adlanırdı.
- **Şərq kilsəsi - *Pravoslav (həqiqi din) kilsəsi*** adlanırdı.



III İnnoketi və vassalları

## Kilsənin qüdrətinin artması

Orta əsrlər dövründə çoxlu feodal mülklərinə parçalanan Qərbi Avropada ***Katolik kilsəsi*** yeganə mütəşəkkil qüvvə və ***ən böyük torpaq sahibi*** idi. Feodal dağınıqlığı dövründə İtaliyada Roma papasının başçılıq etdiyi **Papa vilayəti adlanan** dövlət var idi. Avropa krallarını özünə tabe etmək istəyi Roma Papası ilə hökmdarlar arasında tez-tez münaqişələrin baş verməsinə səbəb olurdu.

Roma papalarının ən qüdrətli dövrü **III İnnokenti (1198-1216)** zamanında olmuşdu. Təntənəli qəbullar zamanı hamı onun qarşısında diz çökməli, ayağını öpməli idi. **İngiltərə, Polşa, İsveç** və **Danimarka** dövlətləri ***Roma papasının vassalı*** idilər.

Beləliklə, Orta əsrlər dövründə katolik kilsəsi:

- ✓ *Qərbi Avropada ən böyük torpaq sahibi idi.*
- ✓ *Xeyli torpaqları və gəlir mənbələri var idi.*

Bu amillər papa hakimiyyətinin güclənməsinə səbəb olmuşdu.

***Orta əsrlər dövründə Roma papasının vassalı olan dövlətlər***

| **İngiltərə** | **İsveç** | **Danimarka** | **Polşa** |
| --- | --- | --- | --- |



19 dekabr, 1521-ci il tarixinə aid indulgensiya alınması barədə şəhadətnamə

## Kilsəsinin gəlir mənbələri

Qərbi Avropanın bütün ölkələrindən Romaya, papa xəzinəsinə çoxlu sərvət axıb gəlirdi. Katolik kilsəsinin əsas gəlir mənbələri əsasən aşağıdakılar idi:

- *Kilsə torpaqlarından alınan vergilər.*
- *Bütün Qərbi Avropa əhalisindən kilsə üçün alınan 1/10 vergisi.*
- *Günahların bağışlanması haqqında Roma papasının fərmanları.*
- *Dindarların dini mərasimləri icra etdiyi üçün əhalidən alınan haqq (kəbin kəsməyə, uşaqları xaç suyuna salmağa görə alınan pullar).*

Qərbi Avropa əhalisindən 1/10 vergisinin alınmasında əsas məqsəd ***ruhaniləri və məbədləri saxlamaq*** idi "Günahların bağışlanması haqqında kilsə fərmanı" ***indulgensiya*** adlanırdı. ***İndulgensiya - cənnət qəbzi*** deməkdir. Guya kim bu fərmanı alsa, Allah onun bütün günahlarını bağışlayar və cənnətə gedər.

### Kilsənin bidətçilərə qarşı mübarizəsi

Katolik kilsəsinin güclü olmasına baxmayaraq ***şəhərlilər*** və ***kəndlilər*** arasında kilsənin təliminə qarşı çıxanlar var idi. Kilsə təliminə qarşı çıxanları ruhanilər tərəfindən ***bidətçi (dinindən dönən, dönük)*** adlandırırdılar. Bidətçilər ***papaya qarşı çıxır***, adamları ***kilsəyə, Roma papasına vergi verməməyə*** çağırırdılar. XI-XIII əsrlərdə bidətçilər kilsədən aşağıdakıları tələb edirdi:

- *Kilsə mərasimlərini və 1/10 vergisini ləğv etməyi.*
- *Ruhanilərin öz torpaq mülklərindən və var-dövlətlərindən əl çəkmələrini.*

Lakin kilsə bu tələbləri nəinki yerinə yetirmədi, əksinə bidətçilərə qarşı aşağıdakı tədbirləri həyata keçirdi:

- *Bidətçilərin çox olduğu vilayətlərə hərbi yürüşlər təşkil etdi.*
- *Onları kafir elan edərək kilsə məhkəməsi (inkvizisiya) qurdurdu.*

İnkvizisiya məhkəməsi bidətçiləri çox halda ***tonqalda yandırma*** cəzasına məhkum edirdi.



*İnkvizisiya (Kilsə məhkəməsi)*



*Autodofe (tonqalda yandırma)*



# Səlibçilərin Şərqə işğalçı yürüşləri

## Klermon Kilsə Məclisinin çağırılması (1095)

Xaç yürüşləri orta əsrlər tarixində mühüm yer tutan Səlib yürüşlərində ***katolik kilsəsinin*** böyük rolu olmuşdu. **1095-ci ildə** Fransanın **Klermo şəhəri** yaxınlığında ***xalq yığıncağında*** Roma papası **II Urban** nitq söylədi. Qurultayda çıxışında Roma papası **II Urban** ***xristianları Şərq ölkələrinə yürüş edib, səlcuqların hakimiyyəti altında olan "İsanın qəbrini kafirlərdən xilas etməyə"*** çağırdı. Xristian rəvayətinə görə, İsa peyğəmbər Fələstində Qüds şəhərində (Yerusəlimdə) dəfn olunmuşdu. Çoxları elə oradaca «müqəddəs torpağı» azad etməyə hazır olduqlarını bildirdilər və bunu nümayiş etdirmək üçün paltarlarına qırmızı parçadan xaç tikdilər. Beləliklə, Şərqə yürüşlərin iştirakçılarını ***xaçlılar (səlibçilər)***, yürüşləri isə ***Xaç (Səlib) yürüşləri*** adlandırmağa başladılar.



*II Urban*



*Klermon Kilsə Məclisi*

## Səlib yürüşlərinin səbəbləri

Xaç yürüşlərində iştirak edən avropalıların hər bininin öz məqsədi var idi:

- **Roma Papası** - *Şərq ölkələrini xristianlaşdırmaq* istəyirdi.
- **Feodallar** - *yeni torpaq mülkləri ələ keçirmək, Şərqin zəngin şəhərlərini qarət etmək istəyirdilər.*
- **Kəndlilər** - *ağalarından yaxa qurtarmaq, dolanışıqlarını yaxşılaşdırmaq istəyirdilər.*

Beləliklə avropalıların Şərqə yürüşlərinin - Səlib müharibələrinin səbəblərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- ✓ *Feodalların yeni torpaqlar və asılı kəndlilər ələ keçirmək istəyi.*
- ✓ *Kəndlilərin öz ağalarının əlindən qurtarmaq istəyi.*
- ✓ *Roma papasının Şərq ölkələrini asılı hala salmaq və yeni torpaqlar ələ keçirmək istəyi.*

Avropada ***feodallar*** və ***ruhanilər*** belə güman edirdilər ki, Səlcuq imperiyası ayrı-ayrı hissələrə parçalandığı üçün Şərq ölkələrini ələ keçirmək çox asan olacaqdır. Odur ki, onlar səlib yürüşlərinə başladılar.




*Xaç yürüşləri nəticəsində yaranmış dövlətlərin xəritəsi. Qüds krallığı*

## Birinci səlib yürüşü (1096)

**XI-XIII əsrlərdə** səlibçilər Şərqdə - türk-müsəlman ölkələrində kütləvi qırğınlara və dağıntılara yol açan ***səkkiz yürüş*** etdilər. Birinci səlib yürüşünə **1096-ilin yazında** ilk olaraq ***kəndlilər*** başladılar. Lakin Səlcuqlar səlibçiləri darmadağın etdilər. **1096-cı ilin payızında** isə **Fransa, Almaniya** və **İtaliya** cəngavərləri Şərqə doğru hərəkət etdilər. Birinci səlib yürüşü nəticəsində Avropa səlibçiləri:

- ✓ *Səlibçilər səlcuqları məğlub edərək Qüdsdə müsəlman əhalisinə qarşı kütləvi qırğınlar törətdilər.*
- ✓ ***Suriya*** *və* ***Fələstinin Aralıq dənizi sahillərində*** *səlibçilər tərəfindən* ***Qüds krallığı (1099-1187)*** *adlı dövlət yaradıldı.*

**Birinci səlib yürüşünün iştirakçıları**

- **Kəndlilər**
- **Feodallar**

### İkinci səlib yürüşü (1147)

Qərb feodalları **1147-ci ildə** ikinci səlib yürüşünə başladılar. Lakin, ikinci Səlib yürüşü uğursuz oldu. Belə ki, ikinci səlib yürüşü nəticəsində Misir hökmdarı **Səlahəddin Əyyubi** səlibçi qoşunlarını məğlub edərək onları **Qüdsdən** qovdu.



*Xaçlıların Qüds şəhərinə hücumu (qədim minüatür)*

### Üçüncü səlib yürüşü (1190)

**1190-cı ildə** Qərb feodalları üçüncu səlib yürüşünə başladılar. Üçüncü səlib yürüşündə məqsəd ***«müqəddəs şəhəri» - Qüds şəhərini geri qaytarmaq*** idi. Üçüncü səlib yürüşünə **İngiltərə, Fransa** və **Almaniya kralları** başçılıq edirdi. Lakin üçüncü xaç yürüşü də ikinci yürüş kimi ***uğursuzluqla*** nəticələndi.






*Səlahəddin Əyyubi xaçlılarla döyüşdən sonra*

### Dördüncü səlib yürüşü (1199-1204)

**XII əsrin sonlarında** səlibçilər dördüncü səlib yürüşünə başladılar. Dördüncü səlib yürüşünü ona başçılıq edən **Roma Papası III İnnokenti** təşkil etmişdi. Digər səlib yürüşlərindən ***fərqli olaraq*** bu yürüşdə səlibçilər ***quru yolları ilə hərəkət etmək çətin olduğundan*** Fələstinə gəmi vasitəsilə ***dəniz yolu ilə*** yürüş etdilər. Bu məqsədlə səlibçilər o dövrdə ***«dəniz kraliçası»*** hesab olunan Venesiyadan kirayəyə gəmilər aldılar. Bu dövrdə Şərq ölkələri ilə ticarətdə vasitəçilik etmək üçün Venesiya ilə Bizans arasında mübarizə gedirdi. Odur ki, venesiyalılar Bizansa zərbə vurmaq üçün səlibçilərə kömək edərək onları bura yönəltdilər. Dördüncü Səlib yürüşü nəticəsində səlibçilər:



*Xaçlıların dəniz yolu ilə hücumunu təsvir edən qədim miniatür*

- **1204-cü ildə Konstantinopolu** tutaraq dağıtdılar.
- **Müqəddəs Sofiya kilsəsi** qarət olundu.

Bu hadisədən sonra Bizans ticarətdə Venesiya və Genuya ilə rəqabət apara bilmədi. Səlibçilər Bizansın paytaxtı olan Konstantinopoldan yalnız 57 il sonra, **1261-ci ildə** qovuldular. Səlibçilərin ***qarətçilik və işğalçılıq məqsədləri*** dördüncü səlib yürüşündə özünü daha aydın göstərdi.

**XIII əsrin sonlarında,** səkkizinci səlib yürüşü nəticəsində ***səlibçilər müsəlman ölkələrində işğal etdikləri topraqlardan*** tamamilə qovulub çıxarıldılar və burada işğal etdiyi bütün torpaqları itirdilər.



*1204-cü ildə xaçlı ordusunun Konstantinopola hücumu*

### Səlib yürüşlərinin nəticələri

**XI əsrin sonlarından – XIII əsrin sonlarına qədər** səlibçilərin Şərqdə apadığı qədbkarlıq müharibəsi – səlib yürüşləri onların məğlubiyyəti ilə başa çatdı. Qərb feodalları Şərq ölkələrini işğal etmək məqsədlərinə çata bilmədilər. Bununla belə Səlib yürüşlərinin ***avropalılar ünün*** bir sıra nəticələri oldu:

- ✓ *Aralıq dənizində ticarətdə birincilik Bizansdan Genuya və Venesiya şəhərlərinə keçdi.*
- ✓ *Bizans ticarətdə Venesiya və Genuya ilə rəqabət apara bilmədi.*
- ✓ *İtaliya tacirlərinin Şərq ölkələrində ( Suriya, Fələstin, Krım və Qafqazda) ticarət məskənləri yarandı.*
- ✓ *O dövrki katolik kilsəsinin iç üzünü açıb göstərdi və Papa hakimiyyətinin nüfuzu sarsıldı.*

Bunlardan başqa səlib yürüşləri zamamı avropalılar Şərqdən aşağıdakılar öyrəndilər:

- ✓ *Avropalılar kağız, barıt və kompasla tanış oldular.*
- ✓ *Yeni kənd təsərrüfatı bitkilərini əkib becərməyi öyrəndilər*
- ✓ *Avropada çəltik, qarabaşaq, limon, ərik, qarpız becərilməsinə başlanıldı.*
- ✓ *Yel dəyirmanından istifadə etməyi öyrəndilər.*
- ✓ *İpək parçalar toxumağı, güzgü istehsal etməyi öyrəndilər..*
- ✓ *Onların qida məhsulları sırasına şəkər də daxil oldu.*

Xaç yürüşlərinin Şərq üçün isə aşağıdakı nəticələri oldu:

- ✓ *Şərq böyük dağıntılara maruz qaldı, inkişaf etmiş şəhərlər dağıdıldı.*
- ✓ *Xaç yürüşlərinə məruz qalmış ölkələrdə mədəniyyət tənəzzül etdi.*
- ✓ *Minlərlə türk-müsəlman əhali kütləvi surətdə qırılıb məhv edildi.*
- ✓ *Bir çox Şərq ölkələri bundan sonra uzun müddət özünə gələ bilmədi.*







| *Yürüşlər* | *Nəticəsi* |
|---|---|
| Birinci səlib yürüşü (1096-1099) | Səlibçilər Kiçik Asiyada səlcuqları məğlub edərək Qüdsdə müsəlman qırğını törətdilər və Qüds krallığını yaratdılar. |
| İkinci səlib yürüşü (1147) | Səlibçilər Misir hökmdarı Səlahəddin Əyyubi tərəfindən məğlub edilərək Qüdsdən qovuldular. |
| Üçüncü səlib yürüşü (1190) | Müqəddəs şəhri geri qaytarmaq uğursuzluqla nəticələndi. |
| Dördüncü səlib yürüşü (1199-1204) | Bizansın paytaxtı Konstantinopol tutuldu və Müqəddəs Sofiya kilsəsi qarət olundu. |
| Səkkizinci səlib yürüşü (XIII əsrin sonları) | Səlibçilər müsəlman ölkələrində işğal etdikləri topraqlardan tamamilə qovuldular. |

# İspaniya




## İspaniya Klassik feodalizmə keçid dövründə

**VIII əsrdə** ərəblər qalibiyyətli yürüşlər nəticəsində **Pireney yarımadasını** tutaraq burada **Kordova ərəb xilafətini** yaratdılar.

Ərəb İspaniyasında ***keçmiş Roma əyalətlərinin sakinlərinin nəsilləri, vesqolar, ərəblər, bərbərlər və yəhudilər*** birgə yaşayırdılar. Müsəlmanlar ərəb İspaniyasını ***Əndəlus*** adlandırırdılar. Klassik feodalizmə keçid dövründə **müsəlman İspaniyası** Avropanın çiçəklənən hissəsi idi. **XI-XV əsrlərdə** müsəlman İspaniyasına **(**Əndəlusa**)** ***aiddir:***

- ✓ İspaniyanın cənubunda tarixi vilayət idi.
- ✓ Əkinçilik, sənətkarlıq inkişaf etmişdi.
- ✓ Ərəblər buraya xurma, çəltik, şəkər qamışı, nar, tut və s. gətirmişdilər.
- ✓ Ərəblər vətənlərində olduğu kimi, burada da ***uzunyunlu qoyun cinsləri*** yetişdirirdilər.
- ✓ İqtisadi inkişafında ***filiz çıxarılması, ipək, mahud, kağız silah və şüşə istehsalı*** mühüm rol oynayırdı.
- ✓ Paytaxt şəhəri olan Kordova ***mədəniyyət*** və ***elm mərkəzi*** idi.
- ✓ Güclü ticarət donanması sayəsində **Afrika, Abbasilər xilafəti, İtaliya** və **Bizansla** ticarət əlaqələri saxlayırdı.
- ✓ Ərəb tacirləri tərəfindən burada istehsal edilən sənətkarlıq mallarını **Hindistana** və **Mərkəzi Asiyaya** aparırdı.
- ✓ Mədəniyyət yüksək inkişaf etmişdi. Seviliyada **Əlkəsar saray-qalası** (XII əsr) və Qranada hakimlərinin **Əlhambra sarayı** - Qırmızı saray (XIII-XV əsrlər) kimi müsəlman memarlığının ən gözəl nümunələri yaradılmışdı.
- ✓




*UNESCO-nun Ümumdünya irsi - Əlhambra sarayı*






***Bilmək maraqlıdı...***

VIII əsrin əvvəllərində (711-ci ildə) Əməvi xəlifəsi I Vəlidin dövründə sərkərdə Tariq bin Ziyadın başçılıq etdiyi İslam ordusu dörd gəmi ilə daha sonralar öz adı ilə adlanan Cəbəllütariq boğazını keçərək Əndəlusa daxil oldu. Tariq bin Ziyad cəmi 7000 mücahid ilə yola çıxmışdı. O, İspaniya sahillərinə çıxar-çıxmaz gəldikləri gəmiləri yandırmaq əmri verir və bu tarixi sözlərini söyləyir: *"Ey Mücahid qardaşlarım! Görürsünüz ki, arxanızda düşmən kimi dəniz, önünüzdə isə dəniz kimi düşmən var. Hara qaçacaqsınız? Sizin üçün yalnız sədaqət və səbr qalmışdır. Geriyə dönüş yoxdur. Düşmənin silahı, təchizatı və ərzağı boldur. Sizin isə silah olaraq ancaq qılınclarınız, ərzaq olaraq isə düşmənin əlindən alıb sahib olabiləcəkləriniz vardır".*

Bu sözlərdən sonra heç bir çıxış yolunun qalmadığını başa düşən ərəb döyüşçüləri qəhrəmanlıqları və şücaəti sayəsində onlardan xeyli çox olan ispan ordusunu məğlub etdi və İspaniyanı fəth edib Avropanın cənubunda İslam xilafəti - Kordova xilafətinin əsasını qoydular.

### Xristian kilsəsinin Avropada müsəlmanlara qarşı Xaç yürüşü

Əndəlusda ***müsəlman xilafətinin zəifləməsindən*** istifadə edən **xristian kilsəsi** onlara qarşı ***rekonkista*** hərəkatını genişləndirdi. ***Əndəlusun müsəlman əhalisinin Pireney yarımadasından zorla sıxışdırılması rekonkista*** adlanırdı. **Roma papası** Əndəlüsdəki müsəlmanlara qarşı səlib müharibəsi elan etmişdi. Odur ki Rekonkista hərəkatında Pireneyin yerli ***xristian əhalisi*** ilə yanaşı, ***fransızlar*** və ***italyanlar*** da iştirak edirdilər. ***Rekonkista*** gedişində:

- **Xristian kilsəsi** Pireney yarımadasının bütün xristian əhalisini müsəlmanlara qarşı qaldırdı.
- Kordova xilafəti bir neçə müstəqil əmiriliyə parçalandı.
- Səlibçilər daxili müharibələrdə zəifləmiş müsəlman əmirləri üzərində asanlıqla qələbə çaldılar.
- Səlibçilər Şərqdə olduğu kimi, burada da dinc müsəlman əhaliyə qarşı kütləvi qırğınlar həyata keçirdilər.
- Pireney yarımadasının ***simalında*** **Kastiliya, Araqon, Navarra** və ***qərbində*** **Portuqaliya** krallıqları yarandı.
- **XIV əsrdə** İspaniyada müsəlmanların əlində yalnız İspaniyanın ən varlı vilayəti olan **Qranada əmirliyi** qaldı.

***Rekonkista gedişində Pireney yarımadasında yaranmış krallıqlar***

**Kastiliya** | **Araqon** | **Navarra**

### İspaniya dövlətinin yaranması (1479)

**1479-cu ildə Kastiliya** və **Araqon krallıqlarının** vahid İspaniya dövlətində birləşdirilməsi ilə mərkəzləşmiş İspaniya dövləti yarandı. Pireney yarımadasının ***simalında yerləşən*** **Navarra** krallığı isə **İspaniya** və **Fransa** arasında bölüşdürüldü.

**XIV əsrdə** Pireney yarımadasında müsəlmanların əlində yalnız **Qranada əmirliyi** qalmışdı. Mərkəzləşdirilmiş dövlətin yaradılması xristianlara müsəlmanlar üzərinə qəti hücuma keçmək üçün imkan yaratdı. **1492-ci ildə** İspaniya ordusunun **Qranadanı** işğal etməsi ilə Qranada müsəlman əmirliyi süqut etdi. Qranada əmirliyinin süqutu ilə Portuqaliyadan başqa, bütün Pireney yarımadası İspaniyanın əlinə keçdi.





***Kral Ferdinand və kraliça İzabella***

*1479-cu ildə Araqon kralı II Ferdinandın Kastiliya kraliçası İzabella ilə evlənməsi nəticəsində Kastiliya ilə Araqon krallığı birləşdirildi. Beləliklə vahid İspaniya dövləti yarandı. Bundan sonra onlar dövləti birlikdə idarə etməyə başladılar.*

**İspaniya krallığı XIV-XV əsrlərdə**

- 1479-cu ildə yaradılmışdı, mərkəzləşmiş dövlət idi
- Kastiliya və Araqon krallıqlarının birləşməsi nəticəsində yaranmışdı
- Portuqaliyadan başqa bütün Piriney yarımadasını ələ keçirmişdi
- Navarra krallığını Fransa ilə bölüşdürmüşdü
- Qranada əmirliyini işğal edərək onun varlığına son qoymuşdu
- Fransa və İngiltərə kimi silki monarxiya idi

# İtaliya




## İtaliyada ilk şəhər respublikaların yaranması

Fransa və İngiltərədən fərqli olaraq klassik feodalizm dövründə İtaliyanın birləşdirilməsi başa çatmadı. İtaliyada ***mərkəzləşmiş dövlət olmadığı üçün*** şəhərlərin bütün iqtisadi və siyasi həyatı ***senyorların*** nəzarəti altında idi. **X-XI əsrlərdə** İtaliya şəhərləri ***senyorlara qarşı*** mübarizə aparırdılar. Senyorlara qarşı mübarizə nəticəsində İtaliyanın **Milan, Boloniya, Piza** kimi varlı şəhərləri ***güclənərək*** tədricən ətraf əraziləri də öz tərkiblərinə daxil edərək müstəqil ***şəhər dövlətlərinə və ya respublikalara*** çevrildilər.

**XV əsrdə** İtaliyanın **Florensiya, Milan, Bolonya** şəhərlərində də ayrı-ayrı ***varlı ailələr*** hakimiyyəti ələ keçirdilər.

***X-XI əsrlərdə İtaliyada özünüidarə hüququ əldə etmiş şəhərlər***

**Milan** | **Piza** | **Boloniya** | **Florensiya**

***XV əsrdə İtaliyada varlıların tiranlıq idarə üsulu yaratmış şəhərlər***

## Florensiya şəhər respublikası

Klassik feodalizm dövründə İtaliyanın ***ən böyük və varlı şəhərlərindən biri*** **Florensiya** idi. Bu şəhərdə **XIV əsrin 30-cu illərində** çoxlu sayda ***ilkin kapitalist müəssisəsi*** olan ***mahud emalatxanaları*** var idi. Bu emalatxanalarda ***muzdlu əmək*** də tətbiq edilirdi.

**XV əsrdə** İtaliyanın **Milan, Bolonya** şəhərlərində olduğu kimi **Florensiyada** da, də ayrı-ayrı ***varlı ailələr*** hakimiyyəti ələ keçirdilər. Bu dövrdə Florensiyada hakimiyyət ***varlı ticarətçi və bankir olan Mediçilər ailəsinin*** əlində idi. Mediçilər Florensiyada hakimiyyətdə olduğu dövrdə:

- ✓ *Yoxsullara kiçik miqdarda pul yardımı etdilər.*
- ✓ *Şəhərin geniş təbəqələrinin vergi yükünü yüngülləşdirdilər.*
- ✓ *Şəhərdə çoxlu tikinti işləri araraq çoxsaylı sənətkarların orada işləmələrinə şərait yaratdılar.*



*Florensiya şəhər respublikasının bayrağı və gerbi*

## Venesiya şəhər respublikası. Şərqlə ticarət

**XV əsrin ortalarında** Venesiya respublikası ***Avropanın ən qüdrətli dəniz dövlətlərindən*** biri idi.



*Venesiya şəhər respublikasının bayrağı və gerbi*

Venesiya respublikasına ***aiddir:***

- ✓ Orta əsr mənbələrində ***"dəniz kraliçası"*** adlanırdı.
- ✓ Bütün ***Aralıq dənizi hövzəsi*** və ***Şərq ölkələri ilə*** aparılan ticarətdə hakim mövqe tuturdu.
- ✓ Mənfəətinin əsas mənbəyi ***Şərqlə ticarətdə vasitəçilik*** təşkil edirdi.
- ✓ ***Egey dənizi hövzəsində*** və ***Konstantinopolda*** ticarət məntəqələri var idi.
- ✓ **XIV əsrdə** ticarətdə yeganə rəqibi olan **Genuyanı** Şərqlə ticarətdə vasitəçilikdən sıxışdırıb çıxartmışdı.
- ✓ Avropaya **Çindən, Hindistandan, Yaxın** və **Orta Şərqdən, Azərbaycandan** müxtəlif mallar gətirirdilər.
- ✓ Tacirləri Qara dəniz bazarlarında, xüsusilə **Trabzonda** Azərbaycan tacirləri ilə görüşürdülər.
- ✓ Toxuculuq müəssisələrini ***xam ipəklə*** Azərbaycan təmin edirdi.

- Sənətkarlarının ***bəzək əşyaları,*** xüsusilə ***güzgüləri*** bütün Şərqdə şöhrət qazanmışdı.
- Şərqdən gətirilən ***xam ipək, pambıq*** və ***yun*** burada toxunularaq Avropa ölkələrinə satılırdı.
- **XV əsrdə** Avropada ***toxuculuq sənayesi*** tənəzzül etdiyi halda həmin sahə burada inkişaf etməkdə idi.
- **XII əsrdə** burada ***şüşə*** və ***bədii şüşə, güzgü istehsalı*** genişləndi.
- **XII əsrdə** ***veksel*** və ***çek sistemi*** tətbiq olundu.
- Geniş xarici ticarət əlaqələri respublikanın pul sisteminə ciddi təsir göstərdi.
- **1156-cı ildə** ***Avropada ilk bank*** bu şəhərdə yaradıldı.

| Florensiya şəhər respublikası | Venesiya şəhər respublikası |
|---|---|
| ✓ *Klassik feodalizm dövründə İtaliyanın əv varlı və ən böyük şəhəri idi.*<br>✓ *İlkin kapitalist müəssisəsi olan mahud emalatxanaları var idi.*<br>✓ *Varlı ticarətçi və bankir olan Mediçilər ailəsi hakimiyyətdə olmuşdu.* | ✓ *Avropanın qüdrətli dəniz dövlətlərindən biri idi.*<br>✓ *Dəniz kraliçası adlandırılırdı.*<br>✓ *Əsas gəlir mənbəyi Şərqlə ticarətdə vasitəçilik idi.*<br>✓ *Avropada ilk dövlət bankı burada yaradılmışdı.*<br>✓ *Veksel və çek sistemi tətbiq olunmuşdu.* |



*Venesiya şəhərləri Orta əsrlər dövründə*

# Fransa



Fransa krallığının bayrağı və gerbi




Fransa orta əsrlərdə

### XI əsrdə Fransanın sosila, iqtisadi və siyasi vəziyyəti

Qərbi Avropanın ilk feodal dövləti olan Frank imperiyası 843-cü ildə I Karlın nəvələri arasında bölüşdürüldü. Yeni yaranmış krallıqlar üç böyük Avropa ölkəsinin sələfi oldu. Bunlardan biri **Fransa krallığı (843-1792)** idi. Bu dövrdə Fransada kral hakimiyyəti zəif idi. Bu dövrdə Fransada kral hakimiyyətinin zəif olmasını aşağıdakı amillər də təsdiq edir:

- *Kral bütün ölkə üçün ümumi qanunlar verə bilmirdi.*
- *Kralın bütün ölkə əhalisindən vergi toplamaq hüququ yox idi.*
- *Kralın daimi qoşunu və muzdla işləyən məmurları yox idi.*
- *Kral yalnız öz mülkündən əldə etdiyi gəlir hesabına yaşayırdı.*

***QEYD:*** XI əsrdə Fransa krallığının daimi qoşun və muzdlu dövlət məmurlarını saxlaya bilməməsinin səbəbi kralın ***bütün ölkə əhalisindən vergi toplaya bilməməsi*** idi.

### IV Gözəl Fillipin hakimiyyəti dövrü (1285-1314). Baş Ştatların çağırılması



IV Filipp

**XIV əsrin əvvəllərində** Fransa ərazisinin çox hissəsi birləşdirildi. Kral **IV Gözəl Filippin (1285-1314)** dövründə:

- ✓ Fransanın birləşdirilməsi əsasən başa çatdı.
- ✓ İlk dəfə Fransada **Baş ştatlar** çağırıldı.
- ✓ Kilsə torpaqlarına vergi qoyuldu.
- ✓ Kralla Roma Papası arasında münaqişə baş verdi.

IV Gözəl Filippin hakimiyyəti dövründə kral ilə Roma papası arasında münaqişə baş verdi. IV Gözəl Filipp ilə Roma papası arasında baş verən münaqişənin əsas səbəbi ***kralın pul əldə etmək məqsədi ilə kilsə torpaqlarına vergi qoyması*** idi.

Kral IV Filipp papaya qarşı mübarizədə ***silklərdən köməkə almaq*** məqsədi ilə **1302-ci ildə** ilk dəfə Fransada **Baş Ştatları** çağırdı. Çünki kral papaya qarşı mübarizədə ***silklərə*** arxalanırdı. Kral ***yeni vergilər təyin etmək istəyərkən*** Baş Ştatları çağırırdı. Baş Ştatlar Fransada ***silki nümayəndəli ali orqan*** idi. Lakin, ***silklər arasında ixtilafların mövcud olması*** Baş ştatların dövlət işlərinə təsirini azaldırdı. IV Gözəl Filipp ilə Roma papası arasında baş vermiş münaqişə nəticəsində:

- **Fransa kralı qalib gəldi.**
- **Fransada Roma papasının hakimiyyəti zəiflədi.**

***Fransada silklər***

| *Silklər* | *Hüquq və vəzifələri* |
|---|---|
| I Silk - Ruhanilər | İbadət etmək, günahkarları Allah qarşısında müdafiə etmək. |
| II Silk - Zadəganlar | Vuruşmaq, kralı və onun təbəələrini düşməndən qorumaq. |
| III Silk - Kəndlilər, sənətkarlar və şəhərlilər | Vergi vermək və mükəlləfiyyətlər daşımaq. |





*Fransa Baş Ştatları. IV Filipp ilə Roma papasının qüvvələri arasında döyüş (qədim şəkil).*

### Yüzillik müharibə (1337-1453)

Filippin oğlanları öləndən sonra Fransa kralının kişi nəsli kəsildi. Vəliəhdi olmadığı üçün kralın vəfatından sonra Fransada hakimiyyət boşluğu yarandı və ölkədə boş qalmış taxt-tac uğrunda mübarizə başladı. Bu vəziyyətdən bəhanə kimi istifadə edən İngiltərə krallığı Fransaya qoşun yeritdi. Fransa ilə İngiltərə arasında müharibə başladı. Müharibə fasilələrlə yüz il davam etdi. Ona görə də bu müharibəni tarixdə **Yüzillik müharibə (1337-1453)** adlandırırlar.

Yüzillik müharibənin səbəbi bunlar idi:

1. **İngilis kralının Fransada itirdiyi mülkləri geri qaytarmaq istəyi**.
2. **Flandriya və onun zəngin şəhərlərini ələ keçirmək uğrunda mübarizə**.
3. **İngiltərə kralının Fransa taxtına olan iddiaları**.

Bu dövrdə Fransanın İngiltərə ilə münasibətləri sabit deyildi. Fransa torpaqlarının bir hissəsi İngiltərə krallığına daxil idi. **XIII əsrdə Normandiya**, daha sonra isə **Tuluza qraflığı** Fransaya qaytarılsa da bir çox Fransa əraziləri İngiltərənin əlində qalırdı.

İngiltərə ordusu müharibəyə **La-Manş boğazını** keçib Fransa ərazisində hərbi əməliyyatlara başlayaraq:

- **Normandiyanı** tutdu.
- **Kresi və Puatye döyüşlərində** ***fransızları*** məğlub etdi.

Beləliklə, müharibənin əvvəllərində ingilislər qələbə qazandı. İngilislərin müharibənin əvvəllərində qələbə qazanmasının ***səbəbi onların yaxşı təşkil edilmiş orduya və donanmaya malik olması*** idi. Fransızların isə məğlub olmasının səbəbi aşağıdakı amillərlə bağlı idi:

- *Fransız cəngavərlərinin özlərinə çox güvənməsi.*
- *Fransız ordusunda nizam intizamın olmaması.*

Daha sonra ingilislər Fanasanın cənuba doğru irəliləyərək **Orlean şəhərini** mühasirəyə aldılar. Fransanın taleyi Orleanda həll olunurdu. Bu zaman xalq vətənin müdafiəsinə qalxaraq ingilislərlə partizan müharibəsinə başladı. İngilislərə qarşı partizan mübarizəsinə **Janna d'Ark** adlı gənc qız başçılıq edirdi. **Janna d'Ark** Orleanı mühasirədən azad etdi. ***Orleanın mühasirədən azad edilməsi*** nəticəsində:

- *Yüzillik müharibənin gedişində dönüş yarandı.*
- *Üstünlük fransızların tərəfinə keçdi, ingilislər ölkədən qovuldu.*

**1453-cü ildə** Fransa ilə İngiltərə arasında sülh bağlanması ilə yüzillik müharibə başa çatdı. ***Sülhün şərtlərinə əsasən təkcə Kale limanı ingilislərin əlində qaldı***. Beləliklə, Fransa yadellilərin işğallarından azad edildi.

***Yüzillik müharibənin səbəbləri***

| İngilis kralının Fransada itirdiyi mülkləri geri qaytarmaq istəyi | Flandriya və onun zəngin şəhərlərini ələ keçirmək uğrunda mübarizə | İngiltərə kralının Fransa taxtına olan iddiaları |
|---|---|---|

***Müharibənin nəticələri***

- ***Fransa üçün nəticəsi:*** Fransa yadellilərin işğallarından azad edildi.
- ***İngiltərə üçün nəticəsi:*** Kale limanı ingilislərin əlində qaldı.



*Yüzillik müharibə dövrünə aid döyüşlər*

### Fransada "Jaklar" üsyanı (1358)

Yüzillik müharibənin gedişində, **1358-ci ildə** Fransanın ***şimal-şərqində*** **Jaklar (Jakeriya)** adlı ***kəndli üsyanı*** baş verdi. «Jakeriya» üsyanının səbəbi aşağıdakılar idi:

- ✓ **Müharibənin törətdiyi ağır fəsadlar.**
- ✓ **Feodal zülmünün güclənməsi.**

Üsyan nəticəsində hərbi işi bilməyən jaklar məğlub oldular. Üsyançılara amansız divan tutuldu. Jakeriya üsyanının məğlub **olmasının səbəbləri aşağıdakı amillərlə bağlı idi:**

- ***Üsyançıların pis silahlanması.***
- ***Şəhər əhalisinin üsyana qoşulmaması.***
- ***Üsyanın kortəbii və plansız olması.***
- ***Üsyançılar arasında birliyin olmaması.***



*Jaklar üsyanı. Jakların məğlub olması*

Məğlub olmasına baxmayaraq Jakeriya üsyanı nəticəsiz qalmadı. Belə ki, Jakeriya üsyanı nəticəsində:

- ✓ **Feodallar vergi və mükəlləfiyyəti bir daha artırmağa cürət etmədilər.**
- ✓ **Kəndlilərin ödənc müqavilində şəxsi asılılıqdan azad edilməsinə başlanıldı.**

Üsyandan sonra kəndlilər öz təsərrüfatlarını nisbətən uğurla davam etdirmək imkanı qazandılar. Artıq XV əsrdə Fransada çox az ***təhkimli kəndli*** qalırdı.





*XI Lüdoviq*



*İgid Karl*

### Fransada mərkəzləşdirilmiş dövlətin yaranması. XI Lüdoviq (1461-1483)

Yüzillik müharibədən sonra Fransada ***feodal dağınıqlığı*** gücləndi. Kral **XI Lüdoviqin (1461-1483)** dövründə Fransada mərkəzi hakimiyyətə qarşı ***iri feodalların*** çıxışı baş verdi. Bu qəsdə Burqundiya hersoqu **İgid Karl** baçılıq edirdi. İgid Karl XI Lüdoviqə qarşı açıq müharibədə onu məğlub etdi. Lakin, sülh bağlanmasına baxmayaraq Lüdoviq ***hiylə yolu ilə*** İgid Karlı məğlub edib öldürdü. XI Lüdoviqin dövründə **Burqundiya, Marsel** və **Bretan** vilayətləri Fransaya birləşdirildi. **Beləliklə, XV əsrin sonunda Burqundiya, Marsel və Beratan vilayətlərinin birləşdirilməsi ilə Fransanın birləşdirilməsi prosesi başa çatdı.**

Bu dövrdə Fransada manufakturalar yarandı. Silahlar, parçalar, zinət əşyaları istehsal edən bu müəssisələr krala çoxlu vergi ödəyirdi. Bu vergilər hesabına kral sarayı varlanırdı. Kral istədiyi zaman vergiləri artırırdı. Bu isə müəssisə sahiblərinin narazılığına səbəb olurdu. Buna baxmayaraq, çoxlu sərvət toplamaq məqsədi güdən müəssisə sahibləri onları dəstəkləyən kralı müdafiə edirdilər.




### XVI əsrin əvvəllərində Fransanın sosial-iqtisadi inkişafı

XVI əsrdə Fransanın sosial-iqtisadi inkişafına ***aiddir:***

- ✓ ***Əhalisinin sayına görə*** Avropanın ən böyük dövləti idi.
- ✓ Sənaye və ticarət, kapitalist istehsalı inkişaf edirdi.
- ✓ Kral hökuməti sənaye və ticarətin inkişafını şirnikləndirirdi.
- ✓ Kətan və ipək parça, metal əridilməsi, zərgərlik, işi müvəffəqiyyət qazanmışdı.
- ✓ Tədricən feodal münasibətlər yerini yeni kapitalist münasibətlərinə verirdi.
- ✓ Manufakturalar yaranır, ipək parça, kətan, bəzək əşyaları, tüfəng, top istehsalı genişlənirdi.
- ✓ Başqa ölkələrlə ticarətdə qərb ***sahillərindəki limanlarının*** əhəmiyyəti artırdı.

***QEYD:*** XVI əsrdə Fransanın başqa ölkələrlə ticarətdə qərb sahillərindəki limanların əhəmiyyətinin artmasının səbəbi Böyük coğrafi kəşflərdən sonra ticarət yollarının Atlantik okeanına keçməsi idi.

# İngiltərə

«Xalqların böyük köçü» dövründə alman tayfalarından ***anqlar*** və ***sakslar*** Britaniya adalarında məskunlaşdılar. Onların yerli ***keltlərlə*** qaynayıb-qarışması nəticəsində ***ingilis xalqı*** yarandı. İngiltərədə feodal münasibətləri **VII əsrdə** meydana gəldi. Lakin bu münasibətlər möhkəm deyildi.




## Normand işğalı. Fateh Vilhelm (1066-1087)

**1066-cı ildə** Fransanın Normandiya hersoqu Vilhelm qoşunu ilə La-Manş boğazını keçib İngiltərənin cənub sahilinə çıxaraq Qastinqs döyüşündə ***anqlo-saks qoşunları ilə*** döyüşə girdi. **Qastinqs döyüşü** nəticəsində:

- ***Normandiya cəngavərləri ingilisləri məğlub etdi.***
- ***İngiltərə Normand cəngavərləri tərəfindən işğal olundu.***

Bu hadisədən sonra Vilhelm İngiltərənin paytaxtı Londonu tutaraq **Fateh Vilhelm adı ilə** ingilis kralı oldu və yeni sülalənin (Vilhelmlər sülaləsinin) əsasını qoydu. Beləliklə, 1066-cı il Normand işğalı nəticəsində İngiltərədə Fateh Vilhelm tərəfindən ***İngiltərədə mərkəzləşmiş dövlətin əsası qoyuldu***. Fateh Vilhelmin dövründə yeni vergi sistemi yaradıldı. Ən ağır vergi **töycü** və ruhanilər üçün ödənilən ***onda bir vergisi*** sayılırdı.



*Fateh Vilhelm*



*II Henrix*

## II Henrixin hakimiyyəti (1154-1189)

**İngiltərə kralı II Henrix** hakimiyyəti dövründə:

- ✓ ***İngiltərədə islahatlar həyata keçirildi.***
- ✓ ***Cəngavərlərdən "qalxan pulu" alınmağa başlanıldı.***

II Henrixin keçirdiyi hərbi islahata əsasən ***hərbi yürüşlərdə iştirak etməyən feodallar (cəngavərlər) indən sonra krala "qalxan pulu" adlanan xüsusi haqq ödəməli idilər.*** Kral bu vəsait hesabına daimi nizami ***muzdlu ordu*** saxlaya bilirdi.






*İngiltərə krallığının (843-1707) bayrağı və gerbi*

## İngiltərədə parlamentin yaradılması

**1265-ci ildə** İngiltərədə ilk dəfə parlament yaradıldı. **XIV əsrdə** İngiltərə parlamenti iki palataya bölündü:

- ***Lordlar (ağalar) palatası.*** Bu palataya ***ali ruhanilər, zadəganlar*** daxil idi.
- ***Nümayəndələr palatası***. Bu palataya ***cəngavərlər və varlı şəhərlilər*** daxil idi.

Kəndlilər ***qanunverici orqan*** olan parlamentdə təmsil olunmurdular. Fransadakı Baş Ştatlarından ***fərqli olaraq,*** İngiltərə parlamenti ***dövlət işlərinə*** böyük təsir göstərə bilirdi. Bunun səbəbi İngiltərədə Fransadakı kimi silklər arasında ***ziddiyyətlərin olmaması*** idi.

**İngiltərə parlamenti**

- 1265-ci ildə yaradılan silki nümayəndəli orqan idi
- Fransadan fərqli olaraq dövlət işlərinə böyük təsir edə bilirdi
- Parlamentin üzvləri dövlətdən əmək haqqı almırdılar
- Lordlar və nümayəndələr palatasından ibarət idi
- Fransadakı kimi ziddiyyət burada yox idi
- Razılığı olmadan Kral vergi təyin edə bilməzdi

### Uot Tayler üsyanı (1381)

**1381-ci ildə** İngiltərədə ***kəndli üsyanı*** baş verdi. Kəndli üsyanına Yüzillik müharibənin iştirakçısı, sənətkar **Uot Tayler** başçılıq edirdi. Uot Tayler üsyanının səbəbi aşağıdakılar idi:

- ***Feodal zülmünün güclənməsi***.
- ***Vergi və mükəlləfiyyətlərin artırılması***.
- ***Yoxsullara qarşı qəbul olunan amansız qanunlar***.

Üsyançılar Londona yürüş edərək kralı onlarla görüşməyə məcbur etdilər. Uot Taylerin başçılığı ilə üsyançıların ***kralla görüş zamanı*** kəndlilər kralın qarşısında aşağıdakı tələbləri irəli sürdülər:

1. **Torpaqdan istifadə haqqı (vergilər) azaldılsın**
2. **Bəzi mükəlləfiyyətlər (təhkimçilik və biyar) ləğv edilsin.**



*Uot Toyler üsyanının iştirakçıları kral qarşısında tələblərini irəli sürürlər*

Lakin üsyan sonda yatırıldı. Üsyançılara divan tutuldu. Üsyanın başçısı Uot Tayler xaincəsinə öldürüldü. Üsyan məğlub olsa da nəticəsiz qalmadı. Belə ki, Uot Tayler üsyanı ***nəticəsində Yoxsullara qarşı amansız qanunlar yumşaldıldı***.

***QEYD:*** Uot Tayler üsyanı ilə "Jakeriya" üsyanı arasında oxşar cəhətlər çox idi. Həmin oxşar cəhətlər bunlar idi: Hər iki üsyan Yüzillik müharibənin gedişində baş vermişdi, üsyan feodallara qarşı yönəlmişdi, üsyan başçıları xəyanət nəticəsində öldürüldülər, nəticədə üsyançılar məğlub oldular, məğlub olmasına baxmayaraq üsyanlar nəticəsiz qalmadı. Lakin, Fransada Jaklar üsyanından ***fərqli olaraq*** Uot Tayler üsyanında kəndlilər öz tələblərini irəli sürürdülər.

***Jaklar və Uot Totler üsyanlarının müqayisəli cədvəli***

| *Üsyanın adı* | *İştirakçıları və səbəbləri* | *İrəli sürdükləri tələblər* | *Məğlubiyyət səbəbləri* | *Nəticəsi* |
|---|---|---|---|---|
| **Jaklar üsyanı (1358)** | Kəndlilər<br>Feodal zülmü | Heç bir tələb irəli sürmürdülər | Pis silahlanması şəhərlilərin üsyana qoşulmaması, kortəbii və plansız olması | Feodallar mükəlləfiyyəti artırmağa bir daha cürət etmədilər kəndlilər öz təsərrüfatlarını nisbətən uğurla davam etdirmək imkanı qazandılar |
| **Uot Tatler üsyanı (1381)** | Kəndlilər<br>Feodal zülmü Ağır vergilər Amansız qanunlar | Təhkimçilik və biyar ləğvini, vergilərin azaldılmasını tələb edirdilər | Şəhərlilərin xəyanət etməsi | Yoxsullara qarşı amansız qanunlar yumşaldıldı. |

### Al qızılgül və ağ qızılgül müharibələri (1455-1485). VII Henrix



*VII Henrix*

Yüzillik müharibə başa çatdıqdan az sonra İngiltərənin daxilində iki əyan nəsli və onların tərəfdarları arasında ***hakimiyyət uğrunda müharibə*** başladı. Müharibə **30 il (1455-1485)** davam etdi. Onlardan birinin gerbində al qızılgül, o birinin gerbində isə ağ qızılgül olduğuna görə tarixdə bu müharibə ***Al və Ağ qızıl gül müharibələri*** adlanır. Al qızılgül və Ağ qızıl gül müharibələri ***nəticəsində:***

- Feodal nəsillərindən biri olan hersoq **VII Henrix Tüdor** qalib gəldi.
- İngiltərədə **Tüdorlar sülaləsinin (1485-1603)** hakimiyyəti başlandı.

VII Henrixin (1485-1509) taxta çıxması ilə İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyəti dövrü başladı. Sülalənin sonuncu nümayəndəsi **I Yelizaveta (1558-1603)** 45 il hakimiyyətdə oldu. Onun hakimiyyətini İngiltərə tarixinin ***«qızıl dövrü»*** adlandırırlar.



*I Yelizaveta*



***Bilmək maraqlıdır***

I Yelizavetanın hakimiyyətini İngiltərə tarixinin «qızıl dövrü» adlandırırlar Bu dövrdə İngiltərədə dini ayrılığa son qoyuldu və illərlə davam edən katolik və protestant müharibəsi başa çatdı. İngiltərə iqtisadi və siyasi cəhətdən gücləndi və dünyanın ən varlı və güclü ölkələrindən birinə çevrildi. Yelizavetanın dövründə İngiltərədə yaxşı təşkil edilmiş güclü mərkəzi hökumət bərqərar oldu. İqtisadi sahədə də Amerika ilə hələ yenicə qurulan ticarət əlaqələri öz bəhrəsini verməyə başladı.

Onun hakimiyyəti dövründə İngilis dəniz donanması İspaniyanın «Məğlubedilməz armada»sını məğlub edərək dənizdə hakimiyyəti ələ aldı.

I Yelizavetanın dövründə İngiltərədə bir çox filosof, alimlər, rəssam və yazıçılar yaşayıb yaratmışlar. İngiltərə dramaturgiyasının danisi Uilyam Şekspir məhz «qızıl dövr»də yaşayıb yaratmışdı. Kraliça ölkəni uzun illər təkbaşına idarə etdikdən sonra - 1603-cü ildə dünyasını dəyişdi. “Mən onsuz da İngiltərə krallığı ilə izdivacdayam!” deyən Yelizaveta ailə qurmadığı üçün özündən sonra varis qoymamışdı. Odur ki, Yelizaveta vəfat edən zaman Tüdorlar sülaləsinin hakimiyyəti başa çatdı və taxta Sütuartlar sülaləsinin nümayəndəsi I Yakov çıxdı.

| *Fransa XI-XV əsrlərdə* | *İngiltərə XI-XV əsrlərdə* |
|---|---|
| ✓ *Şəhərlər meydana gəldi, ticarət inkişaf etdi.* | ✓ *Normand işğalına məruz qaldı.* |
| ✓ *İlk dəfə Baş ştatlar çağırıldı.* | ✓ *İlk dəfə Parlament çağırıldı.* |
| ✓ *“Jaklar” üsyanı baş verdi.* | ✓ *Uot Toyler üsyanı baş verdi.* |
| ✓ *Roma papası arasında münaqişə baş verdi.* | ✓ *Qastinqs döyüşündə məğlub oldu.* |
| ✓ *Yüzillik müharibədə qalib gəldi.* | ✓ *Al qızılgül və ağ qızılgül müharibələri baş verdi.* |
| ✓ *Bütün Fransa vilayətləri birləşdirildi.* | ✓ *Tüdorlar sülaləsi hakimiyyətə gəldi.* |
| ✓ *Mərkəzləşdirilmiş dövlət yarandı.* | ✓ *Mərkəzləşdirilmiş dövlət yarandı.* |

### İngiltərə XVI əsrin əvvəllərində. Manufakturaların meydana gəlməsi

XVI əsrin əvvəlində İngiltərədə yun istehsalı artdı. Sahibkarlar ***kəndlərdə*** emalatxanalar düzəldir, yun istehsalı ilə məşğul olan təcrübəli kəndliləri bu emalatxanalara toplayırdılar. Emalatxanada işləyən kəndli ***muzdlu işçiyə*** çevrilirdi. Emalatxananın sahibi ***kapitalist***, işçi isə ***muzdlu fəhlə*** adlanırdı. Bu cür müəssisələr ***kapitalist manufakturası*** adlanırdı. Beləliklə, XVI əsrin əvvəllərində İngiltərədə ilk kapitalist müəssisəsi olan ***manufakturalar*** meydana gəldi. ***Manufaktura*** - əl əməyinə, əmək bölgüsünə və muzdlu əməyə əsaslanan ilk kapitalist müəssisəsi idi. Sənətkar emalatxanasından fərqli olara qmanufakturada ***əmək bölgüsü*** aparılırdı.

### İngiltərədə çəpərləmələr

Sənətkar emalatxanasına nisbətən manufakturaya daha çox yun tələb olunurdu. Odur, ki, kimin çox qoyunu var idisə, o daha çox qazanırdı. Lakin böyük sürülər üçün çoxlu otlaqlar lazım idi. Ona görə də ***iri torpaq sahibləri (lordlar)*** kəndliləri öz torpaqlarından qovaraq onların torpaqlarını əllərinə keçirir, həmin torpaqları çəpərləyirdilər. **XVI əsrdə** İngiltərədə ***kəndlilərin torpaqlarının zadəganlar tərəfindən zorla ələ keçirilməsi*** «***çəpərləmələr***» adlanırdı. Torpaqsız qalan kəndlilər səfil günə düşür, onların çoxu xəstəlikdən, aclıqdan ölürdü. İngiltərədə o vaxt bu hadisə haqqında deyirdilər: «***qoyunlar adamları yeyirlər***». Öz torpaqlarını itirən kəndlilər başqa yaşayış vasitəsi tapmaq üçün kapitalistlərin müəssisələrində işləməyə başlayır, beləcə ***muzdlu işçiyə*** çevrilirdilər.

***İngiltərədə çəpərləmələrin nəticələri***

- Kəndlilər öz torpaqlarından qovuldu
- Kəndlilər muzdlu işçilərə çevrildilər

### «Məğlubedilməz armada»nın məhvi (1588)



«Məğlubedilməz armada»nın sonu

İngiltərədə təsərrüfatın inkişafı ticarətin yüksəlişini təmin edirdi. Ölkə adalarda yerləşdiyi üçün xarici ölkələrlə əlaqələr dəniz ticarəti vasitəsilə aparılırdı. Dəniz ticarətini artırmaq məqsədilə sahibkarlar ticarət şirkətləri yaradırdılar. Şirkətlərin içərisində ən böyüyü **Ost- Hind şirkəti** idi.

**XVI əsrdə** dəniz ticarətində İngiltərənin əsas rəqibi olan ***İspaniya*** dünyada ən böyük donanma və ən geniş müstəmləkəyə məxsus idi. Bu dövrdə İngiltərə dənizlərdə ağalığı İspaniyanın əlindən almaq üçün onu məğlub etməli idi. Lakin, İspaniyaya «Məğlubedilməz armada»ya (donanmaya) malik idi.

**1588-ci ildə** La-Manş döyüşündə ingilislər ispanları məğlub edərək «Məğlubedilməz armada»nı məhv etdilər. La-Manş döyüşündə «Məğlubedilməz armada»nın məhv edilməsi ***nəticəsində:***

- **Dənizlərdə hökmranlıq İngiltərənin əlinə keçdi**.
- **İngiltərə güclü dəniz dövlətinə çevrildi**.

İngiltərənin «Məğlubedilməz armada»nı məğlub etməsinin səbəbi bunlar idi:

- ✓ **İngilislərin yüngül və sürətli hərəkət edən gəmilərə sahib olması**.
- ✓ **Top atəşinin gücünə və dəqiqliyinə görə ingilis gəmilərinin ispan gəmilərindən üstün olması**.

***«Məğlubedilməz armada»nın məhv edilməsinin nəticəsi***

- Dənizlərdə hökmranlıq İngiltərənin əlinə keçdi
- İngiltərə güclü dəniz dövlətinə çevrildi

| *Fransa XVI əsrdə* | *İngiltərə XVI əsrdə* |
|---|---|
| ✓ *Əhalinin sayına görə Avropada birinci yerə çıxdı*<br>✓ *Sənaye və ticarət, kapitalist istehsalı inkişaf etdi.*<br>✓ *Manufakturalar meydana gəldi.*<br>✓ *İpək parça, kətan, tüfəng, top istehsalı genişləndi.*<br>✓ *Qərb sahillərindəki limanların əhəmiyyəti artdı.*<br>✓ *Sənaye və ticarət müəssisələrinin sayı artdı.* | ✓ *Çəpərləmələr başladı..*<br>✓ *Kəndlilər öz torpaqlarından qovuldu.*<br>✓ *Manufakturalar meydana gəldi.*<br>✓ *Ticarət şirkətləri yarandı.*<br>✓ *Dəniz ticarətində İspaniya ilə rəqabəti gücləndi.*<br>✓ *La-Manş döyüşündə qalib gəldi.*<br>✓ *«Məğlubedilməz armada» məhv edildi.* |

# Almaniyada reformasiya və kəndli müharibəsi

### XVI əsrin əvvəllərində Almaniyanın sosial, iqtisadi və siyasi vəziyyəti

XVI əsrin əvvəllərində Almaniyada:

- ✓ Feodal dağınıqlığı hələ də qalmaqda idi və mərkəzləşmiş dövlət hələ yaranmamışdı.
- ✓ İmperator hakimiyyəti zəifləmişdi, ölkədə katolik kilsəsi hökmranlıq edirdi.
- ✓ Ölkə ərazisinin xeyli hissəsini ***kilsə mülkləri*** təşkil edirdi.
- ✓ Kilsə əhalidən ***onda bir*** vergisi alır, vəzifələr və indulgensiyalar satırdı.
- ✓ Əhalinin bütün təbəqələri katolik kilsəsindən narazı idi.

### Almaniyada reformasiyanın başlanması (1517)

**XVI əsrin əvvəllərində** Almaniyada ən qüdrətli qüvvə ***Katolik kilsəsi*** idi. Almaniyada ***imperator hakimiyyəti zəif olduğu üçün*** katolik kilsəsinin xalqı soyub-talamasının qarşısını ala bilmirdi. Bu dövrdə Almaniyada əhalinin bütün təbəqələri katolik kilsəsindən narazı idi. ***Roma papasının Almaniyada indulgensiya alverini genişləndirməsi*** Almaniyada katolik kilsəsinə qarşı mübarizənin başlanmasına təkan verdi. Belə bir şəraitdə Vittenberq universitetinin professoru **Martin Lüter 1517-ci ildə** katolik kilsəsinin Almaniyada «***cənnət qəbzi***» alverinin əleyhinə çıxdı. Lüterin çıxışı ***reformasiyanın, yəni kilsənin yenidən qurulması uğrunda mübarizənin başlanğıcı*** oldu. Almaniyada ***kilsənin yenidən qurulması reformasiya*** adlanırdı. Lüter dinə qarşı çıxmırdı. O, ***Katolik kilsəsini islah etmək uğrunda*** mübarizə aparırdı. Lakin keşişlər Lüteri kilsəni parçalamaqda günahlandırdılar.

Martin Lüterin «cənnət qəbzi» alverinin əleyhinə çıxışına görə Roma papası ***xüsusi fərman göndərərək onu lənətlədi***. Lüter isə papanın özünü ***bidətçi*** elan etdi və onun fərmanını tonqalda yandırdı. Roma papasının tərəfini saxlayan Alman imperatoru Lüteri **Vorms şəhərində** keçirilən qurultaya dəvət etdi. Burada imperator Lüteri həbs etmək istədi. Lakin ***cəngavərlər*** onu gizlədərək, buna imkan vermədilər.

Katolik kilsəsini islah etmək uğrunda mübarizədə (reformasiyada) ***bütün şəhər*** və ***kənd əhalisi, cəngavərlər***, hətta ***knyazların bəziləri*** də iştirak edirdi. Reformasiya dövründə onların hər birinin öz məqsədi var idi:

- ➢ ***Kəndlilər və yoxsul şəhərlilər*** - katolik kilsəsinə və feodal zülmünə qarşı çıxırdılar.
- ➢ ***Varlı şəhərlilər*** - kilsə vergilərinin azaldılmasını və monastırların bağlanmasını tələb edirdilər.
- ➢ ***Cəngavərlər*** - kilsənin torpaqlarına sahib olmaq istəyirdilər.
- ➢ ***Knyazlar*** - öz torpaqlarında olan kilsələrin papaya deyil, onlara tabe olmasını istəyirdilər.

Bu artıq feodal cəmiyyətinə qarşı xalq reformasiyası idi.



*Martin Lüterin «cənnət qəbzi» alverinin əleyhinə çıxışı və papanın fərmanını tonqalda yandırması*

### Almaniyada kəndli müharibəsi (1524)

**1524-cü ilin yayında** Almaniyada kəndli üsyanları (xalq reformasiyası) başladı. Xalq reformasiyası ***feodal qaydalarına qarşı yönəlmişdi***. Almaniyada kəndli müharibəsinə xalq reformasiyasının rəhbəri keşiş **Tomas Münser** başçılıq edirdi. Tomas Münser feodal qaydalarını ***silahlı mübarizə ilə*** məhv etməyə çağırırdı. Üsyan ölkənin əksər hissəsini bürüdü. Lakin üsyançı dəstələr vahid bir qüvvə halında birləşə bilmədilər. Üsyançıların dağınıq dəstələri muzdlu qoşun tərəfindən bir-birinin ardınca məğlub edildi. Münser isə əsir düşdü və edam olundu. XVI əsrdə Almaniyada kəndli müharibəsinin ağır nəticələri oldu. Belə ki, kəndli müharibəsinin məğlub olması nəticəsində:

- ➢ **Şəxsən azad olan kəndlilər də təhkimçilik asılılığına salındılar**.
- ➢ **Feodal qaydaları və feodal zülmü daha da gücləndi**.
- ➢ **Almaniyada fodal pərakəndəliyi daha da möhkəmləndi və hələ uzun müddət davam etdi**.

Almaniyada kəndli müharibəsinin məğlub olmasının səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ➢ ***Kəndlilərin mütəşəkkil qüvvə olmaması***.
- ➢ ***Kəndli dəstələrinin böyük ordu halında birləşə bilməməsi***.

***QEYD:*** Almaniyada kəndli müharibəsi Avropada feodalizm quruluşunu devirmək üçün göstərilən ***birinci cəhd*** idi. Feodal qaydalarının ləğvi ***burjuaziyanın*** xeyrinə idi. Lakin Almaniyada burjuaziya ***hələ yenicə yarandığı üçün*** üsyana başçılıq edə bilmədi.



*Almaniyada Tomas Münserin başçılıq etdiyi kəndli üsyanları. Tomas Münserin edam olunması*

***Almaniyada kəndli müharibəsinin nəticələri***

- Şəxsən azad olan kəndlilər təhkimçilik asılılığına düşdü
- Feodal qaydaları və feodal zülmü daha da gücləndi
- Fodal dağınıqlığı daha da möhkəmləndi

| *Martin Lüter* | *Tomas Münser* |
|---|---|
| ✓ *Katolik kilsəsinə qarşı mübarizə aparırdı.*<br>✓ *Feodal qaydalarına və dinə qarşı çıxmırdı.*<br>✓ *Papanın «cənnət qəbzi» alverinə qarşı çıxırdı.*<br>✓ *Roma papası xüsusi fərmanla lənətləmişdi.*<br>✓ *Vorms şəhərində qurultayda iştirak etmişdi.*<br>✓ *Əhalinin əksər təbəqəsi onu müdafiə edirdi.* | ✓ *Din xadimi idi.*<br>✓ *Feodal və kilsə qaydalarına qarşı çıxırdı.*<br>✓ *Xalq reformasiyasının başçısı idi.*<br>✓ *Feodal qaydalarını silahlı mübarizə yolu ilə məhv etməyə çalışırdı.*<br>✓ *Üsyan gedişində əsir düşərək edam olunmuşdu.* |

**Avropada reformasiyanın yayılması**

Martin Lüterin «cənnət qəbzi» alverinə qarşı çıxması xəbəri dörd həftə müddətində bütün xristian dünyasına yayıldı. Almaniyadan sonra Avropanın başqa ölkələrində də reformasiya hərəkatı başladı. Avropa ölkələrinin kralları və katolik kilsəsi reformasiyayanın qarşısını almaq üçün tədbirlər həyata keçirdilər. Almaniyada reformasiyaya qarşı atılan addımlara knyazlar və bir çox şəhərlər etiraz (protesta) etdi. Buna görə də o zamandan etibarən Lüterə tərəfdar olanlara, ***protestant*** deyilməyə başlandı. Yeni kilsə isə ***protestant kilsəsi*** adlandırıldı.

Protestant və katolik knyazlar arasında **1555-ci ildə** imzalanan Auqsbruq sazişinə əsasən:

1. **Katoliklər protestantların etiqad azadlığını tanıdı (bu din azadlığı yalnız knyazlara aid idi).**
2. **Hər bir knyaz torpağındakı kilsənin başçısı oldu, Katolik kilsəsinə mənsub torpaqlar zəbt edildi.**
3. **Knyaz hansı etiqadı qəbul edirdisə, əhali də həmin etiqadı qəbul etməli idi.**
4. **Knyazın qəbul etdiyi etiqadı istəməyənlər knyazlığın torpağından köçüb gedə bilərdi.**

Auqsbruq sazişinin imzalanmasından sonra Almaniyada katolik kilsəsi ilə yanaşı, protestant kilsəsi yaranmış oldu və ***Lüteran kilsəsi*** adlandı. Lüteran kilsəsində təmtərqalı mərasimlər, ikonaya sitayiş, dini bayramlar ləğv edildi.



*Jan Kalvin*

Bəhs edilən dövrdə **İngiltərə**, **Danimarka** və **İsveçdə** krallar kilsə islahatı keçirərək kilsə başçısı oldular. Beləliklə, reformasiya kral hakimiyyətini gücləndirdi. **Fransa, İsveçrə** və **Niderlandda** isə kilsə islahatını ***varlı və nüfuzlu şəhərlilər*** həyata keçirdi. İsveçrənin ***Cenevrə şəhərində*** protestant kilsəsinin başçısı fransız **Jan Kalvinin** əsasını qoyduğu kilsə ***kalvin kilsəsi*** adlandı. Kalvin kilsəsi insanlara ***müxtəlif əyləncələri və oyunları*** qadağan etmişdi. Kalvinizmə görə ***hamı kilsəyə getməli, səhər tezdən durub işə başlamaq üçün axşam işıqları tez söndürməli*** idi.

***1555-ci il Auqsbruq sazişini imzalayan tərəflər***

**Protestantlar** | **Katoliklər**

***Kilsə islahatlarını şəhərlilərin keçirdiyi ölkələr***

**Fransa** | **Niderland** | **İsveçrə**

**İngiltərə** | **Danimarka** | **İsveç**

***Kilsə islahatlarını kralların keçirdiyi ölkələr (reformasiya hərəkatının məğlub olduğu ölkələr)***

| *Protestant (Lüteran) kilsəsi* | *Kalvin kilsəsi* |
|---|---|
| ✓ *Almaniyada yaradılmışdı*<br>✓ *Martin Lüterin tərəfdarları olan protestantların adından götürülmüşdü*<br>✓ *Tərəfdarlarına protestant, kilsəyə isə protestant kilsəsi deyirdilər*<br>✓ *Ausqsbruq sazişdən sonra Lüteran kilsəsi adlandı*<br>✓ *Təmtərqalı mərasimləri, ikonaya sitayişi və dini bayramları qadağan edirdi* | ✓ *İsveçrənin Cenevrə şəhərində yaradılmışdı*<br>✓ *Fransız din xadimi Jan Kalvin tərəfindən əsasını qoymuşdu*<br>✓ *Tərəfdarlarına kalvinist, məzhəbinə kalvinizm, kilsəyə isə kalvin kilsəsi deyirdilər*<br>✓ *Dəbdəbəli paltarlar geyinməyi, israfçılığı, oyun və rəqsləri qadağan edirdi* |

### Katolik kilsəsinin reformasiyaya qarşı mübarizəsi

Roma Papasının başçılıq etdiyi Katolik kilsəsi ***katolik kilsəsinin əvvəlki qüdrətini bərpa etmək və reformasiyaya qarşı mübarizə aparmaq məqsədi ilə*** aşağıdakı tədbirləri həyata keçirdi:

- ✓ ***İsa cəmiyyəti*** və ***Yezutilər ordenini*** yaratdı.
- ✓ Öz əleyhdarlarına qarşı kütləvi qırğınlar həyata keçirdi.
- ✓ Katoloklər vasitəsilə ***protestant qırğını*** törətdi.
- ✓ Papanın qərarlarına əməl etməyən şəxslər aradan götürüldü.


Varfolomey gecəsi (Rəssam Fransua Dübua, 1572)

Yezuitlər ordeni ***hərbi qaydada*** təşkil olunurdu. Ordenə başçılıq edən ***general Roma papasına*** tabe idi və Roma papasının iradəsini yerinə yetirirdi. Yezuitlər reformasiya tərəfdarlarını izləyir, topladıqları məlumatları ordenin başçısına çatdırırdılar. Katoliklər reformasiyaya qarşı öz ələhdarlarını kütləvi surətdə qırmaq məqsədi ilə **1572-ci ildə** protestantları kralın bacısının toyuna dəvət etdilər. Protestantlar yaşayan binaların divarlarına tabaşirlə ağ xaç vurdular. Avqustun 23-də, yəni **Varfolomey gecəsi** katoliklər protestantları qırmağa başladılar, 30 mindən çox protestant vəhşicəsinə öldürüldü. Bu gün də Varfolomey gecəsi ***düşmənə qəddarcasına, amansız divan tutulması*** mənasında işlənir.

Lakin kilsənin reformasiyaya qarşı bu tədbirləri ***reformasiyanın yayılmasının qarşısını ala bilmədi, yalnız bir neçə ölkədə* - Polşa, İtaliya və Cənubi Almaniyada *reformasiya hərəkatı qalib gəldi***.

**Beləliklə, XVI əsrdə** Avropada reformasiya ***nəticəsində:***

- ✓ ***Katolik kilsəsi öz nüfuzunu və əmlakının çox hissəsini itirdi.***
- ✓ ***Katolik kilsəsinin qüdrəti sarsıldı və başqa kilsələrə parçalandı.***
- ✓ ***Katolik kilsəsindən ayrılmış protestant kilsəsi daha Roma Papasına tabe olmadı.***
- ✓ ***Yalnız bir neçə Avropa ölkəsində reformasiyanın qarşısı alındı.***

**_Roma papasının Reformasiyaya qarşı həyata keçirdiyi tədbirlər_**

- İsa cəmiyyəti və Yezutilər ordenini yaratdı
- Fransada protestant qırğını törətdi
- Əlehrarlarına qarşı kütləvi qırğınlar həyata keçirdi
- Papaya qarşı çıxanlar terrora məruz qaldı

**_Reformasiyanın qalib gəldiyi ölkələr_**

- Fransa
- Niderland
- İsveçrə

**Avropada reformasiyanın nəticələri**

- Katolok kilsəsi Polşa, İtaliya və Cənubi Almaniyada reformasiya hərəkatını boğdu
- Məğlub olduğu ölkələrdə feodal qaydaları uzun müddət davam etdi
- Protestant kilsəsi Katolik kilsəsindən ayrılaraq müstəqil oldu
- Katolik dini zəiflədi və əmlakının çox hissəsini itirdi

**Reformasiya**

- 1517-ci ildə Lüterin kilsə əleyhinə çıxışı ilə başladı
- Şəhərlilər, kəndlilər, knyazlar, cəngavərlər iştirak edirdi
- İndulgensiya alveri başlanmasına təkan vermişdi
- Katolik silsəsi bir neçə müstəqil kilsələrə parçalandı
- Katolik kilsəsinin və Roma papasının nüfuzu zəiflədi
- Reformasiya gedişində zadəganlar kilsə torpaqlarını tutdular
- Kilsənin yenidən qurulması uğrunda mübarizə idi
- Kralın hakimiyyətinin gücləndirilməsinə xidmət etdi

# Hollandiya Burjua inqilabı

### XVI əsrin əvvəllərində Hollandiyanın sosial, iqtisadi və siyasi vəziyyəti

XVI əsrin əvvəllərində Hollandiyanın sosial, iqtisadi və siyasi vəziyyəti aşağıdakı kimi idi:

- ✓ Şəhər və kəndlərdə ***manufakturalar*** meydana gəldi.
- ✓ Kənd təsərrüfatında ***kapitalist istehsalı*** yarandı.
- ✓ Balıqçılıq və dənizçilik inkişaf etməkdə idi.
- ✓ Şimal dənizi vasitəsilə ***İngiltərə*** və ***Skandinaviya ölkələri ilə*** əlaqə saxlayırdı.
- ✓ Böyük coğrafi kəşflər nəticəsində ***dəniz ticarəti*** genişlənmişdi.
- ✓ Böyük coğrafi kəşflərdən sonra **Antverpen** Avropada dünya ticarətinin birinci mərkəzi olmuşdu.
- ✓ İspaniya kralı ***Niderland tacirlərinə*** Amerikadakı müstəmləkələri ilə ticarət etməyi qadağan etmişdi.
- ✓ İspaniyanın müstəmləkəsi olaraq qalırdı.
- ✓ Ölkənin ***cənub-şərq*** torpaqlarında ***feodal qaydaları*** başqa yerlərə nisbətən güclü idi.
- ✓ İspan zülümünə və katolik kilsəsinə qarşı çıxışlar baş verirdi.




| Böyük coğrafi kəşflərin Hollandiya üçün nəticələri | |
|---|---|
| Dəniz ticarəti genişləndi və inkişaf etdi | Antverpen dünya ticarətinin mərkəzinə çevirildi |

| *Siyasi vəziyyəti* | *Sosial və iqtisadi vəziyyəti* |
|---|---|
| ✓ *İspaniyanın müstəmləkəsi idi.*<br>✓ *İspaniya kralının canişin və onun yanında yaradılan gizli şura tərəfindən idarə olunurdu.*<br>✓ *İspan və katolik kilsəsinə qarşı çıxışlar baş verdi.*<br>✓ *İspaniya kralı II Filipp inkvizisyaı tətbiq etdi.* | ✓ *Şəhər və kəndlərdə manufakturalar meydana gəldi.*<br>✓ *Təsərrüfatında kapitalist istehsalı yarandı.*<br>✓ *Antverpen şəhəri dünya ticarətinin mərkəzi oldu.*<br>✓ *İspaniya kralı holland tacirlərinə Amerikadakı müstəmləkələri ilə ticarət etməyi qadağan etmişdi.* |

### Niderlandda ispan zülmü

**XVI əsrin ortalarında** İspaniya dünyada ***ən geniş müstəmləkəsi olan ölkə*** idi. Niderland isə feodal İspaniyasının ən zəngin müstəmləkəsi hesab edilirdi. Bu zaman Niderlandda ***protestantlıq*** dini yayılmağa başladı. İspan ağalığına qarşı etiraz katolik kilsəsi əleyhinə çıxışlarla qüvvətləndi və Niderlandda inqilab baş verdi.

Niderlandda ispan zülmü aşağıdakı formalarda təzahür edirdi:

- ✓ *Niderland əhalisi üzərinə çox ağır vergilər qoyulmuşdu.*
- ✓ *Tacirlərə İspaniyanın Amerikadakı müstəmləkələri ilə ticarət qadağan edilmişdi*
- ✓ *İspaniyanın İngiltərə ilə düşmənçiliyi ucbatından manufaktura sahibləri zərər çəkirdi.*

XVI əsrdə Niderlandı ***İspaniya kralının canişin*** və onun yanında yaradılan ***gizli şura*** idarə edirdi. Əslində bütün hakimiyyət ***gizli şuranın*** əlində idi. Niderlandda ispan zülmünə qarşı qəzəb getdikcə artırdı. Xüsusilə katolik kilsəsi kəskin narazılıq doğururdu. Əhali arasında kalvinçiliyə meyil güclənirdi. Bu dövrdə **İspaniya kralı II Filip** Niderlandda ***aşağıdakı tədbirləri*** həyata keçirdi:

- ➢ Niderlandda protestantlara qarşı inkvizisya (kilsə məhkəmələri) tətbiq etdi. Özlərini katolik hesab etməyənləri və ya kilsəyə getməyənləri tutaraq inkvizisiya məhkəmələrinə verdi.
- ➢ Kütləvi təqiblər, edamlar, tonqalda yandırma cəzaları həyata keçirdi.

### Niderland burjua inqilabının başlanması

**1566-cı ildə** Niderlandda xalq hərəkatı başladı. **1579-cu ildən** xalq hərəkat inqilaba çevrildi. Bu elə bir inqilab idi ki, feodalizm quruluşunu kapitalizm quruluşu ilə əvəz edəcəkdir. Niderland burjua inqilabının əsas səbəbi ***katolik kilsəsi*** və ***ispan zülmü*** idi.

İspaniya kralı II Filippin Niderland inqilabına qarşı mübarizə aparmaq üçün sərt və rəhimsiz **hersoq Albanı** seçmə qoşunla buraya göndərdi. Hersoq Alba Niderlanda gələn kimi Niderland inqilabına qarşı aşağıdakı ***tədbirləri*** həyata keçirdi:

- ***Fövqaladə məhkəmə olan "qiyam işlərinə baxan şura" ("qanlı şura" ) yaratdı.***
- ***Yerli zadəganları qorxutmaq üçün ən varlı və adlı-sanlılarını cəzalandırdı.***

Niderland burjua inqilabı zamanı inqilabçıların əsas qüvvəsini ***meşə gözləri*** və ***dəniz gözləri*** təşkil edirdi. Meşə gözlərinin tərkibi ***kəndlilər, sənətkarlar*** və ***fəhlələrdən*** ibarət idi. Onlar meşələrə çəkilərək ispanlara qarşı partizan dəstələri yaratmışdılar. Dəniz gözlərinin tərkibinə isə ***dənizçilər*** və ***balıqçılar*** daxil idi.

### 1572-ci il üsyanı

Niderland burjua inqilabı zamanı ispan və katolik zülümündən xaricə qaçan niderlandlılar da xalqa kömək göstərirdilər. Onların yardımı nəticəsində dəniz gözləri xeyli qüvvətləndi və **1572-ci ildə Brill limanını** tutdular. Dəniz gözləri tərəfindən ***Brill limanının tutulması Hollandiyanın şimalında üsyanın başlanması üçün işarə*** oldu. Brill limanı şimaldakı üsyanın dayağına çevrildi. 1572-ci il üsyanından sonra üsyançılar:

- ✓ *Kilsəyə onda bir vergisi verməyi dayandırdılar.*
- ✓ *Feodal mükəlləfiyyətlərini yerinə yetirməkdən boyun qaçırdılar.*
- ✓ *Kilsə və monastırlara məxsus torpaqları tutmağa başladılar.*
- ✓ *İspan kralının tərəfini saxlayan zadəganların mülklərini dağıtdılar.*

### Niderlandın şimalında inqilabın qalib gəlməsi


Vilhelm

Niderlandda inqilaba ***burjuaziya*** başçılıq edirdi. Niderlandın şimalında hakimiyyəti ələ keçirən burjuaziya şimal əyalətlərinə **Oranlı Vilhelmi** hakim təyin etdi. Vilhelm zadəgan olsa da ***Niderlandın azadlığı uğrunda mübarizə apardığı üçün*** burjuaziya onu hakimiyyətə gətirmişdi.

Niderlandda uğursuzluqlara baxmayaraq kral II Filipp müharibəni davam etdirdi. İspan ordusu **Leyden şəhərini** mühasirəyə alaraq ərzaq ehtiyyatı tükənən şəhərlilərə təslim olmağı tələb etdilər. Ölkəni dəniz sularından qoruyan bəndlər dəniz gözlərinin şəhərə yaxınlaşmağa və kömək etməyə imkan vermirdi.

Mühasirədəkilərə kömək etmək üçün dəniz gözləri ***"torpağı itirməkdənsə suda batırmaq yaxşıdır"*** deyərək şəhəri qoruyan sahildəki bəndləri dağıdıb ispanların üzərinə axıtdılar. Nəticədə ispanlar vahiməyə düşüb qaçdılar. Dəniz gözləri Leydenə daxil oldular.

**1576-cı ildə** ispan əsgərləri ***Antverpen şəhərini*** tutub dağıtdılar. Bununla da şəhər tənəzzül etdi. İspanların Antverpen şəhərini dağıtmasından qəzəblənən ***cənub əyalətlərinin əhalisi üsyana qoşuldu.*** Lakin qorxuya düşmüş ***yerli zadəganlar*** burada üsyanı yatırmaqda ispanlara kömək etdilər. **1579-cu ildə** bəzi cənub əyalətləri birləşib, İspaniya kralına tabe olmağa razılaşdılar. Cənubi Niderland II Filippin hakimiyyətini tanıdı. Beləliklə, **1579-cu ildə** Cənubi Niderland İspaniyanın hakimiyyəti altında qaldı. Cənubi Niderlandın İspaniyanın hakimiyyəti altında qalmasının səbəbi xalq hərəkatından qorxan ***zadəganların üsyanı yatırmaqda ispanlara kömək etməsi*** idi.

### Hollandiya respublikasının yaradılması (1579)

Cənubi Niderlandın İspaniyanın hakimiyyəti altında qalmasına cavab olaraq **1579-cu ildə** Niderlandın yeddi şimal əyaləti cənub əyalətlərindən fərqli olaraq, **Utrext şəhərində** birləşərək **vahid dövlət - Hollandiya respublikasını** yaratdılar. Bir qədər sonra Şimali Niderland II Filippi öz kralı kimi tanımaqdan imtina etdi. Burjuaziya dövlətin başında Oranlı Vilhelmi görmək istəsə də, o ispanların pulla tutduğu qatil tərəfindən öldürüldü. Dövləti ***burjuaziya və əyanlardan ibarət "Milli şura"*** idarə etməyə başladı. Lakin Hollandiya daha 30 il (1579-1609) İspaniyaya qarşı mübarizə aparmalı oldu. Nəhayyət, **1609-cu ildə** İspaniya ilə Hollandiya arasında barışıq imzalandı. Sazişin şərtlərinə əsasən:

1. **Niderlandın şimalında İspaniya ağalığına son qoyuldu**.
2. **İspaniya Hollandiyanı müstəqil dövlət kimi tanıdı**.

Beləliklə, burjuaziyanın başçılıq etdiyi xalq hərəkatı - Niderland burjua inqilabı nəticəsində:

- ✓ **Dünyada birinci burjua respublikası olan Hollandiyada respublikası yarandı.**
- ✓ **Niderlandda feodal qaydalarını qoruyub saxlayan ispan ağalığına son qoyuldu**.
- ✓ **Qərbi Avropanın kiçik bir hissəsində feodalizm quruluşu dağıldı.**

Niderland inqilabı ilk burjua inqilabı idi. Burjua inqilabının qələbəsi Hollandiyada kapitalizmin inkişafına yol açdı. Hollandiya ispan zülmündən azad olduqdan sonra onun təsərrüfatı uğurla inkişaf etdi, yeni manufakturalar meydana gəldi. Toxuculuq sənayesi inkişaf etdi. Amsterdam dünya ticarətinin mərkəzinə çevrildi. Hollandiya Avropanın, demək olar ki, bütün ölkələri ilə ticarət edir, öz gəmiləri ilə müxtəlif ölkələrin mallarını daşıyırdı. Bu dövrdə Hollandiya tacirləri Çin və Yaponiya ilə ticarət əlaqəsi saxlayırdılar. Hollandlar tərəfindən ilk dəfə olaraq Çindən Avropaya çay gətirilməsinə başlandı.

| *"Gizli Şura"* | *"Qanlı Şura"* | *"Milli Şura"* |
|---|---|---|
| XVI əsrdə İspaniya kralının canişini yanında Niderlandı idarə edən orqan idi. | Hersoq Albanın Niderlandda yaratdığı fövqaladə məhkəmə (qiyam işlərinə baxan şura) idi. | Hollandiya dövlətini idarə edən, burjuaziya və əyanlardan ibarət dövlət orqanı idi. |




*Leyden şəhərinin mühasirəsi (1574-cü il). Hollandiya ilə İspaniya arasında barışıq sazişi (1609-cu il)*

## XIV-XVI əsrlərdə Qərbi Avropada texniki kəşflər və ixtiralar

### Su mühərriklərinin təkmilləşdirilməsi

XV-XVI əsrlərdə Qərbi Avropada texnikanın inkişafındakı nailiyyətlərin əsasında ***su mühərriklərindən istifadə*** dururdu. Hələ ***qədim dövrdə aşağıdan fırlanan su çarxından*** istifadə edirdilər. Bu dövrdə ***yuxarıdan fırlanan çarx*** ixtira olundu. Beləliklə, su mühərriklərinin təkmilləşdirilməsi və ondan istifadə ***nəticəsində:***

- ✓ *Metal emalı zamanı metalı çox böyük çəkiclə döymək mümkün oldu.*
- ✓ *Kağız istehsalında ağır qısqacları qaldırıb endirməyə kömək etdi.*
- ✓ *Yerin altındakı dərin şaxtalarda filizi çıxarılmağa başlanıldı.*
- ✓ *Filiz (çuqun, dəmir, polad) və daş-kömür istehsalı xeyli artdı.*
- ✓ *Odlu silahların istehsalı üçün imkanlar genişləndi.*

### Domna sobalarının ixtirası

Filiz istehsalının artması ***metal əridilməsini və emalını təkmilləşdirməyi*** tələb edirdi. Bu isə Qərbi Avropada **XVI əsrdə *domnaların (metal əridən iri sobaların)*** tikilməsinə səbəb oldu. Domna sobalarının tikilməsi ilə ***filizə*** tələbat artdı. Domnada alınan çox yüksək temperaturda dəmir filizi əriyərək ***maye çuquna*** çevrilir, tökmə üsulu ilə isə çuqundan müxtəlif əşyalar hazırlanırdı. Çuqunu təkrar əritməklə ***dəmir*** və dəmiri təkrar əritməklə isə ***polad*** alırdılar. Beləliklə domnaların ixtira edilməsi və tikilməsi ***nəticəsində***:

- ✓ ***Daha çox metal əritmək mümkün oldu***.
- ✓ ***Çuqun, dəmir və polad əldə edildi***.

### Odlu silahların ixtirası

Odlu silahlar istehsalı çoxlu filiz - ***çuqun*** və ***dəmir*** tələb edirdi. Su mühərriklərinin təkmilləşdirilməsi və ondan istifadə nəticəsində odlu silahların istehsalı üçün imkan yarandı. Artıq **XVI əsrdə** Avropada ***ağır (mühasirə)*** və ***yüngül (səhra) topların*** istehsalı artdı. **XVI əsrdə** odlu əl silahları da təkmilləşdirildi, ***tapançalar*** və ***müşkeklər*** meydana çıxdı. Odlu silahın istehsalı və yayılması hərbi işdə yeni mərhələ açdı.

### Kompasın və karavellaların ixtirası

Avropalılar uzun müddət öz qitələrinin sahillərindəki dənizlərdə üzür, uzaq səfərlərə çıxa bilmirdilər. Bunun səbəbi ***səyyahların düzgün xəritələrinin*** və ***dəniz cihazlarının olmaması*** idi. Kompasın əldə edilməsi, gəminin olduğu yeri müəyyən edən cihazların ixtirası dənizçilərin işini yüngülləşdirdi, səyyahların açıq dənizdə uzaq səfərlərə çıxmasına şərait yarandı.

**XV əsrdə Karavellaların – yelkənli gəmilərin** kəşfi uzaq dəniz səyahətlərini mümkün etdi. Karavella yelkənli yüngül gəmi idi. Gəmi sürətlə hərəkət edirdi və daha tutumlu idi. Karavellanın əsas üstünlüyü ondan ibarət idi ki, onun düz və çəpəki yelkənləri küləyin hansı istiqamətdə əsməsindən asılı olmayaraq lazımi istiqamətdə hərəkət edə bilirdi.

Beləliklə, XV-XVI əsrlərdə Gəmiqayırmanın inkişafı, odlu silahların meydana gəlməsi, dənizçiliyə aid cihazların təkmilləşməsi dəniz səyahətlərinə geniş imkanlar açdı.

**XV-XVI əsrlərdə Qərbi Avropada kəşf və ixtiralar**












*Su çarxı. Domna sobası. Karavella.*







*Ağır və yüngül toplar. Müşkeklər*

# Amerika xalqları böyük coğrafi kəşflər ərəfəsində (XV əsrdə)

## XV əsrdə Amerika xalqlarının sosial və iqtisadi vəziyyəti

XV əsrdə Amerika xalqları:

- ✓ Hələ də ***ibtidai icma quruluşunda*** yaşayırdılar.
- ✓ Becərdikləri kartof, günəbaxan, qarğıdalı, pomidor, kakao və tütündən avropalılar xəbərsiz idilər.
- ✓ ***Mayya, astek*** və ***inklər*** inkişaf səviyyəsinə görə digər Amerika xalqlarından fərqlənirdilər.
- ✓ Dəniz səyyahı Xristofor Kolumb Amerika qitəsinə çıxana qədər avropalıların onların varlığından xəbəri yox idi.

***XV əsrdə Amerikada inkişaf səviyyəsinin yüksək olduğu xalqlar***

| Mayyalılar | Asteklər | İnklər |
|---|---|---|

## Mayyalılar

Mayyalılara ***aiddir:***

- ✓ Mərkəzi Amerikada - ***Yukatan yarımadasında*** yaşayırdılar.
- ✓ ***Şəhər-dövlətlər*** yaratmışdılar.
- ✓ Şəhər-dövlətlərini ***hökmdarlar*** idarə edirdi.
- ✓ Gözəl ***saray*** və ***məbədlər*** tikirdilər.



## Asteklər

Asteklərə ***aiddir:***

- ✓ Meksikada yaşayırdılar.
- ✓ Paytaxtı Mexiko Amerikanın ən zəngin şəhəri sayılırdı.
- ✓ ***Hərb sənəti*** yaxşı inkişaf etmişdi.
- ✓ Müharibə vaxtı ***150 min ordu*** çıxara bilirdilər.



*Asteklərdə hərb sənəti*

## İnklər

İnklərə ***aiddir:***

- ✓ Cənubi Amerikanın qərbində, **Peruda** yaşayırdılar.
- ✓ Ölkənin paytaxtı **Kusko** Amerikanın ilk şəhərlərindən sayılırdı.
- ✓ Ölkədə hər şey ***müharibənin tələblərinə*** tabe edilmişdi.
- ✓ Peru dağlıq ölkə olduğu üçün ***asma körpülər*** salırdılar.
- ✓ Ayrı-ayrı ərazilər arasında ***poçt rabitəsindən*** istifadə olunurdu.
- ✓ Ölkədə kimin əkinçiliklə, kimin isə hərbi işlə məşğul olması dövlət tərəfindən müəyyən edilirdi.



*Çiçen-itsada mayya məbədi (piramida)*



*Astek məbədi*



*İnklərə aid yaşayış məskəni (Machu Picchu)*

# Böyük coğrafi kəşflər və müstəmləkə işğallarının başlanması

## Böyük coğrafi kəşflərin səbəbləri

XV əsrdə Avropada təsərrüfat və ticarətin inkişafı ilə əlaqədar olaraq qızıla olan tələbat artdı. Qızıl əldə etmək məqsədilə avropalılar müxtəlif yollar axtarırdılar. O zaman qiymətli daş-qaş, qızıl ilə zəngin olan Hindistanla ticarət ***ərəblərin*** əlində idi. Kiçik Asiyadan və Suriyadan keçən yollara Osmanlılar yiyələnmişdilər. Osmanlıların fəthləri avropalıların Asiyaya yeni yollar axtarışlarını sürətləndirdi. Bu məqsədlə Portuqaliya kralları Atlantik okeanının qərb sahilləri boyu gəmilər göndərirdilər.

Beləliklə, Böyük coğrafi kəşflərin səbəbləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. *Avropada əmtəə istehsalının çoxalması, ticarətin inkişaf etməsi, pula və qızıla tələbatın artması.*
2. *Çin və Hindistanla ticarətin ərəblərin əlinə keçməsi.*
3. *Kiçik Asiya və Suriyadan keçən ticarət yollarına osmanlıların yiyələnməsi.*
4. *Avropalıların Şərqlə birbaşa ticarət etmək, ticarətdən gələn böyük gəlirə sahib olmaq istəyi.*
5. *Dəniz cihazlarından, kompasdan istifadə, karavella gəmilərinin düzəldilməsinin uzaq dəniz səyahətlərinə çıxmasına imkan verməsi.*

***Böyük coğrafi kəşflərin əsas səbəbləri***

- Əmtəə istehsalının artması
- Kiçik Asiya və Suriyadan keçən ticarət yollarının osmanlıların əlinə keçməsi
- Avropada qiymətli metallara tələbatın artması




*Böyük coğrafi kəşflər*

### Bartalomey Diaşın Ümid burnunu kəşf etməsi (1487-1488)


*Bartalomey Diaş*

Şərqə yeni yollar axtarmaq məqsədi ilə **XV əsrin əvvəlindən başlayaraq Portuqaliya kralları** Atlantik okeanına və Afrikanın qərb sahillərinə ardıcıl gəmilər göndərdi. Bu gəmilər Afrikanın qərb sahilləri ilə üzürdü. Portuqaliyalılar ***ilk dəfə*** kölə alverinə başladılar. Onlar yerli əhaliyə şüşə parçaları, kiçik güzgü verir, yerinə ***qızıl tozu, fil sümüyü*** alırdılar. **Qızıl sahili, Fil dişi sahili, Kölə sahili** adı buradan yaranmışdı. Portuqaliya ekspedisiyalarından birinə **Bartalomey Diaş** başçılıq edirdi. Bartalomey Diaş başçılıq etdiyi ekspedisiya ilə ilk dəfə ***Afrikanın cənubundan keçib Hind okeanına çıxdı.*** Lakin ***yolun çətinliyi və uzunluğu dənizçiləri yorduğuna görə*** onlar geri qayıtdılar. Beləliklə, Bortolomey Diaşın səyahətini ***Afrikanın cənubundakı Ümüd burnunadək*** davam etdirə bildi. Ekspedisiya zamanı Bortolomey Diaş Afrikanın cənubundakı burunu **Ümüd burnu** adlandırdı (indi İynə burnu adlanır). Sonralar Portuqaliya kralı **Vasko da Qamanın** başçılığı altında Hindistana dəniz yolu axtaran yeni ekspedisiya göndərdi.

### Xristofor Kolumbun Amerikanı kəşf etməsi (1492)


*Xristofor Kolumb*

XV əsrdə dənizçilər qədim alimlərin ***yerin kürə şəklində olması haqqında fikirləri ilə*** maraqlanırdılar. Bu fərziyyəyə əsaslanan alimlər qərbə tərəf üzməklə Hindistana gedib çıxmağı düşünürdülər. Belə adamlardan biri **Xristofor Kolumb** idi. Əslən italiyalı olan Xristofor Kolumb Qərbə tərəf üzərək Hindistana çatmağa cəhd edən ***ilk Avropa dənizçisi*** olmuşdu. Kolumb ***Hindistana gedən dəniz yolunu*** kəşf etmək istəyirdi. Bu məqsədlə o, İspaniya kral sarayına müraciət etdi. Kral Kolumba müsbət cavab verib, onu gələcəkdə ələ keçirəcəyi ərazilərə hakim təyin edir və maddi kömək göstərir.


*Ameriqo Vespuçi*

Kolumb **1492-ci ildə** 90 nəfər heyyətlə və 3 karavella ilə yola düşərək İspaniyadan Atlantik okeanı vasitəsilə qərbə doğru üzməyə başladı. X.Kolumbun gəmiləri 70 gündən sonra, **Kuba** və **Haiti adalarını** kəşf etdi. Lakin nə qızıl, nə də başqa qiymətli sərvət tapmadı. Salamat qalmış bir gəmi ilə İspaniyaya qayıtdı. Kolumb həmin yolla daha üç dəfə səfərə çıxdı. Kolumbun sərvət axtarışları nəticəsiz qaldı. Buna görə də bütün var-dövlətini sataraq səfərə çıxdıqları gəmilərin xərcini ödədi. Kolumb kəşf etdiyi əraziləri Hindistan hesab edirdi. Ona görə buranı ***"Hindistan"***, əhalisini isə ***"hindular"*** adlandırdı. Əslində isə onun kəşf etdiyi yeni qitə **Amerika** idi. Lakin, Kolumb ömrünün sonunadək ***yeni qitə kəşf etdiyini*** bilməmişdir. Az sonra İtaliya səyyahı **Ameriqo Vespuçi** Kolumbun kəşf etdiyi torpaqların yeni qitə olduğunu sübut etdi (1499-1504-cü illərdə). Buna görə də yeni qitə onun adı ilə **Amerika** adlandı.

### Vasko da Qamanın Hindistana gedən dəniz yolunu kəşf etməsi (1498)


*Vasko da Qama*

Portuqaliya kralı Hindistana dəniz yolunu kəşf etmək üçün **Vasko da Qamanın** başçılığı ilə ekspedisiya göndərdi. Vasko da Qama **1498-ci ilin mayında** ərəb **İbn Məcidin** köməyi ilə Hindistanın **Kəlküttə (Kalikut) şəhərinə** gəlib çıxdı. Beləliklə, Hindistana dəniz yolu kəşf olundu. Daha sonra Vasko da Qama Hindistandan çoxlu ədviyyat aldı və Avropaya qayıtdı. Bununla da portuqaliyalılar ekspedisiyaya çəkilən xərcdən 60 dəfə çox qazanc əldə etdilər.

### Fernando Magellanın dünya səyahəti (1519-1522)


*Fernando Magellan*

**1519-cu ildə** Fernando Magellanın başçılığı ilə ispan gəmiləri dünya səyahətinə başladılar. Magellanın ekspedisiyası Cənubi Amerika sahilləri boyu üzüb qərbə doğru gedən bir boğaza çatdılar və oradan keçib okeana çıxdılar. Bu okeanda 4 ay üzdükləri müddət ərzində heç bir hadisə baş vermədiyinə görə ona ***"Sakit okean"***, keçdikləri boğaza isə ***"Magellan boğazı"*** adı verildi. Səyahət zamanı Magellan **Filippin adalarında** yerli əhali ilə toqquşmada öldürüldü (1521-ci ildə). Lakin səyahət **Del Kano tərəfindən** davam etdirildi və 1522-ci ildə başa çatdırıldı. Dənizçilər İspaniyadan qərbə doğru üzərək yenidən İspaniyaya qayıtdılar.

Magellanın ilk dünya səyahəti ***yerin kürə şəklində olduğunu və vahid dünya okeanının mövcudluğunu*** sübut etdi. Magellandan sonra dünya səyahətini dəniz qulduru ingilis **Frensis Dreyk** təkrar etmişdir.



*Xristafor Kolumbun Amerika torpaqlarına ilk dəfə ayaq basması (1492)*



*Vasko da Qammanın Portuqaliyadan Hindistana yola salınması (1497)*



*Vasko da Qammanın Hindistanın Kəlkütta (Calikut) şəhərinə gəlib çıxması (1498)*

### İlk müstəmləkə işğalları. Portuqaliya və İspaniyanın Asiya, Afrika və Amerikadakı mülkləri

İşğala məruz qalmış və müstəqilliyini itirmiş ərazilər ***müstəmləkələr*** adlanırdı. Böyük coğrafi kəşflər nəticəsində ilk müstəmləkələri **Portuqaliyaya** və **İspaniya** ələ keçirdi.

Portuqaliyalılar donanma və odlu silahdan istifadə edərək, **Ərəbistan** və **Hindistan yarımadasını**, **Şərqi Afrikanın Hind okeanı sahillərini** müstəmləkəyə çevirdilər. Bununla kifayətlənməyən portuqaliyalılar Şərqə doğru irəliləyərək daha çox ədviyyat növləri becərilən **Zond** və **Molukk adalarını** tutdular. Onlar daha sonra **Çinə** və **Yaponiyaya** gedib çıxdılar. Cənubi Amerikada isə yalnız **Braziliya** müstəmləkəsi portuqaliyalılara məxus idi.

İspaniya Braziliyadan başqa bütün Cənubi Amerikanı müstəmləkəyə çevirdi. İspanlar Kuba və Karib dənizlərindəki adalarda hindiləri tamamilə məhv etdilər. Sağ qalmaq istəyən əhali dağlara və meşələrə çəkildi. Yerli ***əhalinin kütləvi şəkildə məhv edilməsi*** Amerikada ***qula ehtiyacı*** artırdı. İşçi qüvvəsi çatışmadığına görə avropalılar **Afrikadan** zənci qullar gətirməyə başladılar. Qul alveri ilə əvvəlcə ***portuqaliyalılar,*** sonra isə ***ispanlar, hollandlar*** və ***ingilislər*** məşğul oldular.

Beləliklə, Böyük coğrafi kəşflər ***ilk müstəmləkə işğallarının başlanmasına*** zəmin yaratdı. Müstəqilliyini itirmiş və işğalçıların zülümü altına düşmüş ərazilər ***müstəmləkə*** adlanmağa başladı. Hindistandan gedən dəniz yolunun kəşfi, müstəmləkələrin yaranmasına aparan yol oldu.

***İlk müstəmləkə dövlətləri***

**Portuqaliya** | **İspaniya**

| *Portuqaliyalıların müstəmləkələri* | *İspaniyalıların müstəmləkələri* |
|---|---|
| ✓ Ərəbistan və Hindistan yarımadası sahilləri<br>✓ Şərqi Afrikanın Hind okeanı sahilləri<br>✓ Zond və Molukk adaları<br>✓ Braziliya | ✓ Braziliyadan başqa, bütün Cənubi Amerika<br>✓ Kuba və Karib dənizinin adaları<br>✓ Peru |

***Portuqaliya və İspaniyanın müstəmləkələri (XVI əsrdə)***



## Böyük coğrafi kəşflərin nəticələri

Böyük coğrafi kəşflər ***nəticəsində:***

- ✓ Dünya ticarəti meydana gəldi, uzaq qitələr arasında ticarət əlaqələri genişləndi.
- ✓ Əsas ticarət yolları Aralıq dənizindən okeanlara keçdi.
- ✓ Amerika, Asiya və Afrikada müstəmləkə işğallarının əsası qoyuldu.
- ✓ Müstəmləkələrlə ticarət **İngiltərə, Niderland** və **Portuqaliyanın** limanlarında cəmləşdi.
- ✓ Hollandiyanın **Antverpen şəhəri** dünya ticarətinin başlıca mərkəzinə çevrildi.
- ✓ Avropaya Asiyadan ***çay, qəhvə,*** Amerikadan ***kakao*** və ***tütün*** gətirilməyə başlandı.
- ✓ Avropada ***əmtəə istehsalı*** artdı.

***XVI əsrdə müstəmləkələrlə ticarətin cəmləşdiyi ölkələr***

- **İngiltərə**
- **Niderland**
- **Portuqaliya**

# Avropa və Amerika xalqlarının mədəniyyəti

## Karolinq oyanışı

Orta əsrlərin ilk dövründə Qərbi Avropada savadlı adamlar çox az idi. Hətta kralların çoxu oxuyub-yazmağı bacarmırdı. Savadlı adamlar, əsasən, ***kilsə xadimləri*** idi. Xristian kilsəsi antik dünya mədəniyyətindən ancaq özünə lazım olanları - məktəbi, yazını və bəzi bilikləri qoruyub saxlamışdı.


*Karolinq minuskulası*

Frank imperiyasını idarə etmək üçün Böyük Karla savadlı adamlar və məmurlar lazım olduğu üçün kral təhsilə, elmə xüsusi diqqət yetirirdi. Böyük Karl hakimiyyəti dövründə elm və təhsil sahəsində aşağıdakı mühüm tədbirləri həyata keçirdi:

- ✓ Monastırların nəzdində məktəblər açdırdı. Kilsə məktəblərində uşaqlar yazı, oxu və hesabı öyrənirdilər.
- ✓ Latın əlifbası əsasında yeni xüsusi şrift - ***«Karolinq minuskulası»*** yaradıldı.
- ✓ Frank sarayına İngiltərə, İspaniya və İtaliyadan savadlı adamlar dəvət etdi.
- ✓ **«Saray akademiyası»nı** yaratdı. Akademiyada antik dövr müəlliflərinin əsərləri oxunur və müzakirə edilirdi.

Böyük Karlın gördüyü tədbirlər nəticəsində mədəniyyət yüksəliş dövrünə qədəm qoydu. Həmin dövrü «***Karolinq oyanışı***» adlandırırlar.

## Bizans mədəniyyəti

Yunan və Roma mədəniyyətindən bəhrələnmiş Bizans Orta əsrlər dövründə özünəməxsus mədəniyyət yaratmışdı. Ölkənin geniş ticarət əlaqələri coğrafiyaya və tarixə aid biliklərin inkişafına səbəb olmuşdu.

Bizans imperatoru **Yustinianın** 532-537-ci illərdə Konstantinopolda tikdirdiyi **Müqəddəs Sofiya məbədi** Bizansın ən gözəl memarlıq əsərlərindəndir. Osmanlı türkləri Konstantinopolu tutduqdan sonra bu binanı məscidə çevirdilər.


*Müqəddəs Sofiya məbədi*

Bizans şəhərləri təkcə sənətkarlıq və ticarət şəhərləri deyil, həmdə elm mərkəzləri idi. Bunlardan biri də Konstantinopol şəhəri idi.

**1045-ci ildə** Konstantinopolda ***universitet*** açıldı. Onun hüquq və fəlsəfə fakültələri var idi. Konstantinopolda ***ali tibb məktəbi*** də fəaliyyət göstərirdi.

## İlk universitetlərin meydana gəlməsi

Orta əsrlər dövründə Avropada getdikcə böyüyən şəhərlərdə savadlı, bilikli adamlara ehtiyac artırdı. Şəhərləri, ticarətdən əldə olunan mənfəəti hesablamaq üçün savadlı adamlar lazım idi. Odur ki, Avropada ali məktəblər olan universitetlər meydana gəldi. Avropada ilk universitet **1158-ci ildə** İtaliyanın **Bolonya** şəhərində açıldı. **XIII əsrdə** İngiltərədə **Oksford Universiteti** yaradıldı.

Məktəb və universitetlərin açılması kitaba olan tələbatı artırırdı. Alman alimi **İohan Quttenberq 1445-ci ildə** Avropada *kitab çap üsulunu* kəşf etdi və çap dəzgahı ilə ilk kitabını buraxdı.


*Dünyada ilk universitetlərdən biri kimi qəbul edilən və hələ də fəaliyyətdə olan Boloniya Universiteti İtaliyanın eyni adlı şəhərində yerləşir. Doqquz əsrlik tarixi ərzində burada bir çox şəxsiyyətlər təhsil almışdır. Hazırda universitetdə 80.000-dən çox müxtəlif millətlərdən olan tələbə təhsil alır.*


*Oksford Universiteti İngiltərənin Oksford şəhərində yerləşir. Universitet, 39 Kollecin bir növ federal sistem içərisində bir araya gəlməsiylə yaranmışdı. Universitet indiki dövrdə də dünyanın ən nüfuzlu təhsil müəssisələrindən biridir. Universitetdə təxminən 130 ölkədən 18.000-dən çox tələbə təhsil almaqdadır.*

## Avropa intibahı

Şərqin ardınca Avropada da mədəni oyanış baş verdi. Şəhərlərdə meydana gələn zehni əməklə məşğul olan insanlar qrupunu - ziyalıları daha çox insan maraqlandırırdı. Buna görə onları ***humanistlər*** adlandırırdılar. Antik mədəniyyətə maraq onu yenidən canlandırdı. Buna görə yeni mədəniyyətin yarandığı dövr «***Renessans dövrü***» (İntibah dövrü) adlanır. XIV əsrin əvvəlləri – XVI əsrin sonlarını əhatə edən «Renessans dövrü»ndə Avropa mədəniyyətində böyük yüksəliş baş verdi. Avropalılar bu mədəniyyəti Amerikaya da yaydılar.

## İtaliya intibahının görkəmli nümayəndələri

İtaliya intibahının ən görkəmli nümayəndələri **Leonardo da Vinçi, Mikelancelo** və **Rafael** idi.

- **Leonardo da Vinçin** dünyaca məşhur olan ***«Mona Liza» («Cokonda»)*** portretində gənc qadının daxili aləmini, dəyişən əhvalruhiyyəsini onun zahiri görünüşündə ustalıqla vermişdir.
- **Rafael *«Məryəm ana»*** əsərində övladını insanların səadəti naminə qurban verməyə hazır olan qadını təsvir etmişdir.
- Dahi heykəltəraş **Mikelancelonun** 5,5 metr hündürlüyündə olan **«David»** heykəlini böyüklüyünə görə müasirləri **«Nəhəng»** adlandırırdılar. İtaliyanın Florensiya şəhərinin mərkəzi meydanında olan **«David» heykəli o** vaxtdan bu şəhərin himayədarı və simvolu hesab olunur.

İntibah dövründə memarlıqda ***roma*** və ***qotik üslublu*** tikililər üstünlük təşkil edirdi. Orta əsr rus memarlığının zirvəsi Moskvada Qızıl meydandakı **Pokrov kilsəsidir**. Bu kilsə **Vasili Blajennı** məbədi adı ilə məşhurdur.



*Leonardo da Vinçi.*
*«Mona Liza»*



*Rafael Santi.*
*«Məryəm ana»*



***Mikelancelo***
***«David» heykəli***

## Ədəbiyyat

Qərbi Avropanın humanist yazıçıları feodal qaydalarına qarşı çıxır, ədalətli quruluş arzulayırdılar. Bu dövrün böyük ingilis yazıçısı **Tomas Mor** (1477-1535) çəpərləmələri, qanlı qanunları pisləyir və özünün uydurduğu xoşbəxt ölkəni **«Utopiya adası»** adlandırırdı. İngilis yazıçısı **Vilyam Şekspir** (1564-1616) ***«Hamlet», «Otello», «Kral Lir»*** və başqa əsərləri ilə dünya şöhrəti qazanmışdı.



*Tomas Mor*



*Vilyam Şekspir*

## İslam mədəniyyəti və Avropa

Orta Əsrlər dövründə Bizansın, eləcə də Avropa xalqlarında mədəniyyətin bəzi sahələrinin yaranmasında və inkişafında İslam mədəniyyətinin təsiri olduqca böyükdür. İbn Sinanın, Əl-Biruninin və başqa müsəlman alimlərinin əsərləri Avropada bəzi elm sahələrinin inkişafı üçün mənbə rolunu oynamışdı. Məsələn, **İbn Sinanın *«Tibbin qanunları»*** əsəri altı əsr Avropanın bütün tibb fakültələrində öyrədilmişdi. **Nəsirəddin Tusinin *«Zic Elxani»*** əsəri **Kopernikin** yeni nəzəriyyəsinin yaranmasına kömək göstərmişdi.

Polyak alimi **Nikolay Kopernik** (1473-1543) səma cisimlərini müşahidə edərək belə nəticəyə gəldi ki, ***Yer həm öz oxu, həm də Günəş ətrafında fırlanır***. Böyük italiyan mütəfəkkiri **Cordano Bruno**(1548-1600) ***kainatın sonsuz olduğunu söylədiyinə görə*** kilsə məhkəməsinin qərarı ilə ***tonqalda*** yandırılmışdı.



Nikolay Kopernik




Cordano Bruno

### Amerika xalqlarının mədəniyyəti

Amerika xalqları Avropa və Asiya mədəniyyəti ilə heç bir əlaqəsi olmayan orijinal bir mədəniyyət yaratmışdılar. Mayya xalqı mədəni səviyyəsinə görə digər Amerika xalqlarından öndə idi. **III əsrdən** etibarən ***mayyalıların yazısı*** olmuşdur. Bu yazı ***heroqliflərdən*** ibarət idi. ***Mayya təqvimi*** qədim xalqların ən dəqiq təqvimlərindən sayılırdı. Mayyalılar hindlilərdən əvvəl ***sıfır rəqəmindən*** istifadə edirdilər. Mayya kahinləri ***planetlərin Günəş ətrafında hərəkətini*** hesablamışdılar. Onlar ***Ay və Günəş tutulmasını*** əvvəlcədən xəbər verə bilirdilər. Riyaziyyatın, astronomiyanın inkişafını onların tikdikləri əzəmətli məbədlər, saraylar, pilləli ehramlar və rəsədxanalar da sübut edir. Çiçen-İtsada mayyalılara məxsus **XII-XIII əsrlərə aid** ehramlar vardır.

Amerika xalqları içərisində mayyalılardan başqa astek və iniklər də yüksək inkişaf səviyyəsinə malik xalqlar idilər. Həmin xalqlarda müxtəlif elmlər, incəsənət, memarlıq, heykəltaraşlıq, sənətkarlıq yaxşı inkişaf etmişdi.



*Mayya yazısı (əlifbası) və mayya rəqəmləri. Daş üzərində oyulmuş mayya təqvimi*

# YENİ DÖVR

Orta əsrlərin son mərhələsində feodal cəmiyyətinin böhranı ilə əlaqədar təsərrüfat həyatında yeni xüsusiyyətlər yarandı. Qərbi Avropanın ictimai həyatında baş vermiş bu yenilikləri tarixçilər sonradan ***kapitalizm*** adlandırmağa başladılar. Yeni dövrün başlıca xüsusiyyətini və əsas məzmununu ***kapitalizmin yaranması və inkişafı*** təşkil edir. Ayrı-ayrı ölkələrdə tarixi inkişaf mərhələlərinin dəyişməsi prosesi müxtəlif vaxtlarda baş vermişdi. Məsələn, **XVII-XIX əsrlərdə *kapitalizm*** ən çox **Qərbi Avropada** və **Şimali Amerikada** inkişaf etmişdir . Bu zaman isə **Asiya ölkələrində *feodalizm qaydaları*** hökm sürürdü.

Kapitalizm quruluşunun özünəməxsus xüsusiyyətləri var idi. Həmin xüsusiyyətlər aşağıdakılardır:

- ✓ *Əmtəə-pul münasibətləri getdikcə gücləndi.*
- ✓ *Əhalinin sosial tərkibində əhəmiyyətli dəyişikliklər baş verdi.*
- ✓ *Cəmiyyətin əsas təbəqəsi olan burjuaziya və muzdlu işçilərin sayı artdı.*
- ✓ *Azad bazar iqtisadiyyatına əslanan manufakturalar, fabrik və zavodlar yaranırdı.*
- ✓ *Maşınlı iri istehsal yarandı.*
- ✓ *Torpaq və zavodlar xüsusi mülkiyyətçilərin əlində idi.*
- ✓ *Avropada yeni sivilizasiya formalaşdı, elm, mədəniyyət sürətlə inkişaf etdi.*
- ✓ *Geniş tətil hərəkatları baş verdi, vətəndaş cəmiyyəti yarandı.*
- ✓ *İnsan hüquqları, vətəndaş cəmiyyəti mühüm əhəmiyyət kəsb etməyə başladı.*

# TÜRK VƏ ŞƏRQ XALQLARI XVII-XVIII ƏSRLƏRDƏ

## Səfəvilər imperiyası

### Siyasi vəziyyət

XVI əsrin sonlarında Şərqin ən böyük imperiyalarından biri olan Səfəvi dövləti osmanlılarla müharibədə məğlub oldu və ərazilərinin bir hissəsini itirdi. Şah I Abbas dövlətin tarixi sərhədlərini bərpa etmək üçün müharibəyə başladı. 1603-1612-ci illərin Səfəvi-Osmanlı müharibəsi Azərbaycan ərazisinin tamamilə azad olunması ilə başa çatdı. Beləliklə, XVII əsrin əvvəllərində Səfəvi imperiyasının keçmiş qüdrəti bərpa olundu.

### İqtisadi vəziyyət

Şah I Abbasın ölümündən sonra taxta çıxan **Şah Səfinin (1629-1642)** dövründə Osmanlı dövləti ilə Qəsri-Şirin sülhünün (1639) bağlaması tərəflər arasında müharibə dayandırıldı. Qəsri-Şirin sülhünü bağlanması nəticəsində:

- ✓ ***Kənd təsərrüfatının, sənətkarlığın və ticarətin inkişafına şərait yarandı.***
- ✓ ***Qonşu dövlətlərlə və Avropa ölkələri ilə iqtisadi və siyasi əlaqələr sürətlə inkişaf etdi.***
- ✓ ***Volqa-Xəzər ticarət yolu xeyli canlandı.***
- ✓ ***Ümumi iqtisadi yüksəliş baş verdi.***

Ümumi iqtisadi yüksəliş ***şəhərlərin inkişafında*** da özünü göstərdi. Beynəlxalq tranzit ticarət yolları üzərində yerləşən şəhərlərdə böyük canlanma baş verdi. Sənətkarlıq və ticarət mərkəzləri olan **Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Ərəş, İsfahan, Kaşan, Yəzd, Şiraz, Həmədan** şəhərləri Avropanın və Asiyanın bir çox ölkələri ilə ticarət edirdi.




*Volqa-Xəzər ticarət yolu*

Ölkədə toxuculuq, metalişləmə, gön-dəri emalı, dulusçuluq daha çox inkişaf etmişdi. Xalça toxuculuğu özünün yüksək zirvəsinə çatmışdı. Toxunan xalçalar, əsasən, **Təbriz, Şamaxı və Bağdad bazarlarında** Avropa tacirlərinə satılırdı. Bu dövrdə Səfəvilər dövlətinin əsas xalçaçılıq mərkəzləri **Kirman, Kaşan, Fars** və **Xuzistan** idi. Lakin XVII əsrin sonlarında ***ənənəvi ticarət yolları dəyişdiyi üçün*** imperiyanın ərazisindən keçən tranzit yolları öz əhəmiyyətini itirdi.

**XVII əsrin sonlarında** ölkə iqtisadiyyatında aparıcı yerlərdən birini tutan ***ipək ticarəti*** zəifləməyə başladı. Bu, iri şəhərlərin beynəlxalq ticarətdəki rolunu zəiflətdi. Ölkənin iqtisadi vəziyyəti pisləşməyə başladı.

Səfəvi dövlətinin ümumi iqtisadi vəziyyətinin pisləşməsi ictimai həyatın bütün sahələrinə mənfi təsir göstərdi. Ölkədə iqtisadi vəziyyətin gərginləşməsi siyasi böhranın da dərinləşməsinə səbəb oldu.

### Səfəvi dövlətinin zəifləməsi və süqutu

Şah I Abbasdan sonra hakimiyyətə gələn şahzadələrin ***dövlət işlərindən uzaq tutulması*** Səfəvi dövlətini zəiflətdi, iri feodalların mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri gücləndi. **Sultan Hüseynin (1694-1722)** dövründə iqtisadi böhran, xəzinənin gəlirlərinin azalması şahı vergiləri artırmağa məcbur etdi. Lakin bu tədbirlər dövlətin tənəzzülünün qarşısını ala bilmədi. XVIII əsrin əvvəllərində xalq kütlələrinin ***feodal zülmünə qarşı*** çıxışları ölkəni bürüdü. Mərkəzi hakimiyyət zəiflədiyinə görə dövlətin əksər vilayətlərində eyni vaxtda baş verən üsyanları yatırmaq mümkün olmadı. Bu zaman ölkədə baş verən üsyanlar **əfqanların**, **Osmanlı** və **Rusiya** dövlətlərinin Səfəvi torpaqlarına müdaxiləsinə şərait yaratdı. **1722-ci ildə** əfqanların yürüşü nəticəsində:

- ✓ Mir Mahmudun başçılıq etdiyi əfqan qoşunları paytaxt İsfahanı ələ keçirdi.
- ✓ Şah Sultan Hüseyn oğlu Təhmasibin xeyrinə hakimiyyətdən əl çəkdi.

Əfqanların qarətçi yürüşündən sonra Səfəvilər dövlətinin torpaqlarının bölüşdürülməsi uğrunda başlayan Osmanlı-Rusiya mübarizəsi **1724-cü ilin iyununda İstanbul müqaviləsinin** bağlanması ilə başa çatdı. Müqaviləyə görə Azərbaycan Osmanlı və Rusiya imperiyaları arasında bölüşdürüldü. Beləliklə, XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin ərazisi əfqanlar, osmanlılar və ruslar tərəfindən bölüşdürüldü.

**XVIII əsrin 20-ci illərinin sonunda** Şah II Təhmasib (1722-1732) əfqanları, osmanlıları və rusları işğal olunmuş Azərbaycan torpaqlaından qovmaq üçün mübarizəyə başladı. Səfəvi dövlətinin belə çətin zamanında ordunun baş komandanı, **Nadir xan Əfşar** mühüm rol oynadı.

**Nadir xan Əfşar** əvvəlcə əfqanlara qarşı müharibədə qalib gələrək onları olkədən qovdu. Daha sonra Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başlayan Nadir xan Təbriz və Ərdəbil şəhərlərini Osmanlı qoşunlarından azad etdi. Nadir xanın uğurlarından narahat olan II Təhmasib öz nüfuzunu qaldırmaq üçün **1731-ci ildə** osmanlılar üzərinə özü hücuma keçdi. Lakin şah, ***İrəvan yaxınlığında döyüşdə*** osmanlılara məğlub oldu. II Təhmasibin ***Osmanlı dövləti ilə sülh bağlaması və yenidən Səfəvi torpaqlarının itirilməsi*** onun Nadir xan tərəfindən **1732-ci ildə** hakimiyyətdən kənarlaşdırılması və azyaşlı oğlu **III Abbasın** şah elan olunması ilə nəticələndi. Bu hadisədən sonra Səfəvilər dövlətində real hakimiyyət III Abbasın qəyyumu kimi Nadir xanın əlinə keçdi. **1733-cü ildə** Nadir xan osmanlılarla sülh bağlandı. Sülhün şərtlərinə görə Osmanlılar işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytardı. İki il sonra isə ruslar Azərbaycandan tamamilə çıxarıldı. Beləliklə, Səfəvi dövlətinin tarixi sərhədləri Nadir xan tərəfindən bərpa olundu.

**Şah I Abbas (1587-1629)** → Osmanlılar işğal etdiyi Azərbaycan torpaqlarından tamamilə çıxarıldı, Səfəvi imperiyasının keçmiş qüdrəti bərpa edildi.

**Şah Səfi (1629-1642)** → Osmanlı dövləti ilə Qəsri-Şirin sülhü imzalandı, Volqa-Xəzər ticarət yolu canlandı.

**Sultan Hüseyn (1694-1722)** → İqtisadi böhran baş verdi, xəzinənin gəlirləri azaldı, feodal zülmü əleyhinə üsyanlar baş verdi, vergilər artırıldı, İsfahan əfqanlar tərəfindən tutuldu.

**Şah II Təhmasib (1722-1732)** → Səfəvilər dövlətinin ərazisi Osmanlı və Rusiya arasında mübarizə meydanına çevrildi, ölkə onlar arsında bölüşdürüldü.

## Nadir Şah Əfşar İmperiyası (1736-1747)

### Muğan qurultayı

Yadellilərin ölkədən qovulmasından sonra Nadir xanın xalq arasında nüfuzu daha da artdı. Bundan istifadə edən Nadir xan **1736-cı ildə** Muğan qurultayını çağırdı. Qurultayda Nadir xan dövlət başçısı - ***şah*** seçildi. Bununla da Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu. Beləliklə, **1736-cı ilin martında** Nadir xan Əfşar Azərbaycan Əfşarlar imperiyasını yaratdı. Nadir şahın hakimiyyəti dövründə:

- ✓ *Ölkədə ara müharibələri kəsildi.*
- ✓ *İri feodalların müqaviməti qırıldı və mərkəzi hakimiyyətə tabe edildi.*
- ✓ *Mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə islahatlar keçirildi.*
- ✓ *Dində sünni-şiə parçalanmasını ləğv etmək üçün tədbirlər görüldü.*



*1736-cı il, Muğan qurultayı*

### Nadir şahın həri yürüşlərə başlaması

Nadir şah 1736-1747) ***dövlətin sərhədlərini genişləndirmək, hərbi yürüşlər hesabına xəzinəni doldurmaq*** məqsədilə **1737-ci ildə Əfqanıstana** yürüş etdi. Yürüş nəticəsində **Qəndəhar və Kabul** ələ keçirildi. Bunun ardınca Böyük Moğol imperatoru Məhəmməd şahı əfqanlara sığınacaq verməkdə günahlandıran Nadir şah Hindistana yürüşə hazırlaşdı. **1738-ci ildə** Nadir şah 100 minlik ordu ilə Hindistana yürüşə başladı. Nadir şah **1739-cu ildə** Lahordan Şahcahanabad istiqamətində yürüşə başladı.Moğol imperatoru Məhəmməd şah böyük ordu **ilə Karnal düzündə** Nadir şahı qarşıladı. Karnal döyüşü nəticəsində Moğol qoşunları ağır məğlubiyyətə uğradıldı. Döyüşdən sonra Moğol hökmdarı Məhəmməd şah şəxsən özü Nadir şahın hüzuruna gələrək sülh bağlamağı təklif etdi. Sülhün şərtlərinə görə ***Hind çayından qərbdəki ərazilər Nadir şahın imperiyasına qatıldı***. Moğol hökmdarının Dehlidəki xəzinəsi, ordugahdakı ərzaq və sursat, top və fillər də Nadir şaha təhvil verildi. Novruz bayramı ərəfəsində Nadir şah top atəşləri ilə **Dehliyə** daxil oldu. Burda onun adına məscidlərdə xütbə oxundu. Elə həmin gün Moğol hökmdarının sarayında ziyafət təşkil olundu.

Təmtəraqlı qəbulun ardınca **Məhəmməd şahın** xəzinəsinin açarları Nadir şaha təqdim olundu. Moğol imperatorunun daş-qaşla bəzədilmiş qızıl taxtı və dünyanın ən məşhur brilyantı **«Kuhi-nur»** da Nadirə hədiyyə edildi.

Beləliklə, Əfşar imperiyasının sərhədləri şərqdə Hind çayına kimi genişləndi.

**1740-cı ildə** Nadir şah Türküstana yürüşə başladı. Yürüşə səbəb ***Xivə xanının Nadir şahın tələblərinə məhəl qoymaması*** idi. Xivə xanı dəfələrlə Xorasana yürüşlər etmişdi. Nadir şah Xorasana növbəti müdaxilələrin qarşısını birdəfəlik almaq istəyirdi. Şiddətli müqavimət göstərməsinə baxmayaraq, Xivə xanı məğlub olaraq Nadir şahın hakimiyyətini qəbul etdi. Bu yürüşdən sonra **Buxara xanı** Əbülfəzl xan özünü Nadirin vassalı elan etdi.



*1739-cu il, Karnal döyüşü.*

**1740-cı ilin sonlarında** Nadir şah Mərvdən keçməklə anadan olduğu Kəlata gələrək buranı abadlaşdırdı, yeni bağlar saldırdı, su ehtiyatlarını artırdı. Özü üçün məqbərə tikilməsinə göstəriş verdi. Məqbərənin tikintisi üçün Marağadan qara mərmər gətirildi.

**1743-1746-cı illərdə** Nadir şah Osmanlı imperiyası ilə apardığı müharibədə bir sıra yeni uğurlar qazandı.



*Məhəmməd şah Nadirin hüzurunda*

Böyük Azərbaycan sərkərdəsi Nadir şah Əfşar sərkərdəlik istedadı ilə dünya fatehləri arasında özünəməxsus yer tutur. Təsadüfi deyildir ki, hərbi uğurlarına və böyük strateq olduğuna görə onu **Şərqin İsgəndəri** və **Napoleonu** adlandırmışlar.

### Əfşarlar imperiyasının süqutu

Nadir şahın apardığı qanlı müharibələr ölkə iqtisadiyyatına ağır zərbə vurdu. Müharibənin bütün xərcləri əhalidən yığılan vergilər hesabına təmin olunurdu. Odur ki, gündən-günə artırılan ***vergilər*** ölkədə narazı qüvvələrin üsyanına səbəb oldu. Böyük imperiyanı çökməyə qoymamağa çalışan Nadir şahın sərt cəzaları da üsyanlar dalğasının genişlənməsinə təkan verdi.

**1747-ci ildə** Nadir şah saray qruplarının sui-qəsdi nəticəsində öldürüldü. Ölkədə ara müharibələri və mərkəzi hakimiyyət uğrunda mübarizə kəskinləşdi.



*«Kuhi-nur»*

Kuhi-Nur 105 karat ağırlığında olan Dünyanın ən böyük almazıdır. Almaz müxtəlif zamanlarda Hindistan, İran, Əfqan, Sinq hökmdarları, sonralar isə Hindistanı ələ keçirən ingilislər tərəfindən ələ keçirilmişdi. 1850-ci ildə İngiltərənin Ost-Hind şirkəti tərəfindən Duleep Sinqdə ələ keçirilmiş almaz Kraliça Viktoriyaya bağışlanmışdı. Almaz hal-hazırda Britaniya tacının bir hissəsini bəzəyir.

## Qacarlar imperiyası

### İranda və Aəzrbaycanda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda mübarizə

Nadir şahın öldürülməsindən sonra İranda və Aəzrbaycanda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda kəskin mübarizə başladı. Bu mübarizə Azərbaycan-türksoylu ***Qacarlar, Əfşarlar və farsmənşəli Zəndlər arasında*** gedirdi. Qacarlar hələ Nadir şahın dövründə **Məhəmməd Həsən xanın** başçılığı altında üsyan qaldıraraq **Astrabad** və **Mazandaranı** ələ keçirmişdilər. Lakin onlar az sonra məğlub olmuş, Məhəmməd Həsən xan isə **Türkmənistana** sığınmışdı. Nadir şahın öldürülməsindən sonra Məhəmməd Həsən xan **Astrabadı, Mazandaranı** və **Gilanı** öz hakimiyyəti altına aldı. Mərkəzi İranda isə farsmənşəli Zəndlər **Kərim xanın** başçılığı ilə hakimiyyət uğrunda mübarizəyə qoşuldular. **Mərkəzi** və **Qərbi İran** Kərim xan Zəndin hakimiyyəti altına keçdi.

Məhəmməd Həsən xan Kərim xanı məğlub edərək onu **Mərkəzi İrana** çəkilməyə vadar etdi. Lakin **1759-cu ildə** Məhəmməd Həsən xan Qacar Sarı şəhəri yaxınlığında öldürüldü.

**1763-cü ildə** uzunmüddətli mübarizədən sonra Kərim xan Zənd Azərbaycanın cənubunda Urmiya xanı **Fətəli xan Əfşarı** məğlub edərək **Təbrizi, Marağanı və bir sıra Azərbaycan bölgələrini** özünə tabe etdi. Kərim xan Qacarlarla Əfşarlar arasındakı ixtilaflardan istifadə edərək İranda faktiki olaraq qeyri-məhdud hakimiyyəti ələ

keçirdi. Buna baxmayaraq, guya, şah tituluna iddia etmir, Azərbaycan türklərini narazı salmamaq üçün dövləti Səfəvilərin adından idarə edirdi. Kərim xan Zəndin hakimiyyəti üçün ən böyük təhlükə Qacarlar idi.

***Azərbaycan və İranda mərkəzi hakimiyyət uğrunda mübarizə aparan qüvvələr***

- **Fətəli xan Əfşar**
- **Kazım xan Zənd**
- **Məhəmməd Həsən xan Qacar**

### Qacarlar dövlətinin yaranması

Kərim xan Zəndin ölümündən sonra (1779) hakimiyyət uğrunda mübarizə daha da kəskinləşdi. Astrabadda Məhəmməd Həsən xanın ailəsində doğulan **Ağa Məhəmməd** Qacarların başçısı olandan sonra Qacarlar daha da gücləndilər. Ağa Məhəmməd xan Qacar **Mazandaran, Astrabad, Gilan, Tehran, Qum, Kaşan** və **İsfahanı** öz hakimiyyəti altına aldı. **Tehranı** öz iqamətgahına, sonralar isə dövlətinin paytaxtına çevirdi.


*Ağa Məhəmməd şah Qacar*

**1785-ci ilin sonunda** Ağa Məhəmməd xan Qacar Zəndlər üzərində qələbə çaldı. Bundan sonra Azərbaycanın cənubunda və Mərkəzi İranda bir sıra müstəqil xanlıqlar Qacarların hakimiyyətini qəbul etdilər.

**1794-cü ildə**, demək olar ki, keçmiş Əfşar imperatorluğunun bütün ərazisinin Ağa Məhəmməd xan Qacarın hakimiyyəti altında birləşməsi başa çatdı. Azərbaycand - türk soyundan olan Qacarlar sülaləsi hakimiyyətə gəldi. Ağa Məhəmməd xan Qacar keçmiş ***Səfəvi və Əfşar imperiyalarının tarixi sərhədlərini tamamilə bərpa etmək*** istəyirdi.

Bunun üçün **1795-ci ilin yazında** Qafqaza hərbi yürüşə başladı. İrəvanı ələ keçirdikdən sonra Şuşanın üzərinə yeridi. Şuşa mühasirəyə alındı. Şuşa qalasının ***33 günlük mühasirəsi*** bir nəticə vermədi. Odur ki Qacar **Tiflis** üzərinə hücum etdi və şəhəri ələ keçirdi.

Ağa Məhəmməd xan Qacar **1796-cı ildə** tacqoyma mərasimi keçirərək özünü şah elan etməsi ilə İranda Qacarların hakimiyyəti dövrü (1796-1925) başladı.

**1797-ci ildə** Ağa Məhəmməd şah Qacar ikinci dəfə **Cənubi Qafqaza** yürüş etdi. Qacarın bu yürüşdə məqsədi ***Rusiyanın keçmiş Səfəvi və Əfşar imperiyalarının tarixi ərazilərinə yiyələnməsinə mane olmaq*** idi. Bu yürüş zamanı Şuşa ələ keçirildi. Lakin Şuşada sui-qəsd nəticəsində öldürülən Ağa Məhəmməd şah Şimali Azərbaycan torpaqlarını öz dövlətinin tərkibinə qata bilmədi. Ağa Məhəmməd şah Qacarın vəfatından sonra taxta onun qardaşı oğlu **Fətəli şah Qacar** (1797-1834) çıxdı.

### Qacarlar dövləti Avropa dövlətlərinin işğalçılıq planlarında

Ağa Məhəmməd şah Qacarın öldürülməsindən sonra İngiltərə, Fransa və Rusiyanın Asiyada yeni müstəmləkələr uğrunda rəqabəti daha da gücləndi. **1800-cü ildə** kapitan **Malkolmun** başçılıq etdiyi İngiltərə nümayəndə heyəti İrana gəldi. Fətəli şahla ingilislər arasında siyasi və ticarət müqaviləsi imzalandı. Müqaviləyə əsasən ***İngiltərə Qacarlar dövlətində gömrüksüz ticarət və limanlardan sərbəst istifadə etmək hüququ qazandı. Bağlanmış müqavilə Qacarlar dövlətinin İngiltərədən asılılığının əsasını qoydu***.




*Fətəli şah. İngiltərənin nümayəndə heyəti Qacarlar sarayında (1800-cü il)*

## Böyük Moğol imperiyasının parçalanması

### Hindistanda ictimai, siyasi və iqtisadi vəziyyəti




XVII əsrin əvvəllərində Hindistanda ictimai və iqtisadi vəziyyət aşağıdakı kimi idi:

- ✓ *Ölkəni idarə edən türk mənşəli Böyük Moğol imperiyasında çoxlu iri və xırda feodal knyazlıqlar yaranmışdı.*
- ✓ *Hələ də qalmaqda davam edən kasta quruluşu cəmiyyətin inkişafına mane olurdu.*
- ✓ *Daxili ticarət canlanır, ayrı-ayrı vilayətlər məhsul istehsalına görə ixtisaslaşırdı.*
- ✓ *Əhali həm əkinçilikdə, həm də sənətin müxtəlif sahələrində xeyli uğurlar qazanmışdılar.*
- ✓ *Şəhərlər sənətkarlıq və ticarət mərkəzlərinə çevrilirdi.*

Mülki və hərbi hakimiyyətdə yüksək vəzifələrin hamısı ***müsəlman-türk*** əyanlarının əlində cəmlənmişdi. Feodallar sinfinin hakim təbəqəsini ***cagirdarlar*** təşkil edirdi. Feodal nərdivanında sonrakı yerdə ***zəmindarlar*** dururdu. Torpaqlar ***iri feodalların*** mülkiyyətində idi. Torpaqdan istifadə müqabilində kəndlilər vergini ***natura şəklində, məhsulla*** ödəyirdilər.

Həmin dövrdə hind tacirləri karvan yolları vasitəsilə **Əfqanıstan, Mərkəzi Asiya, İran, Azərbaycan** və **Həştərxanla** geniş ticarət əlaqələri yaratmışdılar. Lakin bu dövrdə Hindistanda aşağıdakı amillər sosial-iqtisadi inkişafı ləngidir, müstəmləkəçilərin Hindistan uğranda mübarizəsini asanlaşdırırdı:

- ✓ *Ölkədə baş verən **siyasi pərakəndəlik**.*
- ✓ *Knyazlıqlar arasında **ara müharibələrinin** davam etməsi.*

### Hindistanda müstəqil dövlətlərin yaranması

XVIII əsrin birinci yarısında Moğol dövləti tənəzzül dövrünü yaşayır və süqutu yaxınlaşırdı. Böyük Moğol dövlətini iqtisadi tənəzzülə və siyasi parçalanmaya gətirib çıxardan amillər əsasən aşağıdakılar idi:

- ➢ *Feodal istismarının güclənməsi nəticəsində kəndlilərin var-yoxdan çıxması.*
- ➢ *Daxili çəkişmələr və kəndlilərin aramsız çıxışları.*

Maharaştra əyalətində yaşayan maratxların üsyanı mərkəzi hakimiyyəti xeyli sarsıtdı. Hindistanda kəndlilərinin çıxışları **1674-cü ildə Maratx dövlətinin** yaradılması ilə nəticələndi. Moğol imperatoru **Sultan Övrəngzəb (1658-1707)** bütün qüvvələrini maratxlara qarşı yönəltsə də maratxların müqavimətini qıra bilmədi.



*Sultan Övrəngzəb*

**XVIII əsrin birinci yarısında** imperatorluğun daxilində separatçılıq meyilləri gücləndi. Ayrı-ayrı canişinlər müstəqil hakimlərə çevrildilər. **Benqaliya** və **Heydərabad dövlətləri** yarandı. Az sonra **Aud knyazlığı** Moğol dövlətindən ayrıldı. Moğol imperiyasının zəifləməsindən istifadə edən Nadir şah Əfşar **1739-cu ildə** Pəncabda Moğol ordularına qalib gələrək Dehliyə daxil oldu.

### Xarici təcavüzün güclənməsi

Böyük Moğol imperiyasının hakimiyyəti altında olan Hindistan qədim dövrlərdən öz zəngin sərvəti ilə Avropa ölkələrinin diqqətini cəlb edirdi. Avropa dövlətləri Hindistanın sərvətlərinə sahib olmağa can atırdılar. Xarici dövlətlərin maraqları Moğol imperiyasının parçalanmasını sürətləndirdi. Bu baxımdan ingilislər daha fəal idilər. Bu dövrdə Avropa dövlətlərinin Hindistana təcavüzü gücləndi. ***Holland, ingilis və fransız ticarət şirkətləri*** Hindistandan ucuz alınan məhsulları Avropada dəfələrlə baha qiymətə sataraq böyük gəlir əldə edirdilər. **XVII əsrin əvvəllərində** ingilislər moğollardan **Suratda** ticarət məntəqəsi yaratmağa icazə aldılar.

Həmin əsrin sonlarında Hindistan uğranda mübarizəyə Fransa da qoşuldu və **Benqaliyada** ilk istehkam - məntəqə yaratdı.



*Əhməd şah Dürrani*

Nadir şah imperiyası dağıldıqdan sonra **Əhməd şah Dürraninin** başçılığı altında müstəqil **Əfqan dövləti** yarandı. Əfqanlar Şimali Hindistanı - ***Pəncabı, Kəşmiri, Dehli*** və ***Hind çayı arasındakı əraziləri*** ələ keçirdilər. Əfqan qoşunlarına qarşı duran başlıca qüvvə **maratxlar** idi. Lakin **1761-ci ildə Panipat döyüşündə** maratxlar əfqanlara məğlub oldular. Beləliklə, maratxların Hindistandakı hökmranlığına son qoyuldu. ***Panipat döyüşü Böyük Moğol imperiyasının dağılmasının başlanğıcı oldu.***

Cəmiyyətin müxtəlif sosial qrupları arasındakı ziddiyyətlər, feodal ara müharibələri ölkənin qüdrətini sarsıtdı. Yeni xarici təcavüz üçün şərait yarandı. İngilislər və fransızlar Hindistana yiyələnmək uğrunda mübarizəyə başladılar.




*İngilislərlə maratxlar arasında döyüş . Panipat döyüşü,* 1761-ci il

*Maratx dövləti 1674-1820-ci illərdə Hindistan ərazisində mövcud olmuşdur. XVII əsrdə maratxlar Moğol imperiyası ilə qalibiyyətli müharibə aparmış və Hindistanın böyük bir hissəsinə hakim olmuşdular. 1761-ci ildə Panipat döyüşündə maratxlar Əhməd şah Dürraninin başçılıq etdiyi əfqan qoşunlarına məğlub oldular. Panipat məğlubiyyətindən sonra Maratx dövləti əvvəlki qüdrətini bərpa edə bilmədi. Beləliklə, onların Hindistandakı hökmranlığına son qoyuldu. Bundan istifadə edən ingilislər Hindistanın bir hissəsini ələ keçirdilər.*

### Hindistanın İngiltərə tərəfindən işğalının başlanması (1757)

**XVIII əsrin ortalarında** fransızlar və ingilislər Hindistanı zəiflətmək və öz mövqelərini gücləndirmək məqsədilə ***daxili feodal müharibələrini*** qızışdırırdı. Fransaya məxsus Ost-Hind kompaniyası Hindistan ərazilərinin işğalına daha tez başlamışdı. Hindistandakı fransız mülklərinin general-qubernatoru burada öz mövqeyini möhkəmləndirmək məqsədilə ***hindli əsgərlərdən ibarət sipahilər adlanan muzdlu dəstələr*** yaratdı. Fransızlardan sonra ingilislərdə sipahi dəstələri yaradaraq onlara Avropa qaydasında hərbi təlim verməyə başladılar.

İngiltərənin Hindistanda əsas rəqibi **Fransa** idi. XVIII əsrin ortalarında ingilislərlə fransızlar arasında Hindistanda ağalıq uğrunda mübarizə sənaye və hərbi cəhətdən üstün olan ingiltərənin üstünlüyü ilə gedirdi. İngilislər Hindistanın istilasına onun ən zəngin və iqtisadi cəhətdən inişaf etmiş vilayətlərindən olan **Benqaliyadan** başladılar. **1757-ci ildə Plessi döyüşündə** ingilislər fransızların kömək etdikləri moğolları məğlub edərək Benqaliyada möhkəmləndilər. Bundan sonra ingilislər Şimali Orissanı və Audu vassal asılılığına salaraq Hindistanda həlledici qüvvəyə çevrildilər. İngiltərə işğaldan sonra Hindistanın idarə olunmasını **Ost-Hind şirkətinə** tapşırıldı.




*1757-ci il, Plessi döyüşü. Döyüşdə ingilislərin qənimət kimi ələ keçirdiyi top*



***İngilis Ost-Hind şirkəti*** *– 1600-cü ildə ingilis tacirləri tərəfindən Şərqi Hind adalarında ticarət məqsədilə yaradılmışdı. Sonralar şirkət Asiyada böyük bir ticarət monopoliyası ələ keçirdi. İngiltərə sonralar Ost-Hind şirkətindən bir vasitə kimi istifadə edərək Hindistanın böyük bir hissəsini öz hakimiyyəti altına aldı. 1833-cü ildə İngiltərə hökuməti Hindistanda Ost-Hind şirkətinin ticarət hüququnu ləğv etdi. Daha sonra isə qanunla şirkət ləğv edildi.*



***Fransız Ost-Hind şirkəti*** *- 1664-cü ildə kral XIV Lüdoviqin icazəsi ilə, Hollandiya və Britaniyanın Ost-Hind şirkəti ilə rəqabət aparmaq məqsədi ilə yaradılmışdı. XVII-XVIII əsrlərdə şirkət Hindistanında xeyli ərazilər ələ keçirə bilmişdi. Lakin Fransanın Hindistan üzərindəki monopoliyasının başa çatması şirkətin ləğv edilməsi ilə nəticələnmişdi.*

### Hindistanda Ost-Hind şirkətinin qəsbkarlıq siyasəti

**XVIII əsrin ikinci yarısında** Ost-Hind şirkəti Hindistanda müstəmləkə zülmünü gücləndirərək milli dövlət quruculuğuna əngəl törədiri. **1774-cü ildə** İngiltərə parlamenti işğal olunmuş Hindistan torpaqlarının idarə olunması haqqında ***ilk qanun*** qəbul etdi. Qanuna görə ***baş verən çıxışlar qətiyyətlə yatırılmalı, vergilər vaxtında və müntəzəm toplanılmalı, ölkənin işğalı başa çatdırılmalı idi***. Panipat məğlubiyyətindən sonra Maratx dövləti əvvəlki qüdrətini bərpa edə bilmədi. Hindistanın cənubunda isə ən qüdrətli dövlət olan **Maysor dövləti** isə ingilislərin Hindistanı işğal etməsində ciddi maneə törədirdi. Ona görə də İngiltərə istilaçıları Maysoru müharibəyə cəlb etdilər. **1767-1799-cu illərdə** dörd İngiltərə-Maysor müharibəsi oldu. Müharibə nəticəsində:

- ***İngilislər güclü artilleriyası sayəsində qələbə qazandı***.
- ***Maysor dövləti istiqlaliyyətini itirdi***.

Maysor dövləti istiqlaliyyətini itirdikdən sonra onun ərazisi ***Ost-Hind şirkəti*** və onun müttəfiqi olan ***yerli hind knyazları*** arasında bölüşdürüldü. **XVIII əsrin ikinci yarısında müstəmləkə müharibələri nəticəsində Hindistanın varlı vilayətləri və bütün cənub hissəsi İngiltərənin müstəmləkəsinə çevrildi. Bununla Hindistanın İngiltərə tərəfindən tamamilə müstəmləkəyə çevrilməsi prosesi başa çatdı.**

## Çin

### Çində Tsin (Mancur) sülaləsini hakimiyyətə gəlməsi




Çində yaranan gərgin vəziyyət kəndli üsyanlarının başlanmasına səbəb oldu. **1626-cı ildə** başlayan kəndli üsyanı, demək olar ki, 20 il davam etdi. **1644-cü ildə** üsyançılar **Pekin şəhərini** tutaraq Min sülaləsinin hakimiyyətinə son qoydular. Çini bürümüş xalq üsyanını yatıra bilməyən **iri feodallar** qorxuya düşərək **1644-cü ildə** əvvəllər də Çini işğal etməyə çalışan **macurları** köməyə çağırdılar. Mancur və Çin feodallarının birgə səyi nəticəsində kəndli orduları məğlub edildi. Lakin mancurlar üsyanı yatırdıqdan sonra Çindən getmədilər və mancurların Tsin sülaləsi Çini 250 ildən çox **(1644-1912)** öz hakimiyyəti altında saxladı.

Tsin (Mancur) sülaləsinin hakimiyyəti dövründə:

- ✓ *Dövlətin başında qeyri-məhdud hakimiyyətə malik olan imperator -* ***boqdıxan*** *dururdu. O,* ***«səma oğlu»*** *hesab edilir və ancaq sarı rəngli paltar geyinirdi.*
- ✓ *Ölkəni idarə etmək üçün* ***dövlət şurası*** *yaradılmışdı.*
- ✓ *İmperiya* ***əyalət, vilayət, dairə, mahal, qəza*** *və* ***kəndlərə*** *bölünmüşdü.*
- ✓ *Əyalətlərin hər birinin ayrıca* ***xüsusi hərbi hissələri*** *və* ***maliyyə sistemi*** *var idi.*
- ✓ *Böyük vilayətlər qəsdən həm inzibati, həm də iqtisadi cəhətdən bir-birindən təcrid edilmişdi.*
- ✓ *Dövlət aparatının əsas pillələrində* ***mancur sülaləsindən*** *olanlar əyləşirdi. Müsəlman çinlilər dövlət idarəçilik sisteminə yaxın buraxılmır, onlar yalnız* ***orduda*** *xidmət edə bilirdilər.*



*ilk Mancur-Tsin imperatoru Fulin*

## Mancur-Tsin imperiyasının «özünütəcrid» siyasəti elan etməsi (1757)

İlk Tsin imperatorlarının hakimiyyəti dövründə qonşu ölkələrlə ticarət əlaqələri genişlənmişdi. **XVIII əsrin 20-ci illərində Rusiya ilə** bağlanan sazişlər nəticəsində Çinin Rusiya ilə ticarət əlaqələri daha da artdı. Mancur sülaləsi ilk vaxtlar Avropa ölkələrindən gələn tacirlərin bu ölkədə alış-veriş etməsinə şərait yaradırdı. Avropadan Çinə hərbi sursat, gəmilərin inşası üçün lazım olan avadanlıq gətirilirdi. İngiltərədən, Niderlanddan, Fransadan Çin limanlarına çoxlu ticarət gəmiləri gəlir və avropalılar bu limanlarda məskunlaşırdı. İmperatorun sarayında ***məsləhətçi rolunu oynayan*** katolik missionerlər yaşayırdı. Çin bazarlarına İngiltərənin **Ost-Hind şirkəti** daha uğurla daxil olurdu. **1715-ci ildə** Kanton şəhərində ***ilk ingilis məskəni*** salındı.

**XVIII əsrin ortalarında** Mancur-Tsin sülaləsi avropalıların Çinə axınının qarşısını almaq üçün **«özünütəcrid» siyasəti** yeritməyə başladı. Çinin «özünütəcrid» siyasətinə əsasən Çinə xaricilərin gəlişini məhdudlaşdıran aşağıdakı qərarlar qəbul edildi:

- ✓ ***Avropalıların Çin limanlarında inşa etdikləri bütün tikililər, xristian kilsələri söküldü.***
- ✓ ***Avropalıların ölkəyə girişi qadağan olundu.***
- ✓ **1757-ci ildə *imperatorun fərmanı ilə Kantondan başqa bütün Çin limanlarında avropalıların ticarətlə məşğul olması qadağan edildi.***



İngiltərənin Ost-Hind şirkəti Kanton limanında

Mancur hökuməti Çini «***qapalı ölkə***»yə çevirib xaricilərin bura gəlişini dayandırsa da, Çini xarici aləmdən tamamilə təcrid edə bilmədi. Avropa, Rusiya, ABŞ tacirləri müxtəlif yollarla yenə Çinə gəlir və ticarətlə məşğul olurdular. Çinin «özünütəcrid» siyasəti (xarici aləmdən «təcrid» olunması) ***nəticəsində:***

- ✓ ***Mancurlar Çində öz hakimiyyətlərini möhkəmləndirdi.***
- ✓ ***Çinin sosial-iqtisadi inkişafına ağır zərbə vuruldu.***

## Mancur-Tsin imperiyasının işğalçı müharibələri

**XVII əsrin əvvəllərində** Çinin iqtisadi inkişafı ləngiməyə başladı. Çinin iqtisadi inkişafının geriləməsinin başlıca səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ➢ ***Min sülaləsinin apardığı işğalçı müharibələr.***
- ➢ ***Amansız feodal istismar sistemi və saray çəkişmələri.***

Bu dövrdə Çinin qərb əraziləri ***müsəlman*** və ***monqol feodallarının*** hakimiyyəti altında idi. Odur ki Çin **1689-cu ildə Cunqariya** ilə uzunmüddətli müharibəyə (1689-1758) başladı. **1758-ci ildə** monqol mənşəli **Cunqar (oryat)** xanlığı işğal edildi. Uyğurların **Qaşqar şəhəri** də zəbt edilərək Çinə qatıldı. Daha sonra mancurlar **Şərqi Tibeti** də işğal etdilər. Tabe edilmiş ərazilərdə Mancur-Tsin imperatorları ***hərbi məskənlər*** yaradır, çinli hərbçilərə torpaq sahələri ayırırdı. Bu torpaqlar ölkənin, əsasən, sərhəd hissələrində və işğal edilmiş ərazilərdə yerləşirdi.

**XVIII əsrin sonlarında** mancur qoşunları **Hind-Çinə** yürüşlər etdi. Çin orduları həlledici qələbələr əldə etməsə də, **Birma, Vyetnam, Butan** və **Nepal** mancurlardan asılılığı qəbul etməli oldu. **Koreya** Çinə tabe edildi.

Beləliklə, aparılan işğalçı müharibələr nəticəsində geniş ərazilər Çindən asılı vəziyyətə düşdü.

## Sosial-iqtisadi vəziyyət və kənd təsərrüfatı

Mancurlar **Tayvanı** tabe etməklə bütün Çində öz hakimiyyətlərini qurdular. Çinin vahid dövlət halında birləşdirilməsi feodal-istehsal münasibətlərini daha da möhkəmləndirdi. XVII əsrin ikinci yarısı – XVIII əsrdə Mancurlar ələ keçirdikləri torpaqlarda kəndlilərin narazılığını zəiflətmək və istehsalın artmasına kömək etmək məqsədi ilə Çində yeni vergi sistemi tətbiq etdilər. Yeni vergi sisteminə əsasən ***vergilər 30-50% aşağı salındı.***

Mancur sülaləsi ölkədə dayaqlarını möhkəmləndirdikdən sonra isə aşağıdakı tədbirləri həyata keçirdilər:

- ✓ ***Vergi və mükəlləfiyyətlər artırıldı.***
- ✓ ***Azad kəndlilər təhkimli halına salındı.***
- ✓ ***Kəndlərdə inzibati-polis sistemi quruldu.***
- ✓ ***On həyətdən ibarət təhkimli icmalar yaradıldı.***

Əvvəlki sülalələrin hakimiyyəti dövründə olduğu kimi, yenə də ***İmperator və onun ailəsi*** əsas torpaq mülkiyyətçisi olaraq qaldı. Mancuriyadakı torpaqlar yalnız hakim sülaləyə məxsus idi. Çinlilər Mancuriyada torpaq sahibi ola və oraya köçə bilməzdi. Hərbçilərə verilən torpaqlar irsən keçirdi. Lakin bu torpaqları satmaq olmazdı. Məbəd və məktəblərə məxsus torpaqlar, meşələr, dağlar, qamışlıqlar və s. dövlət torpaqlarına daxil idi.

**XVII-XVIII əsrlərdə** Çində natural təsərrüfat şəraitində yeni istehsal münasibətləri yaranırdı. Kəndlilər əvvəlki kimi torpaq vergisi ödəyir, müxtəlif mükəlləfiyyətlər daşıyırdılar. Duz, çay, içki və s. istehsalına görə əlavə vergilər nəzərdə tutulurdu. Torpağı icarəyə götürən kəndlilər becərdikləri məhsulun yarısını icarədara verirdilər.

**XVIII əsrin sonlarında** döyüşçü kəndlilərə verilən torpaqlar iri feodallar tərəfindən müxtəlif yollarla ələ keçirildi.

***Çində torpaq mülkiyyət formaları***




### Şəhərlər və ticarət

Mancur hücumları nəticəsində ciddi ziyan çəkən şəhərlər qısa vaxt ərzində bərpa edildi. Şəhərlər sənətkarlıq və ticarət mərkəzləri olmaqla yanaşı, həm də mancurların dayaq nöqtələri, inzibati mərkəzləri sayılırdı. İri şəhərlərdə qarnizon, polis qüvvələri yerləşdirilmişdi. Yeni dövrdə **Nankin, Uçan, Kanton, Pekin** nəhəng sənaye və ticarət mərkəzləri olmuşdu. Şəhərlərin əksəriyyətində ***ipəkçilik, çini qablar istehsal edən dövlətə və xüsusi şəxslərə məxsus manufakturalar*** fəaliyyət göstərirdi. Mədən sənayesi məhsulları, çay, duz, gön-dəri istehsalı artmışdı. ***Duz, çay, metal istehsalı*** dövlət inhisarında idi.

Bəhs olunan dövrdə Çin bazarı ***ölkənin birləşdirilməsi və yeni ərazilərin tabe edilməsi nəticəsində*** genişləndi, həmçinin daxili və xarici ticarət yüksəldi.

### Mancur və feodal zülmünə qarşı mübarizə

**XVIII əsrin əvvəllərində** Çində kəndlilər və sənətkarlara aid qanunlar qəbul olundu. Bu qanunlara əsasən:

- ✓ *Kəndlilər bütün hüquqlardan məhrum* oldular.
- ✓ *Sahibkarın icazəsi olmadan kəndli heç bir iş görə bilməzdi.*
- ✓ *Kəndlilərə aid vergi və mükəlləfiyyətlər artırıldı.*
- ✓ *Kəndlilərin iş rejimi ağırlaşdı.*
- ✓ Sənətkarlar daha çox vergi ödəməli, şəhər rəhbərliyinin bütün tələblərini yerinə yetirməli idilər.

Bu dövrdə mancur ağaları və Çin feodalları ilə kəndlilər arasında münasibətlər əhalinin, xüsusilə kəndlilərin var- yoxdan çıxması etirazlara səbəb olurdu.

Çində Mancur hakimiyyətini devirmək məqsədilə gizli dini təşkilat və cəmiyyətlər yaradılmışdı. Mancurlar ***şamançılıq*** dininə sitayiş edirdilər. Çin əhalisi isə ***konfutsiçilik***, ***buddist***, ***daosizm, islam*** dinlərinə sitayiş edirdi.

**XVII-XVIII əsrlərdə** Tsin sülaləsinin ***işğalçı müharibələri, onların əhaliyə qarşı apardığı şovinist siyasət, ağır vergi sistemi, aclıq*** ölkənin müxtəlif ərazilərində ***mancur və feodal zülmünə qarşı*** Çində xal üsyanlara səbəb oldu. Lakin Mancur-Tsin sülaləsinin dayaqlarını sarsıdan bütün üsyanlar amansızlıqla yatırıldı. Üsyanların məğlubolma səbəbləri aşağıdakı amillərlə bağlı idi:

- ➢ ***Üsyanların mütəşəkkil qüvvə olunmaması***.
- ➢ ***Üsyançılar arasında birliyin olmaması***.
- ➢ ***Üsyançıların zəif silahlanması***.

# Yaponiya

*Yapon adaları yapon xalqının mədəniyyətinin yarandığı və inkişaf etdiyi ərazilər olmuşdur. Şərqi Asiyanın müxtəlif bölgələrindən və Sakit okeanın cənub hissəsindəki adalardan insanlar Yaponiya adalarına köçdükdən sonra erkən orta əsrlərdə yapon qəbilə icması yarandı. Yapon xalqı da əksər slavyan və alman tayfaları kimi ibtidai icma quruluşundan birbaşa feodalizmə keçdi.*

## Yaponiyanın siyasi cəhətdən birləşdirilməsi

Yeni dövrün astanasında Yaponiya faktiki olaraq bir sıra iri ***müstəqil knyazlıqlara*** parçalanmışdı. Bu dövr ***«döyüşən vilayətlər»*** dövrü kimi tarixə daxil olmuşdur. **XVI əsrin sonlarında** qüdrətli knyaz **Oda Nobunaqa** ölkədə ***mərkəzləşdirmə siyasəti*** yeridirdi. **1582-ci ildə** Oda Nobunaqa vasalları tərəfindən öldürüldükdən sonra onun yaxın köməkçisi **Xideyoşi** mərkəzləşdirmə siyasətini davam etdirdi. Lakin Xideyoşinin Koreyanı ələ keçirmək təşəbbüsü uğursuz oldu.



*Tokuqava iyeyasu (1603-1605)*

**1603-cü ildə** Yaponiyada imperatorun sərəncamı ilə **Tokuqava İyeyasu** özünü syoqun elan etdi. Tokuqava İyeyasunun özünü syoqun elan etməsi ilə:

- **Yaponiyanı siyasi cəhətdən birləşdirmək uğrunda 30 illik mübarizə uğurla başa çatdırıldı.**
- **Tokuqava İyeyasunun əsasını qoyduğu Yaponiyada üçüncü syoqun sülaləsi - Tokuqava sülaləsinin (1603-1867) hakimiyyəti başladı.**
- **Tokuqava ailəsinin dayağı olan Edo şəhəri dövlətin paytaxtı oldu.**

Beləliklə, Nobuqanın başlatdığı və Xideyoşinin davam etdirdiyi mərkəzləşdirmə siyasətini **İyeyasu** başa çatdırdı. Lakin Avropanın bir sıra ölkələrindən fərqli olaraq, Yaponiyanın feodal knyazlara bölgüsü ləğv edilmədi və yarımmüstəqil vəziyyətdə qalan knyazlıqlar inzibati-siyasi quruluşun əsası kimi qorunub saxlanıldı.



*Samuray*

*1603-cü ildə Tokuqava sülailəsinin hakimiyyətə gəlməsindən sonra paytaxt Edo şəhəri oldu. Bundan sonra əvvəllər kimsənin adını belə bilmədiyi kiçik bir balıqçı kəndi nainki dünyanın ən böyük şəhərlərindən birinə çevrildi, hətta əhalisinin sayına görə hətta Paris və London şəhərlərini ötüb keçdi. Yarandığı vaxtdan etibarən bir çox təbii fəlakətlərlə qarşı qarşıya dayanmış şəhər vulkanik fəlakətlər, müharibələr və sunamilər nəticəsində bir neçə dəfə dağıldı. Bütün bunlara baxmayaraq 1868-ci ilədək Edo şəhəri Tokuqava sülaləsinin dayağı və Yaponiyanın paytaxt şəhəri olaraq qaldı.*

## Tokuqava sülaləsinin feodal-mütləqiyyət rejimi

Ara müharibələrinin dayandırılması ölkədə təsərrüfatın canlanmasına, mədəniyyətin yüksəlişinə kömək etdi. Tokuqavanın iqtisadi qüdrəti ona məxsus əkin sahələrinin ölçüsü və onlardan əldə edilən gəlirlə müəyyən olunurdu.

Tokuqava sülaləsindən olan ilk üç syoqun özünün iqtisadi qüdrətinə arxalanaraq ölkədə mütləqiyyət diktaturası yaratdılar. Tokuqava mütləqiyyətinin hərbi dayaqlarını ***samuraylar*** təşkil edirdi. Tokuqava hakimləri siyasi rejimin hərbi dayağını qorumaq və iri knyazları itaətdə saxlamaq üçün aşağıdakı tədbirləri həyata keçirdilər:

- **Samuraylara ticarət və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağan edildi.**
- **Narazı feodalların torpaqları müsadirə edildi.**
- **İtaət etməyən feodallar digər bölgələrə köçürüldü.**
- **1635-ci ildən etibarən girovluq sistemi tətbiq olundu.**

Girovluq sisteminə əsasən ***knyazlar il ərzində dövri olaraq hökmən paytaxt Edoya baş çəkməli, onlar paytaxtda olmadıqları müddətdə ailələri girov kimi orada qalmalı idi.***

Tokuqavanın yaratdığı siyasi sistem özünəməxsusluğu ilə fərqlənirdi. Belə ki ölkədə nominal olaraq syoqun və imperatorun ikihakimiyyətliliyi mövcud idi. Bununla belə faktiki olaraq ölkəni ***syoqun*** idarə etsə də hüquqi cəhətdən dövlətin başçısı ***imperator*** hesab olunurdu.

### Tokuqova sülaləsinin xarici siyasəti

Tokuqava hökuməti **1604-cü ildə** ipək xammalın və hazır ipək məmulatların xarici tacirlərdən satın alınmasına başladı. Əldə edilən gəlir ***hökumət*** və ***tacirlər*** arasında bölüşdürülürdü. Bunlarla yanaşı, hökumət xarici ticarət əməliyyatlarının yapon və xarici gəmilər tərəfindən aparılması üçün xüsusi lisenziyalar verilməsini davam etdirirdi. Bu dövrdə Hollandiya və Ost-Hind kompaniyası müntəzəm olaraq öz gəmilərini Yaponiyanın **Kyüsyü limanlarına** göndərməyə başladı. Elə həmin vaxt yapon-holland ticarət müqaviləsi imzalandı. Müqaviləyə əsasən **Xirado adası** hollandların dayaq məntəqəsi oldu. **1613-cü ildə** Xirado adasında ingilis faktoriyasının əsası qoyuldu və ingilis Ost-Hind kompaniyasına ticarət aparmaq imtiyazı verildi.

**XVII əsrin birinci yarısında** Yaponiyanın Cənub-Şərqi Asiya ölkələri ilə xarici ticarət əlaqələri genişləndi. Yaponiyanın ***Avropa və Cənub-Şərqi Asiya ölkələri ilə xarici ticarət əlaqələrinin genişlənməsi*** natural vergidən pul vergisinə keçilməsinə kömək etdi.

### Yaponiyanın «özünütəcrid» siyasətinə başlaması

**XVI əsrin ortalarında** avropalılar Yaponiyaya gəlməyə başladılar. Avropalıların Yaponiyaya nüfuz etməsinin ən mühüm nəticəsi odlu silahın yayılması və onun ölkə daxilində istehsalının başlanması oldu. Avropalı tacirlərin ardınca Yaponiyaya ***katolik keşişlər*** və ***yezuit missionerləri*** də gəldi. Yeni etiqadı qəbul edənlərin əksəriyyəti ölkənin cənub-qərb hissəsində yaşayan və xristianlığın bərabərləşdirici ideyalarında təsəlli axtaran ***yoxsul kəndlilər*** idi. Tokuqava xristianlığı budda məbədi və konfutsi ideologiyası üçün qorxu, onun bərabərləşdirici ideyasını isə mövcud sosial-iqtisadi quruluş üçün təhlükə sayırdı. Yeni dini qəbul edən yaponların sayının artması xristianlar əleyhinə təqiblərin artmasına səbəb oldu. Odur ki, **1614-cü ilin yanvarında** xristianlığı **«imperiyanın düşməni»** elan edən qanun qəbul edildi. Hökumətin təqibləri nəticəsində on minlərlə xristianlığı qəbul etmiş yaponiyalı öldürüldü. Həyata keçirilən antixristian siyasəti Yaponiyanın Avropa ölkələri ilə xarici ticarət əlaqələrini zəiflətdi. Bu xətt tezliklə xaricilər əleyhinə siyasətə çevrildi. **1623-1624-cü illərdə** ingilislər, ispanlar və portuqaliyalılar ölkə hüdudlarını tərk etməyə məcbur oldular. Beləliklə, Avropa müstəmləkəçiləri Yaponiyadan qovuldular və ölkə xarici aləmdən təcrid olundu. Tokuqava sülaləsi **«özünütəcrid»** siyasətinin köməyi ilə Yaponiyanı siyasi cəhətdən birləşdirmək niyyətində idi.

Avropalılardan yalnız ***hollandlar*** ölkədən qovulmadılar. Onlar ***Yaponiyada üsyanın yatırılmasına kömək etdikləri üçün*** **Desima adasında** öz faktoriyalarını saxladılar. Yaponiyanın təcrid edildiyi bütün dövr ərzində Desima Avropaya yeganə açıq ***«pəncərə»*** rolunu oynadı.

**Yaponiyanın «özünütəcrid» siyasəti feodal münasibətlərinin sabitləşməsinə kömək etsə də, ölkənin iqtisadi inkişafını ləngitdi. Beləliklə, Yaponiya formalaşmaqda olan dünya bazarından süni surətdə kənarda saxlanıldı.**




*XVII əsrdə Yaponiyada feodal qəsri. Tokuqavanın xristianlara qarşı cəza tədbirləri*

### İqtisadi tənəzzülün başlanması. Sunayoşi və Yoşimunenin islahatları



*Sunayoşi (1680-1709)*

**XVIII əsrin əvvəllərində** Yaponiyada iqtisadi tənəzzül və ölkənin gələcək inkişafını ləngidən ***feodal münasibətlərinin*** dağılması özünü büruzə verdi. İqtisadiyyatın tənəzzülünün göstəricilərindən biri dövlətin maliyyə sisteminin böhranı idi. **Syoqun Sunayoşi (1680-1709)** ***maliyyə çətinliklərini aradan qaldırmaq məqsədilə*** islahatlar həyata keçirdi. Sunayoşinin islahatlarına əsasən ***yeni pullar kəsilməyə və onun tərkibindəki qızılın miqdarı azaldılmağa başlandı.*** Metal pulların qiymətdən düşməsi pul sisteminin pozulmasına səbəb oldu. Lakin Sunayoşinin islahatları nəticəsində düyü və digər ərzaq məhsullarının qiyməti kəskin dəyişdiyi üçün əhalinin vəziyyəti pisləşdi.

Yeni dövrdə mərkəzi **Osaka** şəhəri olan ***ümumyapon bazarı*** yarandı. Bütöv rayonların ixtisaslaşması baş verir, ***kapitalist istehsal üsulunun*** meydana çıxması üçün şərait yaranırdı. Bu dövrdə Yaponiyada kapitalist manufakturaları ***ipəkçilik, pambıq parça və çaxır çəkmə istehsalında*** yaranırdı.



*Yoşimune (1716-1745)*

**Syoqun Yoşimunenin (1716-1745)** dövründə ***feodalizm quruluşunun tənəzzülünün qarşısını almaq*** və ***samurayların nüfuzunu möhkəmləndirmək*** məqsədi ilə aşağıdakı tədbirlər həyata keçirildi:

- *Kəndlilərin torpaq paylarının alqı-satqısı rəsmən qadağan edildi.*
- *Syoqun sarayında və feodal knyazlar arasında israfçılıq əleyhinə mübarizə aparıldı.*

Qəbul edilən qanunlar feodalizm quruluşunun və mütləqiyyət rejiminin möhkəmləndirilməsini təmin etdi.

***Tokuqava sülailəsinin islahatları***

| *İslahatlar* | *Sunayoşinin islahatları* | *Yoşimunenin islahatları* |
|---|---|---|
| ***Məsədi*** | *Maliyyə çətinliklərini aradan qaldırmaq* | *Feodalizmin tənəzzülünün qarşısını almaq və samurayların nüfuzunu möhkəmləndirmək* |
| ***Mahiyyəti*** | *Yeni pullar kəsildi və onun tərkibindəki qızılın miqdarı azaldıldı.* | *Kəndlilərin torpaq paylarının alqı-satqısı qadağan edildi. Sarayda və knyazlar arasında israfçılıq əleyhinə mübarizə aparıldı.* |
| ***Nəticəsi*** | *Düyü və digər malların qiyməti kəskin dəyişdi, əhalinin vəziyyəti pisləşdi.* | *Feodalizm quruluşunun və mütləqiyyət rejiminin möhkəmləndirilməsi təmin etdildi* |

# Osmanlı imperiyası

## Osmanlı imperiyasında geriləmə dövrünün başlaması

Yeni dövrün astanasında Osmanlı imperiyasının sosial-iqtisadi və siyası vəziyyəti aşağıdakı kimi idi:

- ✓ *Üç qitədə - **Asiya, Avropa və Afrika qitələrində** geniş ərazilərə malik imperiya idi.*
- ✓ *Belqraddan İraqa qədər böyük bir ərazini əhatə edirdi.*
- ✓ *Mühüm ticarət yollarına nəzarət edir, dövrünün ən böyük dövlətlərindən hesab olunurdu.*
- ✓ *Sosial-iqtisadi, siyasi və hərbi tənəzzül mərhələsinə daxil olmuş, əvvəlki qüdrətini itirməyə başlamışdı.*
- ✓ *Ordusu əvvəlki qüdrətini itirmiş, **timar və ziyamət sistemi** pozulmuşdu.*

**XVI əsrin sonlarından başlayan** durğunluq getdikcə ***geriləməyə*** çevrildi. Dövlət idarəçiliyinin tədricən zəifləməsi, qanun və qaydalara əməl olunmaması ölkədə sabitliyi pozurdu. Vergilərin artırılması iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatının tənəzzül etməsinə səbəb olmuşdu.

Qadağan olunmasına baxmayaraq ***yeniçərilər*** evlənir və alverlə məşğul olurdular. Yeniçərilər məvaciblərini vaxtında almayanda döyüşə getmək istəmir, hətta sultanların dəyişdirilməsi üçün qiyamlar da qaldırırdılar.

## Xarici tacirlərin Osmanlıdan kapitulyasiya hüququ alması

Müharibələrdə bir-birinin ardınca uğursuzluqlara məruz qalan Osmanlı imperiyası Avropa dövlətlərinə böyük güzəştlər etməli oldu. **Fransa, İngiltərə** və **Hollandiya** Osmanlı dövlətindən yeni **kapitulyasiyalar** aldı. **1615-ci ildə** Avstriya ilə Osmanlı arasında bağlanan **Vyana kapitulyasiyal müqaviləsinin** şərtlərinə əsasən:

- ➢ ***Avstriya təbəələrinə Osmanlı mülklərində sərbəst ticarət hüququ verildi.***
- ➢ ***Gömrük haqqı endirildi, katoliklərə kilsə tikməyə icazə verildi.***

Həmin ildə **Venesiya** da Osmanlıdan eyni imtiyazları aldı.



*IV Mehmet*

## İlk islahat cəhdləri. Körpülü Mühmet paşanın islahatları

**XVII əsrin ikinci yarısında** Osmanlı dövlətində tənəzzül prosesinin qarşısını almaq üçün bir sıra islahatlar keçirildi. İslahatların həyata keçirilməsi sultan **IV Mehmetin (1648-1687)** baş vəziri **Körpülü Mahmet paşaya** tapşırıldı. Körpülü Mehmet paşanın islahatlarının məqsədi aşağıdakılar idi:

- ➢ ***İdarəçiliyi qaydaya salmaq və vergi sistemini tənzimləmək.***
- ➢ ***Ordu və donanmada hərbi intizamı gücləndirmək.***

Körpülü Mehmet paşanın islahatları nəticəsində:

- ✓ ***İdarəçilik və hərbi intizam möhkəmləndirildi.***
- ✓ ***Timar sistemi nizama salındı, əzinənin gəlirləri artırıldı.***
- ✓ ***Ordu və donanma gücləndirildi.***

Lakin həyata keçirilən islahatlar ***Osmanlı imperiyasının daxili vəziyyətini müəyyən müddətə yaxşılaşdırsa da, onun tənəzzülünün qarşısını ala bilmədi***.



*Köprülü Mehmet Paşa*

## 1663-1664-cü illər Osmanlı-Avusturya müharibəsi. Vasvar sülhü

İqtisadi-siyasi və hərbi tənəzzülünə baxmayaraq, Osmanlı imperiyası Avropa qitəsindəki torpaqları əldə saxlamaq uğrunda müharibələr apararaq yeni ərazilər fəth etmək siyasətini davam etdirdi. Bu məqsədlə Osmanlı sultanı Avropa dövlətlərinə qarşı hərbi yürüşlər təşkil etdi. Yürüşlər nəticəsində ***Macarıstan krallığının əhəmiyyətli hissəsi*** və ***Dunay knyazlığı*** ələ keçirildi. **1664-cü ildə** Osmanlı dövləti ilə Avstriya arasında bağlanmış **Vasvar sülhünün** şərtlərinə əsasən ***Avstriya Transilvaniyaya müdaxilə etməyəcəyinə təminat verdi və təzminat ödədi.*** Beş il sonar, **1669-cu ildə Venesiya** əksər dəniz mülklərindən məhrum edildi, **Krit adası** Osmanlı dövlətinə birləşdirildi.




*Egey dənizinin cənubunda yerləşən Krit adası Yunanıstanın ən böyük, Aralıq Dənizinin isə beşinci böyük adasıdır. Adanı Roma İmperiyasının hakimiyyətindən sonra ərəblər, 961-ci ildə Bizans işğal etdi. 1204-cü ildə Konstantinopolu işğal edən səlibçilər bu dəfə Krit adasını 15 kiloqram qızıl müqabilində Venesiyaya satdılar. Xaçlılar bu adadan tez-tez Osmanlı gəmilərinə hücum edir və onları talayırdılar. Bunun qarşısını almaq üçün Osmanlılar adanı ələ keçirməyə qərara aldılar. 1645-ci ildə Osmanlı əsgərləri adaya hücuma başladılar. Amma ada hər tərəfdən yaxşı müdafiə olunduğu üçün onun alınması Osmanlı ordusuna 24 ilə başa gəldi. 1669-cu il, sentyabrın 27-də Krit adası nəhayət ki, Osmanlı tərəfindən fəth edildi.*

### 1677-1681-ci illərin Rusiya-Osmanlı müharibəsi. Baxçasaray sülhü

Osmanlı imperiyasının ***Ukrayna uğrunda*** Rusiya ilə apardığı müharibə **1681-ci ildə Baxçasaray sülhü** ilə başa çatdı. Sülhün şərtlərinə əsasən:

1. **Sağ sahil Ukraynası Osmanlı dövlətinə, sol sahil Ukraynası isə Rusiyaya verildi**.
2. **Dnepr çayı iki dövlət arasında sərhəd oldu**.

Bu müharibə Osmanlı imperatorluğu ilə Rusiya çarlığı arasında baş verən ilk böyük müharibə idi.

### Vyananın uğursuz mühasirəsi (1683)

Avstriyanın ***katolikləşdirmə siyasətinə qarşı*** üsyan qaldıran ***macarlar*** Osmanlı imperiyasından yardım istədilər. Bu hadisə Avstriya ilə Osmanlı arasında münasibətləri gərginləşdirdi və yeni müharibəyə səbəb oldu. Osmanlı ordusu baş vəzir **Qara Mustafa Paşanın** başçılığı ilə **1683-cü ildə** Avstriyanın paytaxtı Vyananı mühasirəyə aldı. Mühasirə uzandı. Bu müddətdə alman və polşalıların səlibçi ordusu Vyanaya köməyə gəldi. Krım xanının xəyanət etməsi Osmanlı ordusunun uğursuzluğuna səbəb oldu. Məğlub olan Qara Mustafa Paşa ordusunu Budapeştə doğru geri çəkdi.



***Vyananın mühasirəsi. 14 iyul - 12 sentyabr, 1683-cü il.***



***Qara Mustafa Paşa***

*Viyanaının uğursuz mühasirəsindən sonra Osmanlı dövlətinin məğlubedilməz olmadığını görən Avropa dövlətləri ona qarşı hücumlara başladı. Vyana məğlubiyyətinin məsuliyyəti isə Qara Mustafa Paşanın üzərinə atılaraq sultan tərəfindən onun edam edilməsi haqqında sərəncam verildi. Sultan daha sonra qorxmaz, cəsur, qətiyyətli dövlət xadimi olan Qara Mustafa Paşanın uğurlu xidmətlərini düşünüb ikinci bir sərəncamla onun əfv edilməsini əmr etdi. Amma ikinci əmr çatana qədər cəlladlar paşanı edam etmişdilər.*

### Osmanlı ilə «Müqəddəs birlik» arasında müharibə (1686-1699). Karlovitsa sülhü

Vyana ətrafında osmanlı ordusunun məğlubiyyətindən istifadə edən bir sıra xristian dövlətləri osmanlıları Avropadan qovub çıxarmaq planını həyata keçirməyə başladılar. Bu məqsədlə, **1684-cü ildə** osmanlılar əleyhinə **Avstriya, Polşa, Venesiya** və **Maltadan** ibarət **«Müqəddəs birlik»** adlı təşkilat yaratdılar. **1686-cı ildə isə** Rusiya bu birliyə qoşuldu. Yalnız **Fransa** bu birliyə daxil olmadı.

Müxtəlif cəbhələrdə vuruşmağa məcbur edilən Osmanlı ordusu «Müqəddəs birlik»lə müharibədə məğlub oldu. Osmanlı hökuməti bir neçə cəbhədə vuruşmağın mümkünsüzlüyünü anlayaraq **1699-cu ildə** Belqrad yaxınlığında **Karlovitsa qəsəbəsində Avstriya, Polşa, Venesiya, Malta** və **Rusiya** və ilə ayrı-ayrılıqda müqavilələr imzaladı. **Karlovitsa sülhünün** şərtlərinə görə ***Osmanlı imperiyasının ərazilərinin xeyli hissəsi Avstriya, Polşa və Rusiya arasında bölüşdürüldü***. Karlovitsa sülhü ilə Osmanlı dövləti ilk dəfə geniş ərazilər itirdi.



### Osmanlı imperiyasında «Lalə dövrü» (1703-1730)

**XVIII əsrin birinci yarısında** Osmanlı imperiyasında Sultan **III Əhmədin (1703-1730)** hakimiyyəti illərində baş vəzir **İbrahim paşanın** həyata keçirdiyi islahatlar dövrünü Osmanlı tarixində «**Lalə dövrü**» adlandırırlar. İbrahim paşanın baş vəzirliyi dövründə İstanbulda bir çox saray, köşk inşa olundu və bağçalar salındı. Kağızxana dərəsinin iki tərəfi Versaldakı Fontenblo parkı üslubunda gözəl bağçalar və köşklərlə bəzədildi və bura **Səadabad** adını aldı. Parkda yüzlərlə lalə növü yetişdirildi. Odur ki, İbrahim Paşanın laləyə vurğunluğu bu dövrə «Lalə dövrü» adı verilməsinə səbəb oldu. «Lalə dövrü»ndə**:**

- ✓ *Avropa təcrübəsindən faydalanmaq və elmi-texniki sahələrdə qabaqcıl yenilikləri tətbiq etmək məqsədilə Qərbi Avropa ölkələrinə elçilər göndərilərək mütəxəssislər gətirilirdi.*
- ✓ *İbrahim Paşa Avropa tipli ordu yaradılana qədər Rusiya və Avstriya ilə münasibətləri pisləşdirməməyə səy göstərdi.*
- ✓ *Sənətkarlıq və ticarətin inkişafı üçün bir sıra tədbirlər həyata keçirildi.*
- ✓ *Avropadan ilk texniki vasitə olan **mətbəə** alındı və ölkədə **1727-ci ildə** ilk mətbəə yaradıldı.*

«Lalə dövrü»ndə həyata keçirilən islahatlar ***ruhanilərin*** və ***yeniçərilərin*** müqaviməti üzündən yarımçıq qaldı və məhdud səviyyədə həyata keçirildi. Əsaslı dəyişikliklər edilmədiyi üçün islahatlar ***uğursuzluqla*** nəticələndi. Bu dövrdə Osmanlı imperiyasının Avropa ölkələri ilə müharibələri davam edirdi. Avropa ölkələri Osmanlı imperiyasını sarsıtmaq üçün onu eyni zamanda bir neçə cəbhədə vuruşmağa məcbur edirdilər.



*Sultan III Əhməd*



*İbrahim Paşa*



*Patron Xəlil*

*Sultan III Əhməd taxta çıxan kimi bir sıra islahatlar həyata keçirdi. 1711-ci ildədə ruslara məğlub olan İsveç kralı XII Karl Osmanlılara aid Ozi qalasına sığındıqda, ruslar Türk sərhədini pozdular. Bu zaman Osmanlı dövləti Rusiyaya müharibə elan etdi. 1711-ci ildə Osmanlı ordusu Prut çayı kənarında başda çar I Pyotr olmaqla rus ordusunu mühasirəyə aldılar. Lakin rusların ağır vəziyyətdə çarları ilə birlikdə mühasirədə olduğunu osmanlılar başa düşmədiyi üçün sülh imzalandılar. Osmanlıların zəfərindən narahatlığa düşən Avstriya Osmanlıya qarşı yeni müharibəyə başladı. 1716-1718-ci illər Osmanlı-Avstriya müharibəsində osmanlılar məğlub olaraq Pojarevatsk müqaviləsini imzaladılar. Bundan sonra Sultan III Əhməd Osmanlı imperiyasının qüdrətini geri qaytarmaq üçün yeni islahatlar həyata keçirməyə başladı. 1730-cu ildə Patron Xəlil üsyan qaldırdı. Yeniçərilərin də hadisələrə qoşulması üsyanın böyüməsinə səbəb oldu. Üsyan zamanı baş vəzir İbrahim Paşa öldürüldü. Artıq qan tökülməsini istəməyən Sultan III Əhməd taxtı qardaşı oğlu Mahmuda təslim etdi. Səltənətdən çəkildikdən sonra elm və ibadətlə məşğul olan sultan 1736-ci ildə, 63 yaşında vəfat etdi.*

### Patron Xəlil üsyanı (1730)

Sultan III Əhmədin dövründə cəmiyyətin sosial-iqtisadi həyatında olduğu kimi, siyasi sistemdə də böhran dərinləşdi. Yuxarı dairələrin hədsiz israfçılığı, özbaşınalığı, xalqa biganə münasibəti ölkədə böyük narazılığa səbəb oldu. Ölkənin iqtisadi vəziyyətinin pisləşməsi, saray və hökumət dairələrində rüşvətxorluq və talançılığın artması, hərbi uğursuzluqlar **1730-cu ilin sentyabr ayında** yeniçəri **Patron Xəlilin** başçılığı ilə İstanbulda üsyana səbəb oldu. Patron Xəlil üsyanı nəticəsində:

- ✓ ***Baş vəzir İbrahim Paşa öldürüldü.***
- ✓ ***Sultan III Əhməd qardaşı oğlu Mahmudun xeyrinə taxtdan əl çəkdi.***

Lakin, **1730-cu ilin noyabrında** Sultan I Mahmudun göstərişi ilə Patron Xəlil və üsyanın digər rəhbərləri sarayda qətlə yetirildilər. Üsyanın iştirakçılarına isə divan tutuldu.

### 1716-1718-ci illər Venesiya, Avstriya ilə yeni müharibə. Pojarevatsk müqaviləsi

XVIII əsrin əvvəllərində Osmanlı dövləti yaranmış əlverişli vəziyyətdən istifadə edərək itirilmiş ərazilərini geri qaytarmağa çalışdı. **1711-ci il Prut yürüşündə** Rusiya üzərində əldə edilən qələbə Osmanlı hakim dairələrində itirilmiş ərazilərin geri qaytarılmasına inam yaratdı. Venesiya ilə müharibə də Osmanlı dövlətinin qələbəsi ilə başa çatdı. Osmanlı dövlətinin əldə etdiyi qələbələr Avstriyanın ona qarşı yeni müharibəyə başlamasına səbəb oldu. Avstriyalılar **Belqrad şəhərini** işğal etdilər. Lakin İngiltərə və Fransanın vasitəçiliyi ilə Avstriya ilə Osmanlı arasında **1718-ci ildə Pojarevatsk müqaviləsi** bağlandı. Müqavilənin şərtlərinə görə:

1. **Serbiya və Bosniyanın şimal hissəsi Avstriyaya verildi.**
2. **Moreya yarmadası və Egin körfəzindəki adalar Osmanlı dövlətində qaldı.**

Lakin Belqrad şəhərinin itirilməsi Osmanlı dövlətinin Mərkəzi Avropada mövqeyini zəiflətdi.

### 1735-1739-cu illər Osmanlı - Avstriya, Rusiya müharibələri. Belqrad sülhü

Osmanlı dövlətinin Səfəvilərə qarşı müharibəsindən istifadə edən Avstriya Rusiya ilə ittifaq bağlayaraq ona qarşı yeni müharibəyə başladı. İki cəbhədə müharibə aparmasına baxmayaraq, Osmanlı dövləti bir sıra uğurlar qazandı. **1739-cu ilin sentyabrında** Fransanın vasitəçiliyi ilə Osmanlı dövləti ilə Avstriya arasında Belqrad sülhü imzalandı. Sülhün şərtlərinə görə:

1. **Pojarevatsk müqaviləsi ilə Avstriyaya verilmiş Şimali Serbiya Osmanlı dövlətinə qaytarıldı**.
2. **Avstriya Belqrad şəhərini osmanlılara geri qaytarmağa məcbur oldu**.

Müttəfiqi olan ***Avstriyanın məğlub olması, İsveçlə yeni müharibə təhlükəsi*** Rusiyanı da sülh bağlamağa vadar etdi. **1739-cu ildə** Rusiya ilə Osmanlı arasında bağlanmış **Belqrad sülhünün** şərtlərinə görə:

1. **Təkcə Azov qalası Rusiyada qaldı**.
2. **Osmanlı dövləti Qara və Azov dənizlərində ticarət gəmiləri və hərbi donanma saxlamaq hüququnu özündə saxladı (Rusiyanın ticarət gəmiləri Azov və Qara dənizdə üzə bilməzdi)**.
3. **Hər iki dövlət Şimali Qafqaza müdaxilə etməyəcəkləri barədə təminat verdi**.

Belqrad sülhü Osmanlı dövlətinin imzaladığı sonuncu uğurlu sülh oldu. Bu dövrdə Rusiya özünün başlıca xarici siyasətini - ***Qara dəniz sahillərinə çıxışı*** təmin edə bilmədi.

**1740-cı ildə** Osmanlı imperiyası ilə **Fransa** arasında bağlanmış müqaviləyə (kapitulyasiyaya) əsasən Osmanlı imperiyasında ticarət edən fransız tacirləri üçün 10%-lik gömrük rüsumu müəyyən edildi. Sonralar **İngiltərə**, **Hollandiya** və digər ölkələrin tacirləri də belə hüquqlar aldılar.

### 1768-1774-cü illərin Rusiya-Osmanlı müharibəsi. Kiçik Qaynarca sülhü



*Çeşmə döyüşü. 1770-ci il*

XVIII əsrin ikinci yarısında ***Rusiyanın Baltik və Qara dənizi ətrafında yeni torpaqları ələ keçirmək istəyi*** Rusiyan ilə Osmanlı dövləti arasında müharibəyə səbəb oldu. **1768-ci ildə** Osmanlı dövləti Avstriya və Fransanın təhriki ilə Rusiyaya müharibə elan etdi. Hərbi əməliyyatlar **Balkan yarımadası, Krım** və **Qafqazda** aparılırdı. Lakin Rusiya müharibənin gedişində üstünlüyə nail oldu.**1770-ci ildə Larqa, Kaqul** və **Çeşmə dəniz döyüşündə** rus ordusunun və donanmasının qazandığı qələbələr müharibənin taleyini həll etdi. Lakin Avropa dövlətləri Rusiyanın Balkan yarımadasında mövqeyinin güclənməsini istəmirdilər. Odur ki, Avropa dövlətlərinin təzyiqləri altında Rusiya müharibəni dayandırmağa məcbur oldu.

**1774-cü il iyulun 10-da** Osmanlı imperiyası ilə Rusiya arasında **Kiçik Qaynarca** sülhü imzalandı. Kiçik Qaynarca sülhünün şərtlərinə əsasən:

1. **Dnepr və Cənubi Buq çayları arasındakı ərazilər, həmçinin Kabarda Rusiyaya keçdi**.
2. **Rusiyanın ticarət gəmilərinə Qara dənizdə, Bosfor və Dardanel boğazlarında sərbəst üzmək hüququ verildi**.
3. **Osmanlı dövləti ilk dəfə olaraq kimi təzminat ödəməli oldu**.
4. **Osmanlı sultanı Krım xanlığının müstəqilliyini tanıdı**.

Kiçik Qaynarca sülhü Osmanlı dövlətinin Karlovitsadan sonra imzaladığı ən ağır şərtli müqavilə oldu. Kiçik Qaynarca sülhünün nəticəsi olaraq Krım xanlığının taleyi ciddi təhlükə altına düşdü və Rusiyanın Krıma yiyələnməsini asanlaşdı, Qara dənizdə Osmanlı dövlətinin şəriksiz hökmranlığı dövrü başa çatdı, onun beynəlxalq nüfuzu zəiflədi.



*1774-cü il, Kiçik Qaynarca sülhünün şərtləri*

### «Şərq məsələsi»nin meydana çıxması

**XVIII əsrin ikinci yarısında** Osmanlı imperiyasını bürümüş böhrandan istifadə edən Rusiya və bir sıra Qərbi Avropa dövlətlərinin Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq cəhdi **«Şərq məsələsi»**nin yaranmasına səbəb oldu. «Şərq məsələsi»nin əsasını ***Osmanlı dövlətini parçalamaq və onun ərazilərini bölüşdürmək*** planı təşkil edirdi. Bu məsələnin həyata keçirilməsində **Rusiya** başlıca rol oynayırdı.

Osmanlı imperiyasında siyasi və iqtisadi tənəzzülün güclənməsindən istifadə edən İngiltərə və Fransa onu asılı vəziyyətə salmaq üçün Rusiyaya qarşı müharibəyə təhrik edirdilər. Bu yolla onlar Osmanlı dövlətini tamamilə Avropadan çıxarmağa, Rusiyanı isə zəiflətməyə çalışırdılar.

XVIII əsrin sonlarında «Şərq məsələsi» Rusiya xarici siyasətinin ana xəttinə çevrildi. Müəllifi rus çari II Yekaterina (1762-1796) olan «Şərq məsələsi»ndə Balkanlardakı xristian xalqları üsyana sövq etməklə onlara muxtariyyət, yaxu d istiqlaliyyət qazandırmaq, İstanbulu osmanlıların əlindən geri almaq, Anadolunu parçalamaq və

osmanlıları Anadoludan çıxartmaq nəzərdə tutulurdu. Lakin II Yekaterinanın bu planı sonralar digər böyük Avropa dövlətləri üçün maraqlı olmadığı üçün tədricən öz əhəmiyyətini itirməyə başladı.

### 1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsi. Yassı sülhü



*Rusların Izmayıl qalasını tutması*

Krımın Rusiyaya birləşdirilməsi (1783) Osmanlı imperiyası ilə yeni müharibəyə səbəb oldu. Krımın işğalına cavab olaraq Osmanlı sultanı **1787-ci ildə** Rusiyaya müharibə elan etdi. Balkan yarımadasında yeni ərazilər ələ keçirməyə çalışan Avstriya Rusiyanın müttəfiqi kimi müharibəyə qoşuldu. Osmanlı dövləti iki cəbhədə müharibə aparmalı oldu. Müharibənin gedişində Avstriya ordusu **Belqradı**, Rusiya isə **Akkerman, Bender** və Dunay çayının mənsəbində yerləşən **İzmayıl qalalarını** ələ keçirdi. Lakin **1791-ci ilin dekabrında** Rusiya Osmanlı dövləti ilə **Yassı sülhünü** imzalamağa məcbur oldu. **Yassı sülhünün** şərtlərinə görə:

1. **Osmanlı dövləti Krım xanlığının Rusiya tərəfindən işğalını təsdiq etdi**.
2. **Dnestr çayı iki dövlət arasında sərhədə çevrildi**.

Yassı sülhünün nəticəsi olaraq Rusiya Qara dənizdə qəti olaraq möhkəmləndi, Osmanlı dövlətinin qüdrətini daha da sarsıldı və Rusiyanın yeni işğalları üçün şərait yarandı.




*Osmanlı imperiyası Kiçik Qaynarca və Yassı sülhündən sonra*

### Sultan III Səlimin islahatları

XVIII əsrin ikinci yarısında Osmanlı imperiyasının Rusiya ilə müharibələrdə uğursuzluğu ölkədə siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi. Beynəlxalq vəziyyətin pisləşməsi Osmanlı hakim dairələrini narahat etməyə başladı. Belə bir şəraitdə Osmanlı dövlətinin qüdrətli orduya xüsusilə ehtiyacı var idi. Ordunun əsasını hələ də ***feodal süvarisi*** və ***yeniçərilər*** təşkil edirdi. Ordunu Avropa qaydasında qurmaq zərurəti yaranmışdı. Dövlətin belə ağır dövründə taxta çıxan **Sultan III Səlim (1789-1807)** bütün sahələrdə islahatlar həyata keçirmək üçün layihə hazırlamağı tapşırdı. İlk növbədə, Avropa təcrübəsini öyrənmək üçün Avropa ölkələrinə elçilər göndərildi. III Səlim Fransa təcrübəsini əsas tutaraq **1792-1793-cü illərdə «Nizami-cədid» (yeni qayda)** adlanan islahatları həyata keçirməyə başladı. Bu zaman ***hərbi islahatların*** keçirilməsinə üstünlük verildi. İslahatlar İsveç və Fransa hərbçilərinin iştirakı ilə həyata keçirilirdi. Sultan III Səlimin islahatlarına əsasən:

- ✓ *Ordunun xərclərini ödəmək üçün xüsusi xəzinə yaradıldı.*
- ✓ *Donanmanın yenidən təşkili üçün yeni tipli gəmilər hazırlandı.*
- ✓ *Hərbi mühəndislik məktəbi genişləndirildi.*
- ✓ *İmperiya 28 əyalətə ayrıldı, onların idarə etmək üçün vəzifəyə təcrübəli vəzirlər təyin olundu.*
- ✓ *Qanunlara əməl etməyən şəxslər vəzifədən uzaqlaşdırıldı.*
- ✓ *Yerli məhsullardan istifadə təbliğ olunmağa başlandı. Dövlət idarələrində yerli mallardan istifadə edilməyə başlandı. İsrafçılığın qarşısını almaq üçün addımlar atıldı.*
- ✓ *Avropa ölkələrindəki yenilikləri vaxtında öyrənmək üçün London, Paris, Vyana və Berlin şəhərlərində daimi səfirliklər açıldı.*

İslahat təhsil sistemində yeni məktəblərin açılmasını, dövlət mətbəəsinin yaradılmasını, məktəblərdə xarici dil kimi fransız dilinin tədrisini nəzərdə tuturdu. Lakin əvvəlki islahatlar kimi, III Səlimin islahatları da mühafizəkar qüvvələrin müqaviməti nəticəsində uğursuzluqla nəticələndi. Bunun başlıca səbəbi ***islahatı həyata keçirən kadrların olmaması*** və ***III Səlimin qətiyyətsizliyi*** idi. Ordu quruculuğu yeniçəriləri təmin etmədiyinə görə onlar

mühafizəkar qüvvələrin əlində alətə çevrildilər. Nəticədə, **1807-ci ildə** Sultan III Səlim və islahat tərəfdarları qətlə yetirildi. Sultan III Səlimin taxtdan salınması ilə onun həyata keçirməyə çalışdığı islahatlar yarımçıq qaldı.



***Sultan III Səlim***



***«Nizami-cədid» ordusunun paradı. III Səlim paradı izləyir***

*Rusiya İmperiyası tərəfindən işğal olunmuşdu. Sultan cəbhədəki sərdarlarına fərman göndərərək nəyin bahasına olursa olsun rusların Krımdan çıxarılması bildirdi. Osmanlı ordusunun Rusiya və Avstriya cəbhələrində məğlub durumda olduğunu nəzərə alan sədrəzəm sultana "Əsgərlərdə döyüşəcək hal yoxdur" cavabını göndərdi. Bundan sonra sultan bu ordu ilə qələbə qazanmağın mümkün olmadığını anlayaraq Avstriya və Rusiya ilə sülh müqavilələri imzaladı. Avropadakı qonşularının daxili çəkişmələrə, xüsusilə də Fransanın başının inqilabı yatırmağa qarışdığından istifadə edən III Səlim ölkədə islahatlar həyata keçirməyə başladı. 72 maddədən ibarət bu islahatlar «Nizami-cədid» adlanırdı. İslahatların gedişində sultan güclü nizami ordunun formalaşdırılması işinə böyük diqqət ayırdı. Çox qısa zamanda sultanın islahatları öz bəhrəsini verdi. Misiri işğal edən Napolyon 1799-cu ildə ağır itkilər verərək Misiri tərk etdi. 1805-ci ildə Rusiya və İngiltərə Osmanlı İmperiyasının ərazisinə soxulub birçox əraziləri işğal etsələr də nizam-intizamlı və güclü Osmanlı ordusu həm ingilislərə, həm də ruslara qalib gəldi. Ordu cəbhədə bu uğurları qazandığı vaxt ölkə daxilində qiyamçılar III Səlimi devirərək onu qətlə yetirdilər. Beləliklə, III Səlimin islahatları uğursuzluqla nəticələndi və yarımçıq qaldı.*

***Osmanlı tarixinə aid müharibələr və sülh müqavilələri (XVII-XVIII əsrlər)***

| *MÜHARİBƏLƏR* | *SÜLHLƏR* | *ŞƏRTLƏRİ* |
|---|---|---|
| **1677-1681** | **Baxçasaray** | Sağ sahil Ukraynası Osmanlı dövlətinə, sol sahil Ukraynası isə Rusiyaya verildi. Dnepr çayı iki dövlət arasında sərhəd oldu. |
| **1697-1699** | **Karlovitsa** | Osmanlı imperiyasının ərazilərinin xeyli hissəsi Avstriya, Polşa və Rusiya arasında bölüşdürüldü. Osmanlı dövləti ilk dəfə geniş ərazilər itirdi. |
| **1716-1718** | **Pojarevatsk** | Serbiya və Bosniyanın şimal hissəsi və Belqrad şəhəri Avstriyaya verildi. Moreya yarmadası və Egin körfəzindəki adalar Osmanlı dövlətində qaldı. |
| **1735-1739** | **Belqrad** | Pojarevatsk müqaviləsi ilə Avstriyaya verilmiş Şimali Serbiya Osmanlı dövlətinə qaytarıldı. Avstriya Belqrad şəhərini osmanlılara geri qaytardı.. Təkcə Azov qalası Rusiyada qaldı. Osmanlı dövləti Qara və Azov dənizlərində ticarət gəmiləri və hərbi donanma saxlamaq hüququnu özündə saxladı. Hər iki dövlət Şimali Qafqaza müdaxilə etməyəcəkləri barədə təminat verdi. |
| **1768-1774** | **Kiçik Qaynarca** | Dnepr və Cənubi Buq çayları arasındakı ərazilər, həmçinin Kabarda Rusiyaya keçdi. Rusiyanın ticarət gəmilərinə Qara dənizdə, Bosfor və Dardanel boğazlarında sərbəst üzmək hüququ verildi. Osmanlı sultanı Krım xanlığının müstəqilliyini tanıdı. Osmanlı tarixdə ilk dəfə olaraq məğlub dövlət kimi təzminat ödəməli oldu. |
| **1787-1791** | **Yassı** | Osmanlı dövləti Krım xanlığının Rusiya tərəfindən işğalını təsdiq etdi. Dnestr çayı iki dövlət arasında sərhədə çevrildi. |

# Mərkəzi Asiya xalqları. Volqaboyu, Ural və Sibir türkləri

## Mərkəzi Asiya xanlıqlarının yaranması

XVI əsrin əvvəllərində artıq Qızıl Ordu dövlətinin və Teymur imperatorluğunun varlığına son qoyulmuşdu. Bundan sonra həmin dövlətlərin tərkibində olmuş Mərkəzi Asiya xalqlarının həyatında yeni səhifə açıldı və həmin ərazilərdə yaşayan ***özbək, qazax, qaraqalpaq, türkmən*** xalqlarının həyatı dəyişdi.

**XV əsrdə** Qızıl Ordu dövlətinin dağılması nəticəsində **Qazax xanlığı** meydana gəldi. Mərkəzi Asiyanın ***cənub-şərq*** ərazilərində isə əhalisi ***özbək, tacik*** və ***türkmənlərdən*** ibarət olan iki xanlıq - **Buxara** və **Xivə** xanlıqları yarandı. **XVIII əsrin əvvəllərində** bu xanlıqların sırasına daha bir özbək xanlığı - **Kokand** daxil oldu. Tyan-Şan dağlarında yaşayan ***qırğızların*** isə siyasi qurumu yox idi.



Tauke xan

**XVI əsrdə** Qazax xanlığı əvvəl iki orduya, daha sonra üç orduya (***juza***) bölündü:

- **Ulu (Böyük) Ordu** - *indiki Qazaxıstanın cənub-şərqini əhatə edirdi.*
- **Orta Ordu** – *Qazaxıstanın mərkəz və şimal hissəsini əhatə edirdi.*
- **Kiçik Ordu** - *Qazaxıstanın qərb hissəsini əhatə edirdi.*

Müstəqil siyasi qurumlar olan Ordulara (juzlara) ***feodal əyanların qurultayında*** seçilən ***xanlar*** başçılıq edirdi. Juzların əhalisi, əsasən, ***köçəri maldarlıqla*** məşğul olurdu.

**XVII əsrin sonu - XVIII əsrin əvvəllərində Tauke xanın** dövründə:

- ✓ Üç ordu arasında sıx münasibətlər yarandı.
- ✓ Ordular birləşərək ***vahid Qazax dövlətini*** qurdular.

Tauke xanın hakimiyyət dövrü Qazax xanlığının **«qızıl əsri»** hesab edilir. Tauke xanın dövründə ***adət-ənənələrə*** və ***şəriət qaydalarına*** əsaslanan qanunları qəbul olundu. Qanunlar feodal istehsal münasibətlərinin möhkəmlənməsində mühüm rol oynadı.




*Qazax xanlığı (juzları). Xivə, Buxara və Kokand xanlıqları - XVI-XVIII əsrlərdə*

## Mərkəzi Asiya xanlıqları XVIII əsrdə

XVIII əsrin əvvələrində Mərkəzi Asiyada qədim sənət və ticarət mərkəzləri olan **Səmərqənd, Buxara, Xivə, Daşkənd** şəhərləri ilə yanaşı, yeni yaranan **Kokand, Namanqan** şəhərləri də sürətlə inkişaf edirdi. Sənətkarlıq sexlərində ***pambıq və ipək parça, silah, zərgərlik, qab-qacaq, kağız, dulusçuluq*** və başqa məhsullar istehsal olunurdu. Bu dövrdə Mərkəzi Asiya ölkələri **Rusiya, Hindistan, Çin, İran** və **Azərbaycanla** geniş ticarət əlaqələri saxlayırdılar. Rusiya mallarının Mərkəzi Asiya bazarlarına daxil olması genişlənirdi. Bu cəhət Mərkəzi Asiya ilə Rusiya arasında əlaqələrin artmasına kömək edirdi. İpəkçiliyin və Çinlə ticarətin qüvvətlənməsi nəticəsində **Fərqanə** iqtisadi cəhətdən yüksək inkişaf etmişdi.

Mərkəzi Asiya xanlıqlarında əsas torpaq mülkiyyət formaları ***dövlət (xan), mülk, soyurqal*** və ***tanxo*** idi. Soyurqal və tanxo dövlətə ***xidmət müqabilində*** verilirdi. Bu dövrdə Mərkəzi Asiyada ticarət əlaqələri, əsasən, mübadilə yolu ilə aparılırdı. Köçəri tayfalar içərisində ***patriarxal qəbilə qalıqları*** hələ də mövcud idi. Tayfa - ***aymaklar*** ayrı-ayrı təsərrüfat özəkləri olan ***aullara - obalara*** bölünürdü. Aulların birliyinə ***sultan*** başçılıq edirdi. Onlar özlərini, adətən, Çingiz xanın törəmələri hesab edirdilər. Məhkəmə işlərinə ***biylər*** baxırdılar.



*Qazax aulu*

### Cunqarların Böyük Ordunu tutması

Qazax orduları tez-tez **Qərbi Monqolustanda** yaranan **Cunqar xanlığının** qarətçi hücumlarına məruz qalırdı. **1723-cü ildə** cunqarlar qazaxlar üzərinə daha böyük qüvvə ilə hücumlar etdilər. Cunqar xanlığının qazaxlar üzərinə bu hücumu nəticəsində:

- ✓ *Qazaxlar ağır məğlubiyyətə uğradılar.*
- ✓ *Böyük Ordu (juz) cunqarların hakimiyyəti altına keçdi.*
- ✓ *Üç ordu arasında Tauke xanın vaxtında yaranan ittifaq dağıldı.*
- ✓ *Orta Ordunun mərkəzi olan Türküstan şəhəri ələ keçirilib dağıdıldı.*

Cunqarların hücumu zamanı dağıntı və qarətlər qazax tarixinə **«böyük fəlakət»** kimi daxil oldu.

### Qazax xanlığının bölüşdürülməsi

Böyük Ordunun cunqarların hakimiyyəti altına keçməsi ilə Orta və Kiçik Ordular **Çin** və **Rusiya** kimi iri dövlətlərin arasında qaldı. Hadisələrin təbii gedişi orduları həmin dövlətlərin birinə qoşulmağa vadar etdi. Orta Ordu Çindən vassal asılılığını qəbul etməli oldu.

Qazaxların Cunqar xanlığına qarşı mübarizədə zəifləməsindən Rusiya məharətlə istifadə etdi. Rus sərhədinə yaxın olan Kiçik Ordunun başçısı **Əbülxeyir xan 1731-ci ildə** Rusiyanın tərkibinə daxil olmaq haqqında aktı imzaladı. Gələcəkdə ruslar tərəfindən ölkənin daxili rayonlarına müdaxilə niyyəti ilə Or çayının Ural çayına töküldüyü yerdə **Orenburq şəhər-qalası** salındı. Aktın əleyhinə çıxan sultan, batır və biylərin müqavimətini qırmaq üçün ruslar Kiçik Orduya yürüş etdilər. **1740-cı ildə Orta Ordu**, ondan sonra isə **Böyük Ordunun** şimal hissəsi **Rusiyaya** qatıldı. Qazaxıstanın cənubu isə Kokand və Buxara xanlıqları arasında bölüşdürüldü.



*Orenburq şəhər-qalasının planı*

Lakin bu zaman özbək xanlıqlarında hakimiyyət zəif idi. Ayrı-ayrı feodal özbək qəbilələri arasında mübarizə, demək olar ki, ara vermirdi.

Xivə xanının Əfşarlar imperiyasının şimal vilayətlərinə basqını **1740-cı ildə** Nadir şah Əfşarın Xivə xanlığına hücumuna səbəb olmuşdu. Nadir xanın Xivə xanlığına hücumu nəticəsində Nadir şah ***Xivəni tutub, xanlığı özünə tabe etdi***. Buxara xanlığı isə müqavimət göstərmədən Nadir şaha tabe oldu. Nadir şahın yürüşündən sonra zəifləyən Xivə ***türkmən tayfalarının*** əlinə keçmişdi. Lakin bir müddət sonra özbək əsilzadələrindən olan **Məhəmməd Əmin** Xivə xanlığını bərpa etdi. O, xanlıq dövrünün axırınadək ölkəni idarə edən Xivə xanları sülaləsinin banisi oldu.

### Rus müstəmləkəçiliyinə qarşı Batır Srımın başçılığı altında üsyan

Qazax Ordularının ***Rusiya və qonşu dövlətlər tərəfindən işğalı*** qazax tayfalarının xalq azadlıq hərəkatına başlamasına səbəb oldu. **1783-cü ildə** Kiçik Orduda **Batır Srımın** başçılığı ilə ***rus müstəmləkəçiliyinə*** və ***yerli hakimiyyətə qarşı*** uzunmüddətli üsyan baş verdi. Rusiyanın ***Kiçik Orduda xan hakimiyyətini ləğv etməsi*** üsyanı daha da genişləndirdi. Qazaxların xalq azadlıq mübarizəsinə **Osmanlı dövləti** yardım edirdi.

- ➢ **Üsyanın birinci mərhələsində** Batır Srımın müstəmləkəçilər üzərində qələbələri ***xan hakimiyyətinin bərpa edilməsinə*** səbəb oldu. Bu mərhələdə çarizm batır və bəylərə bir sıra imtiyazlar verməyə məcbur oldu.
- ➢ **Üsyanın ikinci mərhələsi** yoxsulların varlılara qarşı mübarizəsinə çevrildi. Üsyanda mühüm rol oynayan icma rəislərinin sultanların tərəfinə keçməsi üsyanı zəiflətdi.



*Batır Srım*

İcma rəisləri imtiyazlarını itirmək istəmirdilər. Kiçik Ordu rəhbəri **Nurəli xan** Batır Srım başda olmaqla digər üsyan başçılarını təşkil etdiyi ***xan şurasına*** daxil etdi. Bu üsyançılar arasında təfriqəyə səbəb oldu. Lakin çar hökumətinin köməyi ilə sultanlar Srıma qarşı çıxdılar.

**1797-ci ildə** Batır Srım Xivəyə tərəf geriyə çəkilməyə məcbur oldu. Üsyandan nəticə çıxaran çarizm müstəmləkəçilik siyasətini bir qədər yumşaltmağa məcbur oldu.

## Volqaboyu və Ural türkləri

**XVI-XVII əsrlərdə** Volqaboyu, Ural və Sibir türkləri Rusiyanın müstəmləkə əsarətinə düşdülər. Rusiya Mərkəzi Asiyanı və Qazaxıstanı işğal etmək üçün Volqaboyu və Ural türklərinin yaşadığı ərazilərə ***istinadgah*** kimi baxır, regionda ruslaşdırma siyasəti həyata keçirirdi. Ruslaşdırma siyasətinin üsullarından biri müsəlman əhalinin ***zorla xristianlaşdırılması*** idi. Odur ki, ruslar məscidləri dağıdır, ruhaniləri hüquq və imtiyazlarından məhrum edirdilər. Ruslaşdırma siyasətini hökumət iqtisadi siyasətlə paralel aparırdı. Belə ki, xristianlığı qəbul etməyən müsəlman zadəganlar torpaqlarını və kəndlilərini itirirdilər.**1649-cu ildə** qəbul edilmiş ***Qanunnaməyə*** görə xristianlığı qəbul etməyən mülkədarlar ***təhkimli kəndliyə*** sahib ola bilməzdilər. Rus sənayesinin spesifik cəhətlərindən biri manufaktura və zavodlarda təhkimli kəndli əməyindən istifadə olunması idi.

I Pyotrun dövründə Volqaboyu və Ural türklərinə qarşı müstəmləkəçilik siyasəti daha da sərtləşdirildi. I Pyotrun islahatları nəticəsində Volqaboyu və Ural türklərinin torpaqlarında zavodlar tikilir, yerli əhali bu zavodlara təhkim edilir, bu yolla azad türk kəndliləri təhkimli halına salınırdı. I Pyotra yeni ordu və donanma yaratmaq üçün lazım olan vəsaitin xeyli hissəsi Volqaboyu və Ural türklərinin üzərinə düşürdü.

**XVIII əsrin əvvəllərində** Volqaboyu və Ural türklərinin azadlıq mübarizəsi yeni mərhələyə daxil oldu. Üsyan edən xalq ***müstəqilliyini bərpa etmək*** istəyirdi. Belə üsyanlardan birinə tatar **Seyid Batır** rəhbərlik edirdi. Böyük qüvvə hesabına üsyan yatırılsa da **XVIII əsrin ortalarında** ***tatar və başqırdların*** daha güclü üsyanı baş verdi. Üsyanın başçısı **Abdulla Qaliya (Batirşah)** idi. Lakin bu üsyan da Rusiya imperiyası tərəfindən amansızlıqla yatırıldı.



*Batirşah*

## Sibir türkləri

Sibir Ural dağlarından Sakit okeana qədər olan çox böyük ərazini əhatə edir. Yeni dövrün əvvəllərində Sibirdə yaşayan tayfa və xalqlar müxtəlif inkişaf mərhələlərində idilər. Sibir türklərini əsasən aşağıdakı ***türk mənşəli*** xalqlar təşkil edirdi:

- ***Yakutlar*** - Lena çayının orta axarı boyunda yaşayır, maldarlıqla, xüsusən ***maralçılıqla*** məşğul olurdular.
- ***Tuvalılar*** - Yenisey çayının yuxarı axarında yaşayır, ***köçəri maldarlıqla*** məşğul olurdular.
- ***Xakaslar*** Şərqi Sibirdə, indiki Krasnoyarsk vilayətində yaşayır, ***əkinçilik*** və ***maldarlıqla*** məşğul olurdular. **XVII əsrin ikinci yarısında** xakaslarda feodal münasibətləri yaranmışdı.




*Volqaboyu və Ural türklərinin yaşadıqları ərazilər*

Sibirə rus məmur və tacirlərini cəlb edən onun zəngin xəzi idi. Xarici bazarlarda xəz yüksək qiymətə satıldığından məmurlar türkləri yasaq vergisini ***xəzlə*** verməyə məcbur edirdilər.

**XVIII əsrdə** çar Rusiyasının yeritdiyi məqsədyönlü siyasət nəticəsində Rusiyanın Avropa hissəsindən Sibirə köçən rusların sayı sürətlə artmağa başladı. Bura köçənlərin içərisində kəndlilər, din xadimləri və müxtəlif peşə sahibləri də vardı. Sibirə sürgün olunanların da sayı artmaqda idi.

**XVIII əsrdə** Sibirdə ilk sənaye müəssisələri- ***metallurgiya, gümüşəritmə, duz istehsalı zavodu*** işə salındı. Sibir kəndləri isə təhkimli işçi mənbəyinə çevrildi.

Sibirin Rusiya tərəfindən işğalından sonra yerli türk xalqları azadlıqlarını itirir, torpaqdan məhrum olur və xristianlaşdırılırdı. Müstəmləkə zülmünə məruz qalan xalq isə üsyan edirdi. Belə üsyanlardan biri **1731-ci ildə** baş verdi. İki il davam edən üsyanı yatırmaq üçün hökumət artilleriyadan (toplardan) da istifadə etdi.




*Sibir türklərinin yaşadıqları ərazilər*

# Qafqaz xalqları XVII-XVIII əsrlərdə

## Şimali Qafqaz xalqlarının sosial-iqtisadi həyat və siyasi quruluşu

**XVII əsrin əvvəllərində** Şimali Qafqaz xalqlarının sosial-iqtisadi və siyasi vəziyyəti son dərəcə ağır idi. Bunun əsas səbəbi uzunsürən Osmanlı-Səfəvi müharibələri nəticəsində şəhər və kəndlərin dağılması, təsərrüfat həyatının pozulması idi. Bu dövrdə Şimali Qafqazda mürəkkəb etnik proseslər baş verirdi. Ölkədəki tayfalar daha böyük etnik birliyə çevrilir, xalqlar formalaşırdı.Həmin etnik birliklərdən bəziləri aşağıdakılar idi:

- ***Adıqlar (adıgeylər)*** - Qafqazın şimal-qərb hissəsində yaşayan ən böyük etnik birlik idi.
- ***Çərkəzlər*** - Anapadan Kuban çayı sahillərinə kimi böyük ərazidə - Çərkəzistanda məskunlaşmışdı.
- ***Abazilər*** - çərkəzlərdən cənub-qərbdə yaşayırdılar.
- ***Qaraçaylar və balkarlar*** Elbrus dağı yaxınlığında yaşayırdılar.
- ***Osetinlər*** – Terek çayının yuxarı axarı boyunda yaşayırdılar.
- ***Çeçenlər və inquşlar*** - osetinlərdən şərqdə məskunlaşmışdılar.
- ***Kabardinlər (kabardalılar)*** - Terek çayının orta axarı boyunca yaşayırdılar. Kabardinlər iki böyük feodallığa - Böyük Kabardaya və Kiçik Kabardaya bölünmüşdülər.




*Qafqaz xalqları XVII əsrdə*

Şimali Qafqazın iqtisadiyyatında ***kənd təsərrüfatı***, xüsusilə ***əkinçilik*** əsas yer tuturdu. Əkinçilikdə başlıca olaraq, ***buğda, arpa, çovdar, darı*** və ***yulaf*** becərilirdi. Çəltik, pambıq, paxla əkinləri, bağçılıq və bostançılıq, dağlıq və dağətəyi zonalarda maldarlıq, xüsusən qoyunçuluq əsas yer tuturdu. Kalmık və Noqay torpaqlarında ***atçılıq*** müstəqil təsərrüfat sahəsi idi. Sənətkarlığın ***dəmirçilik, misgərlik, toxuculuq, xalçaçılıq, dulusçuluq, dabbağlıq, zərgərlik və silahqayırma*** sahələri daha yaxşı inkişaf etmişdi. O dövrün səyyahları çeçen, inquş və Dağıstanda çox mahir sənətkarlar çalışdığını qeyd edirlər.




*Şimali Qafqaz xalqları*

Silah ustaları möhkəm poladdan soyuq və odlu silahlar hazırlayırdılar. Böyük Moskva knyazı Qafqazdan mahir ustaları Həştərxana dəvət etmişdi ki, oradakı sənətkarlara silah və zireh düzəltməyi öyrətsinlər.

**XVII-XVIII əsrlərdə** Şimali Qafqaz müstəqil və yarımmüstəqil siyasi qurumlara parçalanmışdı. Bu dövrdə Dağıstan ərazisində **Tarku şamxallığı, Qaytaq usmiliyi, Tabasaran maysumluğu, Avar və Qazıqumuq xanlıqları** var idi. Dağıstan hakimlərindən fərqli olaraq, ***çeçen və inquşların*** vahid siyasi birliyi yox idi. Onlar ***tayfa (teyp)*** prinsipi ilə yaşayır və **ağsaqqallar şurası** tərəfindən idarə edilirdilər. Kabardada böyük knyaz hakimiyyətinin ***seçkili olması*** çəkişmələrə və mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxarırdı. Bütün bunlar Şimali Qafqazda siyasi pərakəndəlik yaradırdı.

## Rusiyanın Şimali Qafqazın işğalına başlaması

Qafqaz coğrafi mövqeyinə görə qonşularından ən çox Rusiyanı maraqlandırırdı. Aşağı Volqa boyunda möhkəmlənən Rusiya Qafqaz dağları, Qara dəniz və Xəzər dənizinə çıxış yolu əldə etməyə çalışırdı. Avropanı Mərkəzi Asiya ilə birləşdirən ticarət yolları da bu ərazilərdən keçirdi.

**XVIII əsrin ortalarında** Rusiyanın Şimali Qafqazda işğalçılıq planlarını gerçəkləşdirməsinə şərait yarandı. Bu dövrdə Rusiyanın Şimali Qafqaza dair işğalçılıq planlarını gerçəkləşdirməyə aşağıdakı amillər şərait yaratdı:

- ✓ ***Bölgədəki siyasi dağınıqlıq***.
- ✓ ***Nadir şah imperiyasının dağılması***.
- ✓ ***Osmanlı-Rusiya müharibəsində Osmanlı imperiyasının məğlub olması***.

Rusiya **XVIII əsrin 60-cı illərində** Qızlyardan Azov dənizi sahillərinə kimi uzanan Qafqaz xəttini yaratmağa başladı. Xəttin üzərində qalalar və çoxlu müdafiə istehkamları inşa edildi. **1774-cü ildə** imzalanan Kiçik Qaynarca sülhü Şimali Qafqazın tarixində yeni səhifə açdı. Sülhün şərtlərinə görə **Azov sahillərini** ələ keçirən Rusiya Şimal-Qərbi Qafqazın içərilərinə doğru irəliləmək üçün imkan qazandı. Kiçik Qaynarca sülhündən dərhal sonra çar hökuməti **Osetiyanın** işğalına başladı.

**1783-cü ildə Krım xanlığı, Taman yarımadası və Kubanboyu ərazilər** Rusiyaya birləşdirildi. **XVIII əsrin son rübündə Kabarda knyazları, Çeçen-İnquş hakimləri, Tarku şamxalı** Rusiyaya sədaqət andı içməli oldular.

Rusiya hakim dairələri Şimali Qafqaz əhalisinin mütəşəkkil müqavimətini qırmaq üçün ayrı-ayrı dağlı xalqları arasında, feodallarla kəndlilər arasında nifaq salır, ziddiyyətləri kəskinləşdirirdi. Kabardin, Çərkəz, Noqay feodallarını rus ordusuna xidmətə götürür, onların əmlakına toxunmur və bununla da yerli əhali içərisində ayrı-seçkilik yaradılırdı. Çarizmin ümumxalq nifrəti doğuran digər siyasəti yerli əhalinin dini inanclarının tapdalanması idi. Ural və Volqaboyunda olduğu kimi, burada da müsəlman əhalinin ***zorla xristianlaşdırılması*** prosesi gedirdi.

### Rusiyanın müstəmləkə əsarətinə qarşı dağlıların milli-azadlıq hərəkatı


*Şeyx Mənsur*

Rusiyanın zorakı müstəmləkəçilik siyasətinin ilk nəticələri özünü qısa müddətdə göstərməyə başladı. Rusiyanın Şimali Qafqazı işğal etməsi ilə barışmayan dağlı xalqları - ***noqaylar, adıgeylər, çeçenlər, inquşlar, avarlar*** **Şeyx Mənsurun** başçılığı ilə mübarizəyə başladılar. Bu mübarizədə ***müridizmin*** böyük rolu oldu.

Müridizm fəlsəfəsinə görə əsl mürid hər bir işi Allah rizası üçün etməli idi. Müridizmdə cihadla şəhidlik fəlsəfəsi bir-birini tamamlayırdı. Müridizmin milli-azadlıq hərəkatına çevrilməsində **Şeyx Mənsur** və onun dini-siyasi mübarizəsi böyük rol oynadı.

**1785-ci ildə** Şeyx Mənsur Çeçenistanda Qafqaz xalqlarını yadelli işğalçılara qarşı ***cihada*** çağırdı və Rusiyanın ***müstəmləkəçilik siyasətinə qarşı*** üsyan qaldırdı. Şeyx Mənsurun **Alda döyüşündə** qazandığı qələbə xəbəri tezliklə bütün Şimali Qafqaza yayılaraq hərəkatın yüksəlişinə səbəb oldu.

Şeyx Mənsur sonrakı döyüşlərin birində əsir düşdü və əsirlikdə vəfat etdi. Dağlıların azadlıq mübarizəsi məğlub olsa da, çar hökumətinin Şimali Qafqazın işğalını müəyyən müddətə təxirə saldı.

### Rusiyanın Cənubi Qafqazla bağlı məkirli planları

**XVIII əsrin əvvəllərinə qədər** hərbi-siyasi təcavüz üçün qüvvəsi olmadığı üçün Rusiya Cənubi Qafqazla bağlı yalnız iqtisadi siyasət həyata keçirirdi. Rus çarı **I Pyotrun (1682-1725)** dövründə Rusiya Cənubi Qafqazda həm iqtisadi, həm də siyasi məqsədini gerçəkləşdirməyə başladı.

I Pyotr Xəzərsahili bölgələrə ***həm xammal mənbəyi, həm də Hindistanı Qərbi Avropa dövlətləri ilə birləşdirən tranzit yolu kimi*** baxırdı. Bunun üçün Cənubi Qafqazın xeyli hissəsini ələ keçirmək lazım idi.

Həmin dövrdə Qərbi Avropa və Rusiya dövləti ilə ipək ticarəti, demək olar ki, erməni tacirlərinin əlində idi. I Pyotr öz gələcək işğalçı planlarının həyata keçirilməsində ermənilərin məlumatlarından geniş istifadə edirdi. Ermənilər Rusiyanın Cənubi Qafqaza olan maraqlarını nəzərə alaraq daha çox canfəşanlıq edirdilər. Onlar Rusiya hakim dairələrinə cürbəcür hədiyyələr verir, layihələr, planlar və təkliflər irəli sürürdülər. Bu yolla onların Cənubi Qafqaza qoşun göndərməsini sürətləndirməyə çalışırdılar. Bütün bunların kökündə isə tarixi Azərbaycan torpaqlarının zəbt edilməsi və burada ermənilərə «dövlət yaradılması» məqsədi dururdu. Erməni tacirləri, din xadimləri isə Rusiya hakimiyyət dairələri ilə yaxınlıqdan öz milli mənafeləri üçün istifadə etməyə çalışırdılar. I Pyotra göndərilən məktublarda Cənubi Qafqazın əhalisi, iqtisadiyyatı, yolları barədə ətraflı məlumatlar verilirdi. Xrisian olduqları üçün onların, guya, müsəlmanlar tərəfindən incidildikləri barədə uydurma xəbərlər çatdırılırdı.


*I Pyotr Xəzər dənizi sahillərində*

**1722-1723-cü illərdə** I Pyotrun yürüşü nəticəsində Rusiya imperiyası Xəzərsahili bölgələri ələ keçirdi. Bundan sonra I Pyotr Cənubi Qafqazı bu diyarın qədim yerli əhalisi olan türk-müsəlman əhalidən təmizləyib bura erməniləri köçürmək siyasətini həyata keçirməyə başladı. Lakin çar Rusiyasının bu işğalları I Pyotrun vəfatı ilə əlaqədar uğursuzluqla nəticələndi.

**XVIII əsrin ikinci yarısında** da Rusiyanın Cənubi Qafqazla bağlı siyasətində I Pyotr ənənələri davam etdirilirdi. II Yekaterinanın hakimiyyəti dövründə (1762-1796) çar Rusiyasının Azərbaycan torpaqlarında xristianlaşma siyasəti daha da fəallaşdı.

XVIII əsrin ikinci yarısında baş verən Rusiya-Osmanlı müharibələrində Rusiya qələbə qazandı. Bu, Rusiyaya Qara dənizin şimal sərhədlərində, Şimali Qafqazda möhkəmlənməyə və Şərqi Gürcüstanın işğalını həyata keçirməyə imkan yaratdı. Rusiyapərəst siyasət yürüdən və Şimal-Qərbi Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan Kartli-Kaxetiya çarı **II İrakli (1764-1798) Georgiyevsk müqaviləsini (1783)** imzalamaqla Şərqi Gürcüstan Rusiyanın himayəsinə keçdi. Rus ordusu Tiflisə göndərildi. Rusiyanın Cənubi Qafqaz siyasəti daha da fəallaşdı. Azərbaycan

torpaqları hesabına özlərinə dövlət yaratmağa çalışan ermənilər fürsəti əldən verməyərək, II İrakli ilə yaxınlaşmağa başladılar. Ermənilərin «Böyük Ermənistan» dövləti yaratmaq xülyası «xristian himayəçiliyi» pərdəsi altında müstəmləkəçilik siyasəti yeridən Rusiyanın mənafeyinə uyğun gəlirdi. Yaxın Şərqi və Hindistanı işğal etmək istəyən Rusiya ermənilərin havadarı rolunda çıxış edərək onlardan bir alət kimi istifadə edirdi.

II Yekaterina hökuməti Cənubi Qafqazda «erməni dövləti» yaratmaq ideyasını real laşdırmağa çalışırdı. Rusiya erməniləri bu torpaqlarda özünün etibarlı dayağına çevirmək istəyirdi. Rusiyanın planlarından xəbərdar olan Ağa Məhəmməd xan Qacar onu qabaqlamaq üçün Cənubi Qafqaza yürüş etdi. **1795-ci ildə** Ağa Məhəmməd xan Qacarın Şərqi Gürcüstana yürüşü Rusiyanın Cənubi Qafqaza hücum etməsi üçün bəhanə oldu. **1796-cı ilin yazında** rus ordusu **Valerian Zubovun** başçılığı ilə Cənubi Qafqaza və Azərbaycana yürüşə başladı. Lakin **1796-cı ilin noyabrında** II Yekaterina qəflətən vəfat etməsi və Rusiyanın Qərbi Avropa ölkələri ilə münasibətlərinin gərginləşməsi rus qoşunlarının Cənubi Qafqazdan geri çağırılmasına səbəb oldu. **Beləliklə, XVIII əsrin sonlarında Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsi və çarizmin öz planlarını gerçəkləşdirməsi mümkün olmadı**.



*Valerian Zubov*

***QEYD:*** Yeni dövrdə Qafqaz, Mərkəzi Asiya, Sibir, Volqaboyu və Ural türklərinin tarixi üçün müəyyən oxşar cəhətlər var idi. Belə ki bu dövrdə həmin xalqların vahid siyasi birliyi yox idi, Rusiyanın işğalına məruz qalmışdılar, Rusiya müsəlman müsəlmanlara qarşı zorla xristianlaşdırma siyasəti həyata keçirirdi, əhali Rusiyanın müstəmləkə siyasətinə qarşı üsyan qaldırmışdılar.

# Türk və Şərq xalqlarının mədəniyyəti

## Səfəvi və Əfşar imperiyalarında mədəniyyət

XVII-XVIII əsrlərdə Azərbaycanda elmin inkişafında canlanma olmuşdu. XVII-XVIII əsrlərdə Səfəvi və Əfşar imperiyalarının ərazisində maarifçilik sahəsində inkişaf davam etməkdə idi. Tarix və coğrafiya elmləri daha yaxşı inkişaf etmişdi. **1560-1634-cü illərdə** yaşamış tarixçi **İsgəndər bəy Münşinin** əsərləri Yaxın Şərq və türk tarixinə dair qiymətli mənbələrdir. **Mirzə Məhəmməd** fəlsəfəyə, astronomiyaya və riyaziyyata, **Yusif Qarabaği** isə məntiq, hüquq və astronomiyaya aid əsərlər yazmışlar. Bu əsrdə Azərbaycan tarixinə dair «**XVIII yüzillikdə Car müharibələri salnaməsi**» yazılmışdır. Nadir şah haqqında əsərlər yazan tarixçilər arasında **Mirzə Mehdi xan** şahın bütün yürüşlərində onu müşayiət etmiş və «**Dünyanı fəth edən Nadirin tarixi**» əsərini yazmışdır.

Nadir şahın müasiri olan **Məhəmməd Kazımın** əsəri isə «**Dünyanı bəzəyən Nadirin tarixi**» adlanır. Bu əsərdə İranın həmin dövrdəki ***daxili vəziyyəti haqqında*** xeyli məlumat verilib. Mütəxəssislər bu cəhətinə görə Məhəmməd Kazımın əsərini daha dəyərli hesab edirlər.

**XVIII əsrdə** iqtisadi və siyasi tənəzzül memarlığın inkişafına mənfi təsir göstərsə də, bu sahədə müəyyən irəliləyişlər də olmuşdu. Bu dövrdə Səfəvi və Əfşar imperiyaları ərazisində ***tətbiqi sənətkarlığın*** yüksək inkişaf etdiyi dövrdür. Azərbaycan və İran sənətkarlarının hazırladığı ***gümüş məmulatlar, xalçalar, parçalar*** bütün dünyada məşhur idi.

Dövrün tanınmış rəssamları olan **Məhəmməd Zaman Təbrizinin** və **Mülkünün** əsərlərində Şərq və Qərb rəssamlıq məktəbi ənənələri özünü göstərirdi.

Dövrün məşhur şairləri isə **Məcmər, Arif Şirvani, Arif Təbrizli, Xəstə Qasım, Şəkili Nəbi, Molla Vəli Vidadi** və **Molla Pənah Vaqif** və həmin dövrə dəbiyyatında satiranın əsasını qoyan **Cəndəqi** idilər. Həmin dövrdə ölkəmizdəki hər bir məktəbin, mədrəsənin öz kitabxanası var idi. Ərdəbildəki **Şeyx Səfi kitabxanası** daha çox şöhrət qazanmışdı.

Bəhs olunan dövrdə Azərbaycanda və İranda ***meydan tamaşaları*** və ***kukla teatrları*** geniş yayılmışdı.

**Şəkidəki xan sarayı** XVIII əsr Azərbaycan və dünya memarlığının ən dəyərli incilərindən biridir.

## Hindistan mədəniyyəti

XVII-XVIII əsrlərdə Hindistanda bir çox yeni ***mədrəsələr*** açıldı. Mədrəsələrə Moğol imperatorları və iri feodallar qəyyumluq edirdilər. Burada ilahiyyatla yanaşı, riyaziyyat, astronomiya, tibb və digər dünyəvi elmlər də öyrədilirdi. Mədrəsələrin ən məşhurları Dehlidə və Aqrada yerləşirdi.

Ölkədə ədəbiyyat və riyaziyyat sahəsində çalışan alimlərin uğurları daha böyük idi. Memarlığın inkişafı yüksək səviyyəyə çatmışdı. Memarlıq abidələri içərisində məscidlərin xüsusi yeri vardı. Dehlidəki **Cümə məscidi, Vicapurdakı, Qolkonddakı məscidlər** ən yaxşı memarlıq nümunələri sayılırdı.

Hind miniatür rəssamlıq məktəbinin ən yaxşı nümunələri isə həmin dövrün bizə gəlib çatan kitablarında öz əksini tapmışdı.



*Tuka Ram*

İngiltərə və Fransa ilə əlaqələrin yaradılması Hindistan mədəniyyətinə müsbət təsir göstərməklə yanaşı, avropalılara bu zəngin mədəniyyətlə tanış olmağa şərait yaratdı. **Uilyam Consun 1784-cü ildə** yaratdığı «**Benqal-Asiya cəmiyyəti**» bu işdə böyük rol oynadı. Sonralar bu cəmiyyəti **Kral cəmiyyəti** adlandırdılar.

Çoxdilli hind poeziyasında sadə xalqın arzu və ümidləri, feodallara qarşı mübarizəsi təsvir olunurdu. Bu dövrdə benqaliyalı **Əbdül Qadir Bedilin** şeirləri geniş yayılmışdı. Maratx dilində yazan şair **Tuka Ramın** əsərləri bu gün də maraqla oxunur.

Hindli sənətkarlar fil sümüyündən və ağacdan naxışlı əşyalar düzəldir, gözəl metal məmulatlar və saxsı qablar hazırlayırdılar. Rəqs, musiqi ölkənin ən inkişaf etmiş sənət sahələri idi. Bu dövrdə Hindistanda yeni tipli teatrın əsası qoyulmuşdu.



*Dehlidəki Cümə məscidi hazırda Delhinin ən başlıca məscidlərindən biridir. Məscid 1650-1656-cı illərdə Moğol hökmdarı Cahan şah tərəfindən inşa etdirilmişdi. Təkcə məscidin həyatində eyni zamanda iyirmi beş min insan namaz qıla bilir. Bu gün də Məsciddə maral dərisinə yazılmış qədim Qurani Kərim və bir çox tarixi sənədlər saxlanılır.*

### Çin mədəniyyəti

XVII-XVIII əsrlərdə Çində ensiklopediya və lüğətlər tərtib edilmiş, ədəbiyyat külliyyatı nəşr olunmuş, Çin klassik romanının inkişafında yeni mərhələnin əsası qoyulmuşdu. XVII əsrin ortalarından etibarən ölkədə Çin dili ilə yanaşı, ***rəsmi dövlət dili*** olan ***mancur dilində*** də elmi və bədii əsərlər yazılırdı.

İncə və gözəl zövqə malik olan Çin sənətkarları və rəssamlarının sümükdən və mərmərdən hazırladıqları əşyalar əsl sənət əsərləri idi. Çin rəssamları ölkədə toxunan parçalara mürəkkəb, lakin insanın ruhunu və gözünü oxşayan incə naxışlar vururdular. XVII əsrdə Çin memarlığında monumental binaların inşasına başlanıldı. **Pekin sarayı**, Mukdendəki (indi Şenyan) **imperator mavzoleyi** bu dövrdə yarandı.

Bu dövrdə Çin incəsənətinə, o cümlədən memarlığına Avropa ölkələrində tətbiq edilən yeni forma və üsullar ciddi təsir göstərə bilməmişdi. Çinin «özünütəcrid» siyasəti onu bu təsirdən qorumuşdu.

### Yaponiya mədəniyyəti

**XVII yüzillikdə** Yaponiyanın ənənəvi mədəniyyəti formalaşmağa başladı. Bu dövrdə ***«şəkilli hekayələr»*** janrı meydana gəldi. Yapon şeirinin janrlarından olan ***haykunun (xokku)*** gözəl nümunələri yarandı. Hayku 3 sətirdən ibarət olub 5-7-5 heca sisteminə əsaslanır. **Matsuo Basyo** bu janrın ən görkəmli nümayəndələrindən biri idi.

Bu dövrdə kukla teatrı, rəngkarlıq və elm inkişaf etdi. Dəqiq elmlər, o cümlədən təbiət elmləri, xüsusilə də riyaziyyat və aqronomluq sahəsində uğurlar əldə edildi. Teatr sənəti öz inkişafının zirvəsinə çatdı.

XVIII əsrdə Yaponiyada təhsil də inkişaf etdi. Bu dövrdə samuraylarla yanaşı, aşağı təbəqədən olan insanlar üçün də məktəblər açıldı.

### Osmanlı mədəniyyəti

Yeni dövrdə Avropa ölkələri ilə əlaqələr Türk və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına öz təsirini göstərdi.



*Katib Çələbi*

XVII əsrdə Osmanlı dövlətinin iqtisadi cəhətdən zəifləməsi əvvəlcə vəqf müəssisələrinin zəifləməsinə, daha sonra isə onlara bağlı təhsil sisteminin zəifləməsinə səbəb oldu. Bu, dini elmlərin inkişafına mane oldu. Dünyəvi elmlər isə inkişaf edir, türk alimləri dövrün mədəniyyətinə öz töhfələrini verirdilər. **Katib Çələbi** və **Evliya Çələbi** həmin dövrün böyük türk alimləri olmuşlar. Evliya Çələbinin oncildlik **«Səyahətnamə»** əsəri isə Osmanlı və dünya tarixini və mədəniyyətini öyrənmək üçün əhəmiyyətli mənbələrdən biridir. Bu əsərdə müəllif Azərbaycan haqqında (Azərbaycan şəhərləri barədə, xüsusilə Təbriz şəhəri, onun qapıları, məhəllələri, sarayları, məscidləri, məktəbləri, mədrəsələri, sənətkarları və s. haqqında) da qiymətli məlumatlar verilmişdi.

Katib Çələbi tarix, hüquq, coğrafiya və maliyyə məsələlərinə aid bir çox dəyərli əsərlərin müəllifi olmuşdur.

XVII əsrdə Osmanlı dövlətində əsas təhsil müəssisələri ***mədrəsələr*** idi. Mədrəsələrdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Onların məzunları müdərris, qazı, müfti, ilahiyyatçı, astronom, həkim, riyaziyyatçı kimi hazırlanırdı.



*Evlıya Çələbı*

XVII-XVIII əsrlər Osmanlı memarlığının tənəzzülü dövrü hesab olunur. Lakin həmin dövrdə də ölkədə bir sıra memarlıq abidələri inşa edilmişdi. Həmin əsrlərdə artıq ənənəvi memarlıq üslubu Avropaya xas olan ***rokoko*** və ***barokko*** memarlıq üslubu ilə əvəz olunmuşdu. Ağrı şəhərindəki **İshak Paşa sarayı** bu üslubda inşa edilmişdi. Bu dövr Osmanlı memarlığının şah əsəri **Sultan Əhməd məscididir**. Memarı **Mehmet Ağa** olan bu məscid **1609-1616-cı illərdə** inşa edilmişdir.

Həmin dövrdə Osmanlı rəssamları, əsasən, miniatür əsərlərə üstünlük verirdilər. Məşhur rəssam **Levninin** miniatürlərini fərqləndirən başlıca cəhət onun əsərlərində insanlara, hadisələrə yeni baxışın olması idi.

**Nəbi, Nedim, Titnat xanım** XVII əsr türk ədəbiyyatının tanınmış simalarından olmuşlar.

Memarlıqdan fərqli olaraq, bu dövrdə musiqi yüksək inkişaf səviyyəsinə çatmışdı. XVIII əsrdə **Ömər bəy İtri, Musa Əfəndi** kimi böyük türk bəstəkarları yaşayıb-yaratmışlar. Məhz bu əsr türk musiqisinin yüksəliş dövrü olmuşdur. Türk musiqisi nəinki Avropa musiqisinin təsiri altına düşmüş, əksinə, Avropa musiqisinə təsir göstərmişdi. Musiqinin belə inkişafı həm də bu dövrün sultanlarının - Sultan Əhmədin, I Mahmudun, III Səlimin bu sahəyə olan maraqları ilə bağlı idi.

XVIII əsrin əvvəllərində Osmanlı dövlətində Avropa təcrübəsini öyrənməyə başladılar. Bunun nəticəsində ölkədə **1727-ci ildə** ilk mətbəə yaradıldı.





*Ağrı şəhərində İshak Paşa sarayı* *Sultan Əhməd məscidi*

### Mərkəzi Asiya, Volqaboyu, Ural, Sibir türklərinin mədəniyyəti

Mərkəzi Asiyada mədrəsələrdə şəriətlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. **Buxara mədrəsəsi** bütün müsəlman dünyasında məşhur idi. Böyük şəhərlərdə və yaşayış mərkəzlərində qızlar üçün xüsusi məktəblər var idi. Türkmən poeziyasının zirvəsində duran **Məhtimqulu Fəraqi** öz əsərləri ilə sübut etdi ki, türkmən dilində də böyük ədəbi əsərlər yarana bilər. Ondan sonra türkmən ədəbiyyatında ərəb və fars sözlərindən istifadəyə, demək olar ki, son qoyuldu.



*Məhtimqulu Fəraqinin abidəsi. Türkmənistan*

Mərkəzi Asiya, Volqaboyu, Ural türklərinin təhsil sistemi digər türk xalqlarının təhsil sistemindən fərqlənmirdi. Çarizmin milli müstəmləkə siyasəti - türklərin xristianlaşdırılması təhsilə mane olurdu. Əhalini xristianlaşdırmaq məqsədilə müsəlman məktəb və mədrəsələrini bağlayır, xristian dini məktəbləri açırdı. Bu yolla türklər həmin məktəblərə cəlb edilirdi. **XVIII əsrin sonlarında** burada ***ilk dünyəvi ibtidai məktəblər*** açıldı. Rusiyanın sosial-iqtisadi inkişafı bu bölgənin iqtisadiyyatını öyrənməyi tələb edirdi. Odur ki, regionda tibb, texniki və başqa peşə məktəbləri yaradılmışdı.

Kazanda açılan gimnaziyada təhsil rus dilində olsa da tatar, ərəb, türk dilləri də tədris olunurdu. Bu dövrdə **Sagit Xalfin** ilk tatar əlifbasını tərtib etmişdi. **XVIII əsrdə** rus qrafikası əsasında ***çuvaş əlifbası*** tərtib olundu.

### Qafqaz xalqlarının mədəniyyəti

Şimali Qafqaz ərazilərində təhsil məktəb (mollaxana) və mədrəsələrdə verilirdi. Quran oxumaq və yazı məktəblərdə öyrədilirdi. Mədrəsələrdə Quran oxunması, məntiq, hüquq, tarix, coğrafiya, fəlsəfə, astronomiya tədris edilirdi. Qazıqumuq və Xunzaxda zəngin kitabxanalar fəaliyyət göstərirdi. Qafqazda bir çox elm sahələri ilə yanaşı, tibb elmi də inkişaf etmişdi. Təbiblər dərman bitkiləri vasitəsilə müxtəlif xəstəlikləri sağaldır, avropalı alimlərdən xeyli əvvəl çiçək xəstəliyinə qarşı peyvənd etməyi bacarırdılar.

Şimali Qafqaz xalqlarının öz əlifbası yox idi. Onlar ərəb, rus və gürcü əlifbalarından istifadə edirdilər. Ərəb əlifbasından, əsasən bölgənin müsəlman əhalisi istifadə edirdi. **XVIII əsrdə** ***avar əlifbası*** tərtib olundu.

XVII-XVIII əsrlərdə Qafqaz xalqlarının şifahi xalq ədəbiyyatı daha çox inkişaf etmişdi. Tarixi mövzulara, yadellilərin əsarətinə qarşı mübarizəyə həsr olunmuş mahnılar və əfsanələr daha geniş yayılmışdı.

XVIII əsrin ikinci yarısında Gürcüstanda dini təhsil verən seminariyalar - orta məktəblər açıldı. **1709-cu ildə** Gürcüstanda Kartli çarı VI Vaxtanqın təşəbbüsü ilə mətbəə açıldı. **1712-ci ildə** bu mətbəədə XII əsrin böyük gürcü şairi **Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan»** əsəri daşbasma üsulu ilə çap edildi.

# AVROPA VƏ AMERİKA XVII-XVIII ƏSRLƏRDƏ

## İngiltərə

### İnqilab ərəfəsində İngiltərənin sosial-iqtisadi vəziyyəti

İnqilab ərəfəsində İngiltərənin sosial-iqtisadi vəziyyəti aşağıdakı kimi idi:

- ✓ İspaniyanın «Məğlubedilməz armada»sını darmadağın etdikdəön sonra güclü dəniz dövlətinə çevrilmişdi.
- ✓ Kapitalist münasibətləri inkişaf etsə də *feodal ölkəsi* olaraq qalmaqda idi.
- ✓ Əhalinin böyük əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu.
- ✓ Avropanın digər ölkələrindən daha çox *kömür* çıxarılır və *dəmir* əridilirdi.
- ✓ Kəndlilərin əsas kütləsi mülkədarlara *töycü* öyrəyirdi.
- ✓ Torpağın ali mülkiyyətçisi *kral* idi.
- ✓ Kral bir çox məhsulların ticarət hüququnu pulla tacirlərə sataraq, bu yolla onların qazandıqları mənfəətin bir hissəsindən məhrum edirdi (tacirlər isə qiymətləri qaldırmaqla itirdiklərini əhalinin hesabına qaytarırdılar).
- ✓ Anqlikan kilsəsi və puritan təriqəti geniş yayılmışdı.
- ✓ *Ölkədə ilk manufakturalar meydana gəlir və* sayı getdikcə artırdı.
- ✓ *Yeni zadəganlar və burjuaziya* ilə kral arasında kəskin mübarizə gedirdi. Yeni zadəganlara və burjuaziyaya istehsalı genişləndirməyə *kralın qoyduğu ağır vergilər* imkan vermir bu da azad rəqabətə mane olurdu.
- ✓ Zadəganlar torpağın tam mülkiyyətçisi olmadıqlarına görə *torpaqdan istifadə edilməsinə və torpağın miras verilməsi şərtləri müqabilində* krala müəyyən məbləğ ödəməli idilər:

### Anqlikan kilsəsi. Puritan təriqəti

XVI əsrdən İngiltərədə Anqlikan kilsəsi hökmranlıq edirdi. Reformasiya dövründə İngiltərədə meydana gələn və müstəqil olan Anqlikan kilsəsi mütləqiyyətin möhkəmləndirilməsinə xidmət edirdi. ***Anqlikan kilsəsi:***

- ✓ xalqa kralın hamıdan ali olması və bunun Allah tərəfindən müəyyənləşdirilməsi fikrini təlqin edirdi.
- ✓ Katolik kilsəsindən fərqli olaraq, ***Roma Papasına deyil, İngiltərə kralna*** tabe idi.
- ✓ Topladığı vergilər ***dövlət xəzinəsinə*** gedirdi.

**XVI əsrdə** İngiltərədə geniş yayılmış ***puritan*** təriqəti ***xalq kütlələri, yeni zadəganlar*** və ***burjuaziya*** arasında daha geniş yayılmışdı. Bu dövrdə İngiltərədə ***protestantları*** putitan adlandırırdılar. ***Puritanlar:***

- ➢ ***kralın mütləq hakimiyyətinə*** və ***feodal quruluşuna qarşı*** çıxırdılar.
- ➢ Kilsəni israfçılardan təmizləməyə çalışırdılar.
- ➢ Dəbdəbəli və dini mərasimlərin, din xadimlərinin sərvət toplamalarının əleyhinə idilər.

| *Anqlikan kilsəsi* | *Puritan kilsəsi* |
|---|---|
| ✓ *Müstəqil kilsə idi,ona Roma papası deyil, deyil, kral başçılıq edirdi.*<br>✓ *Kral hakimiyyətinin və zadəganların dayağı hesab olunurdu.*<br>✓ *Topladığı vergilər dövlət xəzinəsinə gedirdi.* | ✓ *Sadə xalq, yeni zadəganlar və burjuaziya arasında daha geniş yayılmışdı.*<br>✓ *Təmtəraqlı mərasimlərin, din xadimlərinin sərvət toplamasının əleyhinə idilər.*<br>✓ *Dəbdəbəli və dini mərasimlərin əleyhinə idilər.* |

### Burjua inqilabı ərəfəsində İngiltərənin siyasi vəziyyəti

**XVII əsrdə** İngiltərənin dövlət quruluşu ***parlamentli-monarxiya*** idi. XVII əsrin başlanğıcında kraliça I Yelizavetanın vəfatı ilə İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyəti sona çatdı və Stüartlar sülaləsi (1603-1714) hakimiyyətə gəldi. Sülalənin banisi **I Yakov Stüart (1603-1625)** olmuşdur. Hakimiyyətə gəldiyi andan etibarən Stüartlar sülaləsinin ***ingilis parlamenti*** və ***puritan kilsəsi*** ilə münaqişəsi başladı. Münaqişənin əsas səbəbi ***kral I Yakovun vergilərin müəyyən edilməsi hüququnun parlamentə məxsus olmasını qəbul etmək istəməməsi*** idi. I Yakov Stüart hakimiyyətə gələrkən xalq onun islahatlar aparacağını gözləyirdi. Lakin I Yakov onların gözlədikləri islahatları nəinki həyata keçirmədi, əksinə, ***puritan təriqəti*** və ***parlamentin hüquqlarının məhdudlaşmağa*** çalışdı. I Yakovdan sonra hakimiyyətə onun oğlu, **I Karl (1625-1649)** gəldi. I Karl siyasi fəaliyyəti dövründə atasının siyasətini davam etdirdi.



*I Yakov (1603-1625)*

### İngiltərə burjua inqilabının başlanması (1640)



I Karl (1625-1649)

Dövrün başlıca tələblərindən biri xarici siyasətin aparılmasında ***parlamentin səlahiyyətlərinin artırılması*** idi. Kralın apardığı xarici siyasət müharibələrə səbəb olurdu. Müharibələr üçün böyük maliyyə vəsaiti lazım idi. Bu məqsədlə I Karl vergiləri artırmaq qərarına gəldi. Vergiləri artırmaq isə birbaşa kralın səalhiyyətlərinə aid deyildi. Bunun üçün parlamentin razılığı olmalı idi. Lakin kralla parlament arasında ziddiyyətlər kəskinləşdiyinə görə **1629-cu ildə** I Karl parlamenti buraxdı. Boşalmış ***xəzinəni doldurmaq*** və ***yeni vergilər təyin etmək*** üçün kral **1640-cı ildə** parlamenti çağırmağa məcbur oldu. Lakin parlament kralın tələblərini yerinə yetirmədi, əskinə bir sıra feodal qaydalarını sarsıdan islahatlar keçirdi. Beləliklə, ölkədə kral və parlament arasında münasibətlər kəskinləşdi. Onların tərəfdarlarından ibarət iki siyasi düşərgə yarandı. Bu parlament 13 il mövcud olduğu üçün (1640-1653) uzunmüddətli parlament adı aldı. ***Uzunmüddətli parlamentin çağırılması İngiltərədə inqilabın başlanğıcı hesab olunur***. İngiltərə burjua inqilabının qarşısında duran əsas vəzifə ***mütləqiyyəti və feodal qaydalarını ləğv etmək*** idi.

### İngiltərədə vətəndaş müharibəsi (1642-1646)

I Kral uzunmüddətli ***parlamentin həyata keçirdiyi islahatlarla razılaşmayaraq icmalar palatasının beş nəfər deputatını həbs etmək barədə*** göstəriş verdi. Bu xəbərdən qəzəblənən xalq ***parlamentin müdafiəsinə*** qalxdı. Odur ki, kral deputatları həbs etdirə bilmədi. Belə olduqda I Karl **1642-ci ilin avqustunda** parlamentə müharibə elan etdi. **1642-ci ilin avqustunda** I Karlın parlamentə müharibə elan etməsi ilə **İngiltərədə vətəndaş müharibəsi** başlandı. İngiltərədə vətəndaş müharibəsi dövrünə ***aiddir:***

- **1642-1646-cı illərdə** Kralla parlament arasında baş vermiş müharibədə kralın tərəfdarlarını ***kavalerlər,*** parlament tərəfdarlarını isə ***girdəbaşlar*** adlandırırdılar.
- Müharibənin əvvəlində kral ordusu parlament ordusunu məğlub etdi.
- Tezliklə parlament müttəfiq kimi **Şotlandiya** ilə birləşərək kral ordusu məğlub etdi.
- **Kromvelə** general rütbəsi verildi və parlament ordusunun başçısı təyin edildi.
- **1645-ci ildə** İcmalar palatası - **Oliver Kromvelə yeni tipli ordu** təşkil etməyi tapşırdı.
- **1645-ci ildə Neyzbi kəndi yaxınlığında** döyüşdə parlament ordusu kralın başlıca qüvvələrini darmadağın etdi və vətəndaş müharibəsinin taleyi həll olundu.
- Məğlub olan I Karl Şotlandiyaya qaçsada, ***şotlandlar*** böyük məbləğdə pul alaraq onu İngiltərə parlamentinə təslim etdilər.
- **1646-cı il iyununda** İngiltərədə vətəndaş müharibəsi ***parlamentin qələbəsi ilə*** başa çatdı.

Müharibə nəticəsində ölkədə bütün siyasi hakimiyyət ***yeni zadəganların*** və ***burjuaziyanın*** əlinə keçdi





*Oliver Kromvelin Yeni topli ordusu. 1644-cü il, Kromvelin ilk dəfə sərkərdəlik bacarığını göstərməsi. 1945-ci il, Neyzbi döyüşü, parlament ordusunun kralın başlıca qüvvələrini darmadağın etməsi.*

### Uzunmüddətli parlamentin islahatları

Uzunmüddətli parlament fəaliyyətə başlayarkən bir sıra ***feodal qaydalarını sarsıdan*** islahatlar həyata keçirdi:

- ✓ ***Feodal töycüsü ləğv edildi.***
- ✓ ***Kral və kilsə məhkəməsinin dünyəvi şəxsləri mühakimə etmək səlahiyyətiləğv edildi.***
- ✓ ***Kral nazirləri məhkəməyə verdi.***
- ✓ ***İcmalar palatasının kral tərəfindən buraxılmasını qadağan edən qanun qəbul edildi.***

Vətəndaş müharibəsindən sonra Uzunmüddətli parlamentdə üstünlüyü ələ alan **yeni zadəganlar** və **burjuaziya** bir sıra islahatlar həyata keçirdi:

- ✓ ***Kilsə parlamentə tabe edildi.***
- ✓ ***Zadəgan və burjuaziyanın torpaqdan istifadəyə görə krala haqq vermələri ləğv edildi.***

Lakin kəndlilərin mülkədarlardan asılılığı ləğv olunmadı. Kəndlilər feodal mükəlləfiyyətlərini və onda bir vergini yenə də ödəməli idilər. Odur ki, uzunmüddətli parlamentin islahatları əhalinin bütün təbəqələrini razı salmadı. Parlamentin inqilabi ordunu buraxmaq və onu tərk-silah etmək haqqında qərarı xalqı hərəkətə gətirdi.

### Levellerlər («bərabərçilər») hərəkatı

İnqilab zamanı London ***sənətkarları*** və ***yeni tipli ordunun əsgərləri arasında*** siyasi publisist **Con Lilbernin** ideyaları geniş yayıldı. Lilbernin tərəfdarlarını **levellerlər («bərabərçilər»)** adlandırırdılar. Vətəndaş müharibəsi ölkəni sarsıtdı, özü ilə aclıq və fəlakət gətirdi. Belə çətin zamanda Levellerlər ordu hissələrinə müraciət edərək, onları üsyanan çağırdılar. Levellerlər ***krala və aristokratlara***, parlamentin aristokratlardan təşkil olunmuş ***lordlar palatasına*** qarşı idilər. Levellerlər aşağıdakı tələblər irəli sürürdülər:

- ➢ ***Respublika yaradılmasını***.
- ➢ ***Lordlar palatasının ləğv edilməsini***.
- ➢ ***Seçki hüququnun verilməsində dəyişikliklər edilməsini***.
- ➢ ***Qanun qarşısında hər kəsin bərabərlik və din azadlığını***.

Lakin levellerlərin qaldırdığı qiyam yatırıldı. Qiyam başçıları edam olundular. Bundan sonra levellerlər siyasi yazılar çap etməklə mübarizə aparsalar da hərəkat zəifləyib təsirini itirdi.



*Con Lilbern.*





*Edam olunmuş levellerlərin xatirə lövhəsi.*

### Diggerlər («həqiqi levellerlər») hərəkatı

**1649-cu ildə** İngiltərədə kənd yoxsulları arasında ***diggerlər*** hərəkatı yayıldı. Diggerlər özlərini **«həqiqi levellerlər»** (**«həqiqi bərabərçilər»**) adlandırırdılar. Diggerlərin ideoloqu **Cerard Uinstenli** idi. Diggerlər levellerlərədən ***fərqli olaraq*** təkcə siyasi bərabərlik deyil, iqtisadi bərabərlik də tələb edirdilər. Diggerlər ***xüsusi mülkiyyətin*** əleyhinə idilər. Torpaq sahibliyinə qarşı çıxan diggerlər ***dinc yolla*** mübarizə aparırdılar. Onlar icma torpaqlarını belləyir və bütün yoxsulları onlara qoşulmağa çağırırdılar. Diggerlər bu yolla çoxlu tərəfdar toplamağa və xüsusi mülkiyyət olmayan bir cəmiyyət qurmağa ümid edirdilər. Lakin diggerlər də istədiklərinə nail ola bilmədilər. Respublika kasıbların bu dinc hərəkatı da amansızlıqla yatırdı.



A Manifestation
FROM
Lieutenant Col. John Lilburn, Mr. William Walwyn, Mr. Thomas Prince, and Mr. Richard Overton,
(Now Prisoners in the TOVVER of London)
And others, commonly (though unjustly)
STYLED
LEVELLERS.
Intended for their
FVLL VINDICATION
FROM
The many aspersions cast upon them, to render them odious to the World, and unserviceable to the Common-wealth.
And to satisfie and ascertain all MEN whereunto all their Motions and Endeavours tend, and what is the ultimate Scope of their Engagement in the
PVBLICK AFFAIRES.



*Diggerlər*

### «Prayd təmizləməsi». İngiltərənin Respublika elan edilməsi



*I Karlın edam olunması, 1649-cu il, 30 yanvar*

Parlamentdə sütünlük təşkil edən ***iri mülkədarlar*** kral hakimiyyətinin saxlanılmasının tərəfdarı idilər. Lakin, **1648-ci ildə** polkovnik Prayd öz tərəfdarları ilə birlikdə kral tərəfdarı olan deputatları parlament binasına buraxmadı. Bu hadisə İngiltərə tarixində **«Prayd təmizləməsi»** adlandı. «Prayd təmizləməsi» hadisəsindən sonra kral əleyhdarları parlamentdə üstünlük qazandılar.

Vətəndaş müharibəsindən sonra ordu kralın edam edilməsini tələb edirdi. Odur ki, Oliver Kromvel xalqın təzyiqilə monarxiyanı ləğv etməyə məcbur oldu. **1649-cu il, yanvarın 30-da** I Karl edam olundu. Parlament **1649-cu ilin martında Kral hakimiyyətini** və **Lordlar palatasını** ləğv etdi. **1649-cu ilin mayında** isə:

- ***İngiltərə respublika elan olundu.***
- ***Hakimiyyət Kromvel başda olmaqla parlamentin əlinə keçdi.***

İngiltərədə respublika cəmi 4 il (1649-1653) mövcud oldu, 1653-cü ildə Kromvel respublikaya son qoydu.

### Yeni tipli ordunun işğalları

I Karl edam edildikdən sonra Fransada qaçıb gizlənmiş İngiltərə taxt-tacın varisi və edam edilmiş kralın oğlu II Karl ***ləğv edilmiş kral hakimiyyətini bərpa etmək üçün*** İrlandiyada özünə tərəfdarlar topladı. **1649-cu ilin avqustunda** Parlament Oliver Kromveli İrlandiyaya canişin göndərərək İrlandiyada qiyamı amansızlıqla yatırdı. Oliver Kromvel İrlandiyanı tutduqdan sonra aşağıdakı tədbirləri həyata keçirildi:

- ***Əhali kütləvi şəkildə Amerikaya sürgün edildi.***
- ***İrlandiyanın parlamenti buraxıldı və İrlandiya İngiltərə Respublikasına birləşdirildi.***

Oliver Kromvel İrlandiyanı tutduqdan sonra II Karl Şotlandiyaya gedərək özünə yeni tərəfdarlar topladı. Şotlandiya parlamenti - «kovenant» isə onu öz kralı elan etdi. Buna cavab olaraq Kromvel Şotlandiyaya yürüş etdi. Kromvelin Şotlandiyaya yürüş nəticəsində Şotlandiya ordusunu məğlub edildi və Şotlandiya İngiltərə Respublikasına birləşdirildi. II Karl isə Fransaya qaçmağa məcbur oldu.

### 1653-cü il çevrilişi. Oliver Kromvelin protektorluğu dövrü

İrlandiya və Şotlandiyanın işğalı başa çatdıqdan sonra parlament ordunun sayını azaltmağı təklif etdi. Buna görə də parlamentlə ordu arasında ziddiyyət gücləndi. Ordunun yuxarı dairələri və zadəganlar bütün hakimiyyəti Kromvelə verməyi qərara aldılar. **1653-cü ildə** Kromvel **əksinqilabi çevriliş** edib «uzunmüddətli parlamenti» və «Dövlət şurası»nı qovaraq hakimiyyəti bütünlüklə öz əlinə aldı. Çevriliş nəticəsində:



*Cromvelin Uzunmüddətli parlamenti buraxması*

- ✓ ***Respublikaya və inqilaba son qoyuldu.***
- ✓ ***Kromvel lord-protektor elan olundu.***

**Beləliklə, Kromvel inqilab tarixində iki rol oynadı - əvvəlcə o, inqilabın başçısı, sonra isə onun boğucusu oldu.** Əslində protektorluq rejimi Kromvelin **hərbi diktaturası (1653-1658)** demək idi. Kramvel hərbi diktaturası (lord-protektorluğu) dövründə ***təkbaşına qanunlar verməyə və ölkəni parlamentsiz idarə etməyə başladı***. Lakin Kromvelin siyasəti ölkədə sabitlik yaratmadı.

1658-ci ildə Kromvel vəfat etdikdən sonra protektor titulu onun oğlu Riçar Kromvelə verildi. Lakin **Riçard Kromvel (1659-1660)** ölkəni idarə edə bilmədi və bir neçə ildən sonra könüllü olaraq hakimiyyətdən əl çəkdi.

*Oliver Kromvel vətəndaş müharibəsinin başlanğıcında təhsil aldığı Hüquq fakultəsini yarımçıq tərk edərək 60 atlıdan ibratət dəstənin kapitanı oldu. Kromvelin sərkərdəlik bacarığı və kral ordusu üzərində qələbələri onu parlament ordusunun və inqilabın başçısı səviyyəsinədək yüksəltdi. Lakin O, inqilab başa çatdıqdan sonra özünü lord-protektor elan edərək 1653-1658-ci illərdə İngiltərədə təkbaşına hakimiyyətə sahib oldu. Lord-protektor 1658-ci ildə vəfat etdi. Onun ölümündən sonra qurduğu protektorluq rejimi isə dağıldı.*



*Oliver Kromvel*



*Riçard Kromvel*

### İngiltərədə Stüartlar sülaləsinin bərpası - restavrasiyası dövrü

Oliver Kramvelin vəfatından sonra Riçard Kromvel ölkəni idarə edə bilmədi. ***Yeni zadəganlar*** və ***burjuaziya*** isə İngiltərədə məhdud monorxiyanı bərpa etmək qərarına gəldilər. Belə bir şəraitdə ölkədə böhran yarandı. Hakimiyyətdəki hərc-mərclikdən istifadə edən Şotlandiyadakı ordu generalları **1660-cı ildə** Londonu tutaraq İngiltərə parlamentini buraxdılar. Dövlət çevrilişindən sonra yeni parlamentə seçkilər keçirildi. Seçkilər nəticəsində Parlamentin tərkibi dəyişdi. Edam edilmiş kralın oğlu II Karl taxta dəvət edildi. Beləliklə, **1660-cı ildə** İngiltərədə Sütüartlar sülaləsinin hakimiyyəti bərpa (restavrasiya) edildi. ***Restavrasiya*** məhdud monarxiyanın bərpası demək idi. Kromvelin bir zaman qovduğu deputatlar parlamentə qayıdaraq yerlərini tutdular. İngiltərədə ordunun hakimiyyətinə son qoyuldu. Parlament kral əleyhinə qəbul edilən bütün qanunları ləğv edərək özü özünü buraxdı. 25 apreldə seçilən yeni parlament kralla danışıqlar apardı. Danışıqlar nəticəsində II Karl (1660-1685) ilə parlament arasında belə bir saziş əldə edildi:



*II Karl (1660-1685)*

1. ***Kral inqilab iştirakçılarını təqib etməyəcəkdi.***
2. ***Kral torpaqları öz yeni sahiblərindən geri almayacaqdı.***
3. ***Kral parlamentin razılığı olmadan vergi qoymayacaqdı.***



*II Yakov (1685-1688)*

Bundan başqa, parlament ümumi amnistiya, din azadlığı və başqa hüquqlar barədə də kraldan öhdəliklər aldıqdan sonra onu üç krallığın - **İngiltərə, İrlandiya** və **Şotlandiyanın hökmdarı** elan etdi. Kral paytaxt Londona gəldi. Lakin II Kral taxta çıxan kimi öz üzərinə götürdüyü öhdəlikləri pozmağa başladı.

### İngiltərədə parlamentli-monarxiya rejiminin tətbiq edilməsi

II Karlı əvəz edən **II Yakv (1685-1688*)*** ***katolik dinini*** bərpa etməyə cəhd göstərdi. Bütün bunlar cəmiyyətdə Stüartlara qarşı böyük etimadsızlıq dalğasının güclənməsinə səbəb oldu və yeni zadəganlar II Yakovu hakimiyyətdən uzaqlaşdırmağı qərara aldılar. Parlament **1688-ci ildə** II Yakovu devirdi və Hollandiya hakimi, II Yakovun qızı, protestant olan Mariyanın əri **Oranlı Vilhelmi (1689-1702)** hakimiyyətə gətirdi. Parlament tacı şahzadə Mariyaya təqdim etdi. Onlar dövləti Vilhelmlə birlikdə idarə etməli idilər. Vilhelm taxta çıxan kimi «Hüquqlar haqqında bəyannamə»ni («Hüquqlar haqqında bill»i) imzaladı.



*Mariya Stüart və Vilhelm*

İrlandiyada sürgündə olan Yakov taxt-tacını geri qaytarmaq üçün xeyli çalışsada məğlub olaraq Fransaya qaçmaq məcburiyyətində qaldı. Beləliklə, **1688-ci il saray çevrilişi** nəticəsində ***İngiltərədə parlamentlə kral arasındakı qarşıdurmaya son qoyuldu.***

Vilhelmin vəfatınsan sonra İngiltərə taxt-tacına II Yakovun digər qızı, Marianın bacısı **Anna (1702 -1707)**, Annadan sonra isə Stüartlar sülaləsinin sonuncu kralı **I Georgi (1707-1714)** sahib oldu.



*kraliça Anna*

***QEYD:*** Dövlət çevrilişi baş verməsi İngiltərə tarixinin 1660-cı və 1688-ci il tarixi üçün oxşar cəhət təşkil edir. 1660-cı ildə baş verən çevriliş nəticəsində İngiltərədə Sütüartlar sülaləsinin hakimiyyəti bərpa (restavrasiya) edildi və məhdud monarxiya rejimi bərpa olundu. 1688-ci il dövlət çevrilişi nəticəsində isə II Yakov devrildi və Oranlı Vilhelm hakimiyyətə gətirildi, İngiltərədə parlamentlə kral arasındakı qarşıdurmaya son qoyuldu.

### «Hüquqlar haqqında bill»in qəbul edilməsi. İngiltərənin dövlət quruluşu

**1689-cu ildə** İngiltərə parlamenti «Hüquqlar haqqında bill» qəbul etdi. Bu qanuna görə:

- ✓ *Mütləqiyyəti bərpa cəhdlərinin qarşısı birdəfəlik alındı.*
- ✓ *Andlılar məhkəməsinin hüquqları genişləndirildi.*
- ✓ *Hökumət dəyişmələri yalnız parlament yolu ilə həyata keçirilə bilərdi.*
- ✓ *Krala vergilərin vaxtını, miqdarını müəyyən etmək qadağan edildi.*
- ✓ *Kral parlamentin razılığı olmadan ordu və xüsusi hərbi hissələr saxlaya bilməzdi.*
- ✓ *Kral parlamentin qəbul etdiyi qanunları dayandıra və ya ləğv elə bilməzdi.*

Lakin qanunlar kralın imzasından sonra qüvvəyə minirdi. Dini məsələlər üzrə qəbul edilən akta görə ölkədə dini cərəyan və təriqətlərin fəaliyyəti qanunlarla nizamlanırdı.

Beləliklə, dünyada ilk dəfə İngiltərədə ***parlamentli monarxiya*** hakimiyyət forması müəyyən edildi. Hakimiyyət kraldan ikipalatalı parlamentə keçdi. Parlamentin qəbul etdiyi qanunlar hamı üçün məcburi idi. Hökumət parlament seçkilərində qalib gələn partiyanın (***mühafizəkar*** və ***liberallar partiyası***) üzvlərindən təşkil olunurdu. Qalib gələn partiya Parlamentdə hökuməti formalaşdırırdı.

XVIII əsrin əvvəllərində, kraliça Annanın hakimiyyəti dövründə, **1707-ci il, mayın 1-də** Şotlandiya və İngiltərə parlamentləri birləşərək Böyük Britaniya krallığını yaratdılar.



*Şotlandiya nümayəndə heyəti İngiltərəyə birləşmək haqqında sənədi kraliça Annaya təqdim edərkən*

**İngiltərə burjua inqilabı (1640-1653)**

***İnqilabın əsas səbəbləri***

1. Qeyri-məhdud kral hakimiyyəti.
2. Feodal qaydaları və anqlikan kilsəsinin zülmü.

***İnqilabın qarşısındakı vəzifələr***

1. Mütləqiyyəti – kral hakimiyyətini devirmək.
2. Feodal qaydalarını ləğv etmək

**İnqilabın nəticələri (əhəmiyyəti)**

Mütləqiyyətə son qoyuldu və feodal qaydalarına ağır zərbə vuruldu.
İngiltərədə kapitalizmin inkişafına təkan verdi.
Sənaye sahələrində texnikanın tətbiqi genişləndi.
Hüquqi dövlət, vətəndaş cəmiyyətinin rüşeyimləri meydana gəldi.

## İngiltərənin xarici siyasəti

İngiltərədə siyasi dəyişikliklər Asiya, Afrika və Amerikada aparılan müstəmləkə siyasətinə təkan verdi. İngiltərə burjua inqilabından sonra Böyük Britaniya xarici siyasətinin qarşısında iki başlıca vəzifə dururdu:

1. **Avropada heç bir dövlətin güclənməsinə yol verməmək**.
2. **Yeni ərazilər və ya müstəmləkələr ələ keçirmək**.

Bu məqsədlə İngiltərə hələ **XVII əsrdə Yamayka** və **Portuqaliyanı** asılı vəziyyətə salınmışdı.

**XVIII əsr** boyu İngiltərə ilə Fransa arasında ***müstəmləklər uğrunda*** mübarizə gedirdi. Müstəmləkələr uğrunda Fransa ilə aparılan bu mübarizəyə ***«ikinci yüzillik müharibə»*** deyilirdi. «İkinci yüzillik müharibə» nəticəsində güclü hərbi donanmaya malik olan İngiltərə **XVIII əsrdə** Fransanı məğlub edərək **Kanadanı və** Hindistanda **Benqaliyanı** ələ keçirdi. Bu dövrdə İngiltərə **Karib dənizindəki adalara**, **Şimali Amerikadakı koloniyalara**, **Afrikadakı faktoriyalara** malik ***«dənizlər sahibi»*** sayılırdı.




*İngiltərənin müstəmləkələri*

**XVIII əsrdə İngiltərənin malik olduğu müstəmləkələr**

- **Benqaliya**
- **Amerikada 13 koloniya**
- **Kanada**

## Aqrar çevriliş

İngiltərə tarixdə ilk aqrar və sənaye çevrilişin baş verdiyi ölkə olmuşdu. İngiltərə burjua inqilabı iqtisadiyyatın forma və məzmununda yeniliklər etdi. Ölkədə yaradılan sabitlik, feodal qaydalarının ləğvi iqtisadi yüksəliş üçün hüquqi əsaslar yaratdı. **XVIII əsrin sonlarında** kəndlilərin tamamilə torpaqsızlaşması nəticəsində ingilis kəndliləri bir sosial təbəqə kimi sıradan çıxdı. Torpaqsız kəndlilərin müstəmləkə ərazilərinə axını da bu prosesdə böyük rol oynadı. Torpaqsız kəndlilərin hesabına azad işçilərin sayı artdı. Torpaqların böyük qismi ***yeni burjuaziyanın*** əlinə keçdi. **Lendlordlar** adlanan bu təbəqə torpaq sahələrini ***icarədarlara*** verirdilər. İcarəyə verilən torpaqlar ***muzdlu əmək*** hesabına becərilirdi. Eyni zamanda kəndlərdə iri ***fermer*** təsərrüfatları sürətlə artırdı. Kəndlərdə, iri şəhərlərin ətrafında əhalinin ərzağa olan tələbatını təmin etmək məqsədilə iri fermalar yaradılırdı və taxıl istehsalı artırılırdı. Ölkədə taxıl istehsalı heyvandarlığın yemə olan tələbatını da tamamilə ödəyirdi. Yeni məhsuldar toxum və cins mal-qaranın yetişdirilməsi məhsul istehsalının yüksəlməsinə səbəb oldu. Ölkənin ərzağa olan tələbatı tam təmin edildi.

İngilis kəndi digər ölkələrdəki kəndlərdən daha tez milli bazarla əlaqə qurmuşdu. Ağır sənaye, xüsusən maşınqayırma və metallurgiya sahələri kənd təsərrüfatını lazım olan texniki qurğu və alətlərlə təmin edirdi. Beləliklə, kənd təsərrüfatında ***torpaqların çox hissəsinin burjuaziyanın əlində cəmləşməsi***, ***torpaqların, əsasən, muzdlu əmək hesabına becərilməsi, kəndli-fermer təsərrüfatlarının yaradılması*** nəticəsində İngiltərədə aqrar çevriliş baş verdi. **XVIII əsrin sonunda** İngiltərədə baş verən ***aqrar çevriliş*** sənaye və ticarətin inkişafına təkan verdi.

İngiltərədə kəndlilərin torpaqsızlaşmasının nəticələri

- Kəndlilər bir sosial təbəqə kimi aradan çıxdı
- Kapitalsit münasibətləri möhkəmləndi
- Bütün torpaq lend-lordların əlində cəmləşdi
- İngiltərədə aqrar çevriliş başa çatdı

## Sənaye çevrilişinə keçid

XVIII əsrin ortalarında Böyük Britaniyada sənaye çevrilişi üçün zəmin yaranmışdı. Belə ki, ölkədə baş verən burjua inqilabı inkişaf üçün daha əlverişli imkanlar yaratmış, azad işçi qüvvəsi çoxalmış, zəngin kapital yığılmış, daxili bazarda satış üçün istehsal məhsullarına tələbat artmışdı.

Manufakturalar təkmilləşəndən sonra maşınlı istehsala keçildi. Böyük Britaniyanın ənənəvi istehsal sahələri ***toxuculuq*** və ***gəmiqayırma*** idi. Ölkədə maşınlı istehsala keçid məhz toxuculuq sahəsində başlandı. Bu onunla əlaqədar idi ki, ölkə bazarlarında Hindistandan gətirilən ucuz pambıq parça məhsulları üstünlük təşkil edirdi. Vəziyyət o həddə çatmışdı ki, ölkənin toxuculuq sahəsini xilas etmək üçün hökumət Hindistandan pambıq parça məhsullarının idxalına qadağa qoymuşdu. Mühəndis ixtiraçılar isə asan yolla daha ucuz məhsul istehsal etmək üçün müəyyən üsullar axtarmağa məcbur olmuşdular.

## XVIII əsrdə İngiltərədə sənayedə mühüm kəşflər və ixtiralar

**XVIII əsrdə** İngiltərədə sənayedə aşağıdakı mühüm kəşflər və ixtiralar edildi:

- **Con Keyin** sürətli məkik ixtira etməsi nəticəsində - ***daha enli parça almaq mümkün oldu***, əmək məhsuldarlığı artdı.
- **Ceymis Harqrivsin mexaniki cəhrə («Cenni» cəhrəsi)** ixtira etməsi nəticəsində pambıq parça istehsalının ipliklə təmin edilməsi təqribən **20 dəfə** artdı.
- **Edmund Kartraytın mexaniki toxucu dəzgahı** ixtira etməsi nəticəsində «Cenni» cəhrəsindəki məhsuldarlıq iki dəfə artdı.
- **1771-ci ildə Riçard Arkrayt «Cenni» tipli dəzgahı** su çarxının köməyilə hərəkətə gətirilməsinə nail oldu və buna müvafiq bir müəssisə inşa etdirdi. Bununla da **İngiltərədə ilk fabrik** işə salındı. Bu, ilk

toxucu fabriki idi. Dəzgahlar su gücünə hərəkətə gətirildiyinə görə fabriklər, bir qayda olaraq çay kənarında tikilirdi.

- **1784-cü ildə** mexanik **Ceyms Uatt buxar maşı** ixtira etdi. Buxar mühəriki ixtira olunduqdan sonra **manufakturadan fabrikə keçid** baş verdi. ***Manufakturadan fabrikə keçid sənaye çevrilişinin əsas məzmununu təşkil edirdi.***
- **Kort** çuğuna koks qatılması yolu ilə **təmiz dəmir almaq üsulunu** ixtira etdi. Bununla da təkcə istilik məqsədilə deyil, sənaye sahələri üçün də daş kömür çıxarılmasına başlanıldı. Bundan sonra Kömür hasilatı ölkənin əsas təsərrüfat sahələrindən oldu.

Əl əməyini əvəz edərək ***xammal emal edən işçi mexanizmin*** (cəhrə, mexaniki toxucu dəzgahı və s) ixtirası **XVIII əsrin ikinci yarısında** İngiltərədə **sənaye çevrilişinin** başlanğıcını qoydu. **XVIII əsrin 70-ci illərində** İngiltərə iqtisadiyyatında aparıcı rolu manufakturalar deyil, **fabrik-zavod sənayesi** oynamağa başladı.

***XVIII əsrdə ingiltərədə kəşflər və ixtiralar***

| *Kəşfin adı* | *Kəşfin nəticəsi* |
|---|---|
| **Con Key -Sürətli məxik** | Daha enli parça almaq mümkün oldu. |
| **Ceyms Harqrivs - «Cenni» cəhrəsi** | Əmək məhsuldarlığı 20 dəfə artdı, ipək istehsalı çoxaldı. |
| **Riçard Arkrayt - «Cenni» cəhrəsini su çarxının köməyilə hərəkətə gətirdi** | İngiltərədə ilk fabrik yaradıldı. |
| **Edmund Kartrayt - Mexaniki toxucu dəzgahı** | Toxucu əməyinin məhsuldarlığı 40 dəfədən çox artdı. |
| **Ceyms Uatt - Buxar maşını** | Manufakturadan fabrikə keçid baş verdi. |
| **Kort - Çuğuna koks qatılması üsulu** | Təmiz dəmir almaq mümkün oldu. |

### Sənaye çevrilişinin əsas cəhətləri və nəticələri

Manufakturadan fabrikə keçid sənaye çevrilişinin əsas məzmununu təşkil edirdi. Sənaye çevrilişinin iki əsas cəhəti - ***texniki və sosial cəhətləri*** var idi:

- ✓ ***Çevrilişin texniki cəhəti işçinin əl əməyinin maşın əməyi ilə əvəz olunması hesab edilirdi.***
- ✓ ***Çevrilişin sosial cəhəti əhlələrin və burjuaziyanın cəmiyyətin əsas təbəqələrinə çevrilməsi idi.***

**XVIII əsrin 70-ci illərində** Böyük Britaniyanın iqtisadiyyatında aparıcı rol fabrik-zavod sənayesinə keçdi muzdlu işçilərin, fəhlələrin sayının azalmasına gətirib çıxardı. Nəticədə fəhlələr kütləvi surətdə işsiz qalırdılar. Lakin fəhlələr cəmiyyətin əsas kütləsi olsalar da, onların həyatı, güzəranı dəyişmədi. Fəhlələri daha çox işlədir və az əməkhaqqı verirdilər. Fabriklərdəki əməkhaqqının azlığından fəhlələr kiçik- yaşlı övladlarını da işə göndərməyə məcbur olurdular. Gündəlik iş saatı 12-15 saat idi. Odur ki, fəhlələrlə sahibkarlar arasında ziddiyyətlər yarandı və fəhlələr ***iş saatlarının azaldılması və əmək- haqlarının artırılması üçün*** tez-tez ***tətillər*** edirdilər.

**XVIII əsrin sonunda** ***tətillərin qarşısını almaq üçün*** İngiltərə parlamenti ***tətilləri və fəhlələrin həmkarlar birliklərini qadağan edən qanun*** qəbul etdi.

Böyük Britaniyada zehni işlə məşğul olanlar - alimlər, yazıçılar, müəllimlər, həkimlər, incəsənət xadimləri, vəkillər və başqaları ziyalı təbəqənin nümayəndələri idilər. Lendlordlar, dövlət məmurları, tacirlər, sənətkarlar, fermerlər isə cəmiyyətin sosial təbəqələri sayılırdı.

**XVIII əsrin sonlarında** İngiltərədə sənaye çevrilişi (manufakturadan fabrikə keçid) nəticəsində nəticəsində ***ticarət sahəsində inqilabi sıçrayış baş verdi, daxili bazarda 50%-dən çox, xarici ticarətdə isə təqribən 5 dəfə yüksəliş baş verdi***, Böyük Britaniya dünyanın birinci sənaye dövləti oldu.

Bu dövrdə də İngiltərə dünyanın ən böyük ticarət donanmasına malik ölkə hesab olunurdu. Xarici ticarət dəniz yolları ilə aparılırdı.







**_Ceymis Harqivis (1720-1778)  «Cenni» cəhrəsi_**

*Ceymis Harqivis dülgərlik və toxuculuqla həyatını keçirən, təhsili olmayan, kasıb bir fəhlə idi.  1764-cü ildə Ceyms Harqivis, bir nəfərin eyni anda çox sayda sapı əyirməsinə köməkçi olan bir maşın icad etdi. O bu maşına kiçik qızının adı olan Cenni  adını verdi. Toxuculuq  işi ilə məşğul olanlar  Harqvisin sürətli maşını üzündən işlərini itirəcəklərini düşünürdülər. Odur ki, C.Harqivis ixtira etdiyi bu maşını satmağa başlayanda, işsiz qalmaqdan qorxan toxucular  onun evinə hücum edərək toxucu dəzgahlarını  qırdılar. Bu hadisədən sonra Harqivis qorxuya düşərək ailəsiylə Lançestirdən Nottinghama köçdü və buada kiçik bir toxuculuq emalatxanası qurdu. Harqivis ixtirasının patentini bir qədər gec, 1770-ci ildə  ala bildi. Riçard Arkraytının  su gücü ilə çalışan və fabrik istehsalına uyğun olan toxucu dəzgahına nisbətən  Harqivisin toxucu maşını daha yüngül və ucuz olduğundan, sənətkar emalatxanasında, o cümlədən evlərdə istifadə etmək üçün daha əlverişli idi.*









**_Edmund Kartrayt (1743-1823) Mexaniki toxucu dəzgahı_**

*İngilis din xadimi və ixtiraçısı olan Edmund Kartrayt gəncliyində yaxşı təhsil görmüş, təhsilini 14 yaşında daxil olduğu Oksford universitesində davam etdirmişdi. O, məzun olduqdan sonra bir müddət daha Oksfordda qalsa da din xadimi olmağı üstün tutmuş və keşiş işləməyə başlamışdır. O, etdiyi bir səfər zamanı həyatının geri qalan hissəsini dinlə yanaşı, başda toxuculuq dəzgahları olmaq üzrə müxtəlif sanaye sahələrindəki kəşf və fəaliyyətə həsr etmək qərarına gəldi. Edmund Kartrayt  Riçard Arkraytın toxuculuq dəzgahından ruhlanaraq, 1785-ci ildə buxar maşınını toxuculuq sənayesində tətbiq etdi. Enli parça toxumaq üçün inkişaf etdirdiyi buxarla işləyən dəzgah iki nəfər tərəfindən işlədilirdi. Onun  mexaniki toxucu dəzgahı  istər sürəti, istərsə də xərc baxımından o dövrdə istifadə edilən digər maşınlardan yüksək idi. Həmçinin nizamlı hərəkətlərlə çalışan maşın, daha enli və gözəl parçalar toxuya bilirdi. Edmunt iki ayrı patent almasına baxmayaraq, Mançesterli tacirlər bu kəşflə o qədər də çox məşğul olmayınca, özü 1786-cı ildə bir toxuculuq fabriki qurdu.*





**Riçard Arkrayt (1732-1792) «Cenni» tipli dəzgahın su çarxının köməyilə hərəkətə gətirilməsinə nail oldu və buna müvafiq olaraq İngiltərədə ilk fabriki işə saldı**

*Riçard Arkrayt çox tanınmış ingilis ixtiraçısı və sənayeçis idi. Onun ixtirası sənayenin inkişafına çox mühüm töhfə vermiş, toxuculuq sənətkarlıq emalatxanalarından fabrik və zavodlara qədər gəlib çıxmışdı.*
*Böyük bir ailədə dünyaya gələn Riçardın valideyinlərinin övladlarını oxutmaq üçün pulları yox idi. Ona görə də Riçarda əmisi oğlu oxumağı və yazmağı öyrətdi. Daha sonra o, usta yanında bərbər sənətini öyrənərək bərbər kimi işləməyə başladı. Bərbərlik sahəsində gəlirləri bir qədər azaldıqdan sonra, Riçard toxuculuq sənayesində yeni mexaniki ixtiraları araşdırmağa və toxuculuq dəzgahları üzərində işləməyə başlayır. Ceymis Harqivisin kəşf etdiyi «Cenni» cəhrəsində hazırlanan iplər kifayət qədər möhkəm deyildi və onda toxunan məhsul yalnız şal kimi istifadə edilirdi. Arkrayt 1769-cu ildə patentini aldığı ilk əyrici dəzgahı isə daha möhkəm sapları istehsal etməyi bacardı. Arkrayt ixtirasından sonra İngiltərədə ilk dəfə fabrik qurdu. Beləliklə, pambıq parça istehsalı İngiltərənin şimal bölgələrində ən mühüm sənaye sahəssinə çevrildi. Riçard Arkrayt artıq 1782-ci ildə 200 min sterlinlik bir sərmayənin və 5 min fəhlənin çalışdığı bir çox zavodun sahibi halına gəlmişdi*






**1784-cü il, Ceyms Uatt tərəfindən ixtira olunan buxar maşını və onun iş prinsipi**

*Buxar maşını istilik enerjisini qismən mexaniki enerjiyə çevirir. İlk dəfə praktikada tətbiq oluna biləcək buxar maşını XVIII əsrin əvvəlində ingilis mühəndisi Tomas Nyukomen tərəfindən hazırlanmışdır. 1764-cü ildə Uatt Tomas Nyukomen konstruksiyasına malik buxar maşınını təmir etmək üçün sifariş alır. Bu maşın öz yüksək enerji məsrəfi ilə məşhur idi. Uatt bu maşını yaxşılaşdırmaq qərarına gəlir. Bunun üçün Ceyms Uatt başqa dillərdə olan ədəbiyyatları oxumaq üçün fransız, alman dillərini oyrənir. Nəticədə Ceyms Uatt Nyukomenin düzəltdiyi buxar maşınını təkmilləşdirərək, daha yeni tərkibdə bir buxar maşını ixtira edir.*

## Amerika Birləşmiş Ştatları

### Şimali Amerikada ilk ingilis məskənlərinin salınması




Sərvət axtarışında olan avropalıların Amerika qitəsini kəşf etməsindən keçən bir əsr ərzində buraya xeyli avropalı gəldi. İlk vaxtlar ***ingilislər*** daha çox gəlirdilər.

Şimali Amerikada ilk ingilis məskəndlilərinin salınması **XVII əsrin əvvəllərində** təsadüf edir. Belə ki, **1607-ci ildə** Şimali Amerikada ilk ingilis koloniyalasının təməli qoyuldu. İngiltərədən Şimali Amerikaya köçüb gələnlər tədricən ölkənin şimalına gedərək bir neçə koloniya yaratdılar və bu koloniyaları **"Yeni İngiltərə"** adlandırdılar. Şimali Amerikada ilk ingilis koloniyası **Virciniya koloniyası** idi.

Bundan sonra İngiltərədən Şimali Amerikaya köçüb gələnlərin sayı sürətlə artdı. İngiltərədən Şimali Amerikaya kütləvi şəkildə köçüb gələnlərin sürətlə artmasının əsas səbəbi aşağıdakı amillərlə bağlı idi:

- ✓ ***Kəndlilərin torpaqsızlaşması.***
- ✓ ***Əhalinin dini təqiblərə məruz qalması.***

Koloniyaları İngiltərə kralı tərəfindən təyin edilmiş ***qubernatorlar*** idarə edirdilər. Hər bir koloniyanın varlı kolonistlər tərəfindən seçilmiş ***qanunverici məclisi*** var idi.

### Amerikada hindulara qarşı soyqırım həyata keçirilməsi

Köçüb gələnlər Amerikanın yerli xalqları olan ***hindulara*** ilk vaxtlar dinc münasibət bəsləyirdilər. Bu dövrdə hindular ***qəbilə icması*** halında yaşayır**,** ***ovçuluq***, qismən də ***əkinçiliklə*** məşğul olurdular. Yeni sakinlər hindulardan qarğıdalı və tütün becərməyi öyrənmişdilər. Lakin bir qədər sonra hinduların torpaqlarının qəsb edilməsinə başlanıldı. Yeni torpaqlar zəbt etmək istəyi yerli hindularla toqquşmalara səbəb olurdu. Hindularla son dərəcə amansız rəftar edilirdi. Hindular sayca çox olmalarına baxmayaraq məğlub olurdular. İngilislərin hindular üzərində qələbə çalmalarına aşağıdakı amillər kömək edirdi:

- ➢ ***Hinduların pis silahlanması və odlu silahlara malik olmaması.***
- ➢ ***Hidu qəbilələri arasında birliyin olmaması və vahid cəbhədə birləşə bilməmələri.***

XVII əsr boyu İngiltərənin hindularla apardığı müharibələr nəticəsində:

- ➢ ***Hinduların bir qismi fiziki olaraq məhz edildi və soyqırıma məruz qaldı.***
- ➢ ***Hinduların bir qismi isə qərbə tərəf sıxışdırıldı.***

Beləliklə, Şimali Amerikada ingilislərin ilk salınmış **Virciniya koloniyasından** başqa, **Merilend, Şimali və Cənubi Karolina, Corciya** adlı koloniyalar da yaradıldı. Hindulardan zor və hiylə yolu ilə əldə edilmiş torpaqlar hesabına Atlantik okeanı sahillərində ***13 ingilis koloniyası*** təşkil edildi.

**XVII əsrin sonlarından - XVIII əsrin ikinci yarısınadək** olan dövrdə ***Atlantik okeanı sahillərindən Alleqan dağlarına qədər olan ərazilərdə*** bütün hindu qəbilələri məhv edildi. Bu tarixin avropalılar tərəfindən törədilən ən dəhşətli soyqırımılarından biri idi. Beləliklə, avropalıların gəlişi Amerikanın yerli sakinlərinə heç də xoşbəxtlik gətirmədi. Amma avropalıların kütləvi şəkildə Amerikaya köçüb gəlməsi burada yeni, qüdrətli bir ölkənin təməlini qoydu. **XVII əsrin 30-cu illərində** İngiltərə hökuməti koloniyalarda özbaşına yeni ərazilərə köçməyi, torpaqlar tutmağı qadağan etdi. **1763-cü ildə** isə İngiltərə kralının verdiyi fərmana görə kolonistlərə ***qərbə*** **- Alleqan dağlarının qərbindəki torpaqlara** tərəf kömək qadağan edilirdi. Buna baxmayaraq, kolonistlər Qərbə tərəf köçür, hinduları qırıb yeni torpaqlar tutur, yeni məskənlər salırdılar.

### Müstəmləkələr arasında sosial-iqtisadi fərqlər

**XVII əsrdə** Amerikaya gələnlərin çoxu ingilislər idi. Lakin orta bölgədə ***hollandlar, isveçlər, almanlar*** da məskunlaşmışdılar. **Cənubi Karolinada** ***fransızlar***, cənub məskənlərində Afrikadan gətirilmiş qullar, ***italyanlar***, ***ispanlar*** və ***portuqaliyalılar*** da var idi. Lakin ölkənin şimalında yerləşən koloniyalarla cənubunda yerləşən koloniyalar arasında kəskin sosial-iqtisadi fərqlər getdikcə artırdı:

- ➢ **Şimali-şərqdə** yerləşən ingilis müstəmləkəsi - **Yeni ingiltərəlilərin** torpağı münbit deyildi. Ona görə də əhali bir sıra ***istehsal müəssisələri*** yaratmışdı.
- ➢ **Cənub koloniyalarda** torpaq münbit olduğu üçün əhali ***kənd təsərrüfatı*** ilə məşğul olurdu.

Koloniyalar kapitalist qaydaları əsasında yaradılsa da, Britaniya kralı və torpaq aristokratiyası burada ***feodal qaydaları*** tətbiq etməyə çalışırdılar. Bu dövrdə **Boston şəhəri** Şimali Amerikanın ən böyük limanına çevrilmişdi.

Ticarət sürətlə inkişaf edirdi. Ölkədən ***balıq məmulatları, gəmi avadanlığı, ağac materialları, spirtli içkilər*** ixrac olunurdu. Orta koloniyalarda - **Pensilvaniya, Filadelfiya** və **Nyu-Yorkda** ticarət daha geniş yayılmışdı.

### Şimali Amerikada Britaniya hökumətinin müstəmləkə siyasəti

Britaniya kralı və parlamenti Amerikadakı müstəmləkələrinə ***manufakturaların açılmasını***, ***dəmir məmulatlarının hazırlanmasını*** və ***parça (yun parçalar) istehsalını*** qadağan etmişdi. Çünki ***metal alətlər*** və ***parçalar*** müstəmləkələrə İngiltərədən gətirilməli idi. Ona görə də İngiltərə parlamenti koloniyalarda bu proseslərin genişlənməsinin qarşısını almaq üçün müstəmləkələrin əleyhinə aşağıdakı qanunları qəbul etdi:

- ***Bütün koloniyalarda buraxılan kağız pullar ödənc vasitəsi kimi tanınmadı.***
- ***Kral ordusunu mənzil və ərzaqla təmin etmək tələbi qoyuldu.***
- ***Bütün çap məhsullarına vergi möhürü vuruldu və rüsum alındı.***

### «Boston çay məclisi»nin baş verməsi (1773)

Britaniyanın qadağaları ilə barışmayan koloniyalar bu məhrumiyyətlərə cavab olaraq bütün Şimali Amerikada İngiltərə hökumətinə qarşı aşağıdakı tədbirləri həyata keçirdilər:

- ✓ **«Azadlıq oğulları»** adlı gizli təşkilat yaratdılar.
- ✓ **1765-ci ildə** koloniyalar öz nümayəndələrini **Filadelfiyaya qurultaya (konqresə)** göndərdilər.

**Filadelfiya qurultayında** Nümayəndələrin səyi ilə Konqres qətnamə qəbul etdi. Konqresin qəbul etdiyi qətnaməyə görə ***İngiltərə parlamenti koloniyaların razılığı olmadan onlara vergi qoya bilməzdi. Bundan sonra İngiltərədən gətirilən bütün mallara boykot elan edildi.***

**1773-cü ildə** İngiltərənin **"Ost-Hind" şirkətinin** çayla yüklənmiş bir neçə gəmisi Amerikanın **Boston limanına** gəldi.



*Boston çay məclisi, 1773-cü il*

Çay gömrük haqqı ödənməklə nisbətən ucuz qiymətə əhaliyə satılmalı idi. Lakin əhali buna etirazını bildirdi və «Azadlıq oğulları» Boston təşkilatının üzvləri hindu paltarı geyinərək gəmilərə hücum edib, çay qutularını suya tulladılar. Beləliklə, ***Boston limanına gətrilmiş çaya gömrük haqqı ödəməklə nisbətən ucuz qiymətlə əhaliyə satılması*** «Boston çay məclisi» hadisəsinin törədilməsinə səbəb oldu. İngiltərə hökuməti etiraz aksiyasına cavab olaraq aşağıdakı tədbirləri həyata keçirdi:

- ✓ ***Boston limanı bağladıldı.***
- ✓ ***Şəhər əhalisinə dəniz ticarəti ilə məşğul olmaq qadağan edildi.***

### Şimali Amerikada istiqlaliyyət müharibəsinin (1775-1783) başlaması

Müstəmləkələrdə ingilis ağalığına qarşı boykot hərəkatını getdikcə ***silahlı mübarizə*** əvəz etdi. **1775-ci ildə** Şimali Amerikada bütün ingilis koloniyaları üsyan qaldırdı. Bir çox yerlərdə silahlı dəstələr yaradıldı. İngiltərə müstəmləkəçilərinə qarşı silahlı mübarizə başladı. **1775-ci il aprelin 19-da** İngiltərənin silahlı qüvvələri ilə ingilis koloniyaları arasında ilk döyüş baş verdi.

Bununlada Amerikada İngiltərə kralı **III Georginin (1760-1801)** buradakı tərəfdarları ilə kolonistlər arasında **İstiqlaliyyət müharibəsi** başladı.

**1775-ci ilin mayında Filadelfiyada** bütün müstəmləkələrin nümayəndələrinin **ikinci kontinental Konqresi** keçirildi. İkinci kontinental Konqresin qərarlarına əsasən**:**

- ✓ ***İngiltərə ilə əlaqəni kəsmək qərara alındı.***
- ✓ ***Corc Vaşinqton azadlıq ordusunun baş komandanı təyin edildi.***


*Corc Vaşinqton*

***İkinci kontinental Konqresin qərarları***



### «İstiqlaliyyət bəyannaməsi»nin qəbul olunması. ABŞ-ın yaradılması (1776)

**1776-cı il iyulun 4-də,** müharibənin gedişində Filadelfiyada Konqres «**İstiqlaliyyət bəyannaməsi**»ni qəbul etdi. «İstiqlaliyyət bəyannaməsi»nin müəllifi Virciniya plantatoru, inqilabın görkəmli xadimi, **Tomas Cefferson** idi. «İstiqlaliyyət bəyannaməsi» üsyan qaldırmış keçmiş müstəmləkələrin İngiltərədən ayrılması və yeni müstəqil dövlət - **Ameriya Birləşmiş Ştatlarının** tam müstəqilliyi haqqında bəyanat idi.


*Tomas Ceferson*

«İstiqlaliyyət bəyannaməsi» nə əsasən:

- ***İnsanların hüquq bərabərliyi elan edildi.***
- ***ABŞ-ın yaradıldığı elan edildi.***
- ***Üsyan qaldırmış müstəmləkər İngiltərədən ayrıldığını elan etdilər.***
- ***İngiltərənin Şimali Amerikadakı müstəmləkələri müstəqilliyinin elan etdilər.***

Bəyannamədə göstərilirdi ki, İngiltərənin müstəmləkələrə zülm etməsi insanın «azadlıq, yaşamaq və xoşbəxtliyə can atmaq» kimi ayrılmaz hüquqlarına ziddir. Bununla da ***xalq hakimiyyətin mənbəyi*** elan edildi.

Hazırda «İstiqlaliyyət bəyannaməsi»nin elan edildiyi gün - **4 iyul,** hər il ABŞ-ın **İstiqlaliyyət günü** kimi qeyd edilir. İlk vaxtlar ştatların hər biri ***müstəqil dövlət*** idi. Lakin ölkənin iqtisadi inkişafını və müdafiəsini təmin etmək zərurəti ştatların birləşməsini tələb edirdi. Buna görə də ştatlar birləşdi. Beləliklə, ABŞ - Amerika Birləşmiş Ştatları yarandı.

### İstiqlaliyyət müharibəsinin gedişi və başa çatması

İstiqlaliyyət müharibəsinin əvvəlində Corc Vaşinqtonun ordusu **Bostonu** azad etdi. Lakin daha güclü olan İngiltərə ordusunun **1777-ci ilin yayında Filadelfiyanı** tutması nəticəsində ***müharibənin gedişində inqilabi ordu və xalq böyük çətinliklərlə üzləşdi***. Amerikanın azadlığı uğrunda müharibədə çoxlu könüllü iştirak edirdi. Könüllülər içərisində avropalılardan başqa ***qaradərililər*** də var idi.


*Benjamin Franklinin Avropaya göndərilməsi*

Corc Vaşinqtonun ordusu **1777-ci ilin oktyabrında** İngiltərə ordusuna qalib gəldi. Bu qələbə ***müharibənin gedişində dönüş*** yaratdı. Müharibənin gedişində ABŞ konqresi Avropa dövlətlərini ittifaqa cəlb etmək məqsədi ilə özünə müttəfiqlər axtarmağa başladı. Bu məqsədlə konqres **Benjamin Franklini** Avropaya göndərdi. Böyük diplomat olan Benjamin Franklinin diplomatik səyləri nəticəsində **Fransa** və **İspaniya** Amerikanın müttəfiqi kimi İngiltərəyə qarşı müharibəyə qoşuldu. Müstəmləkələr uğrunda İngiltərə, Fransa və İspaniya arasında rəqabət daha da gücləndi. ***Fransa və İspaniyanın müharibəyə girməsi*** ingilislərin vəziyyətini xeyli çətinləşdirdi.

**1781-ci ildə** C.Vaşinqtonun orduları **Yorktaun ətrafında döyüşdə** ingilisləri mühasirəyə alaraq, onları təslim olmağa məcbur etdi. Bir il sonra İngiltərə müharibəni dayandırmağa məcbur oldu və sülh danışıqlarına başladı.

**1783-cü ildə** Fransada (Versalda) Fransa kralı **XVI Lüdovikin** vasitəciliyi ilə ABŞ-la İngilrərə arasında **Versalda sülh müqaviləsi** imzalandı. Versal müqaviləsinin şərtlərinə əsasən:

1. **İngiltərə ABŞ-ın müstəqilliyini tanıdı.**
2. **Alleqan dağlarından Missisipi çayına qədər olan ərazilər ABŞ-a verildi.**

Lakin **Kanada** İngiltərənin müstəmləkəsi olaraq qaldı. Versal müqaviləsinin imzalanması ilə ABŞ-da İstiqlaliyyət müharibəsi başa çatdı. İstiqlaliyyət müharibəsi nəticəsində ***yeni yaranmış ABŞ dövləti İngiltərə kimi güclü dövlətə qalib gəldi.***


*İstiqlaliyyət müharibəsinin başlaması*


*1777-ci il döyüşü.*


*1781-ci il, Yorktaun döyüşü*





*"Rəssam B.Uestin çəkdiyi şəkli. Paris sülh danışıqları zamanı çəkilən bu şəkildə ABŞ nümayəndə heyətinin, o cümlədən Benjamin Franklinin şəkli olsa da Britaniya nümayəndələri şəkillərinin çəkilməsindən imtina etdilər. Bu səbəbdən portret yarımçıq qalmışdı.*
Sülhün şərtləri (arxiv sənədi)

### ABŞ Konstitusiyasının qəbul edilməsi (1787)

İstiqlaliyyət müharibəsindən sonra ABŞ-da hakimiyyəti möhkəmlənirmək üçün ***güclü mərkəzi (federal)*** hökumət lazım idi. Odur ki, **1787-ci ildə** ştatların nümayəndələrinin (keçmiş 13 Amerika koloniyasının) çağırıldığı ***xüsusi məclisi (təsis konventi)*** ABŞ Konstitusiyasını qəbul etdi və ABŞ dünyada ilk konstitusiyaya malik olan dövlət oldu. 1787-ci il ABŞ Konstitusiyasına əsasən:

- ABŞ dövlət formasına görə **respublika** və dövlət quruluşuna görə **federativ dövlət** oldu.
- ABŞ Konstitusiyası dünya ilk olaraq hakimiyyətin üç yerə **- qanunvericilik, icraedici** və **məhkəmə hakimiyyətlərinə** bölünməsini təsbit etdi:

1. **Qanunverici hakimiyyət** iki palatadan ibarət **konqresə** məxsus idi: Yuxarı palata **Senat,** aşağı palata isə **Nümayəndələr palatası** adlanırdı. Senata hər ştatdan ***iki senator*** seçilirdi. Aşağı palataya isə hər ştatdan əhalinin sayına görə ***nümayəndələr*** seçilirdi.
2. **İcra hakimiyyətinə** dörd ildən bir seçilən **prezident** rəhbərlik edirdi. Konstitusiyaya görə ABŞ Prezidentinə aşağıdakı səlahiyyətlər verilirdi: hökumətə rəhbərlik və silahlı qüvvələrə komandanlıq edirdi, qanunlara ***veto*** qoya bilərdi.
3. **Məhkəmə hakimiyyətinə** ABŞ-ın **Ali Məhkəməsi** başçılıq edirdi. Ali Məhkəmənin üzvləri prezident tərəfindən senatın razılığı ilə ömürlük təyin edilirdi. Ali Məhkəmə Konstitusiyanın toxunulmazlığına, qəbul olunmuş qanunların konstitusiyaya uyğunluğuna və qanunlara riayət olunmasına nəzarət edirdi.

Konstitusiyaya əsasən **1789-cu ildə** ABŞ-da **Konqresə** ilk seçkilər keçirildi. **Corc Vaşinqton** ABŞ-ın ilk prezidenti **(1789-1797)** oldu.

1787-ci ildə qəbul olunmuş ABŞ Konstitusiyasının müəyyən ***məhdud cəhətləri*** də var idi. Belə ki, həmin konstitusiyada ***quldarlıq quruluşu saxlanıldı, insanların söz, mətbuat, vicdan azadlığı kimi başlıca hüquqları nəzərə alınmadı***. Bu, demokratik qüvvələri narazı saldı.

Odur ki, **1791-ci ildə** Konqres tərəfindən Konstitusiyaya ***ilk dəfə*** düzəliş edildi. 1791-ci ildə «**Hüquqlar haqqında bill**» adlanan ABŞ Konstitusiyasına edilmiş bu düzəlişlərə əsasən ***vətəndaşlara söz, mətbuat, vicdan azadlığı və digər hüquqlar verildi***. Qanuna görə adamları ancaq məhkəmənin qərarı ilə həbs etmək olardı.







*ABŞ. İlk bayrağı və gerbi*
*ABŞ Konqresinin binası (müasir şəkil)*

**ABŞ-ın dövlət quruluşu**

| **Qanunverici hakimiyyət** | **İcraedici hakimiyyət** | **Məhkəmə hakimiyyəti** |
|---|---|---|
| *Qanunverici hakimiyyət Konqressə məxsis idi. Konqres iki palatadan ibarət idi. Yuxarı palata Senat, aşağı palata isə Nümayəndələr palatası adlanırdı.* | *Dörd ildən bir seçilən Prezident başçılıq edirdi. Prezident hökumətə başçılıq edir və silahlı qüvvələrə komandanlıq edirdi. Qanunlara veto qoya bilərdi.* | *ABŞ-ın Ali Məhkəməsi başçılıq edirdi. Ali Məhkəmə qanunların Konstitusiyaya uyğunluğunu yoxlayır və ləğv edə bilirdi.* |

### İstiqlaliyət müharibəsinin nəticələri və əhəmiyyəti

1775-1783-cü illər ABŞ-da baş verən İstiqlaliyyət müharibəsini tarixi ədəbiyyatlarda bəzən **Birinci Amerika burjua inqilabı** da adlandırırlar. İstiqlaliyyət müharibəsi ümumdünya əhəmiyyətli bir hadisə idi. Belə ki, İstiqlaliyət müharibəsi:

- ✓ ***ABŞ bəşəriyyətə o zaman üçün demokratiya nümunəsi verdi.***
- ✓ ***Hakimiyyətin mənbəyinin xalq olduğu işdə və əməldə sübut edildi.***
- ✓ ***İlk dəfə hakimiyyətin bölünməsi prinsipi tətbiq edildi.***

Bütün bunlara baxmayaraq ABŞ-da İstiqlaliyyət müharibəsi müəyyən məhdud cəhətlərə malik idi. Həmin məhdud cəhətlər aşağıdakılar idi:




- ✓ ***«Bəyannamə» köləliyi ləğv etmədi.***
- ✓ ***Seçki məsələlərində əmlak senzi saxlanıldı.***
- ✓ ***«Bəyannamə» hinduların məhv edilməsini və öz torpaqlarından qovulmalarını dayandırmadı.***

Bu da təqribən yüz il sonra ABŞ-da yeni inqilabın - **Vətəndaş müharibəsinin** və ya **İkinci Amerika burjua inqilabının (1861-1865)** başlanmasına səbəb oldu.












### *Amerikada hindulara qarşı soyqırım. Qan üzərində qurulan demokratiya*

*XV əsrin sonlarında Xristofor Kolubmb ilk olaraq kəşf etdiyi Amerikanı Hindistan zənn etdiyindən yerli əhalini də hindli hesab etmişdi. Avropalı kolonistlərin Amerikanın şimalını tutmağa başladıqları dövrdə bu ərazilərdə çoxsaylı hindu tayfaları yaşayırdı. Astek, mayya, ink kimi sivilizasiyaların varisləri olan bu toplum Qərbin mənəvi və fiziki soyqırımına məruz qalmışdır. İşğalçılar ilk gündən onlarla müharibələrə başlamışdılar. Əlbəttə, ox və nizəylə silahlanmış hindular işğalçılara layiqli müqavimət göstərə bilmirdilər. ABŞ-da hindu soyqırımına dair faktlar məşhur alim* M. Stinqlin «Tomoqavksız hindular» *əsərində faktlara şərh edilmişdi.*

Faktlardan aydın olur ki, işğalçılar silah gücünə məhv edə bilmədikləri hindu tayfalarını hiylə yolu ilə qırırdılar. Bu yolda ən geniş yayılmış üsullardan biri hindulara qara çiçək xəstəliyinə yoluxmuş və bundan ölmüş insanların yorğançalardan istifadə etmək idi. İngilislər həmin yorğanları hindu məskənlərinin yaxınlığına qoyurdular. Heç nədən şübhələnməyən hindular isə bu yorğanlardan istifadə edərək, kütləvi şəkildə qırılırdılar.

Bartolome Də Las Casas (1474-1566), «Qırmızıdərili qırğını» *adlı kitabında şəxsən şahid olduğu hindu qırğınını belə izah edir:"*Sırf əyləncə olsun deyə, qadın-kişi demədən qitənin yerli əhalisi olan hinduların əllərini, burunlarını və qulaqlarını kəsib qopardıqlarını və bunun hinduların hər rast gəlindiyi yerdə təkrarlandığını öz gözlərimlə gördüm. Gəlmələr süddən kəsilməmiş körpələri onları ən uzağa atma mövzusunda bir-birləriylə yarışarkən bunu bir əyləncə üçün edirdilər".

*ABŞ dövləti yarandıqdan sonar da soyqırım davam etdirildi. Bu məqsədlə ABŞ hərbi nazirliyi nəzdində hinduların işləri üzrə idarə yaradılmışdı. 1924-cü ilədək qüvvədə olan qanuna görə əcnəbi elan edilmiş hindular bu ölkənin vətəndaşları sayılmırdılar və heç bir hüquqa malik deyildilər.*

### *Amerikaya ilk qulların gətirilməsi*

*...Gəlmələr hinduları məhv etdikdən sonar Amerikada işci qüvvəsinə ehtiyac yarandı. Odur ki, onlar işci qüvvəsini Afrikadan zorla tutaraq Amerikaya gətirilən zənci-qullar hesabına ödəməyə çalışırdılar.* **1619-cu ildə** Amerikaya Hollandiya gəmisi ilk qaradərili afrikalıları gətirdi. Gəlmələr qaradərililəri satın alıb qul etdilər. *Artıq XVIII əsrdə ABŞ-ın şərq ştatlarının hər səkkizinci sakini qul-zəncidən ibarət idi. Qul alverçiləri zəncilərin o dövr üçün çox yüksək qiymətə, hətda 2000 dollara satırdılar. Zəncilərin yüksək qiymətə satılmasını Afrikadan ABŞ-a gəlib çatanadək yolda onların çoxunun qırılmaları ilə əsaslandırırdılar. Həqiqətən də, tarixi mənbələrin məlumatlarına görə, hər on zəncidən ABŞ sahillərinə yalnız bir nəfər sağ gəlib çıxırdı. Bu dövr ərzində amerikaya 10 milyon qul gətirilmişdisə, onlardan 9 milyonu yoldaca ölmüşdü.*

*XVI əsrdə başlayan kölə ticarəti XIX əsrin əvvəllərinə qədər davam etdi. «Tumberio», yəni «ölü daşıyan» adı verilən bu gəmilərdə aparılan qeydlərə əsasən Afrikadan kölə vəziyətinə salınaraq Amerikaya gətirilən qulların sayı 10 milyondan çox olmuşdur.*




***ABŞ. Konstitusiya müzakirələri və qəbul olunması prosesi***


We the People

Article I





IN CONGRESS. JULY 4, 1776.

The unanimous Declaration of the thirteen united States of America,

***ABŞ-ın «İstiqlaliyyət bəyannaməsi». ABŞ konstitusiyasının birinci səhifəsi (orjinal nüxsə)***

*İnqilabın qələbə ilə başa çatmasından sonra «Konfederasiya maddələrinə» yenidən baxmaq və yeni qurulan dövləti daha da möhkəmlətmək məqsədi ilə 1787-ci ildə Corc Vaşinqtonun sədrliyi ilə 13 ştatın nümayəndələrinin iştirakı ilə Filadelfiyada konstitusiya konventinin yığıncağı çağırıldı. Bu konvent plantasiya sahiblərinin və burjuaziyanın iştirakı ilə may-sentyabr ayları ərzində xalqdan gizli keçirildi. Konvent bu gün də qüvvədə olan ABŞ-ın konstitusiyasını işləyib hazırladı. ABŞ Konstitusiyasının işlənib hazırlanması zamanı gedən mübahisəli məsələlərdən ən başlıcası - bir çoxlarının ABŞ-da monarxiyanın bərpa olunması, senatın ömürlük seçilmiş nümayəndələrdən ibarət olması fikirləri idi. Monarxiya tərəfdarları fikirlərini belə əsaslandırırdılar ki, "ABŞ kiçik Roma deyil, əgər burada demokratiya yaradılarsa özbaşınalıq olacaqdır". Lakin Corc Vaşinqton konstitusiya müzakirələri zamanı öz nüfuzundan istifadə edərək debatların gedişində hər ştatın nümayəndələri ilə apardığı fərdi söhbətləri ilə mövcud narazılıqları aradan qaldırdı və ştatların kompromisə getməsinə nail oldu. Xeyli mübahisələrdən sonra böyük güzəştlər hesabına nəhayyət ki ABŞ-da Respublika quruluşu saxlanıldı, iki palatdan ibarət Konqres və böyük səlahiyyətlərə malik olan prezident hakimiyyəti qəbul edildi. Beləliklə, 1787-ci ildə «İstiqlaliyyət bəyannaməsi» əsasında dünyada ABŞ-da ilk konstitusiya qəbul edildi.*



*Corc Vaşinqton*

**Corc Vaşinqton** ABŞ-ın görkəmli dövlət xadimi, İstiqlaliyyət müharibəsi zamanı Kontinental ordunun baş komandanı, ABŞ-ın ilk prezidenti (1789-1797) olmuşdur. ABŞ-ın 1790-cı ildə əsası qoyulan yeni paytaxtının salınması üçün Potomak çayı sahilindəki yeri Corc Vaşinqton seçmişdir. Ona görə də şəhər əvvəllər onun şərəfinə Corctaun, sonra isə Vaşinqton adlandırıldı. Hazırkı 1 ABŞ dollarının üzərində Corc Vaşinqtonun təsviri vardır.

Vaşinqton şöhrəti gənc yaşlarında, fransızlara qarşı Britaniya ordusunda vuruşarkən qazanmışdı O, mayor rütbəsində döyüşlərə başlasa da çox keçmir ki, fransız-hindu müharibəsində 22 yaşında polkovnik rütbəsi alır.

İstiqlaliyyət müharibəsi başlayan zaman Vaşinqton Konqresə hərbi mundirilə gələrək müharibəyə hazır olduğunu göstərdi. 1775-ci ildə Filadelfiyada İkinci Kontinental Konqresin açılışı oldu. Konqresdə Corc Vaşinqton inqilabi ordunun komandanı seçilir. İlk döyüşlərdən uğur qazanan Vaşinqton ordusu 1776-cı ildə Bostonu ingilislərdən azad edir.

1776-cı ilin qışında Milad gecəsi ərəfəsində özünü kontinental ordu adlandıran silahsız, ac-yalavac bir neçə min əsgər dünyanın ən qüdrətli imperiyası qarşısında silahı yerə qoymağa hazırlaşırdı. Bu dövrdə bir-birinin ardınca uğranılan məğlubiyyətlərdən sonra çoxları Amerika inqilabını bitmiş hesab edirdi. Dünyanın böyük hissəsinə nəzarət edən Britaniya krallığına qarşı çıxmaqla Vaşinqton və onun silahdaşları həyatlarını ağlasığmaz riskə atmışdılar. Ələ keçiriləcəkləri halda onları mütləq dar ağacı gözləyirdi.

Vəziyyətin ağırlığından xəbərdar olan Vaşinqton bir gün şam işığında dalğın oturmuş halda vərəqə nəsə yazır. Sonradan yerə düşən vərəqi götürmüş müşaviri ağ kağızda yazılanı oxuyur: “Qələbə yaxud Ölüm!”

Konqresin tələm-tələsik general rütbəsi verdiyi bir neçə inqilabçı ilə məşvərətlər keçirdikdən sonra qərar verilir. Dekabrın 25-də, soyuq Milad günündə şəxsən Vaşinqtonun öz rəhbərliyi altında iki minə yaxın vətənpərvər Delavar çayını keçərək kralın muzdlu döyüşçülərinin Trentondakı düşərgəsinə hücum edir. Qəfildən başlanan hücumdan təəccüblənən ingilislər pərən-pərən düşür. Var gücləri ilə vuruşan amerikalılar cəmi iki itki hesabına ingilisləri darmadağın edirlər. Bu hadisədən üç gün sonra hərbi üstünlüyü saxlayan amerikalılar Prinstona hücuma keçərək Britaniya kontingentini təslim olmağa məcbur edirlər. Cəmi bir həftənin içində ümidsizliyə qapılmış amerikalıların qələbəyə inamı dönməz xarakter alır.

Müharibə başa çatdıqdan sonra Ali Baş Komandanlıq Vaşinqtonu təntənəli surətdə konqresə qaytardı. 1787-ci ildə Vaşinqtonun sədrliyi ilə ABŞ Konstitusiyası hazırlandı. Artıq C.Vaşinqtonun prezident olacağı heç kimdə şübhə doğurmurdu. Nəhayət, 1789-cu ildə keçirilən prezident seçkilərində Corc Vaşinqton ABŞ-ın ilk prezidenti seçilir. Cəmiyyətdəki nüfuzuna baxmayaraq, o, ikinci dəfə prezident seçilmək istəmirdi. Lakin T.Ceffersonun ciddi təkidlərindən sonra öz namizədliyi irəli sürür və 1792-ci il seçkilərində ikinci dəfə ABŞ-ın prezidenti seçilir. 1796-cı ildə istefaya çıxan Vaşinqton qalan ömrünü öz malikanəsində yaşadı.



*Tomas Cefferson*

**Tomas Cefferson** - ABŞ-ın ilk Dövlət katibi (1789-1793) və üçüncü prezidenti (1801-1809) olmuşdur. İstiqlal Bəyannaməsinin müəllifi. 1976-cı ildə ABŞ-ın 200 illiyi şərəfinə buraxılmış 2 dollarlıq əskinasların üzərində Tomas Ceffersonun təsviri, arxa tərəfində isə ABŞ İstiqlal Bəyannaməsinin qəbul olunma səhnəsi təsvir olunmuşdu.

Cefferson məktəbi bitirdikdən onra “Uilyam and Meri” kollecinə daxil olur və tərəddüd etmədən vəkil olmağı qərara alır. 1763-cü ildə təhsilini bitirən Cefferson hüquq kontorunda fəaliyyətə başlayır və tezliklə böyük uğur qazanır. Virciniyanın varlı plantatorları onun müştərilərinə çevrilirlər. Cəmiyyətdə böyük nüfuz qazanan gənc vəkil 26 yaşında Virciniya qanunvericilik məclisinin üzvü seçilir.

Ceffersonun siyasi fəaliyyətə başlaması müstəmləkələrdə anti-ingilis əhval-ruhiyyələrinin gücləndiyi dövrə təsadüf edir. O, müstəmləkələrin azadlıq hərəkatında fəal iştirak edərək, 1775-ci ildə Kontinental Konqresə üzv seçilir.

1776-cı ilin iyununda Kontinental Konqresdə İstiqlaliyyət haqqında Bəyannamə hazırlamaq üçün Ceffersonun başçılığı ilə komissiya yaradılır. Layihə uzun sürən müzakirələrdən sonra 4 iyul 1776-cı ildə qəbul edilir. Bu, T.Ceffersonun siyasi arenada ilk böyük qələbəsi idi. 1785-ci ildə Konqres Ceffersonu ABŞ-ın Fransadakı səfiri təyin edir. 1789-cu ildə Cefferson Parisdən vətənə qayıdır. Burada ona gözləmədiyi bir xəbər

çatdırırlar: prezident Vaşinqton onu Dövlət katibi təyin etmək istəyir. Lakin O, Vaşinqtonun şəxsi məktubunu alsa da, qəti cavab vermir. Nəhayət, 1790-cı ilin fevralında, xeyli təkidlərdən sonra Cefferson dövlət katibi təyin edilməsinə razılıq verir. 1796-cı ilin əvvəllərində C.Vaşinqton bir daha prezident seçilmək arzusunda olmadığını bildirdikdə Respublikaçılar partiyası bu vəzifəyə Ceffersonu namizəd göstərdilər. Lakin seçkilərdə federalistlərin namizədi Con Adams kiçik üstünlüklə prezident seçilir, Cefferson isə qanuna əsasən vitse-prezident olur. Lakin Adamsla aralarında ciddi fikir ayrılığı olduğu üçün, ölkənin idarə edilməsində onun rolu elə də nəzərə çarpacaq qədər olmur.

1800-cü ildə gərgin keçən prezident seçkilərində T.Cefferson federalistlərin nümayəndəsi C.Adamsdan çox səs toplayaraq prezident seçilir. Onun prezidentliyi dövründə ABŞ Fransadan Luiziana torpaqlarını satın alaraq öz ərazisini əhəmiyyətli dərəcədə genişləndirir.

İstefaya çıxdıqdan sonra malikanəsinə qayıdan eks-prezident maarifçilik fəaliyyətilə məşğul oldu. 1819-cu ildə yaradılmış Virciniya Universitetinin binasının tikilməsindən, tədris planının hazırlanmasına qədər bütün prosesə şəxsən özü rəhbərlik etdi. Onun təşəbbüsü ilə universitetə Avropadan təcrübəli müəllim və alimlər dəvət olundu. 1826-cı ilin yazında Ceffersonun səhhəti pisləşdi. 3 iyulda İstiqlaliyyət haqqında Bəyannamənin qəbul edilməsinin 50 illiyi ərəfəsində “4 iyul hələ başlamayıb?” - deyə soruşur. Bu onun dediyi son sözlər olur... Ceffersonun vəsiyyətinə əsasən, onun qəbir daşının üzərində aşağıdakı sözlər yazılıb: “ABŞ-ın Istiqlaliyyət Bəyannaməsinin və Virciniya ştatının dini azadlıq qanununun müəllifi, Virciniya Universitetinin yaradıcısı Tomas Cefferson burada dəfn edilmişdir”. Qəbirüstü yazıda onun tutduğu heç bir dövlət vəzifəsi qeyd olunmayıb...



*Bencamin Franklin*

**Bencamin Franklin** (1706-1790) - Amerika Birləşmiş Ştatlarının banilərindən biri, dövlət xadimi olmaqla yanaşı, yazıçı, siyasətçi, alim, ixtiraçı, və diplomat kimi məşhurluq qazanmışdır.

Bencamin Franklin yeganə şəxsdir ki, Amerika Birləşmiş Ştatlarının yaranmasında əsas rol oynayan hər üç sənədə imza atmışdır. Bunlar «İstiqlal Bəyannaməsi», ABŞ Konstitusiyası və Versal sülh müqaviləsidir. 1928-ci ildən Franklinin portreti ABŞ-ın 100 dollarlıq pul əskinaslarının üzərində təsvir olunur.

Bencamin Franklin 1706-ci ildə Bostonda dəmirçi ailəsində anadan olmuşdu. Artıq 16 yaşına çatanda yerli qəzetlərdə məqalələri çıxmağa başlayır. Lakin Boston ona cansıxıcı gəldiyindən o Pensilvaniyaya - Filadelfiya şəhərinə gəlir. Orada özünə çox böyük şöhrət qazanır və Filadelfiya qubernatoru tərəfindən Londona göndərilir. İstilaliyyət müharibəsi başlayan kimi Franklin öz vətəninə qayıtsa da tezliklə Parisə yenidən nümayəndə kimi göndərilir. Onun xüsusi diplomatik bacarığı nəticəsində fransız-amerikan danışıqları uğurla başa çatır. 1783-cü ildə Versal danışıqlarında Böyük Britaniyanın Amerikanı suveren və müstəqil olduğunu rəsmən tanıması da Franklinin əməyinin nəticəsidir. Məhz o, müharibənin uğurlu sonluğunun və bugünki qüdrətli Amerika dövlətinin təməlini qoyan şəxsiyyət idi. Bir çoxları bilməsə də məhz Bencamin Franklin tərəfindən dünyada ilk dəfə olaraq öz üzvləri üçün pulsuz kitabxana və elm mərkəzinə malik olan klub yaradılmışdır. Həmin dövr üçün bu, görünməmiş addım idi. Dövlət qulluğunda olduğu zaman ərzində Amerika Fəlsəfə cəmiyyətinin və Filadelfiya Akademiyasının da yaradıcısı Bencamin Franklin olmuşdu.

# Fransa

## Maarifçilik

Fransa burjua inqilabından çox-çox əvvəl qabaqcıl ziyalılar ***mütləq monorxiyanı*** və ***feodal quruluşunu*** tənqid etməyə başladılar. Bu böyük ideya hərkatı sonralar **maarifçilik,** onun iştirakçıları idə **maarifçilər** adlandırıldı. İngiltərə və Amerika burjua inqilablarının nəticələrindən bəhrələnən Fransa maarifçiləri yeni ideyalar irəli sürürdülər. **XVIII əsrin əvvəllərindən** başlayaraq maarifçilər ***feodal quruluşunu tənqid edir, mütləq monarxiyaya qarşı çıxırdılar***. XVIII əsr fransız maarifçilərinin görkəmil nümayəndələri **Monteskyö, Volter, Russo, Melye** və **Didro** idi.



Monteskyö

**Monteskyö:**

- ✓ *mütləq monarxiyan və işğalçılıq müharibələrini pisləyirdi.*
- ✓ *konstitusiyalı məhdud monarxiyanı ən yaxşı dövlət quruluşu hesab edirdi.*
- ✓ *xüsusi mülkiyyətin toxunulmazlığını və şəxsi azadlığı yüksək qiymətləndirirdi.*
- ✓ *fikirləri xırda və orta burjuaziyanın və zadəganların əhvali-ruhiyyəsini əks etdirirdi.*



Volter

**Volter:**

- ✓ *dini fanatizmi, zadəganların və ruhanilərin imtiyazlarını tənqid edirdi.*
- ✓ *inqilab tərəfdarı deyildi, sadəcə mütləq monarxiyanı məhdudlaşdırmağa, kilsənin nüfuzunu zəiflətməyə çağırırdı.*
- ✓ *mövcud köhnəlmiş qaydaların dəyişdirilməsini inqilabla deyil, «maariflənmiş monarx»dan özləyirdi.*
- ✓ *hər kəsin qanun qarşısında bərabər olmasını, hər cür imtiyazların ləğv edilməsini tələb edirdi.*



Jan Jak Russo

**Jan Jak Russo:**

- ✓ *ideyalarına görə ölkənin idarə olunması üsulunu xalq özü təyin etməliydi.*
- ✓ *iəndli və sənətkarların mənafeyi, əhvali- ruhiyyəsini tərənnüm edirdi.*
- ✓ *xırda mülkiyyəti qanuni hesab edir, iri mülkiyyətin ləğvinə çalışırdı.*
- ✓ *xırda və inqilabçı burjuaziyanın maraqlarını müdafiə edirdi.*

Nə Monteskyö, nə də Volter inqilab tərəfdarı olmasalar da, onların yaydığı ideyalar özləri də bilmədən inqilabi əhvali-ruhiyyənin güclənməsinə kömək edirdi.

Marifçi **Jan Melye** kəndlilərin çətin vəziyyətlərinə yaxından bələd olaraq, yoxsullara böyük hörmət bəsləyir, onların inqilabi arzularının ifadəçisi kimi çıxış edirdi. O da mülkiyyət və imtiyazların ləğv edilməsinin tərəfdarı idi.



Jan Melye

## Ensklopediyaçılar

XVIII əsrin fransız maarifçilərini çox vaxt **ensklopediyaçılar** adlandırırlar. Onların əksəriyyəti **ensklopediya** və yaxud **elm, incəsənət və sənətlərin izahlı lüğətini** hazırlanmasında iştirak etmişdilər. Bu çoxcildli, izahlı lüğət **ilk dəfə 1751-ci ildə** yazıçı və filosof **Deni Didronun** redaktəsi və rəhbərliyi ilə çıxmağa başlamışdı. Volter, Russo və başqa məşhur yazıçılar da ensiklopediyanın müəllifləri idilər.

Belə bir ensiklopediyanın nəşri hökuməti təşvişə saldı. Hakimiyyət ilk cildləri yandırsa da, nəşri dayandıra bilmədi. Təqiblərə baxmayaraq ensklopediyanın 35 cildi çapdan çıxdı. Ensklopediya fransız maarifçilərinin qabaqcıl elmi və ictimai-siyasi biliklərini yaymaq işini davam etdirdi. Bu dəyərli kitab ictimai-siyasi fikrin çox böyük tribunasına və auditoriyasına çevrildi. Ensklopediyaçılara ***aiddir:***

- ✓ *Onların məqsədi **yaşadıqları dövrün elmi biliklərini, qabaqcıl ideyalarını izah etmək və sistemə salmaq idi**.*
- ✓ *Feodal qaydalarını tənqid edir və xalqı bu qaydaların ləğvinə çağırırdılar.*
- ✓ *Kilsəni tənqid edir, qeyri-məhdud kral hakimiyyətini pisləyirdilər.*
- ✓ *Əhalinin silklərə bölünməsinə qarşı çıxır, insanların bərabərhüquqlu vətəndaşlar olduğunu bildirirdilər.*



Deni Didro

Beləliklə, maarifçilərin qabaqcıl ideyaları Fransa burjua inqilabının hazırlanmasında və gedişində mühüm rol oynadı, inqilabın müjdəçisi, ilkin ideoloji şərti oldu.

**Maarifçilərin mübarizə apardığı istiqamətlər**

- **Katolik kilsəsi**
- **Feodal qaydaları**
- **Silki quruluş**
- **Mütləq monorxiya**

## Fransa burjua inqilabı ərəfəsində ölkədə siyasi və sosial-iqtisadi vəziyyət

**XVIII əsrin sonlarında** Fransa müstəmləkələr uğrunda İngiltərə ilə apardığı müharibələrdə məğlubiyyətə uğradı. Belə ki, Fransa və İngiltərə arasında baş verən **Yeddiillik müharibə (1756-1763)** nəticəsində Fransa məğlub olaraq **Kanada** və **Benqaliya** kimi müstəmləkələrini itirdi. XVIII əsr Fransası özünün dövlət quruluşu baxımından ***mütləq monarxiya*** idi.

Bununla belə kralın mütləq hakimiyyəti getdikcə ruhani, burjuaziya və zadəganlar arasında nüfuzunu itirirdi. Hakimiyyətə gələn **XVI Lüdovik (1774-1792)** iradəsiz şəxs olduğundan dövlət işlərini həyat yoldaşı **Mariya Antuanetta** idarə edirdi.




*Fransa XVIII əsrdə*

Ölkənin təsərrüfatı orta əsr feodal qaydaları ilə idarə olunurdu. Kəndlilər töycü, can vergisi, dövlət vergisi olan ***talya*** ödəyir, biyara gedirdilər. Kəndlərdə ***yardarlıq*** sistemi hökm sürürdü, yəni ***məhsulun bir hissəsini sahibkara ödəməklə torpağı icarəyə götürmək*** olardı. Torpaqsız kəndlilər isə sahibkar torpaqlarında ***günəmuzd*** işləyirdilər. Lakin kəndlərdə ***fermer təsərrüfatları*** da yaranırdı. Kəndlilərin yuxarı təbəqəsi getdikcə varlanır, ***burjuaziya*** təbəqəsi meydana gəlirdi.

XVIII əsrdə sənaye və ticarət də canlanmışdı. Şəhərlərdə ***manufakturalar*** istehsalın əsasını təşkil edirdi. **Paris, Marsel, Lion** sənaye mərkəzlərinə çevrilmişdi.

Ticarət əlaqələri, xüsusən xarici ticarət genişlənmişdi. Amma ölkə daxilindəki köhnəlmiş ***feodal qaydaları*** və ***gömrük maneələri*** daxili ticarətin, sənayenin inkişafına mane olurdu. Ölkənin inkişafına əngəl törədən amillərdən biri də əhalinin ***silklərə bölünməsi*** idi. Bu dövrdə də Fransada əhalinin üç silkə bölünməsi qaydası qalmaqda idi.

***Birinci və ikinci silkə daxil olan*** - *ruhanilər* və *zadəganlar* vergilərdən azad olunmuşdular. Ali vəzifələri yalnız zadəganlar tuta bilərdilər.

***Üçüncü silkə daxil olan*** əhalinin əksəriyyətini təşkil edən *burjuaziya, xırda tacirlər, sənətkarlar, fəhlələr, kəndlilər* dövlətin bütün vergilərini ödəyirdi. Onların siyasi hüquqları isə yox idi. Feodal-mütləqiyyət sisteminə qarşı çıxan fransız burjuaziyası - *tacirlər, manufaktura sahibləri, bankirlər* artıq mübarizəyə hazır idilər. Kəndlilər, sənətkarlar və fəhlələr bu mübarizədə burjuaziyanın tərəfində idilər. Üçüncü silk nümayəndələri silk üstünlüklərinin ləğv edilməsinə, monarxiya quruluşunun yumşaldılmasına çalışırdılar.



*Mariya Antuanetta və XVI Lüdovik*

Rejimdən narazı qalan ***zadəgan*** və ***ruhanilərin*** bir qismi də islahatlar keçirilməsini istəyirdi.

### Fransada Baş ştatların çağırılması (1789-cu il 5 may)

1789-cu ilin əvvəlində Fransada ***iqtisadi böhran*** inqilabi şəraiti daha da kəskinləşdirdi. Kral XVI Lüdovik mövcud böhrandan çıxmaq üçün çoxdan (1614-cü ildən bəri) çağrılmayan **Baş ştatları** çağırmaq qərarına gəldi. İngiltərədə olduğu kimi burada da kral Baş ştatları çağırmaqda məqsədi ***borclar və vergilər üçün razılıq almaq*** idi. Kral XVI Lüdovik ***paytaxt əhalisindən qorxduğu üçün*** Baş ştatların **Versalda** çağırılmasına razılıq verdi.

**1789-cu il, mayın 5-də** Versalda Baş ştatların təntənəli açılışı oldu. Kral Baş ştatların açılışı zamanı yeni vergilərin təsdiq edilməsini Baş Ştatlardan tələb etdi. Lakin ***üçüncü silkin nümayəndələri*** səsvermə qaydasına qarşı çıxaraq kral və digər iki silkin nümayəndələrinin təklif etdiyi qaydaları qəbul etmədilər. Bundan əsəbləşən kral parlamentin fəaliyyətini dayandırmaq qərarına gəldi. Buna görə də üçüncü silkdən olan deputatlar **1789-cu il iyunun 17-də** Baş Ştatlardan çıxıb tenis topu oynanılan zala yığışaraq Konstitusiya qəbul edilməyənəcən buranı tərk etmiyəcəklərinə and içdilər və ***özlərini vəzifəsi ölkənin yeni Konstitusiyasını təsis etməkdən ibarət olan*** **Milli Məclis** elan etdilər.

***QEYD:*** İlk dəfə 1302-ci ildə kral IV Gözəl Fillip tərəfindən çağırılmış Baş Ştatlar inqilabın gedişi zamanı adı dəyişdirilərək əvvəlcə Milli Məclis (1789-cu il, 17 iyun) daha sonra isə Müəssislər Məclisi (1789-cu il, 9 iyul) Qanunverici Məclis (1991-ci il, sentyabr) Milli Konvent (1792-ci il, 10 avqust) adlandırılmışdı.





*1789-cu il 5 may, Versalda Baş ştatların açılışı. 1789-cu il 17 iyun, üçüncü silkin nümayəndələrinin yeni Konstitusiya təsis etmək üçün top oynanılan zala toplaşması*

### Fransa burjua inqilabının başlanması (1789-cu il, 14 iyul)

Vəziyyətin ağır olduğunu görən kral parlamenti zor gücünə buraxmaq üçün qoşunları Parisə və Versala çəkib gətirməyə başladı. Buda cəmiyyətdə gərginliyin artmasına səbəb oldu. Buna cavab olaraq Parisdə xalq kütləları ayağa qalxaraq **Milli qvardiya** yaratdılar.

Parisdə mütləqiyyətin dayağı, kral sarayı olan **Bastiliya qalası** idi. **1789-cu il iyulun 14-də** xalq Parisin mərkəzində yerləşən Bastiliya qalası üzərinə hücum etdi. Bastiliyanın ələ keçirilməsi ***mütləqiyyətin devrilməsinə, konstitusiyalı monarxiya rejiminin təsbit olunmasına*** şərait yaratdı və ***Fransa burjua inqilabı başladı***. 14 iyul günü bu gün də Fransada milli bayramı kimi qeyd edilir. Parisdə inqilabın qələbəsi bütün ölkədə güclü inqilabi yüksəliş üçün siqnal oldu. Üsyançıları dəstəkləyən Milli Məclis həmin ildə xalqın xeyrinə aşağıdakı tədbirləri həyata keçirdi:

- ***Feodal imtiyazlarının və kilsə vergisinin ləğv olunması barədə dekret verildi.***
- ***«İnsan və vətəndaş hüquqları Bəyannaməsi» qəbul edildi.***



*1789-cu il 14 iyul, Bastiliya qalasının alınması*

### Fransada «İnsan və vətəndaş hüquqları Bəyannaməsi»nini qəbul edilməsi (1789)

**1789-cu ildə Milli Məclis (Müəssislər Məclisi)** tərəfindən Fransada **«İnsan və vətəndaş hüquqları Bəyannaməsi»** adlı sənəd qəbul olundu. Bəyannamə ABŞ-ın «İstiqlaliyyət Bəyənnaməsi» əsasında tərtib edilmişdi. «İnsan və vətəndaş hüquqları Bəyannaməsi»nə əsasən:

- ***Xalq hakimiyyətin yeganə mənbəyi elan edildi.***
- ***Vətəndaşlara söz, vicdan, mətbuat azadlığı verildi.***
- ***Zülmə qarşı müqavimət hüququ elan edildi.***

- ***Silki  imtiyazlar və mütləqiyyət rədd edildi.***
- ***Mülkiyyət toxunulmaz və müqəddəs elan olundu.***

***QEYD:*** ***Xalq hakimiyyəti ideyasının irəli sürülməsi*** ABŞ-ın «İstiqlaliyyət Bəyannaməsi» və Fransanın «İnsan və vətəndaş hüquqları Bəyannaməsi» arasında  oxşar cəhət təşkil edir. Ümumiyyətlə, XVIII əsrin ikinci yarısı ABŞ və Fransa tarixi üçün xeyli oxşar cəhətlər var idi. Belə ki, hər iki dövlət ***İngiltərə ilə müharibə apardı, respublika elan olundu və burjua inqilabları  baş verdi***.

| ***«Hüquqlar haqqında Bill»*** | ***«İstiqlaliyyət Bəyannaməsi»*** | ***«İnsan və vətəndaş hüquqları Bəyannaməsi»*** |
|---|---|---|
| 1689-cu ildə İngiltərə parlamenti tərəfindən qəbul edilmişdi. Qanuna əsasən:<br>➢ *Andlılar məhkəməsinin hüquqları genişləndirildi.*<br>➢ *Hökumət dəyişmələri yalnız parlament yolu ilə həyata keçirilə bilərdi.*<br>➢ *Kral parlamentin razılığı olmadan ordu saxlaya, vergiləri təyin edə və parlamentin qəbul etdiyi qanunları ləğv edə bilməzdi.* | 1776-cı ildə ABŞ-da qəbul edilmişdi. Qanuna əsasən:<br>➢ *ABŞ-ın yaradıldığı  elan edildi.*<br>➢ *Üsyan qaldırmış müstəmləkər İngiltərədən ayrıldığını elan etdilər.*<br>➢ *İngiltərənin Şimali Amerikadakı müstəmləkələri tam müstəqilliyinin elan etdilər.*<br>➢ *İnsanların hüquq bərabərliyi elan edildi.* | 1789-cu ildə Fransada qəbul edilmişdi.  Qanuna əsasən:<br>➢ *Xalq hakimiyyətin yeganə mənbəyi elan edildi.*<br>➢ *Vətəndaşlara söz, vicdan, mətbuat azadlığı verildi.*<br>➢ *Zülmə qarşı müqavimət hüququ elan edildi.*<br>➢ *Silki  imtiyazlar və mütləqiyyət rədd edildi.*<br>➢ *Mülkiyyət toxunulmaz və müqəddəs elan olundu.* |

### Fransanın ilk konstitusiyasının qəbul olunması (1791)

Fransanın ilk konstitusiyası  **1791-ci ilin sentyabrında**  qəbul edildi. Bu  Konstitusiyaya əsasən:

- ✓ Fransa ***konstitusiyalı monraxiya*** elan edildi.
- ✓ Kral icraedici hakimiyyətin başçısı elan olunurdu və nazirləri vəzifəyə təyin edirdi.
- ✓ Nazirlər ancaq kral qarşısında məsuliyyət daşıyırdılar.
- ✓ Ali qanunvericilik hakimiyyəti **Qanunverici məclisə**  verilirdi.
- ✓ Əhali tərəfindən seçilən **Andlılar məhkəməsi** yaradıldı.
- ✓ Yalnız mülkiyyəti olan adamlar seçki hüququna malik oldular.
- ✓ Daxili gömrükxanalar, sexlər ləğv edildi və vahid metrik sistem yaradıldı.
- ✓ Fransa inzibati cəhətdən **departamentlərə** bölündü.

Konstitusiyaya əsasən qanunverici Məclisə seçkilər keçirildi. İri burjuaziya və böyük torpaq sahibi olan zadəganlar Məclisdə üstünlük təşkil etdilər.  **Jironda departamentindən**  olan deputatlar Qanunverici məclisdə daha çox nüfuz qazanmışdılar. *Jironda* departamentindən olan nümayəndələri buna görə də Məclisdə *jirondistlər* adlandırırdılar.

***QEYD:*** Əslində yoxsullara seçki hüququnun verilməməsi və seçkilərdə əmlak senizinin tətbiqi «İnsan və vətəndaş hüquqları Bəyannaməsi»nin müddəalarının pozulması demək idi.

### Monarxiyanın devrilməsi (1792-ci il, 10 avqust)

Avropa dövlətləri inqilabın Avropaya yayılmasının qarşısını almaq üçün krala kömək edirdilər. Bu məqsədlə, **1792-ci ilin fevralında Avstriya** ilə **Prussiya** Fransa inqilabına qarşı birinci ***əksinqilabi koalisiya***  (ittifaq) yaratdı. Beləliklə, Fransaya qarşı hərbi müdaxilə başladı. Bu zaman Milli Məclis **«Vətən təhlükədədir»** çağırışı ilə xalqa müraciət etdi. Çağırışa cavab olaraq minlərlə könüllü vətənpərvər mahnılar oxuya-oxuya Parisə toplaşdı. **Marsel** şəhərində olan hərbi hissənin oxuduğu mahnı xüsusi şöhrət qazandığı üçün sonralar bu mahnı **«Marselyeza»** adı ilə Fransanın milli himni oldu. Qanunverici məclisin çağırışı ilə Parisdə toplaşmış könüllü dəstələr ***kralın devrilməsini*** tələb edirdilər. İnqilabi dəstələr **1792-ci il avqustun 10-da** kral sarayına hücum edib, sarayı aldılar. Bundan sonra Qanunverivi məclis:



*10 avqust, 1792-ci il. Üsyançılar kral sarayına hücum edərək  sarayı tutdular, monarxiya süqut etdi*

- ***Kralı hakimiyyətdən məhrum edərək həbsə aldı. Bu hadisə ilə Fransada monarxiya süqut etdi.***
- ***Əmlak sezini  ləğv etdi.  Milli Məclisə (konventə) seçkilər təyin edildi.***

Bu zaman Prussiya ordusu sərhəddi keçdi və Fransa ərazisinə soxuldu. **Verden** təslim oldu. Bundan sonra ***Paris üzərinə yol açıldı, Fransa üçün böyük təhlükə yarandı*.** **1792-ci il sentyabrın 20-də** Valmi döyüşündə fransızlar Prussiya qoşunlarını məğlub etdilər. Qələbə nəticəsində - ***fransız xalqında ruh yüksəkliyi yarandı və qələbə Avropaya çox böyük təsir göstərdi***. Tezliklə avstriyalılar da məğlubiyyətə uğradıldı.

**1792-ci il sentyabrın 20-də,** Valmi qələbəsi günü Parisdə **Milli Konventin** iclası açıldı. Milli Konvet:

- ✓ ***sentyabrın 21-də kral hakimiyyətinin ləğv edilməsi haqqında qərar qəbul etdi***.
- ✓ ***sentyabrın 22-də monarxiya devrildi və Fransa respublika elan olundu***.



Robespyer

***QEYD:*** Fransada Birinci respblika 1792-1804-cü illərdə mövcud olmuşdu. ***Respublika elan edilməsi*** 1649-cu il İngiltərə və 1792-ci il Fransa tarixi üçün oxşar cəhət təşkil edir.

## Yakobin diktaturasının qurulması (1793-1794)

Seçkilərdən sonra Milli Konventdə *jirondistlər* yenə də üstün mövqeyə malik idilər. Jirondistlər ***respublikaya müvəqqəti hal kimi baxır, kral hakimiyyətinin bərpasını*** istəyirdilər. Milli Konventdə respublikaçı mövqe tutan **yakobiçlər** (onlar Konventin iclas salonunda yuxarı oturacaqlarında əyləşdiklərinə görə belə adlanırdılar) jirondistlərdən fərqli olaraq, demokratik mövqe nümayiş etdirirdilər.



Danton

**Yakobiçlər qrupunun** başında **Robespyer, Danton** və **Mart** dururdu.

Konventdə yakobinçilərlə Fransa inqilabından on ay sonra iqtidarı ələ keçirən jirondistlər arasında kəskin mübarizə yakobinçilərin qələbəsi ilə nəticələndikdən sonra jirondist deputatlar Konventdən qovuldu. Bununlada jirondistlərin hakimiyyəti başa çatdı və onları yakobinçilər əvəz etdi. Beləliklə, jirondistlərin Konventdən qovulması ilə Konventə yeni seçkilər başlandı, nəticədə yakobinçilər hakimiyyətə gəldi. Yakobinçilər Konventdə jirondistlər üzərində qələbə çaldıqdan sonra:



Marat

- ✓ ***kralın Konventin mühakiməsinə verilməsinə nail oldular***.
- ✓ ***1793-cü ilin əvvəlində kralı və kraliçanı edam etdirdilər***.

## Yakoninçilərin həyata keçirdiyi tədbirlər

Yakobinçilərin dövründə (1793-1794) Yakobin hökuməti aşağıdakı mühüm tədbirləri həyata keçirdi:

- ✓ *Konventdə Fransanın yeni – ikinci Konstitusiyası qəbul edildi.*
- ✓ *Feodal vergi və mükəlləfiyyətlərinin tamamilə və əvəzsiz ləğv edilməsi haqqında dekret verildi.*
- ✓ *Tutulan kəndli torpaqları sahiblərinə qaytarıldı, kəndlilər torpaq mülkiyyətçisi oldular.*
- ✓ *Konvent hərbi tribunal yaratdı, əks-inqilabçılara qarşı sərt qanunlar qəbul olundu.*
- ✓ *Vətənə xəyanət edənlər* **gilyotin** *maşını ilə edam edildi.*



XVI Lidovikin qilyotin alətində edam edilməsi

*Gilyotin - bir sıra Avropa ölkələrində barəsində ölüm hökmü çıxarılmış məhkumun edam üsulunda istifadə edilən alətə verilən ad idi. Gilyotin 1738-ci ildə Fransada anadan olan ixtisasca həkim Giyotin tərəfindən təkmilləşdirilib. Aləti icad edən şəxsin isə Giyotinin müəllimi Antuan Lui olduğu mənbələrdə qeyd olunur. Alət Parisin məşhur Qrevs meydanında ölmüş insanlar üzərində sınaqdan keçirilərək bəyənildikdən sonra 1791-ci ildə qəbul edilərək Fransa Cinayət Məcəlləsinə daxil edilir. Maraqlıdır ki, edamdan qabaq oxunan ölüm hökmündə məhkumun Fransa xalqı adından edam edildiyi bəyan edilirdi.*

*Təkcə Fransada terror dövrü kimi xarakterizə edilən 1793- 1794-cü illərdə, yakobinçilər təfindən 40 min insan gilyotin aləti ilə edam edilmişdi. Fransada sonuncu dəfə kütlə qarşısında gilyotin alətində edam etmə üsulu 1977-ci ilə təsadüf edir. Bundan 4 il sonra, Fransada edam hökmü ləğv edildi.*

### Yakobinçi qrupların meydana gəlməsi

Yakobinçilər bir neçə qrupa bölünmüşdülər:

- **Mötədil qrup.** Dantonun rəhbərliy etdiyi mötədil qrup ***terror siyasətindən əl çəkməyi və inqilabi demokratik diktaturanı ləğv etməyi*** tələb edirdilər.
- **«İfrat yakobinçilər» qrupu.** Şomet və Eberin başçılıq etdiyi bu sol müxalifətçi qrup Robespyerin rəhbərlik etdiyi ali icraedici orqan olan **ictimai Qurtuluş Komitəsinin** siyasətinə qarşı çıxırdı. Onlar daha sərt tədbirlərin həyata keçirilməsinə çalışırdılar.
- **Robespyerçi qrup**. Robespyerçi qrupunun məqsədi - ***iri mülkiyyəti müəyyən qədər məhdudlaşdıran, demokratik respublika qurmaqdan ibarət idi.***

Yakobin diktaturasını qruplar arasındakı ***daxili çəkişmələr*** zəiflədirdi. İlk hər iki qrupun rəhbərləri inqilabi Robespyer hökumətinə qarşı çıxdıqları üçün edam edildilər. Bu hadisə yakobinçilərin mövqeyini daha zəiflətdi və yakobin bloku dağıldı.

Konventin ***kənd təsərrüfatı fəhlələrinin çöl işlərinə göndərilməsi, varlı kənd juaziyasının məhsulunun müsadirə edilməsi haqqında dekretləri*** vəziyyəti daha da gərginləşdirdi. Robespyer hökumətinə qarşı əks-inqilabi blok yarandı.

### 1794-cü il 9 termidor (27 iyul) çevrilişi. Yakobin diktaturasının süqutu. İnqilabın başa çatması

Əvvəllər yakobinçi diktaturanı müdafiə edənlər Konventin narazı üzvləri ilə birləşdilər. Termidorun 9-da (iyulun 27-də) suiqəsdçilər Konventdə qarmaqarışıqlıq salaraq Robespyeri və onun tərəfdarlarının həbs edilməsi haqqında qərar qəbul edib onların edam edilməsinə nail oldular.

Beləliklə, **1794-cü il, 9 termidor (27 iyul)** çevrilişi ***nəticəsində:***

- ✓ **Yakobinçilər diktaturasına son qoyuldu**.
- ✓ **Fransa burjua inqilabı başa çatdı**.
- ✓ **Termidorçular (Direktoriya irticası) hakimiyyətə gəldilər**.
- ✓ **Hakimiyyət yenidən iri burjuaziyanın əlinə keçdi**.



*1794-cü il, 9 termidor (27 iyul) çevrilişi. Suiqəsdçilər Konventdə qarmaqarışıqlıq salaraq çevriliş etdilər. Yakobin diktaturası süqut etdi. Robespyer və onun tərəfdarları həbs edilərək gilyotin qurğusunda edam edildilər.*

### Fransa burjua inqilabının əhəmiyyəti

1789-1794-cü illər Böyük Fransa burjua inqilabı böyük əhəmiyyətə malik idi. Belə ki:

- ✓ Fransa burjua inqilabı əvvəlki inqilablardan fərqli olaraq, feodal-mütləqiyyət sistemini tam aradan qaldıran yeganə burjua inqilabı idi
- ✓ İnqilabın qələbəsi Fransada kapitalizmin inkişafının sürətlənməsinə səbəb oldu və ümumdünya tarixinin sonrakı gedişinin dəyişməsinə ciddi təsir göstərdi.

***QEYD:*** ***Feodalizm quruluşunun kapitalizm quruluşu ilə əvəz edilməsi*** İngiltərə və Fransa burjua inqilablarının nəticələrinə aid oxşar cəhət təşkil edir.

## Termidor (Direktoriya) irticası dövrü (1794-1799). 1795-ci il termidorçu Konstitusiyası

Fransada «**yeni varlılar**» inqilab illərində əldə edilmiş var-dövlətin qorunub saxlanmasında maraqlı olan iri burjuaziyanın nüfuzlu nümayəndələri idilər. Onlar termidor çevrilişi nəticəsində hakimiyyətə gəldiyi üçün **1794-1799-cu illərdə** hakimiyyətdə olduğu dövr də ***termidor irticası dövrü*** adlandı.

**1795-ci ilin payızında** termidorçu **Kovent** yeni Konstitusiya qəbul etdi. Bu, respublika təqvimi üzrə «**üçüncü il konstitusiyası**» adlanırdı. Termidorçu Konstitusiyaya əsasən:

- ✓ Fransada respublika quruluşu saxlanıldı.
- ✓ Ümumi seçki hüququ ləğv edildi .
- ✓ Seçicilər üçün əmlak və yaş senzi tətbiq olundu.
- ✓ Qanunverici hakimiyyəti iki palatadan ibarət **Qanunverici Korpusa** verildi.
- ✓ İcraedici hakimiyyət ***beş direktordan*** ibarət olan **Direktoriyaya** həvalə edildi.

Zadəgan **Barrasın** əsas rol oynadığı Direktoriya dövründə Fransada aşağıdakı tədbirlər həyata keçirildi:

- ✓ *Jirondist deputatlar Konventin tərkibinə qaytarıldı.*
- ✓ *Yakobin klubu bağlandı, onların üzvləri isə həbs və edam edildi.*
- ✓ *Milli qvardiya yakobin tərəfdarlarından təmizləndi.*
- ✓ *Monarxiya tərəfdarlarına qarşı qoyulan qadağalar zəiflədildi.*
- ✓ *Yakobinçilərin tətbiq etdiyi sabit qiymətlər ləğv edildi.*

| ***Yakoninçilərin həyata keçirdiyi tədbirlər*** | ***Direktoriya dövründə həyata keçirilən tədbirlər*** |
|---|---|
| ✓ *Respublika quruluşu saxlanıldı.*<br>✓ *Fransanın ikinci Konstitusiyası qəbul edildi.*<br>✓ *Feodal vergi və mükəlləfiyyətlər tamamilə və əvəzsiz ləğv edilməsi haqqında dekret verildi.*<br>✓ *Kəndlilər torpaq mülkiyyətçisi oldular. Tutulan kəndli torpaqları sahiblərinə qaytarıldı.*<br>✓ *Əks-inqilabçılara qarşı sərt qanunlar qəbul olundu, vətənə xəyanət edənlər cəzalandırıldı, hərbi tribunal yaradıldı.* | ✓ *Respublika quruluşu saxlanıldı.*<br>✓ *Jirondistlər Konventin tərkibinə qaytarıldı.*<br>✓ *Yakobin klubu bağlandı, üzvləri isə həbs və edam edildi.*<br>✓ *Milli qvardiya yakobin tərəfdarlarından təmizləndi.*<br>✓ *Yakobinçilərin tətbiq etdiyi sabit qiymətlər ləğv edildi.*<br>✓ *Monarxiya tərəfdarlarına qarşı qoyulan qadağalar zəiflədildi.* |

## Direktoriya dövründə daxili vəziyyət

Bütün tədbirlərə baxmayaraq Termidorçulatın apardığı daxili iqtisadi siyasət ölkədə bahalığın, ərzaq çatışmazlığının qarşısını ala bilmədi. Əhalinin yoxsul təbəqələrinin narazılığı daha da artdı. Direktoriyanın hakimiyyəti dövründə ölkə daxilində termidorçular tərəfindən sabit qiymətlərin ləğvi bahalığın artmasına, ərzaq çatışmazlığına və aclığa səbəb oldu. Odur ki, **1795-ci ilin yazında** xalq kütlələri üsyan qaldıraraq ***çörək, həbs edilmiş demokratların azad olunmasını və Konstitusiyanın bərpa edilməsini*** tələb etdilər. Lakin üsyanlar amansızlıqla yatırıldı və üsyançıların heç bir tələbi yerinə yetirilmədi. **1795-1796-cı illərdə** Parisdə **Fransua Noel Baböf** başda olmaqla əsas məqsədi Direktoriyanı devirib yoxsullar diktaturasını qurmaq olan «**Bərabərlik uğrunda hərəkat**» baş verdi. Lakin hərəkat amansızlıqla yatırıldı. **1796-cı ilin mayında** Baböf və onun yaxın silahdaşları həbs edilərək edam edildi.



*1796-cı il, «Bərabərlik uğrunda hərəkat»ın yatırılması*

### Direktoriya dövründə xarici siyasət

Direktoriya dövründə Fransanın aşağıdakı *hərbi uğurları* iri burjuaziyanın mövqeyini daha da möhkəmləndirdi:

- **1796-1797-ci illərdə Napoleon Bonapartın** başçılığı ilə İtaliyaya yürüş təşkil olundu. **Lodi döyüşündə** İtaliyadakı ***Avstriya qoşunları*** məğlub edildi. Avstriya ilə bağlanan sülh müqaviləsinə əsasən **Belçika** Fransanın tabeliyinə keçdi. Napoleon Bonapartın hərbi istedadı nəticəsində **İtaliya** tabe edildi.
- **1798-ci ildə *Osmanlı dövlətinə*** məxsus olan Misiri öz müstəmləkəsinə çevirmək məqsədi ilə Napaleon **Misirə** yürüş təşkil etdi. Yürüş nəticəsində Misirin əsas şəhərləri olan **İsgəndəriyyə** və **Qahirə** tutuldu.
- **1799-cu ildə** İngiltərə dənizlərdə Fransaya qarşı müharibəni davam etdirdi. İngilis admiralı **Nelson Abukir** yaxınlığındakı **döyüşdə** fransız donanmasını məğlub etdi. Bu zaman Suriyada yürüşdə olan Napoleon səfərini yarımçıq qoyaraq ordusunu Misirə qaytardı və ölkəni tamamilə zəbt etdi. Bu uğurdan sonra o, Fransaya qayıtdı.




*a) 1796-1797-ci illər, Napoleonun İtaliyaya yürüş. Lodi döyüşü. İtaliyanın tabe edilməsi. b)Napoleonun Misirə yürüşü. c) Abukir döyüşü. Nelsonun fransız donanmasını məğlub etməsi.*





*Napoleon Bonapart 1798-ci ilin payızında Misir ekspedisiyası zamanı bu torpaqları işğal etdikdən sonra faktiki olaraq bu yerlərin hökmdarına çevrildi. 1799-cu ildə o, Suriyanı ələ keçirmək üçün Misiri tərk etdi. Osmanlılar bu əlverişli vəziyyətdən istifadə edərək ingilislərin köməyi ilə Misiri geri almaq üçün 18000 nəfərlik ordu ilə Abukir burnundan Misir sahillərinə qoşun çıxardılar. 1799-cu il, iyulunda İngilis admiralı Nelson Abukir yaxınlığındakı döyüşdə fransız donanmasını darmadağın etdi və osmanlılar həmin əraziylərə yenidən sahib olurlar. Bu hadisədən xəbər tutan Napoleon Suriya yürüşünü yarımçıq qoyaraq geri döndü. Tərəflər arasında yenidən döyüş baş verdi. Bu dəfə döyüşdə fransızlar qələbə qazandılar. Bu qələbə fransızlara 1802-ci ilə kimi Misirdə mövqelərini saxlamağa imkan verdi.*



***Napoleon Bonapart** nəinki öz ölkəsinin tarixində, həmçinin Avropa tarixində dərin iz qoymuş görkəmli hərbiçi və dövlət xadimi olmuşdur. O, 1769-cu ildə, o dövrdə Fransanın müstəmləkəsi olan indiki İtaliyanın Korsika adasında vəkil ailəsində dünyaya gəlmişdi. On beş yaşında Napoleon Parisin hərbi məktəbinə daxil olsa da, atasının ölümündən sonra o, ali hərbi məktəbi yarımçıq qoyub orduda xidmətə başlayır. 1789-cu ildə Fransa inqilabı başlayandan sonra onun karyerası sürətlə yüksəlməyə başladı. 1793-cü ildə Tulon şəhərinin ingilis qüvvələrindən azad edilməsində hazırladığı çarpaz artilleriya planı Napoleonun şöhrətini artırdı.*

*İyirmi dörd yaşında ona briqada generalı rütbəsi verildi. Yakobinçilər onu Fransanın «daxili hərbi qüvvələrinin» komandiri təyin etdilər. 9 termidor çevrilişindən sonra Napoleon həbs olundu. Onu yakobinçilərlə əlaqədə olduğuna görə vəzifəsindən azad etmişdilər. Lakin hərbi uğurlarının nəzərə alınması onun həyatını xilas etdi. Direktoriya dövründəki bütün əsas müharibələr Napoleonun rəhbərliyi ilə qələbələrlə başa çatdı.*

### 1799-cu il, 18 brümer (9 noyabr) çevrilişi

Direktoriyanın hakimiyyəti dövründə Fransanın daxili vəziyyəti qeyri-sabit idi. Ölkədə iqtisadi tənəzzülün qarşısını almaq mümkün olmadı. İşğalçı müharibələr ölkəyə baha başa gəlirdi. Xalq kütlələrinin güzəranı getdikcə pisləşirdi. İri burjuaziya Direktoriya hökumətini ölkədə qayda-qanun yarada bilməməkdə günahlandırırdı. Xüsusən demokratik qrupların güclənməsi iri burjuaziyanı qorxudurdu. Yeni **Yakobin klubu** yaranmışdı. Digər tərəfdən ***royalistlər - monarxiya tərəfdarları*** fəallaşmışdı. İri burjuaziya isə monarxistlərdən və demokratik qüvvələrdən qorunmaq üçün ***möhkəm hökumət*** yaratmağa çalışırdı. Direoktoriyanın idarəçilikdəki böhranı şəraitdə ***burjuaziyanın*** ümidi general **Napaleon Bonaparta** yönəlmişdi. Çevriliş tərəfdarları üçün Napoleon Bonapart ən layiqli namizəd idi. Müdaxiləçilərin ölkədən qovulmasındakı xidmətləri, İtaliya, Misir səfərləri onun şöhrətini artırmışdı. Sui-qəsdçilər məqsədlərinə çatmaq üçün əvvəlcə Napoleonu Paris qarnizonunun komandanı təyin etdirməyə nail oldular. Bundan sonra iri burjuaziya dövlət çevrilişi planını həyata keçirməyi Bonaparta həvalə etdi.



*1799-cu il 18 brümer (9noyabr) çevrilişi*

**1799-cu il noyabrın 9-da (brümerin 18-də)** dövlət çevrilişini həyata keçirmək üçün Bonapartın qoşunları tərəfindən Qanunverici Korpusun binası tutuldu. Əsgərlər Qanunverici Korpusun iclas salonuna soxuldular. **1799-cu il 18 brümer** çevrilişi ***nəticəsində:***

- ✓ **Direktoriya buraxıldı və hakimiyyət üç konsula, o cümlədən Bonaparta verilməsi haqqında qərar qəbul edildi, Bonaparta birinci konsul rütbəsi verildi**.
- ✓ **Fransa tarixində yeni dövr - Napalion Bonapartın hərbi burjua diktaturası dövrü başladı**.
- ✓ **İri burjuaziyanın hərbi diktaturası quruldu.**
- ✓ **Burjua əksinqilabı qəti qələbə qazandı**.

Çevrilişdən sonar hakimiyyət üç konsulun əlinə keçsə də əslində, hakimiyyət **Napoleonun** əlində idi.

***QEYD: Diktatura idarə üsulu qurulması*** İngiltərədəki 1653-cü il tarixli dövlət çevrilişi ilə Fransadakı 1799-cu il 18 brümmer dövlət çevrilişi arasındakı oxşar cəhət təşkil edir.

| 1794-cü il 9 termidor çevrilişinin nəticələri | 1799-cu il 18 brümer çevrilişinin nəticələri |
|---|---|
| ➢ Yakobin diktaturasına son qoyuldu.<br>➢ Fransa burjua inqilabı başa çatdı.<br>➢ Fransada iri burjuaziya hakimiyyətə gəldi. | ➢ Hakimiyyət üç konsula verildi.<br>➢ İri burjuaziyanın hərbi diktaturası yaradıldı.<br>➢ Bonapartın hərbi diktaturası dövrü başladı. |

### İri burjuaziyanın diktaturası. Konsulluq dövrü (1799-1804)

Fransada Konsulluq dövrü **1799-1804-cü illəri** əhatə edir. Bu dövr həmçinin Napalion Bonapartın Birinci konsulluğu dövrü də adlanır. Konsulluq dövründə, **1799-cu il dekabrın 24-də** plebissit (ümumxalq səsverməsi) yolu ilə Fransanın yeni Konstitusiyası qəbul edildi. Konstitusiyaya görə:

- ✓ Fransada yenə də respublika quruluşu zahirən saxlanıldı.
- ✓ Faktiki olaraq bütün hakimiyyət 10 il müddətinə seçilən **üç konsula** verildi.
- ✓ **Birinci konsul** kimi Napoleona böyük səlahiyyətlər verildi (O, qanunvericilik təşəbbüsü ilə çıxış edə bilərdi). Napoleon Bonapart, həmçinin silahlı qüvvələrin ali baş komandanı idi.
- ✓ **İkinci və üçüncü konsullar** yalnız ***məşvərətçi səsə*** malik idilər
- ✓ Qanunverici hakimiyyət üç orqan - **Dövlət şurası, Tribunat** və **Qanunverici korpus** arasında aşağıdakı kimi bölüşdürüldü:
  - ➢ **Dövlət şurası** - *qanun layihələrini hazırlayırdı.*
  - ➢ **Tribunat** - *qanunları müzakirə edirdi.*
  - ➢ **Qanunverici korpus** - *qanunları ya qəbul, ya da rədd edirdi.*



Konsulluq dövründə Bonapart özünü ömürlük konsul elan etmişdi. Bu isə o demək idi ki Fransa yeni monarxiyaya doğru gedirdi. Lakin bu monarxiya feodal monarxiyası deyil, ***burjuaziyanın hakimiyyətini həyata keçirən monarxiya*** idi. Napoleon Bonapart özünü ömürlük konsul elan etməklə monarxiya sisteminə doğru geriyə addım atmışdı.

Konsulluq dövründə ölkədə əvvəllər qəbul edilmiş əksər azadlıqlar, o cümlədən mətbuat azadlığı ləğv edilmişdi.

Əgər inqilab ərəfəsində burjuaziya katolik kilsəsinə mənfi münasibət bəsləyirdisə, Konsulluq dövründə isə əksinə olaraq kilsə ilə ittifaqa can atırdı. **1801-ci ildə** Nopalion papa **VII Piy** ilə saziş bağladı. Bu sazişə görə ***xristian dininin katolik məzhəbi əksər fransızların dini kimi qəbul edildi***. Bununla da, katolik kilsəsi Napoleonun idarə üsulunu möhkəmləndirən vasitəçiyə çevrildi.



*Nopalion ilə papa VII Piy arasında saziş bağlanması*

***Fransa Konstitusiyaları***

| 1791-ci il Konstitusiyası | 1795-ci il Konstitusiyası | 1799-cu il Konstitusiyası |
|---|---|---|
| ✓ Fransa ***konstitusiyalı monraxiya*** elan edildi.<br>✓ **Kral** icraedici hakimiyyətin başçısı elan olunurdu və nazirləri vəzifəyə təyin etmək hüququ aldı.<br>✓ Nazirlər ancaq kral qarşısında məsuliyyət daşıyırdılar.<br>✓ Ali qanunvericilik hakimiyyəti **Qanunverici Məclisə** verilirdi.<br>✓ Əhali tərəfindən seçilən **Andlılar məhkəməsi** yaradıldı.<br>✓ Yalnız mülkiyyəti olan adamlara seçki hüququ verildi.<br>✓ Daxili gömrükxanalar və sexlər ləğv edildi. Vahid metrik sistem yaradıldı. Fransa inzibati cəhətdən **departamentlərə** bölündü. | ✓ Fransada respublika quruluşunu saxlanıldı.<br>✓ Ümumi seçki hüququ ləğv edildi.<br>✓ Yakobinçilər tərəfindən ləğv edilən əmlak senzi bərpa olundu (seçicilər üçün əmlak və yaş senzi qoyuldu).<br>✓ Ali qanunverici hakimiyyət iki palatadan ibarət olan **Qanunverici Korpusa** verildi.<br>✓ İcraedici hakimiyyət **beş direktordan** ibarət olan **Direktoriyaya** həvalə edildi. | ✓ Fransada respublika quruluşu saxlanıldı.<br>✓ Faktiki olaraq bütün hakimiyyət 10 il müddətinə seçilən **üç konsula** verildi.<br>✓ Silahlı qüvvələrin ali baş komandanı olan **birinci konsula** qanunvericilik təşəbbüsü ilə çıxış edə bilmək hüququ verildi.<br>✓ **İkinci və üçüncü konsullar** yalnız **məşvərətçi səsə** malik idilər.<br>✓ Qanunverici hakimiyyət üç orqan - **Dövlət şurası, Tribunat** və **Qanunverici korpus** arasında bölüşdürüldü. |

# Rusiya



*Mixail Romanov*

## Sosial-iqtisadi və siyasi vəziyyət

**XVII əsrin əvvəllərində** Rusiyada sosial-iqtisadi vəziyyət aşağıdakı kimi idi:

- ✓ Natural təsərrüfat hökmüran olaraq qalırdı.
- ✓ Hər bir feodal mülkünün torpaqları ***ağa*** və ***kəndli torpaqlarına*** bölünmüşdü.
- ✓ Kəndlilər həm öz pay torpaqlarını, həm də ağa torpaqlarını becərirdilər.
- ✓ Kənd təsərrüfatı bəsit əkinçilik texnikasına əsaslanırdı.
- ✓ Əmək alətlərinin təkmilləşdirilməsi olduqca ləng gedirdi.
- ✓ Kəndlilər mülkədarların - feodalların torpağına təhkim olunmuşdular (kəndlilər feodaldan şəxsən asılı idilər).

Göründüyü kimi, XVII əsrin əvvəllərində qabaqcıl Avropa ölkələrində kapitalist münasibətləri inkişaf etdiyi halda Rusiyada **natural təsərrüfat** hələ də öz hökmranlığını qoruyub saxlamışdı.

XVII əsrdə Rusiyasının sosial-iqtisadi həyatında baş verən dəyişikliklər siyasi quruluşa da təsir göstərirdi. Çarın təkbaşına hakimiyyəti Rusiyada mütləqiyyət rejiminin yarandığını göstərirdi. **1613-cü ildə** Zemstvo yığıncağında **Mixail Romanov (1613-1645)** çar seçildi. Bu hadisə ilə Rusiyada yeni sülalənin – **Romanovlar sülaləsinin (1613-1917)** hakimiyyəti başladı. Mixail Romanovdan sonra Rusiyanın hökmdar taxtına **Aleksey Mixayloviç Romanov (1645-1676)** çıxdı.



*Aleksey Romanov*



*Zemstvo yığıncağı*

*Zemstvo yığıncağı Rusiyada silklərin nümayəndələrindən ibarət dövlət orqanı idi. Zemstvo yığıncağı Müqəddəs kilsənin, Boyar Dumasının, "hökmdar sarayı"nın üzvlərindən, eləcə də seçkili və əyalət zadəganlarından və şəhərin yuxarı təbəqələrindən ibarət idi. Zemstvo yığıncağında xarici siyasət, maliyyə, vergi qoyulması və s. kimi mühüm dövlət əhəmiyyətli məsələlərə baxılırdı. Çar hakimiyyəti möhkəmləndikdən sonra Zemstvo yığıncaqları getdikcə daha az, yalnız hökumətin təşəbbüsü ilə çağırılmağa başlandı.*

## «Məclis Qanunnaməsi»nin qəbul olunması (1649)

**1649-cu ildə** Aleksey Romanovun yaxından iştirakı ilə Rusiyanın yeni qanular külliyyatı olan **«Məclis Qanunnaməsi»** qəbul olundu. Rusiyada qəbul edilmiş «Məclis Qanunnaməsi» ilə:

- ➢ **Çarın mütləq hakimiyyəti möhkəmləndirildi.**
- ➢ **Kəndlilərin təhkimçilik asılılığının rəsmiləşdirilməsi prosesi başa çatdırıldı.**
- ➢ **Zadəganların malikanələrinə mülk hüququ verilməsi təsdiq edildi.**

«Məclis Qanunnaməsi»

- Çarın mütləq hakimiyyətini möhkəmləndirdi
- Kəndlilərin təhkimçilik asılılığının rəsmiləşdirilməsi prosesi başa çatdı
- Zadəganların mülkiyyət hüququ təsdiq edildi

## XVII əsrdə Rusiyanın dövlət quruluşu

XVII əsrin ikinci yarısında Rusiyanın dövlət quruluşu aşağıdakı kimi idi:

- ➢ **Boyar duması** - ölkədə məşvərətçi orqan idi.
- ➢ **Prikaz sistemi** ən yüksək inkişaf səviyyəsinə çatdı, sayı çoxaldı və səlahiyyətləri genişləni, saray, maliyyə, hərbi, məhkəmə, vilayət və digər sahələrə bölünürdü. Lakin onlar arasında münasibətlər tam aydınlaşdırılmadığı üçün dövlətin idarə edilməsinə maneçilik törədirdilər
- ➢ İnzibati vahid **qəza** idi. Çar qəzaları idarə etmək üçün boyar və zadəganlar sırasından voyevodalar təyin edirdi. **Voyevodalar** idarə etdiyi ərazidə qoşuna və məhkəməyə başçılıq edir, vergilərin toplanmasına nəzarəti həyata keçirirdi.

- ➢ Ordunun təşkilində dəyişiklik edilmişdi. Zadəgan süvari qoşunları ilə yanaşı, nizamlı əsgər alayları (piyadalar), **reytar alayları (süvarilər)** və **draqun alayları (qarışıq qulluq)** yaradılmışdı. Bu dövrdə Xəzər dənizində donanma təşkilinə də başlanılmışdı.
- ➢ **Kilsə** dövlətə tabe etdirilmişdi.

### Ümumrusiya bazarının yaranması

**XVII əsrin əvvəllərindən** başlayaraq Rusiyanın təsərrüfat həyatında yeni əlamətlər meydana gəldi. Bu, hər şeydən əvvəl, əmtəə istehsalının - ***bazarda satmaq üçün məhsul istehsalının*** inkişafında özünü göstərirdi. Bu da natural təsərrüfatın dağılmasına səbəb olurdu. Kənd təsərrüfatı məhsullarının satışı mülkədarlara əlavə mənfəət verirdi. Buna görə də yaşayış üçün zəruri olan taxıl əmtəə xarakteri almağa başlamışdı. Lakin ***təhkimçilik asılılığı*** kəndlilərin bazarla əlaqəsinə ciddi mane olurdu.

**XVII əsrin ikinci yarısından** kənd təsərrüfatının və sənətkarlığın inkişafı, ***manufakturaların*** meydana gəlməsinə səbəb olurdu. Metal istehsalı və emalı xeyli inkişaf etmiş, çuqun və dəmir istehsal edən, mis əridən zavodlar tikilmişdi. Bu tip zavodlar əsasən **Uralda** inşa edilmişdi. Odlu və soyuq silahlar istehsal etmək üçün xüsusi manufaktura - **Moskva Silah palatası** yaradılmışdı. Bəhs olunan dövrdə **İzmaylovski** və **Voskresenski** kəndlərində ***şüşə manufakturalarının,*** **Nijni Novqorodda** və **Voloqdada** ***kətan manufakturasının***, ölkənin şimalında və Volqaboyunda duzxanaların əsası qoyulurdu. XVII əsrin sonlarında Rusiyada artıq 80-ə qədər manufaktura fəaliyyət göstərirdi. Sənaye malları təkcə şəhərlərdə deyil, kənd yerlərində də istehsal olunurdu. Oka çayı sahilindəki **Pavlovo** kəndi ***metal emalı*** sahəsində ixtisaslaşmışdı. **İvanovo** kəndinin sakinləri ***kətan parça*** istehsalı ilə məşğul olurdular.

Manufaktura istehsalının və ticarət əlaqələrinin genişlənməsi şəhərlərin inkişafına təkan verdi. Şəhərlər tədricən ölkənin sənaye-ticarət mərkəzlərinə çevrilirdilər. **Moskva, Novqorod, Yaroslavl, Kazan, Nijni Novqorod** şəhərləri xüsusi olaraq fərqlənirdilər.

**XVII əsrin ikini yarısında** Rusiyada bazarların bir-birilə əlaqəli olması ***Vahid Ümumrusiya bazarının*** yaranmasına gətirib çıxarmışdı. Çoxsaylı yerli ticarət məntəqələri - «bazarlar»la yanaşı, Ümumrusiya bazarının formalaşmasını təmin edən ***yarmarkalar*** meydana gəlirdi. Ən böyük yarmarkalar **Moskva, Arxangelsk** və **Nijni Novqorodda** fəaliyyət göstərirdi.

Daxili ticarətlə yanaşı, xarici ticarət də inkişaf edirdi. Rusiya Qərbdə İngiltərə, Hollandiya, İsveç, Reç-Pospolita, Şərqdə isə Azərbaycan, Çin, Hindistan, İran və Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələri saxlayırdı. **XVII əsrin ortalarında** Rusiyada tətbiq edilmiş **«Ticarət nizamnaməsi»**nə görə:

- ✓ **Vahid gömrük vergisi müəyyənləşdirildi**.
- ✓ **Bir çox daxili gömrük rüsumları ləğv olundu**.

Yerli tacirlərin mənafeyini nəzərə alan çar hökuməti **1667-ci ildə «Yeni ticarət nizamnaməsi»**ni qəbul etdi. «Yeni ticarət nizamnaməsi»nə əsasən:

- ✓ **Rusiya bazarlarında xarici tacirlərə pərakəndə mal satmaq qadağan edildi**.
- ✓ **Xarici tacirlər yalnız sərhəd şəhərlərində ticarət edə bilərdilər**.

Beləliklə, ***xırda əmtəə istehsalının və manufaktura sənayesinin genişlənməsi, şəhərlərin çoxalması, ticarətin inkişafı*** Rusiyada əmtəə istehsalının və pul tədavülünün gündən-günə artmasına, vilayətlər arasında əlaqələrin genişlənməsinə səbəb oldu.

### XVII əsrin ikinci yarısında Rusiyanın xarici siyasəti

**XVII əsrin ortalarında** Rusiyada ***mərkəzi hakimiyyətin möhkəmləndirilməsi*** dövlətin fəal xarici siyasət yeritməsinə imkan yaratdı. Bu dövrdə Rusiyanın xarici siyasətində üç əsas məsələ mühüm yer tuturdu:

1. **Ukrayna və Belarusiya torpaqlarını Rusiyaya birləşdirmək.**
2. **Ukrayna və Belarusiya zəbt edildikdən sonra Qara dəniz sahillərinə yiyələnmək.**
3. **Baltik dənizi sahillərinin ələ keçirmək və dənizə çıxış əldə etmək.**

**XVII əsrin ortalarında** Ukrayna və Belarusiya torpaqları **Polşa** və **Litva maqnatlarının** (Reç Pospolita dövlətinin) tərkibində idi. Ukrayına və Belorusiyada Reç-Pospolita hökmüranlığına qarşə azadlıq mübarizəsi baş verən zaman Rusiya dövləti bundan öz xeyrinə istifadə edərək **1667-ci ildə** Solsahil Ukraynası və Kiyevi özünə birləşdirdi.

Həmin dövrdə Rusiyanın ***Ukraynaya tamamilə yiyələnmək cəhdləri*** Osmanlı dövləti ilə müharibəyə səbəb oldu. Osmanlı imperiyasının ***Ukrayna uğrunda*** Rusiya ilə apardığı müharibə **1681-ci ildə Baxçasaray sülhü** ilə başa çatdı. Baxçasaray sülhünün şərtlərinə əsasən:

- ✓ **Osmanlı sultanı Solsahil Ukraynasının Rusiyaya birləşdirilməsini qəbul etdi**.
- ✓ **Sağ sahil Ukraynası Osmanlı dövlətinə verildi**.
- ✓ **Dnepr çayı iki dövlət arasında sərhəd oldu**.

Bu müharibə Osmanlı imperatorluğu ilə Rusiya çarlığı arasında baş verən ilk böyük müharibə idi.

Beləliklə, XVII əsrin ikinci yarısında Rusiya xarici siyasəti qarşısında dayanan yalnız bir məsələ - **Ukrayna və Belarusiya torpaqlarını birləşdirmək** siyasəti yerinə yetirmiş oldu.

**XVII əsrin ikinci yarısında** Rusiya ilə Çin arasında münaqişə baş verdi. Bu dövrdə Rusiyanın ***şərqdə - Amur çayı sahilində möhkəmlənmək cəhdləri*** Çinlə münasibətləri kəskinləşdirdi. **1689-cu ildə** Rusiyanın Çinlə imzaladığı **Nerçinsk müqaviləsinə** görə ***Amur çayı iki dövlət arasında sərhədə çevrildi.***




*Reç Pospolita dövlətinin (1569-1795) ərazisi*




*Nerçinsk müqaviləsinə əsasən Rusiya-Çin sərhəddi*

### I Pyortun hakimiyyətə gəlməsi (1689)

Çar Aleksey Romanovdan sonra oğlu **Fyoder Alekseyeviç** (1676-1682) hakimiyyətə gəldi. **1682-ci ildə** Fyoder Alekseyeviçin ölümündən sonra isə **I Pyotor** çar seçildi. I Pyotr azyaşlı olduğu üçün idarə işlərini faktiki olaraq bacısı **Sofiya (1682-1689)** öz əlinə aldı. Lakin bir müddət sonra I Pyotr bacısını hakimiyyətdən uzaqlaşdırmağa nail oldu. Belə ki, **1689-cu ildə** bacısına qalib gələn **I Pyotr (1689-1725)** onu monastra göndərdi və təkbaşına hakimiyyətə nail oldu.



*Fyoder Alekseyeviç*



*Sofiya*



*I Pyotr*

### Şimal müharibəsi (1700-1721)

Baltik dənizi sahillərini ələ keçirmək üçün Rusiya ilə İsveç arasında **1700-cü ildə** başlanan müharibə 21 il (**1700-1721)** davam etdi. Bu müharibə **Şimal müharibəsi** adlanır. I Pyotrun hərbi islahatları və yeni yaratdığı ordu 1721-ci ildə Rusiyaya Şimal müharibəsini uğurla başa çatdırmağa kömək etdi. **1721-ci ilin avqustunda** Fillandiyanın **Niştadt şəhərində** Rusiya ilə İsveç arasında sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə görə:

1. **Rusiya Baltik dənizinə çıxış əldə etdi.**
2. **Rusiya Baltik dənizinin sahili ərazilərinə yiyələndi.**

**Niştadt sülh bağlandıqdan sonra Senat I Pyotora imperator titulu verdi, Rusiya isə rəsmi surətdə Rusiya imperiyası adlanmağa başladı.**




**Şimal müharibəsi (1700-1721)**

### I Pyotrun islahatları

**XVII əsrin sonlarında** gərgin beynəlxalq vəziyyət, eləcə də Rusiyanın gələcək inkişafı bütün sahələrdə islahatların həyata keçirilməsini zəruri edirdi. Baltik dənizinə çıxmaq uğrunda **1700-cü ildə** İsveçlə müharibənin başlanması I Pyotru müəyyən islahatlar həyata keçirməyə vadar etdi.

- **Hərbi islahata** əsasən ordu yenidən təşkil olundu. Ordunun komplektləşdirilməsi üçün hər 20 kəndli həyətindən bir ***rekrut (əsgər)*** toplanırdı. Hərbi islahat nəticəsində ***daimi ordu və donanma yaradıldı***.
- **Dövlət idarəçilik islahatlarına** əsasən **1711-ci ildə** idarəçilik sistemini möhkəmləndirmək məqsədilə Boyar duması əvəzində **Senat** yaradıldı. Senat I Pyotrun ölkədə olmadığı müddətdə ***icra orqanı*** kimi nəzərdə tutulmuşdu. Bir müddət sonra Senat ***ali icra orqanına*** çevrildi və ***məhkəmə funksiyasını*** da həyata keçirməyə başladı. Prikazların əvəzinə isə ***12 kollegiya*** yaradıldı.

- **İnzibati islahata** əsasən Rusiya 8 ***quberniyaya*** bölündü. Quberniyalara başçılıq edən qubernator quberniyada ordu, məhkəmə və bütün idarəetmə orqanlarına başçılıq edirdi.
- **Dini islahata əsasən** I Pyotr patriarx vəzifəsini ləğv edərək kilsə işlərini dövlət idarəsi olan **Sinoda** həvalə etdi və kilsə dövlətə tabe edildi.

I Pyotrun islahatları nəticəsində ***Rusiyada ilk teatr, qəzet, dövlət kitabxanası, təbiətşünaslıq muzeyi, Elmlər Akademiyası, təqvim və əlifba yaradıldı***. I Pyotrun islahatları ölkənin yenidən qurulmasına və Avropa ölkələrindən geridə qalmasının aradan qaldırılmasına ciddi təsir göstərdi.



*Rus boyarları*



*Rusiya ordusunun əsgərləri (XVIII əsrdə)*

## Yekaterinanın hakimiyyətə gəlməsi (1762)

1725-ci ildə I Pyotr vəfat etdi. I Pyotr öləndən sonra yerinə kimin keçəcəyi haqqında vəsiyyət qoymadığı üçün onun vəfatından keçən 37 il ərzində (1725-ci ildən 1762-ci ilədək) Rusiyada beş dəfə saray çevrilişi baş verdi. Əvvəlcə I Pyotrun həyat yoldaşı I Yekaterina (1725-1727) taxta çıxdı. Ondan sonra 12 yaşlı nəvəsi II Pyotr (1727-1730) çar elan edildi. Daha sonra I Pyotrun qardaşı qızı Anna İvanova (1730-1740) və Yelizaveta Petrovna (1741-1761) hakimiyyətə gətirildi. **1762-ci ildə** saray çevrilişi nəticəsində Rusiya taxt-tacına **II Yekaterina** sahib oldu. II Yekaterinanın (1762-1796) hakimiyyəti dövründə:



*II Yekaterina*

- ✓ Rusiya imperiyasının sərhədləri qərbə və cənuba doğru daha da genişləndi.
- ✓ I Pyotrdan sonra dəyişməyən dövlət idarəçiliyində islahatlar həyata keçirildi.
- ✓ I Pyotrun Qara dənizə çıxışın təmin edilməsi siyasəti davam etdirildi.
- ✓ «Şərq məsələsi» layihəsi irəli sürüldü.
- ✓ Osmanlı dövləti ilə uğurlu müharibələr aparıldı.
- ✓ Krım xanlığı Rusiyaya birləşdirildi.

## XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasəti

XVIII əsrin ikinci yarısında Rusiyanın xarici siyasətində təcavüzkarlıq hətəkətləri daha da kəskinləşərək təhlükəli xarakter aldı. Bu dövrdə Rusiyanın manufaktura sənayesinin sürətli inkişafı onun xammala və satış bazarına ehtiyacını artırdı. Rusiya imperiyası hələ I Pyotr dövründən başlayaraq Azov, Qara və Xəzər dənizi ətrafı torpaqları ələ keçirib rus manufakturasının xammal bazarına çevirməyə çalışırdı. Məhz bu səbəbdən XVIII əsrin ikinci yarısında I Pyotrun planlarını davam etdirən Rusiya diplomatiyasının xarici siyasətində ***isti dənizlər uğrunda mübarizə*** əsas aparıcı xətt olaraq qalırdı.

Rusiyanın beynəlxalq ticarət əhəmiyyəti olan Dnepr və Volqa çayları müvafiq olaraq Qara və Xəzər dənizinə axırdı. Bu dənizlər həmin çayların beynəlxalq ticarətdə bir növ davamı idi. Bütün rus tacirləri Qara və Xəzər dənizləri vasitəsilə bir çox ölkələrlə ticarət apara bilərdilər.

Lakin XVIII əsrin ikinci yarısında Buq, Dnepr və Don çaylarının mənsəbləri istisna olmaqla Qara dənizin bütün şimal sahilləri **Osmanlı dövləti** və onun vassalı olan **Krım xanlığının** nəzarəti altında idi. Qara dəniz hövzəsi də tamamilə Osmanlı dövlətinin əlində idi. Qara dənizi özünün «daxili dənizinə» çevirən Osmanlı hökuməti burada başqa dövlətin bayrağı altında gəmilərin üzməsinə yol vermirdi. Odur ki, Rusiya və Osmanlı dövlətləri arasında **1768-ci ildə** növbəti müharibə başladı. **1770-ci ilin yayında** tərəflər arasında baş verən **Larqa** və **Kaqul döyüşlərində** rus qoşunları qələbə qazanaraq:

- ➢ **Dunayın sağ sahilini ələ kemirdi**.
- ➢ **Bessarabiya, Valaxiya və Moldova tutuldu**.

Avropa dövlətləri Rusiyanın Balkanlarda güclənməsini istəmədiyi üçün Rusiyanı Osmanl dövləti ilə müharibəni dayandırmağa və danışıqlara başlamağa məcbur etdi. **1774-cü ildə** Osmanlı dövləti ilə Rusiya arasında Bolqarıstanın **Kiçik Qaynarca** kəndində sülh bağlandı. Kiçik Qaynarca sülhünün şərtlərinə əsasən:

1. **Dnepr və Cənubi Buq çayları arasındakı ərazilər, həmçinin Kabarda Rusiyaya keçdi və Rusiyanın ticarət gəmilərinə Qara dənizdə, Bosfor və Dardanel boğazlarında sərbəst üzmək hüququ verildi**.

2. **Osmanlı sultanı Krım xanlığının müstəqilliyini tanıdı**.
3. **Osmanlı dövləti tarixdə ilk dəfə olaraq məğlub dövlət kimi təzminat ödəməli oldu**.

Kiçik Qaynarca sülh müqaviləsi ***nəticəsində:***

- ✓ Krım xanlığının taleyi ciddi təhlükə altına düşdü.
- ✓ Rusiyanın Krıma yiyələnməsi asanlaşdı.
- ✓ Qara dənizdə Osmanlı dövlətinin hökmranlığı dövrü başa çatdı.
- ✓ Osmanlı dövlətinin beynəlxalq nüfuzu zəiflədi.

Krıma yiyələnmək üçün Rusiya hökuməti **1783-cü ildə** Krım xanlığını **«Tavrida»** adı ilə ilhaq etdi. Krımın Rusiyaya ilhaq edilməsi 1787-ci ildə Osmanlı dövləti ilə Rusiya arasında yeni müharibəyə səbəb oldu. Osmanlıların Kinburn qalasına hücumu ilə başlayan müharibə Osmanlı dövləti üçün uğursuzluqla nəticələndi. **1791-ci ilin yanvarında Yassıda** Osmanlı dövləti ilə sülh bağlandı. Yassı sülhünün şərtinə görə **Osmanlı dövləti Krım barəsindəki iddialarından birdəfəlik əl çəkdi və onun Rusiya imperiyasına mənsub olmasını təsdiq etdi.** Bu müharibə nəticəsində **Osmanlı dövlətinin həm Balkanlarda, həm də Qara Dəniz və Qafqazda nüfuzu aşağı düşdü. Qələbədən ruhlanan Rusiya yeni işğallara hazırlaşdı.**

### Rusiyanın Xəzərsahili vilayətlərdə möhkəmlənmək təşəbbüsü

XVIII əsrin ikinci yarısında Cənubi Qafqaz hələ də Rusiyanın maraq dairəsində qalmaqda idi. Cənubi Qafqazda möhkəmlənmək siyasi cəhətdən də Rusiya üçün əlverişli idi. **1783-cü ildə** Krımın Rusiya tərəfindən işğalı və həmin ildə **Kartli-Kaxetiya çarlığının *Georgiyevsk müqaviləsi*** ilə Rusiyanın himayəsinə keçməsi Azərbaycana siyasi təsirini gücləndirdi və onun isti dənizlər uğrunda mübarizəsini asanlaşdırdı. Bu dövrdə Rusiya üçün Azərbaycan böyük əhəmiyyət kəsb edirdi. Belə ki:

- ✓ Müxtəlif kənd təsərrüfatı məhsulları ilə zəngin olan Azərbaycan inkişaf etməkdə olan Rusiya manufaktura sənayesi üçün əlverişli xammal mənbəyi və satış bazarı ola bilərdi.
- ✓ Azərbaycan öz coğrafi mövqeyinə görə Rusiyanın Şərq ölkələri ilə yaratmaq istədiyi iqtisadi əlaqələr üçün əsas hərbi- strateji məkan idi.

Məhz buna görə də Rusiyanın Xəzər dənizində fəaliyyətinin artması həm ticarət məsələləri baxımından, həm də hərbi-strateji nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edirdi.

Bu dövrdə Rusiyanın Azərbaycanın Xəzərsahili ərazilərində işğalçılıq məqsədini həyata keçirməsinə Qərbi Avropa dövlətlərinin, xüsusilə İngiltərənin dəstəklədiyi **Osmanlı imperiyası** ciddi maneçilik törədir, özünün daxili çətinliklərinə baxmayaraq, Rusiyanın bu regionda möhkəmlənməsinə yol verməməyə çalışırdı.

**Ağa Məhəmməd xan Qacarın** Şərqi Gürcüstana yürüşü ərəfəsində (1795) gürcü çarı **II İrakli** kömək üçün Rusiya dövlətinə müraciət etdi. Lakin Rusiya Kartli-Kaxetiya çarlığına kömək etmədi. Rusiya hakim dairələri Ağa Məhəmməd xan Qacarın Tiflisi işğal etməsinə bir növ ***«göz yumdu»*** ki, Cənubi Qafqaza ordu yeritmək üçün bəhanə qazansın. Rus imperatoru II Yekaterina yaranmış siyasi vəziyyətdə Gürcüstanı qurban verməklə Cənubi Qafqaza daxil olmaq və Xəzər dənizinin qərb sahillərini ələ keçirmək istəyirdi.

II Yekaterina qəti olaraq Azərbaycanı işğal etmək üçün güclü hərbi yürüş təşkil olunmasına sərəncam verdi. Nəhayət, II Yekaterina hökuməti **1796-cı ilin yazında** Cənubi Qafqaza və Azərbaycana yürüşə başladı. Bu yürüşdə rus qoşunlarına general **Valerian Zubov** başçılıq edirdi. Lakin **1796-cı il noyabrın 6-da *II Yekaterinanın qəflətən ölümü*** və ***Rusiyanın Qərbi Avropa ölkələri ilə münasibətlərinin mürəkkəbləşməsi*** rus qoşunlarının Cənubi Qafqazdan geri çağırılmasına səbəb oldu. Beləliklə, XVIII əsrin ikinci yarısında Rusiya imperiyasının Cənubi Qafqazı, o cümlədən Azərbaycanı işğal etmək siyasəti və isti dənizlər uğrunda mübarizəsi yarımçıq qaldı.

## Avropa və Amerika xalqlarının mədəniyyəti

### Qərbi Avropa mədəniyyəti

XVIII əsrdə Avropada manufakturaların və ticarətin inkişafı elm və mədəniyyətin inkişafına təkan verdi. XVII-XVIII əsrlərdə Avropanın tanınmış elm və incəsənət sahəsində tanınmış alimləri aşağıdakılar idi:

- İngilis alimi **İsaak Nyuton** dünya ***cazibə qanununu*** kəşf etdi və alman alimi **Q. Leybnitslə** birlikdə ***ali riyaziyyatın*** əsasını qoydu.
- Niderland alimi **A.Levenhuk** baxılan cismi ***150-300 dəfə*** böyüdən və bakteriyaları öyrənməyə imkan verən ***linza*** ixtira etdi.
- İngilis alimi **E.Cenner** türklərdən öyrəndiyi çiçək xəstəliyinə qarşı peyvəndi öz ölkəsində tətbiq etməyə başladı.
- Frazsız drammaturqu **Molyer** komediyalarında yaşadığı dövrü tənqid edirdi.
- Alman şairi, filosof və dramaturqu **Şiller** faciə əsərlərində yaşadığı dövrü tənqid edirdi.
- Alman bəstəkarı və musiqiçisi **İ.Bax mindən** artıq musiqi əsəri yaratmışdı.
- Avstriya musiqiçisi və bəstəkarı **V.Motsartın «Don Juan», «Fiqaronun toyu» operaları** yaşadığımız dövrdə də gözəl musiqi əsərləri hesab edilir.
- Fransız rəssamı **Jak Lui Davidin - «Marat», «Brut»** və digər rəsmləri indiyədək muzeydə qorunub saxlanılır.

Romadakı **Müqəddəs Pyotr kilsəsi** isə dövrün ***barokko üslubunda*** inşa edilmiş memarlıq əsərlərinin ən yaxşı nümunəsidir.

***Tarixdə ən çox öyrənilmiş 100 şəxsiyyətlər silsiləsindən***



***Nyuton (1642-1727)***

*Tanınmış ingilis alimi **İssak Nyuton** mexanika, optika, astronomiya, riyaziyyat sahələrində elmi işləri ilə dünya şöhrəti qazanmışdı. Nyutonun dövründən bəri 10-12 nəsil artıq bir-birini əvəzləsə də onun elmi əsərləri hələdə dəyərini itirməyib. XVII əsrin sonunda o, elmi kəşflərində əvvəlki iki əsrin alimləri olan Kopernik, Kepler və Qalileo Qalileyin işlərini tamamlayaraq universal sistem yarada bilmişdi. Nyuton ümumdünya cazibə qanununu kəşf etmiş, güzgülü teleskop yaratmış və optika sahəsində çox vacib təcrübələrin müəllifi olmuşdu. Təcrübələr əsasında o, ağ işığın müxtəlif rənglərə parçalanmasını sübuta yetirərək ilk dəfə olaraq işıq dalğalarının uzunluğunu ölçmüşdür. Ümüdünya cazibə qanunu ideyası Nyutona qədər də bir sıra görkəmli alimlər tərəfindən irəli sürülmüşdü. Lakin ondan əvvəl bu mövzuya toxunan alimlər Nyuton qədər heç kim cəzbetmə qanununu və planetlərin hərəkəti qanununu ( Kepler qanunu) onun qədər aydın və riyazi şəkildə izah edə bilməmişdi.*



***Leybnis (1646-1716)***

***Qotfrid Leybnits** görkəmli alman filosofu, riyaziyyatçısı və hüquqşünası, ikili say sistemi layihəsinin müəllifi olmuşdur.*
*Hüquq və fəlsəfə təhsili alan Leybnits XVII əsr Avropa siyasəti və diplomatiyasında önəmli rol oynamışdır. Eyni dərəcədə fəlsəfə və riyaziyyat elmlərinə də misilsiz töhfələr vermiş Leybnits ingilis alimi Nyutonla birlikdə Riyazi analiz elmini ixtira etmiş, faktiki olaraq müasir kompüterlərinn əsasını təşkil edən ikirəqəmli hesablama sistemini yaratmışdır. Optimistik nöqteyi-nəzərdən çıxış edən Leybnits əsərlərində yaşadığımız kainatın məhdud mənada, Allahın yarada biləcəyi ən mükəmməl məkan kimi qəbul etmişdi.*



***Levenhuk (1632-1723)***

***Antoni van Levenhuk** mikroskop konstruktoru, elmi mikroskopiyanın – mikrobiologiyanın əsasını qoymuş, öz mikroskopu vasitəsi ilə bir çox canlı materiyaların müxtəlif strukturlarını öyrənmiş holland təbiətşünası idi. Levenhuk hazırladığı linzaları metal eynəkliklərə quraşdıraraq dövrünün ən müasir mikroskopunu yaratmış və onun köməyi ilə bir sıra kəşflər etmişdi. O, Robert Hukun "Mikroqrafiya" əsərini oxuduqdan sonra, onda ətraf mühitin linza vasitəsilə öyrənilməsinə maraq yaranmış, italyan bioloq-həkimi Marçello Malpigi ilə birlikdə zooloji tədqiqatlarda mikroskodan istifadə etməyə başlamışdı. Həyatı boyu o, 150-300 dəfə böyüdücülük qabiliyyətinə malik 250 linza hazırlamışdı.*



Cenner (1749-1823)

***Edvard Cenner*** *görkəmli ingilis alimi, həkimi olmuşdur. Edvard Cennerə bir dəfə çiçək xəstəliyinə tutulanların qovuqcuğundan çiçək əleyhinə vaksin kimi istifadə edilməsinin effektli olması haqqında məlumat vermişdilər. Odur ki, Cenner çiçək xəstəliyinə yoluxmuş inəyin süd vəzisinin qovuqcuğundan maye götürüb, 8 yaşlı oğlanın əlinə dəri altına yeritmişdir. Peyvənd edildikdən 7 gün sonra oğlanda qoltuq altında ağrılar, yüngül qızdırma və baş ağrısı müşahidə edilsə də sonrakı gün həmin uşaqda xəstəlik əlamətləri müşahidə edilmədi. Beləliklə, ilk dəfə Cenner tərəfindən yüksək effektə malik vaksin yaradıldı. Bundan sonra Londonda çiçək peyvəndi məntəqələri açıldı. Edqar Cenner Londonun fəxri vətəndaşı adı aldı. Rusiyada İmperator I Aleksandrın xanımı II Elizabet bu üsulun əhali arasında geniş tətbiq edilməsi barədə göstəriş vermişdir.*



Molyer (1622-1673)

***Molyer*** *böyük Fransa komediya yazarı, Fransa və Qərbi Avropa ədəbiyyatında klassik komediya janrının banisi idi. Dünya dramaturgiyasının şah əsərləri sayılan "Tartüf", "Kişilərə ibrət dərsi", "Qadınlara ibrət dərsi", "İstəksiz nikah", "Zorən təbib", "Mizantrop" və s. komediyalarının bir çoxu Azərbaycanda da səhnəyə qoyulmuşdur. Bu komediyalarda feodal-dvoryan təbəqələri kəskin satira atəşinə tutulur. "Xəsis", "Skapenin kələkləri", "Jorj Danden və yaxud aldadılmış ər", " Don Juan və yaxud daş qonaq" və bir çox digər əsərləri onun şah əsərləridir. Aktyorluq və ədəbi yaradıcılığın vəhdəti prinsipinə axıradək sadiq qalan Molyer səhnədə xəstə halda Arqan rolunu ifa etdiyi "Zorən xəstə" komediyasının tamaşasından bir neçə saat sonra şiddətli öskürmə nəticəsində venalarının partlamasından vəfat etmişdir.*



Şiller (1759-1805)

***Fridrix fon Şiller*** *- alman şairi, filosof və dramaturqu olmuşdur. Şiller ömrünün son illərində Yohann Volfqanq Höte ilə çox məhsuldar, lakin bir qədər mürəkkəb dostluq münasibəti qurur. Bu yaradıcılıq münasibətləri iki dahi ədibin öz estetik dünya görüşlərini müzakirə və mübadilə etməsinə, Hötenin yarımçıq buraxdığı bir çox əsərlərini tamamlamasına imkan yaradır. Bu ədəbi-fəlsəfi münasibətlər sonralar alman ədəbiyyatında Veymar klassisizmi adlanacaq bir dövrün əsasını qoyur. Şiller Höte ilə birgə estetik dünya görüşlərinə düşmən kəsilmiş filosoflara cavab olaraq "Yadlar" ("Die Xenien") adlı qısa, lakin çox kəskin satirik poemalar məcmuəsini yazır.*



I.Bax (1685-1750)

***İohann Sebastyan Bax*** *- dahi alman bəstəkarı və musiqiçisi, Barokko dövrünün ən görkəmli nümayəndəsi olmuşdur. Bax mindən artıq musiqi əsəri yaratmışdır. Yaradıcılığında opera istisna olmaqla, o dövrün bütün məlum musiqi janrlarına müraciət etmiş bəstəkar intellektual zənginliyi, texniki mükəmməlik və bədii gözəlliyi ilə seçilən əsərləri ilə Barokko musiqisinin inkişafına əvəzsiz töhfələr vermişdi.*



Motsart (1756-1791)

***Volfqanq Amadey Motsart*** *dahi Avstriya bəstəkarı, Avropa klassik musiqisinin ən nüfuzlu nümayəndələrindən biri idi. Motsart bəstəkarlıqla yanaşı, eyni zamanda mahir skripkaçı və dirijor olmuşdur. Müasirlərinin dediyinə görə dahi bəstəkar qeyri-adi musiqi duyumu, eşitdiyi musiqiləri yadda saxlama və improvizə etmə kimi fenomenal qabiliyyətlərə malik idi. Yaratdığı 600-dən çox əsəri simfonik, konsert, kamera, piano, xor kimi klassik musiqi janrlarının ən yüksək zirvələrində dayanır və dünyanın ən nüfuzlu orkestrlərinin konsert repertuarlarının ayrılmaz parçasını təşkil edir.*







**Jak-Lui David (1748 -1825). «Marat» və «Brut» əsərləri.**

*Jak-Lui David Neoklassik sənət tarixinin ən əhəmiyyətli rəssamlarından biri idi. David, Fransa inqilabının aktiv bir dəstəkçisi və Fransa Respublikasının bir sənət diktatoru olmuşdur. Robespiyerin devrilməsinə görə həbsə girən David, Napoleon dövründə imperiya tərzini istifadə etmiş və Venesiya rənglərinə əhəmiyyət vermişdir. Onun «Marat», «Brut» və digər rəsmləri indiyədək muzeydə qorunub saxlanılır.*



**Müqəddəs Pyotr kilsəsi (Roma)**

*Təkrarolunmaz memarlığı ilə seçilən Müqəddəs Pyotr kilsəsi dünya əhəmiyyətli mühüm məbədlərdən biridir. Dünyanın ən böyük kilsələrindən biri olan və 60 min nəfərlik tutuma sahib kilsə Roma şəhərində yerləşir. Kilsənin adı İsa Məsihin həvarisi ilk Roma Papası sayılan Pyotrla bağlıdır. Kilsə IV əsrin əvvəlində xristianlığı qəbul etmiş Roma imperatoru Konstantinin əmri ilə inşa olunmuşdur. Burada Müqəddəs Roma İmperiyasının 23 imperatorunun tacqoyma mərasimi keçirilmişdir. Məbəd istifadə olunduğu dövr ərzində demək olar ki, tamamilə dağılmışdı. Nəticədə Papa II Yuli kilsənin yerində yenisini inşa etmək qərarına gəlmişdir. Layihənin müəllifi memar Donato Bramante olmuşdur. Əhali bu dəyişikliyə etiraz olaraq, memara "Dağıdıcı usta" adını vermişdir. İnşaat işləri yüz ilə yaxın davam etmişdir. Müxtəlif dövrdə inşaata Rafael və Mikelancelo kimi İntibah dövrünün dahi sənətkarları da rəhbərlik etmişlər. XVII əsrin əvvəllərində memar Karlo Maderno layihəni başa çatdırmışdır. Məbədin beş qapısı vardır. Sağ tərəfdə olan ən sonuncu qapı "Müqəddəs qapı" adlanır və yalnız 25 ildən bir açılır. Həmin vaxt üç dəfə səcdədən və zəng səsindən sonra ilk olaraq Papa kilsəyə daxil olur.*

## Rusiya mədəniyyəti



Denis Fonzivin
( 1745-1792)

Başqa ölkələrdə olduğu kimi, Rusiyada da baş verən siyasi və iqtisadi dəyişikliklər mədəniyyətin inkişafına öz təsirini göstərirdi. Yenidən qurulan təhsil sistemində dəqiq elmlərin tədrisinə önəm verilirdi.

**XVIII əsrin əvvəllərində** Moskvada naviqasiya, artilleriya, mühəndislik və tibb məktəbləri açıldı. **1715-ci ildə** Rusiyada **Peterburq Dəniz Akademiyası** yaradıldı.

**1725-ci ildə Peterburq Elmlər Akademiyası** fəaliyyətə başladı. Bu, rus elminin və mədəniyyətinin bu dövrdəki ən böyük nailiyyəti idi.

XVIII əsrdə yaşamış dahi alim **M.Y.Lomonosovun** Rusiya elminin inkişafında müstəsna xidməti olmuşdur. O, üzvi və fiziki kimyanın yaradıcısı, ilk kimya laboratoriyasının təşkilatçısı idi. **1755-ci ildə Moskva Universitetinin** əsasını da Lomonosov qoymuşdu.



Mixail Lomonosov
(1711- 1765)

Dövrün hadisələri tarixi əsərlərdə öz əksini tapmışdı. Bu dövrdə beşcildlik Rusiya tarixi yazılmışdı. **D.Fonvizin və N.Karamzin** dövrün tarixçiləri idilər.

Tanınmış ədib olan **A.Radişşev «Peterburqdan Moskvaya səyahət»** əsərində Rusiyadakı təhkimçilik qaydalarını çox cəsarətlə tənqid edirdi.

**1702-ci ildə Moskva teatrı** açıldı.

**V.Bajenov, M.Kazakov** məşhur memarlar, **D.Levitski və V.Borovikovski** görkəmli rəssamlar kimi tanınırdılar. V.Bajenov **Moskvada Paşkovun evini**, M.Kazakov isə **Moskva Universitetinin köhnə binasını** və **Kremldəki senatı** inşa etmişdi. Bu dövrün ən məşhur memarlıq abidələri sırasında Moskvadakı **Lefort sarayının** və Peterburqdakı **Petropavlovski kilsəsinin** adı fəxrlə çəkilir.

Bu dövrdə Rus coğrafiyaçıları **Kuril adalarını** və **Alyaska yarımadasını** kəşf etdilər.



D.Levitski (1732-1822)




*Nikolay Karamzin (1781-1826)*





*Aleksandr Radişev (1749- 1802)*



V.Borovikovski
(1757-1825)





*M.Kazakov tərəfindən tikilmiş Moskva Universitetinin köhnə binası. Əsas korpus.*

*Əsası 1755-ci ildə qoyulan Moskva Dövlət Universiteti (MDU) Rusiyanın ən böyük ali məktəbidir. Universitetin 40 fakultəsi, çox sayda xarici ölkədə filial var. Universitetdə 33 min tələbə, 5 min aspirant, doktorant, tədqiqatçı və 10 min hazırliq şöbəsinin dinləyicisi, ümumilikdə 50 min nəfərə qədər insan təhsil və elmlə məşğul olur. 1812-ci ildə Napoleonun Rusiyayaya hücumu zamanı Universitetin kitabxanası, arxivi, muzeyi, elmi təchizatı məhv oldu. Çətin vəziyyətə baxmayaraq, professor və tələbələr 1813-cü ilin 1 sentyabrında yenidən dərslərə başladılar. Zaman keçdikcə universitetin tələbələrinin sayı artdı. Odur ki, MDU-nun 36 mərtəbəli əsas korpusu inşa olundu. Tikinti vaxtı bu tikili Avropada ən hündür bina sayılırdı. Binada ilk dərslər 1 sentyabr 1953-cü ildə başlandı.*



*V.Bajenov (1738-1799) tərəfindən inşa edilmiş Paşkovun evi və  Kreml senatı  (Moskva)*



*Lefort (həmçinin Menşnikovun evi kimi tanınır) sarayı (Moskva)*



*Peterburqdakı Petropavlovski kilsəsinin müxtəlif  prizmalardan görünüşü*

### Amerika mədəniyyəti

Avropalıların Şimali Amerikada yaratdığı koloniyalar Avropa mədəniyyətini bura gətirməklə yanaşı, ona fərqli çalarlar verdi. **XVII əsrin birinci yarısında Peruda** yeni şəhərlər salındı. Kusko və Limada ispan üslubunda ***kilsələr*** tikildi. **XVII əsrin** görkəmli hindu memarı **X.T.Tuypi-Tupak** Limadakı teatr binasını tikmişdi. Ümumiyyətlə, **XVII-XVIII əsrlərdə** Meksikada memarlıq və şəhərsalma sürətlə inkişaf edirdi. Memarlıqda ***barokko üslubu*** üstün idi. **XVII əsrdə** inşa edilmiş **Milli saray** dövrün ən yaxşı memarlıq abidələrindəndir.

**XVII əsrin əvvəllərində La- Pasda** teatrın açılışı oldu.

**XVIII əsrdə** ölkənin musiqi həyatında əvvəl ispan, sonra isə italyan operaları başlıca rol oynadı. Meksikada teatr sənətinin əsasını qədim hindu dini mərasimləri təşkil edirdi. **1670-ci ildə Mexikoda** ***ilk kütləvi teatr tamaşası*** göstərildi. Sonra başqa şəhərlərdə də teatrlar fəaliyyətə başladı.

**XVIII əsrdə** tikilmiş memarlıq abidələri sırasında **Potosi kilsəsi** xüsusi diqqət çəkir.

**XVII əsrin əvvəllərində** əsası qoyulan **Harvard Universiteti** XVIII əsrin başlanğıcına qədər Amerikada yeganə ali məktəb idi.

**XVIII əsrdə** Şimali Amerikada elmin görkəmli nümayəndələrindən biri kimi tanınan məşhur siyasi xadim **Bencamin Franklin**, həmçinin elektrik sahəsinə aid bir çox tədqiqatların müəllifi idi. O, **1727-ci ildə** Filadelfiyada elm həvəskarlarının klubunu yaratmışdı.

**1751-ci ildə** ABŞ-da teatr yaradıldı və həmin əsrin ikinci yarısında milli dramaturgiya formalaşdı.





*Harvard Universiteti*

*Harvard Universiteti ABŞ-ın və dünyanın ən məşhur* universitetlərindən biridir. Universitet müstəmləkəçilərin *Amerika qitəsinə gəlişindən az sonra, 1636-cı ildə yaradılmışdı. Kollec ingilis missioneri və xeyriyyəçisi* Con *Harvardın şərəfinə onun adı ilə adlandırılıb.* Massaçusets ştatının Kembric şəhərində yerləşən universitetin *sahəsi 154 hektarlıq ərazini əhatə edir. Harvard* Universitetinin kitabxanası dünyanın *ən böyük özəl kitabxanasıdır.* Harvard Universitetinə *qəbul qaydaları çox sərtdir və qəbul olmaq üçün sənədlərini təqdim edənlərin yalnız 20%-ə qədəri* Harvard *tələbəsi adına yiyələnmək şansı qazanır.* Qəbul imtahanları *2 mərhələdə* (test və müsahibə) *aparılır.* Hesab olunur ki, *Harvardın məzunu, eyni zamanda bir neçə karyera qurmaq və hər yerdə özünü yüksək ixtisaslı* mütəxəssis kimi təqdim etmək imkanına malikdir. Harvard Universitetini çox sayda dünya şöhrətli şəxslər bitirib. Bu *universitetin məzunlarından biri də* Microsoft şirkətinin *yaradıcısı* Bill Qeytsdir. *O, Harvardın diplomunu* universiteti *2 il oxuyub yarımçıq qoyduqdan düz 32 il sonra - 2007-ci ildə alıb.* Universitetin hazırkı büdcəsi 34,9 milyard ABŞ dollarıdır ki, bu da bir çox ölkələrin büdcəsindən dəfələrlə çoxdur.



*Milli saray (Meksika)*



*Barokko üslubunda tikilmiş Potoisi kilsəsi*

# TERMİNLƏR

## - A -

| | |
|---|---|
| **Ağsaqqal** | Qədim dövrdə qəbilə icmasının başçısı. |
| **Ağsaqqallar Şurası** | E.ə VIII əsrdə Afina şəhər dövlətini idarə edən ali orqan. |
| **«Ağıllı insan»** | Təxminən 40 min il bundan əvvəl meydana gəlmiş müasir insanlara bənzər adam. |
| **Aqora** | Qədim Afinada bazar meydanı. |
| **Aqrar çevriliş** | Kənd təsərrüfatında muzdlu əməyin kütləvi şəkildə tətbiqi nəticəsində kapitalist münasibətlərinin bərqərar olması. |
| **Axeylər** | Qədim yunan tayfalarından biri. Mikena mədəniyyətinin qurucuları hesab olunur. |
| **Akropol** | Afinanın yuxarı şəhər adlanan hissəsi. |
| **Allah** | Dünyanı idarə edən fövqəladə varlıqlardan ən qüdrətlisi, islamda tək olan Allahın adı. |
| **Amfiteatr** | Qədimdə kütləvi tamaşa üçün nəzərdə tutulmuş tikili. |
| **Amfora** | İki şaquli qulpu və dar ağzı olan gil qab. |
| **Amon** | Qədim Misirdə baş allah və fironun havadarı hesab olunurdu. |
| **Antik** | (latınca "antikvitas") Qədim deməkdir |
| **Antik mədəniyyət** | Qədim yunanların və romalıların mədəniyyəti belə adlanır. |
| **Antropogen** | İnsanın ətraf mühitə təsiri nəticəsində yaranan dəyişiklik. |
| **Antropoloq** | Antropologiya ilə məşğul olan (insan skletinə əsasən onu öyrənən) alim. |
| **Anaxaqanlıq** | (matriarxat) İnsanların ana xətti ilə qohumluq əsasında birləşməsi. Üst Paleolitdən Erkən Tunc dövrünə qədər olmuş tarixi mərhələ. |
| **Arilər** | E.ə II minillikdə Hindistana və İrana köçərək orada məskunlaşan tayfalar. |
| **Arxeoloq** | Qazıntı işi aparan və maddi mənbələri öyrənən alim. |
| **Arxeologiya** | Maddi mənbələr əsasında bəşəriyyətin tarixi keçmişini öyrənən elm. |
| **Armada** | Böyük donanma deməkdir. |
| **Aristokratiya** | (yunanca "yaxşıların hakimiyyəti") Qədim Yunanıstanda adlı-sanlı adamlara verilən ad. |
| **Arşakilər** | Parfiyada hökmdar sülaləsi. E.ə. 250 - e. 224-cü illərdə hakimiyyətdə olmuşdur. |
| **Ataxaqanlıq** | (patriarxat) Təsərrüfatda, ailədə və cəmiyyətdə əsas rolun kişiyə məxsus olduğu nəsli icma qaydası. Erkən Tunc dövründə meydana gəlmişdir. |
| **Atabəy** | Səlcuq sultanlarının azyaşlı vəliəhdlərinin tərbiyəçisi və qəyyumları. |
| **Ateizm** | ("allahsızlıq") hər cür dinləri və dini təsəvvürləri inkar edən dünyagörüşü sistemi. |
| **Attika** | Orta Yunanıstanda, Afina şəhərinin yerləşdiyi tarixi vilayət. |
| **Aslanlar yuvası** | Aşşur dövlətinin paytaxtı Nineviya şəhərinə verilən ad. |
| **Aullar** | Mərkəzi Asiya xalqlarında obalara verilən ad. |
| **Aymaklar** | Ayrı-ayrı təsərrüfat özəkləri olan aullara - obalara verilən ad. |
| **Avqust** | Romada "altıncı ay". Roma imperatoru Oktavianın şərəfinə adlandırılmışdı. |

## - B -

| | |
|---|---|
| **Bac** | Sasanilər dövlətində sənətkar və tacirlərdən alınan vergi. |
| **«Bacarıqlı insan»** | Əmək alətləri hazırlaya bilən ən qədim insan. Alt Paleolit dövründə meydana gəlmişdir. |
| **Babil** | (şumer dilində "Allahın qapısı") Fərat çayının orta axarında qədim şəhər. |
| **Bahadır** | Monqollarda xan titulu daşıyan hərbi rəis, noyon. |
| **Bank** | (italyanca "skamya", "idarə stolu" deməkdir). İlk dəfə 1156-cı ildə İtaliyada, Venesiya şəhərində meydana gəlmişdir. |
| **Bambuk** | Qədim Çində yazı vasitəsi. |
| **Batır** | Qazaxlarda igid və şücaətli adamlara verilən ad. |
| **Rokoko** | XVI-XVIII əsrlərdə Avropada məşhur olan bəzəkli memarlıq üslubu. |
| **Barbarlar** | (latınca "yadellilər") Qədim romalılar antik mədəniyyətə yabançı olan bütün tayfa və xalqları "barbar" adlandırırdılar. |
| **Baskak** | Monqol və Qızıl Ordu dövlətlərində xanın işğal edilmiş ərazilərindəki xüsusi nümayəndəsi olub məhsul və pul vergilərini toplayırdılar. |

| | |
|---|---|
| **Bədəvi** | (ərəbcə "çöllülər") Ərəbistan yarımadasının şimalında yaşayan köçəri ərəblər, səhra adamı. |
| **Bəngüdaşlar** | Göytürklərdə xaqanların şərəfinə qoyulan daş heykəllər. |
| **Bidətçi** | Dönük, mövcud kilsə təliminə qarşı çıxan, kafir. |
| **Bizans** | Şərqi Roma imperiyası. |
| **I ictimai əmək bölgüsü** | Maldarlığın əkinçilikdən ayrılması. |
| **Bill** | (ingiliscə) "qanun", "qanun layihəsi" deməkdir. |
| **Biy** | Qazaxlarda ayrı-ayrı tayfalardan ibarət aulun başçısı. |
| **Biyar** | Kəndlinin feodal və ya dövlətin nəfinə onların təsərrüfatında pulsuz işləməsi. |
| **Boqdıxan** | Çində Mancur sülaləsindən olan hökmdarlara verilən ad. |
| **Boyar** | Rus cəmiyyətində yüksək zümrə. |
| **Böyük Çin səddi** | Çinin şimalında qala divarı. E.ə. 214-cü ildə imperator Sin Şixuandinin əmri ilə, hun tayfalarının şimaldan hücumlarından qorunmaq məqsədi ilə ucaldılmışdı. |
| **Böyük İpək yolu** | Mərkəzi və Ön Asiyaya Çindən gələn karvan yolu. E.ə. II əsrdə Çində Xan sülaləsinin hakimiyyəti dövründə salınmışdır. |
| **Böyük yasa** | Monqol dövlətində qanunlar məcəlləsi. |
| **Brahma** | Qədim hindlilərdə baş allah, kainatın yaradıcısı. |
| **Brahmanlar** | Qədim Hindistanda kahinlər kastası. |
| **Brümer** | (fransızca) duman deməkdir. Fransa burjua inqilabı dövründə istifadə edilən təqvimdə 2-ci ayın adıdır. |
| **Buddizm** | Dünyanın bütün ölkələrində davamçıları olan üç dünyəvi dindən biri. E.ə. VI əsrdə Hindistanda meydana gəlmişdir. |
| **Burjuaziya** | (fransızca) kapitalist cəmiyyətində istehsal alət və vasitələrinin sahibi olan və muzdlu əməyi istismar etməklə kapitalist gəliri əldə edən hakim sinif, azad bazar münasibətlərinə əsaslanan cəmiyyətdə sahibkarlar zümrəsi. |

## - C -

| | |
|---|---|
| **Cagir** | Böyük Moğol imperiyasında şərti torpaq mülkiyyət forması. |
| **Canişin** | Şərqdə və Qədim Romada vilayət başçıları. |
| **Cəng arabası** | Atlara qoşulmuş ikitəkərli yüngül araba. Qədim Şərqdə meydana gəlmişdi. |
| **Cəngavər** | Qərbi Avropada atlı döyüşçü. |
| **Cihad** | İslam dininə əsasən vətənin istiqlaliyyətini qorumaq üçün aparılan müqəddəs müharibə. |
| **Cizyə** | Xilafətdə müsəlman olmayanlardan, əsasən xristianlardan alınan can vergisi. |

## - Ç -

| | |
|---|---|
| **Çar** | (latınca "sezar") 1547-1721-ci illərdə Rusiyada dövlət başçısının daşıdığı rəsmi titulu. |
| **Çati** | Qədim Misirdə fironun ən yaxın köməkçisi. |
| **Çek sistemi** | Qiymətli kağızların tətbiqi sistemi. |

## - D -

| | |
|---|---|
| **«Daxmalı qullar»** | Qədim Romada quldarların xırda torpaq sahəsi, əmək alətləri verdikləri və daxma tikib, ailə qurmalarına icazə verdikləri qullar. |
| **Damba** | Misirdə doğranmış qamışla qarışıq gildən aşırım şəklində tökülmüş torpaq bənd. |
| **Danışan alət** | Qədim Romada qullara verilən ad. |
| **Dastakert** | (farsca) Sasani imperiyasında feodalın şəxsi mülkiyyətində olan və irsən keçən torpaq mülkiyyəti. |
| **Daosizm** | Çində dini-fəlsəfi nəzəriyyə. |
| **Dehqan** | Sasanilər dövlətində xırda və orta feodallara verilən ad. |
| **Demetra** | Qədim yunan mifologiyasında məhsuldarlıq və əkinçilik ilahəsi. |

| | |
|---|---|
| **Demokratiya** | (yunanca "demosun hakimiyyəti") Hakimiyyətin xalqa mənsub olduğu dövlət formalarından biri. |
| **Demos** | Qədim Afinada Attikanın aristokratlardan başqa bütün azad əhalisi. |
| **«Dəniz kraliçası»** | Orta əsrlər dövründə İtaliya şəhər respublikası olan Venesiya şəhərinə verilən ad. |
| **Din** | İnsanın fövqəltəbii varlıqlara (allahlara, ruhlara və s.) inamına əsaslanan dünyanı dərketmə halı, onun ətraf gerçəkliyə baxışı, müvafiq davranış və fəaliyyəti. |
| **Diggerlər** | (ingiliscə "yerqazan deməkdir") İngiltərədə kənd yoxsulları arasında yayılmış dinc hərəkat. |
| **Dorilər** | Qədim yunan tayfalarından biri. İlk vaxtlar Şimali Yunanıstan vilayətlərində məskunlaşmışdılar. |
| **Drujina** | Tayfanın hərbi başçısının, sonralar isə knyazın, kralın yanında daimi silahlı dəstə. |
| **Dumanlı Albion** | İqliminə görə Britaniya adalarına qədimdə verilən ad. |
| **Durğunluq** | Osmanlı dövlətində ictimai həyatda, mədəniyyətdə, təsərrüfatda inkişafsızlıq, hərəkətsizlik. |
| **Divan** | Bir çox Şərq ölkələrində (Xilafətdə, Oğuz, Qızıl Ordu, Osmanlı və.s), hökmdarlarının yanında fəaliyyət göstərən və ali məsləhət şurası rolunu oynayan dövlət orqanı. |
| **Divan ( xan şurası)** | Bir sıra xanlıqlarda, xanın yanında məşvərətçi səslə fəaliyyət göstərən və bəzən xanın çıxardığı qərara təsir göstərə bilən orqan. |
| **Divan torpaqları** | Dövlətə məxsus olub, gəliri birbaşa xəzinəyə daxil olan torpaqlar. |
| **Dövlət** | Nəsli icmanın dağılması və siniflərin meydana gəlməsi ilə yaranmışdı. İlk dövlətlər e.ə. IV -III minilliklərdə Misirdə və Mesopotamiyada meydana gəlmişdi. |
| **Dövlət torpaqları** | Feodal torpaq mülkiyyətinin əsas forması olub divan torpaqları və ya sultan (xəlifə) torpaqlarına deyilirdi. |
| **Dulusçuluq** | Gildən saxsı qablar hazırlanan sənət sahəsi. İlk dəfə Neolit dövründə meydana gəlmişdir. |

## - E -

| | |
|---|---|
| **Ellada** | Yunanların Qədim Yunanıstanın özündə, Egey dənizi adalarında və Kiçik Asiya sahillərində məskunlaşdıqları ərazilərə verdikləri ad. |
| **Ellinlər** | Yad ölkələrdə məskunlaşmış, amma eyni dildə danışan, eyni yazıdan istifadə edən, eyni allahlara etiqad edən və özünü vahid xalq hesab edən bütün qədim yunanların özlərinə verdikləri ümumi ad. |
| **Ellinizm** | Makedoniyalı İsgəndərin Şərqə yürüşü nəticəsində yaranmış mədəniyyət. Qədim Şərq və yunan mədəniyyətinin ənənələrinin qovuşması nəticəsində yaranmışdı. |
| **Elxan** | Elxanilər dövlətinin hökmdarlarının daşıdığı titul. |
| **Enolit** | Mis-Daş dövrü. E.ə VI minillkdən IV minilliyin ikinci yarısınadək davam etmişdi. |
| **Ensi, en** | Şumerlərdə şəhər hakimi. |
| **Etnoqrafiya** | Müxtəlif xalqların həyatını öyrənən elm. |
| **Etrusklar** | E.ə. I minillikdə Apennin yarımadasının şimal-qərbində məskunlaşmış İtaliyanın ən inkişaf etmiş tayfası. |

## - Ə -

| | |
|---|---|
| **«Əbədi qızıl şəhər»** | Qədim Roma şəhərinə verilən ad. |
| **Əlifba** | Bir işarənin bir səs bildirdiyi yazı sistemi. İlk dəfə e.ə. XIII əsrdə finikiyalılar tərəfindən yaradılmışdır. 22 samit ibarət olan Finikiya əlifbası sonralar yunanlar tərəfindən təkmilləşdirilmişdi. |
| **Əmək alətləri** | Müəyyən məhsulun istehsah üçün insan tərəfindən istifadə oluna vəsait. |
| **Əmək məhsuldarlığı** | Müəyyən zaman müddətində insanın görmüş olduğu işin həcmi. |
| **Əmir** | Ərəb xilafəti dövründə vilayət canişini, sonralar Şərqin müsəlman ölkələrində sərkərdə, hakim, rəis, dövlət başçısı. |
| **Əmirlik** | Şərqin müsəlman ölkələrində əmir tərəfindən idarə olunan feodal mülkiyyəti, dövlət. |
| **Əmtəə** | Satış məqsədilə bazar üçün istehsal olunan məhsul. |
| **Əndəlus** | İspaniyanın cənubunda tarixi vilayət. Ərəblərin müsəlman İspaniyayasına verdikləri ad. |

| | |
|---|---|
| **Əsr** | Təqvim hesablanmasında 100 təqvim ili |
| **Əyan** | Hökmdara yaxın daha mötəbər, varlı və məsul vəzifə tutan adam. |

## - F -

| | |
|---|---|
| **Faktoriya** | Avropa tacirlərinin müstəmləkə ölkələrində ticarət kontoru və yaşadıqları yer. |
| **Falanqa** | Spartalılar tərəfindən yaradılmış qoşun növü. |
| **Fərman** | Şərq ölkələrində dövlət başçısı tərəfindən verilən rəsmi sərəncam. |
| **Feod** | Avropada orta əsrlərdə senyorun vassala xidmət müqvilində (hərbi, idarəçilik, məhkəmə və s.) verilən torpaq mülkiyyət forması. |
| **Feodalizm** | Əsas işçi qüvvəsinin əksəriyyətini təhkimli kəndlilər təşkil edən dövr. |
| **Feodal nərdivanı** | Erkən orta əsrlər dövründə Qərbi Avropada feodallar arasında münasibətlərin təşkilat forması. |
| **Feodal pərakəndəliyi** | Feodalların hakimiyyətinin natural təsərrüfatın ağalığı dövründə möhkəmlənməsi. |
| **Finikiyalılar** | Qədimdə Aralıq dənizinin şərq sahillərində məskunlaşmış xalq. |
| **Firon** | Qədim Misirdə hökmdara verilən ad. Misirdə fironu “Günəş oğlu” adlandırırdılar. |
| **Forum** | Romanın mərkəzində bazar meydanı. |
| **Freska** | Qurumamış suvaq üzərində boyalarla çəkilmiş rəngkarlıq əsəri. |

## - G -

| | |
|---|---|
| **Gezit** | (farsca) Can vergisi. Sasanilər dövründə mövcud olmuşdur. |
| **Gilyotin** | Başı bədəndən ayıran edam maşını. |
| **Girdəbaşlar** | İngiltərədə vətəndaş müharibəsi (1640-1646) dövründə parlament tərəfdarları. |
| **Gizli şura** | XVI əsrdə Niderlandı İspaniya kralının canişini yanında idarə edən orqan. |
| **Güclü ailələr** | Erkən orta əsrlərdə Çində iri torpaq sahibləri. |
| **Gözlər** | (hollandca “yoxsullar”, “dilənçilər”) Niderland burjua inqilabı dövründə ispanlara qarşı suda və quruda mübarizə aparan partizanlara verilən ad. |
| **Gülərgin** | Oğuz dövlətində hökmdarın vəkili sayılırdı. |

## - H -

| | |
|---|---|
| **Harpun** | Balıq ovlamaq üçün sümükdən düzəldilmiş ucu iti ov aləti. |
| **Heroqlif** | E.ə. IV minillikdə meydana gələn, bir söz və ya heca bildirən yazı sistemi. |
| **Hersoq** | Qədim germanlarda qəbilə və tayfa başçısı. |
| **Heraldika** | Gerblərin öyrənilməsi ilə məşğul olan elm. |
| **Hermes** | Qədim yunan mifologiyasında ticarət allahı. |
| **Hərbi demokratiya** | İbtidai icma cəmiyyətinin inkişafının nəsli icmanın dağılması və onun qonşuluq icması ilə əvəz olunan son mərhələsi. |
| **Hicrət** | (ərəbcə “köçmək”, “ayrılmaq”) Məhəmməd Peyğəmbərin 622-ci ildə Məkkədən Mədinəyə köçməsi. |
| **Homo sapiyens** | “Ağıllı adam” mənasını verir. Üst Paleolit dövründə formalaşan müasir insana tipi. |
| **Hüquqi dövlət** | Vətəndaşların hüquq və azadlıqlarının təmin edildiyi və müdafiə olunduğu dövlət. |

## - X -

| | |
|---|---|
| **Xalq** | Bir ölkənin, dövlətin bütün əhalisi. |
| **Xaraq** | Sasanilər dövründə məhsulun 1/3-dən yarısına qədərini təşkil edən torpaq vergisi. |
| **Xaqan** | Qədim türk xalqlarında (avarlarda, peçeneqlərdə, xəzərlərdə) dövlət başçısı. |
| **Xaqanlıq** | Xaqanın başçılıq etdiyi qədim və orta əsrlərdə türk dövlətləri. |
| **Xalq yığıncağı** | Nəsil və qəbilədə bütün yetkin kişilərin – döyüşçülərin yığıncağı. |

**Xalq tribunu** — Qədim Romada plebeylərin hüquqlarını müdafiə etmək üçün onlar arasından seçilən vəzifəli şəxslər.

**Xalqların böyük köçü** — Hunların və digər xalqların qərbə axını. Hun tayfalarının qərbə doğru hərəkətiylə başlamışdı.

**Xarəzm** — Orta Asiyada tarixi-coğrafi və Xarəzmşahlar dövlətinin yerləşdiyi ərazi.

**Xassə (xalisə)** — Orta əsrlərdə Şərq ölkələrində və Azərbaycanda hökmda məxsus şəxsi torpaq mülkiyyəti.

**Xəlifə** — Ərəbcə "müavin", "varis", "xələf" anlamını verir. Məhəmməd peyğəmbərin (s.ə.s.) vəfatından sonra Ərəb dövlətini idarə edən hökmdar.

**Xərac** — (ərəbcə) Orta əsrlərdə İslam ölkələrində müsəlman əhalidən alınan əsas torpaq vergisi.

**Xilafət** — Ərəblərdə xəlifənin başçılıq etdiyi feodal dövləti.

**Xış** — Bir cüt öküz qoşulan, ucluğu olan və iki nəfər tərəfindən idarə olunan şum aləti.

**Xış əkinçiliyi** — Əsas əmək alətinin xış (kotan) olduğu əkinçilik növü. Erkən Tunc dövründə yaranmışdır.

**Xristianlıq** — Dünyanın bütün ölkələrində davamçıları olan üç dünyəvi dindən (islam və buddizmlə yanaşı) biri. Xristianlıq eramızın I əsrində Roma imperiyasının şərqi əyalətlərindən biri olan Fələstində meydana gəlmişdi.

**Xronologiya** — Zaman haqqında elm, müxtəlif xalqlar tərəfindən vaxtın ölçülməsi üsullarını öyrənir.

**Xostak** — (farsca) Sasani imperiyasında xidməti əvəzində dövlət tərəfindən müvəqqəti istifadə üçün verilən şərti torpaq mülkiyyəti.

**Xüms** — (ərəbcə "beşdə bir") Müxtəlif gəlirlərdən 1/5 ölçüdə ödənilən vergi.

## - İ -

**İbtidai icma cəmiyyəti** — Bəşər cəmiyyətinin ilkin inkişaf dövrü. İlk insan tipinin yaranmasından dövlətin yaranmasınadək mövcud olmuşdur.

**İcma** — İnsanların kollektiv mülkiyyət əsasında istehsal vasitələrinə, digər əmlaka, eləcə də tam və ya qismən özünüidarəyə malik birlikləri.

**İcma kəndliləri** — Qonşuluq icmasının üzvləri.

**İcma torpaqları** — Xilafətdə kəndlilərə məxsus torpaqlar (əkin yerləri, biçənəklər, otlaqlar və.s).

**İcarədar** — Hər hansı bir əmlakı icarəyə götürən adam.

**İcarə** — Torpaq və digər əmlak kirayəsi.

**İctimai əmək bölgüsü** — Yalnız müəyyən bir peşə ilə məşğul olmaq.

**İdxal** — Daxili bazarda satmaq üçün başqa ölkələrdən əmtəə gətirilməsi.

**İxrac** — Əmtəələrin xarici bazarda satılması üçün ölkədən xaricə aparılması.

**İqta** — Xilafətdə hərbi və mülki xidmət müqabilində feodallara verilən şərti torpaq mülkiyyəti.

**II ictimai əmək bölgüsü** — Sənətkarlığın əkinçilikdən və maldarlıqdan ayrılması. E.ə III minilliyin sonu - II minilliyin əvvəllərində, Orta Tunc dövründə baş vermişdir.

**İlotlar (hilot)** — Qədim Spartanın dorilər tərəfindən tabe edilmiş yerli əhalisi. Spartalılar tərəfindən qullara verilən ad.

**İmperator** — (latınca ""hökmdar") Qədim Romada "Tam hakimiyyətə malik olan" şəxs.

**İmperiya** — Başçısı imperator olan monarxiya dövləti.

**İnkvizisiya** — Roma papası tərəfindən Orta əsrlər dövründə yaradılan kilsə məhkəməsi.

**İnqilab** — Dövlətin və cəmiyyətin həyatında hakimiyyət strukturlarının, bütün siyasi sistemin kökündən və tamamilə dəyişdirilməsidir.

**İntibah** — (ərəbcə "oyanma", fransızca "dirçəliş") Mərkəzi və Qərbi Avropa ölkələrində ideya, mədəni və elmi inkişaf dövrü, orta əsrlər mədəniyyət və elmindən yeni dövr mədəniyyət və elminə keçid.

**İncil** — (yunanca "yevangeliye" – "müjdə", "xoş xəbər") Bibliyanın eramızın I - II əsrlərində tərtib olunmuş bir hissəsi. Xristianlıq dininin müqəddəs kitabı.

**İrsi hakimiyyət** — Hakimiyyətin atadan oğula, yaxud yaxın qohuma keçməsi.

**İndulgensiya** — Günahların bağışlanması məqsədi ilə kilsə tərəfindən satılan pullu sənəd, "cənnət qəbzi".

**İonik** — Yuxarısında qoç buynuzuna bənzər qıvrım naxışlar olan sütun.

**İslam** — Dünyanın bütün ölkələrində davamçıları olan üç dünyəvi dindən biri. Dinin ərəbcə adı - əl-islam "özünü Allaha tabe etmək", "itaət etmək" mənasını verir.

**İslam mədəniyyəti** — Ərəblərlə birlikdə Xilafətə daxil olan ölkələrin yaratdıqları ortaq mədəniyyət.

| | |
|---|---|
| **İstehsal təsərrüfatı** | İnsanların təbiətin yaratdığı məhsulları təkrar istehsal etməsi, onların əkinçilik və maldarlıqla məşğul olması. |
| **İslahat** | Mövcud sosial quruluşun, ictimai həyatın bu və digər tərəfinin dəyişdirilməsi, yenidən qurulması. |
| **İşğal** | Hərbi qüvvələr vasitəsilə bir dövlətin və ya dövlətlərin digər dövlətin ərazisini tutması. |

## - J -

| | |
|---|---|
| **Jak** | (fransızca) kəndli deməkdir. |
| **Jirondistlər** | Böyük Fransa burjua inqilabı dövründə respublikanın ticarət, sənaye və torpaq sahibliyi burjuaziyasını təmsil edən siyasi qrup. |
| **Juz** | (qazaxça, hissə, tərəf) Qazax xanlığına daxil olan tayfa birliklərinin ərazisi. |

## - K -

| | |
|---|---|
| **Kalvinizm** | Protestantlıqda cərəyan. Reformasiya dövründə İsveçrənin Cenevrə şəhərində yaradılmışdı. |
| **Kapital** | İlkin başlanğıcda gəlir gətirən istənilən əmlak. |
| **Kapitulyasiya** | Xarici təbəələrə dövlətin öz vətəndaşlarından daha artıq imtiyazlar verən qeyri-bərabər müqavilə. |
| **Karfagen** | Afrikanın Aralıq dənizi sahilində finikiyalılar tərəfindən salınan ən iri koloniya. |
| **Katolik kilsəsi** | (“umumdünya kilsasi”) 1054-cü ildə kilsənin parçalanması nəticəsində yaranmışdı. |
| **Kasta** | Qədim dövrdə Hindistanında hüquq və vəzifələri qəti müəyyənləşdirilmiş insan qrupu. |
| **Kavalerlər** | İngiltərədə vətəndaş müharibəsi dövründə (1642-1646) kral tərəfdarları. |
| **Kəbə** | İslamın Məkkədə daşdan tikilmiş kubşəkilli baş ziyarətgahı. |
| **Kiçiklər** | Qədim Misirdə icma üzvü olan əkinçilər və maldarlar. |
| **Klassizm** | Ən nümunəvi deməkdir. |
| **Kral** | Krallığın dövlət başçısı, imperatordan sonra ali monarxiya titulu. |
| **Kommuna** | Qərbi Avropada şəhərlilərin senyorlara qarşı mübarizə ittifaqı. |
| **Koalisiya** | İttifaq, birləşmə deməkdir. |
| **Kolizey** | Eramızın I əsrində Romada inşa edilmiş və günümüzə qədər gəlib çatan amfiteatrdı. |
| **Kolonlar** | Torpaq sahibinə icarə haqqı ödəyən azad icarədar kəndlilər. |
| **Koloniya** | Bir xalqın yad ərazidə saldığı daimi yaşayış məskəni. |
| **Komediya** | (yunanca “şən sakinlər mahnısı”) Qədim Yunanıstanda gülməli səhnələr. |
| **Kompas** | Quruda və dənizdə cəhətləri müəyyənləşdirmək üçün cihaz. |
| **Konsul** | (latınca “müşavir”) Respublika dövründə Qədim Romanı bir il idarə edən, müharibə vaxtı isə orduya komandanlıq edən şəxs. |
| **Kordova xilafəti** | Pireney yarımadasında, paytaxtı Kordova şəhəri olan müsəlman dövləti. |
| **Kurqan** | (türkcə “torpaq təpə”) Məzarın üzərinə torpaq tökülməsi nəticəsində əmələ gəlmiş təpə. |

## - Q -

| | |
|---|---|
| **Qalxan pulu** | XII-XIV əsrlərdə İngiltərədə II Henrixin keçirdiyi islahatlara əsasən əvvəllər kralın hərbi yürüşlərində iştirak etməyə məcbur olan cəngavərlər tərəfindən məcburi hərbi xidmətdən azad edilmək məqsədi ilə verilən ödəniş. |
| **«Qanlı şura»** | (“qiyam işlərinə baxan şura”) İspan kralı tərəfindən Niderland burjua inqilabını yatırmaq məqsədi ilə göndərilən hersoq Albanın Niderlandda yaratdığı fövqaladə məhkəmə. |
| **Qəza** | Rusiyada yerli inzibati-ərazi vahidi, quberniyanın tərkib hissəsi. Çar qəzaları idarə etmək üçün boyar və zadəganlar sırasından voyevodalar təyin edirdi. |
| **Qəbilə icması** | Nəsli qəbilə. Qan qohumluğuna əsaslanan insan kollektivi. |
| **Qırmızıqaşlılar** | Yoxsul kəndlilərin və qulların Çində eramızın I əsrində baş vermiş üsyanı. |
| **Qızıl körpü** | Erkən orta əsrlərdə Bizansın paytaxtı Konstantinopol şəhərinə verilən ad. |
| **Qiyam** | Bir qrup qəsdçinin dövlət çevrilişi etmək cəhdi. |

| | |
|---|---|
| **Qladiator** | Güclü, çevik, bir-biri ilə vuruşmağa məcbur edilən qullara deyilirdi. |
| **Qraf** | Frank dövlətində vilayət hakimi. |
| **Qul** | Əmlakı olmayan, şəxsi cəhətdən quldardan asılı olan insan. |
| **Quldar** | Qulları olan adam, qul sahibləri. |
| **Quran** | (ərəbcə "ucadan əzbər oxumaq") Müsəlmanların müqəddəs kitabı. |
| **Qurultay** | Türklərdə hakim nəsldən olan əsilzadələrin ali yığıncağı. |
| Qvardiya | İmtiyazlı seçmə qoşun hissəsi. |

## - L -

| | |
|---|---|
| **Lakonika** | Qədim Yunanıstanda, Peloponnes yarımadasının cənub-şərqində tarixi vilayət. |
| **Latınlar** | Romanın qədim tayfalarından biri. Onların dili bütün İtaliyanın ümumi dilinə çevrilmişdi. |
| **Lalə dövrü** | Osmanlı imperiyasında Sultan III Əhmədin (1703-1730) hakimiyyəti illərində baş vəzir İbrahim paşanın həyata keçirdiyi islahatlar dövrü. |
| **Legion** | Qədim Romada əsgəri birləşmə. Roma ordusunun hərbi quruluşu. |
| **Levellerlər** | (ingiliscə "bərabərçilər") İngiltərə burjua inqilabı dövründə sənətkarlar və yeni tipli ordunun əsgərələri arasında yayılmış dinc hərakat. |
| **Liberal** | Azadlıq tərəfdarı, azadfikirli, güzəştə gedən insan. |
| **Lord-protektor** | (latınca) müdafiəçi, hami deməkdir. |

## - M -

| | |
|---|---|
| **Manufaktura** | (latınca "əl ilə düzəldilmiş") Əl əməyindən istifadə edilən və işçilər arasında müxtəlif ixtisaslar üzrə əmək bölgüsünün olduğu ilk kapitalist müəssisəsi. |
| **Mavəraənnəhr** | Dəniz arxası deməkdir. Orta əsrlərdə qərbdə Aral gölü, cənubda Amudərya, şimalda Sırdərya, şərqdə Fərqanə vadisi ilə əhatə olunan tarixi vilayət. |
| **Mesopotamiya** | (yunanca "İkiçayarası") Dəclə və Fərat çaylarının orta və aşağı axarlarında yerləşən tarixi vilayət. |
| **Mezolit** | Orta Daş dövrü. E.ə XII minillikdən - VII minilliyədək davam etmişdi. |
| **Mərzban** | Sasanilər dövründə vilayətlərə başçılıq edən canişin, "sərhəd qoruyucusu". |
| **Məhdud monarxiya** | Burada kral çarlıq edir, lakin hökmüranlıq etmir. |
| **Məhsuldar qüvvələr** | Əmək alətləri, torpaq, yeraltı sərvətlər, insanlar və.s. nəzərdə tutulur. |
| **Məğlubedilməz armada** | İspaniyanın İngiltərəni fəth etmək məqsədi ilə 1586-1588-ci illərdə yaratdığı 130 yelkənli gəmidən və 20 min döyüşçüdən ibarət iri hərbi donanması. |
| **Məkik** | İplik sarınan uzunsov oval qutu və ya qəlib şəklində alət. |
| **Mərkəzləşmiş dövlət** | Güclü hökmdar hakimiyyətinə malik olan vahid dövlət. |
| **Mixi yazı** | E.ə. III minillikdə Ön Asiyada yaranmış qədim yazı sistemi. |
| **Mikena mədəniyyəti** | Yunanıstanda, Peloponnes vilayətində e.ə. II minilliyə aid arxeoloqlar tərəfindən aşkar edilmiş mədəniyyət. |
| **«Milli Şura»** | Hollandiya burjua inqilabından sonra dövləti idarə edən, burjuaziya və əyanlardan ibarət dövlət orqanı. |
| **Miniatür** | Latınca "minimum" sözündəndir. Qədim əlyazmalarda və kitablarda rəngli illustrasiyalar. |
| **Monarx** | Bir qayda olaraq hakimiyyəti irsən alan dövlətin təkhakimiyyətli başçısı. |
| **Monarxiya** | (yunanca "birinin hakimiyyəti") Ali dövlət hakimiyyətinin dövlətin təkbaşına başçısının - irsi monarxın əlində (tam və ya qismən) cəmlənmiş idarəçilik forması. |
| **Monoteizm** | (yunanca "təkallahlıq") Tək Allah təsəvvürünə əsaslanan din. |
| **Mozaika** | Müxtəlif rəngli xırda daşlar və şəffaf olmayan rəngli şüşə qırıntılarından ibarət rəsm. |
| **Mübadilə** | Hər hansı məmulatı və ya məhsulu digəri ilə dəyişmək. |
| **Müstəmləkə** | Müstəqilliyini itirmiş, işğalçılardan asılı vəziyyətə düşmüş ölkə. |
| **Müdaxilə** | Bir və ya bir neçə dövlətin digər dövlətin işlərinə qarışması. |
| **Mühafizəkar** | Köhnəlik tərəfdarı deməkdir. |
| **Mükəlləfiyyət** | Ərəbcə "hər hansı bir işi yerinə yetirmək öhdəliyi". |
| **Mülk** | Xilafətdə yerli feodalların mülkiyyətində olan irsi torpaqlar. |
| **Mülkədar** | İri torpaq və mülk sahibi. |

## - N -

**Natural təsərrüfat** — İstehsal olunmuş məhsulun satış üçün deyil, şəxsi istifadə üçün nəzərdə tutulduğu təsərrüfat növü.

**Neolit** — Yeni Daş dövrü. Yunan sözü olub "neos"-yeni, "litos"-daş deməkdir. E.ə VII minilliyi əhatə edir.

**«Nizami-cədid»** — "Yeni qayda" deməkdir. Sultan III Səlimin (1789-1807) islahatlarına verilən ad.

**Nom** — (yunanca) Vilayət deməkdir. Qədim Misirdə şəhər dövlətlər.

**Noyon** — Orta əsrlərdə monqol ordusunda yüksək mənsəbli hərbi rəis, sonralar - dünyəvi feodal.

**Numizmatika** — Zərbxana və pul dövriyyəsini öyrənən elm.

## - O -

**Orden** — Orta əsrlərdə rahib təşkilatları.

**Ordular** — Monqollarda qəbilə quruluşunun dağılmasından sonra yaranan birləşmələr.

**Osiris** — Qədim Misir mifologiyasında ölən və dirilən təbiət allahı.

**Ovçuluq** — Ən qədim insanların ilk məşğuliyyətlərindən biri. Mezolit dövründə insanların əsas, Enolit dövründə ikinci dərəcəli, Orta Tunc dövründə isə köməkçi məşğuliyyət sahəsinə çevrilmişdi.

## - Ö -

**Ödənc** — Əsirlikdən azadolma və ya əmlakın geriyə qaytarılması üçün verilən ödənc.

**Özünütəcrid siyasəti** — XVI əsrin əvvəllərində Yaponiyanın və XVIII əsrin ortalarında Çinin yeritdiyi daxili və xarici siyasət. Bu siyasətə əsasən Avropa müstəmləkəçiləri ölkədən qovuldu, avropalıların ölkəyə girişi qadağan olundu, ölkə xarici aləmdən təcrid olunurdu.

## - P -

**Paleolit** — (yunanca "palayos" - qədim, "litos" - daş deməkdir) Qədim daş dövrü. 1,5 milyon il bundan əvvəl başlamış, e.ə XII minilliyədək davam etmişdi.

**Patrik** — Sasanilər dövründə iri feodallar.

**Panteon** — Eramızın II əsrin əvvəllərində Qədim Romada inşa edilmiş "bütün allahların məbədi".

**Parlament** — (fransızca "danışmaq" deməkdir) Qanunverici orqan.

**Parlamentli monarxiya** — Dövlətin başında monarxın durduğu, eyni zamanda, parlamentin mövcud olduğu dövlət hakimiyyəti forması.

**Papirus** — Qamış tipli bataqlıq bitkisi. Qədim Misirdə yazı materialı kimi istifadə edirdilər.

**Paşa** — Osmanlı imperiyasında yüksək mülki və hərbi mənsəb sahiblərinin daşıdığı titul.

**Patrisilər** — (latınca "pater" – "ata" deməkdir) Romanın ən qədim sakinlərinin övladları.

**Perqament** — Aşılanmış buzov və ya quzu dərisi.

**Piramida (ehram)** — Qədim Misirdə firon və əyanların monumental sərdabəsi.

**Poseydon** — Yunan mifologiyasında allah, dəniz hökmdarı, Zevsin qardaşı.

**«Prayd təmizləməsi»** — 1648-ci ildə parlament ordusunun polkovniki Praydın öz dəstəsi ilə parlamentin girişini tutaraq mötədil deputatları parlamentə buraxmaması hadisəsi.

**Pravoslav kilsəsi** — (yunanca "həqiqi, doğru din") 1054-cü ildə katolik kilsəsinin parçalanması nəticəsində yaranan müstəqil şərqi xristian kilsəsinin adı.

**Protestant kilsəsi** — Reformasiya dövründə katolik kilsəsindən ayrılan xristianlığın başlıca cərəyanlarından biri. Martin Lüterin tərəfdarları olan protestantların adından götürülmüşdü.

**Protesta** — Etiraz edirəm demədir.

**Puritan** — (latınca "purus", yəni "təmiz" deməkdir) Dəbdəbəli kilsə ayinlərinə və mərasimlərinə qarşı çıxan dini məzhəb.

| | |
|---|---|
| **Pul** | Əmtəələrin ümumi ekvivalenti rolunu oynayan xüsusi əmtəə. |
| **Pun** | Romalılar tərəfindən karfagenlilərə verilən ad. |
| **Pun müharibələri** | Aralıq dənizinin qərb hissəsində ağalıq uğrunda Roma və Karfagen arasında baş vermiş müharibələr. |
| **Purpur** | Finikiyada tünd-qırmızı boyaq. |

## - R -

| | |
|---|---|
| **Ra** | Qədim Misir mifologiyasında Günəş allahı və dünyanın yaradıcısı hesab edilirdi. |
| **Raca (Racə)** | Qədim Hindistanda tayfa başçısı. Sonralar tədricən padşaha çevrildilər. |
| **Reaya** | Osmanlı dövlətində vergi verən bütün əhali. |
| **Reformasiya** | (latınca "dəyişiklik") XVI əsrdə Avropada katolik kilsəsinin yenidən qurulması uğrunda baş vermiş geniş ictimai hərəkat. |
| **Relyef** | Qabarıq təsvir. |
| **Respublika** | Xalq hakimiyyəti deməkdir. İlk dəfə e.ə 509-cu ildə Qədim Romada meydana gəlmişdi. |
| **Restavrasiya** | (latınca "bərpa etmək" deməkdir) Çevriliş yolu ilə devrilmiş dövlət quruluşunun və sülalənin bərpa edilməsi. |
| **Roma papası** | Katolik kilsəsi və Vatikan dövlətinin başçısı. |
| **Roma poeziyasının «qızıl əsri»** | E.ə. I əsr və b.e.-nın I əsrinin başlanğıcını Roma poeziyasının «qızıl əsri» adlandırırlar. Bu dövrdə Romanın görkəmli elm və sənət adamları – Vergili, Lukretsi, Varron, Virtuvi, Böyük Plini yaşayıb yaratmışlar. |
| **Royalistlər** | Fransada monarxiya (kral) tərəfdarları. |

## - S -

| | |
|---|---|
| **Samuray** | Yaponiyada dünyəvi feodal, xırda zadəganların hərbi-feodal silki. |
| **Sancaq** | (türkcə "bayraq" deməkdir) Osmanlı imperatorluğunda inzibati ərazi vahid idi. |
| **Satrap** | Əhəmənilər dövlətində inzibati vahid olan satraplığın başında duran hakim. |
| **Satraplıq** | Padşah I Daranın Əhəmənilər dövlətini böldüyü əyalətlərin adı. |
| **Saziş (barış)** | Vuruşan tərəflərin razılığı ilə hərbi əməliyyatların müvəqqəti dayandırılması. |
| **Selena** | Yunan mifologiyasında Ay ilahəsi. |
| **Senat** | Qədim Romada Ağsaqqallar şurası. |
| **Senyor** | Orta əsrlərdə Qərbi Avropada tabeliyində asılı kəndli və vassalı olan feodal. |
| **Sərdabə** | Qəbir abidəsi. Daxilinə mərhumun cənazəsi qoyulan memarlıq tikilisi. |
| **Sələmçi** | Yüksək faizlə borc verməklə mənfəət qazanan şəxs. |
| **Sərraf** | Qədimdə və orta əsrlərdə pul dəyişən şəxs. |
| **Səlibçilər** | (xaçlılar) Səlib yürüşlərinin iştirakçıları. |
| **Səlib yürüşləri** | (xaç yürüşləri) 1096-1270-ci illərdə Avropa ölkələri və katolik kilsəsi tərəfindən Yaxın Şərqə təşkil olunmuş yürüşlər. |
| **Sidr** | Həmişəyaşıl iynəyarpaqlı ağacı. |
| **Silk** | Malik olduqları hüquq və vəzifələri adət-ənənə və ya qanuna görə təsbit olunmuş əhali qrupu. |
| **Silki monarxiya** | Monarxın hakimiyyətinin silki nümayəndəli yığıncağa arxalandığı mərkəzləşdirilmiş feodal dövləti. |
| **Subaşı** | Türk dövlətlərində kiçik hərbi dəstənin başçısı, sülh vaxtı şəhər və qalalarda asayişə nəzarət edən rəis. |
| **Sultan** | Bir çox şərq xalqlarında dövlət başçısının daşıdığı titul. Qazaxlarda bir neçə min alaçıqdan ibarət olan aulun başçısı. |
| **Sultani** | Qaraxanilər dövlətində dövlətə məxsus olan əsas torpaq mülkiyyət forması idi. |
| **Syoqun** | Yaponiyada 1867-ci ilədək hərbi-feodal hakimlərin daşıdığı titul. |
| **Syoqun sistemi** | İqtisadi, hərbi və siyasi cəhətdən ən güclü feodal ailəsinin hərbi-feodal diktaturası. |

## - Ş -

**Şaduf** Misirdə yüksəklikdə yerləşən tarlaları suvarmaq üçün qurğu vasitəsi.

**Şahənşah** (farsca "şahlar şahı") Sasanilər dövlətində İran şahlarının daşıdığ titul.

**Şəhrdar** Sasanilər sülaləsinə mənsub olan şəxs. Əyalətləri idarə edirdi.

**Şərqi Roma imperiyası** Roma imperiyasının 395-ci ildə iki yerə parçalanmasından sonra onun şərq hissəsinin adı.

**Şumerlər** E.ə. VII-VI minilliklərdə Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən gələrək Mesopotamiyanın cənubunda məskunlaşmış xalq.

**Şovinist (Şovinizm)** Qatı millətçi, digər millət və xalqlara qarşı nifrət və düşmənçilik.

## - T -

**Tanhu** Böyük Hun imperatorluğunda hökmdarın daşıdığı titul.

**Tarxan** Xəzər xaqanlığında və Qızıl ordu dövlətində xaqanın yanında böyük imtiyaza malik şəxslər.

**Tayfa** Bir yerdə yaşayan, eyni dildə danışan və eyni adətləri olan bir neçə qohum qəbilənin birliyi.

**Tanxo** Mərkəzi Asiya dövlətlərində yalnız hərbi xidmət müqabilində verilən əsas torpaq mülkiyyət forması.

**Teatr** Yunanca "tamaşa yeri", "böyüklər üçün məktəb" deməkdir.

**Termidor** (fransızca "isti", "qızmar" deməldir) Yakobinçilərin tətbiq etdikləri inqilabi təqvimə əsasən Fransada istifadə olunan təqvimdə 11-ci ay (iyul-avqust).

**Termidor çevrilişi** 1794-cü il iyulun 27-28-də yakobin diktaturasının süqutuna səbəb olmuş və Böyük Fransa burjua inqilabına son qoymuş əksinqilabi çevriliş.

**Təcavüz** Bir dövlətin başqa dövlətin müstəqilliyi və ərazi bütövlüyünə qarşı hərbi qüvvə tətbiq etməsi.

**Təhkimli** Feodaldan həm torpaq, həm də şəxsi asıldığa düşən kəndli.

**Təzminat** Hücuma məruz qalmış dövlətə dəymiş zərəri ödəmək üçün məğlub tərəfin öhdəsinə götürdüyü ödənc.

**Tigin** Göytürk dövlətində xaqan ailəsinə mənsub olan şahzadələrə verilən titul.

**Timar** Osmanlı dövlətində hərbi xidmətə görə verilən şərti torpaq sahibliyi.

**Toxa** Sümükdən, buynuzdan və daşdan ucluq bərkidilmiş ağac.

**Toxa əkinçiliyi** Əkinçiliyin toxanın əsas əmək aləti olduğu ən qədim forması. Mezolit dövründə meydana gəlmişdi.

**Toxunulmazlar** Hindistan əhalisinin azad, amma tam hüquqsuz təbəqəsi.

**Totemizm** İnsanların nəslinin müəyyən totemdən - heyvan, bitki, təbiət hadisələri və cansız əşyalardan meydana gəlməsi təsəvvürləri ilə bağlı olan inanc və adətlər sistemi.

**Töycü** Qərbi Avropada feodalın asılı kəndlilərdən hər il yığdığı vergi.

**Tragediya** (yunanca "keçilər mahnısı") Qədim Yunanıstanda adətən milli qəhrəmanlara həsr olunmuş pyes.

**Tribun** Qədim Romada plebeylərin seçdiyi müdafiəçisi, təmsilçisi.

**Triumf** Qalib sərkərdənin qoşunları ilə birlikdə təntənəli şəkildə Romaya daxil olması.

**Tümən** Pul vahidi. Bir çox Şərq ölkələrində inzibati-ərazi vahidi.

**Tümən əmiri** On min nəfərlik qoşun hissəsinin başçısı.

**Türkmən** X əsrdə islamı qəbul etmiş oğuzlara verilən ad.

**Tunc** Mislə qalay, arsen, mərgümüş və sink kimi metalların qarışığından alınmış metal.

## - U -

**Uc torpaqları** Səlcuqlar dövründə imperiyanın ucqarlarını qoruyan Səlcuq sərkərdələrinə paylanılan torpaq mülkiyyəti.

**Ulus** Monqol və Teymurilər dövlətlərində inzibati-ərazi bölgüsü.

**Uzunmuddetli parlament** İngiltərə kralı I Karl tərəfindən 1640-cı ildə çağırılmışdır. 1640-1653-cü illərdə fəaliyyət göstərmiş və faktik olaraq "İngiltərə burjua inqilabının qanunverici orqanı olmuşdur.

## - Ü -

**Üsyan** Hər hansı ictimai qrupun siyasi hakimiyyətə və ya dövlətə qarşı açıq silahlı çıxışı.
**Üşr (üşür)** Səlcuqlar dövründə torpaqdan istifadə əvəzində kəndlidən alınan onda bir vergisi.

## - V -

**Vandalizm** "Vəhşi, mədəniyyət abidələrini və şəhərləri dağıdan" qəddar adamlar.
**Vaçe** Şərq slavyanlarında xalq yığıncağı.
**Vahə** Səhrada yaşıllıq və su olan yer.
**«Varfolomey gecəsi»** Parisdə protestantların katoliklər tərəfindən kütləvi şəkildə öldürülməsi. Rəqibə qarşı qəddar, amansız rəftar etmək mənasında işlədilir.
**Vassal** ("hərbi qulluqçu", "xidmətçi" deməkdir) Senyordan torpaq payı alan feodal.
**Veksel** Pul götürən şəxsin yazılı öhdəlik sənədi.
**Veto** Latın dilində "qadağan edirəm" deməkdir.
**Vətəndaş** Qanunla müəyyənləşdirilmiş hüquqlardan istifadə edən və dövlət qarşısında öhdəliyi olan şəxs.
**Vətəndaş müharibəsi** Bir ölkə daxilində onun vətəndaşları arasında baş verən müharibə.
**Vergi** Dövlətin xeyrinə tutulan məcburi ödəmələr.
**Vəqf torpaqları** Müsəlman aləmində müqəddəs şəhərlər, pirlər, din uğrunda mühacidlər və şəhidlər üçün nəzərdə tutulmuş torpaq mülkiyyət forması idi.
**«Vuruşan çarlıqlar»** Çin tarixində e.ə. IV-III əsrlərdə bütün Çində hakimiyyəti ələ keçirmək uğrunda bir neçə müstəqil çarlıq arasında baş vermiş müharibələr dövrü.
**Voyevodalar** Rusiyada qəzaları idarə edən şəxs.

## - Y -

**Yabqu** Göytürk imperatorluğunda xaqanın varisinə verilən titul, Oğuz dövlətində hökmdar.
**Yad, düşmən** Qədim Hindistanda qullara verilən ad.
**Yarlıq (fərman)** Qızıl Odu dövlətində xanların onlardan asılı feodallara verdikləri imtiyaz sənədləri.
**Yazı** Məlumatın hər hansı material üzərində şərti işarələrlə verilməsi.
**Yeniçərilər** (türkcə "yeni qoşun" növü deməkdir) Osmanlı imperiyasında qeyri müsəlmanlardan təşkil edilmiş və dövlət xəzinəsi hesabına saxlanılan nizami piyada qoşun dəstələri.
**«Yeni İngiltərə»** İngiltərədə rəsmi olaraq təqib olunan puritantların yeni qrupunun 1630-cu ildə Massaçusets körfəzinin sahillərinə gələrək Şimali Amerikada yaratdığı koloniya.
**Yeni zadəgan** Təsərrüfatı kapitalistcəsinə, yəni muzdlu əmək tətbiq etməklə təşkil edən ingilis zadəganı.
**Yeni tipli ordu** İngiltərədə vətəndaş müharibəsi zamanı yaradılmış yeni qoşun növü.
**Yepiskop** Yunanca nəzarətçi deməkdir.
**Yezuit** (latınca) İsa deməkdir.
**Yezuitlər ordeni** Reformasiyaya qarşı mübarizə üçün yaradılmış "İsa cəmiyyəti"nin üzvləri.
**Yığıcılıq** İnsanların təbiətdən məhsulları hazır şəkildə mənimsəməsi.

## - Z -

**Zəfər tağları** Qədim Romada qalib sərkərdə, hökmdarların şərəfinə ucaldılan sütunlar.
**Zəkat (sədəqə)** Becərilən məhsullardan, qızıl gümüş və sənətəkarlıq məmulatlarından alınan vergi.
**Zəmindar** Dehli sultanlığında türk mənşəli sərkərdə və məmurların sultandan iqta şəklində aldıqları şərti torpaq sahibliyi. Moğol imperatorluğunda irsi torpaq sahibləri olan hind feodalları.
**Zikkurat** Qədim Mesopotamiyada pilləli məbəd.
**Ziyamət** Osmanlı imperiyasında hərbi xidmətə görə verilən və irsən keçən torpaq mülkiyyəti.

# XRONOLOGİYA

## QƏDİM DÖVR

| | |
|---|---|
| **E.ə. IV minilliyin ikinci yarısı** | Yuxarı Misirdə və Aşağı Misirdə iki müstəqil padşahlıq yarandı. |
| **E.ə. IV minilliyin sonu** | Yuxarı Misir ilə Aşağı Misir padşahları arasında müharibə baş verdi. Qədim Misirvahid dövlətdə birləşdirildi, Vahid Misir dövləti yarandı. |
| **E.ə. IV minilliyin sonu** | Misirdə yazı meydana gəldi. |
| **E.ə. II minillik** | Misirin paytaxtı Fiv şəhərinə köçürüldü. |
| **E.ə II minilliyin əvvəlləri** | I Tutmosun hakimiyyəti. |
| **E.ə II minilliyin ortaları** | III Tutmosun hakimiyyəti. |
| **E.ə. XIII əsrin əvvəlləri** | II Ramzesin hakimiyyəti. II Ramzes het tayfalarını məğlub edərək onlarla sülh bağladı. |
| | *** |
| **E.ə. VII-VI minilliklər** | Sumer tayfaları Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən gələrək Mesopotamiyada məskunlaşdılar. |
| **E.ə. III minilliyin əvvəlləri** | Mesopotamiyada ilk şəhər-dövlətlər (Eredu, Laqaş, Umma, Nippur) meydana gəldi. |
| **E.ə. III minilliyin əvvəlləri** | Şumerlər mixi yazı növünü yaratdılar. |
| **E.ə III minillik** | Qədim Mesopotamiya memarlığında zikkurat formalı pilləli məbədlər geniş yayıldı. |
| **E.ə. II minilliyin əvvəli** | Babil şəhər-dövləti yarandı. |
| **E.ə. 1792-1750-ci illər** | Babil hökmdarı Hammurapinin hakimiyyət illəri. |
| | *** |
| **E.ə. II minillik** | Finikiyalılar Tir, Sidon və Bibil kimi ticarət şəhər dövlətləri yaratdılar. |
| **E.ə. II minillik** | Finikiyalılar ən yaxşı gəmi inşaatçıları və dənizçilər olmuşlar. |
| **E.ə. XVI əsr** | Finikiyalılar Şimali Afrikada, Kipr, Sardiniya, Siciliya adalarında koloniyalar saldılar. |
| **E.ə II minillik** | Aşşur dövləti yarandı. |
| **E.ə. VIII-VII əsrlər** | Aşşur dövləti Babili, Suriyanı və Fələstini işğal etdi. |
| **E.ə. 612-ci il** | Aşşur dövlətinin paytaxtı Nineva şəhəri Midiya və Babil qoşunları tərəfindən tutuldu. |
| **E.ə. 605-ci il** | Aşşur dövləti süqut etdi. |
| | *** |
| **E.ə. II minillik** | Ari tayfaları İran ərazisində məskunlaşdılar. |
| **E.ə. VIII əsrin sonu** | Deyok Midiyada dövlət yaratmağa təşəbbüs etdi. |
| **E.ə. 672-ci il** | Midiya tayfaları aşşurların işğalından xilas oldular. |
| **E.ə 672-550-ci illər** | Midiya dövlətinin mövcud olması dövrü. |
| **E.ə. VII əsr** | Zərdüştilik dini meydana gəldi. |
| **E.ə. VII əsrin ortaları** | Aşşur dövləti ilə Midiya arasında müharibə baş verdi. Midiya iskitlərin hakimiyyəti altına düşdü. |
| **E.ə. 616-612-ci illər** | Midiya və Babil qoşunları Aşşur, Arbela, Kalat və Nineva şəhərlərini işğal etdilər. |
| **E.ə. 550-ci il** | II Kir Ekbatan şəhərini tutaraq Midiya hökmdarı Astiaqı taxtdan saldı və Əhəmənilər dövlətinin əsasını qoydu. Midiya dövləti süqut etdi. |
| **E.ə 550-330-cu illər** | Əhəmənilər dövlətinin mövcud olması dövrü. |
| **E.ə 550-530-cu illər** | II Kirin kakimiyyəti. Kiçik Asiyada Lidiya çarlı işğal edildi, Misirə qədər bütün ölkələr Əhəmənilər dövlətinə tabe edildi. |

| | |
|---|---|
| **E.ə. 525-ci il** | II Kambiz Misirə yürüş etdi. Misir ələ keçirildi. Misir kahinləri II Kambizi firon elan etdilər. |
| **E.ə. 522-ci il** | Əhəmənilər dövlətində Qaumata üsyanı baş verdi. Qaumata sui-qəsd nəticəsində öldürüldü. I Dara hakimiyyətə gəldi. |
| **E.ə. 330-cu il** | Əhəmənilər imperiyası süqut etdi. |
| **E.ə. 247-ci il** | Parfiya dövləti yarandı. |
| **E.ə. 53-cü il** | Parfiyalılar roma ordusunu məğlub etdilər. |
| **E.ə. 38-ci il** | Romalılar parfiyalılar üzərində qələbə qazandılar. |
| **224-cü il** | Parfiya dövləti süqut etdi. |

***

| | |
|---|---|
| **E.ə. VII əsrin əvvəlləri** | Kimmer, iskit və sak tayfaları Cənubi Qafqaza və Ön Asiyada köç etdilər. |
| **E.ə. VII əsrin ortaları** | Van gölü ilə Urmiya gölü arasındakı ərazilərdə Kimmer-İskit-Sak padşahlığı yarandı. |
| **E.ə. VI əsrin əvvəlləri** | Midiya dövləti tərəfindən Kimmer-İskit-Sak padşahlığı süquta uğradıldı. |
| **E.ə. IV əsrin ortaları** | Şərqi Avropada payataxtı Neapol şəhəri olan İskit dövləti yarandı. |
| **E.ə. 339-cu il** | Makedoniya çarı II Filiplə iskitlər arasında döyüş baş verdi. |
| **E.ə 331-ci il** | İskitlər Makedoniyalı İsgəndərin ordusunu məğlub etdilər. |
| **E.ə. II əsr** | İskit dövlətinin çiçəklənmə dövrü. İskitlər qonşuluqdakı yunan şəhər-dövlətlərinin bir qismini özlərinə tabe etdilər. |
| **III əsrin ikinci yarısı** | İskit dövləti qot tayfalarının hücumu nəticəsində süqut etdi. |

***

| | |
|---|---|
| **E.ə. VI-V əsrlər** | Mərkəzi Asiya xalqları Əhəmənilərin hücumuna məruz qaldı. |
| **E.ə VI-IV əsrlər** | Mərkəzi Asiyada Baktriya, Parfiya, Xarəzm, Margiana və Soqdiana adlı vahə dövlətləri yarandı. |
| **E.ə. IV əsrin ikinci yarısı** | Makedoniyalı İsgəndərin Şərqə yürüşü nəticəsində Əhəmənilər imperiyası süqut etdi. Mərkəzi Asiyaya xalqları Makedoniyalı İsgəndərin hücumuna məruz qaldı. Sərkərdə Spitamen ilə İsgəndərin qoşunu arasında döyüş baş verdi. |
| **E.ə. IV əsrin ikinci yarısı** | Mərkəzi Asiya Selevklər dövlətinin tərkibinə daxil edildi. |
| **E.ə. 220-ci il** | Böyük Hun imperiyası yarandı. |
| **E.ə. 220 - e.ə. 209-cu illər** | Teoman Tanhunun hakimiyyəti. |
| **E.ə III əsr** | Hunlar ilk dəfə Çinə hücumlar etməyə başladılar. |
| **E.ə. 214-cü il** | Böyük Çin səddinin inşasına başlandı. |
| **E.ə 209 – e.ə 174-ci illər** | Mete xanın hakimiyyəti. |
| **E.ə. 36-cı il** | Çiçi tanhunun başçılığı ilə Qərb hunları Tanrı dağlarının şimalını, İssık gölünün ətrafını və Mərkəzi Asiyanı tutdular. |
| **E. ə. 36-cı il** | Çinlilər Qərbi hunlar üzərinə hücuma keçərək Qərbi Hun dövlətinin paytaxt şəhərlərini tutdular, “İpək yolu” üzərində 50-dək şəhər qarət edilərək dağıdıldı. Qərbi Hun dövlətinə son qoyuldu. Şərqi Hun dövləti çinlilərin hakimiyyətini qəbul etdilər. |
| **E.ə. 18-ci il** | Şərq hunları yenidən müstəqillik qazandılar. |

***

| | |
|---|---|
| **E.ə. II minillik** | Çin ərazisində sinifli cəmiyyət və ilk dövlət olan Şan dövləti yarandı. |
| **E.ə. VI əsr** | Çinlilər dəmir emal etməyi öyrəndilər. |
| **E.ə. IV-III əsrlər** | Çin tarixində «vuruşan padşahlıqlar dövrü». |
| **E.ə. 221- e.ə 206-cı illər** | Çində Sin sülaləsinin hakimiyyəti dövrü. |
| **E.ə. 221-ci il** | İlk Sin hökmdarı Sin Şixuandi imperator titulunu qəbul etdi. |
| **E.ə. 206-cı il** | Çində Sin sülaləsinin zülmünə qarşı üsyan baş verdi. |
| **E.ə 206 - e. III əsr** | Çində Xan sülaləsinin hakimiyyəti dövrü. |

| | |
|---|---|
| **E.ə II əsr** | Böyük İpək yolu salındı. Çindən gələn ticarət yolu dünya ticarət yollarına qoşuldu. |
| **I əsrin əvvəlləri** | Çində «Qırmızıqaşlılar» üsyanı baş verdi. |
| **184-204-cü illər** | Çində «Sarısarıqlılar» üsyanı baş verdi. |

***

| | |
|---|---|
| **E.ə. III minillik** | Hindistanda ilk qədim şəhərlər meydana gəldi. |
| **E.ə. II minillik** | Ari tayfaları Hindistana köç etdilər. |
| **E.ə. I minilliyin birinci yarısı** | Hindistanda ilk dövlətlər meydana gəldi. |
| **E.ə. 317-ci il** | Hindistanda padşah Çandraqupta Mauriya dövlətinin əsasını qoydu. |
| **E.ə 317 – e.ə 180-ci illər** | Hindistanda Mauriya sülaləsinin hakimiyyəti dövrü. |
| **E.ə. III əsrin II yarısı** | Padşah Aşoka tərəfindən Hindistan ilk dəfə vahid dövlətdə birləşdirildi. |
| **E.ə. VI əsrin sonu** | Hindistan Əhəmənilər imperiyası tərəfindən işğal edildi. |
| **E.ə. IV əsrin 20-ci illəri** | Makedoniyalı İskəndər Hindistanın şimal-qərbinə hücum etdi. |
| **E.ə. I əsr** | Hindistanda daşdan yonulmuş darvaza inşa olundu. |

***

| | |
|---|---|
| **E.ə. III-II minillik** | Krit adasında Avropanın ən qədim və ilk dövləti yarandı. |
| **E.ə. II minillik** | Təbii fəlakət nəticəsində Krit mədəniyyəti süqut etdi. |
| **E.ə. II minillik** | Cənubi Yunanıstanda Mikena mədəniyyəti yarandı. |
| **E.ə. II minilliyin sonları** | Mikena mədəniyyəti Yunanıstanın şimalından gələn dori tayfaları tərəfindən məhv edildi. Dorilər Cənubi Yunanıstanda Lakonika vilayətini tutdular. |
| **E.ə. VIII-VI əsrlər** | İlk yunan şəhər-dövlətləri yarandı. Orta Yunanıstanda – Afina, Cənubi Yunanıstanda – Korinf və Sparta, Egey dənizi sahillərində - Milet, Efes və Rodos şəhər dövlətləri yarandı. |
| **E.ə. VIII əsr** | Akropolda yaşayan adlı-sanlı adamlar Attikanın bütün əhalisini özlərinə tabe etdilər. |
| **E.ə. VII əsr** | Dorilər Messeniya vilayətini tutdular. Spartada quldarlıq dövləti yarandı. |
| **E.ə. VII əsr** | Afinada gümüş pul kəsildi. |
| **E.ə. VII əsr** | Demosla aristokratlar arasında mübarizə başladı. Afinada Drakon qanunları tərtib edildi. |
| **E.ə. 594-cü il** | Afinada Solon islahatları həyata keçirildi. |
| **E.ə. VI əsrin sonları** | Afina ordu və donanmaya başçılıq etmək üçün strateqlər seçməyə başlandı. |
| **Eə. VI əsr** | Afinada qara fiqurlu amforalar istehsal olunmağa başlandı. |
| **E.ə. V əsr** | Afinada qırmızı fiqurlu amforalar istehsal olunmağa başlandı. |
| **E.ə. 443-cü il** | Afinada Perikl strateq seçildi. |

***

| | |
|---|---|
| **E.ə. VIII-VI əsrlərdə** | Qafqazdan İspaniyayadək, Qara dəniz və Aralıq dənizi sahillərində yunan koloniyaları meydana gəldi. |
| **E.ə. 500-cü il** | I Dara Kiçik Asiyada, Aralıq dənizinin şərq sahillərində və Egey dənizi adalarında yunan şəhər-dövlətlərinə hücum etdi. |
| **E.ə. 500-449-cu illər** | Yunan-İran müharibələri dövrü. |
| **E.ə. 490-cı il** | I Dara Yunanıstana – Afinaya hücum etdi. Yunanlarla-iranlılar arasında Marafon döyüşü baş verdi. |
| **E.ə. 480-ci il** | I Kserkis Orta Yunanıstana hücum etdi. Yunanlarla-iranlılar arasında Fermopil döyüşü baş verdi. İranlılar Orta Yunanıstanı ələ keçirdilər. |
| **E.ə. 480-ci il** | Salamin dəniz vuruşması. İranlılar ( Kserks) məğlub olaraq Yunanıstanı tərk etdi. |
| **E.ə. 479-cu il** | Plateya döyüşü. İranlılar Yunanıstandan tamamilə çıxarıldı. |
| **E.ə V əsrin birinci yarısı** | Afina dəniz ittifaqı yaradıldı. |
| **E.ə 449-cu il** | Yunarlarla İran arasında sülh müqaviləsi bağlandı. Yunan İran müharibəsi başa çatdı. |

***

| | |
|---|---|
| **E.ə. 776-cı il** | Yunanıstanda ilk Olimpiya oyunları keçirildi. |
| **E.ə. VIII əsr** | Homer «İliada» və «Odisseya» dastanlarını yaratdı. |
| **E.ə. VI əsr** | Homerin «İliada» və «Odisseya» dastanları yazıya alındı. |
| **E.ə. V əsr** | Heredotun "Tarix" əsərini yazması ilə tarix elminin əsası qoyuldu. |
| **E.ə. V əsr** | Afinada Parfenon məbədi inşa edildi. |
| **E.ə. V əsrin sonları** | Yunanıstanda ilk teatr binasi tikildi. |
| **E.ə. 431-404-cü illər** | Afina və Sparta arasında müharibə baş verdi. |
| | *** |
| **E.ə. IV əsrin ortaları** | Makedoniya dövləti güclü dövlətə çevrildi |
| **E.ə IV əsrin ikinci yarısı** | Yunan şəhər dövlətləri tənəzzül etməyə başladıllar. |
| **E.ə. 338-ci il** | Xeroneya döyüşü. Yunan şəhər dövlətlərinin azadlığına son qoyuldu və Makedoniyanın hakimiyyəti altına düşdü. |
| **E.ə-336-323-cü illər** | Makedoniyalı İsgəndərin hakimiyyəti. |
| **E.ə 334-cü il** | Makedoniyalı İsgəndər Şərqə yürüşə başladı. |
| **E.ə. 334-cü il** | Qranik döyüşü. |
| **E.ə. 333-cü il** | İss döyüşü. |
| **E.ə. 331-ci il** | Qavqamel (Cancaı) döyüşü. III Daranın qoşunları İsgəndər tərəfindən məğlub edildi. |
| **E.ə. 330-cu il** | III Dara Baktriya satrapı Bess tərəfindən öldürüldü. Əhəməni imperiyası süqut etdi. |
| **E.ə. 328-ci il** | Makedoniyalı İsgəndər Hindistana yürüş etdi. |
| **E.ə. 323-cü il** | Makedoniyalı İsgəndər vəfat etdi və onun vəfatından sonra imperiya bir neçə padşahlığa parçalandı. |
| | *** |
| **E.ə. 753-cü il** | Roma şəhərinin əsası qoyuldu. |
| **E.ə. 753-509-cu illər** | Romada padşahlq dövrü. |
| **E.ə. 509-cu il** | Romada üsyan baş verdi. Romada padşahlıq idarə üsulu ləğv edildi və respublika quruluşu yaradıldı. |
| **E.ə. 509 – e.ə 30-cu il** | Romada respublika quruluşunun mövcud olması. |
| **E.ə V-III əsrlər** | Romada patrisilərlə plebeylər arasında mübarizə baş verdi. Plebeylər Romanın tamhüquqlu vətəndaşına çevirildilər, hər bir Roma vətəndaşı istənilən vəzifə tutmaq və icma torpaqlarında pay almaq hüququ qazandılar. |
| **E.ə. V əsrin əvvəli** | Plebeylər xalq tribunlarını seçmək hüquqlarını qazandılar. |
| **E.ə 390-cı il** | Qall (kelt) tayfaları Romaya yürüş etdi. |
| **E.ə III əsr** | Cənubi İtaliyanı tutmaqla Roma bütün İtaliyanın işğalını başa çatdırdı. |
| **E.ə. 264-146-cı illər** | Roma ilə Karfagen arasında Pun müharibələri baş verdi. Siciliya, Sardiniya, Korsika adaları Roma tərəfindən işğal olundu. |
| **E.ə. 146-cı il** | Karfagen şəhəri Roma tərəfindən tutularaq dağıdıldı və Romanın əyalətinə çevrildi. |
| **E.ə. 146-cı il** | Makedoniya və Yunanıstan Roma tərəfindən işğal olundu. |
| **E.ə. 133-cü il** | Tiberi Qrakx xalq tribunu seçildi. |
| **E.ə. 123-cü il** | Qay Qrakx xalq tribunu seçildi. |
| **E.ə. 74-71-ci illər** | Kapuya şəhərindəki qladiator məktəbində qullar Spartakın başçılığı ilə üsyan qaldırdılar. |
| **E.ə 71-ci il** | Spartak ilə Roma qoşunu arasında son döyüş baş verdi. Spatrak üsyanı Roma sərkərdəsi Krass və Pompey tərəfindən yatırıldı. |
| **E.ə 49-cu il** | Yuli Sezar Qalliyadan Roma üzərinə hücum etdi. Sezarla Pompey rərəfdarları arasında vətəndaş müharibəsi baş verdi. Sezar qalib gələrək Romada təkbaşına hakimiyyəti ələ aldı. |
| **E.ə 49-44-cü illər** | Yuli Sezarın Romada təkbaşına hakimiyyəti dövrü. |

| | |
|---|---|
| **E.ə 44-cü il** | Yuli Sezar sui-qəsd nəticəsində öldürüldü. |
| **E.ə 30-cu il** | Antoni və Oktavian arasında Romada yeni (ikinci) vətəndaş müharibəsi baş verdi. Antoni məğlubiyyətə uğradı, Oktavian qoşunları İsgəndəriyyə şəhərini tutdular, Misir Romanın əyalətinə çevirildi, Oktavian Romanın şərq və qərb əyalətlərinin tək hakimi oldu. |
| **E.ə 30 - e. 14-cü illər** | Oktavian Avqustun hakimiyyəti illəri. |
| **E.ə 30 - e. 476-cı illər** | Romada imperiya dövrü. |
| **E.ə. I əsr – e. I əsri** | Roma poeziyasının «qızıl dövrü. |
| **I əsr** | Roma əyaləti olan Fələstində xristianlıq dini meydana gəldi. |
| **II əsr** | Romada qulların öldürülməsi qadağan edildi. |
| **II-III əsrlər** | Romada quldarlıq quruluşunun tənəzzülü başlandı, «daxmalı qullar» və kolonlar meydana gəldi. |
| **313-cü il** | Roma imperatoru Konstantin xristianlığı dövlət dini kimi qəbul etdi və xristianlara açıq ibadət etməyə, onlara məbədlər tikməyə icazə verdi. |
| **330-cu il** | Roma imperiyasının paytaxtı Vizantiyə (Bizans) köçürüldü və imperator Konstantinin şərəfinə Konstantinopol adlandırıldı. |
| **395-ci il** | Roma imperiyası iki hissəyə parçalandı. Qərbi və Şərqi Roma imperiyaları yarandı. |
| **395-476-cı illər** | Qərbi Roma imperiyasının mövcud olması. |
| **395-1453-cü illər** | Şərqi Roma (Bizans) impesiyasının mövcud olması. |
| **451-ci il** | Qərbi Hun imperatoru Atilla ilə Roma ordusu arasında Katalaun döyüşü baş verdi. |
| **455-ci il** | Vandallar Roma şəhərini tutaraq dağıtdı və vandalizm hadisəsini törətdilər. |
| **476-cı il** | German tayfalarının Qərbi Romanın sonuncu imperatorunu taxtdan saldı. Qərbi Roma imperiyası süqut etdi. Qərbi Avropada quldarlıq quruluşu dağıldı. Qədim dünya tarixi sona çatdı və dünya tarixinin orta əsrlər dövrü başladı. |

## ORTA ƏSRLƏR DÖVRÜ

| | |
|---|---|
| **IV əsr** | "Xalqların böyük köçü" başladı. |
| **370-ci il** | Don sahilində hunlar alanları məğlub edərək Azov ətrafı əraziləri və Şimali Qafqazı ələ keçirdilər. |
| **371-ci il** | Hunlar ostqot tayfaları ilə döyüşlərdə onları məğlub edərək Krımı ələ keçirdilər. |
| **400-cü il** | Hunlar Dunay çayı sahilində qot tayfalarını məğlub edərək Pannoniyada məskunlaşdılar. |
| **IV əsr – 470-ci il** | Qərbi Hun imperatorluğunun mövcud olması. |
| **447-ci il** | Atilla Bizansa yürüş etdi. |
| **451-ci il** | Qərbi Hun imperatorluğu ilə Roma imperiyası arasında Katalaun döyüşü baş verdi. |
| **452-ci il** | Atilla Roma şəhərini mühasirəyə aldı. |
| **453-cü il** | Atilla vəfat etdi və Qərbi Hun dövləti onun oğlanları arasında bölüşdürüldü. |
| **470-ci il** | Qərbi Hun imperatorluğu süqut etdi. |

***

| | |
|---|---|
| **III əsr** | Kiyat şəhəri Xarəzm vilayətinin paytaxtı oldu. |
| **IV əsrin sonları** | Ağ Hun dövləti yarandı. Xarəzm vilayəti Ağ Hun dövlətinin tabeliyinə keçdi. |
| **IV əsr – 567-cı il** | Ağ Hun imperatorluğunun mövcud olması. |
| **V əsr** | Ağ Hun dövləti Eftal xanın adı ilə Eftalit dövləti adlanmağa başladı. |
| **V əsr** | Sasanilər Ağ Hun imperatorluğundan asılı vəziyyətə düşdü. |
| **430-cu il** | Ağ hunlar Sasanilərə sarsıdıcı zərbələr endirdilər. |

| | |
|---|---|
| **515-550-ci illər** | Mihuraqula xanın hakimiyyəti. Ağ Hun imperatorluğu öz qüdrətininən ən qüdrətli dövrü. |
| **VI əsrin ortaları** | Ağ Hun imperatorluğunda yüksəliş dayanmağa başladı. |
| **567-ci il** | Sasani hökmdarı Xosrov Ənuşirəvanın və Göytürk xaqanı İstəmi xaqanın birləşmiş qüvvələri Ağ hunlar üzərinə yürüş etdi. Ağ Hun imperatorluğu dağıldı. |

***

| | |
|---|---|
| **552-ci il** | Bumin xaqan jujan xanı üzərində qələbə qazandı və I Göytürk dövlətini əsasını qoydu. Ötükən şəhəri I Göytürk dövlətinin paytaxtı oldu. |
| **552-588-ci illər** | I Göytürk dövlətinin mövcud olması. |
| **VI əsrin ikinci yarısı** | Göytürk dövlətinin ən qüdrətli dövrü. |
| **588-ci il** | I Göytürk imperatorluğu iki hissəyə parçalandı. |
| **VII əsrin əvvəlləri** | Şərqi Göytürk və Qərbi Göytürk dövlətləri Çindən asılı vəziyyətə düşdü. |
| **VII əsrin 80-ci illəri** | Qutluq (İltəris) xanın başçılığı altında Göytürklər Çinə qarşı üsyan qaldırdı. Türklər Çin əsarətindən azad oldu, II Göytürk imperatorluğu yarandı. |
| **682-744-cü illər** | II Göytürk imperatorluğunun mövcud olması. |
| **682-692-ci illər** | İltəris xaqanın hakimiyyəti. |
| **692-716-cı illər** | Qapağan xaqanın hakimiyyəti. |
| **716-734-cü illər** | Bilgə xaqanın hakimiyyət. |
| **744-cü il** | II Göytürk imperiyası süqut etdi. |
| **744-cü il** | Qutluq Bilgə Gül xaqan tərəfindən Uyğur xaqanlığının əsası qoyuldu. |
| **744-842-ci illər** | Uyğur imperatorluğunun mövcud olması. |
| **744-745-ci illər** | Qutluq Bilgə Gül xaqanın hakimiyyəti. |
| **745-759-cu illər** | Moyon Çur xaqanın hakimiyyəti. |
| **759-779-cu illər** | Bögü xaqanın hakimiyyəti. |
| **779-789-cu illər** | Bağa Tarkan xaqanın hakimiyyəti. |
| **842-ci il** | Qırğız tayfaları uyğurlara qarşı üsyan qaldırdı. Uyğur imperatorluğu süqut etdi. |

***

| | |
|---|---|
| **558-ci il** | Şərqi Avropada Avar dövləti yarandı. |
| **558-803-cü illər** | Avar xaqanlığının mövcud olması. |
| **VI əsrin sonları** | Bizans avarlara vergi verməyə başladı. |
| **626-cı il** | Avarlar Konstantinopolu mühasirəyə aldı. |
| **VIII əsrin sonları** | Avar-Frank müharibələri başladı |
| **803-cü il** | Franklar avarların Pannoniya ərazisini tutdular. Avar dövləti süqut etdi. |

***

| | |
|---|---|
| **630-cu il** | Kubrat xan tərəfindən Şərqi Avropada Böyük Bulqar dövlətinin əsası qoyuldu. |
| **630-665-ci illər** | Böyük Bulqar dövlətinin mövcud olması. |
| **660-cı il** | Xəzərlərlə bulqarlar arasında döyüş baş verdi. Böyük Bulqar dövləti iki hissəyə - Dunay Bulqar və Volqa Bulqar türk dövlətinə parçalandı. |
| **665-ci il** | Baqi Bayan xan tərəfindən Volqa (İdil) Bulqar türk dövlətinin əsası qoyuldu. |
| **665/965-1236-cı illər** | Volqa (İdil) Bulqar türk dövlətinin mövcud olması. |
| **679-cu il** | Asparux xan tərəfindən Dunay Bulqar türk dövləti yaradıldı. |
| **679-864-cü illər** | Dunay Bulqar türk dövlətinin mövcud olması. |
| **679-cu il** | Asparux xan Bizansı məğlub edərək sülh müqaviləsi bağladı. Bizans Bulqar-türk dövlətinə xərac verməyə başladı. |
| **864-cü il** | Dunay Bulqar-türk dövlətində xristianlıq rəsmi dövlət dini elan edildi. Dunay Bulqar türk dövləti süqut etdi. |

| | |
|---|---|
| **965-ci il** | Volqa (İdil) Bulqar türk dövləti Xəzər xaqanlığının asılılığından çıxaraq yenidən müstəqil oldu. |
| **1236-cı il** | Monqollar Volqa Bulqar türk dövlətinin varlığına son qoydular. |

***

| | |
|---|---|
| **VII əsrin əvvəlləri** | Xəzər tayfaları Xəzər dənizinin qərb sahillərində və Azərbaycanda məskunlaşdılar. |
| **634-cü il** | Qərbi Göytürk dövləti dağıldıvə xəzər tayfaları müstəqil oldu. |
| **634-965-ci illər** | Xəzər xaqanlığının mövcud olması. |
| **VIII-IX əsrlər** | Xəzər xaqanlığının ən qüdrətli dövrü. |
| **IX əsrin ikinci yarısı** | Şərq slavyanları xəzərlərə bac verməyə başladı. |
| **965-ci il** | Kiyev-rus dövləti tərəfindən Xəzər xaqanlığı işğal olundu. Xəzər xaqanlığı süqut etdi. |
| **X əsr** | Oğuz dövləti yarandı. |
| **950-ci il** | Oğuzlar İslam dinini qəbul edərək türkmən adlandırmağa başladılar. |
| **1000-ci il** | Oğuz dövlətinin varlığına qıpçaqlar tərəfindən son qoyuldu. |

***

| | |
|---|---|
| **III əsr** | Qədim Çin imperiyası bir-biri ilə düşmənçilik edən bir neçə dövlətə parçalandı. |
| **III-IV əsrlər** | Çində quldarlıq quruluşu dağıldı və feodalizm münasibətləri yarandı. |
| **586-618-ci illər** | Çində Suy sülaləsinin hakimiyyəti dövrü. |
| **VI əsrin sonları** | Çində yenidən vahid dövlətdə birləşdirildi. |
| **VII əsrin əvvəlləri** | Çində hakimiyyət Tan sülaləsi hakimiyyətə gəldi. |
| **618-918-ci illər** | Çində Tan sülaləsinin hakimiyyəti. |
| **751-ci il** | Xilafət qoşunları Çin ordusunu məğlub etdi və Böyük İpək yolunun Mərkəzi Asiyayadək uzanan hissəsinə nəzarət Çinin əlindən çıxdı. |
| **VIII əsr** | Çində feodallar dövlət torpaqlarını özbaşına tutmağa başladı. |
| **960-1260-cı illər** | Çində Sun sülaləsinin hakimiyyəti dövrü. |
| **1215-ci il** | Çingiz xanın qoşunları Şimali Çini işğal etdi. |
| **XIV əsrin ortaları** | Çində monqol əsarətinə qarşı üsyan baş verdi. |
| **1368-ci il** | Çində Min sülaləsi hakimiyyətə gəldi. |
| **1368-1644-cü illər** | Çində Min sülaləsinin hakimiyyəti dövrü. |
| **XVI əsr** | Koreya, Vyetnam və Tibet Çindən asılı vəziyyətə düşdü. |

***

| | |
|---|---|
| **224-cü il** | Ərdəşir Babəkan Parfiya dövlətinin varlığına son qoydu. |
| **226-cı il** | Ərdəşir Babəkan tərəfindən Sasanilər dövlətinin əsası qoyuldu. |
| **226-651-ci illər** | Sasanilər dövlətinin mövcud olması dövrü. |
| **III əsrin əvvəlləri** | Sasanilər imperiyası Cənubi Qafqazı, o cümlədən Atropatenanı ələ keçirdi və Xarəzm, Xorasan, Mərv üzərində nəzarəti ələ keçirdi. |
| **III əsr** | İranda Manilik hərəkatı baş verdi. |
| **III-V əsrlər** | Sasanilər dövlətində feodal münasibətləri yarandı. |
| **488-531-ci illər** | Sasani şahı I Qubadın hakimiyyəti dövrü. |
| **V əsrin ikinci yarısı** | Sasanilər dövləti Ağ Hun imperatorluğundan asılı vəziyyətə düşdü. |
| **481-529-cu illər** | İranda Məzdəkilər hərəkatı baş verdi. |
| **529-cu il** | Məzdək edam edildi. |
| **531-579-cu illər** | Sasani şahı I Xosrovun hakimiyyəti. |
| **VII əsrin 30-cu illəri** | Sasanilər dövləti ərəb dövlətinin hücumuna məruz qaldı. |
| **651-ci il** | Sasanilər dövləti ərəblər tərəfindən süquta uğradıldı. |

***

| | |
|---|---|
| **III əsr** | Cənubi Qafqaz Sasanilər tərəfindən işğal edildi. |
| **VII-VIII əsrlər** | Cənubi Qafqaz ərəb işğallarına məruz qaldı. |

| | |
|---|---|
| **VIII əsrin 30-cu illəri** | Ərəb xilafətinin parçalanması nəticəsində Tiflis müsəlman əmirliyi yarandı. |
| **VIII-IX əsrlər** | Ərəb xilafəti parçalandı və Qafqazda ilk müstəqil feodal dövlətlər (Azərbaycanda Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər, Şəki hakimliyi, Tiflis əmirliyi, Dərbənd əmirliyi Gürcüstan ərazisində isə Abxaziya, Kartli-Kaxetiya çarlıqları, Tao-Klarceti knyazlığı) meydana gəldi. |
| **XI əsrin əvvəlləri** | Gürcüstan vahid dövlətdə birləşdirildi. |
| **XI əsrin əvvəlləri** | Səlcuq türklərinin Qafqaza axınları baş verdi. Cənubi Qafqaz və Dağıstan Böyük Səlcuq imperatorluğunun tərkibinə qatıldı. |
| **XIII əsr** | Qafqaz xalqları monqolların yürüşlərinə məruz qaldı. Cənubi Qafqaz Hülakü imperatorluğunun tərkibinə qatıldı. Şimali Qafqaz Hülakülər və Qızıl Ordu dövlətləri arasında bölüşdürüldü. |
| **XIV əsrin 80-ci illəri** | Qafqaz Teymurilər dövləti tərəfindən işğal olundu. |
| **XV əsr** | Azərbaycanda Qaraqoyunlu və Ağqoyulu sülalələri hakimiyyətdə oldu. |
| **XV əsrin sonları** | Gürcüstanda Kartli, Kaxetiya və İmeretiya çarlıqları meydana gəldi. |

***

| | |
|---|---|
| **610-cu il** | İslam dini meydana gəldi. |
| **622-ci il** | Məhəmməd Peyğəmbər Məkkədən Mədinəyə hicrət etdi. |
| **630-cu il** | Ərəb dövləti yarandı. |
| **630-1258-ci illər** | Ərəb dövlətinin mövcud olması dövrü. |
| **630-632-ci illər** | Məhəmməd Peyğəmbərin hakimiyyəti dövrü. |
| **632- 661-ci illər** | Ərəb dövlətində Xəlifələr dövrü. |
| **661-ci il** | Ərəb dövlətində Əməvilər sülaləsi hakimiyyətə gəldi. |
| **732-ci il** | Ərəblərlə franklar arasında Puatye döyüşü baş verdi. |
| **750-ci il** | Ərəb dövlətində Əməvilər sülaləsinin hakimiyyəti başa çatdı. |
| **750-1258-ci illər** | Abbasilər sülaləsinin hakimiyyəti dövrü. |
| **IX əsr** | Ərəb dövlətində və orduda türklər mühüm rol oynamağa başladılar. |
| **IX əsr** | Ərəb xilafəti parçalandı. |
| **861-ci il** | Xəlifənin Şirvandakı canişini Şirvanı müstəqil elan etdi. |
| **875-999-cu illər** | Samanilər dövlətinin mövcud olması dövrü. |
| **879-cu il** | Azərbaycan ərazisində Sacilər dövləti meydana gəldi |
| **941-ci il** | Sacilər dövləti süqut etdi. Salarilər dövləti yarandı. |
| **981-ci il** | Salarilər dövləti süqut etdi. Rəvvadilər dövləti yarandı. |
| **927-ci il** | Qaraxanlı dövləti yarandı. |
| **962-ci il** | Qəznəvilər dövləti yarandı. |
| **998-1030-cu illər** | Sultan Mahmud Qəznəvinin hakimiyyəti dövrü. |
| **999-cu il** | Samanilər dövlətinin varlığına son qoyuldu. |
| **1187-ci il** | Qəznəvilər dövləti süqut etdi. |
| **1212-ci il** | Qaraxanlı dövləti Xarəzmşahlar dövləti tərəfindən süquta uğradıldı. |
| **XII əsrin 70-ci illəri** | Gurlu tayfaları Qəznəviləri məğlub edərək onları Şimali Hindistana sıxışdırdı. |
| **1187-ci il** | Qəznəvilər dövləti süqut etdi. |

***

| | |
|---|---|
| **1038-ci il** | Toğrul bəy tərəfindən Səlcud dövlətinin əsası qoyuldu. |
| **1038-1157-ci illər** | Böyük Səlcuq dövlətinin mövcud olması dövrü. |
| **1040-cı il** | Səlcuqlarla qəznəvilər arasında Dəndənəkan döyüşü baş verdi. |
| **1040-1063-cü illər** | Sultan I Toğrulun hakimiyyəti. |
| **1040-cı il** | Mərv qurultayı keçirildi. |
| **1043-cü il** | Səlcuq dövlətinin paytaxtı Nişapurdan Rey şəhərinə köçürüldü. |
| **1054-cü il** | Səlcuqlar Cənubi Qafqaza hücum etdilər. |

| | |
|---|---|
| **1055-ci il** | Sultan I Toğrul Bağdada yürüş etdi. Abbasilər xilafəti səlcuq türklərindən asılı vəziyyətə düşdü. |
| **1063-1072-ci illər** | Alp Arslanın hakimiyyəti. |
| **1071-ci il 26 avqust** | Səlcuqlarla Bizans arasında Malazgird döyüşü baş verdi. |
| **1072-1092-ci illər** | I Məlikşahın hakimiyyəti. |
| **1118-1157-ci illər** | Sonuncu Səlcuq hökmdarı Sultan Səncərin hakimiyyəti. |
| **1157-ci il** | Səlcuq imperiyası süqut etdi. |

***

| | |
|---|---|
| **IV əsr** | Hindistanda Qupta sülaləsi hakimiyyətə gəldi. |
| **IV-V əsrlər** | Hindistanda Qupta sülaləsinin hakimiyyəti dövrü «Hindistanın qızıl əsri». |
| **V əsrin sonları** | Qupta hökmdarları Ağ hun imperatorluğundan asılı vəziyyətə düşdülər. Qupta dövləti parçalandı. Hindistanda Xarşa dövləti yarandı. |
| **VI-XIII əsrlər** | Hindistanda feodal dağınıqlığı dövrü. |
| **VIII əsrin əvvəllləri** | Ərəblər Hindistana yürüş etdilər. Hindistanda Mənsurə və Multan əmirlikləri yarandı. |
| **XI əsrin əvvəlləri** | Qəznəvi hökmdarı Sultan Mahmud Hindistana yürüş etdi. Hindistanın Kəşmir, Pəncab və Qucarat əyalətlərini Qəznəvilər dövlətinin tərkibinə qatıldı. |
| **1206-cı il** | Qütbəddin Aybək tərəfindən Hindistanda Dehli sultanlığının əsasını qoydu. |
| **1206-1526-cı illər** | Dehli sultanlığının mövcud olması dövrü. |
| **1211-ci il** | Dehli sultanlığında Şəmsiyyə sülaləsi hakimiyyətə gəldi. |
| **1211-1236-cı illər** | Eltutmuş xanın hakimiyyəti dövrü. |
| **1236-1240-cı illər** | Raziyyə sultanın hakimiyyəti dövrü. |
| **1526-cı il** | Babur şahla Dehli sultanı arasında döyüş baş verdi. Babur şah qalib gələrək Aqra şəhərini tutdu və Dehli sultanlığının varlığına son qoyaraq onun yerində Böyük Moğol imperatorluğunu yaratdı. |
| **1526-1858-ci illər** | Böyük Moğol imperatorluğunun mövcud olması dövrü. |
| **1556-1605-cı illər** | Əkbər şahın hakimiyyəti dövrü. |

***

| | |
|---|---|
| **XII əsr** | Monqol tayfaları arasında qəbilə münasibətləri dağılmağa başladı və feodal münasibətləri, hərbi təşkilatlar olan ordular - birləşmələr yarandı. |
| **1206-cı il** | Onon qurultayı çağırıldı. Monqol dövləti yaradıldı, Temuçin böyük xan - xaqan seçildi və Çingiz adlandırıldı. |
| **1207-ci il** | Çingiz xan qalibiyyətli hərbi yürüşlərə başladı. |
| **1207-1211-ci illər** | Çingiz xan qırğız, merkit, uyğur və buynak tayfalarını tabe etdi. |
| **1211-ci il** | Çingiz xan Şimali Çinə yürüş etdii. |
| **1215-ci il** | Çingiz xan Pekin şəhəri tutdu və bütün Şimali Çinin işğalını başa çatdırdı. |
| **1219-1221-ci illər** | Çingiz xan Otrar, Buxara, Səmərqənd, Üzgənc və Mərv şəhərlərini ələ keçirdi. Mərkəzi Asiya monqollar tərəfindən işğal olundu. |
| **1220-1222-ci illər** | Şimali İran və Cənubi Qafqazı monqol işğalına məruz qaldı. |
| **1227-ci il** | Çingiz xan vəfat etdi. Ugedey böyük xaqan oldu. |
| **XIII əsrin 40-cı illəri** | Monqollar Şərqi Avropaya yürüş etdilər. Rus knyazları monqollardan vassal asılılığına salındı. Şərqi Avropada Batı xan tərəfindən Qızıl Ordu dövlətinin əsası qoyuldu. |
| **1256-cı il** | Hülakü xan Azərbaycan və İranı ələ keçirdi. |
| **1258-ci il** | Hülakü xan Bağdadı ələ keçirdi. Abbasilər xilafətinin varlığına son qoyuldu. Beşinci monqol ulusu - Hülakü dövləti yarandı. |
| **1258-1357-ci illər** | Hülakülər dövlətinin mövcud olması dövrü. |
| **XIII əsrin ikinci yarısı** | Monqol dövlətində mərkəzi hakimiyyətə tabe olmamaq meylləri gücləndi. |
| **1264-cü il** | Monqol dövlətinin paytaxtı Qaraqorumdan Pekinə köçürüldü. |
| **XIII əsrin sonları** | Qızıl Ordu dövləti ilə Monqol imperatorluğu arasında əlaqələr tamalilə kəsildi. |
| **XIV əsrin əvvəlləri** | Monqol dövləti parçalandı və ərazisində ayrı-ayrı dövlətlər yarandı. |

| | |
|---|---|
| **1357-ci il** | Qızıl Ordu xanı Canı bəy Azərbaycana yürüş etdi. Hülakülər dövləti süqut etdi. |
| **1370-ci il** | Teymurilər dövlətinin əsası qoyuldu. |
| **1370-1405-ci illər** | Əmir Teymurun hakimiyyəti. |
| **1380-ci il** | Moskva Knyazlığı ilə Qızıl Ordu arasında Kulikova döyüşü baş verdi. |
| **1382-ci il** | Toxtamış xan Moskvanı tutaraq yandırdı. |
| **1387-1395-ci illər** | Əmir Teymurla Toxtamış xanı arasında müharibə baş verdi. |
| **1395-ci il** | Əmir Teymur ilə Qızıl Ordu arasında Terek çayı sahilində döyüş baş verdi. Əmir Teymur Qızıl Ordunun şərq vilayətlərini ələ keçirdi. |
| **1405-ci il** | Əmir Teymur Otrar şəhərində vəfat etdi. |
| **XV əsr** | Qızıl Ordu müstəqil dövlətlərə parçalandı. Qazan, Həştərxan Krım və Sibir xanlıqları yarandı. Rus knyazlıqlarının Qızıl Ordudan asılılığa son qoyuldu. |
| **1507-ci il** | Şeybani xan Xorasanı tutdu. Teymurilər dövləti süqut etdi. |
| **XVI əsrin əvvəlləri** | Qızıl Ordu dövləti süqut etdi. |

***

| | |
|---|---|
| **1299-cu il** | Osmanlı dövləti yarandı. |
| **1299-1326** | Osman qazinin hakimiyyəti |
| **1326-1399-cu illər** | Orxan qazinin hakimiyyəti. |
| **1359-1389-cu illər** | Sultan I Muradın hakimiyyəti. |
| **1361-ci il** | Osmanlı dövlətinin paytaxtı Ədirnə şəhərinə köçürüldü. |
| **1371-ci il** | Çirmən döyüşündə Osmanlılar Serbiya dövlətini məğlub etdi. Serbiya osmanlılardan asılılığı qəbul etdi. |
| **1389-1402-ci illər** | I İldırım Bəyazidin hakimiyyəti. |
| **1402-ci il** | Bəyazidlə Teymur arasında Ankara döyüşü baş verdi. |
| **1421-1451-ci illər** | Sultan II Muradın hakimiyyəti. |
| **1453-cü il 29 may** | II Mehmet Konstantinopolu fəth etdi. Bizans imperiyasının varlığına son qoyuldu, Konstantinopol şəhəri İstanbul adlanaraq Osmanlı dövlətinin paytaxtına çevrildi. |
| **1520-1566-cı illər** | Sultan I Süleyman Qanuninin hakimiyyəti. |
| **1514-cü il** | Çaldıran düzündə Osmanlılar Səfəviləri məğlub etdilər. |
| **1521-1526-cı illər** | Sultan I Süleyman Belqradı, Cənubi və Mərkəzi Macarıstanı tutdu. |

***

| | |
|---|---|
| **V əsrin sonları** | German tayfalarının işğalları nəticəsində Qərbi Avropada quldarlıq quruluşu dağıldı və feodalizm quruluşu meydana gəldi. |
| **V-VI əsrlər** | Alman tayfalarında nəsil icması qonşuluq icması ilə əvəz oludu. |
| **V əsrin sonları** | Frank tayfa başçısı Xlodviqin Qalliyaya hücum etdi. |
| **486-cı il** | Suasson döyüşü nəticəsində Xlodviq romalılar üzərində qələbə qazanaraq Qalliyanın bir hissəsini ələ keçirdi. |
| **500-cü il** | Qərbi Avropada ilkin feodal dövləti olan Frank dövləti yarandı. |
| **500-843-cü illər** | Frank dövlətinin mövcud olması dövrü. |
| **768-814-cü illər** | Böyük Karlın hakimiyyəti. |
| **800-cü il** | Frank imperiyası yarandı. |
| **843-cü il** | Verden müqaviləsinə əsasən Frank imperiyası üç hissəyə parçalandı, Frank imperiyası süqut etdi, onun yerində Fransa, Almaniya və İtaliya krallıqları yarandı. |
| **IX-X əsrlər** | İtaliya Müqəddəs Roma imperiyasının tərkibində qatıldı. İtaliya şəhərlərinin çoxu kommuna hüququ qazandı. İtaliya müstəqil dövlətlərə parçalandı və müstəqil Genuya, Piza, Venesiya şəhər respublikaları yarandı. |
| **IX-XIV əsrlər** | Fransada Kapetinqlər sülaləsinin hakimiyyəti. |
| **IX əsrin sonları** | Almaniya vilayətləri vahid dövlətdə birləşdirildi və vahid dövlət yaradıldı. |
| **IX-XI əsrlər** | Qərbi Avropada feodal dağınıqlığı dövrü. |

| | |
|---|---|
| **X-XI əsrlər** | Fransada feodal münasibətlərinin formalaşması başa çatdı. Fransa iri feodal mülklərinə parçalandı. |
| **X– XI əsrlər** | Almaniya işğalçılıq siyasətinə başladı. |
| **962-ci il** | Almaniya kralı I Otto Romanı işğal edərək özünü Roma imperatoru elan etdi. Müqəddəs Roma imperiyası (962-1806) yarandı. Papa vilayəti Müqəddəs Roma imperiyasının tərkibinə qatıldı. İtaliyaya sahib olmaq uğrunda Roma papaları ilə alman kralları arasında mübarizə başladı. |
| **XI əsrin sonları** | Almaniyada feodal münasibətləri inkişaf etməyə başladı və ərazisində müstəqil knyazlıqlar yarandı. |

***

| | |
|---|---|
| **395-1453-cü illər** | Bizans imperiyasının mövcud olması dövrü. |
| **VI əsr** | Slavyanlar Bizansın tabeçiliyində olan Balkan yarımadasının şimalını, Makedoniya və Yunanıstanı işğal etdilər. |
| **VI əsrin ortaları** | «Xalqların böyük köçü» slavyanların Bizans ərazisində məskunlaşması ilə başa çatdı. Bizansda quldarlıq quruluşu dağıldı. |
| **VII əsr** | Bizansda feodalizm münasibətləri yaranmağa başladı. |
| **VII əsr** | Bizans imperiyası zəifləməyə başladı. Ərəblər Bizans imperiyasının mülkləri olan Suriya və Misiri tutdu. |
| **XI əsr** | Bizans Səlcuq türklərinin yürüşlərinə məruz qaldı. |

***

| | |
|---|---|
| **VII-VIII əsrlər** | Slavyanlarda qəbilə quruluşu qonşuluq icması ilə əvəz olundu. |
| **IX əsr** | Slavyanlarda ilk dövlətlər meydana gəldi. |
| **IX əsrin ikinci yarısı** | Şərq slavyanlarının ilk dövləti olan Kiyev dövləti yarandı. |
| **X əsrin əvvəlləri** | Qərb slavyanların ilk dövləti olan Çexiya dövləti yarandı. |
| **X əsrin ortaları** | Polşa dövləti yarandı. Knyaz İgid Beloslav (I Beloslav) tərəfindən bütün Polşa torpaqları vahid dövlətdə birləşdirildi. |
| **XI əsr** | Kiyev dövləti müstəqil knyazlıqlara parçalandı. |
| **XIII əsr (1237-1240)** | Monqollar rus torpaqlarına hücum etdilər. Hücum nəticəsində rus knyazlıqları Qızıl Ordu dövlətinin vassal asılılığına (1240-1480) düşdülər. |
| **XIV əsr** | Rus torpaqlarının vahid mərkəzləşmiş dövlətdə birləşdirilməsi prosesinə başlanıldı. |
| **XIV əsrin ikinci yarısı** | Qızıl Ordu xanlarının rus torpaqlarına hücumları tamamilə kəsildi. |
| **XIV əsrin ikinci yarısı** | Moskva knyazlığı Rus torpaqlarını birləşdirilmək uğrunda mübarizəyə başladı. |
| **1380-cı il** | Kulikova döyüşü. Dmitri Donskoyun başçılığı ilə ruslar Qızıl Ordu xanı Mamay xanı məğlub etdilər. |
| **1382-ci il** | Toxtamış xan Moskvanı tutaraq yandırdı. Moskva knyazlığı yenidən Qızıl Ordunun vassal asılılığına düşərək ona xərac verməyə başladı. |
| **1497-ci il** | Rusiyada təhkimçilik hüququnun təsdiq edilməsi haqqında III İvan tərəfindən fərman verildi. |
| **XV əsr** | Mərkəzləşmiş Rus dövləti yarandı. |
| **XVI əsrin 50-ci illəri** | Qazan və Həştərxan xanlıqları Rusiya tərəfindən işğal edildi. |
| **XVI əsrin sonları** | Qərbi Sibir torpaqları Rusiyaya birləşdirildi. |

***

| | |
|---|---|
| **XI əsr** | İtaliya və Fransanın cənubunda yeni şəhərlər yarandı. |
| **XI-XIII əsrlər** | Qərbi və Mərkəzi Avropa şəhərlərində sənətkar ittifaqları yarandı. |
| **XII-XIII əsrlər** | Avropa ölkələrində şəhərlər senyorlara qarşı mübariz apardı. |
| **XIII əsr** | Şərq ölkələri ilə ticarət Bizansdan Venesiya və Genuya tacirlərinin əlinə keçdi. |
| **XIII əsr** | Fransanın Şampan yarmarkası Avropada ən böyük yarmarkaya çevirildi. |
| **XIII-XIV əsrlər** | Qərbi Avropa tacirləri gildiyalar (ticarət birlikləri) yaratdı. |

***

| | |
|---|---|
| **1054-cü il** | Xristian kilsəsi iki hissəyə parçalandı. |
| **1095-ci il** | Roma papası II Urbanın xristianları Şərq ölkələrinə yürüş etməyə çağırdı. |
| **1906-cı il, yaz** | Qərbi Avropa kəndliləri birinci səlib yürüşünə başladı. |
| **1096-cı il, payız** | Fransa, Almaniya və İtaliya cəngavərləri birinci səlib yürüşünü davam etdirdi. |
| **1096-1099-cu illər** | Birinci səlib yürüşü. Səlibçilər Qüdsü tutaraq burada müsəlman qırğını törətdilər, Suriya və Fələstinin aralıq dənizi sahillərində Qüds krallığı yaradıldı. |
| **XI-XIII əsrlər** | Katolik kilsəsi bidətçilərə qarşı inkvizisiya məhkəməsi təşkil etdi |
| **1147-ci il** | İkinci səlib yürüşü. Misir hökmdarı Səlahəddin Əyyubi səlibçi qoşunlarını məğlub edərək onları Qüdsdən qovdu. |
| **1190-cı il** | Üçüncü səlib yürüşü baş verdi. |
| **1199-cu il** | Səlibçilər Roma Papası III İnnokentinin başçılığı ilə dördüncü səlib yürüşünə başladılar. |
| **1204-cü il** | Səlibçilər Bizansın paytaxtı Konstantinopolu tutdular. Müqəddəs Sofiya kilsəsi qarət olundu. |
| **1261-ci il** | Səlibçilər Konstantinopoldan qovuldular. |
| **XIII əsrin sonları** | Səkkizinci səlib yürüşü. Səlibçilər Şərq ölkələrindən tamamilə qovulub çıxarıldı. |
| **XIII əsr** | İngiltərə, Polşa, İsveç və Danimarka dövlətləri Roma papasının vassalına çevrildi. |

***

| | |
|---|---|
| **VIII əsr** | Pireney yarımadasında ərəblər tərəfindən Kordova xilafətinin əsası qoyuldu. |
| **XI-XV əsrlər** | İspaniyada müsəlmanlara qarşı səlib yürüşləri həyata keçirildi. |
| **1479-ci il** | Kastiliya və Araqon krallıqlarının birləşməsi nəticəsində mərkəzləşmiş İspaniya dövləti yarandı. Navarra krallığı İspaniya və Fransa arasında bölüşdürüldü. |
| **1492-ci il** | İspaniya Qranada müsəlman əmirliyini tutdu. Portuqaliyadan başqa, bütün Pireney yarımadası İspaniyanın əlinə keçdi. |

***

| | |
|---|---|
| **IX-X əsrlər** | İtaliyada müstəqil Piza, Venesiya və Genuya şəhər respublikaları yarandı. İtaliya şəhərləri senyorlara qarşı mübarizəyə başladı. Lukka, Milan, Boloniya və Piza şəhərləri kommuna hüququ əldə etdilər. |
| **XII əsr** | Venesiyada şüşə, bədii şüşə və güzgü istehsalı genişləndi. |
| **XII əsr** | Venesiyada veksel və çek sistemi tətbiq olunmağa başlandı. |
| **1156-cı il** | Venesiyada Avropanın ilk dövlət bankı yaradıldı. |
| **XIV əsr** | Venesiya respublikası Şərqlə ticarətdə vasitəçilikdən Genuyanı sıxışdırıb çıxardı. |
| **XV əsr** | İtaliyanın bir sıra şəhərlərində varlı ailələr hakimiyyəti ələ keçirdi. Milan, Boloniya və Florensiya şəhərlərində tiranlıq idarə üsulu yaradıldı. |
| **XV əsr** | Florensiyada Mediçilər ailəsi hakimiyyəti ələ keçirdilər. |

***

| | |
|---|---|
| **843-cü il** | Fransa krallığı yarandı. |
| **843-1792-ci illər** | Fransa krallığının mövcud olması dövrü. |
| **XI əsr** | Fransada şəhərlər meydana gəldi. |
| **XI əsr** | Fransanın birləşdirilməsi uğrunda mübarizə başladı. |
| **XI-XIII əsrlər** | Fransa torpaqlarının çox hissəsi İngiltərə kralları tərəfindən tutuldu. |
| **XIII əsr** | Normandiya və Tuluza qraflığı Fransaya birləşdirildi. |
| **XIV əsrin əvvəlləri** | IV Gözəl Fillip ilə Roma papası arasında münaqişə baş verdi. |
| **1302-ci il** | Fransada ilk dəfə Baş Ştatlar çağırıldı. |
| **1337-1453-cü illər** | İngiltərə ilə Fransa arasında yüzillik müharibə baş verdi. |
| **1358-ci il** | Fransada "Jaklar" üsyanı baş verdi. |
| **1429-cu il** | Janna D`Ark Orlean şəhərini mühasirədən azad etdi. |
| **1453-cü il** | Fransa ilə İngiltərə arasında sülh bağlandı və yüzillik müharibə başa çatdı. |
| **XV əsrin ikinci yarısı** | XI Lüdoviqlə Burqundiya hersoqu İgid Karl arasında münaqişə baş verdi. |

| | |
|---|---|
| **XV əsrin sonları** | Burqundiya, Marsel və Bretan qraflığı Fransaya birləşdirildi. |
| **XVI əsrin əvvəlləri** | Fransada manufakturalar meydana gəldi. |
| **XVI əsr** | Fransanın qərb sahillərindəki limanların əhəmiyyəti artdı. |
| | *** |
| **IV-VI əsrlər** | Anqlo-sak tayfaları Britaniya adalarında məskunlaşdı. İngilis xalqı yarandı. |
| **VII əsr** | İngiltərədə feodal münasibətləri meydana gəldi. |
| **1066-cı il** | Qastinqs döyüşü. İngiltərədə Fateh Vilhelm tərəfindən mərkəzləşmiş dövlətin əsası qoyuldu. İngiltərədə Vilhelmlər sülaləsinin hakimiyyəti dövrü başladı. |
| **1066-1087-ci illər** | İngiltərədə Vilhelmlər sülaləsinin hakimiyyəti dövü. |
| **1265-ci il** | İlk dəfə İngiltərədə parlament çağırıldı. |
| **XIV əsr** | İngiltərə parlamenti lordlar və nümayəndələr palatasına bölündü. |
| **1381-ci il** | İngiltərədə Uot Tayler üsyanı baş verdi. |
| **1455-1485-ci illər** | İngiltərədə al qızılgül və ağ qızılgül müharibələri baş verdi. |
| **1485-1603-cü illər** | İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyəti dövrü. |
| **XVI əsrin əvvəlləri** | İngiltərədə ilk kapitalist müəssisəsi olan manufakturalar meydana gəldi. |
| **XVI əsr** | İngiltərədə “çəpərləmələr” başladı. |
| **1588-ci il** | La-Manş döyüşü. İngilislər Məğlubedilməz armadanı məhv etdilər. |
| **1558-1603-cü illər** | İngiltərə tarixinin «qızıl dövrü». Tüdorlar sülaləsinin sonuncu nümayəndəsi I Yelizavetanın hakimiyyəti dövrü. |
| | *** |
| **XVI əsrin əvvəlləri** | Almaniyada ilk manufakturalar meydana gəldi. |
| **1517-ci il** | Martin Lüter katolik kilsəsinin “cənnət qəbzi” alverinə qarşı çıxış etdi. |
| **1524-1525-ci illər** | Almaniyada kəndli müharibəsi baş verdi. |
| **1555-ci il** | Almaniyada katoliklərlə protestantlar arasında Auqsbruq sazişi imzalandı. |
| **1572-ci il, 23 avqust** | “Varfolomey gecəsi” hadisəsi baş verdi. Fransada katoliklər protestant qırğını törətdilər. |
| **XVI əsr** | İsveç, İngiltərə və Danimarka kralları kilsə islahatı keçirərək öz ölkələrində kilsə başçıları oldular. |
| **XVI əsr** | Avropada reformasiya nəticəsində katolik kilsəsi başqa kilsələrə parçalandı. |
| | *** |
| **XVI əsrin birinci yarısı** | İspaniya kralı II Filipp Niderlandda inkvizisya tətbiq etdi. |
| **1566-cı il** | Niderlandda katolik kilsəsi və ispan zülmünə qarşı burjua inqilabı başladı. |
| **1572-ci il** | Dəniz gözləri Brill limanını tutdu. Hollandiyanın şimalında üsyan başladı. |
| **1576-cı il** | İspan əsgərləri Antverpen şəhərini tutaraq dağıtdı. Hollandiyanın cənub əyalələrinin əhalisi üsyana qoşuldu. |
| **1579-cu il** | Cənubi Niderlandda üsyan yatırıldı və İspaniyanın hakimiyyəti altında qaldı. |
| **1579-cu il** | Niderlandın yeddi şimal əyaləti birləşərək vahid dövlət - Hollandiya respublikasını yaratdı. |
| **1609-cu il** | İspaniya Hollandiyanın dövlət müstəqilliyini tanıdı. Niderland burjua inqilabı başa çatdı. |
| | *** |
| **XV-XVI əsrlər** | Qərbi Avropada su mühərrikləri təkmilləşdirildi, yuxarıdan fırlanan çarx karavellalar - yelkənli gəmilər və kompas, domna peçləri ixtira olundu. |
| **XVI əsr** | Qərbi Avropada ağır və yüngül toplar, tapançalar və müşkeklər ixtira olundu. |
| **XV əsrin əvvəlləri** | Portuqaliya kralları Atlantik okeanına və Afrikanın qərb sahillərinə ekspedisiyalar göndərməyə başladı. |
| **XV əsr** | Avropa dənizçiləri qədim alimlərin yerin kürə şəklində olması haqqında fikirləri ilə maraqlanmağa və uzaq ölkələrə səfərə çıxmağa başladılar. |
| **1487-1488-ci illər** | Bartalomey Diaş Ümid burnunu kəşf etdi. |

| | |
|---|---|
| **1492-ci il** | Xristofor Kolumb Amerikanı, Kuba və Haiti adalarını kəşf etdi. |
| **1498-ci il** | Vasko da Qama Hindistana gedən dəniz yolunu kəşf etdi. |
| **1499-1504-cü illər** | Ameriqo Vespuçi Amerikanın yeni qitə olduğunu sübut etdi. |
| **1519-1522-ci illər** | Fernando Magellanın ilk dünya səyahəti. |
| **XV-XVI əsrlər** | Ticarət yolları Aralıq dənizindən okeanlara keçdi. Müstəmləkə əsarətinin əsası qoyuldu. |
| **XVI əsr** | Portuqaliyalılar Ərəbistan və Hindistan yarımadasını, Şərqi Afrikanın Hind okeanı sahillərini, Zond və Molukk adalarını, Cənubi Amerikada Braziliyanı, ispanlar Braziliyadan başqa, bütün Cənubi Amerikanı, Perun, Kuba və Karib dənizinin adalarını tutaraq müstəmləkəyə çevirdi. |

***

| | |
|---|---|
| **V-VIII əsrlər** | Orxon-Yenisey abidələri tərtib olundu. |
| **IX əsr** | Bulqar şairi Mikayıl Baştun «Şan qızı dastanı» əsərini yazdı. |
| **870-950-ci illər** | Şərqin böyük mütəfəkkiri Fərabinin yaşadığı dövür. |
| **973-1048-ci illər** | Əbu Reyhan əl-Biruninin yaşadığı dövür. |
| **980-1037-ci illər** | İbn Sinanın yaşadığı dövür. |
| **IX əsr** | Əhməd əl-Bəlazuri tərəfindən «Ölkələrin fəthi» adlı tarixi əsəri yazıldı. |
| **1029-1105-ci illər** | Görkəmli türk astronomu Mahmud Qaşğarinin həyat və fəaliyyəti dövrü. |
| **1048-1131-ci illər** | Ömər Xəyyamın həyat və fəaliyyəti dövrü. |
| **1066-cı il** | Bağdadda «Nizamiyyə» mədrəsəsi açıldı. |
| **XIII əsr** | Dehli sultanı Qütbəddin Aybək tərəfindən «Qütb minar» abidəsi inşa etdirildi. |
| **XIII-XIV əsrlər** | Təbrizdə Rəşidiyyə ali mədrəsəsi fəaliyyətə başladı. |
| **1465-1554-cü illər** | Böyük türk dənizçisi və coğrafiyaçısı Piri Rəisin həyat və fəaliyyəti dövrü. |
| **XVI əsr** | Hindistan mədəniyyətinin «Əkbər əsri». Moğol hökmdarı Əkbər şahın dövrü. |
| **XIV əsr** | Əmir Teymur tərəfindən Səmərqənddə «Gur Əmir» türbəsi inşa etdirildi. |
| **XV-XVI əsrlər** | Memar Sinan Xoca tərəfindən Şahzadə, Süleymaniyyə və Səlimiyyə cameləri inşa edildi. İstanbulda Çinili köşk, Topqapı, Fənərbağça dultan sarayları inşa olundu. |

***

| | |
|---|---|
| **III əsr** | Mayya yazısı meydana gəldi. |
| **532-537-ci illər** | Yustinianın əmri ilə “Müqəddəs Sofiya” kilsəsi tikildi. |
| **VIII-IX əsrlər** | Mayyalılar tərəfindən Uşmalada hökmdar sarayı inşa edildi. |
| **1045-ci il** | Konstantinopolda ilk universitet fəaliyyətə başladı. |
| **XI əsr** | Konstantinopolda ilk ali tibb məktəbi yaradıldı. |
| **XI-XII əsrlər** | Mayyalılar tərəfindən Çiçen-İtsada rəsədxana inşa edildi. |
| **XII əsr** | Kordova məscidi və Seviliyada Əlkəsar sarayı inşa edildi. |
| **XII əsr** | Avropada ilk ali məktəblər - universitetlər meydana gəldi. |
| **1158-ci il** | İtaliyada Boloniya universiteti yaradıldı. |
| **XIII əsr** | İngiltərədə Oksford universiteti yaradıldı. |
| **XIII-XV əsrlər** | Qranada hakimlərinin Əlhambra sarayı (Qırmızı saray) inşa edildi. |

## YENİ DÖVR

| | |
|---|---|
| **1722-ci il** | Əfqanlar İsfahan şəhərini ələ keçirdi. |
| **1724-cü il, iyun** | Osmanlı ilə Rusiya arasında İstanbul müqaviləsi imzalandı. |
| **1731-ci il** | Şah II Təhmasib İrəvan yaxınlığında döyüşdə osmanlılar tərəfindən məğlubiyyətə uğradıldı. |
| **1732-ci il** | II Təhmasib Nadir xan tərəfindən hakimiyyətdən kənarlaşdırıldı və onun oğlunu III Abbas adı ilə şah elan edi. Səfəvilər dövlətində real hakimiyyət Nadir xanın əlinə keçdi. |
| **1733-cü il** | Nadir xan osmanlılarla sülh bağladı. |
| **1736-cı il, mart** | Muğan qurultayını çağırıldı. Nadir xan şah seçildi. Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu. Nadir xan tərəfindən Azərbaycan Əfşarlar imperiyasının əsası qoyuldu. |
| **1736-1747-ci illər** | Nadir Şah Əfşar İmperiyasının mövcud olması dövrü. |
| **1737-ci il** | Nadir şah Əfqanıstana yürüş etdi. Qəndəhar və Kabul ələ keçirildi. |
| **1738-ci il** | Nadir şah Hindistana yürüş etdi. |
| **1739-cu il** | Karnal döyüşü. Nadir şah moğol qoşunlarını məğlub edərək Dehlini tutdu. |
| **1740-cı il** | Nadir şah Türküstana yürüş etdi. Buxara xanı və Xivə xanlıqları Nadir şahın hakimiyyətini qəbul etdi. |
| **1743-1746-cı illər** | Nadir şah Osmanlı imperiyası ilə müharibə apardı. |
| **1747-ci il** | Nadir şah sui-qəsdi nəticəsində öldürüldü. Əfşar İmperiyası süqut etdi. |
| **XVIII əsrin 50-ci illəri** | İran və Azərbaycanda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda Məhəmməd Həsən xan Qacar, Kərim xan Zənd və Fətəli xan Əfşar arasında mübarizə başladı. |
| **1759-cu il** | Məhəmməd Həsən xan Qacar öldürüldü. |
| **1763-cü il** | Kərim xan Zənd Urmiya xanı Fətəli xan Əfşarı məğlub edərək Azərbaycan və İranda hakimiyyəti ələ keçirdi. |
| **1785-ci il** | Ağa Məhəmməd xan Qacar Zəndlər üzərində qələbə çaldı. |
| **1794-cü il** | Azərbaycan-türk soyundan olan Qacarlar sülaləsi hakimiyyətə gəldi. |
| **1795-ci il** | Ağa Məhəmməd xan Qacarın Qafqaza birinci yürüşü. İrəvan və Tiflis şəhərləri ələ keçirildi. Şuşanın 33 günlük mühasirəsi isə uğursizluqla nəticələndi. |
| **1796-cı il** | Ağa Məhəmməd xan Qacar özünü şah elan etdi. İranda Qacarlar sülaləsinin hakimiyyəti başladı. |
| **1796-1925-ci illlər** | İranda Qacarlar sülaləsinin hakimiyyəti dövrü. |
| **1797-ci il** | Ağa Məhəmməd xan Qacarın Qafqaza ikinci yürüşü. Ağa Məhəmməd şah Şuşada sui-qəsd nəticəsində öldürüldü. |
| **1800-cü il** | Malkolmun başçılıq etdiyi İngiltərə nümayəndə heyəti İrana gəldi. İranla ingilislər arasında siyasi və ticarət müqaviləsi imzalandı. Qacarlar dövlətinin İngiltərədən asılılığının əsası qoyuldu. |
| | *** |
| **1674-cü il** | Hindistanda Maratx dövləti yarandı. |
| **1658-1707-ci illər** | Moğol imperatoru Övrəngzəbin hakimiyyəti illəri. |
| **XVII əsrin əvvəlləri** | İngilislər moğollardan Suratda ticarət məntəqəsi yaratmağa icazə aldı. |

| | |
|---|---|
| **XVII əsrin sonları** | Fransa Hindistan uğranda mübarizəyə qoşuldu və Benqaliyada ilk istehkam məntəqəsi yaratdı. |
| **XVIII əsrin birinci yarısı** | Aud knyazlığı Moğol dövlətindən ayrıldı. Hindistanda Benqaliya və Heydərabad dövlətləri yarandı. |
| **1739-cu il** | Nadir şah Əfşar Moğol ordularına qalib gələrək Dehlini tutdu. |
| **1747-ci il** | Əhməd şah Dürraninin tərəfindən müstəqil Əfqan dövləti yadadıldı. Əfqanlar Şimali Hindistanı (Pəncabı, Kəşmiri, Dehli və Hind çayı arasındakı əraziləri) ələ keçirdi. |
| **1757-ci il** | Plessi döyüşü. İngilislər moğolları məğlub edərək Benqaliyanı ələ keçirdi, Hindistanın İngiltərə tərəfindən işğalına başlanıldı. |
| **1761-ci il** | Panipat döyüşü. Maratxlar əfqanlara məğlub oldu və maratxların Hindistandakı hökmranlığına son qoyuldu, Böyük Moğol imperiyasının dağılmasının başlanğıcı qoyuldu. |
| **1767-1799-cu illər** | İngiltərə-Maysor müharibəsi baş verdi. Maysor dövləti öz istiqlaliyyətini itirdi. |
| **1774-cü il** | İngiltərə parlamenti işğal olunmuş Hindistan torpaqlarının idarə olunması haqqında ilk qanun qəbul etdi. |
| **XVIII əsrin ikinci yarısı** | Hindistanın varlı vilayətləri və bütün cənub hissəsi İngiltərənin müstəmləkəsinə çevrildi. Hindistanın İngiltərə tərəfindən tamamilə müstəmləkəyə çevrilməsi prosesi başa çatdı. |

***

| | |
|---|---|
| **1626-1644-cü illər** | Çində kəndli üsyanı baş vermdi. |
| **1644-cü il** | Çində Tsin (Mancur) sülaləsi hakimiyyətə gəldi. |
| **1644-1912-ci illər** | Çində Tsin (Mancur) sülaləsini hakimiyyəti dövrü. |
| **1715-ci il** | Çinin Kanton şəhərində ilk ingilis məskəni salındı. |
| **XVIII əsrin 20-ci illəri** | Rusiya ilə Çin arasında ticarət müqavilələri imzalandı. |
| **1757-ci il** | İmperator fərmanı ilə Mancur hökuməti «özünütəcrid» siyasətini elan etdi. |
| **1689-1758-ci illər** | Çin ilə Cunqariya (oryat) xanlığı arasında müharibə baş verdi. Cunqar xanlığı və Qaşqar şəhəri Çin tərəfindən işğal edildi. |
| **XVIII əsrin ikinci yarısı** | Çin Şərqi Tibeti işğal etdi. |
| **XVIII əsrin sonları** | Mancur qoşunları Hind-Çinə yürüşlər etdilər. Birma, Vyetnam, Butan və Nepal mancurlardan asılı vəziyyətə düşdü. Koreya Çinə tabe edildi. Çin vahid dövlətdə birləşdirildi. |

***

| | |
|---|---|
| **XVI əsrin ortaları** | Avropalılar ilk dəfə Yaponiyaya gəlməyə başladılar. |
| **XVI əsrin sonları** | Knyaz Oda Nobunaqa mərkəzləşdirmə siyasəti yeritməyə başladı. |
| **1582-ci il** | Knyaz Oda Nobunaqa vasalları tərəfindən öldürüldü. |
| **1582-1603-cü illər** | Yaponiyanı siyasi cəhətdən birləşdirmək uğrunda mübarizə baş verdi. |
| **1603-cü il** | İmperator sərəncamı ilə Tokuqava İyeyasu özünü syoqun elan etdi. Yaponiyanı siyasi cəhətdən birləşdirmək uğrunda 30 illik mübarizə başa çatdı. Yaponiyada üçüncü syoqun sülaləsinin - Tokuqava sülailəsinin hakimiyyəti başladı. |
| **1603-1867-ci illər** | Yaponiyada Tokuqava sülailəsinin hakimiyyəti dövrü. |
| **XVII əsrin əvvəlləri** | Yaponiya «özünütəcrid» siyasəti yeritməyə başladı. |

**1604-cü il** Tokuqava hökuməti tərəfindən ipək xammalının və hazır ipək məmulatlarının xarici tacirlərdən satın alınmasına başlanıldı. Yapon-holland ticarət müqaviləsi imzalandı. Xirado adasında holland faktoriyasının əsası qoyuldu.

**1613-cü il** Xirado adasında ingilis faktoriyasının əsası qoyuldu və ingilis Ost-Hind kompaniyasına Yaponiyada ticarət aparmaq imtiyazı verildi.

**1614-cü il** Tokuqava hökuməti xristianlığı «imperiyanın düşməni» elan etdi.

**1635-ci il** Yaponiyada girovluq sistemi tətbiq olundu.

**1623-1624-cü illər** İngilislər, ispanlar və portuqaliyalılar Yaponiyadan tamamilə çıxarıldı.

**XVIII əsrin əvvəlləri** Yaponiyada iqtisadi tənəzzül dövrü başladı.

**1680-1709-cu illər** Syoqun Sunayoşinin hakimiyyəti.

**1716-1745-ci illər** Syoqun Yoşimunenin hakimiyyəti.

***

**XVI əsrin sonların** Osmanlı imperiyasında durğunluq dövrü başladı.

**XVII əsr** Osmanlı imperiyasında durğunluq dövrü geriləmə dövrü ilə əvəz olundu. Timar və ziyamət sistemi pozuldu.

**1615-ci il** Avstriya ilə Osmanlı dövlətləri arasında Vyana kapitulyasiya müqaviləsi bağlandı. Venesiya Osmanlı dövlətindən kapitulyasiya imtiyazları aldı.

**XVII əsr** Fransa, İngiltərə, Hollandiya və Avstriya tacirləri Osmanlı imperiyasından kapitulyasiya hüququ aldı.

**XVII əsrin ikinci yarısı** Baş vəziri Körpülü Mühmet paşa tərəfindən islahatlar həyata keçirildi.

**1663-1664-cü illər** Osmanlı-Avstriya müharibəsi. Osmanlı dövləti Macarıstan krallığının bir hissəsini və Dunay knyazlığını ələ keçirdi.

**1664-cü il** Osmanlı dövləti ilə Avstriya arasında Vasvar sülhü bağlandı.

**1669-cu il** Krit adası Osmanlı dövlətinə birləşdirildi.

**1677-1681-ci illər** Rusiya-Osmanlı müharibəsi baş verdi

**1681-ci il** Rusiya ilə Osmanlı dövləti arasında Baxçasaray sülhü imzalandı.

**1683-cü il** Osmanlı ordusu baş vəzir Qara Mustafa Paşanın başçılığı ilə Vyananı uğursuz mühasirəyə aldı.

**1684-cü il** Osmanlılar əleyhinə Avstriya, Polşa, Venesiya və Maltadan ibarət «Müqəddəs birlik» adlı ittifaq təşkil edildi.

**1686-cı il** Rusiya «Müqəddəs birliy»ə qoşuldu.

**1686-1699-cu illər** Osmanlı ilə «Müqəddəs birlik» arasında müharibə baş verdi.

**1699-cu il** «Müqəddəs birliy»ə daxil olan ölkələrlə Osmanlı arasında Karlovitsa müqaviləsi imzalandı.

**1703-1730-cu illər** Sultan III Əhmədin hakimiyyəti. Osmanlı imperiyasında «Lalə dövrü».

**1711-ci il** Prut yürüşü. Rusiya ilə Osmanlı arasında Prut döyüşü baş verdi.

**1716-1718-ci illər** Osmanlı dövləti ilə Venesiya və Avstriya arasında yeni müharibə baş verdi. Avstriyalılar Belqrad şəhərini işğal etdilər.

**1718-ci il** Avstriya ilə Osmanlı arasında Pojarevatsk müqaviləsi imzalandı.

**1730-cu il** İstanbulda Patron Xəlilin başçılığı ilə üsyan baş verdi.

**1735-1739-cu illər** Osmanlı dövləti ilə Avstriya və Rusiya arasında müharibə baş verdi.

**1739-cu il** Osmanlı dövləti ilə Avstriya və Rusiya arasında Belqrad sülhü imazlandı.

**1740-cı il** Osmanlı imperiyası ilə Fransa arasında kapitulyasiyaya müqaviləsi bağlandı.

| | |
|---|---|
| **1768-1774-cü illər** | Rusiya ilə Osmanlı dövləti arasında müharibə baş verdi. |
| **1770-ci il** | Osmanlı ilə Rusiya arasında Larqa, Kaqul və Çeşmə dəniz döyüşü baş verdi. |
| **1774-cü il, 10 iyul** | Osmanlı dövləti ilə Rusiya arasında Kiçik Qaynarca sülhü imzalandı. |
| **XVIII əsrin sonları** | «Şərq məsələsi» Rusiya xarici siyasətinin ana xəttinə çevrildi. |
| **1783-cü il** | Krım xanlığı Rusiyanın tərkibinə qatıldı. |
| **1787-1791-ci illər** | Rusiya-Osmanlı müharibəsi baş verdi. |
| **1791-ci il, dekabr** | Rusiya ilə Osmanlı dövləti arasında Yassı sülhü imzalandı. |
| **1792-1793-cü illər** | **Osmanlı dövlətində** Sultan III Səlim tərəfindən «Nizami-cədid» (yeni qayda) adlanan islahatlar həyata keçirildi. |

***

| | |
|---|---|
| **XV əsr** | Qazax xanlığı meydana gəldi. |
| **XVI əsr** | Qazax xanlığı iki orduya, daha sonra üç müstəqil orduya (juza) bölündü. |
| **XVI əsrin əvvəlləri** | Xivə xanlığı yarandı. |
| **XVI-XVII əsrlər** | Sibir türkləri Rusiyanın müstəmləkə əsarətinə düşdülər. |
| **XVII əsrin ikinci yarısı** | Xakaslarda feodal münasibətləri yarandı. |
| **XVIII əsrin əvvəlləri** | Kokand xanlığı yarandı. |
| **XVIII əsrin əvvəlləri** | Seyid Batırın başçılığı ilə Rusiyanın müstəmləkə siyasətinə qarşı üsyan baş verdi. |
| **1723-cü il** | Qazax tarixində «böyük fəlakət» dövrü. Qazax orduları Qərbi Monqolustanda yaranan Cunqar xanlığının qarətçi hücumlarına məruz qaldı. Orta Ordunun mərkəzi Türküstan şəhəri ələ keçirilərək dağıdıldı, Böyük Ordu (juz) cunqarların hakimiyyəti altına keçdi, üç ordu arasında ittifaq dağıldı. |
| **1731-ci il** | Sibir türkləri Rusiyanın müstəmləkə zülmünə qarşı üsyan qaldırdılar. |
| **1731-ci il** | Kiçik Ordunun başçısı Əbülxeyir xan Rusiyanın tərkibinə daxil olmaq haqqında akt imzaladı. Orenburq şəhər-qalası salındı. |
| **1740-cı il** | Orta Ordu və Böyük Ordunun şimal hissəsi Rusiya birləşdirildi. Qazaxıstanın cənubu Kokand və Buxara xanlıqları arasında bölüşdürüldü. |
| **1740-cı il** | Nadir şah Əfşar Xivə xanlığına hücum etdi. |
| **1747-ci il** | Məhəmməd Əmin xan Xivə xanlığını yenidən bərpa etdi. |
| **XVIII əsrin ortaları** | Tatar və başqırdlar Abdulla Qaliyanın (Batirşahın) başçılığı ilə Rusiyanın müstəmləkə zülmünə qarşı üsyan qaldırdı. |
| **XVIII əsr** | Rusiyanın Avropa hissəsindən ruslar Sibirə köçürüldü. |
| **XVIII əsr** | Sibirdə ilk sənaye müəssisələri işə salındı. Sibir kəndləri təhkimli işçilərə çevrildi. |
| **1783-cü il** | Kiçik Orduda Batır Srımın başçılığı ilə rus müstəmləkəçiliyinə və yerli hakimiyyətə qarşı üsyan baş verdi. |

***

| | |
|---|---|
| **XVII-XVIII əsrlər** | Şimali Qafqaz müstəqil və yarımmüstəqil siyasi qurumlara parçalandı. |
| **XVIII əsrin 60-cı illəri** | Rusiya Qızlyardan Azov dənizi sahillərinə kimi uzanan Qafqaz xəttini yaratdı. |
| **1774-cü il** | Rusiya Azov dənizi sahillərini ələ keçirdi. |
| **1783-cü il** | Krım xanlığı, Taman yarımadası və Kubanboyu ərazilər Rusiyaya birləşdirildi. |
| **XVIII əsrin sonları** | Kabarda knyazları, Çeçen-İnquş hakimləri, Tarku şamxalı Rusiya çarına sədaqət andı içdilər. |

| | |
|---|---|
| **1722-1723-cü illər** | I Pyotr Xəzərsahili bölgələri ələ keçirdi. |
| **1783-cü il** | Georgiyevsk müqaviləsi ilə Şərqi Gürcüstan Rusiyanın himayəsinə keçdi. |
| **1785-ci il** | Şeyx Mənsurun başçılığı ilə Qafqaz xalqları Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı üsyan qaldırdı. |
| **1795-ci il** | Ağa Məhəmməd xan Qacar Şərqi Gürcüstana yürüş etdi. |
| **1796-cı il** | Rus ordusu Valerian Zubovun başçılığı ilə Cənubi Qafqaza yürüş etdi. |
| **1796-cı il, noyabr** | Rus qoşunları Cənubi Qafqazdan geri çağırıldı. |
| | *** |
| **XVII əsr** | Çin memarlığında monumental binaların inşasına başlanıldı. Pekin sarayı, Mukdendəki (indi Şenyan) imperator mavzoleyi inşa edildi. |
| **XVII əsr** | Yaponiyada «şəkilli hekayələr» janrı meydana gəldi. |
| **1609-1616-cı illər** | Memar Mehmet Ağa tərəfindən Sultan Əhməd məscidi inşa edildi. |
| **XVII-XVIII əsrlər** | Dellidə Cümə məscidi inşa edildi. |
| **XVII-XVIII əsrlər** | Ağrı şəhərində İshak Paşa sarayı inşa edildi. |
| **1709-cu il** | Gürcüstanda mətbəənin əsası qoyuldu. |
| **1712-ci il** | Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» əsəri daşbasma üsulu ilə çap edildi. |
| **1727-ci il** | Osmanlı dövlətində ilk mətbəə yaradıldı. |
| **1784-cü il** | Uilyam Consun tərəfindən «Benqal-Asiya cəmiyyəti» (Kral cəmiyyəti) yaradıldı. |
| **XVIII əsr** | Mirzə Mehdi xan tərəfindən «Dünyanı fəth edən Nadirin tarixi», Məhəmməd Kazım tərəfindən «Dünyanı bəzəyən Nadirin tarixi» əsərləri yazıldı. |
| **XVIII əsr** | Dövrün tanınmış rəssamları olan Məhəmməd Zaman Təbrizinin, Mülkünün və dövrün məşhur şairləri olan Məcmər, Cəndəqinin həyat və fəaliyyəti dövrü. |
| **XVIII əsr** | Avar və çuvaş əlifbaları tərtib olundu. |
| | *** |
| **XVI əsr** | İngiltərədə ilk manufakturalar meydana gəldi. |
| **XVI əsr** | İngiltərədə Puritan təriqəti geniş yayıldı. |
| **1603-cü il** | İngiltərədə Stüartlar sülaləsi hakimiyyətə gəldi. |
| **1603-1714-cü illər** | İngiltərədə Stüartlar sülaləsinin hakimiyyəti dövrü. |
| **1629-cu il** | İngiltərə kralı I Karl tərəfindən parlament buraxıldı. |
| **1640-cı il** | İngiltərə kralı I Karl tərəfindən uzunmüddətli parlament çağırıldı. İngiltərə burjua inqilabı başladı. |
| **1640-1653-cü illər** | İngiltərə burjua inqilabı və Uzunmüddətli parlamentin fəaliyyəti dövrü. |
| **1642-1646-cı illər** | İngiltərədə vətəndaş müharibəsi baş verdi. |
| **1645-ci il** | İcmalar palatası Oliver Kromvelə yeni tipli ordu təşkil etməyi tapşırdı. |
| **1945-ci il** | Neyzbi döyüşü. Vətəndaş müharibəsinin taleyi həll olundu. |
| **1646-cı il, iyun** | İngiltərədə vətəndaş müharibəsi parlamentin qələbəsi ilə başa çatdı. İngiltərədə bütün hakimiyyət yeni zadəganların və burjuaziyanın əlinə keçdi. |
| **1648-ci il** | İngiltərə kralı «Prayd təmizləməsi» hadisəsi baş verdi. |
| **1649-cu il** | İngiltərədə Diggerlər - «həqiqi levellerlər» hərəkatı baş verdi. |
| **1649-cu il** | İngiltərə kralı I Karl edam olundu. İngiltərədə kral hakimiyyəti (monarxiya) və Lordlar palatası ləğv edildi. Hakimiyyət Oliver Kromvel başda olmaqla parlamentin əlinə keçdi. İngiltərə Respublika elan edildi. |

| | |
|---|---|
| **1649-1653** | İngiltərədə Respublika idarə üsulunun mövcud olduğu dövr. |
| **1649-cu il, avqust** | Kromvel İrlandiyaya canişin təyin olundu. İrlandiya parlamenti buraxıldı və İrlandiya İngiltərə Respublikasına birləşdirildi. |
| **1653-cü il** | İngiltərədə əksinqilabi dövlət çevrilişi baş verdi. «Uzunmüddətli parlament»in fəaliyyətinə, Respublikaya və inqilaba son qoyuldu. Kromvel lord-protektor elan olundu. |
| **1653-1658-ci illər** | İngiltərədə Oliver Kromvelin Lord-protektorluğu (hərbi diktaturası) dövrü. |
| **1653-1660-cı illər** | İngiltərədə Lord- protektorluq dövrü. |
| **1658-ci il** | Oliver Kromvel vəfat etdi. Riçar Kromvel lord-protektor elan edildi. |
| **1660-cı il** | İngiltərədə dövlət çevrilişi baş verdi. Şotlandiyadakı ordu generalları Londonu tutaraq İngiltərə parlamentini buraxdılar. |
| **1660-cı il** | II Karl kral elan edildi. İngiltərədə Sütüartlar sülaləsinin hakimiyyəti və məhdud monarxiya rejimi bərpa (restavrasiya) edildi. |
| **1660-1688** | İngiltərədə Stüartlar sülaləsinin bərpası - restavrasiyası dövrü. |
| **1660-1685-ci illər** | II Karlın hakimiyyət illəri. |
| **1685-1688-ci illər** | II Yakvun hakimiyyət illəri. |
| **1688-ci il** | İngiltərədə dövlət çevrilişi baş verdi. Parlament kral II Yakvu hakimiyyətdən uzaqlaşdırdı və Hollandiya hakimi, II Yakovun qızı - Mariyanın əri Oranlı Vilhelmi hakimiyyətə gətirdi. İngiltərədə parlamentlə kral arasında qarşıdurmaya son qoyuldu. |
| **1689-1702-ci illər** | Mariya və Vilhelmin birlikdə İngiltərə krallığını idarə etdiyi dövr. |
| **1689-cu il** | İngiltərə parlamenti tərəfindən "Hüquqlar haqqında bill" qəbul edildi. |
| **XVII əsr** | İngiltərə Yamayka və Portuqaliyanı özündən asılı vəziyyətə saldı. |
| **1702 -1707-ci illər** | Kraliça Annanın hakimiyyəti dövrü. |
| **1707-ci il** | Şotlandiya və İngiltərə parlamentləri birləşərək Böyük Britaniya krallığını yaratdılar. İngiltərə Böyük Britaniya adlanmağa başladı. |
| **XVIII əsr** | İngiltərə ilə Fransa arasında «ikinci yüzillik müharibə» baş verdi. İngiltərə Kanadanı və Benqaliyanı ələ keçirdi. |
| **1771-ci il** | Riçard Arkrayt tərəfindən İngiltərədə ilk fabrik işə salındı. |
| **1784-cü il** | Ceyms Uatt tərəfindən buxar maşını yaradıldı. İngiltərədə manufakturadan fabrikə keçid - sənaye çevrilişi baş verdi. |
| **XVIII əsrin 70-ci illəri** | Böyük Britaniya Dünyada birinci sənaye dövləti oldu və iqtisadiyyatında aparıcı rol fabrik-zavod sənayesinə keçdi. |
| **XVIII əsrin sonları** | İngiltərədə aqrar çevriliş baş verdi. |
| **XVIII əsr** | İngiltərədə sənayedə mühüm kəşflər və ixtiralar baş verdi. Con Key sürətli məkik, Ceymis Harqrivs mexaniki cəhrə, Edmund Kartrayt mexaniki toxucu dəzgahı ixtira etdi. |
| **XVIII əsrin sonları** | İngiltərə parlamenti tətilləri və fəhlələrin həmkarlar birliklərini qadağan edən qanun qəbul etdi. |

***

| | |
|---|---|
| **XVII əvvəlləri** | Şimali Amerikada ilk ingilis koloniyası salındı. |
| **1607-ci il** | Şimali Amerikada ilk ingilis koloniyası olan Virciniya koloniyasının əsası qoyuldu. |

| | |
|---|---|
| **1619-cu il** | Amerikaya Hollandiya gəmisi ilk qaradərili afrikalıları gətirdi. |
| **1630-cu il** | Massaçusets körfəzi sahillərində "Yeni İngiltərə" koloniyasının əsası qoyuldu. |
| **XVII-XVIII əsrlər** | Avropalılar tərəfindən Amerikada bütün hindu qəbilələri məhv edildi. |
| **XVII əsrin 30-cu illəri** | İngiltərə hökuməti koloniyalara yeni ərazilərə köçməyi və torpaqlar tutmağı qadağan etdi. |
| **1763-cü il** | İngiltərə kralının fərmanı ilə kolonistlərə qərbə köçmək qadağan edildi. |
| **1773-cü il** | «Boston çay məclisi» baş verdi. |
| **1775-ci il, 19 aprel** | Şimali Amerikada İstiqlaliyyət müharibəsi başladı. |
| **1775-1783-cü illər** | Şimali Amerikada İstiqlaliyyət müharibəsi baş verdi. |
| **1775-ci il, may** | Filadelfiyada ikinci kontinental Konqres açıldı. |
| **1776-cı il, 4 iyul** | ABŞ-da «İstiqlaliyyət Bəyənnaməsi» qəbul edildi. |
| **1776-cı il, mart** | Corc Vaşinqton ordusu Boston limanını ingilislərdən azad etdi. |
| **1777-ci il, may** | İngilislər Filadelfiyanı tutdu. İstiqlaliyyət müharibəsinin gedişində ordu və xalq çətinliklərlə üzləşdi. |
| **1777-ci il, oktyabr** | İstiqlaliyyət müharibəsinin gedişində dönüş baş verdi. İgilislər hərbi əməliyyatları cənuba keçirməyə məcbur oldular. |
| **1778-ci il** | ABŞ Konqresi Bencamin Franklini Avropaya göndərdi. |
| **1781-ci il, oktyabr** | Yorktaun döyüşü. Corc Vaşinqtonun orduları ingilisləri təslim olmağa məcbur etdi. |
| **1783-cü il** | ABŞ-la İngiltərə arasında Versal sülhü imzalandı. İstiqlaliyyət müharibəsi başa çatdı. |
| **1789-cu il** | ABŞ Konstitusiyası qəbul edildi. ABŞ-da ilk prezident seçkiləri və Konqresə seçkilər seçirildi. |
| **1789-1797-ci illər** | Corc Vaşinqtonun prezidentliyi dövrü. |
| **1791-ci il** | ABŞ Konstitusiyayasına «Hüquqlar haqqında bill» adlanan ilk düzəliş edildi. |

***

| | |
|---|---|
| **XVIII əsr** | Fransa burjua inqilabının müjdəçiləri olan maarifçilərin fəaliyyəti dövrü. |
| **1751-ci il** | Fransada "Elm, incəsənət və sənətlər ensklopediyası" nəşr olunmağa başladı. |
| **1756-1763-cü illər** | Fransa və İngiltərə arasında «yeddiillik» müharibə baş verdi. Fransa məğlub olaraq Kanada və Benqaliya kimi müstəmləkələrini itirdi. |
| **1789-cu il, 5 may** | Versalda Baş ştatların təntənəli açılışı oldu. |
| **1789-cu il, 17 iyun** | Üçüncü silkin nümayəndələri özlərini Milli Məclis elan etdilər. |
| **1789-cu il, 14 iyul** | Bastiliya qalası xalq tərəfindən tutuldu. Fransa burjua inqilabı başladı. |
| **1789-1794-cü illər** | Fransa burjua inqilabının baş verdiyi dövr. |
| **1789–cu il** | Fransada «İnsan və vətəndaş hüquqları Bəyannaməsi» qəbul olundu. |
| **1791-ci il, sentyabr** | Fransanın ilk konstitusiyası qəbul olundu. |
| **1792-ci il, fevral** | Avstriya ilə Prussiya Fransa inqilabına qarşı birinci əksinqilab koalisiya (ittifaq) yaratdı. Fransaya qarşı hərbi müdaxilə başlandı. |
| **1792-ci il, 10 avqust** | Fransada monarxiya idarə üsulu süqut etdi. |
| **1792-ci il, 20 sentyabr** | Valmi döyüşü. Fransızlar Prussiya qoşunlarını məğlub etdi. |
| **1792-ci il, 21 sentyabr** | Milli Konvent tərəfindən Fransada kral hakimiyyəti ləğv edildi. |
| **1792-ci il 22 sentyabr** | Fransa respublika elan edildi. |
| **1792-1804-cü illər** | Fransada Birinci Respublikanın mövcud olduğu dövr. |

| | |
|---|---|
| **1793-cü il** | Tulon şəhəri ingilis qüvvələrindən azad edildi**.** |
| **1793-1794-cü illər** | Fransada Yakobin diktaturası quruldu. |
| **1794-cü il, 27 iyul** | Fransada 9 ermidor çevrilişi baş verdi. Yakobin diktaturasına son qoyuldu, Fransa burjua inqilabı başa çatdı, Termidorçular hakimiyyətə gəldi, hakimiyyət yenidən iri burjuaziyanın əlinə keçdi. |
| **1794-1799-cu illər** | Fransada termidor (direktoriya) irticası dövrü. |
| **1795-ci il** | Fransanın Termidorçu («üçüncü il») konstitusiyası qəbul olundu. |
| **1795-1796-cı illər** | Parisdə Noel Baböfün başçılığı ilə «Bərabərlik uğrunda hərəkat» baş verdi. |
| **1796-1797-ci illər** | Napoleon Bonapart İtaliyaya yürüş etdi. Lodi döyüşündə İtaliyadakı Avstriya qoşunları darmadağın edildi və İtaliya tabe edildi. Belçika Fransanın tabeliyinə keçdi. |
| **1798-ci il** | Napaleon Misirə hərbi yürüş etdi. İsgəndəriyyə və Qahirə şəhərləri Napaleon tərəfindən tutuldu. |
| **1799-cu il** | İngilis admiralı Nelson Abukir döyüşündə fransız donanmasını məğlub etdi. |
| **1799-cu il, 9 noyabr** | Fransada 18 brümer çevrilişi baş verdi. Fransada iri burjuaziyanın hərbi diktaturası yaradıldı, Fransa tarixində yeni dövr – Napaleon Bonapartın hərbi burjua diktaturası dövrü başlandı. |
| **1799-1804-cü illər** | Fransada Konsulluq dövrü. |
| **1799-cu il, 24 dekabr** | Fransanın plebissit yolu ilə növbəti konstitusiyası qəbul edildi. |
| **1801-ci il** | Napalion Banapart ilə Roma papası VII Piy arasında konkordat (saziş) bağlandı. |
| | *** |
| **1613-cü il** | Zemstvo yığıncağında Mixail Romanov çar seçildi. Rusiyada Romanovlar sülaləsinin (1613-1917) hakimiyyəti başladı. |
| **1649-cu il** | Aleksey Mixayıloviç tərəfindən Rusiyanın yeni qanular külliyyatı («Məclis Qanunnaməsi») qəbul edildi. |
| **XVII əsrin ortaları** | Ukrayına və Belarusiyada Polşa və Litva hökmüranlığına qarşı azadlıq mübarizəsi baş verdi. |
| **1667-ci il** | Rusiyada «Yeni ticarət nizamnaməsi» qəbul olundu. |
| **1667-ci il** | Solsahil Ukraynası və Kiyev Rusiyaya birləşdirildi. |
| **1677-1681-ci illər** | Rusiya ilə Osmanlı dövləti arasında müharibə baş verdi. |
| **1681-ci il** | Rusiya ilə Osmanlı dövləti arasında Baxçasaray sülhü imzalandı. |
| **1682-ci il** | I Pyotr çar elan olundu. |
| **XVII əsr** | Moskva Silah palatası yaradıldı. |
| **XVII əsrin ikinci yarısı** | Vahid ümumrusiya bazarı yaranmağa başladı. |
| **1689-cu il** | Rusiya ilə Çin arasında Nerçinsk müqaviləsi imzalandı. |
| **1700-1721-ci illər** | Rusiya ilə İsveç arasında Şimal müharibəsi baş verdi. |
| **1711-ci il** | Rusiyada Boyar duması ləğv edildi və Senat yaradıldı. |
| **1721-ci il** | Rusiya ilə İsveç arasında Niştadt sülhü imzalandı. |
| **1721-ci il** | I Pyotr imperator titulunu qəbul etdi və Rusiyanın ilk imperatoru oldu. |
| **1762-ci il** | Rusiyada saray çevrilişi baş verdi. II Yekaterina Rusiya taxt-tacına sahib oldu. |
| **1768-1774-cü illər** | Rusiya ilə Osmanlı dövləti arasında müharibə baş verdi. |
| **1783-cü il** | Rusiya ilə Gürcüstan arasında Georgiyevsk müqaviləsi imzalandı. |
| **1783-cü il** | Krım xanlığı «Tavrida» adı ilə Rusiyaya ilhaq edildi. |

| | |
|---|---|
| **1787-1791-ci illər** | Rusiya ilə Osmanlı dövləti arasında müharibə baş verdi. |
| **1791-ci il** | Osmanlı imperiyası ilə Rusiya arasında Yassı sülhü imzalandı. |
| **1795-ci il** | Ağa Məhəmməd xan Qacar Şərqi Gürcüstana yürüşü edərək Tiflisi tutdu. |
| **1796-cı il** | Rusiya Valerian Zubovun başçılığı ilə Cənubi Qafqaza və Azərbaycana yürüş etdi. |

***

| | |
|---|---|
| **XVII əsrin əvvəlləri** | Meksikada, La-Pasda teatr binasının açılışı oldu. |
| **XVII əsrin əvvəlləri** | ABŞ-da Harvard Universiteti yaradıldı. |
| **XVII əsrin birinci yarısı** | Peruda yeni şəhərlər salındı. Kusko və Limada ispan üslubunda kilsələr tikildi. |
| **XVII əsr** | Görkəmli hindu memarı T.Tuypi-Tupak tərəfindən Limada teatr binası inşa edildi. |
| **XVII əsr** | A.Radişşev tərəfindən «Peterburqdan Moskvaya səyahət» əsəri yazıldı. |
| **1670-ci il** | Mexikoda ilk kütləvi teatr tamaşası göstərildi. |
| **XVII-XVIII əsrlər** | Meksikada Barokko üslubunda Milli saray inşa edildi. |
| **XVII-XVIII əsrlər** | İngilis alimi İ.Nyuton dünya cazibə qanununu kəşf etdi və alman alimi Q.Leybnitslə birlikdə ali riyaziyyatın əsasını qoydu. |
| **XVII-XVIII əsrlər** | Romada barokko üslubunda Müqəddəs Pyotr kilsəsi inşa edildi. |
| **XVIII əsrin əvvəlləri** | Rus coğrafiyaçıları Kuril adalarını və Alyaska yarımadasını kəşf etdilər. |
| **XVIII əsrin əvvəlləri** | Moskvada naviqasiya, artilleriya, mühəndislik və tibb məktəbləri açıldı. |
| **XVIII əsr** | Meksikada Potosi kilsəsi inşa olundu. |
| **XVIII əsr** | Jak Lui David «Marat» və «Brut» rəsm əsərlərini yaratı. |
| **XVIII əsr** | Niderland alimi A.Levenhuk linza ixtira etdi. |
| **XVIII əsr** | Tanınmış musiqiçi V.Motsart «Don Juan», «Fiqaronun toyu» operalarını yazdı. |
| **XVIII əsr** | N.Karamzin tərəfindən Rusiyanın çoxcildli tarixi yazıldı. |
| **XVIII əsr** | V.Bajenov tərəfindən Moskvada Paşkovun evi, M.Kazakov tərəfindən Moskva Universitetinin köhnə binası və Kremldəki senat inşa edildi. |
| **XVIII əsr** | Moskvada Lefort sarayı və Peterburqda Petropavlovski kilsəsi inşa olundu. |
| **1702-ci il** | Moskva teatrı açıldı. |
| **1715-ci il** | Rusiyada Peterburq Dəniz Akademiyası yaradıldı. |
| **1725-ci il** | Peterburq Elmlər Akademiyası fəaliyyətə başladı. |
| **1727-ci il** | Şimali Amerikada görkəmli siyasi və elm xadim B.Franklin tərəfindən Filadelfiyada elm həvəskarları klubu yaratdı. |
| **1751-ci il** | ABŞ-da teatr yaradıldı. |
| **1755-ci il** | M.Y.Lomonosovun ideyası əsasında Moskva Universitetinin əsası qoyuldu. |

# MÜNDƏRICAT

Giriş.....3

QƏDİM DÖVR

İbtidai icma quruluşu.....5
Qədim Misir.....8
Qədim Mesopotamiya.....12
Qədim Babil dövləti.....13
Qədim Finikiya.....15
Qədim Assuriya.....17
Midiya dövləti.....18
Əhəmənilər dövləti.....20
Parfiya dövləti.....21
Qədim Türklər.....22
İskit dövlətləri.....22
Böyük Hun dövləti.....24
Qədim Çin.....26
Hindistan.....28
Qədim Yunanıstan.....31
Makedoniya imperiyası.....41
Qədim Roma.....44

ORTA ƏSRLƏR DÖVRÜ

Qərbi Hun imperatorluğu.....59
Ağ Hun imperatorluğu.....62
I Göytürk xaqanlığı.....64
II Göytürk xaqanlığı.....66
Uyğur xaqanlığı.....67
Oğuz dövləti.....69
Avar xaqanlığı.....70
Bulqar dövləti.....71
Xəzər xaqanlığı.....73
Çin.....74
Sasanilər imperiyası.....77
Qafqaz xalqları.....79
Ərəblər. Ərəb Xilafəti.....80
Azərbaycanda və Mərkəzi Asiyada yeni dövlətlərin yaranması.....83
Böyük Səlcuq dövləti.....86
Hindistan.....89
Qızıl Ordu dövləti.....95
Hülakülər dövləti .....96
Osmanlı imperatorluğu.....97
Teymurilər imperiyası.....100

Türk və Şərq xalqlarının mədəniyyəti....................104
Frank dövləti....................109
Bizans imperiyası....................114
Slavyanlar. Rusiya....................116
Orta əsr şəhərləri. Sənətkarlıq və ticarət....................118
Xristian kilsəsi XI-XIII əsrlərdə....................120
Səlibçilərin Şərqə işğalçı yürüşləri....................122
İspaniya....................125
İtaliya....................127
Fransa....................129
İngiltərə....................133
Almaniyada reformasiya və kəndli müharibəsi....................137
Hollandiya Burjua inqilabı....................141
XIV-XVI əsrlərdə Qərbi Avropada texniki kəşflər və ixtiralar....................142
Amerika xalqları böyük coğrafi kəşflər ərəfəsində....................145
Böyük coğrafi kəşflər və müstəmləkə işğallarının başlanması....................146
Avropa və Amerika xalqlarının mədəniyyəti....................150

YENİ DÖVR

Səfəvilər imperiyası....................154
Nadir Şah Əfşar İmperiyası....................155
Qacarlar imperiyası....................156
Böyük Moğol imperiyasının parçalanması....................158
Çin....................160
Yaponiya....................163
Osmanlı imperiyası....................166
Mərkəzi Asiya xalqları. Volqaboyu, Ural və Sibir türkləri....................172
Qafqaz xalqları XVII-XVIII əsrlərdə....................175
Türk və Şərq xalqlarının mədəniyyəti....................178
İngiltərə....................181
Amerika Birləşmiş Ştatları....................191
Fransa....................200
Rusiya....................210
Avropa və Amerika xalqlarının mədəniyyəti....................215
TERMİNLƏR.................... 221
XRONOLOGİYA....................232